# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

***o n y e d d i n c ı   k i t a b***

***iyul, 1998 - oktyabr, 1998***

**AZƏRNƏŞR**

**BAKI-2006**

**BBK 66.3(5Aze)8**
**Ə 65**

**Buraxılışına məsul**

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir. B., Azərnəşr**, 2006, 528 **səh**.

Dahi şəxsiyyət, böyük siyasi və dövlət xadimi, Azərbaycan xalqının qurtuluş mübarizəsinin öndəri Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan və onun 1998-ci ilin iyul-oktyabr aylarında gündəlik iş fəaliyyəti zamanı apardığı danışıqları, keçirdiyi görüşləri, etdiyi çıxış və nitqləri özündə birləşdirən bu növbəti cilddə Azərbaycanın ictimai-siyasi həyatına, iqtisadiyyatda müsbət dəyişikliklərin əsasının qoyulmasına, dövlət idarəçiliyinin təkmilləşdirilməsi strategiyasının başlıca parametrlərinin müəyyən edilməsinə, bu müddət ərzində görülən tədbirlərin, hazırlanan proqramların ictimai-tarixi dəyərinə həsr olunmuş materiallar toplanmışdır.

Kitabda əvəzsiz, fenomen bir şəxsiyyətin və rəhbərin təşəbbüsü ilə Bakıda keçirilmiş tarixi Böyük İpək Yolunun bərpasına yönəlmiş beynəlxalq konfransda, Azərbaycan qadınlarının, müəllimlərinin,Qafqaz müsəlmanlarının qurultaylarında etdiyi dərin məzmunlu çıxış və nitqləri, bir sıra dövlətlər arasında iqtisadi, siyasi, mədəni əlaqələrin möhkəmləndirilməsindən bəhs edən materiallar təqdim olunmuşdur.

Cilddə, həmçinin Heydər Əliyevin Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimlərinə verdiyi yüksək qiymət və etdiyi tövsiyələr də öz yerini tapmışdır.

**BBK - 66.3(5Aze)8**

Ə . 0801000000 .
**M – 651(07) – 2006**

© **Azərnəşr**, 2006

## KİTABIN İÇİNDƏKİLƏR

**XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ MƏSLƏHƏTLƏŞMƏLƏRDƏ RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ BORİS PASTUXOVUN BAŞÇILIQ ETDİYİ RUSİYA FEDERASİYASI NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*29 iyul 1998-ci i*…………………………………………………………….. 8

**UKRAYNANIN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ VƏ MÜSAHİBƏ**
*29 iyul 1998-ci il*……………………………………………………………… 14

**AZƏRBAYCAN XALQ CƏBHƏSİ PARTİYASININ SƏDRİ ƏBÜLFƏZ ELÇİBƏYƏ, MÜSAVAT PARTİYASININ SƏDRİ İSA QƏMBƏRƏ AZƏRBAYCAN LİBERAL PARTİYASININ SƏDRİ LALƏ-ŞÖVKƏT HACIYEVAYA**
*4 avqust 1998-ci il*…………………………………………………………….. 30

**AZƏRBAYCAN RESPUBLİKASINDA SÖZ, FİKİR VƏ MƏLUMAT AZADLIĞININ TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA**
*6 avqust 1998-ci il*…………………………………………………………….. 32

**XALQ ARTİSTİ RASİM BALAYEVƏ**
*7 avqust 1998-ci il*…………………………………………………………….. 34

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UİLYAM C.KLİNTONA**
*9 avqust 1998-ci il*…………………………………………………………….. 35

**UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEONİD KUÇMAYA**
*9 avqust 1998-ci il*…………………………………………………………….. 36

**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN 60 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YALTA ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB**
*9 avqust 1998-ci il*……………………………………………………………. 37

**SİMFEROPOL HAVA LİMANINDA UKRAYNA VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİNİN SUALLARINA CAVAB**
*9 avqust 1998-ci il*…………………………………………………………….. 39

**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*9 avqust 1998-ci il*…………………………………………………………….. 40

**GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*9 avqust 1998-ci il*…………………………………………………………….. 41

**ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*9 avqust 1998-ci il*…………………………………………………………….. 42

**MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**

*9 avqust 1998-ci il*………………………………………………………………….. 43

**MDB-nin İCRAÇI KATİBİ BORİS BEREZOVSKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*9 avqust 1998-ci il*………………………………………………………………….. 44

**YALTADAN BAKIYA QAYIDARKƏN UKRAYNAYA SƏFƏRİN YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*10 avqust 1998-ci il*………………………………………………………………… 45

**SEÇİCİ BİRLİKLƏRİ VƏ TƏŞƏBBÜS QRUPLARININ AZƏRBAYCAN PREZİDENTİNƏ MÜRACİƏTİ İLƏ ƏLAQƏDAR RESPUBLİKA TELEVİZİYASI İLƏ BƏYANAT**
*10 avqust 1998-ci il*………………………………………………………………… 50

**AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ SARATOV VİLAYƏTİNİN HÖKUMƏT NÜMAYƏNDƏ HEYƏTİ ARASINDA DANIŞIQLAR**
*15 avqust 1998-ci il* ……………………………………………………………… 52

**DÜNYA ŞÖHRƏTLİ ÜRƏK CƏRRAHI MAYKL DEBEYKİ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*17 avqust 1998-ci il*………………………………………………………………… 54

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYERƏ**
*17 avqust 1998-ci il*………………………………………………………………… 56

**NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BİM KOKA**
*17 avqust 1998-ci il*………………………………………………………………… 57

**UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEONİD DANİLOVİÇ KUÇMAYA**
*18 avqust 1998-ci il*………………………………………………………………… 58

**AZƏRBAYCANIN ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, ELM, DİN VƏ İDMAN XADİMLƏRİNİN BÖYÜK BİR QRUPUNA «ŞÖHRƏT» ORDENLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ**
*21 avqust 1998-ci il*………………………………………………………………… 59

**RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ CƏNAB MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOVA**
*21 avqust 1998-ci il*………………………………………………………………… 72

**UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEONİD KUÇMAYA**
*22 avqust 1998-ci il*………………………………………………………………… 73

**RUSİYANIN AZƏRBAYCANDAKI YENİ SƏFARƏTXANA KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
*23 avqust 1998-ci il*………………………………………………………………… 74

**UKRAYNANIN MİLLİ BAYRAMI – MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA ÇIXIŞ**
*24 avqust 1998-ci il* ……………………………………………………………….. 76

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRES PASTRANA ARANQOYAYA**
*25 avqust 1998-ci il* ……………………………………………………………….. 78

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI ARASINDA PARTNYORLUQ MÜNASİBƏTLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA
*25 avqust 1998-ci il* ………………………………………………………………….. 79

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PETRU LUÇİNSKİYƏ
*25 avqust 1998-ci il* ………………………………………………………………….. 81

AZƏRBAYCANDA DÜNYƏVİ PEŞƏKAR TEATRIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA
*27 avqust 1998-ci il* ………………………………………………………………….. 82

AVROPA ŞURASININ BAŞ KATİBİ DANİEL TARŞİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*30 avqust 1998-ci il* ………………………………………………………………….. 85

1970-1987-ci İLLƏRDƏ AZƏRBAYCANDAN KƏNARDA ALİ TƏHSİL ALMIŞ MÜTƏXƏSSİSLƏRİN ÜMUMRESPUBLİKA TOPLANTISINDA NİTQ
*31 avqust 1998-ci il* ………………………………………………………………….. 90

«İSTİQLAL» QAZMA QURĞUSUNUN İŞƏ SALINMASINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ
*2 sentyabr 1998-ci il* ………………………………………………………………….. 97

ÇİN XALQ RESPUBLİKASININ, İSPANİYA KRALLIĞININ, POLŞANIN VƏ FİNLANDİYANIN AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRLƏRİNİN ETİMADNAMƏLƏRİNİ QƏBULETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ
*4 sentyabr 1998-ci il* ………………………………………………………………….. 101

TÜRKİYƏDƏ LAYİQ GÖRÜLDÜYÜ «DƏDƏ QORQUD», «İNSAN HAQLARI» MÜKAFATLARININ, «İPƏK YOLU» VAQFININ FƏXRİ ÜZVÜ DİPLOMUNUN VƏ MÜKAFATININ TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ
*5 sentyabr 1998-ci il* ………………………………………………………………….. 102

BAKININ BİNƏ HAVA LİMANINDA TARİXİ BÖYÜK İPƏK YOLUNUN BƏRPASI ÜZRƏ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMƏK ÜÇÜN AZƏRBAYCANA GƏLƏN DÖVLƏT BAŞÇILARININ VƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN QARŞILANMASINDAN ƏVVƏL ÖLKƏMİZİN VƏ XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ MÜXBİRLƏRİNİN SUALLARINA CAVAB
*7 sentyabr 1998-ci il* ………………………………………………………………….. 103

BAKIDA «İSR PLAZA» OFİS-OTELİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*7 sentyabr 1998-ci il* ………………………………………………………………….. 106

TARİXİ İPƏK YOLUNUN BƏRPASI ÜZRƏ BAKIDA BEYNƏLXALQ KONFRANSDA GİRİŞ SÖZÜ
*8 sentyabr 1998-ci il* ………………………………………………………………….. 108

TARİXİ İPƏK YOLUNUN BƏRPASI ÜZRƏ BEYNƏLXALQ KONFRANSDA SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA YEKUN NİTQİ
*8 sentyabr 1998-ci il* ………………………………………………………………….. 110

XALQ ŞAİRİ RƏSUL HƏMZƏTOVA

*8 sentyabr 1998-ci il* ........................................................................ 111

**BAKIDA KEÇİRİLMİŞ TARİXİ BÖYÜK İPƏK YOLUNUN BƏRPASI ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN YEKUNLARI İLƏ ƏLAQƏDAR GENİŞ MÜŞAVİRƏDƏ NİTQ**
*10 sentyabr 1998-ci il* ........................................................................ 112

**MƏŞHUR PİANOÇU, HƏMYERLİMİZ BELLA DAVİDOVİÇİN KONSERTİNDƏN SONRA ONUNLA VƏ KONSERTİN DİGƏR İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*10 sentyabr 1998-ci il* ........................................................................ **121**
.
**RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB YEVGENİ MAKSİMOVİÇ PRİMAKOVA**
*12 sentyabr 1998-ci il* ........................................................................ **122**

**XALQ ARTİSTİ ARİF MƏLİKOVA**
*12 sentyabr 1998-ci il* ........................................................................ **123**

**«AZƏRBAYCAN» QƏZETİNİN KOLLEKTİVİNƏ**
*14 sentyabr 1998-ci il* ........................................................................ **124**

**AZƏRBAYCAN QADINLARI QURULTAYINA**
*14 sentyabr 1998-ci il* ........................................................................ **125**

**AZƏRBAYCAN QADINLARININ QURULTAYINDA NİTQ**
*15 sentyabr 1998-ci il* ........................................................................ **126**

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**
*15 sentyabr 1998-ci il* ........................................................................ **133**

**BAKIDA AKADEMİK YUSİF MƏMMƏDƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*16 sentyabr 1998-ci il*........................................................................ **134**

**AZƏRBAYCANIN YƏHUDİ İCMASINA**
*16 sentyabr 1998-ci il*........................................................................ **136**

**REPRODUKTİV SAĞLAMLIQ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANSA**
*20 sentyabr 1998-ci il*........................................................................ **137**

**XALQ ARTİSTİ FİRƏNGİZ ƏHMƏDOVAYA**
*22 sentyabr 1998-ci il*........................................................................ **138**

**«UTRENNYAYA ZVEZDA» («DAN ULDUZU») – «BAKI-98» MUSİQİ BAYRAMINDA ÇIXIŞ**
*22 sentyabr 1998-ci il*........................................................................ **139**

**UNUDULMAZ ŞAİR TOFİQ BAYRAMIN BÜSTÜNÜN VƏ ONUN ADINI DAŞIYAN İSTİRAHƏT PARKININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
*24 sentyabr 1998-ci il*........................................................................ **141**

**AZƏRBAYCAN MÜƏLLİMLƏRİ QURULTAYINA**
*24 sentyabr 1998-ci il*........................................................................ **142**

**AZƏRBAYCAN MÜƏLLİMLƏRİ QURULTAYINDA NİTQ**
*25 sentyabr 1998-ci il*........................................................................ **144**

RUSİYANIN XALQ ARTİSTİ GENNADİ XAZANOVUN KONSERTİNDƏN SONRA ONUNLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*26 sentyabr 1998-ci il*......................................................................... 152

NƏRİMAN NƏRİMANOV ADINA AZƏRBAYCAN DÖVLƏT TİBB UNİVERSİTETİNİN YENİ TƏDRİS BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*28 sentyabr 1998-ci il*......................................................................... 153

TÜRKİYƏNİN «NƏRGİZ TV» KANALININ BAKI STUDİYASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*29 sentyabr 1998-ci il*......................................................................... 157

«NƏRGİZ TV»yə MÜSAHİBƏ
*29 sentyabr 1998-ci il*......................................................................... 159

«MÜASİRLİK VƏ DİNİ-MƏNƏVİ DƏYƏRLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSA
*29 sentyabr 1998-ci il*......................................................................... 161

BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA VƏ QAFQAZ MÜSƏLMANLARI QURULTAYINDA NİTQ
*30 sentyabr 1998-ci il*......................................................................... 162

BAKIDA SƏFƏRDƏ OLAN NATO-nun BAŞ KATİBİ HAVYER SOLANA İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*30 sentyabr 1998-ci il*......................................................................... 168

NATO-nun BAŞ KATİBİ HAVYER SOLANANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏKİ DANIŞIQLARDAN
*30 sentyabr 1998-ci il*......................................................................... 170

AZƏRBAYCAN RESPUBLİKASININ VƏ NATO-nun NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA YERLİ VƏ XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BİRGƏ MƏTBUAT KONFRANSI
*30 sentyabr 1998-ci il*......................................................................... 172

RESPUBLİKANIN ŞƏHƏR VƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇILARININ İŞTİRAKI İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ
*6 oktyabr 1998-ci il*........................................................................... 174

AZƏRBAYCAN MİLLİ BANKININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*6 oktyabr 1998-ci il*........................................................................... 180

QEYDLƏR........................................................................................... 186

ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ.............................................................. 211

COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ........................................................ 216

## XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ MƏSLƏHƏTLƏŞMƏLƏRDƏ RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ BORİS PASTUXOVUN BAŞÇILIQ ETDİYİ RUSİYA FEDERASİYASI NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*29 iyul 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Mən sizi ürəkdən salamlayıram. Bu gün Rusiya Federasiyasının belə mötəbər nümayəndə heyətini Azərbaycanda qəbul etmək xoşdur. Hər belə görüşün Rusiya–Azərbaycan münasibətlərində öz yeri və əhəmiyyəti var və bu cür hər bir hadisə bizə ikitərəfli münasibətləri və digər problemləri müzakirə etməyə və irəliləməyə imkan verir. Zənnimcə, razılaşarsınız ki, ümumi məqsədimiz – həm Rusiya rəhbərliyinin, həm də Azərbaycan rəhbərliyinin ümumi məqsədi münasibətlərimizin möhkəmlənməsinə və inkişaf etməsinə, əməkdaşlığımızın genişlənməsinə ardıcıl surətdə nail olmaqdır. Biz bunu öz tərəfimizdən edirik. Bu, Rusiya Federasiyası tərəfindən də edilir və sizin buraya gəlməyiniz buna sübutdur.

Boris Nikolayeviç, indi siz həm Azərbaycan üzrə, həm də bölgəmizin bir çox digər ölkələri üzrə mütəxəssissiniz. Şadam [5-6] ki, siz öz nümayəndə heyətinizin üzvləri ilə birlikdə yenə də buradasınız. Mənə dedilər ki, bu gün siz Xarici İşlər Nazirliyində, Nazirlər Kabinetində görüşlər keçirmiş, əsas məsələni müzakirə etmisiniz. Bu məsələ geniş müzakirə olunmağı və nəzərdən keçirilməyi tələb edir və mən bu fikirdəyəm ki, bunu burada etmək olar.

Mən bu ilin mart ayını xatırlayıram. Boris Nikolayeviç, onda siz öz nümayəndə heyətinizlə burada idiniz və biz çox yaxşı görüş keçirdik, yaxşı söhbət oldu, ən başlıcası isə, yaxşı nəticə əldə edildi. Biz ilk dəfə olaraq elə bir məsələ haqqında birgə bəyanat imzaladıq ki, həmin vaxtadək bu barədə aramızda əslində belə bəyanatlar olmamışdı. Ancaq indi həmin məsələnin bu istiqamətdə daha da dərinləşdirilməsindən söhbət gedir. Biz də bunun tərəfdarıyıq. Mən sizi salamlayıram və sizi dinləməyə şad olaram.

**B o r i s P a s t u x o v**: Zati-aliləri, Azərbaycan Respublikasının çox hörmətli prezidenti, əziz Heydər Əliyeviç! Sizinlə hər bir görüş bizim üçün, Rusiya nümayəndələri üçün böyük hadisədir. Mən bunu səmimiyyətlə, ürəkdən deyirəm, çünki məndə buna dair çox dəlil-sübut var. Güman edirəm ki, Sizin müdrikliyinizlə, uzaqgörənliyinizlə, olduqca böyük təcrübənizlə rövnəqlənən bugünkü söhbət də bizə irəliləməyə imkan verəcəkdir. Biz ancaq təəccüblənə bilərik ki, Siz daxili problemlər sahəsində fəal, intensiv işi coşğun xarici siyasət fəaliyyəti ilə uyğunlaşdırmaq üçün bu qədər qüvvəni haradan alırsınız.

Sizin İngiltərəyə səfərinizin gedişini biz diqqətlə izləyirdik. Bu səfərin gözəl yekunları münasibətilə Sizi təbrik etmək istəyirik. Güman edirəm ki, Sizin istər siyasi, istər iqtisadi sahədə, istərsə də, zənnimcə, insani sahədə nail olduğunuz nəticələri hətta ən nikbin ovqatlı politoloqlar da ağlına gətirə bilməzdilər. [6-7]

Demək istərdim, bugünkü gün özlüyündə bir də onunla əlamətdardır ki, biz dövlətlərimiz arasındakı böyük siyasi müqavilənin tamamilə qüvvəyə minməsinə dair ratifikasiya etimadnaməsini bir-birimizə təqdim etdik. Dövlətlərimiz arasında konsul konvensiyası da bu gündən etibarən tam şəkildə işləməyə başlayacaqdır. Onu da unutmayaq ki, Azərbaycanda 200 min nəfərdən artıq soydaşımız yaşayır və açığını deyəcəyəm, onlar, məsələn, dil ilə, cəmiyyətdəki mövqeləri ilə bağlı heç bir problemlə üzləşmədən yaşayırlar. Lakin Rusiyada da Sizin təxminən bir milyon soydaşınız, bizim qardaşlarımız yaşayır. Ona görə də bu gün tam qüvvəsi ilə işləməyə başlayan sənədlərin çox böyük sayda insanların talelərinə, həyatlarına birbaşa dəxli var.

Mən xarici işlər naziri Yevgeni Maksimoviç Primakovun, - indi o, Moskvada deyildir, Asiyaya özünün mühüm və sülhməramlı səfərini başa çatdırmaqdadır, adından minnətdarlıq sözləri ilə bərabər demək istərdim ki, biz Rusiya – Azərbaycan münasibətlərinə, bu münasibətlərin bütün cəhətlərinə bacardıqca daha böyük diqqət yetiririk.

Təəssüf ki, burada o qədər də tez-tez olmuruq. Lakin əməkdaşlığımızın prinsipial məsələləri Rusiya rəhbərliyinin və bizim xarici siyasət departamentinin diqqət mərkəzindədir. Biz məmnunluqla qeyd edə bilərik ki, xarici ticarət əlaqələri genişlənir, iqtisadi əməkdaşlıq artır, hərçənd bunu deyərkən dərhal onu da əlavə edim ki, bizim fikrimizcə, qarşılıqlı ticarətin həcmi daha böyük ola bilərdi.

Xəzər problemi dünən və bu gün görüşlərimizin və danışıqlarımızın mərkəzində olmuşdur. Demək istərdim ki, bu ilin martında burada Sizinlə o cür unudulmaz görüşümüzdən sonra biz fəallıq göstərməyi

davam etdirərək, yalnız bir şeyi – Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanı bütün Xəzəryanı dövlətlərin imzalaması mərhələsinə çıxmaqdan ötrü ümumi razılığa gəlməyi arzulamışıq. Belə güman edirik ki, [7-8] bu böyük, bütün Xəzəryanı dövlətlər üçün prinsipial əhəmiyyətə malik məsələdə ümumi razılığa nə qədər tez gəlsək, bundan hamımız qazanarıq. Xəzərin sahillərində yaşayan və çalışan adamlar da, bu bölgədəki bütün dövlətlər də qazanarlar.

Sizə qısaca onu demək istəyirəm ki, biz Xəzər dənizinin dibinin bölünməsinə münasibət məsələsində Sizin mövqeyinizlə tanış olduqdan sonra qazaxıstanlı qonşularımızla, nə gizlədim, mürəkkəb danışıqlar apardıq və nəticədə iyulun 6-da Moskvada imzalanmış sazişə nail olduq. Saziş təbiətdən istifadənin mənafeyi naminə Xəzər dənizinin şimal hissəsinin dibinin bölünməsinə aiddir.

Biz bölünmə xətti barədə, bu xəttin göstərilməsi barədə hələlik razılığa gəlməmişik, lakin bu bölünmə xəttinin göstərilməsi üzrə, çəkilməsi üzrə iş aparılarkən əsas götürüləcək prinsiplər sazişdə öz əksini tapmışdır. Biz beynəlxalq təcrübəni və praktikanı əsas götürmüşük, Xəzərdə mövcud olmuş və olan təcrübəni əsas götürmüşük. Razılığa gəlmişik ki, bölünmə xətti, əvvəla, dünyada qəbul edildiyi kimi, ədalətlilik prinsipinə və tərəflərin razılaşmalarına əsaslanmalıdır. Bu razılaşmalar isə, öz növbəsində, xüsusi halları da, məsələn, adaların, geoloji strukturların yerləşməsini, tərəflərin geoloji kəşfiyyat işlərinə çəkdikləri xərcləri də nəzərə almalıdır. Biz irəliləyərək, bu orta xəttin modifikasiyasına nail olduq. Həmin xətt əvvəlcə sahil nöqtələrindən, sahil xətlərindən eyni uzaqlıqda olan xətt kimi çəkilmişdi. Lakin o, qısaca xatırlatdığım prinsiplərin nəzərə alınması əsasında bəzi əyilmələrə, dəyişikliklərə məruz qaldı.

Biz indiki danışıqlarımızda da vurğuladıq ki, bu saziş yalnız o halda qüvvəyə minəcək ki, o, Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyada təsbit edilməli olan ümumi razılaşmaları tam dolğunluğu ilə nəzərə alsın. Amma mən hesab edirəm və qazaxlarla danışıqlarımız da bizi inandırdı [8-9] ki, mart ayında Siz diqqətimizi belə bir məsələyə yönəldəndə çox haqlı idiniz ki, ilk addımları atmaq lazımdır. Qoy bu addımlar əvvəlcə bəlkə də çox iri olmayacaq, lakin ölçülüb-biçilmiş olmalıdır. Axı irəliyə hərəkət olmadan heç nə mümkün deyildir.

On bir gün öncə biz təxminən belə bir heyətdə Tehranda olduq. Danışıqlar apardıq. Bu danışıqların yekunları birgə bəyanatda təsbit edilmişdir. Əvvəla, biz Qazaxıstanla imzaladığımız sənədə İran tərəfinin belə kəskin münasibət göstərəcəyini gözləmirdik. Biz öz mövqelərimizi izah etdik. Dedik ki, gəmiçilik sahəsində, dənizçilik, balıqçılıq sahəsində 1921-ci və 1940-cı illərdə Rusiya, Sovet İttifaqı ilə İran arasında bağlanmış sazişlər üzrə qüvvədə olmuş və zənnimizcə, qüvvədə olmaqda davam edən razılaşmaları qətiyyən pozmuruq. Amma bu sənədlərdə dənizin dibi, mineral ehtiyatlar barədə mövzular yox idi. Ona görə ki, o vaxtlar bu mövzular Xəzəryanı dövlətlərin həyatının gündəliyində indiki kimi durmamışdır.

Biz bəyanatda elə razılıq məqamlarını təsbit etdik ki, onlar İranla münasibətlərimizdə olmuşdur və indi də var. Qarşımıza İranı birtəhər sakitləşdirmək vəzifəsi qoymamışdıq. Biz Moskva danışıqlarında nədən söhbət getmişdisə, hamısını söylədik, çünki hər şey İranın nümayəndələrinə bəlli idi və burada yeni elə bir şey yoxdur.

Tehrandakı görüşlərimizin və danışıqlarımızın ikinci nəticəsi isə bundan ibarətdir ki, biz İran tərəfini inandırdıq ki, onlar öz prinsipindən, - o, Sizə yaxşı məlumdur, ya hər şeyi bölürük, ya da heç nəyi bölmürük prinsipindən əl çəkməlidirlər. Sübuta yetirdik ki, təsərrüfat fəaliyyəti naminə ən əvvəl dənizin dibində ayırıcı xətt çəkilməsi məsələsində irəliləmək lazımdır, mütləq lazımdır. Biz çox güclü hücuma məruz qaldıq, çünki onlar deyirdilər: Eybi yoxdur, biz bunu dəstəkləyərik, amma, gəlin, razılaşaq ki, hamı üçün hər şey bərabər olsun. [9-10]

Biz İran tərəfini inandırdıq ki, proqnozlaşdırılan ehtiyatları bölmək qeyri-mümkündür və bu yol bir yana aparıb çıxarmır. Bu yol münaqişələrə, bu yol vəziyyətin daha da mürəkkəbləşməsinə doğru gedir. Biz deyirdik ki, dənizin dibinin səthini bölmək gərəkdir. Söhbət onun ədalətlə bölünməsinin zəruriliyindən getdikdə, nəzərə çarpdırdıq ki, biz prinsipcə həmişə ədalət tərəfdarıyıq. Siz isə istədikləriniz – bölünsün, hər bir Xəzəryanı dövlətə bərabər hissə, 20 faiz düşsün – barədə öz təkliflərinizi verin: İndi təklif edirsiniz ki, Xəzərin mərkəzində sahildən eyni uzaqlıqda olan nöqtə tapılsın, orada xəyalən paya qoyulsun və bu payadan hər bir dövlətin sərhədlərinə doğru xətt çəkilsin və deyilsin ki, bax, bu, sizin sektorunuzdur.

Mən dedim ki, belə olan halda siz hamıdan çox qazanırsınız, lakin biz də hamıdan çox uduzuruq. Axı indi 14 faiz sizə, 16 faiz bizə, 18 faiz Azərbaycana, - mən faizin onda bir hissəsini atıram, - 22 faiz türkmənlərə, 29 faiz isə qazaxlara düşür. Gəlin razılığa gələk. Lakin mən sizə bəri başdan deyə bilərəm ki, mən Azərbaycan tərəfinin yerinə olsam, sizə heç nə ayırmaram, çünki orada kəşfiyyat işləri aparmışam, artıq orada iş görürəm, orada mənim borularım var. Elə bilirsiniz ki, bunları mən sizə hədiyyə verəcəyəm? Prinsipləri axtarıb tapın. Biz sentyabrın 1-də Moskvaya toplaşmaq barədə razılığa gəldik. Xəzərin problemləri ilə məşğul olan nazirlərin müavinləri səviyyəsində məsləhətləşmələr aparmaq və hər bir dövlətin mövqelərini bir daha tutuşdurub müqayisə etmək növbəsi indi bizimdir. İran isə, nə isə bir şey təklif edəcəkdir. İranlılar bizə deyirdilər ki, axı siz də bizi başa düşün, əgər biz Xəzərin qeyri-bərabər şəkildə bölünməsinə razılaşsaq, bunu bizdə heç vaxt ratifikasiya etməzlər.

Müxtəsəri, söhbət çətin, maraqlı oldu. Amma mənə elə gəlir ki, iranlılar Sizin təklifinizi dəstəkləyirlər. Mən həmişə, bütün paytaxtlarda deyirəm ki, Xəzər dənizində hərbi qüvvə[10-11]lər saxlanmaması barədə

təklif Heydər Əliyeviç Əliyevin təklifidir. Lakin biz onu da deyirik ki, əgər suyun sərhədləri olmayacaqsa, onda silahsızlaşdırma da təbiidir, qorumalı bir şey olmayacaq, heç kim heç nəyi pozmayacaqdır.

Mən yəqin etdim ki, iranlıların bu barədə bir qədər məlumatı vardır. Orada informasiya bir səviyyədən digər səviyyəyə çox orijinal bir yolla çatdırılır. Biz orada xəritələri açıb göstərərək, bir növ kiçik seminar, brifinq keçirərək deyirdik ki, əgər siz Rusiyanın mövqeyini bilmək istəyirsinizsə, onda biz problemin həlli yolunu belə görürük. Hər bir Xəzəryanı dövlətin təxminən 15-20 milə bərabər müəyyən nəzarət zonası olmalıdır, bu, dəniz hüququnda ərazi suları adlandırılır. Həmin ərazi zonasında hər bir dövlət tam sərhəd, gömrük, sanitariya nəzarəti həyata keçirir. 21-ci və 40-cı illərin sazişlərinin ənənələrinə sadiq qalaraq, beynəlxalq təcrübəni nəzərə alaraq hər bir dövlətin suveren balıqçılıq təsərrüfatı zonası haqqında razılığa gəlmək olardı. İndi bu zona 10 mildir. 12 millik, 20 millik zona barədə də razılığa gəlmək mümkündür. Bu, bizim necə razılığa gəlməyimizdən asılıdır.

Lakin suyun bütün səthi və qalınlığı sərbəst gəmiçiliyin ümumi vahid qaydaları naminə hamının istifadəsində olmalıdır ki, vahid ekoloji normalar və prinsiplər işləsin, bioloji mühitin vəziyyətinə nəzarətin vahid sistemi işləsin və bioloji ehtiyatların, ən əvvəl balıq ehtiyatlarının bərpasına aid birgə fonddan maliyyələşdiriləcək vahid sistem işləsin. Biz bu barədə inamla danışırdıq, çünki hesab edirdik ki, əgər sərhədlər olmasa, silahsızlaşdırma ideyasını həyata keçirmək mümkündür.

Əgər milli sektorlar olarsa, əgər dəniz milli sektorlara, əslində beş kiçik dənizə bölünərsə, onda bu milli sektorlara tam həcmdə milli yurisdiksiya şamil ediləcəkdir. Deməli, dövlətin qanunları həm gəmiçilik, həm balıq ovu, həm ekologiya, həm sərhəd rejimi sahəsində, həm də, lap istəsəniz, hava məkanından keçilməsi ilə bağlı rejim sahəsində də qüvvədə ola[11-12]caqdır. Məhdudiyyətlər olarsa, onda ərazi mübahisələrinin yaranması istisna deyildir.

O ki qaldı dənizin dibinin bölünməsinə, biz təbiətdən səmərəli istifadə edilməsi naminə şərtləşirik. Biz şərtləşirik ki, burada, necə deyərlər, ehtiyatlar yurisdiksiyası olacaqdır. Deyək ki, yatağı istismara verdik, bizi maraqlandıran nefti, qazı çıxardıq, nə olsun, onsuz da hər şey necə vardısa, eləcə də qalır. Əgər dənizin dibi ilə çəkdiyimiz bölgü sərhədi, ayırma xəttini suyun qalınlığı vasitəsilə yuxarı qaldırıb dənizin səthində, sonra da hava məkanında davam etdirsək, onda elə sərhədlər yaratmış olacağıq ki, onlar Xəzər dənizinin ümumi dəniz, dostluq dənizi olmasına yəqin ki, kömək etməyəcəkdir.

Mən bəzi siyasətçilərin bəyanatlarını şişirtmək fikrində deyiləm, amma Xəzərin o biri sahilindəki bəzi paytaxtlarda tələsik söylənilmiş fikirləri eşitmişəm: Bizim üçün başlıcası neftdir, bizim üçün başlıcası qazdır, o ki qaldı balığa və qalan hər şeyə, eybi yoxdur, dözərik, sonra bir razılığa gələrik. Biz bu fikirdəyik ki, paket halında Konvensiya qəbul etmək lazımdır, elə konvensiya ki, burada Xəzərə münasibətin ümumi prinsipləri, o cümlədən də silahsızlaşdırma prinsipi, dənizin dibinə münasibət, suyun qalınlığına münasibət öz əksini tapsın. Eyni zamanda ekologiya və bioehtiyatlarla bağlı məsələlər barəsində bütün Xəzəryanı dövlətlər tərəfindən hazırlanmış və təsdiqlənmiş saziş qəbul etmək lazımdır. Eyni zamanda gəmiçiliyə dair geniş bölmə qəbul etmək və ya onu konvensiyaya daxil etmək lazımdır. Gəmiçilik sərbəst olmalıdır. O, açıq olmalıdır ki, Xəzəryanı dövlətlərin gəmiləri Volqa vasitəsilə kakallarla başqa dənizlərə, başqa hövzələrə gedib gəlsinlər. Milli sektor bir növ bizim belə bir atalar sözünü xatırladır ki, hər monastırın öz qanunu olacaqdır. Hər bir dövlət də öz mənafeyi naminə diqqəti elə məsələlərə yönəldəcəkdir ki, hansısa üstünlüklərə malik olsun. [12-13]

Heydər Əliyeviç, bir sözlə, indi biz elə bir vəziyyətdəyik ki, Xəzəryanı beş dövlətin hamısı dənizin dibi məsələsində razılığa gəlmişdir. Əgər suyun qalınlığı məsələsində də irəliləsək, onda biz hamını qane edən razılaşmalara kifayət qədər tez bir zamanda nail ola bilərik. Cürət edib deyə bilərəm ki, ümumiyyətlə, indi daha da irəliləməyin açarı Sizdədir. Mart ayında təşəbbüs göstərərək, dənizin dibi problemlərində irəliləməyə təkan verdiyiniz kimi, indi də suyun qalınlığı və suyun səthi ilə bağlı məsələlərə müvafiq təkan versəniz, onda biz bunların hamısını, zənnimcə, axıra çatdırardıq.

Bağışlayın ki, mən çox danışdım, amma Xəzər problemi bizi o qədər cəlb edib ki, məni dayandırmasalar, özüm dayanan deyiləm. Sizə təşəkkür edirəm.

**Heydər Əliyev**: Xəzərin hüquqi statusunu müəyyənləşdirmək sahəsində görülmüş iş barəsində ətraflı məlumat verdiyinizə görə sizə təşəkkür edirəm. Mövqeyinizin açıq şərhinə görə də, həyata keçirdiyiniz böyük iş haqqında məlumata görə də sağ olun. Sizin kimi, mən də bu günü çox əlamətdar gün hesab edirəm, o mənada ki, Rusiya Federasiyası ilə Azərbaycan arasında ötən il iyulun 3-də imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqaviləyə həsr edilmiş ratifikasiya etimadnamənin mübadiləsi olmuşdur.

Sizin kimi, mən də hesab edirəm ki, bu müqavilənin böyük tarixi əhəmiyyəti var, o, bizə qarşıdakı illərdə xidmət göstərəcək və əməkdaşlığı genişləndirməkdə və möhkəmləndirməkdə kömək edəcəkdir.

Mən Sizə təşəkkür edirəm ki, Siz Azərbaycandakı rus əhalisinin vəziyyətini obyektiv surətdə və ədalətlə qiymətləndirirsiniz, məsələ burasındadır ki, bunu hərdən bəziləri təhrif etməyə çalışırlar. Bizim üçün isə Rusiya hökumətinin, dövlətinin mövqeyi vacibdir. Həmçinin təşəkkür edirəm ki, Rusiya Federasiyasının ərazisində, dediyiniz kimi, təxminən bir [13-14] milyon azərbaycanlı yaşayır və zənnimcə, normal yaşayır. Onlar bizim həmvətənlərimizdir, əksəriyyəti Rusiya vətəndaşıdır, çünki onlar Rusiyanın müxtəlif şəhərlərində, vilayətlərində artıq çoxdan yaşayırlar. Onların bir qismi isə orada müvəqqətidir, Azərbaycan

vətəndaşıdır. Bunun əhəmiyyəti yoxdur. Hər halda, onlar həmvətənlərimizdir və Rusiya ərazisində, Rusiya dövlətinin sərhədləri daxilində yaşayırlar və biz çox istəyirik ki, normal yaşasınlar. Biz çox istəyirik ki, onlar Rusiya qanunlarına hörmət etsinlər, bu qanunları pozmasınlar və özlərini həm Rusiya vətəndaşları kimi, həm də Azərbaycan millətinə mənsub şəxslər kimi layiqincə aparsınlar.

Mənim Böyük Britaniyaya səfərim barədə xoş sözlərə görə Sizə təşəkkür edirəm. Həqiqətən, səfər çox uğurlu oldu. Qeyd edim ki, orada da Rusiya yaddan çıxmadı. Siz yəqin mətbuatdan bilirsiniz ki, Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyerin iqamətgahında Xəzər dənizinin neft yataqlarından istifadə edilməsi haqqında imzalanmış müqavilələr arasında Rusiyanın Moskva Mərkəzi Yanacaq Şirkəti tərəfindən imzalanmış müqavilə də vardır və bu müqaviləni ötən il Rusiyanın energetika naziri olmuş Yuri Şafrannik imzalamışdır. Bu müqaviləni üç iri şirkət – Amerikanın «AMOKO» şirkəti, Böyük Britaniyanın «Monument Oyl ənd Qaz» şirkəti və Rusiyanın Mərkəzi Yanacaq Şirkəti imzalamışlar. Gördüyünüz kimi, hətta Böyük Britaniyada da Rusiya Azərbaycanla birlikdədir.

İndi də əsas mövzu barəsində. Mən Sizi son vaxtlar görmüş olduğunuz və indi gördüyünüz böyük iş münasibətilə təbrik etmək istəyirəm. Qeyd etmək istəyirəm ki, son vaxtlar Rusiya tərəfindən, xüsusən sizin nümayəndə heyəti tərəfindən və Boris Nikolayeviç, sizin tərəfinizdən edildiyi kimi, belə fəallıq, belə intensivlik və işə belə real yanaşma əvvəllər, ötən dörd ildə olmayıbdır. [14-15]

Əvvəllər görüşləri gah Moskvada, gah Aşqabadda, gah da Tehranda təşkil etməyə cəhd göstərilirdi. Lakin mənə elə gəlir ki, onlar qeyri-mütəşəkkil səciyyə daşıyırdı, bəzən də hətta açıq-aşkar uğursuzluğa məhkum idi, çünki açıq-aşkar destruktiv idi. İndi isə Rusiya rəhbərliyinin, Xarici İşlər Nazirliyinin və digər nazirliklərin – Yanacaq və Energetika Nazirliyinin və şübhəsiz ki, Rusiya rəhbərliyinin tutduqları mövqe, - bu, Boris Nikolayeviç, məhz sizin fəallığınız və qətiyyətiniz sayəsində mümkün olmuşdur, – hesab edirəm ki, qısa müddətdə öz nəticələrini verir.

Belə demək olar ki, biz keçmişdə çox vaxt itirmişik. Lakin bununla yanaşı, sevinmək olar ki, biz artıq indi doğru yoldayıq və Rusiya bu baxımdan təşəbbüsü özündə saxlayır. Bu, bizdə rəğbət oyadır. Məsələn, şəxsən mən bunu dəstəkləyirəm, çünki qısa müddətdə böyük iş görülmüşdür.

Bununla əlaqədar mən onu da yüksək qiymətləndirirəm ki, Siz Qazaxıstanla saziş imzalamısınız. Bu yaxşıdır, artıq ilk mühüm addımdır. Təbii ki, mən Sizin Tehranda keçirdiyiniz görüşə də, apardığınız danışıqlara da, əldə etdiyiniz nəticələrə də böyük əhəmiyyət verirəm. Bu, artıq onu göstərir ki, biz irəliləyirik. Amma, şübhəsiz ki, mən burada Bakıda, Azərbaycanda Rusiya ilə Azərbaycan arasında imzalanmış birgə bəyanatı – Xəzərin dibini sektorlara bölmək haqqında razılığa gəldiyimiz bəyanatı bütün bu prosesdə çox mühüm hesab edirəm. Bu, həmin məsələdə qarşılıqlı münasibətlərimizdə çox mühüm dönüş idi, ona görə də mən bunu xüsusilə xatırlayıram.

Əlbəttə, bu, sadə məsələ deyildir və belə düşünmək sadəlövhlük olardı ki, onu qısa müddətdə həll etmək mümkündür. Görünür, başlıcası bündan ibarətdir ki, biz irəliləməliyik, hərəkət etməliyik. Təkrar edirəm, keçmişdə belə irəliləyiş yox idi. Əvvəllər hər ağızdan bir avaz gəlirdi, müxtəlif fikirlər, müxtəlif baxışlar vardı, bəzən onlar qeyri-məqbul olurdu, [15-16] hərə öz mövqeyinin üstün olduğunu sübut etmək istəyirdi. İndi hamı sanki bir istiqamətdə gedir. Rusiya Federasiyasının və şəxsən Sizin bu məsələ ilə fəal məşğul olmağınız məmnunluq hissi doğurur. Lakin bunun nəticəsində siz, Boris Nikolayeviç, Xəzər üzrə böyük mütəxəssis oldunuz.

Mən sizi çoxdan tanıyıram, biz bir-birimizi yaxşı tanıyırıq. Mən sizi komsomolda işlədiyiniz dövrdə də, sonra Sovet İttifaqının Mətbuat Komitəsində, diplomatik işdə çalışdığınız dövrdə də tanıyırdım. Xatirimdədir, siz Danimarkada da, Əfqanıstanda da işləmisiniz, sonra bu müddət ərzində bir çox sahələrdə də işləmisiniz və üzünüzə demək olmasın, hər yerdə də çox qeyri-adi bacarıq nümayiş etdirmisiniz və çox böyük təcrübə toplamısınız. İndi görürəm ki, siz o böyük təcrübəyə, o biliklərə Xəzərin problemlərinə dair böyük biliklər və böyük təcrübə də əlavə etmisiniz.

Bu da çox mühüm işdir, çünki Xəzər dünyada nadir hövzədir, ikinci belə hövzə yoxdur. Yaxud, məsələn, qara kürü Xəzərdən başqa ayrı heç yerdə yoxdur və ya Xəzərdəki kimi uzunburun və nərə balıqları ayrı heç yerdə yoxdur və Xəzər kimi dəniz də dünyada yoxdur.

Əlbəttə, neft dünyanın bir çox dənizlərində var. Lakin bununla yanaşı, məlumdur ki, dənizin dibindən nefti ilk dəfə olaraq burada, məhz Xəzərdə çıxarmağa başlamışlar. Xəzərin belə nadir xüsusiyyətləri çoxdur. Mən keçmişdə bir dəfə demişdim ki, bir çox onilliklər ərzində Azərbaycanda, Elmlər Akademiyasında Xəzərin problemləri üzrə xüsusi institut olmuşdur. İndi bununla bizdə Coğrafiya İnstitutu məşğul olur, o vaxtlar bu iki institutu birləşdirdilər. Bir sözlə, tədqiqatçılar Xəzəri bir çox yüzilliklər ərzində öyrənmişlər və bizim XX yüzilliyimizdə də öyrənirlər. Lakin hesab edirəm ki, Xəzərin sirləri hələ açılmayıbdır. Məsələn, indiyədək heç kim bilmir ki, Xəzərin səviyyəsinin qalxması və aşağı düşməsi nə ilə bağlıdır. Bizim nəslin gözləri qarşısında, - buna elə mən [16-17] özüm də şahidəm, - Xəzərdə suyun səviyyəsi azalmış, su sahillərdən çəkilmişdir. Elə bizim dənizkənarı bulvarı, köhnə bulvarı götürək. Mən onu 1939-cu ildən tanıyıram. Bu yaxınlarda bir dəfə demişdim ki, 40-cı illərdə bilavasitə bulvarda yanalma körpüsü və çimərliklər vardı, şəhərin bütün sakinləri orada çimirdi, bundan ötrü şəhərdən kənara getmək lazım deyildi. O vaxtlar su tərtəmiz, çimərlik isə gözəl idi. Gənclik illərində mən saatlarla orada

olurdum. O vaxt ensiz bir bulvar vardı. Bulvarın indiki ikinci, üçüncü yarusu su çəkildikdən sonra torpaq tökməklə yaradılmışdır.

Xəzərdə suyun nə səbəbdən çəkilməsi məsələsi ilə burada, Azərbaycanda mən əvvəllər də, 1969-cu ildə Azərbaycanın rəhbəri olduqdan sonra da çox məşğul olmuşam, Moskvada da çoxları məşğul idi. Deyirdilər ki, görünür, Qaraboğaz-Qolda çoxlu buxarlanma gedir və buna görə də su oraya axır. Odur ki, Qaraboğaz-Qolun qabağını kəsdilər, yəqin ki, bunu çoxları xatırlayır. Bəs nə üçün kəsdilər? Ona görə ki, Xəzərin suyu oraya axmasın və bundan sonra guya Xəzərdə suyun səviyyəsi sabitləşəcəkdir. Amma sonra su çoxalmağa başladı. Mən uzun illər ərzində Azərbaycanda olmadım və 1993-cü ildə gəldikdə, - bundan əvvəl 1990-cı ildə ilk dəfə gəlmişdim, - əlbəttə, dərhal bulvara getdim və gördüm ki, bir vaxtlar yaratdıqlarımızın hamısı dağılmışdır, hamısı batıb yox olmuşdur. Özü də təkcə bulvarda yox, həm də bütün sahil boyunca. Təkcə bizim sahildə yox, həm də digər Xəzəryanı ölkələrin sahillərində. İndi isə su yenidən çəkilir. Ona görə də heç kəs deyə bilməz ki, suyun qalxması və çəkilməsi nədəndir, heç kəs deyə bilməz, heç bir alim demir, sübut etməmişdir. Bütün bunlar fərziyyələrdir və bu fərziyyələr doğru çıxmır.

Bununla vaxtınızı almaq istəmirəm, lakin bu sözlərimlə sadəcə olaraq demək istəyirəm ki, Xəzər dənizi nadir, mürəkkəb dənizdir və şübhəsiz, Xəzərin problemlərini də birdən-birə həll etmək mümkün deyildir. Elə indinin özündə [17-18] gedən danışıqlar da, ola bilsin, orada və ya burada dərhal nəticələr vermir. Bu, heç kəsi təəccübləndirməməlidir. Məsələn, mən bunu tamamilə təbii hal sayıram.

Mən belə başa düşdüm ki, indi Sizin Qazaxıstanla, İranla danışıqlarınız, - doğrudur, Siz Türkmənistanın mövqeyi barədə heç nə demədiniz, görünür, hələ orada olmayıbsınız, yaxud da hələ macal tapmamısınız, - ona gətirib çıxarmışdır ki, Xəzərin dibini sektorlara bölmək barədə, demək olar, razılıq var. Biz lap əvvəldən bu termini işlətmişik. Əlbəttə, onu biz düşünüb tapmamışıq. O, çoxdan, hələ Sovetlər İttifaqında düşünülüb tapılmışdır və biz bu termini işlədirik. Bu, artıq tərəqqidir, böyük tərəqqidir. Bu, bir çox məsələləri aradan götürmüşdür.

Digər məsələlərə – gəmiçilik, balıq ovu, ekologiya məsələlərinə gəldikdə, əlbəttə, onlar mühüm məsələlərdir və Xəzər dənizinin dibindən neft və qaz çıxarılmasından heç də az əhəmiyyətli deyildir. Biz bunlara eyni dərəcədə maraq göstəririk. Hərçənd, qeyd etdiyimiz kimi, Xəzər dənizində bizim sektor ədalətli hesab etdiyiniz xətt daxilində 18 faizə bərabərdir. Lakin bununla yanaşı, məsələn, Azərbaycan Xəzər dənizinin balıq ehtiyatlarını inkişaf etdirmək məsələlərində çox mühüm yer tutur. Axı bizdə balıqyetişdirmə zavodları var. Bir vaxtlar belə bir problem vardı ki, - 70-ci illərdə mən bununla da çox məşğul olurdum, - Xəzərdə balıqların qiymətli növlərinin miqdarı azalır. Bu məsələ Moskvada müzakirə olunurdu, mən bu məsələlərin müzakirəsində iştirak edirdim. Yenə təkrar edirəm, Xəzəryanı beş ölkə var, bütün Xəzəryanı ölkələr arasında Azərbaycan və Rusiya elə dövlətlərdir ki, onların əsas şəhərləri Xəzərin sahilində yerləşmişdir. Azərbaycanın paytaxtı – Bakı şəhəri Xəzərin lap sahilindədir. Elə bunun özü Xəzər dənizinə münasibətimizi bəri başdan müəyyənləşdirir. Rusiyanın da Xəzərdə çox böyük limanı var, bu Həştərxandır. Lakin o, heç də təkcə liman deyildir. Rusi[18-19]yanın ən iri çaylarından biri olan Volqa Xəzər dənizinə tökülür. Qazaxıstan da böyük sahilboyu zolağa malikdir və indi onun bu cür sektoral prinsip üzrə öz sektorunda daha böyük hissəsi var. Amma bu sahilboyu zolaqda iri şəhərlər yoxdur – Aktau limanı da 50-ci və ya 60-cı illərdə yaradılmışdır.

Türkmənistan da mühüm limana malikdir. Əvvəllər o, Krasnovodsk adlanırdı, indi isə Türkmənbaşı adlanır. Lakin o, Türkmənistanın əsas hissəsindən, paytaxtdan elə uzaqdır ki, Türkmənistanda Xəzəri bizdə, Azərbaycanda olduğu kimi hiss etmirlər.

Yaxud götürək İranı – onun İran körfəzinə, oradan isə dünya okeanına çıxışı var. Bu yaxın vaxtlaradək Xəzərin sularında, Xəzər sahilində yerləşən Ənzəli, Nouşəhr limanlarında və digər limanlarda İranın şahın yaxtasından və kiçik qayıqlardan başqa, əslində gəmiləri yox idi.

Bakı Xəzərlə həmişə daha çox məşğul olmuşdur. İş elə gətirmişdir ki, burada balıq yetişdirmə zavodları var. Biz hələ Sovetlər İttifaqının tərkibində olarkən Xəzərdə qiymətli balıq növlərinin qorunub saxlanması və artırılması məsələlərini çox tez-tez müzakirə edirdik. Təkrar edirəm, Azərbaycan Xəzərin problemləri ilə başqa ölkələrə nisbətən həmişə daha çox məşğul olmuşdur. Sovetlər İttifaqı dövründə də Moskva Xəzərdə öz missiyasını məhz Bakı vasitəsilə həyata keçirirdi.

Xəzər Gəmiçilik İdarəsinə gəldikdə isə, onun qərargahı həmişə Bakıda yerləşmişdir, filiallar isə Həştərxanda, Krasnovodskda olmuşdur. Bütün yükdaşımalar məhz Bakıda həyata keçirilirdi. Sovetlər İttifaqı dövründə ilk bərə keçidi də Bakı – Krasnovodsk keçidi olmuşdur. Bu, indiyədək mövcud olan çox mühüm nəqliyyat xəttidir.

Bu mühüm məqamları xatırlatmaqla demək istəyirəm ki, biz keçmişdə də Xəzər dənizinin problemləri ilə – həm gəmiçilik, həm balıq ovu, həm də ekologiya problemləri ilə fəal məşğul olurduq. Məsələn, Xəzər dənizinin ekoloji təmizliyinə [19-20] həmişə böyük əhəmiyyət verərək, dəfələrlə yoxlamalar təşkil etmişdik və Sumqayıtdakı kimya zavodlarımızın zəhərli maddələrinin dənizə axıdılmasına görə adamları cəzalandırmışdıq, nə qədər təmizləyici qurğular yaratmışdıq.

Mənə elə gəlir ki, Xəzərin ekoloji təmizliyinə, onun balıq ehtiyatlarının artırılmasına ümumi səylərlə qayğı göstərmək lazımdır.

Mən bunu alqışlayıram ki, siz İranla birgə sənədlərdə Xəzərin silahsızlaşdırılması barədə müddəanı da təsbit etmisiniz. Ötən dəfə mən bunu etməyi Sizdən mart ayında xahiş etmişdim. Amma onda mənim xahişim yerinə yetirilmədi. Bu gün Siz mənim Xəzər dənizini silahsızlaşdırmağın təşəbbüskarı olmağımı qeyd etdiniz və buna görə Sizə təşəkkürümü bildirirəm. Mən bunu mart ayında biz Sizinlə görüşəndə də demişdim, xahiş etmişdim ki, bu, birgə sənədimizdə təsbit olunsun. Ancaq onda bu təklif dəstəklənmədi. İndi Siz bunu etdiniz. Bu, çox yaxşıdır. Mən bunu alqışlayıram.

Sözün qısası, Boris Nikolayeviç, hörmətli dostlar, mən hesab edirəm ki, biz bu məsələdə irəliləyirik. Artıq bunun özü müsbət haldır və mən bu fikirdəyəm ki, biz irəliləməliyik və bu məsələnin tamamilə həll edilməsinə nail olmalıyıq. Bunu indi də edə bilərik, bir müddətdən sonra da, bunun əhəmiyyəti yoxdur. Başlıcası budur ki, düzgün xətt götürmüşük, düzgün istiqamətdə gedirik. Hesab edirəm ki, siz xarici işlər naziri və Baş nazir ilə görüşərkən qarşılıqlı anlaşmaya nail olmadığınız məsələlər barəsində indi biz daha konkret surətdə fikir mübadiləsi apara bilərik. [20]

## UKRAYNANIN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ VƏ MÜSAHİBƏ

*Prezident sarayı*

*29 iyul 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Mən sizi səmimiyyətlə salamlayıram və sizinlə Bakıda görüşməkdən çox məmnunam. Bilirəm ki, siz artıq üçüncü gündür Azərbaycandasınız. Mən bu hadisəyə, Ukraynanın kütləvi informasiya vasitələrinin belə mötəbər heyətinin ölkəmizə gəlməsinə şadam.

Ukrayna ilə Azərbaycan arasında dostcasına, xoş münasibətlər yaranmışdır. Bu münasibətlər keçmiş vaxtlarda da səmimi, yaxşı olmuşdur. Ölkələrimiz müstəqil dövlətlər olduqdan sonra bu münasibətlər keyfiyyətcə başqa xarakter aldı. Şadam ki, Azərbaycan Ukrayna ilə sıx əməkdaşlıq edir.

Bilirsiniz ki, Ukrayna prezidenti, hörmətli Leonid Daniloviç Kuçma Azərbaycanda rəsmi səfərdə olmuşdur. Bundan sonra mənim Ukraynaya rəsmi səfərim oldu. Dövlətlərimiz, hökumətlərimiz arasında bir çox sənədlər, o cümlədən Ukrayna ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Hesab edirəm ki, ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq üçün kifayət qədər normativ-hüquqi baza yaranmışdır. Kiyevdə Azərbaycan səfirliyi, Azərbaycanda Ukrayna səfirliyi fəaliyyət göstərir və biz dövlətlərarası münasibətlərimizi yüksək qiymətləndiririk. [21-22]

Biz prezident Leonid Daniloviç Kuçma ilə beynəlxalq təşkilatlarda, MDB dövlətləri başçılarının iclaslarında, beynəlxalq konfranslarda tez-tez görüşürük və bu zaman fikir mübadiləsi edirik. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin dövlət, hökumət başçılarının bu yaxınlarda Ukraynada, Yaltada görüşü keçirildi. Mən bu görüşdə iştirak edirdim. Biz Yaltada, Forosda görüşdük, sonra prezident Kuçma ilə mənim aramda ayrıca görüş oldu. Bundan tezliklə sonra biz Qazaxıstanın yeni paytaxtında – Astanada görüşdük. Bir sözlə, kifayət qədər tez-tez, yaxın ünsiyyətdə oluruq, ən başlıcası isə, bu, səmimi, mehriban və dostluq ünsiyyətidir.

Şadam ki, beynəlxalq həyatın, demək olar, bütün məsələləri barəsində mövqelərimiz, yəni Ukrayna ilə Azərbaycanın mövqeləri uyğun gəlir. Bizim mövqelərimiz MDB dövlətləri başçılarının görüşlərində də üst-üstə düşür. Azərbaycanda xoşa gələn, o cümlədən mənim xoşuma gələn budur ki, Ukrayna öz müstəqilliyini, azadlığını, sərbəstliyini ardıcıl surətdə qoruyur. Biz də bu cür siyasət aparırıq. Bu, ona görə vacibdir ki, lap bu yaxınlaradək biz hamımız bir dövlətin – Sovetlər İttifaqının tərkibində idik, bu dövlət dağıldıqdan sonra öz müstəqilliyimizi əldə etdik. Elə qüvvələr var ki, onlar Sovetlər İttifaqının dağılmasına təəssüflənirlər; elə qüvvələr var ki, onlar Sovetlər İttifaqının bəlkə də hələ bərpa olunacağına ümid edirlər; bir qədər başqa yöndə düşünən qüvvələr də var. Mən prezident Leonid Daniloviç Kuçmanın mövqeyinə bələdəm, o da mənim mövqeyimi bilir. Bizim mövqeyimiz isə belədir ki, biz xalqımızın milli azadlıq, dövlət müstəqilliyi əldə etməsini yüksək qiymətləndiririk. Biz öz müstəqilliyimizi, öz suverenliyimizi ardıcıl surətdə möhkəmləndiririk. Ukraynanın, xüsusən onun prezidenti Leonid Kuçmanın mövqeyi bu baxımdan da bizə yaxşı təsir bağışlayır.

Əlbəttə, bizim həm siyasi, həm iqtisadi, həm də sosial problemlərimiz çoxdur və bunlar MDB-nin digər ölkələrinin [22-23] üzləşdikləri problemlərlə, demək olar, oxşardır. Biz Ukraynada baş verən hadisələri, prosesləri izləyirik. Mən şəxsən ürəkdən istəyirəm ki, Ukrayna xalqı keçid dövrünün çətinliklərini mümkün qədər tez aradan qaldırsın, islahatların həyata keçirilməsində əməli nəticələrə nail ola, iqtisadi artımı və xalqın, əhalinin həyat səviyyəsinin yüksəlişini təmin edə bilsin.

Biz özümüz bu istiqamətdə fəal işləyirik. Lakin bizi MDB-nin bəzi ölkələrindən fərqləndirən problemlərimiz var. Yəni biz qonşu Ermənistanla hərbi münaqişə vəziyyətindəyik. Bu məsələnin tarixi sizə yəqin ki, məlumdur və ümidvaram ki, burada olarkən bu barədə daha çox şey öyrənmisiniz. Bununla belə, qısaca danışmaq istəyirəm.

Bu münaqişə 1988-ci ildə, həm Azərbaycan, həm də Ermənistan müttəfiq respublikalar kimi Sovetlər İttifaqına daxil olduğu vaxt meydana çıxmışdır. Münaqişə Ermənistanın, daha doğrusu, ola bilsin ki, onun separatçı, ekstremist qüvvələrinin təşəbbüsü ilə baş vermişdir. Onlar 1988-ci ildə yaranmış vəziyyətdən istifadə etməyi və Dağlıq Qarabağı – Azərbaycan ərazisinin bir hissəsini qoparmaq və onu Ermənistana birləşdirməyi qərara almışdılar.

Bilirsiniz ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibində muxtar vilayətdir, ərazicə Azərbaycanın mərkəzi hissəsində yerləşən kiçik bir vilayətdir. Orada həm ermənilər, həm də azərbaycanlılar yaşayırdı. Münaqişəyə qədər orada təqribən 180 min və ya 170 min adam yaşayırdı ki, bunun da 30 faizi azərbaycanlılar, 70 faizi ermənilər idi. Bura əzəli Azərbaycan torpağıdır. Ölkəmiz ərazicə böyük deyil, bununla belə, o, çoxmillətli ölkədir. Burada çoxlu rus, ukraynalı, erməni və gürcü, bir

çox digər millətlərin nümayəndələri yaşayırdı və indi də yaşayır. Ermənilər həm Bakıda, həm də digər şəhərlərdə, o cümlədən Dağlıq Qarabağda yaşayırdılar. Bakıda ermənilər Dağlıq Qarabağdakından çox idi. Dağlıq Qara[23-24]bağda maksimum 120 min, Bakıda isə bundan xeyli çox erməni yaşayırdı. Bu, təbii idi, belə ki, Azərbaycan, Qafqazın digər respublikaları kimi, çoxmillətli ölkədir.

Bax, bu münaqişə də o vaxt baş verdi. Separatçıların, ekstremistlərin fəaliyyətinin kökünü kəsmək üçün təsirli tədbirlər görülmədiyindən bu münaqişə genişləndi, müharibə vəziyyəti, özü də genişmiqyaslı müharibə vəziyyəti aldı. Həm Azərbaycan, həm də Ermənistan tərəfdən çoxlu adam həlak oldu. Bu, mahiyyətcə Ermənistan ilə Azərbaycan arasında gedən müharibədir. 1994-cü ilin mayında Ermənistan və Azərbaycan arasında atəşkəs haqqında sazişə nail olduq. Həmin vaxtdan hərbi əməliyyatlar yoxdur, atəşkəs rejimi mövcuddur və biz ona əməl edirik. Bununla belə, bu rejim müharibənin olmaması, qan tökülməməsi baxımından bizim üçün müsbət haldırsa, digər tərəfdən, Ermənistan silahlı birləşmələri müxtəlif səbəblərdən Azərbaycan ərazisinin 20 faizini işğal edə bilmişlər. Dağlıq Qarabağdan əlavə, onun ətrafındakı, yalnız azərbaycanlıların məskunlaşdığı rayonlar da işğal edilmişdir. Bütün azərbaycanlılar işğal olunmuş torpaqlardan qovulmuşdur. Bu isə Dağlıq Qarabağdan və onun ətrafındakı inzibati rayonlardan olan bir milyondan çox insan deməkdir. Bu torpaqlar işğal altındadır. Oradan qovulmuş vətəndaşlarımız, azərbaycanlılar isə respublikamızın müxtəlif bölgələrində, əksəriyyəti çadırlarda, bəziləri yataqxanalarda, inzibati binalarda, hətta dəmiryol vaqonlarında və digər yerlərdə, çətin şəraitdə yaşayırlar.

Təbii ki, bütün bunlar respublikamızın həyatını çətinləşdirir, başlıcası isə, adamlar çox ağır şəraitdədir. Bununla belə, biz hesab edirik ki, atəşin dayandırılması hərbi əməliyyatların davam etdirilməsindən daha yaxşıdır.

Biz münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün danışıqlar aparırıq. Danışıqları ATƏT-in Minsk qrupunun iştirakı ilə aparırıq. Onun həmsədrləri Rusiya, Amerika [24-25] Birləşmiş Ştatları və Fransadır. Danışıqlar gedir. Rusiya Federasiyasının nümayəndə heyəti bu gün burada oldu. O, hələ Bakıdadır. Mən sizinlə görüşdən əvvəl onunla görüşdüm. Nümayəndə heyətinə xarici işlər nazirinin birinci müavini Boris Nikolayeviç Pastuxov başçılıq edir. Biz Xəzər dənizinin statusu məsələlərini və eyni zamanda Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair danışıqlar prosesinin vəziyyətini müzakirə etdik. Ümidvarıq ki, danışıqlar yolu ilə, ATƏT-in Minsk qrupunun köməyi ilə münaqişənin tamamilə aradan qaldırılmasına nail olmaq mümkündür.

Dəfələrlə bəyan etmişik ki, biz sülhsevər ölkəyik, bütün qonşularla, o cümlədən də Ermənistanla dinc şəraitdə yaşamaq istəyirik, hərçənd ki, hərbi münaqişə xalqımıza, respublikamıza çox böyük mənəvi və maddi ziyan vurmuşdur. Lakin biz bunu əsas götürürük ki, biz, - mən Ermənistanı və Azərbaycanı nəzərdə tuturam, - taleyin hökmü ilə yanaşı yaşamalıyıq və bundan heç yana qaça bilmərik. Buna görə də həm bizim üçün, həm də, zənnimcə, erməni xalqı üçün ən yaxşısı sülhdür, möhkəm, uzunsürən sülhdür.

Daxili vəziyyətimizə gəldikdə, dövlət müstəqilliyi əldə etdikdən sonra daxili vəziyyətimiz də sadə olmamışdır. Burada daxili siyasi vəziyyət çox mürəkkəb idi. Bu, bir tərəfdən, Ermənistanla hərbi münaqişə ilə, digər tərəfdən, buradakı müxtəlif qüvvələrin – siyasi və qeyri-siyasi qüvvələrin əməlləri ilə bağlı idi. Məsələ burasındadır ki, müharibə gedərkən burada bir çox müxtəlif silahlı qruplar yaranmışdı, onlardan bəziləri qanunsuz silahlı dəstələrə və hətta quldur dəstələrinə çevrilmişdi. Nə vaxtsa onlardan kimsə Azərbaycan torpaqlarının müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmişdi, sonra isə onların əksəriyyəti bundan uzaqlaşaraq, yaranmış vəziyyətdən öz şəxsi tələblərini ödəmək, öz şəxsi məqsədlərinə çatmaq üçün istifadə edirdi. Bu məqsədlər isə müxtəlif idi – bəziləri bu yolla sadəcə olaraq varlanmaq, digərləri müəyyən [25-26] vəzifələri tutmaq istəyirdilər, başqaları isə həddini aşaraq hakimiyyət iddiasında olmuşdu. Buna görə də təxminən 1988-ci ildən etibarən, Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra, xüsusən 1989-cu ildən Azərbaycanda daxili siyasi vəziyyət mürəkkəbləşdi. Bu mürəkkəblik müəyyən dərəcədə qanunauyğun səciyyə daşıyırdı, belə ki, Dağlıq Qarabağ məsələsində Azərbaycana qarşı ədalətsizlik göstərildiyinə görə adamlar hakimiyyətdən, mərkəzdən, Moskvadan, yerli hakimiyyətdən narazı idilər. Digər tərəfdən, ayrı-ayrı qüvvələr bu vəziyyətdən öz siyasi iddialarına, şəxsi tamahkarlıq məqsədlərinə nail olmaq üçün istifadə etməyi qərara almışdılar.

Bütün bunlar daxili siyasi vəziyyətin daha da mürəkkəbləşməsinə doğru aparırdı. 1992-ci ildə burada hakimiyyət dəyişdi. Bundan bir neçə ay əvvəl seçilmiş prezident istefa verdi. Sonra hakimiyyətə Xalq Cəbhəsi gəldi. O, burada əsas qüvvə idi və müxtəlif ünsürlərdən ibarət idi. Lakin bir ildən sonra bu yeni hakimiyyət, yeni hökumət də yaranmış vəziyyətə tab gətirə bilmədi. Qanunsuz hərbi dəstələr, müxtəlif qanunsuz silahlı qruplar və başqaları hakimiyyət uğrunda mübarizəni davam etdirirdilər və 1993-cü ilin iyun ayında Azərbaycanda son dərəcə mürəkkəb vəziyyət yarandı.

Yeri gəlmişkən, o illərdə Azərbaycan vaxtın, demək olar, əksər hissəsində fövqəladə vəziyyət şəraitində yaşamışdır və onu iqtidar müxtəlif səbəblərə görə, ən çox da daxili siyasi vəziyyət mürəkkəb olduğuna görə elan etmişdi. 1993-cü ildə də fövqəladə vəziyyət elan olundu, qadağan saatı qoyuldu. Buna baxmayaraq, ayrı-ayrı silahlı qruplar, qüvvələr prezidentə qarşı, Xalq Cəbhəsinin hakimiyyətinə qarşı çıxış edirdilər. Onlar Azərbaycanın müxtəlif rayonlarında idi. Bütün bunlar vətəndaş müharibəsi vəziyyətinə gətirib çıxardı.

Bunun nəticəsində 1993-cü ilin iyun ayında, demək olar, bütün rəhbərlər, yəni parlamentin sədri, Baş nazir istefa verdilər. Onda mən Bakıya dəvət edildim. Bunadək, yəni [26-27] 1990-cı ildə mən Moskvadan çıxıb getdikdən sonra Naxçıvan Muxtar Respublikasında yaşayırdım. Mən Bakıya dəvət olundum, məndən vəziyyəti normallaşdırmaqda kömək göstərməyi xahiş etdilər. Mən parlamentin sədri seçildim. İki gündən sonra prezident Əbülfəz Elçibəy öz vəzifəsini tərk etdi və buradan gizlincə çıxıb getdi, dağ kəndində yaşadı. Buna görə də mən ölkəyə tək rəhbərlik etməli oldum.

1993-cü ilin oktyabrında prezident seçkiləri oldu. Mən prezident seçildim.

1993-cü il Azərbaycanın həyatında ən mürəkkəb il idi. Biz bir çox çətinlikləri dəf etdik, Azərbaycanın parçalanmasına, müxtəlif bölgələrə ayrılmasına yol vermədik. Biz bu meylin qarşısını aldıq. Lakin vəziyyət mürəkkəb olaraq qalırdı.

Dediyim kimi, 1994-cü ilin mayında biz atəşkəs haqqında sazişə nail olduq. Ancaq vəziyyət mürəkkəb olaraq qalırdı. Bayaq dediyim kimi, təəssüf ki, respublikanın daxilində bu cür yoluxucu xəstəlik yaranmışdı. Bütün bu müxtəlif qruplar, - onlardan bəziləri özlərini siyasi qüvvə hesab edirdilər, - hakimiyyət hərisliyi xəstəliyi ilə çox yoluxmuşdu. 1993-cü ildə vəziyyətin gərginliyini müəyyən dərəcədə zəiflətməyimizə, 1994-cü ildə hərbi əməliyyatların dayandırılmasına baxmayaraq, 1994-cü ilin oktyabrında silahlı çevrilişə cəhd göstərildi. Lakin biz bu cəhdin qarşısını ala bildik. Yəqin ki, bu, sizə məlumdur. 1995-ci ilin martında yeni cəhd göstərildi. 1994-cü ildə bu işə o vaxtlar Baş nazir işləyən adam, 1995-ci ilin martında isə Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsi başçılıq edirdi. Bu dəstədə böyük silahlı qüvvə vardı. Görünür, nə vaxtsa, onlar öz məqsədlərinə xidmət etmiş, sonra mənən pozulmuş, iri cinayətlərlə məşğul olmuş və o yerə gəlib çıxmışdılar ki, Azərbaycanda bütün hakimiyyəti öz əllərinə almaq istəmişdilər. Biz bunu da dəf etdik.

Sonralar burada vəziyyəti mürəkkəbləşdirmək üçün başqa cəhdlər də göstərildi. Məsələn, prezident Leonid Daniloviç [27-28] Kuçma Azərbaycanda rəsmi səfərdə olarkən mən onu maşında hava limanına yola salmağa gedərkən biz çətinliklə sağ qaldıq. Biz hava limanına yola düşməzdən bir gün əvvəl körpünün altından böyük miqdarda partlayıcı maddələr aşkara çıxarıldı. Onları buraya XTPD-nin bəzi iştirakçıları xüsusi olaraq qoymuşdular. Biz bu adamları 1995-ci ilin martında pərən-pərən salmışdıq, lakin onlar müxtəlif yerlərdə gizlənmişdilər. Onlar körpünü partlatmaq və təbii olaraq, bizi məhv etmək istəyirdilər. Ancaq bizim hüquq mühafizə orqanları sayıq idilər, onlar həmin partlayıcı maddələri vaxtında götürdülər. Sonra bununla məşğul olmuş və bunu peşəkarlıqla etmiş adamların böyük bir qrupunu üzə çıxardıq. Bombanın partlaması nəinki adamların həlak olması ilə qurtarardı, həm də ətrafda çox şeyə ziyan dəyərdi.

Digər terror aktı cəhdləri də olmuşdur. Bir sözlə, bu baxımdan bizim vəziyyətimiz MDB-nin digər ölkələrindəki, o cümlədən də Ukraynadakı vəziyyətdən yəqin ki, fərqlənir.

Gördüyünüz kimi, indi biz vəziyyəti sabitləşdirə bilmişik. Bu, 1995-ci ilin təxminən axırlarından baş verməyə başlamışdır. İndi daxili siyasi vəziyyət tamamilə sabit, normaldır.

İqtisadiyyatda, Ukrayna kimi, biz də keçid dövrünü yaşayırıq, islahatlar aparırıq, özü də cəsarətlə aparırıq və onlar yaxşı nəticələr verir. Bu nəticələr ondadır ki, digər MDB ölkələrində olduğu kimi, bizdə də təxminən 1990-1991-ci ildən başlayaraq istehsalın, iqtisadiyyatın səviyyəsi aşağı düşürdü. Bizdə sənaye və kənd təsərrüfatı istehsalı, daxili ümumi məhsul istehsalı hər il 20-25 faiz azalırdı. 1996-cı ildə biz bu azalmanı dayandırıb, bir qədər artıma nail ola bildik. 1997-ci ildə artımı təmin etdik, daxili ümumi məhsul 5,8 faiz çoxaldı, sənaye istehsalı bir qədər – 0,3 faiz artdı. Halbuki əvvəlki illərdə azalma 20-25 faiz idi. 1998-ci ilin yarısı ərzində daxili ümumi məhsul istehsalı 9 faiz, sənaye istehsalı 0,7 faiz artmışdır. Yəni artım davam edir. [28-29]

Digər ölkələrdəki kimi, bizdə də inflyasiya çox böyük idi. Maliyyə sistemi çox ağır vəziyyətə düşmüşdü. 1994-cü ildə inflyasiya 1600 faiz təşkil edirdi. 1995-ci ildə biz onu xeyli azalda bildik, inflyasiya təxminən 80 faiz oldu. 1996-cı ildə isə inflyasiyanı tamamilə dayandırdıq – inflyasiya 0,4 faiz təşkil etdi. 1997-ci ildə o, həmin səviyyədə, indiki səviyyədə qaldı. Yəni bizdə inflyasiya yoxdur.

Milli valyutamızın – manatın məzənnəsi sabitdir. Son illərdə o, dollara nisbətdə hətta bir qədər möhkəmlənmişdir.

İqtisadi islahatlarımız iqtisadiyyatın bütün sahələrini əhatə edir. Bizdə mülkiyyət özəlləşdirilir. Biz iqtisadi islahatların aparılmasında bir qədər gecikdik, lakin bu, bəlkə də işin xeyrinə oldu. Biz ona görə gecikdik ki, sizə dediyim kimi, 1993, 1994-cü illərdə bu məsələ ilə məşğul olmağa imkanımız yox idi. Biz onunla 1995-ci ildə fəal məşğul olmağa başladıq. Bu, işin ona görə xeyrinə oldu ki, biz digər MDB ölkələrinin təcrübəsini öyrəndik. Müsbət cəhətləri əxz etməyə çalışırıq, Rusiyada, başqa ölkələrdə buraxılmış səhvlərə yol verməməyə çalışırıq. Belə gecikmə bu baxımdan da faydalı ola bilər.

Bununla yanaşı, əgər biz vaxt baxımından gecikmişdiksə, sürət məsələsində digər ölkələrin səviyyəsində gedirik. Kiçik müəssisələri və orta müəssisələrin bir hissəsini özəlləşdirmək işi başa çatmışdır. İndi orta müəssisələrin qalan hissəsinin, habelə iri müəssisələrin özəlləşdirilməsi mərhələsi başlamışdır.

Biz aqrar sektorda çox köklü tədbirlər həyata keçiririk. Zənnimcə, biz torpaq islahatı, aqrar sektorda islahatlar haqqında mühüm qanunlar qəbul etmişik. Bu qanunlar aqrar sektordakı hər şeyi əhatə edir, başlıcası budur ki, biz torpağı satmaq, almaq, vermək hüququ ilə xüsusi mülkiyyətə veririk. Heyvandarlıq sektorunu tamamilə özəlləşdirmişik. Bu da çox yaxşı nəticələr verir. Bu nəticələr bundan ibarətdir ki,

bütün növlərdən mal-qaranın sayı, heyvandarlıq məhsulları istehsalı artmışdır. Keçmişdə, respublikamız Sovet İttifaqının tərki[29-30]bində olarkən respublikamız heyvandarlıq məhsulları baxımından dotasiya alan respublika idi. Yadınızda olar, o vaxtlar ümumittifaq ixtisaslaşması, əmək bölgüsü vardı. Məsələn, Azərbaycan öz torpaqlarından Sovetlər İttifaqında pambığa, üzümə, tərəvəzə ümumi tələbatın ödənilməsi üçün bu məhsulların istehsalından ötrü istifadə edirdi. Ona görə bizdə heyvandarlıq məhsullarının istehsalı əhalimizin tələbatını heç vaxt ödəmirdi. Bizə Rusiyadan, Ukraynadan və Belorusiyadan ət, yağ, süd gətirirdilər. Biz isə Rusiyaya və digər respublikalara çoxlu pambıq, başqa məhsullar göndərirdik.

İndi biz özümüzü təmin edirik. Biz özümüzü çörəklə də, yəni taxılla da təmin etmirdik. Biz onu iki dəfə az istehsal edirdik, çünki digər kənd təsərrüfatı məhsulları becərirdik. İndi isə taxıl istehsalını artırmışıq. Respublika özünü çörəklə, habelə heyvandarlıq məhsulları ilə təmin edir. Heyvandarlıq sektorunda özəlləşdirmə, bax belə, çox böyük rol oynamışdır. Torpağın xüsusi mülkiyyətə verilməsinin taxıl və digər kənd təsərrüfatı məhsullarının artırılmasında çox böyük rolu olmuşdur. Bu proses hələ başa çatmayıb, davam edir. Lakin bu, çox yaxşı prosesdir.

İri sənaye müəssisələrinin məsələsi isə, əlbəttə ki, çətindir. Həm sizdə, həm də bizdə metallurgiya, maşınqayırma, müdafiə sənayesinin iri müəssisələri var. Onların məsələsi mürəkkəbdir. Lakin biz burada da onlardan istifadə yollarını axtarıb tapırıq. Bizdə neft və qaz xammalına əsaslanan böyük kimya kompleksi var. Axı bütün bu iri sənaye müəssisələri ittifaq sənayesinə inteqrasiya olunmuşdu və biz istehsal etdiklərimizi Rusiyaya, Ukraynaya göndərirdik, oradan nə isə alırdıq. İndi,bir tərəfdən, bu inteqrasiya əlaqələri kəsilib, digər tərəfdən, vaxtilə istehsal edilən məhsula indi ehtiyac yoxdur. Məsələn, hərbi sənaye kompleksinin məhsulu indi lazım deyildir. Biz çoxlu neft-mədən avadanlığı istehsal edir, ittifaqın ona olan ehtiyacının 70 faizini təmin edirdik. Neft-[30-31]mədən avadanlığını Sovetlər İttifaqının hər yerinə göndərirdik. Bir çox zavodlarımız bu sahə ilə bağlıdır. İndi isə orada lazım deyil, belə ki, Rusiyanın hərbi sənaye kompleksinin bir çox zavodları neft-mədən avadanlığı istehsalına keçirilmişdir. İndi bunu özləri istehsal edir və bizim avadanlığımıza ehtiyacları yoxdur. Belə problemlər çoxdur, lakin biz onları tədricən həll edirik.

İslahatlarımız həm də xarici ticarətə, bütövlükdə iqtisadiyyatın liberallaşdırılmasına, azad sahibkarlığa aiddir. Bütün bunlar öz nəticələrini verir. Biz xarici sərmayə axınını təmin etmək üçün ölkəmizin qapılarını bütün dünyaya açmışıq və burada da yaxşı nəticələrimiz var. Xüsusilə, energetika sahəsində. Bilirsiniz ki, Azərbaycan neft ölkəsi, özü də qədim neft diyarıdır. Keçmişdə Azərbaycan çoxlu neft çıxarır və demək olar, bütün Sovetlər İttifaqını təmin edirdi. Həm ötən əsrdə, həm də bu əsrin əvvəlində Qərb ölkələrinə çoxlu neft ixrac olunurdu. Dəniz yataqlarının sənaye üsulu ilə istismarına dünyada ilk dəfə Azərbaycanda başlanmışdır. Biz çox şey etmişik və böyük təcrübəmiz var. Bununla belə, bizim böyük neft və qaz ehtiyatlarımız var. Onlar həm quruda, həm də Xəzər dənizindədir.

Son dörd ildə biz Qərb ölkələrinin-Avropanın, Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, Türkiyənin, habelə İranın, Səudiyyə Ərəbistanının iri neft şirkətləri ilə çoxlu müqavilələr imzalamışıq. Mən bu yaxınlarda Böyük Britaniyada rəsmi səfərdə oldum, orada Böyük Britaniya, ABŞ və Rusiya şirkətləri ilə üç iri müqavilə imzaladıq. 15 belə müqavilə imzalanmışdır. İlk müqavilələr artıq həyata keçirilir, öz nəticələrini verir. Ötən il birinci müqavilənin reallaşdırılması nəticəsində ilk nefti aldıq, onu ixrac edirik. Başlıcası isə odur ki, bu müqavilələrin həyata keçirilməsi Azərbaycana böyük sərmayə axınını təmin edir. Məsələn, mən Londonda olarkən dedim ki, son üç ildə təkcə «Britiş Petroleum» Azərbaycana 260 [31-32] milyon dollar sərmayə qoymuşdur. Bütünlükdə isə, ötən il 1,5 milyard dollar xarici sərmayə qoyulmuşdur.

İndi Azərbaycanda çoxlu xarici şirkət işləyir. Londona səfərimin son günlərini yenidən xatırlayıram. Böyük Britaniya böyük iftixarla deyir ki, Azərbaycanda 100-dən artıq Britaniya şirkəti işləyir. Bizdə Amerika Birləşmiş Ştatlarından, digər ölkələrdən də təxminən bir o qədər şirkət var. Bütün bunlar Azərbaycanda tamam başqa bir vəziyyət yaradır.

Dövlət quruculuğu baxımından biz demokratik, hüquqi dövlət quruculuğu xətti götürmüşük, bu işi aparırıq, demokratiya, siyasi plüralizm prinsiplərini bərqərar edirik, şəxsiyyət, insan hüquqlarının müdafiəsi ilə fəal məşğul oluruq və buna böyük əhəmiyyət veririk. Milliyyətindən, dini etiqadından asılı olmayaraq bütün vətəndaşların azadlığı hər cəhətdən təmin edilmişdir. Dediyim kimi, ölkəmiz çoxmillətli ölkədir. Bizdə azərbaycanlılarla yanaşı, ruslar, ukraynalılar, yəhudilər də yaşayırlar. Biz bunu respublikamızın ləyaqəti hesab edirik.

Azərbaycanda siyasi həyat fəaldır, mətbuat azaddır, çoxlu, bəlkə də lazım olduğundan da çox qəzet nəşr edilir. Bilirsiniz ki, yeni olan hər şey həmişə cəlbedicidir. Bizdə pulu olan adamlar öz qəzetlərini nəşr etdirirlər. Nə demək olar, bir halda ki, xoşları gəlir, qoy nəşr etdirsinlər. Onları kimsə oxuyur, kimsə də oxumur. Mətbuat azaddır. Zənnimcə, bizdə iki, yaxud üç qəzet dövlətin nəzarəti altındadır.

Siyasi partiyalar yaranmışdır. Doğrudur, onlar böyük deyil, kiçikdirlər. Böyük partiyalar da var. Elə partiyalar var ki, onlar indiki iqtidarı dəstəkləyirlər. Elə partiyalar, - onlar əksəriyyəti təşkil edir, - var ki, indiki iqtidara qarşı müxalifətdədirlər. Üzvlərinin sayına görə ən böyük partiya Yeni Azərbaycan Partiyasıdır. İqtidara sədaqətli olan başqa partiyalar da var. Müxalifətdə olan partiyalar da mövcuddur, bəziləri hətta radikal müxalifətdədir. Lakin bütün bunları biz normal hal, Azərbaycanın bugünkü reallığı

hesab edirik. Çünki de[32-33]mokratiya, əlbəttə, müxtəlif rəylərin, mövqelərin, baxışların olması deməkdir və bu, müxalifətsiz qeyri-mümkündür. Belə düşünürəm ki, siz həyatımızın bu hissəsi ilə də tanış oldunuz.

Oktyabrın 11-də bizdə prezident seçkiləri təyin edilmişdir. Prezidentin səlahiyyətlərinin müddəti oktyabrın 10-da bitir, oktyabrın 11-nə prezident seçkiləri təyin olunmuşdur. Seçkiqabağı kampaniya başlanmışdır. Siz yəqin bunu da hiss etdiniz.

Mən bu fikirdəyəm ki, apardığımız iqtisadi islahatlar, müxtəlif ölkələrlə, xarici şirkətlərlə, firmalarla iqtisadi əməkdaşlığa dair bizdə olan və artıq həyata keçirilən böyük layihələr Azərbaycan iqtisadiyyatının inkişafını və, təbii olaraq, əhalinin, bütün xalqın həyat səviyyəsinin yüksəlişini ardıcıl surətdə təmin edəcəkdir. Əminəm ki, biz keçid dövrünün bütün problemlərini uğurla aradan qaldıracağıq və demokratik, hüquqi, dünyəvi dövlət kimi Azərbaycan müvəffəqiyyətlə inkişaf edəcəkdir.

Ermənistanla münaqişə və Azərbaycanın ərazi bütövlüyünün pozulması, Dağlıq Qarabağ məsələsi böyük bir problem olaraq qalır. Ümidvaram ki, ATƏT-in Minsk qrupunun və digər beynəlxalq təşkilatların iştirak etdikləri danışıqlar yolu ilə biz bu məsələnin də həllinə nail olacağıq. Əbədi olaraq düşmənçilik etmək, vuruşmaq olmaz. Elə bir çox ölkələrin tarixinin təcrübəsi də göstərir ki, öz aralarında on illərlə müharibə aparan ölkələr sonra sülhə gəlirlər və yaxşı, çox etibarlı sülh yaranır. Belə düşünürəm ki, bölgəmizdə, Qafqazda da, o cümlədən Ermənistanla Azərbaycan arasında da sülh yaratmaq və mehriban qonşuluq şəraitində yaşamaq mümkün olacaqdır.

Respublikamıza, bizim problemlərimizə diqqət yetirdiyinizə, ölkəmizə gəldiyinizə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Mən bunu çox yüksək qiymətləndirirəm. İctimaiyyətimiz də çox yüksək qiymətləndirir. Bu isə sizə Azərbay[33-34]canın bugünkü həyatı, ölkəmizdə baş verən bütün siyasi, iqtisadi, ictimai proseslər haqqında mötəbər məlumat almağa imkan verəcəkdir. Əmin ola biləcəksiniz ki, biz demokratiya, tərəqqi yolu ilə gedirik.

Bir də deyirəm, Ukrayna bizim üçün etibarlı tərəfdaşdır və bizim münasibətlərimiz strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu münasibətlərin daha da inkişaf etməsi, möhkəmlənməsi və dərinləşməsi üçün biz öz tərəfimizdən hər şeyi edəcəyik.

Siz yəqin hiss etmisiniz ki, bizim xalqımız Ukraynaya, Ukrayna xalqına, onun dilinə, mədəniyyətinə böyük rəğbətlə yanaşır. Bu da respublikamızın xarakterik xüsusiyyətidir və münasibətlərimizin inkişafında bizə kömək edir.

Məlumdur ki, Ukraynada azərbaycanlılar da yaşayır. Onların sayı barədə dəqiq məlumat yoxdur. Ancaq bizim səfirliyimiz bildirir ki, onlar az qala bir neçə yüz min nəfərdir. Onların əksəriyyəti Ukrayna vətəndaşıdır. Biz bunu müsbət hal kimi qiymətləndiririk. İnsanın istədiyi yerdə yaşamaq hüququ olmalıdır. İnsan azad olmalıdır. Azad insan isə harada yaşamağı özü seçir. Əgər minlərlə azərbaycanlıya Ukraynada yaşamaq xoşdursa və onlar orada yaxşı şərait tapırlarsa, yaşayırlarsa və bu ölkənin həyatında iştirak edirlərsə, bunu yalnız təşviq etmək və dəstəkləmək lazımdır. Ancaq eyni zamanda, bu, Ukrayna ilə Azərbaycan arasında, Ukrayna və Azərbaycan xalqları arasında əlaqələri möhkəmləndirmək üçün də yaxşı vasitədir.

Buraya səfər etdiyinizə, respublikamıza diqqət göstərdiyinizə görə sizə bir daha təşəkkür etmək istəyirəm.

Yəqin ki, sizin suallarınız var, məndən nə isə soruşmaq istəyirsiniz. Tam sərbəstsiniz, istədiyiniz sualı verə bilərsiniz.

**V i k t o r V o r o n i n** *(Ukrayna prezidentinin müşaviri)*: Ukrayna prezidenti Leonid Daniloviç Kuçma mənə tapşırmışdır ki, onun ən yaxşı arzularını sizə çatdırım. Sizin aranızdakı şəxsi dostluq münasibətləri sayəsində Ukrayna – [34-35] Azərbaycan münasibətləri möhkəmlənir və inkişaf edir. Biz əminik ki, bu münasibətlər gələcəkdə də fəal surətdə inkişaf edəcəkdir.

Heydər Əliyeviç, burada heç bir şişirtmə yoxdur. Siz XX əsrin ən böyük siyasi xadimləri sırasına mənsubsunuz. Sizin şəxsiyyətinizə bütün dünyada və xüsusilə Ukraynada çox böyük maraq var. Ukraynanın elektron və mətbu kütləvi informasiya vasitələrinin aparıcı jurnalistlərindən ibarət mötəbər nümayəndə heyəti bunu sübut edir. Onlar Kiyevə qayıdandan sonra müstəqil Azərbaycanın inkişafı, 1993-cü ildən bəri keçdiyi çətin yol, Sizin rəhbərliyiniz altında ölkənizin qazandığı uğurlar haqqında obyektiv məlumat verəcəklər.

Biz gördük ki, Azərbaycanın çətinlikləri az deyildir. Qaçqın düşərgəsi bizə yaman təsir elədi. Yurd-yuvalarından qovulmuş bu insanların faciəsini gözümüzlə gördük və umidvarıq ki, onlar doğma yerlərinə qayıdacaq və normal həyat sürəcəklər.

Hörmətli Heydər Əliyeviç, ölkələrimiz arasında strateji tərəfdaşlığın inkişafına sizin necə böyük töhfə verdiyinizi bilirik. Ukraynanın ən yüksək ordeni – Yaroslav Mudrı ordeni ilə təltif olunmağınız bunun ən yaxşı təsdiqidir. Sizdən savayı, bu ordenlə müstəqil dövlətlərin başçılarından çox az adam təltif olunmuşdur. Biz əminik ki, 1998-ci ilin oktyabrından sonra Siz ölkələrimiz arasında münasibətlərin daha da inkişafı, onların strateji tərəfdaşlığının möhkəmləndirilməsi üçün hər şeyi edəcəksiniz.

Azərbaycan Respublikasının Ukraynadakı səfirliyinin cənab İbrahimovun rəhbərliyi ilə necə səmərəli işlədiyini, Ukraynanın Azərbaycandakı səfirliyinin cənab Aleksenkonun rəhbərliyi ilə necə səmərəli

işlədiyini biz bilirik. Diplomatlar bütün sahələrdə əməkdaşlığın genişlənməsinə çox böyük töhfə verirlər. Şübhə yoxdur ki, bu proses bundan sonra da davam edəcəkdir. [35-36]

Biz Sizə Azərbaycan Respublikasının həyatının müxtəlif sahələri haqqında çox məzmunlu və dolğun məlumata görə təşəkkür edirik və müxbirlərimizin suallarına cavab versəniz minnətdar olardıq.

**V a d i m  D o l q a n o v** *(Ukrayna Milli Televiziyasının birinci vitse-prezidenti)*: **Hörmətli cənab prezident, bizim üçün vaxt tapdığınıza görə Sizə, habelə bu səfər üçün çox iş görmüş olan cənab İbrahimova təşəkkür etmək istəyirəm. Mənim suallarım münasibətlərimiz üçün ən mühüm sahəyə – iqtisadiyyata aiddir. Ukrayna və Azərbaycan müstəqillik elan etdikləri vaxtdan bəri siyasi münasibətlərimiz yəqin ki, çox yaxşı səviyyədədir. Buna Sizin bu gün xatırladığınız yüksək səviyyəli səfərlər də sübutdur. Mən istərdim ki, Siz Ukrayna ilə iqtisadi münasibətlərin indiki vəziyyətini və inkişaf perspektivlərini şərh edəsiniz. Özü də ABŞ tərəfindən dəstək baxımından. Bu dəstək Xəzər neftinin nəqlində Ukraynanın iştirak etmək niyyəti ilə əlaqədar ötən həftə ifadə olunmuşdur.**

**İkinci sual indi, burada meydana gəldi: biz bilirik ki, bu gün Rusiya ilə danışıqlar aparılır. Mən belə başa düşürəm ki, söhbət Xəzərdə sərhədin delimitasiyasından gedir. İstərdim ki, Siz bu danışıqların gedişini şərh edəsiniz. Sağ olun.**

**H e y d ə r  Ə l i y e v**: Siz məsələlərin böyük bir dairəsini əhatə etdiniz. Bu, çox vaxt aparacaqdır. Buna baxmayaraq, cavab verəcəyəm.

Ukrayna ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq inkişafdadır. Deyə bilmərəm ki, biz çox şeyə nail olmuşuq. Lakin hər halda, əmtəə dövriyyəsinin həcmi artır və biz Ukrayna ilə iqtisadi əməkdaşlığı bacardıqca daha çox inkişaf etdirmək istəyirik.

Ukrayna Xəzər neftinə böyük maraq göstərir. Hələlik isə Xəzər nefti Azərbaycanın xarici şirkətlərlə birliklə çıxardığı neftdən ibarətdir. Neftin ixracı üçün biz bir neft kəməri çəkmişik və indi nefti bu kəmər vasitəsilə Qara dəniz [36-37] sahilindəki Novorossiysk limanına ixrac edirik. Biz ikinci boru kəmərini Bakıdan Cürcüstanın Qara dəniz sahilindəki Supsa limanına çəkirik. Ukrayna bu boru kəmərinə, habelə indi çox müvəffəqiyyətlə işləyən nəqliyyat dəhlizinə böyük maraq göstərir. Bu dəhliz Mərkəzi Asiyanı Avropa ilə Türkmənistan, Krasnovodsk, indiki Türkmənbaşı limanı, Azərbaycan limanı vasitəsilə birləşdirir və dəmir yolu ilə Gürcüstanın Poti limanınadək və oradan da Avropayadək gedir. Ukrayna buna çox böyük maraq göstərir. Yeri gəlmişkən, Ukrayna bu sazişə qoşulmuşdur. Leonid Daniloviç Kuçma mənə dedi ki, onlar Poti və Odessadakı İliçevsk limanları arasında bərə keçidi yaratmışlar. Bu bərə keçidi hələlik yük avtomobillərinin daşınmasını təmin edir, ancaq dəmir yol bərəsi də inşa etmək planlaşdırılır. Ona görə ki, Xəzərin şərq və qərb sahillərini – Bakını və Krasnovodsku birləşdirən bərə ilə Mərkəzi Asiyadan Bakıyadək dəmir yol qatarları daşınır, buradan isə biz onları Potiyə çatdırırıq.

Avropa Birliyi TRASEKA proqramının həyata keçirilməsi ilə fəal məşğul olur. Söhbət Böyük İpək Yolunun bərpasından gedir. Böyük İpək Yolu məsələsi qarşıya ciddi proqram kimi çıxmışdır. Biz Avropa Birliyi ilə birlikdə bu məsələnin təşkilatçısı olduq. Sentyabrın 7-8-də Bakıda beynəlxalq konfrans keçiriləcəkdir. İpək yolu üstündə yerləşən 34 və ya 35 ölkənin dövlət və hökumət başçıları bu konfransa dəvət edilmişlər. Onların arasında Ukrayna da var.

İpək yolu Yaponiyadan başlayaraq, Çindən, Mərkəzi Asiyadan – Qazaxıstan, Özbəkistan və Türkmənistandan, Xəzər dənizindən, Qafqazdan keçir. Sonra o qollara ayrılır: bir xətt Ukraynaya, oradan isə Şimaladək gedə bilər, başqa xətt, - ona Rumıniya böyük maraq göstərir, - Dunay çayı ilə Avropanın şimal hissəsinədək, Bolqarıstana, Türkiyəyə gedəcəkdir. Bir sözlə, bu nəqliyyat xətti artıq yaradılmışdır, işləyir. Ona Ukrayna da qoşulmuşdur. [37-38]

Sentyabrın 7-8-də biz İpək yolunun bərpasına dair sənədlər qəbul edəcəyik. Əlbəttə, Mərkəzi Asiya ilə ən qısa nəqliyyat yolundan istifadə etməyə Ukraynanın da imkanı olacaqdır. Axı Mərkəzi Asiyadan Avropaya məsafə şimal tərəfdən yol ilə müqayisədə 2000 kilometr qısalır. Təbii ki, yükdaşımalarının xərcləri də azalır.

Bütün bunlar elə bir şərait yaradır ki, bu şəraitdə Ukrayna Azərbaycanla da, Mərkəzi Asiya ölkələri ilə də, Qafqazla, Gürcüstanla da iqtisadi cəhətdən fəal əməkdaşlıq edə bilər. Zənnimcə, böyük perspektivlər var.

Boru kəmərindən danışdım. Ukrayna Bakı-Supsa marşrutuna böyük maraq göstərir. Bu neft kəməri gələn ilin əvvəllərində hazır olacaq və biz bu istiqamətdə də neft ixrac edəcəyik. Ukrayna gələcəkdə Xəzərin enerji ehtiyatlarından, o cümlədən Xəzər dənizinin neftindən, Azərbaycan neftindən istifadə etmək üçün real imkana malikdir. Hesab edirəm ki, iqtisadi inkişafın imkanları barədə danışmalı olsaq, bu, çox mühüm məsələdir.

İndi də Xəzərə dair danışıqlar haqqında. 1994-cü ilin sentyabrında 11 iri neft şirkəti konsorsiumda birləşdi və biz indi «Əsrin müqaviləsi» adlandırılan ilk müqaviləni imzaladıq. O vaxtlar bu müqaviləyə müxtəlif münasibətlər göstərilirdi. Müqaviləni imzalamış olan şirkətlər, ölkələr, əlbəttə, perspektiv barəsində düşünürdülər, bəzi digər ölkələr isə buna mənfi münasibət göstərir, qısqanclıqla yanaşırdılar. Bax, onda ortaya belə bir məsələ çıxdı ki, Xəzər dənizinin statusu yoxdur, o, əvvəllər Sovetlər İttifaqına mənsub idi. Doğrudur, cənubda İranın Xəzərə kiçik bir çıxışı var, Sovetlər İttifaqı Xəzər dənizində əslində hökmranlıq edirdi. O parçalanıb, müstəqil dövlətlər yarandıqdan, Xəzərdə beş Xəzəryanı ölkə – Rusiya,

Qazaxıstan, Türkmənistan, İran və Azərbaycan meydana gəldikdən sonra, təbii olaraq, qarşıya belə bir məsələ çıxdı: bu necə olan işdir, Azərbaycan müqavilə bağlamışdır, [38-39] digər Xəzəryanı ölkələr isə bir tərəfdə qalmışlar? Doğrudur, bu ilk müqavilədə Rusiyanın «LUKoyl» şirkəti də iştirak edir. Həmin müqavilə imzalanmazdan əvvəl Xəzər dənizinin Azərbaycan sektorunda birgə iş haqqında Rusiya və Azərbaycan hökumətləri arasında saziş imzalanmışdır.

Biz müqaviləni imzalayanda bəziləri bəyan edirdi ki, Xəzər dənizində sektorlar yoxdur, o, ümumidir, ondan hamı istifadə etməlidir. Biz isə hələ Sovetlər İttifaqı dövründə yaranmış vəziyyətə əsaslanırdıq. Bu da ondan ibarətdir ki, 1970-ci ildə, Xəzərdə neft və qaz yataqlarının işlənilməsi intensivləşəndə, Sovetlər İttifaqının Neft və Qaz Sənayesi Nazirliyi Xəzər dənizini sektorlara bölmək haqqında qərar qəbul etdi ki, Xəzərin bu və ya başqa hissəsində çıxarılan neftin hansı respublikaya aid olması bilinsin. Amma neft və qaz yataqlarının kəşfiyyatı, neftin çıxarılması ilə əsasən Azərbaycan məşğul olurdu. Xəzərdə neft və qaz hasilatı ilə məşğul olan bütün ittifaq təşkilatları da Azərbaycanda idi.

Hər halda, dənizin Azərbaycan sahillərində nə çıxarılırdısa, bu, məlum idi. Bəs sahildən uzaqda çıxarılan? Onu kimə vermək lazım idi – Türkmənistana, yoxsa Azərbaycana? Yeri gəlmişkən, Azərbaycan Türkmənistan sahillərində də neft çıxarırdı, çünki o zaman Türkmənistanın nə texnikası, nə də texnologiyası yox idi. Azərbaycanda isə bunların hamısı vardı. Elə o zaman da, 1970-ci ildə nazirlik Xəzər dənizinin sektorlara bölünməsi haqqında sərəncam və ya qərar verdi. Biz də 1994-cü ildə müqavilə imzalayarkən, onu əsas götürdük ki, hər işi öz sektorumuzda görürük. Rusiya, digər Xəzəryanı dövlətlər Xəzər dənizinin sektorlara bölünməsi prinsipini uzun müddət qəbul etmək istəmirdilər.

Amma biz öz işimizi görürdük. Sonra biz yeni müqavilələr imzaladıq. Bu ilin mart ayında Rusiya, nəhayət, qərara gəldi ki, Xəzər dənizinin dibinin sektorlara bölünməsi prinsipini qəbul etmək lazımdır. Boris Nikolayeviç Pastuxovun başçılıq [39-40] etdiyi Rusiya nümayəndə heyəti mart ayında Azərbaycanda oldu, biz saziş imzaladıq ki, Xəzər dənizinin dibi sektorlara bölünməlidir.

Sonra bu məsələdə daha da irəliləyiş oldu. Gərək ki, bu ayın əvvəlində Moskvada Xəzər dənizinin Qazaxıstan ilə Rusiya arasında orta xətt üzrə sektorlara bölünməsi haqqında Rusiya ilə Qazaxıstan arasında prezidentlər səviyyəsində saziş imzalandı. Biz bu sazişi bəyəndik.

Bu yaxınlarda Rusiya nümayəndə heyəti İranda olmuşdur. İran hələlik bu mövqe ilə o qədər də razı deyildir. Ancaq Rusiyanın nümayəndə heyəti danışıqlar aparır. Türkmənistan öz mövqeyini çox da dəqiq müəyyən etməmişdir. Hər halda, indi artıq məlumdur ki, Xəzər dənizinin mineral ehtiyatlarından, onun dibindən istifadə olunması qəti şəkildə sektor bölgüsü prinsipi üzrə həyata keçiriləcəkdir. Bu gün həmin prinsip bir daha təsdiqləndi və biz hətta razılaşdıq ki, indiki sərhədlərimizin keçdiyi xətt üzrə Xəzər dənizinin Rusiya ilə Azərbaycan arasında bölünməsi haqqında Rusiya ilə Azərbaycan arasında prezidentlər səviyyəsində saziş imzalana bilər.

Rusiya belə hesab edir ki, dənizin dibini sektorlara bölmək olar, amma su qatı kondominium prinsipi üzrə ümumi istifadədə qalmalıdır, 12 və 45 kilometrlik sahilyanı zona olmalı, dənizin qalan hissəsi balıq ovu, gəmiçilik, ekologiya və sairə üçün ümumi istifadədə olmalıdır. Azərbaycanın mövqeyi, - gərək ki, İranın da mövqeyi, - belədir ki, hər şeyi sektorlara bölmək lazımdır. Biz bu məsələdə hələlik razılığa gələ bilməmişik. Bugünkü görüşümüz də elə bu səviyyədə başa çatmışdır.

Lakin biz irəliləyirik. Əgər dörd il bundan əvvəl heç nəyi tanımırdılarsa, indi məsələnin bir hissəsi artıq həll edilmişdir. Xəzərin dibi bölünür. Bax, beləcə tədricən irəliləyəcəyik.

Bu, asan iş deyildir. Xəzər dənizinin Yer kürəsinin yaşı qədər yaşı var. Amma Xəzər dənizinin məsələsi ilə heç kim [40-41] heç vaxt məşğul olmayıbdır. Bu birincisi. Keçmişdə bu dəniz, demək olar, tamamilə çar Rusiyasına mənsub idi, bundan əvvəl isə onun daha kimlərə mənsub olduğu məlum deyildir. Sonralar Xəzər Sovetlər İttifaqına mənsub olmuşdur. İndi burada beş Xəzəryanı dövlət var. Biz Xəzər dənizindən necə istifadə edilməsi və onun hansı statusa malik olması barədə danışıb razılığa gəlməliyik. Belə düşünürəm ki, razılığa gələcəyik. Sağ olun.

**M a r i n a  O s t a p e n k o** (*«İnterfaks» agentliyi, Ukrayna*) : **Mənim sualım Xəzər neftinin nəqli barədədir. İqtisadi və ya siyasi amil neftin nəqlinin bu və ya digər variantı barədə Azərbaycanın qərarına nə dərəcədə təsir göstərə bilər? İkinci sual: Siz prezidentimizi onun 60 illiyi münasibətilə təbrik etmək üçün avqustun 9-da Krıma gələcəksinizmi?**

**H e y d ə r Ə l i y e v**: Məmnuniyyətlə gələcəyəm.

Bilirsinizmi, neftin Xəzər hövzəsindən nəqli məsələsi indi bütün dünyada müzakirə edilir. Buna Qərb ölkələri, bölgəmizin ölkələri, Amerika Birləşmiş Ştatları böyük maraq göstərirlər. Azərbaycanda ABŞ-ın, Avropanın və dünyanın digər ölkələrinin kifayət qədər böyük miqdarda çox iri neft şirkətləri işləyir. Onu da bilirəm ki, Qazaxıstan sektorunda dünyanın bir çox ən iri şirkətləri işləməyə başlayırlar. Onlar Türkmənistan sektorunda da işləməyə başlayırlar. Odur ki, bu işin XXI əsrdə böyük perspektivi var.

Biz belə bir mövqedə dururuq ki, neftin Xəzər dənizindən nəqli üçün çoxlu marşrut olmalıdır. Məsələn, Azərbaycanda biz özümüz üç marşrut müəyyən etmişik: Birincisi – Bakı – Novorossiysk, ikincisi – Bakı–Supsa və üçüncüsü, biz bunu əsas neft kəməri hesab edirik, - Bakı – Ceyhan. Ceyhan Türkiyənin Aralıq dənizində limandır. Söhbət Bakıdan başlayaraq Gürcüstan və Türkiyə ərazisi ilə Aralıq dənizi sahilinə neft

kəməri çəkilməsindən gedir. Doğrudur, bu məsələ hələ qəti olaraq həll edilməyibdir. Lakin bu məsələdə bizim möv[41-42]qeyimiz qəti olaraq müəyyən edilmişdir və biz onun haqqında danışdıq.

Ancaq başqa variantlar da ola bilər. Əlbəttə, bu zaman məsələnin ən əvvəl kommersiya tərəfi nəzərə alınır. Hərə istəyir ki, hər şey iqtisadi cəhətdən sərfəli olsun. Təbii ki, təhlükəsizlik məsələlərində də. Məsələnin siyasi tərəfi də buradan irəli gəlir.

Lakin söhbət təkcə neftin Azərbaycan sektorundan deyil, həm də bütün Xəzər hövzəsindən ixrac edilməsindən gedir. Söhbət hətta Qazaxıstan və Türkmənistan ərazilərində çıxarılan neftin və qazın nəqlindən də gedir. Orada quruda neft və qazın böyük ehtiyatları var. Məsələn, Qazaxıstan ərazisində «Tengiz» yatağı var, burada Amerikanın «Şevron» şirkəti Qazaxıstanın Neft Şirkəti ilə birlikdə ildə təqribən 8 milyon ton neft çıxarır. Onlar bu nefti Rusiya ərazisi ilə ixrac edirlər. Bizə müraciət etdilər. Biz öz razılığımızı verdik və ötən il bu nefti Qazaxıstanın Aktau limanından tankerlərlə Bakı limanına gətirdik və buradan dəmir yolu ilə Qara dənizin Batumi limanına göndərdik. Beləliklə, biz bir milyon tondan artıq neft daşımışıq. Yəqin ki, bu il iki milyon ton olacaqdır. Onlar bu neftin miqdarını bundan sonra da artırmaq istəyirlər. Güman ki, bu, təxminən 10 milyon ton olacaqdır. Buna görə də bu nefti boru kəməri ilə Qərbə ixrac etmək üçün Qazaxıstandan Bakıya neft kəməri çəkilməsi haqqında Qazaxıstan ilə Azərbaycan arasında saziş var.

Qərb ölkələri, xüsusən ABŞ türkmən qazının Qərbə Türkmənistan – Bakı qaz kəməri ilə nəql olunmasını təklif edirlər. ABŞ-ın nümayəndə heyəti hazırda Türkmənistandadır və bu məsələ ilə məşğul olur. O, Türkiyədə də olmuşdur, sabah bizə, Azərbaycana gələcəkdir.

Buna görə də belə düşünürəm ki, marşrutlar çox olacaqdır. Biz marşrutların variantlarının çox olmasına tərəfdarıq. [42-43]

O ki qaldı Leonid Daniloviç Kuçmanın 60 illiyinə, mənim ona böyük hörmətim var. Mən onu mütləq təbrik edəcəyəm və onun 60 illiyinə həsr olunmuş şənliklərdə çox fəal iştirak edəcəyəm.

K o n s t a n t i n Q u s a r o v *(Ukrayna Nazirlər Kabinetinin mətbuat xidməti)*: **Heydər Əliyeviç, Sizin kimi misilsiz, nadir, əfsanəvi taleyə malik adamları barmaqla saymaq olar. Məlumdur ki, prezidentlər arasında şəxsi münasibətlər dövlətlərarası münasibətlərin səviyyəsinə aşkar təsir göstərir. Siz Leonid Daniloviçlə öz şəxsi mehriban, səmimi münasibətlərinizi necə səciyyələndirərdiniz? Bu münasibətlər dövlətlərarası münasibətlərin səviyyəsinə nə kimi təsir göstərir?**

H e y d ə r Ə l i y e v: Şəxsi münasibətlərin təşəkkül tapması üçün əsas olmalıdır. Bu, xüsusi olaraq yaradıla bilməz. Mənimlə prezident Leonid Kuçma arasında münasibətlərimiz ən əvvəl beynəlxalq həyatın bir çox məsələləri barəsində, MDB-də həll edilən bir çox məsələlər barəsində və Qafqaz bölgəsinə, Ukraynaya, Mərkəzi Asiyaya aid bir çox məsələlər barəsində siyasi baxışlarımızın, siyasi mövqelərimizin oxşarlığı əsasında təşəkkül tapmışdır. Bu, çox mühüm amildir və bizim aramızda münasibətlərin təşəkkül tapması üçün şərait yaratmışdır.

Bundan başqa, bir-birinə insani rəğbət də olmalıdır. Xoşbəxtlikdən bizdə bu rəğbət qarşılıqlı olmuşdur. Buna görə də ona böyük hörmətlə yanaşıram. Zənnimcə, o da mənə bu cür hörmətlə yanaşır.

Fürsətdən istifadə edərək demək istəyirəm ki, sizin prezident Leonid Daniloviç Kuçma ağıllı insandır. Mən görürəm, hiss edirəm ki, o, Ukraynanın suverenliyi və müstəqilliyi mövqelərində möhkəm dayanmışdır, öz ölkəsi üçün çox işlər görmək istəyir. Hesab edirəm ki, xalqınız bunu qiymətləndirməli, onu fəal dəstəkləməli, ona kömək göstərməlidir.

Ukrayna zəngin iqtisadi potensialı, çoxlu əhalisi, geniş ərazisi olan böyük ölkədir. O, Avropanın inkişaf etmiş və [43-44] aparıcı ölkələrindən biri ola bilər. Ukrayna təbii ehtiyatlar sahəsində də, iqtisadiyyat sahəsində də, intellektual potensial sahəsində də bu cür imkanlara malikdir. Belə düşünürəm ki, Ukraynada aparılan islahatlar, prezident Leonid Daniloviç Kuçmanın qətiyyətlə həyata keçirdiyi demokratikləşdirmə xətti düzgün yoldur və bu yol Ukraynanı yüksək səviyyəyə qaldıra bilər.

Bütün bunlar məndə rəğbət doğurur və cəlbedici qüvvədir, Leonid Daniloviç Kuçma ilə mənim aramda şəxsi münasibətləri də bu qüvvə təmin edir. Mən bu münasibətləri qiymətləndirirəm və şübhəsiz, onlar dövlətlərarası münasibətlərin inkişafına müsbət təsir göstərir. Çünki bizim aramızdakı qarşılıqlı anlaşma, baxışlarımızın oxşarlığı, şəxsi münasibətlərimizi nəzərə alaraq fəal əməkdaşlıq etmək istəyi, şübhəsiz, vahid kompleks əmələ gətirir.

Axı burada müxtəlif nümayəndə heyətləri olmuşdu. Ukraynanın Baş naziri iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etmək üçün buraya iki dəfə xüsusi olaraq gəlmişdir. Bizim nümayəndə heyətləri Ukraynada olmuşlar. Hesab edirəm ki, şəxsi münasibətlərimiz çox möhkəmdir və bundan sonra da möhkəmlənəcəkdir. Sizə isə bir dost kimi məsləhət görürəm ki, prezident Leonid Daniloviç Kuçmaya daha çox kömək göstərəsiniz.

O l e q K o l e s n i k o v *(«Region» qəzeti)*: **Hörmətli cənab prezident, təəssüf ki, postsovet məkanında millətlərarası hərbi münaqişələrin arası kəsilmir. Bir çox siyasətçilər bu vəziyyəti birbaşa Qorbaçovun son illərdə yeritdiyi milli siyasətlə bağlayırlar. Bu məsələ barəsində Sizin fikrinizi bilmək istərdik.**

H e y d ə r Ə l i y e v: Postsovet məkanındakı bu münaqişələri Qorbaçovun buraxdığı kobud səhvlərlə bağlayan siyasətçilərlə razıyam. Məhz belə olmuşdur. Axı mən Qorbaçovla neçə il bir yerdə işləmişəm. O, Stavropolda, mən isə Azərbaycanda işləyərkən onunla çox yaxın əlaqədə işləmişəm. O, [44-45] Moskvada

işləyəndə, Sov.İKP MK katibi kimi kənd təsərrüfatı məsələləri ilə məşğul olanda, mən Azərbaycan KP MK-nın birinci katibi idim. Sonra, 1982-ci ilin sonunda mən Moskvaya dəvət ediləndə və Sov. İKP MK Siyasi Bürosunun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olanda, Qorbaçov da Siyasi Büronun üzvü, MK katibi idi. Biz paralel işləyirdik.

Sonralar, 1985-ci ildə biz hamımız Siyasi Büroda ona səs verdik, onu Baş katib seçdik. Lakin sonra o lovğalandı və çoxlu səhvlər buraxdı. Lakin mənə elə gəlir ki, milli siyasət məsələlərində buraxılan kobud səhvlərin nəticələri daha ağırdır. Mənim fikrimcə, o, səhv buraxmır, əksinə, bəzi şeyləri qəsdən edirdi. Əslində, elə buna görə aramızda münaqişə baş verdi. Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin günahı Qorbaçovdadır. O zaman bu, Sovetlər İttifaqında ilk münaqişə idi. O vaxta qədər heç bir münaqişə olmamışdı. Bu, ilk münaqişə idi. Sovetlər İttifaqının başçısı, birinci şəxs kimi o, 1988-ci ildə nəinki münaqişənin qarşısını almadı, aradan qaldırmadı, əksinə, onun genişlənməsinə imkan yaratdı. Mənim bunu deməyə tam əsasım var. O, 1990-cı ilin yanvarında, heç bir əsas olmadan sovet qoşunlarının iri kontingentini Bakıya, Azərbaycana yeritməklə, burada çoxlu günahsız insanları məhv etməklə, Bakı şəhərinin küçələrini qana boyamaqla cinayət törətmişdir. Siz yəqin ki, burada Şəhidlər xiyabanında – bu günahsız insanların dəfn edildiyi qəbiristanlıqda olmusunuz. O, bu cinayətə görə cəzalandırılmayıb, lakin cəzalandırılmalıdır. Bu da onun milli məsələlərdə yol verdiyi kobud səhvlərdən biridir.

O, milli psixologiyaya, milli siyasətin xüsusiyyətlərinə məhəl qoymadan elə ağılsız qərarlar qəbul etmiş və o yerə gəlmişdi ki, öz xalqlarına qarşı hərbi təcavüz etmişdi. Məgər bunu etmək olardı? [45-46]

Mən burada, Azərbaycanda işləmişəm, respublikanı yaxşı tanıyıram. Azərbaycan onsuz da qoşunla dolu idi. Burada sovet ordusunun iri hərbi birləşmələri həmişə olmuşdur. Burada çox iri 4-cü ordu, Bakı hava hücumundan müdafiə dairəsi, Xəzər Donanması, desant qoşunları – külli miqdarda qoşun var idi. Mən bunu bilirəm, çünki uzun illər Azərbaycanın rəhbəri olmuşam və bütün bu qoşun hissələrinə getmişəm. Bunlar ola-ola o, iri qoşun kontingentini, müdafiə naziri marşal Yazovu, daxili işlər naziri Bakatini, dövlət təhlükəsizliyi nazirinin birinci müavinini, başqalarını buraya göndərdi, burada qırğın törətdi. Bu da təkcə onun milli siyasətinin səhvləri deyil, cinayətdir.

Eyni şeylər sizdə də var. Siz indi Krımdakı separatizmdən əzab çəkirsiniz. Bütün bunlar da onun nəticəsidir. Bütün sonrakı münaqişələr – Gürcüstandakı Abxaz və Osetin münaqişələri, Çeçenistandakı, Dnestryanıdakı münaqişələr də Dağlıq Qarabağda baş verəndən sonra meydana çıxmışdır. Yəni, bu yoluxucu xəstəlik yayılmışdır, bunun da təqsirkarı odur.

Təkrar edirəm, bununla əlaqədar mən onunla mübahisə etdim. Məsələn, 1986-cı ildə o, bəzi respublikaların rəhbərlərini dəyişməyə başladıqda, Qazaxıstanda MK-nın birinci katibi Kunayev istefaya getməli idi. Qazaxıstan böyük respublikadır. Kunayev qazaxdır, 22 il respublikanın rəhbəri olmuşdur. İndi birdən Qorbaçov oraya Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə tamamilə kənar bir adamı – Kolbini göndərir, ona görə ki, Kolbin onun dostudur. O isə Qazaxıstanda heç vaxt yaşamayıb, işləməyibdir, üstəlik, qazax millətinə deyil, rus millətinə mənsubdur. Qazaxlar bununla necə razılaşa bilərdilər? Tələbələr küçəyə çıxıb etiraz etdikdə onlara qarşı qoşun, milis qüvvələri yeritdilər, sonra da «qazax millətçiliyi» haqqında qərar qəbul etdilər. Nə qazax millətçiliyidir? Xalq sadəcə olaraq öz iradəsini bildirmişdir. [46-47]

Bu, 1986-cı ildə olmuşdur. Onda mən hələ Siyasi Büronun üzvü idim və bu məsələdə onun mövqeyi ilə razı olmadığımı bildirdim. Aramızda təkcə bunun üstündə deyil, başqa məsələlər üstündə də böyük münaqişə oldu. Əslinə qalsa, məhz buna görə mən 1987-ci ilin axırlarında Siyasi Büroda bütün vəzifələrdən uzaqlaşdırıldım. Əlbəttə, mən istefa verdim, orada isə elan etdilər: Öz xahişi ilə, səhhəti ilə əlaqədar. Mən istefa verdikdən, Siyasi Bürodan getdikdən təxminən bir ay sonra Dağlıq Qarabağda münaqişə haqqında ilk xəbərlər gəldi və bəzi erməni xadimləri bəyan etdilər ki, «Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır». Mən istefa verdikdən bir ay sonra professor Aqanbeqyan Parisdə «Humanite» qəzetinə bildirdi ki, «Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır», habelə «bu məsələ Qorbaçovla razılaşdırılmışdır». Odur ki, bütün bu məsələlərdə Qorbaçov çox təqsirkardır. Sağ olun.

**İ r i n a  B a l a l i n a** (*«Komsomolskaya pravda na Ukraine» qəzeti*): **Cənab prezident, kənardan dəstəklənən daxili müxalifət Azərbaycan üçün və onun beynəlxalq əlaqələri üçün nə ilə təhlükəlidir?**

**H e y d ə r  Ə l i y e v**: Deməzdim ki, nə iləsə təhlükəlidir. Hər halda, mən artıq dedim ki, hər hansı demokratik dövlətdə müxalifətin olması normal haldır. Müxalifət olmasa, demokratiyadan danışmaq olmaz. Bizim barışmaz, radikal müxalifətə gəldikdə, təəssüf ki, o, bizdə bir vaxtlar əldə silahla, öz silahlı dəstələri ilə, silahlı birləşmələri ilə meydana çıxmışdır. Xalq Cəbhəsinin öz silahlı dəstələri vardı. Hətta Xalq Cəbhəsi hakimiyyətə gəldikdə, onun nümayəndəsi prezident seçildikdə, prezidentin sərəncamında ordu, polis, Daxili İşlər Nazirliyi olduğu halda o, Xalq Cəbhəsinin silahlı dəstələrini saxlayırdı, bu dəstələr müstəqil surətdə mövcud idi. Buna görə də onlar öz köhnə vərdişlərindən, belə bir fikirdən heç cür əl çəkə bilmirlər ki, hakimiyyətə silahla, hakimiyyətin [47-48] silahla devrilməsi yolu ilə nail olmaq mümkündür. Onlar bu psixologiyanı əsas götürərək, belə barışmaz mövqe tuturlar. Müxalifətdə ola bilərsən, təbii ki, prezidentin hakimiyyətini, onun siyasətini tənqid etmək olar. Amma gərək qanun çərçivəsində hərəkət edəsən. Əgər onlar nə isə istəyirlərsə, amma onların bu istəkləri həyata keçmirsə, onlar özlərini istədikləri kimi aparırlar.

Onların xarici aləmlə əlaqələrinə gəldikdə, əlbəttə, bu əlaqələr var. Məsələn, mən sizə 1994-cü ilin oktyabrında çevriliş cəhdindən danışdım. Bu cəhdi göstərən adamlar sonra aradan çıxıb Rusiyaya qaçdılar, burada onları gizlətdilər. Doğrudur, sonra ardıcıl səylərimiz sayəsində onların bir çoxunu tutmağa, oradan geri qaytarılmasına müvəffəq olduq. Əgər bu adamları orada gizlədirdilərsə, onlar orada normal yaşaya bilirdilərsə, deməli, onları kimlərsə dəstəkləyirdilər.

Yaxud, məsələn, 1995-ci ildə XTPD dəstəsi burada çevriliş etməyə cəhd göstərdi. Onların arasında Türkiyə xüsusi idarələrinin nümayəndələri də vardı. Halbuki, Türkiyə bizə dost ölkədir. Aramızda çox sıx dostluq münasibətləri var. Mən Türkiyə rəhbərləri ilə, xüsusən prezident Süleyman Dəmirəl ilə çox səmimi dostluq münasibətləri saxlayıram. Biz bir-birimizi 30 ildir tanıyırıq və bizim çox böyük dostluğumuz var. Buna baxmayaraq, xüsusi idarələrdəki bəzi qüvvələr burada silahlı çevriliş təşkil etmiş adamlarla əlbir olmuşlar. Buna görə də istisna deyildir ki, radikal müxalifət də Azərbaycandan kənardakı müəyyən qüvvələrdən dəstək alırlar. Bu, nə ilə təhlükəlidir? Əlbəttə, bunu proqnozlaşdırmaq çətindir. Amma təəssüflər olsun ki, müxalifətdəki bəzi ekstremist əhval-ruhiyyəli şəxslər iqtidara qarşı terror üsullarından və silahlı hərəkətlərdən əl çəkməmişlər. Bax, bu, baş verə biləcək ən ağır hadisədir. Lakin son illərin təcrübəsi göstərir ki, bu cür cəhdlər boşa çıxır. [48-49]

**L y u b o v  Q o r b a t y u k** (*«Novosti Nyus» qəzeti*)**: Azərbaycanın bu ağır dövründə Siz həqiqətən milli lider olmağa, vahid dövlət yaratmağa müvəffəq oldunuz. Xahiş edirəm deyəsiniz, siyasi müvəffəqiyyətinizin sirri nədədir?**

**H e y d ə r  Ə l i y e v**: Bunu demək mənim üçün yəqin ki, çətindir. Siz ki, bir neçə gün burada oldunuz, adamlarla görüşdünüz. Sirrin nədə olduğunu yəqin ki, özünüz hiss etdiniz. Mənim bioqrafiyam sizə məlumdur. Mən erkən yaşlarımdan dövlət fəaliyyətinə cəlb edilmişəm. 29 il bundan əvvəl, 1969-cu ilin iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildim. Burada 14 il işlədim. Brejnevin ölümündən sonra məni Moskvaya dəvət etdilər, mən Siyasi Büronun üzvü seçildim, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundum. Bu vəzifədə beş il işlədim.

Dediyim kimi, 1987-ci ilin axırlarında istefa verdim. Bundan sonra həyatımda təqiblər dövrü başladı. Yadınızda olar, 1988-ci ildən mətbuat orqanlarında, qəzetlərdə mənim barəmdə, fəaliyyətim barədə, zənnimcə, iftiralı məqalələr dərc edilməyə başlandı. Mən gözdən salınmışdım, hər şeydən təcrid olunmuşdum. Buna baxmayaraq, 1990-cı ilin yanvarında Bakıya qoşun yeridilərkən, Moskvada yaşasam da, Azərbaycanda ağır vəziyyət yarandığı barədə müəyyən məlumat ala bildim. O vaxt mən öz məsləhətlərimi, mülahizələrimi Qorbaçova, Siyasi Büronun digər üzvlərinə bildirməyə cəhd göstərdim. Lakin onlar mənim xidmətlərimdən tamamilə imtina etdilər. Mən onlarla, hətta telefonla da danışa bilmədim.

1990-cı ildə buraya qoşun yeridildikdə mən daha susa bilmədim. Moskvada izdihamlı mitinqdə çıxış edərək, sovet rəhbərliyinin, Siyasi Büronun bu əməllərinə qarşı, Azərbaycana qoşun yeridilməsinə qarşı etiraz etdim, bunu pislədim. Qəzetlərdə mənə qarşı daha çox iftiralar, böhtan dolu yazılar dərc edilməyə başlandı. Bütün bunlar ona gətirib çıxardı ki, [49-50] mən Kommunist Partiyasını tərk etdim və Kommunist Partiyasından hansı səbəblərə görə getdiyim barədə rəsmi bəyanat verdim.

Mən Bakıya gəldim, çünki daha Moskvada yaşamaq ağır idi. Orada təqiblərə məruz qalırdım. Ancaq təəssüflər olsun ki, burada vəziyyət elə idi ki, mənə Bakıda da yaşamağa imkan vermədilər. Halbuki, hakimiyyətdə vaxtilə mənim irəli çəkdiyim adamlar vardı. Nə demək olar, siyasət siyasət olaraq qalır. Mən çox-çox uzaqlara, doğulduğum Naxçıvana getməli oldum.

O, Azərbaycandan ərazicə təcrid edilmiş kiçik bir muxtar respublikadır. Üç il orada yaşadım. Nəhayət, 1993-cü ildə məni buraya dəvət etdilər. Özünüz diqqət yetirin, 1993-cü ildə burada çox təhlükəli bir vəziyyət yaranarkən vaxtilə məni hətta Azərbaycandan da sıxışdırıb çıxarmış adamlar, - mənim buradan da çıxıb getməyə yerim yox idi, çünki mən Moskvada yaşaya bilməzdim, buraya gəldim, burada isə məni yaşamağa qoymurlar, odur ki, Azərbaycanın ən ucqar guşəsinə getdim, məni oradan da uzaqlaşdırdılar, daha hara getməli idim, harayasa dağlara qalxmalı idim, hər halda, ora da Azərbaycan ərazisidir, - məni 1993-cü ildə buraya çağırmaq məcburiyyətində qaldılar.

Doğrudur, onlardan əlavə, cəmiyyətimizin bir çox adamları da məni dəvət edirdilər. Yəni, burada elə bir adam yox idi ki, Azərbaycanın o ağır dövründə gərginliyi aradan qaldırmaq missiyasını öz üzərinə götürə bilsin. Məni dəvət etdilər və mən bunu edə bildim. O illərdə mən qəzəbə gələndə çoxlu hücumlara məruz qalsam da, həmişə Azərbaycanda xalqın mənə olan etimadını hiss etmişəm. Özü də təkcə Azərbaycanda yox. Mən Rusiyada da həmişə əhalinin bir çox təbəqələrinin rəğbətini hiss etmişəm.

Nəyə görə? Yəqin ona görə ki, həm Azərbaycanda respublikanın başçısı kimi, həm də Moskvada Sovetlər İttifaqının [50-51] rəhbərlərindən biri kimi çoxillik fəaliyyətim insanları əmin etmişdi ki, mənə inanmaq lazımdır. İnsanlar da mənə inanırlar. Şübhəsiz ki, insanların inamı mənə güc verir və bütün bu çətinlikləri dəf etməyə imkan yaradır. Hətta mən qəzəbə gələndə, təcrid olunmuş vəziyyətdə yaşayanda da belə idi. Şübhəsiz ki, mənim həyatım ağır idi, ancaq insanların inamını hiss edirdim və bu, mənə kömək edirdi.

Yenə də etimad. Bəs mən nə edirəm? Mən sadəcə olaraq, bu etimadı ardıcıl fəaliyyətimlə doğrultmağa çalışıram. Mən çox işləyirəm və xalqımın bu ağır dövründə respublikanı yüksəltmək üçün nə bacarıramsa, mümkün olan nə varsa, hər şeyi edirəm.

Şübhəsiz, hər bir azərbaycanlı kimi, mənə də həmişə çox ağırdır ki, insanlarımızın bir qismi çadırlarda, çətin şəraitdə yaşayır. Bu, ürəyimi daim üzür. Amma onları öz doğma yerlərinə qaytarmaq üçün nə mümkündürsə, mən onu edirəm. İnanmıram ki, başqa birisi mənim etdiyimdən çox şey edə bilər. Əgər bilsəydim ki, beləsi var, mən öz yerimi ona verərdim. Qoy gəlsin, çox iş görsün. Amma hesab edirəm ki, mən mümkün olan nə varsa, hamısını edirəm.

Bu da mənə güc, qüvvə verir. Mənim uğurlarımın sirri yəqin ki, bundadır.

**V i k t o r K o z l o v s k i** *(«İnter» teleşirkəti)*: **Heydər Əliyeviç, Dağlıq Qarabağdakı münaqişədə və bütün Qafqazda Rusiyanın indiki rolunu açıqlaya bilərdinizmi? Rusiyanın indiki rəhbərliyi bu vəziyyətdə hansı mövqedə dayanır?**

**H e y d ə r Ə l i y e v**: Biz münaqişənin həllində ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyaya çox ümid bəsləyirik. Bir də ona görə ümid bəsləyirik ki, Rusiyanın Ermənistana böyük təsiri var. Bilirsiniz ki, Ermənistanda Rusiyanın böyük qoşun kontingenti yerləşir, onlar hərbi bazalar statusuna malikdirlər. Rusiya Ermənistanla çox sıx hərbi əməkdaşlıq edir. Bu yaxınlarda Rusiyanın müdafiə [51-52] naziri Ermənistanda rəsmi səfərdə olmuş, onlar hərbi əməkdaşlıq haqqında yeni sənədlər imzalamışlar. Rusiya hər cəhətdən Ermənistana çox kömək edir. Ona görə də Ermənistan Rusiya ilə hesablaşır. Bunu nəzərə alaraq, biz hesab edirik ki, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün Rusiya lap çox iş görə bilər.

Bəs biz münaqişəni nə üçün aradan qaldıra bilmirik? Ona görə ki, Ermənistan pozucu mövqe tutur. O, Dağlıq Qarabağa müstəqillik statusu almağa çalışır. Biz buna heç vaxt razı ola bilmərik. Buna Dünya Birliyi də razı olmur. Heç bir beynəlxalq təşkilat buna razı ola bilməz, çünki bu, beynəlxalq hüququn əsas prinsiplərinə, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsiplərinə ziddir. Hər bir dövlətin ərazi bütövlüyü məsələsi beynəlxalq hüququn pozulmaz prinsipidir. Əgər kimsə bunu pozursa, o, özünə zərər vurur. İndi Rusiya özü Çeçenistandakı münaqişədən əziyyət çəkir. Çeçenistandakı vəziyyət Rusiyada şəraiti mürəkkəbləşdirir. Çeçenistan müstəqil olmaq istəyir, Rusiya isə, şübhəsiz ki, bu müstəqilliyi ona verə bilməz. Elə buna görə də münaqişə heç cür həll olunmur.

Buna görə də Ermənistanın, o cümlədən indi Ermənistanla tam vahid əmələ gətirən Dağlıq Qarabağın tələbləri əsassızdır. Onlara sadəcə olaraq dəqiq-dürüst demək lazımdır ki, sizin tələbləriniz haqsızdır və heç vaxt yerinə yetirilə bilməz. Əlbəttə, artıq bu halda Ermənistan 1996-cı ilin dekabrında ATƏT-in bütün üzvləri tərəfindən qəbul edilmiş prinsiplərlə razılaşa bilər. Ermənistan istisna olmaqla, 54 ölkədən 53-ü bu prinsiplərə səs vermişdir.

Bu üç prinsipdə nəzərdə tutulur: Birincisi, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması. Azərbaycanın ərazi bütövlüyünü Ermənistan indiyədək tanımır, çünki Azərbaycanın ərazi butövlüyünü o pozmuşdur. İkinci prinsip – Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində özünüi[52-53]darə statusu verilməsi. Üçüncü prinsip – Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsi.

Biz bu prinsiplərlə razıyıq, hərçənd onlar bizi də çox qane etmir. Amma Ermənistan razılaşmır, Dağlıq Qarabağın müstəqillik statusu almasına çalışır. Bu isə qeyri-mümkündür. Deməli. Ermənistana təsiri olan hər hansı bir ölkə, - belə ölkə isə Rusiyadır, - dəqiq bildirməlidir: Yox, bu olmayacaqdır, gəlin məsələni qarşılıqlı surətdə məqbul mövqelərdə həll edək. Biz buna hazırıq. Biz Dağlıq Qarabağa yüksək özünüidarə statusu verməyə hazırıq. Ancaq Dağlıq Qarabağ Azərbaycan dövlətinin tərkibində olmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Ona görə də Rusiyanın böyük imkanları var. Ümidvaram ki, Rusiya bu imkanlardan istifadə edəcəkdir.

**O l q a L e n** *(«Zakon i biznes» qəzeti)*: **Hörmətli Heydər Əliyeviç, Azərbaycanın xarici siyasətinin formalaşmasına şəxsən Sizin təsiriniz olduğu barədə rəy var. Siz ölkədə daxili sabitliyi və dinamik iqtisadi inkişafı təmin etməyə müvəffəq oldunuz. Bu isə nəticədə Azərbaycanın beynəlxalq nüfuzuna təsir göstərdi. Buna görə də belə bir suala cavab verə bilərsinizmi: Ölkələrimizin daxil olmağa başladıqları strukturlar arasında GUAM strukturunun yeri necədir? Bu strukturun inkişaf perspektivləri necədir və bəzi vəzifəli şəxslərin belə bəyanatları nə dərəcədə əsaslıdır ki, bu struktur neft və qazın Xəzər bölgəsindən nəql olunmasını təmin etmək məqsədi ilə yaradılmışdır?**

**H e y d ə r Ə l i y e v**: Bilirsinizmi, bu strukturu Ukrayna, Gürcüstan, Moldova və Azərbaycan prezidentləri Strasburqda olarkən yaratmışlar. Deməliyəm ki, çox yaxşı struktur əmələ gəlmişdir. Çünki biz beynəlxalq həyatda ümumən bir çox məsələlərdə eyni mövqe tutan ölkələrik. Biz bir-birimizlə coğrafi cəhətdən bağlıyıq – burada, Qafqazda Gürcüstan və Azərbaycan, orada, Qara dənizdən o yanda isə - Ukrayna və [53-54] Moldova. Hesab edirəm ki, bu struktur həm siyasi, həm də iqtisadi əhəmiyyətə malikdir. Əlbəttə, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsi məsələsi də istisna deyildir. Ancaq bu struktur Xəzər neftindən istifadə etmək məqsədləri çərçivəsindən çox-çox kənara çıxır. Hesab edirəm ki, onun yaxşı perspektivi var. Bu yaxınlarda yaradılmış gənc təşkilatdır. Azərbaycanda biz bu

fikirdəyik ki, GUAM çərçivəsində əməkdaşlığımızı ardıcıllıqla möhkəmlətmək və inkişaf etdirmək lazımdır.

A r z u  S ə r d a r l ı *(«Azərbaycanın səsi» qezeti)*: **Cənab prezident, bizim qəzet Ukrayna azərbaycanlıları üçün informasiya mənbələrindən biridir. Biz Ukraynada yaşayan azərbaycanlılardan infopmasiya sarıdan kömək alırıq. Fürsətdən istifadə edərək, Siz Ukraynadakı abunəçilərə qəzetimiz vasitəsilə nə kimi arzularınızı çatdırmaq istərdiniz?**

H e y d ə r  Ə l i y e v: Ukraynada qəzetiniz nəşr edilir? Müntəzəm nəşr olunur? Həftəlik qəzetdir? Geniş yayılır?

A r z u  S ə r d a r l ı: **Ukraynada geniş yayılır, biz qəzetin bir hissəsini Azərbaycanda yaymağı planlaşdırırıq. Biz cənab səfir və səfirlik tərəfindən informasiya sarıdan tam kömək alırıq.**

H e y d ə r  Ə l i y e v: Sizi bu təşəbbüs münasibətilə təbrik edirəm, bunu çox xeyirxah, yaxşı iş hesab edirəm. Sizə uğurlar arzulayıram. İstərdim ki, qəzetiniz daha böyük şöhrət qazansın, öz yayılma coğrafıyasını genişləndirsin və Ukraynada yaşayan azərbaycanlılara daha böyük təsir göstərsin, Azərbaycan haqqında təkcə azərbaycanlılar üçün deyil, həm də bütün Ukrayna sakinləri üçün daha çox informasiya versin.

Sizə arzularımı dedim. Sizə uğurlar arzulayıram və ümidvaram ki, səfirliyimiz sizə öz imkanlarınızı genişləndirməkdə kömək edəcəkdir. O ki qaldı Ukraynada yaşayan azərbaycanlılara arzularıma, qəzetiniz vasitəsilə demək istərdim: Ən əvvəl istərdim ki, onlar bu ölkənin, Ukraynanın qanunlarına, [54-55] qaydalarına hörmət etsinlər, bu qanunlara tabe olsunlar, onlara əməl etsinlər. Bu, hər bir vətəndaşın başlıca vəzifəsidir. Arzu edərdim ki, onlardan hər biri Ukrayna və Azərbaycan xalqları arasında dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini versin.

İstərdim ki, Ukraynada yaşayan hər bir azərbaycanlı xalqımızı, respublikamızı, ölkəmizi, mədəniyyətimizi layiqincə təmsil etsin. Onu da istərdim ki, Ukraynada, eləcə də başqa ölkələrdə yaşayan azərbaycanlılar öz dilini, öz mədəniyyətini, öz adət-ənənələrini unutmasınlar. Bu, çox vacibdir. Əlbəttə, yaşadığın ölkənin dilini bilmək lazımdır. Onun adət və ənənələrinə, qanunlarına hörmət etmək gərəkdir. Lakin eyni zamanda öz milli özgünlüyünü də qoruyub saxlamaq, öz köklərini, öz dilini, öz mədəniyyətini unutmamaq lazımdır. Budur mənim arzularım.

Y u r i  R a y x e l *(«Naş dom» qəzeti)*: Cənab prezident, qəzetimizin nüsxələrini Sizə vermək istəyirəm. Burada Sizin bioqrafiyanızdan istifadə olunmuş, hazırda Azərbaycana necə rəhbərlik etdiyiniz barədə material var.

H e y d ə r  Ə l i y e v: Çox sağ olun.

Y u r i  R a y x e l: **İki sualım var. Siz Ukraynanı strateji tərəfdaş adlandırdınız. Daha hansı ölkələri Azərbaycanın strateji tərəfdaşları adlandıra bilərsiniz? İkinci sual: Siz artıq xatırlatdınız ki, 1969-cu ildən Azərbaycana necə rəhbərlik etmisiniz. İndi, ölkəni yenidən idarə edərkən o dövrə aid nədən istifadə etmək istərdiniz?**

H e y d ə r  Ə l i y e v: Bizimlə strateji tərəfdaş olan ölkələr var. Bu, haradasa dövlətlərarası sənədlərimizdə təsbit olunmuşdur, haradasa sadəcə bəyan edilmişdir. Məsələn, mən Böyük Britaniyadan yenicə qayıtmışam. Orada Baş nazir də, hökumətin digər üzvləri də bir neçə dəfə bəyan etdilər ki, Azərbaycanla strateji tərəfdaşlıq münasibətləri olmasını istəyirlər. Bu mövqe ilə mən də razılaşdım. Buna görə də bütün [55-56] bu ölkələri, burada, görünür, sadalamağa lüzum yoxdur, onlar çoxdur.

Keçmişin təcrübəsindən bu gün nəyi əxz etmək istədiyimə gəldikdə, bilirsinizmi, əvvəllər mən Azərbaycana rəhbərlik edərkən o, başqa ölkə, başqa dövlət sistemi, başqa iqtisadiyyat, başqa ideologiya idi. Mən və xalqımız o kommunist ideologiyasından imtina etdik. Hərçənd ki, biz bütün ömrümüz boyu bu ideologiyaya xidmət etmişdik. Yeri gəlmişkən, Azərbaycan Kommunist Partiyasına rəhbərlik etməyimi mən heç vaxt özüm üçün nöqsan bilməmişəm. Əksinə, mən bununla fəxr edirəm, Azərbaycanda gördüyüm işlərlə fəxr edirəm. Fəxr edirəm ki, mən Sovet İttifaqının rəhbərlərindən biri olmuşam. Ölkə vardı, dövlət vardı. Biz hamımız bu ölkədə doğulub boya-başa çatmışdıq və ən əvvəl öz xalqımıza, təbii olaraq ölkəyə, dövlətə vicdanla və düzgün xidmət edirdik.

İndi Azərbaycan müstəqil dövlətdir. Bu, o vaxt olduğundan köklü surətdə fərqlənir. Biz öz taleyimizin sahibləriyik. Nə etməli olduğunu özümüz həll edirik. Yaxşı da olsa, yaman da olsa, özümüz həll edirik. Biz daha heç kimdən asılı deyilik. Bu, hər bir xalq üçün, eləcə də Azərbaycan xalqı üçün çox böyük nailiyyətdir və çox böyük səadətdir. Buna görə də indi biz və rəhbər kimi mən, qalan hamı milli dövlət quruculuğunda da, ictimai həyatda da, iqtisadiyyatda da tamam başqa prinsipləri əsas tuturuq.

O ki qaldı keçmişə aid hansı cəhətlərdən istifadə olunmasına, çox şeydən istifadə etmək olar. Həmişə vicdanla, düz işləmək lazımdır. Həmişə öz işinə sadiq olmaq, öz xalqına şərəflə xidmət etmək lazımdır. O illərdə təkcə mənim tərəfimdən deyil, eləcə də o nəslin bütün adamları tərəfindən toplanmış təcrübə böyükdür. Elə götürək sizin Ukraynanı. Axı bu və ya digər dərəcədə bütün rəhbərləriniz o dövrün görkəmli rəhbər işçiləri olmuşlar. Məsələn, Leonid Daniloviç [56-57] Kuçma ümumittifaq əhəmiyyətli böyük bir sahəyə neçə illər rəhbərlik etmişdir. Yəni o, idarəçilik, dövlət, təşkilatçılıq təcrübəsinə malikdir. Bu təcrübə olmadan böyük işə rəhbərlik etmək çətindir, böyük işi yerinə yetirmək çətindir. Bəziləri hesab edirlər ki, o, sadəcə olaraq siyasətlə məşğuldur, gəlib dövlətə rəhbərlik edəcəkdir. Bu qeyri-mümkündür. Yeri

gəlmişkən, bunu ölkəmizdə əvvəlki təcrübə təsdiq etmişdir. Özü də təkcə bizim ölkənin deyil, başqa ölkələrin təcrübəsi də təsdiqləmişdir.

Əlbəttə, ölkəmiz, məsələn, Azərbaycan bu keçid dövrünü başa çatdırdıqdan, biz bütün demokratik təsisatları yaratdıqdan, sahmanlı və saz iqtisadi mexanizm yaratdıqdan, adamlar bütün qanunları yerinə yetirməyə vərdiş etdikdən sonra, yəni, biz iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin, demokratiyanın səviyyəsi yüksək olan ölkələrin yüksək səviyyəsinə çatdıqdan sonra, bax, onda idarəçilik təcrübəsi, dövlət fəaliyyəti təcrübəsi olmayan adi siyasətçi də bu və ya digər sahəyə, yaxud bütövlükdə dövlətə rəhbərlik edə bilər.

MDB ölkələrinin təcrübəsinin göstərdiyi kimi, keçid dövrünü yaşayan ölkələrdə isə təcrübəli həyat təcrübəsi, əməli iş təcrübəsi təşkilatçılıq, dövlət fəaliyyəti təcrübəsi olan adamlar rəhbərlik edirlər. Məndə də olan bü təcrübə indi mənə bir çox məsələlərin həllində çox kömək edir.

D a n a  R o m a n e t s *(«Ukraina Molodaya» qəzeti)*: **Hörmətli cənab prezident, Siz Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra ən əvvəl korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparmağa başladınız. Xahiş edirəm deyəsiniz, indiki dövrdə bu halların kökünü kəsməyə müvəffəq olmusunuzmu**?

**H e y d ə r  Ə l i y e v**: Həqiqətən,1969-cu ildə mən MK-nın birinci katibi seçildikdə, - bilirsiniz ki, bundan əvvəl burada milli təhlükəsizlik naziri olmuşdum və bir çox illər ərzində dövlət təhlükəsizliyi orqanlarında işləmişdim, - bu sahədə öz [57-58] işimdən çox şey bilirdim ki, korrupsiya, rüşvətxorluq inkişaf edir. Bu, məni narahat edirdi. Mən o vaxtlar, həmin işdə buna qarşı imkan daxilində mübarizə aparmağa çalışırdım. Amma o vaxtlar böyük hakimiyyətə malik deyildim. Mən MK-nın birinci katibi seçildikdə, yəni, respublikada bütün hakimiyyət artıq mənə tabe edildikdə mən hətta iqtisadi, digər məsələləri bir tərəfə atdım və ən əvvəl korrupsiyaya, rüşvətxorluğa, vəzifəli şəxslərin öz xidməti mövqeyindən tamahkarlıq məqsədləri ilə istifadə etməsinə və başqa mənfi hallara qarşı mübarizə məsələsi ilə məşğul oldum. Deməliyəm ki, böyük bir işə başlamışdım.

Xatirimdədir, hələ o illərdə Sovetlər İttifaqının digər bölgələrində bunu çox müdafiə edirdilər. Çünki bu, Sovetlər İttifaqında ümumi xəstəlik idi. Bununla belə, mən müqavimətə, etirazlara da rast gəlirdim. Belə ki, bəzi digər respublikalarda, Moskvada buna müsbət yanaşılmırdı. O zaman bəziləri hesab edirdilər ki, mən bununla sosializm quruluşunu gözdən salıram. Çünki belə bir ideologiya mövcud idi ki, rüşvətxorluq kapitalizmin, keçmişin qalığıdır, o bizə kapitalizm dünyasından keçmişdir və sosializm cəmiyyəti üçün, dövlətimiz üçün səciyyəvi deyildir. Mən bu haqda açıq danışanda, mənim məruzələrim qəzetlərdə dərc olunanda, biz belə adamları ifşa edəndə və onlar müxtəlif növ cəzalara məruz qalanda və bu barədə qəzetlərdə yazılanda, insanların çoxu bunu bəyənir, müdafiə edirdi, Moskvadakı, digər respublikalardakı bəzi vəzifəli şəxslərdə isə bu, etiraz doğururdu. Onlar hesab edirdilər ki, «Əliyev sistemimizi, quruluşumuzu gözdən salır», «Bu haqda belə açıq danışmaq olmaz», «Qərb təbliğatı bundan istifadə edir» və s. Bu mövzuda mənimlə hətta söhbətlər də olmuşdu: Siz bütün bunları nahaq yerə belə həddindən çox açıq edirsiniz.

Mən isə həmişə deyirdim ki, Qərb təbliğatı onsuz da istifadə edir. Rüşvətxorların olduğunu deyib-deməməyimiz[58-59]dən asılı olmayaraq, onlar onsuz da deyirlər ki, korrupsiya, rüşvətxorlar var. Bunu gizlətməkdənsə, açıq danışmaq, buna qarşı mübarizə aparmaq daha yaxşıdır.

Bilirsiniz, biz Azərbaycanda xeyli uğurlara nail olmuşduq. Mən Moskvada, Siyasi Büroda işləyəndə bu məsələləri çox fəal surətdə qaldırırdım.

Təəssüf ki, bu xəstəliyi, qüsuru aradan qaldırdığımızı deyə bilmərəm. Yox. Üstəlik, sonrakı illərdə, mən təqib olunanda, - mən artıq dedim ki, qəzetlərdə mənim əleyhimə materiallar dərc edirdilər, - ifşa olunmuş, həbs və məhkum edilmiş rüşvətxorların bir çoxu dustaqxanalardan azad edildi. Onlardan bəzilərini Azərbaycanda hətta televiziyaya çıxarır, «Əliyev qanunsuzluğunun, Əliyev özbaşınalığının» qurbanları kimi təqdim edirdilər. İnanın, ötənlərin işidir, heç bir qanunsuzluq, heç bir özbaşınalıq olmamışdı.

Bu xəstəlik keçib getməmişdir. O, keçid dövründə daha da geniş yayılmışdır. İndi bizdə, Azərbaycanda demək olar, hamı korrupsiyadan danışır. Yeri gəlmişkən, korrupsiyadan ən çox o adamlar danışır ki, özləri onunla məşğul olurlar. İqtidarı tənqid edən müxalifət adamlarının başlıca dəlili dövlət orqanlarında korrupsiyanın olmasıdır. Var. Mən bunu heç vaxt inkar etməmişəm və inkar etmirəm. Yeri gəlmişkən, işlədiyim qısa dövr ərzində mən çoxlu nazirləri, digər vəzifəli şəxsləri, müxtəlif şəhər və rayonların icra hakimiyyəti başçılarını buna görə işdən çıxarmış, cəzalandırmışam. Lakin mənim bu barədə danışmağa ona görə mənəvi haqqım var ki, bu bəla ilə mübarizə aparıram. Amma Azərbaycanda, bəlkə də korrupsiyanın müəllifi olan, bu işlə məşğul olmuş və indi də məşğul olan şəxslər isə iqtidarı korrupsiyanın olmasında günahlandırırlar. Bu, əlbəttə, şərəfsizlikdir.

Beləliklə, sizin sualınıza cavab verirəm ki, ömrüm boyu bununla mübarizə aparmışam və indi də həmin mövqelərdə dayanıram. O illərdə çox şey etmək mümkün olmuşdu. Xal[59-60]qın o vaxtlarda da olan böyük dəstəyi və bu gün də qalmaqda olan etimadı bir çox cəhətdən bununla bağlıdır. Bununla belə, biz bu bəlanı aradan qaldıra bilməmişik. İndi Azərbaycanda korrupsiya mənim işlədiyim 70-ci illərdəkindən çoxdur. Əlbəttə, o vaxt mübarizə aparmaq, ola bilsin, asan idi. Çünki onda başqa hakimiyyət idi, indi isə mübarizə aparmaq çətindir. Lakin biz mübarizə aparırıq və aparacağıq.

**N a t a l y a  S m o l y a r o v a** *(«TET-A-TET» teleşirkəti):* **Bizim teleşirkət səfirliklərlə əməkdaşlıq edir və «Azərbaycan səfirliyi təqdim edir» adlı iki film buraxmışıq. Televiziya ilə yaxşı əlaqələrimiz var və biz bundan sonra da əməkdaşlıq etməyə hazırıq. Siz bu səfər haqqında, bizim gələcək filmin teletamaşaçılarına nə arzu edərdiniz?**

**H e y d ə r  Ə l i y e v**: Nə arzu edərdim, əlbəttə ki, müvəffəqiyyət. Söhbətimizin əvvəlində dedim ki, buraya gəldiyinizə görə sizə təşəkkür edirəm. Həyatımızı və, əlbəttə, kiçik olsa da, uğurlarımızı da, nöqsanlarımızı da, həyatımızın reallığını, problemlərimizi, çətinliklərimizi də özünüz görəcəksiniz.

Qarşınızda hər şey açıqdır, hər şey üzünüzə açıqdır. Buna görə də arzu edərdim ki, Azərbaycan haqqında, qarşımızda duran və həll etmək istədiyimiz çətin problemlər haqqında da, Azərbaycanda əldə olunmuş real nailiyyətlər haqqında da daha çox məlumata malik olsunlar. Mən bunu arzulamaq istərdim. Sağ olun.

**O k s a n a  V a ş ş e n k o** *(Ukrayna radiosu, «Novosti» kanalı)*: **Siz uşaqların, gənclərin dini təhsilinə necə baxırsız? Siz bunu lazım bilirsinizmi?**

**H e y d ə r  Ə l i y e v**: Hesab edirəm ki, uşaqları maarifləndirmək lazımdır. Yəni, uşaqlar dini nənə və babalarının sözlərindən deyil, yalnız mötəbər mənbələrdən, kitablardan öyrənməlidirlər. Dinin nə demək olduğunu bilməlidirlər. Hər bir kəs dinlə məşğul olmaqda, onu qəbul etməkdə azaddır. Axı keçmişdə biz dinlə mübarizə aparılan şəraitdə yaşamışıq. [60-61] Tərbiyə işinin istiqamətlərindən biri ateist təbliğatı, din əleyhinə təbliğat idi. İndi belə şeylər yoxdur. İndi dinə böyük maraq göstərilir. Bu da təbiidir, çünki əgər 70 il hər şey yasaq edilmişdirsə, hazırda hər şey açıqdır. Adamlar məlumat almaq, dinə qovuşmaq istəyirlər. Hər bir insana dinə öz münasibətini sərbəst müəyyənləşdirməyə imkan vermək lazımdır. Bundan ötrü isə uşaqlar məktəblərdə din haqqında, onun tarixi, əhəmiyyəti haqqında məlumat almalıdırlar.

**M a r y a n a  A n g e l o v a** *(Milli Xəbərlər Agentliyi):* **Çox hörmətli Heydər Əliyeviç, icazə verin, bu görüş imkanına görə Sizə təşəkkür edim. Amma demək istəyirəm ki, bu, bizim ilk görüşümüz deyildir. 75 illiyiniz bayram edilərkən biz hamımız Sizinlə birlikdə idik. Belə ki, Azərbaycan səfirliyi böyük bir bayram təşkil etmişdi, biz hamımız özümüzü bu hadisənin iştirakçısı kimi hiss edirdik. Siz çox böyük yol keçmisiniz və biz başa düşürük ki, bu yol bütün xüsusiyyətləri ilə birlikdə çox çətin olmuşdur. Bizim imperativimiz və Sizin imperativiniz yüksək bir amal – Azərbaycanın müstəqilliyi amalı idi. Siz belə mühüm qərarın, bu amalın həyata keçirilməsinin zəruriliyini nə vaxt yəqin etdiniz? Siz XXI əsrin astanasında müstəqil, azad və iqtisadi cəhətdən güclü Azərbaycanın rolunu necə təsəvvür edirsiniz?**

**H e y d ə r  Ə l i y e v**: Azərbaycana, o cümlədən də mənə diqqətinizə görə sağ olun. O ki qaldı suallarınıza, bilirsiniz, mən 1986-87-ci illərdə Siyasi Büronun tərkibində olarkən hiss edirdim ki, bu quruluş və bu dövlət dağılır. Mən bunu hiss edirdim. Azərbaycanın müstəqil olmasının zəruriliyi fikrinə isə qəti olaraq 1988-89-cu ildə gəldim. 1990-cı ildə Azərbaycana qayıtdım. O vaxt Kommunist Partiyası, Sovetlər İttifaqı hələ mövcud idi. Lakin, təkrar edirəm, mən Kommunist Partiyasından çıxanda fəal çıxış və izah edirdim ki, Sovetlər İttifaqının artıq gələcəyi yoxdur, biz öz müstəqilliyimiz uğrunda mübarizə aparmalıyıq. Mən bunu açıq deyirdim, rəsmi surətdə deyirdim, qəzetlərdə çıxış edirdim. [61-62]

1991-ci ilin əvvəllərində, Sovetlər İttifaqı dağılmağa başladıqda və Qorbaçov onu birtəhər saxlamağa çalışdıqda deyirdi ki, mövcud olan Sovetlər İttifaqı pisdir və yeni ittifaq müqaviləsi imzalamaq lazımdır. Bu müqavilə 1922-ci ildə imzalanmış müqavilədən fərqlənəcəkdir.

Bundan ötrü martın 17-nə Sovetlər İttifaqının saxlanması haqqında referendum təyin etdilər. 1991-ci ilin həmin günü mənim yadımdadır. Amma bu referendumu hələ 1990-cı ildə elan etmişdilər. Artıq 1991-ci ildə mən Naxçıvanda mitinqlərdə çıxış edərək açıq şəkildə deyirdim ki, Azərbaycan müstəqil olmalıdır, o, heç bir referenduma getməməlidir və sairə.

O zaman, 1990-cı ildə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Sovetinə seçkilər keçirildi. Məni, təqib və təcrid olunan insanı xalq eyni vaxtda Azərbaycan Ali Sovetinin və Naxçıvan Muxtar Respublikası Ali Sovetinin deputatı seçdi. Yeri gəlmişkən, hakimiyyət orqanlarının məni təqib etməsinə baxmayaraq, məni seçmişdilər. O vaxt mən Bakıya, Ali Sovetin sessiyasına gəldim və çıxış edərək açıq şəkildə dedim ki, siz bu salonda elə bir adam tapa bilməzsiniz ki, o, Sovetlər İttifaqına məndən çox xidmət etmiş olsun. Mən Sovetlər İttifaqının möhkəmlənməsinə fəal kömək edənlərdən biriyəm. Bu həqiqətdir. Çünki mən bir çox illər Sovetlər İttifaqının rəhbərliyində olmuşam. 20 il SSRİ Ali Sovetinin deputatı, Sov.İKP MK-nın üzvü, Siyasi Büro üzvlüyünə namizəd, Siyasi Büronun üzvü olmuşam. Yəni, mən həqiqətən Sovetlər İttifaqını möhkəmləndirmişəm. Ona görə dedim ki, indi siz burada oturub çalışırsınız ki, Azərbaycan xalqı Sovetlər İttifaqının saxlanmasına səs versin. Ancaq bunu etmək lazım deyildir. Sovetlər İttifaqı dağılır və Kommunist Partiyası hakimiyyətdən getməlidir, Azərbaycan müstəqil olmalıdır. Mən bunu 1990-cı ildə Azərbaycan Ali Sovetinin sessiyasında demişəm.

Yəni, mənim belə xəttim vardı və onu qətiyyətlə davam etdirirdim. 1991-ci ildə Sovetlər İttifaqı dağılanda da mən [62-63] rahat nəfəs aldım. Bununla belə, Sovetlər İttifaqının qala bilməsi təhlükəsi hələ var idi. Ona görə də biz indiyədək müstəqillik mövqelərində möhkəm dayanırıq ki, kimsə Sovetlər İttifaqını bərpa etməsin. Siz bilirsiniz ki, belə qüvvələr var. Bu qüvvələr Rusiyada var, zənnimcə, Ukraynada da var. Hətta bizdə də var. Doğrudur, onlar burada o qədər də fəal çıxış edə bilmirlər, baxmayaraq, çoxları var ki, Sovetlər İttifaqının bərpa olunmasını istəyirlər.

Bir sözlə, hazırda həyata keçən bu ideyanın, arzunun məndə yaranmasından çox illər ötmüşdür. Altı ildən artıqdır ki, biz müstəqil Azərbaycanda yaşayırıq.

**V i k t o r V o r o n i n**: Çox hörmətli Heydər Əliyeviç, Ukrayna – Azərbaycan münasibətlərində tarixi məqam olacaq məzmunlu söhbətinizə görə Sizə nümayəndə heyətimizin adından ürəkdən minnətdarlığımı bildirirəm.

Ukrayna xalqı qardaş Azərbaycan xalqına həmişə rəğbət və məhəbbət hissi bəsləmişdir. Ukraynanın aparıcı kütləvi informasiya vasitələri müstəqil Azərbaycan dövlətinin həyatı barədə, ölkə rəhbərliyinin müdrik dövlət siyasəti haqqında ətraflı məlumat yayandan sonra, bu, ölkələrimiz arasındakı münasibətlərə, şübhəsiz, çox böyük fayda verəcəkdir.

Biz Azərbaycanda çox şey gördük. Şübhə etmirəm ki, burada iştirak edən jurnalistlərin hamısı bir çox faciəli məsələlər haqqında da, - ilk növbədə mən işğal edilmiş rayonlardan olan qaçqınların vəziyyətini nəzərdə tuturam, – həqiqəti obyektiv yazacaqdır.

Bildiyiniz kimi, Ukrayna prezidenti Ukrayna – Azərbaycan münasibətlərinin inkişafına çox böyük diqqət yetirir. Müstəqil mətbuatımızın ölkələrimiz arasında əməkdaşlığın inkişafı haqqında doğru-düzgün və obyektiv yazması ona çox xoş olacaqdır.

Çox hörmətli cənab prezident, Ukraynanın Azərbaycan Respublikasındakı səfiri Boris Qriqoryeviç Aleksenkoya qısa çıxış üçün söz verməyinizi xahiş edərdim. [63-64]

**H e y d ə r Ə l i y e v**: Buyurun, Boris Qriqoryeviç.

**B o r i s A l e k s e n k o** *(Ukraynanın Azərbaycandakı səfiri)*: Zati-aliləri, Azərbaycan Respublikasının cənab prezidenti, hörmətli Heydər Əliyeviç. Sizə ən əvvəl təşəkkür edirəm ki, işinizin gərgin vaxtında imkan tapıb Ukraynanın kütləvi informasiya vasitələrinin təmsilçilərindən ibarət böyük bir nümayəndə heyətini qəbul etdiniz.

Bu gün bizim kütləvi informasiya vasitələrinin nümayəndələri üçün etdiyiniz dərin təhlilə görə Sizə olduqca minnətdaram. Siz ikitərəfli münasibətlərimizi həmişəki kimi, özünüzə xas dərin və geniş bir təfəkkürlə təhlil etdiniz. Siz xarici siyasət sahəsində vəziyyətin ətraflı təhlilini verdiniz.

Bizim Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın unvanına, Ukrayna xalqının ünvanına, dövlət müstəqilliyimizin ünvanına söylədiyiniz sözlərə görə sağ olun. Ukrayna ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin yaranmasına, genişlənməsinə, dərinləşməsinə şəxsən töhfə verdiyinizə görə Sizə təşəkkür edirəm.

Heydər Əliyeviç, Siz və Ukrayna prezidenti Leonid Daniloviç Kuçma bütün sahələrdə, iqtisadi sahədə də, humanitar sahədə də, habelə cəmiyyətin həyatının informasiya sahəsində də münasibətlərimizin inkişafı üçün əlverişli siyasi və hüquqi şərait yaratmısınız. Sizin rəhbərliyiniz altında Azərbaycanın artıq müstəqil bir dövlət kimi qazandığı uğurları biz yüksək qiymətləndiririk.

Burada sizdən soruşdular ki, müvəffəqiyyətinizin sirri nədədir? Mən diqqətlə dinlədim. Siz özünüzə xas olan təvazökarlıqla hər şeyi açıqlamadınız. İcazə versəydiniz, əlavə edib deyərdim ki, Sizin müvəffəqiyyətinizin sirri öz xalqınıza sədaqətlə xidmət etməyinizdədir. Yəni öz məsuliyyətinizi dərindən dərk edərək xalqa xidmət etməyiniz, vəziyyəti genişliyi ilə və hərtərəfli araşdırmağınız, lazımi qayda-qanun yaratmağınız və məsuliyyət hissi aşılamağınız, vəziyyətin hər hansı [64-65] şəkildə qiymətləndirilməsinə prinsipial mövqedən yanaşmağınızdır.

Azərbaycan və Ukrayna xalqları arasında hörmətinizin sirri bundadır ki, Siz nəinki siyasi, iqtisadi əlaqələrin, həm də mədəni əlaqələrin inkişafına böyük töhfə vermisiniz və bu gün də verirsiniz. Siz incəsənətin sponsorusunuz, cəmiyyətin inkişafının bütün sahələrinə böyük diqqət yetirirsiniz.

Müharibənin dayandırılmasına Sizin şəxsi töhfənizi qeyd etmək istərdim. Sizin istedadınız və cəsarətiniz sayəsində bu gün Azərbaycanda qayda-qanun yaradılmış, cinayətkarlığın qarşısı alınmışdır. Əgər keçmiş ittifaq respublikaları arasında cinayətkarlığa qarşı mübarizə sahəsindəki vəziyyəti müqayisə etsək, onda görərik ki, indi Azərbaycan bu göstərici üzrə ən öncül yerdədir. Siz müxtəlif sui-istifadə hallarına qarşı mübarizənin təşəbbüskarısınız.

**H e y d ə r Ə l i y e v**: Boris Qriqoryeviç, sağ olun, bu mövzuda danışmaq lazım deyil, kifayətdir.

**B o r i s A l e k s e n k o**: İstərdim ki, jurnalistlərimiz bunu bilsinlər, çünki, Heydər Əliyeviç, bu üç gündə hər şeydən hali olmaq çətindir. Mən isə, hər halda, respublikanı ara sözlərindən tanımıram, «Literaturnaya qazeta»da, mətbuatda dərc edilmiş həcvlərdən tanımıram.

**H e y d ə r Ə l i y e v**: Bilirsinizmi, bu artıq keçmişdə olan məsələlərdir.

**B o r i s A l e k s e n k o**: Mən bunu gözlərimlə görmüşəm. Bütün bunlar böhtandır.

Heydər Əliyeviç, nümayəndə heyətimizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istərdim. Prezidentin İşlər İdarəsinə, Prezidentin İcra Aparatına minnətdarlığımı bildirmək istərdim. Bugünkü görüşün keçirilməsinə, kütləvi informasiya vasitələrimizin nümayəndələrinin Azərbaycan xalqının, ölkənizin təşkilatlarının, nazirlikləri və idarələrinin həyatı və fəaliyyəti ilə tanış olması işinə böyük [65-66] töhfə vermiş Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri cənab Nazim Hüseynoviç İbrahimova şəxsən minnətdarlıq etmək istərdim.

Azərbaycanda yaşayan və onun vətəndaşları olan ukraynalılara göstərilən mehribanlığa və səmimiyyətə görə minnətdarlığımı bildirmək istərdim. Bu gün Ukrayna jurnalistlərinin Ukrayna diasporu ilə görüşü

olmuşdur. Diasporun nümayəndələri də məndən xahiş etmişlər ki, onlara göstərdiyiniz atalıq qayğısına görə minnətdarlıqlarını Sizə çatdırım.

Heydər Əliyeviç, sözümün sonunda Sizə möhkəm cansağlığı arzulamaq istərdim. Ümid edirəm ki, görüşdən sonra, mənə verilmiş ayrı-ayrı tapşırıqları diqqətinizə çatdırmağa icazə verərsiniz. Bir daha çox sağ olun. Allahdan Sizə cansağlığı, Azərbaycan xalqına sülh və tərəqqi arzılayıram. Diqqətinizə görə sağ olun.

**H e y d ə r  Ə l i y e v**: Sağ olun. Bugünkü görüşdən böyük məmnunluq duyduğumu bir daha bildirmək istəyirəm. Mən sizin bütün suallarınıza cavab verməyə çalışdım. Sizin burada olmağınıza şadam və ümidvaram ki, görüşlərimiz gələcəkdə də davam edəcəkdir. Sizə cansağlığı, əmin-amanlıq, Ukrayna xalqına və ölkənizə xoşbəxtlik, prezident Leonid Daniloviç Kuçmaya yeni uğurlar arzulayıram.

Sağ olun, salamat qalın. Xudahafiz. [66]

## AZƏRBAYCAN XALQ CƏBHƏSİ PARTİYASININ SƏDRİ ƏBÜLFƏZ ELÇİBƏYƏ MÜSAVAT PARTİYASININ SƏDRİ İSA QƏMBƏRƏ AZƏRBAYCAN LİBERAL PARTİYASININ SƏDRİ LALƏ-ŞÖVKƏT HACIYEVAYA

Məlum olduğu kimi, «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» 1998-ci il may ayının 15-də Milli Məclis tərəfindən qəbul olunmuş qanuna görə Mərkəzi Seçki Komissiyasının 12 üzvünün Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən, digər üzvünün isə Azərbaycan Respublikasının prezidenti tərəfindən təyin olunması nəzərdə tutulub. Buna müvafiq olaraq Milli Məclis 1998-ci il iyunun 26-da həmin məsələni müzakirə etmiş və Mərkəzi Seçki Komissiyasının 12 üzvündən 11-ni parlamentin siyasi strukturuna uyğun olaraq təyin etmişdir. Onların 6-sı Yeni Azərbaycan Partiyası tərəfindən, 3-ü bitərəf deputatlar tərəfindən, 1 nəfəf Azərbaycan Milli İstiqlal Partiyası tərəfindən, 1 nəfər isə Azərbaycan Demokratik İstiqlal Partiyası, Ana Vətən Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Azərbaycan Demokratik Sahibkarlar Partiyası tərəfindən təklif edilmişdir. Mərkəzi Seçki Komissiyasında AXCP-nin nümayəndəsi üçün nəzərdə tutulmuş bir yerə isə bu partiya öz təklifini verməmişdir.

1998-ci il iyun ayının 23-də Azərbaycan Respublikasının prezidenti Mərkəzi Seçki Komissiyası haqqında qanuna əsasən prezident tərəfindən təyin ediləcək Mərkəzi Seçki Komissiyasının 12 üzvünü müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçən siyasi [67-68] partiyalarla məsləhətləşmək üçün onlara müraciət edərək Mərkəzi Seçki Komissiyasına təyin olunması üçün öz namizədlərini irəli sürmək xahişi etmişdir. Müxalifət mövqeyində dayanan Azərbaycan Milli İstiqlal Partiyası Mərkəzi Seçki Komissiyasına üzv təyin edilməsi üçün öz təklifini Azərbaycan Respublikasının prezidentinə təqdim etmişdir. Lakin sizin partiyalardan indiyədək heç bir təklif daxil olmamışdır. Azərbaycan Respublikasında prezident seçkilərinin keçirilməsini təmin etmək məqsədi ilə Mərkəzi Seçki Komissiyasının təşkil olunmasının zəruriliyini nəzərə alaraq, mən 1998-ci il iyunun 26-da onun 7 üzvünü təyin etmişəm. Bununla belə, Mərkəzi Seçki Komissiyasına 5 üzv hələ də təyin olunmamışdır.

Dünən – avqustun 3-də Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının nümayəndələri ilə sizin partiyaların nümayəndələri arasında partiyalarınızın seçkilərdə iştirak etməsi ilə əlaqədar görüş keçirilmişdir. Sizin nümayəndələr bir neçə təklif irəli sürmüşlər. Onlar diqqətlə öyrənilmiş və bu gün Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının nümayəndələri ilə sizin partiyaların nümayəndələri arasında keçirilən ikinci görüşdə bildirilmişdir ki, həmin təkliflərin bir qismi prezident seçkiləri ilə bilavasitə bağlı deyil. Ona görə də onların müzakirəsi indi zəruri deyil. Sizin partiyaların nümayəndələrini Mərkəzi Seçki Komissiyasına təyin etmək üçün prezidentin səlahiyyətində olan 5 yerdən 4-nün təmsil etdiyiniz partiyaların nümayəndələrindən təyin olunmasının mümkün olduğu bildirilmişdir. Eyni zamanda bildirilmişdir ki, sizin partiyalar Mərkəzi Seçki Komissiyası üzvlüyünə namizədlərini təklif etdikləri halda imza toplanması vaxtının 10 gün uzadılması üçün qanunvericilik təşəbbüsündən istifadə edərək Azərbaycan Respublikasının prezidenti Milli Məclisə müraciət edə bilər. Sizin partiyaların nümayəndələri bildirmişlər ki, Mərkəzi Seçki Komissiyasına təyin edilmək üçün ayrılmış 4 yerə nümayəndə verməkdən imtina edirsiniz. [68-69]

Bu bəyanat məndə təəssüf doğurur. Məlumdur ki, Azərbaycanda seçki kampaniyası başlanmazdan xeyli əvvəl siz öz partiyalarınızla bu seçkilərdə iştirak edəcəyinizi və namizədlərinizi irəli sürəcəyinizi dəfələrlə bəyan etmişdiniz. Sonra «Azərbaycan Respublikası prezidentinin seçkiləri haqqında» və «Mərkəzi Seçki Komissiyası haqqında» qanunların müzakirəsi zamanı siz təkliflərinizi irəli sürmüsünüz və onların əksəriyyəti qanunların müzakirəsi, qəbulu və qanunlara əlavələr və dəyişikliklər edilməsi yolu ilə qəbul edilmişdir. Beləliklə, Azərbaycanda növbəti prezident seçkilərinin demokratik, azad və ədalətli keçirilməsini təmin edən bütün təkliflər nəzərə alınmışdır. Mərkəzi Seçki Komissiyasının indi hazırlandığı və qəbul etdiyi təlimatlarda da qanunların icra olunması üçün əlavə tədbirlər nəzərdə tutulmuşdur.

Azərbaycanın prezidenti kimi 1998-ci il oktyabrın 11-də növbəti prezident seçkilərinin keçirilməsini mühüm siyasi hadisə hesab edərək, bütün siyasi partiyaların, siyasi qüvvələrin və bütün vətəndaşların qarşıdan gələn seçkilərdə iştirak etmələrini zəruri hesab edirəm. Əminəm ki, Azərbaycanda prezident seçkilərinin keçirilməsi ölkəmizin demokratiya yolu ilə getməsini bir daha təsdiq edəcək və onun inkişafının növbəti mərhələsi olacaqdır.

Prezident seçkiləri gənc və müstəqil Azərbaycanın həyatında, onun bu günü və gələcəyi üçün çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın hər bir vətəndaşı, hər bir siyasi partiyası və ictimai təşkilatı bü böyük işə qatılmalı və onun yüksək səviyyədə həyata keçirilməsinə öz töhfələrini verməlidirlər.

Seçkilər haqqında qəbul olunmuş qanunların icrası ilə əlaqədar Azərbaycanın icra hakimiyyəti orqanlarının üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün bütün lazımi tədbirlər görülür və gələcəkdə də görüləcəkdir.

Azərbaycanın prezidenti kimi növbəti prezident seçkilərinin keçirilməsində öz məsuliyyətimi dərindən dərk edərək, sizi [69-70] bir daha bu seçkilərdə iştirak etməyə dəvət edirəm. Bəyan edirəm ki, bizim tərəfimizdən sizin nümayəndələrə çatdırılmış şərtlər öz qüvvəsində qalır. Güman edirəm ki, siz də siyasi partiya liderləri kimi mənim dəvətimə Azərbaycanın ümumxalq milli mənafeyi və dövlətimizin taleyüklü məsələsi kimi yanaşacaqsınız.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 avqust 1998-ci il*
[70]

## AZƏRBAYCAN RESPUBLİKASINDA SÖZ, FİKİR VƏ MƏLUMAT AZADLIĞININ TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi təsbit edilmişdir. Bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün dövlətin siyasi-hüquqi və iqtisadi potensialından tam istifadə edilməsi sahəsində ciddi tədbirlər görülür.

Ölkəmizdə demokratik cəmiyyətlərə xas olan institutların formalaşdırılması və azad siyasi fəaliyyət üçün hər cür şərait yaradılmışdır. İlk dəfə çoxpartiyalılıq əsasında, demokratik parlament seçkiləri keçirilmiş, ümumxalq səsverməsi ilə siyasi plüralizm, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsiplərini təsbit edən konstitusiya qəbul edilmişdir.

Ümumbəşəri dəyərlərin üstünlüyünü, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Kütləvi informasiya vasitələri demokratiya və aşkarlığın mühüm vasitəsi hesab olunur. Azərbaycan dövləti onların müstəqil qurulması, azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görür. Bu gün Azərbaycan Respublikasında yüzlərlə qəzet və jurnal, onlarla radio və televiziya şirkəti, çoxsaylı informasiya agentlikləri fəaliyyət göstərir. Onların böyük əksəriyyəti özəl qurumlara, ayrı-ayrı şəxslərə və müxtəlif [71-72] mövqedə duran siyasi və ictimai təşkilatlara məxsusdur. Kütləvi informasiya vasitələrində istənilən fikri demək, dövlət sirri təşkil etməyən istənilən faktı açıqlamaq üçün qeyri-məhdud imkanlar vardır.

Azərbaycanda söz, mətbuat azadlığının təmin edilməsi, bu hüquqdan vətəndaşların və dövlətin mənafeyi naminə düzgün, səmərəli istifadə edilməsi sahəsində müəyyən problemlər də mövcuddur ki, onların həlli istiqamətində ardıcıl tədbirlər tələb olunur. Problemlərdən biri Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarənin fəaliyyəti ilə bağlıdır. Bu idarə sovet hökuməti vaxtında – 27 oktyabr 1966-cı ildə yaranmış və Azərbaycanın bütün informasiya vasitələri üzərində senzura fəaliyyəti həyata keçirmişdir. 1990-cı il dekabr ayının 5-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə onun yeni əsasnaməsi təsdiq edilsə də əslində bu idarənin fəaliyyətində heç bir ciddi dəyişiklik baş verməmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra 1992-ci il aprel ayının 12-də prezident səlahiyyətlərini icra edən Y.Məmmədovun fərmanı ilə hərbi senzura tətbiq etmək adı altında bu idarənin mətbuat üzərində nəzarəti daha da gücləndirilmişdir. Bundan sonra 15 aprel 1993-cü ildə Azərbaycan Respublikası prezidenti Ə.Elçibəyin sərəncamı ilə hərbi vəziyyətlə bağlı senzura təkcə hərbi sirlərə deyil, bütün məlumatlara aid edilərək, jurnalistlərin sərbəst informasiya fəaliyyəti tam məhdudlaşdırılmış və idarənin fəaliyyəti daha da sərtləşdirilmişdir.

Sonrakı illərdə «Dövlət sirri haqqında» Azərbaycan Respublikası qanunu qəbul edilmədiyindən bu idarənin fəaliyyətində əsaslı dəyişiklik baş verməmişdir. 15 noyabr 1996-cı ildə «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının qanunu qəbul edildikdən sonra idarənin iş metodlarında ciddi [72-73] dəyişikliklər aparılmışdır. Buna baxmayaraq bu idarə öz fəaliyyətini yeni şəraitə uyğun qura bilməmişdir.

Lakin Azərbaycanda mətbuatın problemi təkcə bu deyil. Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir.

Mətbuat və televiziya xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, inkişafı və geniş ictimaiyyət arasında yayılmasının qayğısına qalmalıdır. Jurnalistlərin peşəkar səviyyəsini artırmaq, vətəndaşlarda kütləvi informasiya vasitələrinə obyektiv münasibət aşılamaq, mətbuatın imkanlarından bacarıq və məsuliyyətlə istifadə etmək istiqamətində həm dövlət, həm də mətbuat orqanlarının özləri çox işlər görməlidirlər. Bununla bağlı kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin və digər əməkdaşların vətənpərvərliyi, yüksək vətəndaşlıq məsuliyyəti, peşə hazırlığı, təhsili, təmiz mənəvi siması xüsusi əhəmiyyət kəsb edir. Kütləvi informasiya vasitələrində Azərbaycan qanunvericiliyinin tələblərinə, milli mənəviyyatımıza uyğun hüquqi və etik normaların gözlənməsi hər bir jurnalist üçün ən vacib vəzifə olmalıdır.

Azərbaycan Respublikasında mətbuata dövlət qayğısını, müstəqil kütləvi informasiya vasitələrinin inkişafını, vətəndaşların fikir, söz və məlumat azadlığının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, BMT-nin insan hüquqlarına dair 1948-ci il 10 dekabr tarixli ümumi bəyannaməsində, mülki və siyasi hüquqlar haqqında 1966-cı il 16 dekabr paktında, insan hüquqlarının və əsas azadlıqlarının

müdafiəsi haqqında 1950-ci il 4 noyabr tarixli Avropa konvensiyasında [73-74] və Azərbaycan Respublikası Konstitusiyasının 47-ci, 50-ci və 71-ci maddələrində elan edilmiş prinsiplərin inkişaf etdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması sahəsində görülən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasını, onlara dövlət qayğısının artırılmasını nəzərdə tutan, söz, fikir və məlumat azadlığının qorunmasını, siyasi plüralizm prinsiplərinin dönmədən həyata keçirilməsini təmin edən tədbirlər proqramının layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə təklif edilsin:

– Müvafiq qanun layihələrinin hazırlanması və qanunların qəbul edilməsi zamanı, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdə və Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan və vətəndaşların fikir, söz və məlumat azadlığı müddəaları əsas prinsiplər kimi rəhbər tutulsun.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, əlaqədar dövlət orqanları ilə birlikdə:

– Bir ay müddətində söz, fikir və məlumat azadlığının qorunması, kütləvi informasiya vasitələrində dövlət sirlərinin mühafizəsi, hüquqi və etik normaların gözlənməsi ilə bağlı beynəlxalq standartlara və Azərbaycan Respublikası qanunlarına uyğun mexanizmin yaradılması haqqında Azərbaycan Respublikası prezidentinə müvafiq təkliflər təqdim etsinlər;

– Bir ay müddətində kütləvi informasiya vasitələrinin əlavə dəyər vergisindən azad edilməsi ilə bağlı Azərbaycan Respublikasının prezidentinə müvafiq təkliflər təqdim etsinlər; [74-75]

– Söz, fikir və məlumat azadlığının təmin edilməsini tənzimləyən;

– Normativ hüquqi aktların müvafiq beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsini;

– Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərin tam və səmərəli həyata keçirilməsini;

– Bu sahədə fəaliyyət göstərən müvafiq beynəlxalq qurumlarla və qeyri-hökumət ictimai təşkilatlarla qarşılıqlı əlaqələrin və əməkdaşlığın daha da inkişaf etdirilməsini;

– Beynəlxalq mərkəzlərdə müvafiq tədqiqat və təhsil proqramları ilə tanışlıq üçün mütəxəssislərin iştirakının təmin edilməsini;

– Beynəlxalq konfrans, seminar, simpozium və digər tədbirlərdə müvafiq dövlət orqanlarının və qeyri-hökumət ictimai təşkilatların, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakına şərait yaradılmasını təmin edən müvafiq tədbirlər haqqında təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər.

4. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, əlaqədar dövlət orqanları ilə birlikdə;

– Azərbaycan Respublikasının söz, fikir və məlumat azadlığının qorunması sahəsində müvafiq beynəlxalq sazişlərə qoşulmasının mümkünlüyü məsələsini öyrənsin və iki ay müddətində Azərbaycan Respublikasının prezidentinə təkliflər versin;

– Respublikanın mərkəzi kitabxanalarını söz, fikir, məlumat azadlığının qorunması ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlərlə və bu sahədə mövcud olan nəşrlərlə təmin etsin.

5. Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyinə tapşırılsın ki, Təhsil Nazirliyi ilə birlikdə müvafiq qeyri-hökumət ictimai təşkilatların imkanlarından istifadə etməklə: [75-76]

– Jurnalist kadrların peşə hazırlığının və təhsilinin səviyyəsini qaldırmaq, onlarda yüksək vətəndaşlıq məsuliyyəti və mənəvi dəyərlər aşılamaq üçün əməli tədbirlər həyata keçirsin;

– Söz, fikir və məlumat azadlıqlarının qorunması sahəsində ölkəmizdə həyata keçirilən tədbirlərin informasiya şəbəkələri və agentliklər vasitəsilə izahını və yayılmasını təmin etsin.

6. Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə tapşırılsın ki, söz, fikir və məlumat azadlığının qorunması məsələlərinə həsr olunmuş verilişlər təşkil etsin.

7. Nazirlər Kabineti yanında mətbuat və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilsin.

8. Azərbaycan Respublikası prezidentinin hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli 685 saylı fərmanı və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli 372 saylı sərəncamı qüvvədən düşmüş hesab edilsin.

9. İzah edilsin ki, mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərinin mühafizəsi «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq surətdə həyata keçirilir.

10. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 avqust 1998-ci il*
[76]

**XALQ ARTİSTİ**
**RASİM BALAYEVƏ**

Hörmətli Rasim Balayev!

Sizi – müasir Azərbaycan kino sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 50 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz milli kinomuzun zəngin ənənələrini layiqincə davam etdirərək oynadığınız parlaq rollarla tamaşaçıların hörmətini qazanmısınız. Azərbaycan kinosunda yaratdığınız ilk obraz – Nəsimi obrazı fitri istedad və bacarığınız sayəsində kinomuzun nadir inciləri sırasına daxil olmuş və sizin gələcək yaradıcılığınıza güclü təkan vermişdir. Qüdrətli şəxsiyyətlərin obrazlarını məharətlə yaradaraq siz tarixi keçmişimizlə müasirlik arasında bir körpü salmısınız, milli-mənəvi dəyərlərimizin təbliğində böyük xidmətlər göstərmisiniz.

Kino sənətinin imkanlarından ustalıqla istifadə edərək müasirlərimizin də zəngin, dolğun obrazlarını ekranda təcəssüm etdirmisiniz. Təsadüfi deyil ki, oynadığınız və öz təbiiliyi, inandırıcılığı ilə səciyyələnən bütün rollar sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanmışdır.

Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi kimi göstərdiyiniz ictimai fəaliyyət də təqdirəlayiqdir. Sizin yaradıcılığınız və ictimai fəaliyyətiniz dövlət tərəfindən yüksək qiymətləndirilmiş və çəkdiyiniz zəhmətə görə müxtəlif mükafatlara layiq görülmüsünüz. Lakin ən böyük mükafatınız xalq məhəbbəti olmuşdur.

Əminəm ki, sənətkar ömrünün müdrik çağına qədəm qoyduğunuz bir dövrdə böyük təcrübə toplamış məşhur aktyor kimi müstəqil Azərbaycanımızın mədəniyyətinin inki[77-78]şafı üçün bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, pərəstişkarlarınızı yeni-yeni rollarla sevindirəcəksiniz.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, sənətinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 avqust 1998-ci il*
[78]

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB UİLYAM C. KLİNTONA**

Hörmətli cənab prezident, Keniyada və Tanzaniyada ABŞ-ın diplomatik nümayəndəliklərinə qarşı terror aktları törədilməsi və nəticədə Amerika vətəndaşlarının həlak olması barədə xəbər məni dərindən narahat etdi.

Bu qəddar beynəlxalq terrorizm aktlarını qətiyyətlə pisləyirəm. Əminəm ki, günahkarlar aşkar olunacaq və layiqli cəzalarını alacaqlar.

Sizə və həlak olanların qohumlarına səmimi-qəlbdən baş-
sağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 avqust 1998-ci il*
[79]

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LEONİD KUÇMAYA**

Əziz Leonid Daniloviç, sizi əlamətdar yubiley – anadan olmağınızın 60 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Keçmişdə və müstəqillik illərində Ukrayna iqtisadiyyatının inkişafında sizin böyük xidmətləriniz ölkənizdə və onun hüdudlarından kənarda yüksək qiymətləndirilir.

Ukrayna prezidenti vəzifəsində siz Ukraynanın dövlət müstəqilliyinin möhkəmlənməsi, onun beynəlxalq nüfuzunun yüksəlməsi üçün çox işlər görmüsünüz.

Ölkənizdə demokratik siyasi, iqtisadi və sosial islahatlar həyata keçirilməsi sahəsində sizin möhkəm, ardıcıl xəttiniz və əməli fəaliyyətiniz öz yaxşı nəticələrini verir və tam inam yaradır ki, Ukrayna Avropanın böyük, iqtisadi cəhətdən inkişaf etmiş, demokratik və çiçəklənən ölkəsi olacaqdır.

Sizin MDB-də prinsipial, konstruktiv mövqeyiniz və praktiki fəaliyyətiniz birliyimizə müsbət töhfə verir.

Ukrayna ilə Azərbaycan arasında dostluq münasibətlərinin dönmədən inkişaf etməsi və möhkəmlənməsi məmnunluq hissi doğurur. Siz bu işdə olduqca böyük rol oynayırsınız. Ölkələrimiz arasında əməkdaşlığın yaxşı perspektivləri var və bu əməkdaşlıq qarşılıqlı fayda gətirir.

Əziz Leonid Daniloviç, bizim aramızda yaranmış səmimi dostluq münasibətləri, sizin şəxsi mənəvi keyfıyyətiniz Ukrayna – Azərbaycan əməkdaşlığı üçün böyük əhəmiyyətə malikdir. Mən bunu yüksək qiymətləndirir və bizim ölkələrimizin gələcəyi üçün mühüm amil hesab edirəm. [80-81]

Azərbaycanda olduğu kimi, Ukraynada da çoxlu mürəkkəb və çətin siyasi, iqtisadi və sosial problemlər var. İnanıram ki, sizin rəhbərliyinizlə və Ukrayna xalqının milli mənafelərinə uyğun olan fəal daxili və xarici siyasətiniz sayəsində bu problemlər müvəffəqiyyətlə həll ediləcəkdir.

Əziz dost, bu fərəhli gündə Sizə səmimi-qəlbdən səadət, əmin-amanlıq, qardaş Ukrayna xalqının tərəqqisi naminə yeni uğurlar arzulayıram.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 avqust 1998-ci il*
[81]

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN 60 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YALTA ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*9 avqust 1998-ci il*

**S u a l: Cənab prezident, səfərinizin məqsədi barədə jurnalistlərə nə deyə bilərsiniz?**

**C a v a b**: Səfərimin məqsədi məlumdur: Ukrayna prezidenti Leonid Kuçmanın 60 yaşı tamam olur, mən onu təbrik etməyə gedirəm. Bir sıra digər ölkələrin başçıları da Yaltaya gələcəklər. Orada bir sıra görüşlər olacaqdır. Bu işgüzar səfər həm də Ukrayna–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yeni mühüm addımlar atmaq məqsədi daşıyır.

Bilirsiniz ki, bizim ölkələrimiz arasında əlaqələr dostluq, partnyorluq xarakteri daşıyır. Mən istəyirəm ki, bu əlaqələr daha da genişlənsin və inkişaf etsin. Ukrayna prezidenti də belə fikirdədir və onun da belə arzuları vardır. Bütün bunlara görə də mən bu gün oraya gedirəm.

**S u a l: Mən «ANS» televiziya və radio şirkətindənəm. Cənab prezident, siz Lalə-Şövkət Hacıyevaya, Əbülfəz Elçibəyə və İsa Qəmbərə müraciət etmisiniz. Həmin müraciətdə deyilir ki, onlar müəyyən qüvvələrin təsiri altında seçkilərə getmirlər. Amma müəyyən cavablar da olmuşdur. Bu cavaba siz necə münasibət bəsləyirsiniz? Əgər onlar həmin qüvvələrin təsiri [82-83] altında qalarsa, bu, Azərbaycandakı vəziyyətə mənfi təsir göstərə bilərmi?**

**Cavab**: Bilirsiniz ki, yalnız Əbülfəz Elçibəy mənə cavab göndəribdir. Digər partiyaların başçılarından cavab almamışam. Mən istəyirəm ki, onlar, Azərbaycanda həqiqətən sosial bazaya malik olan partiyalardırsa, seçkilərdə iştirak etsinlər, kənarda qalmasınlar. Ancaq onlar özləri-özlərini kənarda qoyublar. Mən isə bir neçə cəhdlər göstərmişəm.

Hesab edirəm ki, dövlət başçısı kimi mən bütün başqa hissiyyatlardan yuxarıda durub Azərbaycanın bütün qüvvələrinin hamısının əməkdaşlıq etməsinə çalışmalıyam. Buna görə də mən bu işləri görürəm. Bilirsiniz ki, mən Azərbaycanda qeydiyyatdan keçmiş bütün siyasi partiyalara hələ iyunun 23-də müraciət etdim, onları dəvət etdim ki, Mərkəzi Seçki Komissiyasında təmsil olunmaq üçün öz namizədlərini versinlər. Ancaq onlar buna cavab vermədilər. Təkcə Milli İstiqlal Partiyası öz təklifini verdi. Mən bu təklifi qəbul etdim və onların nümayəndəsi Mərkəzi Seçki Komissiyasına üzv qəbul olunubdur. Ancaq adlarını çəkdiyiniz partiyalar öz təkliflərini vermədilər. Vermədilər, mən nə edim? Amma buna baxmayaraq, mən hesab edirəm ki, əgər bir tərəf nəyisə dərk edə bilmirsə, o biri tərəf çalışmalıdır ki, onu anlatsın. Ona görə də mən avqustun 4-də Azərbaycan Xalq Cəbhəsi Partiyasının, Müsavat Partiyasının, Azərbaycan Liberal Partiyasının başçılarına məktub göndərdim. Bunlar sizə məlumdur. Orada hər şey açıq-aydın izah olunubdur. Ancaq onlardan müsbət cavab almamışam. Özləri bilərlər.

**S u a l: Cənab prezident, Siz Əbülfəz Elçibəyin cavab məktubundakı fikirlərini necə qiymətləndirirsiniz?**

**C a v a b**: Bilirsiniz, mənim məqsədim ondan ibarətdir ki, bu partiyalar öz əsassız siyasi ambisiyalarını kənara qoyub seçkilərdə iştirak etsinlər və real tərəfdarlarının, partiya kimi güclərinin nə qədər olduğunu respublikada da, beynəlxalq [83-84] aləmdə də nümayiş etdirsinlər. Amma onlar bundan çəkinirlər və cürbəcür bəhanələr irəli sürürlər. Məsələn, Elçibəy yazır ki, respublikada filan qədər siyasi məhbus vardır. Mən sizə deyirəm: – Azərbaycanda siyasi məhbus yoxdur. Heç bir siyasi partiyanın üzvü toxunulmazlıq hüququna malik deyildir. Əgər siyasi partiyanın üzvü olan adam gedib adi bir kriminal cinayət edirsə və o cinayətə görə məsuliyyətə cəlb edilirsə, siyasi partiya sadəcə olaraq bu cinayətin qarşısını almağa çalışmalıdır, amma cinayətkarı müdafiə etməməlidir. Əsas məsələ bundan ibarətdir.

Bilirsiniz, bir şeydən imtina etmək, yaxud bir məsələ ilə razı olmamaq üçün hər cür bəhanə tapmaq olar. Onlarla ümumiyyətlə danışıq aparmamaq üçün mənim əsasım var, bəhanəm yox. Bilirsiniz ki, onlar 1993-cü ilin əvvəlində Azərbaycanı nə vəziyyətə saldılar. Əgər onlar iqtidarda olduqları zaman Azərbaycanı idarə edə bilmədilərsə, hərəsi bir tərəfə qaçıb dağıldısa, indi şərtlər qoymağa nə haqları vardır? Yaxud ondan sonrakı dövlət çevrilişlərinə cəhdlərdə onların bilavasitə iştirakı vardır. 1993-cü ilin avqust ayında burada türkiyəli bir gənc mənə terror etməyə cəhd göstərdiyinə görə həbs olunubdur. Bu işin təşkilatçıları da onlardır. Amma mən bunların hamısını kənara qoymuşam ki, olan-olub, keçən-keçib, gəlin əməkdaşlıq edək. İndi gəlib bu bəhanəni, o bəhanəni qoyublar.

**S u a l: Cənab prezident, Ermənistan prezidentini Bakıya dəvətinizə rəsmi cavab olubmu? Ermənistanın bəzi dairələri Koçaryanın Bakıya səfərinin çox təhlükəli olduğunu söyləyirlər. Bu bəyanatlara Sizin münasibətiniz necədir?**

**C a v a b**: Bilirsiniz, bu, onların öz işləridir. Əgər mən dəvət etmişəmsə, bilirəm ki, onun təhlükəsizliyini təmin etmək lazımdır. Ona görə də nə orada, nə də Azərbaycanda belə şayiələr yaymaq lazım deyildir. Biz dövlətik. 35-36 ölkənin dövlət və hökumət başçısı Azərbaycana dəvət olunubdur. [84-85] Ermənistan da bu bölgədə olan ölkələrdən biridir. Bu tədbir də təkcə Azərbaycanın keçirdiyi tədbir deyildir. Bu, beynəlxalq tədbirdir. Ermənistanla bu gün hərbi münaqişədə olduğumuz halda həmin tədbirdə onların kənarda qalması düzgün deyildir. Mən bunu çox ölçüb-biçmişəm. Elə bilməyin ki, Ermənistan prezidentinə dəvət məktubu göndərmək mənim üçün çox asan məsələ idi. Amma mən bunu etmişəm. Əgər etmişəmsə, demək, hər bir zəmanət də veriləcəkdir.

**S u a l**: **Cənab prezident**, **Azərbaycandakı Amerika vətəndaşlarının təhlükəsizliyi barədə Dövlət departamentinin verdiyi bəyanatla bağlı nə deyə bilərsiniz**?

**C a v a b**: Bunlar əsassız şayiələrdir. Hesab edirəm ki, Dövlət Departamentinin yaydığı həmin məlumatlar tam əsassızdır. Bunun heç bir əsası yoxdur. [85]

## SİMFEROPOL HAVA LİMANINDA UKRAYNA VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİNİN SUALLARINA CAVAB

*9 avqust 1998-ci il*

**S u a l: Heydər Əliyeviç, məlum olduğu kimi, sentyabrda Azərbaycanda keçiriləcək zirvə görüşündə Xəzər neftinin nəqli məsələsi həll ediləcəkdir. Siz bundan əvvəl Yaltada olarkən mənim sualıma cavab verərək bildirmişdiniz ki, bu məsələdə Ukraynanın mənafeyi gözləniləcəkdir. Siz həmin fikrinizdə qalırsınızmi? Bu məsələ praktikada özünü necə göstərəcəkdir?**

**C a v a b**: Sualınız bir qədər dəqiq deyildir. Sentyabrın 7-8-də Bakıda keçiriləcək zirvə görüşü Avropa Birliyinin TRASEKA proqramı üzrə Böyük İpək yolunun bərpa olunması probleminə həsr edilir. Bu, Xəzər neftinin nəqlindən daha böyük məsələdir. Ona görə ki, Avropa-Qafqaz-Asiya nəqliyyat magistralından söhbət gedir. İpək yolu üzərində yerləşən bütün dövlətlər – 34 dövlət – bu zirvə görüşünə dəvət olunmuşdur. Ukrayna da dəvət edilmişdir.

O ki qaldı Xəzər neftinin nəqlinə, mən bu barədə keçən dəfə dedim və o vaxtdan bəri elə bir böyük dəyişiklik yoxdur. Neftin Qərb marşrutu ilə nəqlindən söhbət gedir. Biz artıq Şimal marşrutu ilə nefti Qara dəniz sahilindəki Novorossiysk limanına ixrac edirik. Qərb marşrutu üzrə iki neft kəməri çəkmək nəzərdə tutulur. Bunlardan biri Gürcüstanın Qara dəniz sahilinə çəkilən Bakı-Supsa boru kəməri, ikincisi isə böyük neft kəməri – Gürcüstan ərazisindən keçərək Türkiyənin Aralıq dənizi sahilinə çəkiləcək Bakı-Ceyhan kəməridir. [86-87] Şübhəsiz ki, Ukrayna bu proqramdan kənarda qalmır. Mən bunu keçən dəfə demişəm və bu gün də təkrar edirəm ki, bu marşrutların hamısından Ukraynanın neft almaq imkanı olacaqdır.

**S u a l: Şəxsi sual vermək olarmı? Siz öz dostunuza – Ukrayna prezidentinə hansı hədiyyəni aparırsınız?**

**C a v a b**: Məgər məsələ hədiyyədədir? Məsələ bundadır ki, mən gəlmişəm. Leonid Daniloviçə böyük hörmətim özünü məhz bunda göstərir ki, mən xüsusi olaraq gəlməyi və onu şəxsən təbrik etməyi qərara almışam. Hesab edirəm ki, hədiyyələrin həm məndən ötrü, həm də başqalarından ötrü heç bir əhəmiyyəti yoxdur. [87]

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Yalta*

*9 avqust 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Əziz dostum Leonid Kuçma! Sizi səmimi-qəlbdən salamlayır və 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, cansağlığı, uzun ömür arzulayıram. Ukrayna dövlətinin müstəqilliyinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi kimi şərəfli işinizdə Sizə yeni-yeni uğurlar diləyirəm.

**L e o n i d  K u ç m a**: Hörmətli dostum Heydər Əliyev, anadan olmağımın 60 illiyi münasibətilə məni təbrik etmək üçün Yaltaya gəlməyinizdən çox məmnun olduğumu vurğulayır, səmimi sözlərə görə təşəkkürümü bildirirəm. Müstəqil Azərbaycan və Ukrayna dövlətləri arasında qarşılıqlı surətdə faydalı əlaqələrin gündən-günə inkişaf etməsini minnətdarlıqla qeyd etmək istəyirəm.

Ölkələrimiz arasında son illər yaranmış əlaqələrin ardıcıl surətdə möhkəmlənməsində bizim şəxsi dostluq münasibətlərimiz mühüm rol oynayır.

Əziz dostum, Sizin müdrik rəhbərliyiniz ilə Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu, islahatların müvəffəqiyyətlə həyata keçirilməsi sahəsində görülən işlər Ukraynada daim diqqətlə izlənilir və böyük rəğbət doğurur.

Ukraynada son illər demokratik siyasi, iqtisadi və sosial islahatlar həyata keçirilmişdir. Biz müstəqil Azərbaycan Res[88-89]publikası ilə bütün sahələrdə əlaqələri inkişaf etdirməyə böyük maraq göstəririk.

**H e y d ə r  Ə l i y e v**: Ukrayna prezidenti vəzifəsində Siz Ukraynanın dövlət müstəqilliyinin möhkəmlənməsi, onun milli mənafelərinə cavab verən daxili və xarici siyasəti, beynəlxalq nüfuzunun yüksəlməsi üçün çox işlər görmüsünüz. Biz Avropanın böyük ölkələrindən biri olan, Qara dəniz sahilində xüsusi strateji coğrafi ərazidə yerləşən Ukrayna ilə dostluq və strateji tərəfdaşlıq əlaqələrimizin genişlənməsinə xüsusi əhəmiyyət veririk.

Xəzər dənizi hövzəsinin enerji ehtiyatlarından istifadə edilməsinə Ukraynanın da ciddi maraq göstərməsini böyük razılıq hissi ilə qeyd edirəm. Mən ölkələrimiz arasında yaranmış əməkdaşlığın dövlətlərimizin müstəqilliyinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi, bir sözlə, ölkələrimizin gələcəyi üçün mühüm amil hesab edirəm.

Beynəlxalq təşkilatlarda, Avropa strukturlarında, Müstəqil Dövlətlər Birliyində Azərbaycanın və Ukraynanın səmərəli əməkdaşlığı məndə böyük məmnunluq hissi doğurur. Ölkələrimizin mövqelərinin bir çox məsələlərdə üst-üstə düşməsinin böyük əhəmiyyət daşıdığını vurğulayım.

Ukrayna ilə Azərbaycan arasında, xalqlarımız arasında həmişə ənənəvi dostluq münasibətləri olmuşdur. Biz bu münasibətlərin daha da dərinləşdirilməsi, iqtisadiyyat, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün bütün imkanlardan istifadə edirik.

Mən çox məmnunam ki, iqtisadi əlaqələrimizin inkişafı üçün böyük əhəmiyyətə malik Avropa-Asiya nəqliyyat dəhlizinin yaranmasında və inkişafında Ukrayna da yaxından iştirak edir. Azərbaycan bu nəqliyyat dəhlizinin səmərəli işləməsi, Xəzər dənizi hövzəsindəki yataqlardan hasil olunan neft və qazdan istifadə edilməsi, enerji ehtiyatlarının nəqli ilə əlaqədar işlərdə iştirak edən bütün ölkələrə fayda gətirməsi [89-90] üçün və onun qardaş Ukraynaya da iqtisadi fayda gətirməsi üçün hər şey edir və edəcəkdir.

Asiya-Avropa-Transqafqaz nəqliyyat dəhlizinin, ümumiyyətlə Qədim İpək yolunun bu vasitə ilə bərpa olunması Şərq ilə Qərbin, Asiya ilə Avropanın bilavasitə əlaqələrinin yaranması üçün çox faydalıdır.

Hörmətli Leonid Daniloviç mən Sizi Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə bu il sentyabrın 7-8-də Bakıda beynəlxalq konfrans keçiriləcək və inanıram ki, Siz də bu konfransda iştirak edəcəksiniz.

**L e o n i d  K u ç m a**: Azərbaycanda keçiriləcək bu beynəlxalq konfransa Ukrayna xüsusi əhəmiyyət verir və mən Bakıya gələcəyimi, böyük məmnunluqla bu tədbirdə iştirak edəcəyimi bildirirəm.

Əziz dostum Heydər Əliyev, bizə yaxşı məlumdur ki, Azərbaycanda yaşayan ukraynalılar həm Azərbaycanın, həm də Ukraynanın bərabər hüquqlu vətəndaşları kimi ölkələrimizin həyatında fəal iştirak edirlər.

**H e y d ə r  Ə l i y e v**: Bəli,bizim Azərbaycanda yaşayan başqa millətlərə olduğu kimi, ukraynalılara da dost, qardaş kimi yanaşırlar. Hər hansı bir ayrı-seçkilik heç kəsin ağlına belə gəlmir. Onlar Azərbaycan vətəndaşı kimi ölkəmizin ictimai-siyasi həyatında aktiv çalışırlar. Ukraynada yaşayan azərbaycanlılar da onlara qarşı olan münasibətdən razılıq edir, özlərini dost eldə, öz evlərində olduğu kimi hiss etdiklərini bildirirlər. [90]

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Yalta*

*9 avqust 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Əziz dostum Eduard Amvrosiyeviç!

Sizi səmimi-qəlbdən salamlayıram, xoş gördük. Gürcüstan ilə Azərbaycan arasında, xalqlarımız arasında, bizim aramızda həmişə xoş və mehriban münasibətlər mövcud olmuşdur. Dəfələrlə görüşlərimiz, danışıqlarımız zamanı qonşu və dost ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da genişləndirilməsi istiqamətində problemlərin həlli yollarını nəzərdən keçirmişik. İndi bu istiqamətdə görülən işləri yüksək qiymətləndirirəm.

**E d u a r d  Ş e v a r d n a d z e**: Əziz dostum, qardaşım Heydər Əliyev! Sizinlə hər bir görüşüm mənim üçün xüsusi əhəmiyyət daşıdığını böyük məmnunluq hissi ilə nəzərə çarpdırıram. Gürcüstanda hazırkı ictimai-siyasi vəziyyət, Gürcüstan-Abxaziya münaqişəsinin aradan qaldırılması prosesində müəyyən müsbət işlər görülmüşdür. Belə problemlərin tezliklə öz həllini tapması ən əvvəl ona yönəlmişdir ki, Qafqazda sülh, əmin-amanlıq bərqərar olunsun.

**H e y d ə r  Ə l i y e v**: Mən də Sizin ilə görüşümdən çox məmnun qaldığımı vurğulayıram. Sizə məlumdur ki, [91-92] Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və islahatlar müvəffəqiyyətlə həyata keçirilmiş, bu sahədə bir çox nailiyyətlər əldə edilmişdir. Sizə o da məlumdur ki, Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır.

Beynəlxalq məclislərdə Sizə və Gürcüstan nümayəndə heyətinə Azərbaycanın ədalətli xarici siyasətini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, dincliklə aradan qaldırılmasına yönəldilmiş mövqeyini dəstəklədiyiniz üçün minnətdarlığımı bildirirəm.

Ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi üçün olduqca əlverişli şərait yaratmaq imkanları mövcuddur. Öz tərəfimizdən biz bundan ötrü hər şeyi edəcəyik.

Bilirsiniz ki, Xəzər dənizinin Azərbaycan sektorunda, həmçinin Xəzərin digər sektorlarında – Qazaxıstan, Türkmənistan sektorlarında da neft və qaz ehtiyatları var. Biz Sizinlə dəfələrlə Xəzər dənizi hövzəsindəki yataqlardan hasil edilən neftin dünya bazarına çıxacaq boru kəmərlərinin marşrutları barədə fikir mübadiləsi aparmışıq. Hesab edirəm ki, bu kəmərlərin tikintisini surətləndirmək lazımdır.

**E d u a r d  Ş e v a r d n a d z e**: Bu deyilənlərlə tamamilə razıyam. Çox maraqlı layihələr nəzərdə tutulmuşdur. Hazırda biz Gürcüstan ilə Azərbaycan arasında əməkdaşlığın yeni yollarını açırıq.

Türkmənistan qazının da ixrac ediləcəyi boru xəttinin Xəzər dənizi vasitəsilə Azərbaycandan, Gürcüstandan keçməklə Qərbə getməsi barədə danışıqlar aparılır.

**H e y d ə r  Ə l i y e v**: Bildirirəm ki, bu il sentyabrın 7-8-də Bakıda Avropa Birliyinin himayəsi altında TRASEKA proqramı çərçivəsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə beynəlxalq konfrans keçiriləcəkdir. Əminəm ki, bu beynəlxalq tədbir iştirakçı dövlətlərin bütün sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsinə güclü təkan verəcəkdir. [92-93]

**E d u a r d  Ş e v a r d n a d z e**: Sizin, cənab Heydər Əliyev, uzaqgörən, müdrik siyasətiniz sayəsində dost Azərbaycanda keçiriləcək beynəlxalq konfrans Gürcüstan üçün də böyük əhəmiyyət daşıyır. Buna görə mən böyük məmnuniyyətlə bu beynəlxalq tədbirdə iştirak edəcəyəm.

**H e y d ə r  Ə l i y e v**: Biz müstəqil dövlətlərimizin beynəlxalq təşkilatlarda əməkdaşlığının sıxlaşdırılmasında, Qafqazda sülhün, təhlükəsizliyin, əmin-amanlığın bərqərar olunmasında bütün imkanlardan geniş istifadə etməliyik. [93]

## ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Yalta*

*9 avqust 1998-ci il*

**İ s l a m K ə r i m o v**: Hörmətli cənab prezident!

Sizinlə – böyük hörmət və ehtiram bəslədiyim bir şəxsiyyətlə yenidən görüşməyimdən çox məmnunam. Sizin müstəqil Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində rolunuz çox böyükdür. Ölkənizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində əldə etdiyiniz nailiyyətlər çox yüksəkdir. Mən əminəm ki, Azərbaycan Sizin rəhbərliyinizlə dünyada ən inkişaf etmiş ölkələrdən birinə çevriləcəkdir. Özbəkistan bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini bundan sonra da dəstəkləyəcəkdir.

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Kərimov!

Səmimi sözlərinizə görə təşəkkür edirəm. Mən xalqlarımız arasında gözəl ənənələrə malik tarixi dostluq münasibətlərinin gündən-günə möhkəmləndiyini, ölkələrimizin bütün sahələrdə əməkdaşlığının inkişaf etdiyini xüsusi qeyd etmək istərdim. Mən bu işlərin gedişatından çox razıyam. Siz bilirsiniz ki, bu ilin sentyabr ayında Bakıda Avropa-Asiya nəqliyyat magistralının perspektivləri, o cümlədən TRASEKA proqramı çərçivəsində Qədim İpək yolunun bərpa edilməsi ilə əlaqədar beynəlxalq konfrans keçiriləcək. Biz bu işə ciddi hazırlıq görürük. [94-95]

**İ s l a m K ə r i m o v**: Mən belə bir konfransın keçirilməsini yüksək qiymətləndirirəm. Bu olduqca vacib və aktual bir məsələdir. Özbəkistan bu konfransın işində mütləq iştirak edəcəkdir. Bundan başqa, ölkələrimiz arasında qarşılıqlı maraq doğuran hər hansı məsələni biz mütləq həll etməliyik. Bir daha Sizinlə görüşümə şad olduğumu bildirirəm. [95]

## MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Yalta*

*9 avqust 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli cənab Petru Luçinski. Sizinlə görüşümə çox şadam. Əziz dostumuz Leonid Kuçmanın anadan olmasının 60 illik yubileyini böyük məmnunluq hissi ilə qeyd etdiyimiz Yalta şəhərində bir sıra müstəqil dövlət rəhbərləri ilə keçirilən görüşlər həmin dövlətlər arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi üçün olduqca vacib və əhəmiyyətlidir. Dost Moldovanın dost prezidenti ilə görüşümü də bu baxımdan mən çox qiymətləndirirəm.

**P e t r u  L u ç i n s k i**: Hörmətli cənab Heydər Əliyev! Sizinlə görüşüm məni də çox məmnun edir. Qafqazda böyük strateji mövqeyi olan Azərbaycan Respublikası ilə bütün sahələrdə əməkdaşlığın ardıcıl surətdə inkişaf etdirilməsinə bizim ölkəmizin xüsusi marağı vardır.

**H e y d ə r  Ə l i y e v**: Əlbəttə, ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da canlandırılmasında Moldova kimi Azərbaycan da maraqlıdır. Mən xalqlarımız arasında dostluq və tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Bizim geniş fikir mübadiləsinə ehtiyacı olan problemlərimiz az deyil. Bunlardan biri Xəzər hövzəsinin enerji ehtiyatlarından istifadə olunması problemidir. Sözsüz ki, dənizin Azərbaycan sektorundakı yataqlardan hasil edilən [96-97] neftin ixracı məsələləri barədə geniş fikir mübadiləsi keçirməliyik. Qədim İpək yolunun bərpası da zəruridir.

**P e t r u  L u ç i n s k i**: Bəli, bu çox vacibdir. Bu sahədə xeyli iş də görülmüşdür.

**H e y d ə r  Ə l i y e v**: Biz də bu işləri yüksək qiymətləndiririk. Onu da deməliyəm ki, bir neçə gün sonra, yəni gələn ayın, sentyabrın 7-8-də Bakıda Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə beynəlxalq konfrans keçiriləcəkdir. Mən Sizi də bu konfransda iştirak etməyə dəvət edirəm.

**P e t r u  L u ç i n s k i**: Çox sağ olun, konfrans Moldova üçün də əhəmiyyətlidir. Belə ki, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizindən səmərəli istifadə etməkdə bizim ölkəmiz də çox maraqlıdır. Buna görə mən böyük məmnuniyyətlə bu beynəlxalq tədbirdə iştirak edəcəyəm.

**H e y d ə r  Ə l i y e v**: Bizim ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə əməkdaşlığı genişləndirmək üçün hər cür imkanlarımız var. Biz bu imkanlardan hər tərəfli istifadə etməliyik. Əminəm ki, görüşlərimiz və söhbətlərimiz bundan sonra da səmərəli olacaq. [97]

## MDB-nin İCRAÇI KATİBİ BORİS BEREZOVSKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Yalta*

*9 avqust 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Berezovski! Sizinlə görüşümdən çox şadam. Hər şeydən əvvəl Sizin Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün göstərdiyiniz səyləri yüksək qiymətləndirir və bu səylərin davam etdirilməsini vacib hesab edirəm.

**B o r i s B e r e z o v s k i**: Çox sağ olun, cənab prezident. Sizinlə, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən şərəf duyuram. Müstəqil Dövlətlər Birliyinin icraçı katibi kimi mən Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində fəaliyyətimi mütləq davam etdirəcəyəm.

**H e y d ə r Ə l i y e v**: MDB-nin üzvü olan ölkələr arasında münaqişələrin davam etməsi yolverilməzdir və bu birlik Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə həll edilməsi, müstəqil dövlətimizin ərazi bütövlüyünün təmin olunması, yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarına qaytarılması istiqamətində əməli addımlar atılmalıdır.

**B o r i s B e r e z o v s k i**: MDB məkanında hər hansı bir münaqişəyə, doğrudan da, yol vermək olmaz. Bu sahədə fəaliyyətimizi genişləndirmək günün ən vacib məsələlərindən[98-99]dir. Ukrayna prezidenti Leonid Kuçmanın 60 illik yubileyində iştirak etmək üçün Yaltaya gəlmiş dövlət başçıları bu haqda da fikir mübadiləsi etməlidirlər.

**H e y d ə r Ə l i y e v**: Mən hələ çox gənc olan müstəqil respublikalar arasında qarşılıqlı surətdə faydalı əlaqələrin durmadan inkişaf etməsindən böyük məmnunluq hissi duyuram. Onu da deməliyəm ki, dünya ölkələri Qafqazda coğrafi-strateji mövqeyə malik olan Azərbaycanla bütün sahələrdə sıx əlaqələr qurmağa xüsusi maraq göstərirlər. Mən Qədim İpək Yolunun bərpası ilə əlaqədar Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə sentyabrın 7-8-də Bakıda keçiriləcək beynəlxalq konfransın MDB üzvü olan ölkələrdə də çox böyük faydalar gətirəcəyinə əminəm. [99]

## YALTADAN BAKIYA QAYIDARKƏN UKRAYNAYA SƏFƏRİN YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*10 avqust 1998-ci il*

Dünən, avqustun 9-da mən Ukraynaya, Krıma gəldim, bu gün Vətənə qayıdıram. Bu qısamüddətli səfərimin əsas məqsədi Ukraynanın prezidenti Leonid Kuçmanı 60 yaşının tamam olması, doğum günü münasibətilə təbrik etməkdən ibarətdir.

Ukrayna ilə Azərbaycan arasında dostluq və partnyorluq əlaqələrinin yaranması və indi sürətlə inkişaf etməsi, Leonid Kuçma ilə mənim aramda yaranmış şəxsi dostluq münasibətləri belə bir səfərin zəruri olduğunu mənim üçün müəyyən etmişdir. Ona görə də mən bu səfəri etdim. Azərbaycanın dövlət başçısı kimi mən gördüyüm hər bir işi, o cümlədən xarici ölkələrə hər bir səfərimi yalnız və yalnız Azərbaycanın, bizim respublikamızın, ölkəmizin nüfuzunun, hörmətinin daha da qaldırılması naminə və müxtəlif ölkələrlə əməkdaşlığımızın inkişaf etdirilməsi naminə edirəm. Bu səfər də məhz bu arzudan, bu istəkdən irəliyə gəlmişdir.

Bilirsiniz ki, Ukrayna ilə Azərbaycan arasındakı əlaqələr son illər yaranıbdır. Həm Ukrayna tərəfinin,həm də Azərbaycan tərəfinin və xüsusən də iki ölkənin prezidentlərinin səyi nəticəsində bu əlaqələr sürətlə inkişaf edir. Mən bunu çox zəruri hesab edirəm. Ukrayna – Azərbaycan əlaqələrinin mövcud şəraiti vəziyyəti və onun inkişaf etməsinin bir neçə səbəbləri vardır. Birinci, biz bir-birimizə coğrafi cəhətdən çox yaxınıq. Ukrayna dünyanın, Avropanın böyük ölkələrindən [100-101] biridir. Onun böyük ərazisi, 50 milyondan artıq əhalisi, böyük iqtisadi potensialı vardır. Qara dənizin sahilində onun böyük strateji coğrafi vəziyyəti vardır. Ukrayna Qafqaza, Azərbaycana çox meyl göstərir, o cümlədən Xəzər dənizi hövzəsinin enerji ehtiyatlarından istifadə olunmasına çox böyük maraq göstərir. Ukrayna Böyük İpək Yolunun bərpa edilməsi probleminə də çox maraq göstərir. Sentyabrın 7-8-də keçirilməsi nəzərdə tutulmuş beynəlxalq konfransda Ukrayna prezidenti iştirak edəcəkdir.

Ukrayna ilə biz Müstəqil Dövlətlər Birliyində də çox səmərəli əməkdaşlıq edirik. Deyə bilərəm ki, Müstəqil Dövlətlər Birliyinin fəaliyyətində Ukrayna ilə Azərbaycanın mövqeləri bir çox məsələlərdə üst-üstə düşür. Ukrayna bir çox hallarda bizim təkliflərimizi müdafiə edir, biz də Ukraynanın təkliflərini müdafiə edirik. Şəxsən məni Ukrayna prezidenti ilə belə sıx əlaqələrə sövq edən amillərdən biri də ondan ibarətdir ki, hesab edirəm, Ukrayna prezidenti Leonid Kuçma öz ölkəsinin milli mənafelərinə cavab verən, düşünülmüş daxili və xarici siyasət aparır. Leonid Kuçmanın daxili siyasəti bizim siyasətimizlə demək olar ki, tam üst-üstə düşür.

Prezident Leonid Kuçma Ukraynada demokratik prinsiplərin inkişaf etməsinə və möhkəmlənməsinə çalışır. Ukraynada iqtisadi islahatlar həyata keçirilir, bazar münasibətlərinin bərqərar olunması üçün çox ciddi tədbirlər görülür. Beləliklə, Ukraynanın iqtisadiyyatı tamamilə yenidən qurulur.

Doğrudur, onların problemləri də vardır və bu problemlər az deyildir. Ukraynanın parlamenti bir sıra məsələlərdə çox vaxt icra hakimiyyəti ilə razılaşmır. Məsələn, mən maraqlandım, özəlləşdirmə sahəsində onların çətinlikləri vardır. Kiçik və orta müəssisələrin özəlləşdirilməsini aparıblar və aparırlar, ancaq Ukraynanın parlamenti iri müəssisələrin özəlləşdirilməsinə razı olmur. [101-102]

Yaxud torpaq islahatı sahəsində də onların problemi vardır. Bilirəm ki, Leonid Kuçma və onun tərəfdarları geniş torpaq islahatı həyata keçirmək, o cümlədən torpağın şəxsi mülkiyyətə verilməsini təmin etmək istəyirlər. Ancaq buna nail ola bilmirlər. Çünki bunun əleyhinə çıxan qüvvələr çoxdur və onların əksəriyyəti də Ukraynanın parlamentindədir.

Onların başqa problemləri də vardır. Lakin bunlara baxmayaraq, Ukrayna prezident Leonid Kuçmanın təşəbbüsü və rəhbərliyi ilə islahatlar, demokratiya, bazar münasibətləri yolu ilə gedir. Güman edirəm onlar bu çətinliklərin də öhdəsindən gələ biləcəklər.

Bütün bunlara görə Ukrayna ilə Azərbaycan arasında dostluq əlaqələri tamamilə təbiidir. Çünki biz eyni yolla gedirik. Doğrudur, burada bizim nailiyyətlərimiz daha çoxdur. Ancaq əsas məsələ bu nailiyyətlərin çox və ya az olmasında deyildir; bu, strateji yoldan, siyasətdən ibarətdir.

Ukrayna və prezident Leonid Kuçma xarici siyasətdə bütün ölkələrlə qarşılıqlı faydalı əlaqələr yaratmaq istəyir və artıq bunları yaradıbdır. Qeyd etdiyim kimi, Ukrayna Qafqaza, Mərkəzi Asiyaya, Xəzər dənizi hövzəsinə çox diqqət verir. Ukrayna Türkiyə ilə sıx iqtisadi əlaqələr yaradıbdır, Qərb ölkələri ilə əlaqələrin inkişafına çox fikir verir. O cümlədən, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edən Ukrayna bu sahədə daha irəliyə getmiş ölkələrdən biridir. Beləliklə, xarici siyasət sahəsində də bizim fikirlərimiz, niyyətlərimiz üst-üstə düşür.

Qeyd etdiyim kimi, Müstəqil Dövlətlər Birliyində biz demək olar ki, əsas məsələlərdə eyni mövqedən çıxış edirik. Mən bunu da çox əhəmiyyətli hesab edirəm. Prezident Leonid Kuçmanın siyasətinin məni xüsusən cəlb edən bir cəhəti də ondan ibarətdir ki, - ola bilər ki, bu əsasdır – Leonid Kuçma Ukraynanın tam müstəqil dövlət olması yolunda öz səylərini qoyub, çalışır və Ukraynanı daimi [102-103] müstəqil

dövlət etmək istəyir. Bu, bizim üçün əsasdır. Çünki bilirsiniz ki, MDB çərçivəsində bəzən bu barədə açıq olmasa da müxtəlif siyasətlər yürüdülür. Azərbaycan dövlət müstəqilliyinin qorunmasını, saxlanmasını və möhkəmlənməsini daim əsas şərt hesab etdiyinə görə və bu, Azərbaycan prezidenti kimi mənim siyasətimin əsas istiqaməti olduğuna görə bu məsələdə də prezident Kuçma ilə mənim fikirlərimin eyni olması, eyni istiqamətdə olması məni Ukrayna ilə aramızda olan münasibətləri daha da genişləndirməyə, inkişaf etdirməyə sövq edir.

Ukrayna bir ölkə, dövlət kimi Azərbaycanın və Xəzər dənizinin neft və qaz yataqlarına çox böyük maraq göstərir, gələcəkdə bundan istifadə etmək istəyir. Mən də hesab edirəm ki, bu sahədə Ukrayna Azərbaycan üçün çox dəyərli partnyorlardan biri ola bilər.

Şübhəsiz ki, bütün bunlar mənim bu səfərimin əsasını təşkil edir. Ancaq bunlarla yanaşı, şəxsi münasibətlər də müəyyən rol oynayır. Leonid Kuçma ilə mənim aramda dostluq münasibətləri yaranıbdır. Prezident, dövlət xadimi kimi Leonid Kuçma, hesab edirəm, çox dəyərli işlər görür. Ancaq bir insan kimi də sadə, təvazökar, səmimi münasibət göstərən bir insandır. Bütün bunlara görə də mənimlə onun arasında dostluq əlaqələri yaranıbdır.

Bütün bu amillərə görə də mən prezident Leonid Kuçmanı təbrik etmək üçün belə bir səfər etdim və bu səfərdən də çox məmnunam. Mən belə düşünürdüm və belə də oldu. Yəni mən düşünürdüm ki, bu, sadəcə adi təbrik xarakteri daşımayacaqdır, eyni zamanda, ölkələrimiz arasında olan əlaqələrin daha da inkişaf etdirilməsi üçün danışıqlar, söhbətlər olacaqdır. Bu, belə də oldu. Leonid Kuçma ilə biz bu barədə söhbətlər apardıq və yenə də fikirlərimizi bir-biri ilə tutuşdurduq, müqayisə etdik və eyni istiqamətdə hərəkət etdiyimizi müşahidə etdik. [103-104]

Görüşlər Yaltanın lap kənarında olan Foros adlı bir yerdə, Kuçmanın iqamətgahında keçirilirdi. Məndən başqa bir sıra digər ölkələrin də dövlət başçıları, mənim kimi, xüsusən Leonid Kuçmanı təbrik etməyə gəlmişdilər. Özbəkistanın prezidenti İslam Kərimov, Gürcüstanın prezidenti Eduard Şevardnadze, Moldovanın prezidenti Petru Luçinski, Latviyanın prezidenti Quntis Ulmanis, Rusiya prezidentinin nümayəndəsi İvan Rıbkin bu məqsədlə oraya gəlmişdilər.

Müstəqil Dövlətlər Birliyinin icraçı katibi Boris Berezovski, Rusiyanın keçmiş Baş naziri Viktor Çernomırdin də Yaltaya gəlmişdilər. Qazaxıstan Baş nazirinin birinci müavini orada prezident Nazarbayevi təmsil edirdi.

Mərasim həm görüşlərdən, həm də Leonid Kuçmanın 60 illik yubileyi münasibətilə qonaqlara verdiyi ziyafətdən ibarət oldu. Bu ziyafət Qorbaçovun vaxtilə Yaltanın kənarında, Forosda özü üçün tikdirdiyi çox əzəmətli, böyük iqamətgahda, malikanədə keçirilirdi. Mərasimdə Ukraynanın dövlət və hökumət rəhbərləri – Ukrayna parlamentinin sədri Tkaçenko, Baş nazir Pustovoy Tenko iştirak edirdilər. Tatarıstanın prezidenti Mintemir Şaymiyev də oraya xüsusilə bu məqsədlə gəlmişdi. Ukraynanın hökumət üzvləri və Krım Muxtar Respublikasının başçıları da bu mərasimdə iştirak edirdilər.

Deyə bilərəm ki, bu mərasim çox dostluq, mehribanlıq, səmimilik şəraitində keçdi. Hesab edirəm ki, biz dostumuz Leonid Kuçmanın 60 illik yubileyini birlikdə çox layiqincə qeyd etdik. Ancaq eyni zamanda, bu mərasim zamanı mənim bir neçə başqa görüşlərim də oldu. Biz Gürcüstan prezidenti Eduard Şevardnadze ilə mərasim ərəfəsində görüş keçirdik, ölkələrimiz arasındakı münasibətlərin inkişaf etdirilməsi haqqında bəzi fikirləri müzakirə etdik. O, Gürcüstanın bugünkü vəziyyəti haqqında mənə məlumat verdi. Mən Azərbaycanda olan bugünkü vəziyyət haqqında ona məlumat verdim. Prezident Şevardnadze Gürcüstan-Abxaziya münaqi[104-105]şəsinin həll olunması prosesi haqqında mənə xüsusi məlumat verdi. Mən isə Ermənistan – Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar mövcud vəziyyət haqqında ona məlumat verdim.

Bizim danışıqlarımızda Xəzər dənizindən və ümumiyyətlə, Xəzər regionundan, hövzəsindən hasil olunacaq neft və qazın gələcəkdə ixrac edilməsi üçün çəkiləcək boru kəmərlərinin marşrutları haqqında fikir mübadiləsi aparıldı. Eduard Şevardnadze xüsusən Türkmənistan qazının ixrac ediləcəyi boru xəttinin Xəzər dənizi vasitəsilə Azərbaycandan, Gürcüstandan keçməklə Qərbə getməsi haqqında aparılmış son danışıqlar barədə mənə məlumat verdi.

Şübhəsiz ki, Eduard Şevardnadze ilə mən sentyabrın 7-8-də Bakıda keçiriləcək beynəlxalq konfransa, zirvə görüşünə hazırlıq barədə də fikir mübadiləsi apardıq. Biz başqa məsələlərə də toxunduq və bir daha bəyan etdik ki, Gürcüstanla Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri bundan sonra da inkişaf etməlidir.

Prezident İslam Kərimovla mənim Özbəkistan – Azərbaycan əlaqələri haqqında görüşüm və danışıqlarım oldu. Biz, o cümlədən, Avropa- Qafqaz – Asiya nəqliyyat magistralı və bu münasibətlə TRASEKA proqramı çərçivəsində Qədim İpək yolunun bərpa edilməsi ilə əlaqədar Bakıda keçiriləcək beynəlxalq konfrans haqqında danışıqlar apardıq.

Deyə bilərəm ki, digər ölkələrin prezidentləri, məsələn, Moldovanın, Ukraynanın prezidentləri ilə görüşlərimizdə də bu mövzuya toxunduq. Bildirmək istəyirəm ki, Özbəkistanın, Gürcüstanın, Ukraynanın, Moldovanın prezidentləri sentyabrın 7-də Azərbaycana gələcəklər. Onlar artıq bu barədə bəyanatlar veriblər və beynəlxalq konfransda fəal iştirak etməyə hazırlaşırlar.

Boris Berezovski ilə də mənim danışıqlarım oldu. Bilirsiniz ki, Müstəqil Dövlətlər Birliyinin icraçı katibi kimi o, Ermə[105-106]nistan- Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində müəyyən fəaliyyətə başlayıbdır. Biz bu fəaliyyətin davam etdirilməsi barədə onunla fikir mübadiləsi apardıq.

Beləliklə, hesab edirəm ki, qısa bir müddətdə ölkəmiz üçün vacib olan məsələlərin müzakirəsi və başqa dövlətlərlə əlaqələrimizin daha da inkişaf etməsi istiqamətində çox əhəmiyyətli işlər görüldü. Bütün bunların nəticəsində mən bu səfərimi çox əhəmiyyətli, vacib və səmərəli hesab edirəm.

Son dəfə mən Krımda 1982-ci ildə olmuşdum. Son üç ayda mən ikinci dəfədir ki, Krıma gəlirəm.

Biz iki ay bundan öncə burada Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət, hökumət başçılarının növbəti görüşünə toplaşmışdıq. Mən buraya ikinci dəfədir ki, gəlirəm. Ona görə də mən, şübhəsiz ki, keçən dəfə də, bu dəfə də Krımda olan vəziyyətlə maraqlanırdım. Burada da vəziyyət sabitləşibdir.

Mən, ümumiyyətlə, Ukraynada olan vəziyyətlə də maraqlanırdım. Ukraynada da vəziyyət sabitləşibdir. Həm Ukraynada, həm də onun tərkib hissəsi olan Krımda cinayətkarlığa qarşı mübarizə öz nəticələrini verir və mən Krımın rəhbərləri ilə danışıqlarımdan belə qənaətə gəldim ki, artıq Krımda ictimai-siyasi vəziyyətin sabitləşməsi, cinayətkarlara, cinayətkar qruplara qarşı aparılan mübarizə və onun müsbət nəticələri Krımın istirahət üçün bu çox dəyərli yerlərindən indi daha da səmərəli istifadə olunmasına imkan yaradıbdır.

Məsələn, dünən, bu gün danışırdılar ki, əvvəlki illərdən çox fərqli olaraq bu il Krımın bu istirahət yerlərinə çoxsaylı, həddindən artıq çox, dünyanın bir çox ölkələrindən, - şübhəsiz ki, əksəriyyəti Rusiyadan, Ukraynadan və başqa ölkələrdən də – istirahət etmək üçün insanlar gəlmişdir. Bu da müsbət haldır. Çünki bu, həm Ukraynanın, həm də Krımın iqtisadi vəziyyəti üçün çox əhəmiyyətlidir. [106-107]

Mən həmişəki kimi, bu dəfə də Ukraynada, o cümlədən Krımda azərbaycanlıların vəziyyəti ilə də maraqlandım. Bizim səfirliyin mənə verdiyi məlumatdan görünür ki, Ukraynada təxminən 400 minə qədər azərbaycanlı yaşayır. Bu gün mənə Krımda məlumat verdilər ki, burada təxminən 2500 azərbaycanlı yaşayır. Mən azərbaycanlıların harada yaşamasından asılı olmayaraq, onlar haqqında daim düşünürəm, Azərbaycanın prezidenti kimi, onlara daim qayğı göstərməyə çalışıram.

Mənim Ukrayna ilə Azərbaycan arasında əlaqələri inkişaf etdirmək istiqamətində işlərimin səbəblərindən biri də ondan ibarətdir ki, əgər Ukraynada 400 min azərbaycanlı yaşayırsa, demək, Ukrayna ilə Azərbaycan arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etməsi Ukraynada yaşayan azərbaycanlıların həyat şəraiti, iş şəraiti üçün xeyirli, faydalı olacaqdır. Mən belə düşünürəm və Ukraynanın prezidenti, eləcə də Krımın rəhbərləri ilə bu barədə söhbətlər apardım.

Krımda, Yaltada mənim qısamüddətli yaşamağım üçün iqamətgah ayrılmışdı. Bu, «Yeddinci yaylaq» deyilən bir yer idi. Vaxtilə, 50-ci illərdə Krımda Sovet hökuməti tərəfindən istirahət üçün təxminən 10-12 belə yüksək səviyyəli iqamətgah, yaylaq evləri tikilmişdi.

Mən 70-ci illərdə Azərbaycanın başçısı olduğum zaman bir neçə dəfə Krıma qısamüddətli istirahətə gəlmişdim. O vaxt Kommunist Partiyası Siyasi Bürosunun üzvlüyünə namizəd olduğuma görə mən də belə xüsusi yaylaq binalarında istirahət etmək hüququna malik idim. Bunlar o vaxtlar tikilibdir, indi Ukraynanın mülküdür. Ukrayna bunlardan öz məqsədləri üçün istifadə edir. Amma uzunmüddətli fasilədən sonra gördüm ki, bu binalarda demək olar ki, heç bir şey dəyişilməyibdir, hər şey 15 il bundan öncə gördüyüm kimidir. Vaxtilə belə binalarda yay mövsümündə Sovetlər İttifaqının başçıları daim istirahət edərdilər. [107-108]

Məsələn, Mərkəzi Komitənin Baş katibi Brejnev, Nazirlər Sovetinin sədri Kosıgin, Ali Sovetin sədri Podqornı, Siyasi Büronun üzvləri, üzvlüyə namizədlər burada istirahət edərdilər. Mən o vaxt təkcə özüm istirahət etdiyim binanı yox, başqalarını da görmüşdüm, o cümlədən Leonid Brejnevin istirahət etdiyi iqamətgahı da görmüşdüm. Mənim onunla orada bir neçə dəfə görüşlərim olmuşdu. Ona görə də onu da görmüşdüm. Bunlar hamısı bir-birinə bənzərdir. Bəlkə bir-birindən quruluşuna, həcminə, ərazisinə görə bir az fərqlidir. Demək olar ki, bunların hamısı Qara dənizin sahilindədir və birbaşa dənizə çıxırlar. Məsələn, Baş katib Brejnevin, ya Nazirlər Sovetinin sədri Kosıginin yaşadıqları binalar da bunlardan az fərqlənirdi. Bəlkə də onların ərazisi bir az böyük idi, yaxud da başqa şəraiti böyük idi. Ola bilər ki, otaqların sayı bir az artıq idi.

Ancaq mən keçən dəfə və bu dəfə də Mixail Qorbaçovun qısa müddətdə burada, Yaltanın kənarında, Foros adlanan yerdə özü üçün tikdirdiyi malikanəni, iqamətgahı, istirahət yerini gördüm. Doğrudan da bu məni həm təəccübləndirdi, həm də dəhşətə gətirdi. Çünki, yenə də deyirəm, mən Sovet hökumətinin tarixində Sovet hökuməti başçılarının vaxtilə özlərinin istirahəti üçün tikdirdikləri və yaşadıqları binaların demək olar ki, əksəriyyətini görmüşəm. Məsələn, vaxtilə Stalinin Moskva yaxınlığında yaşadığı bina sonra boş idi. Mən rəhbər vəzifələrdə olduğum zaman gedib oranı, sadəcə olaraq, muzey eksponatı kimi baxıb görmüşdüm. Xruşşovun yaşadığı yerləri görmüşdüm. Brejnevin Moskvada da, Krımda da yaşadığı yerləri görmüşdüm. Ancaq mən deyə bilərəm ki, Sovet hökuməti başçılarının heç biri özü üçün belə malikanə yaratmamışdır.

Bilirsiniz, burada, Krımda, Yaltada rus çarlarının da sarayları vardır. Məsələn, burada rus çarı Aleksandrın sarayı vardır. Düzdür, o, dəniz kənarından uzaqdır, bir az Yaltanın [108-109] dağ tərəfindədir. O illərdə bəzən buraya xarici qonaqlar gələndə onların istifadəsinə verirdilər, amma çox vaxt o, istifadəsiz bir bina idi. Mən, sadəcə, Krımın görməli yerlərini ziyarət edərkən oraya gedib baxmışdım. Məsələn, Rusiyanın padşahı Aleksandrın özünə tikdirdiyi o vaxtkı saray da Qorbaçovun özü üçün tikdirdiyinin yanında bir şey deyildir. Yaxud Ariadnada, Livadiya deyilən yerdə, - ora indi muzeydir, vaxtilə, 1943-cü ildə orada Yalta görüşü olmuşdur. Yaltada, Livadiyada Sovet İttifaqı, Amerika Birləşmiş Ştatları, İngiltərə başçılarının – Stalin, Ruzvelt və Çörçillin görüşü olmuşdur. Mən o sarayı da görmüşəm. Heç bir padşah, heç bir rus çarı və yetmiş il hakimiyyətdə olmuş Sovet hökumətinin heç bir başçısı özü üçün belə bir böyük iqamətgah tikdirməmişdir.

Gürcüstanın prezidenti Eduard Şevardnadze mənə söylədi ki, Gürcüstanın Qara dəniz sahilində Pitsunda deyilən bir yerdə Qorbaçov bundan da böyük bir bina tikdirmişdir. Əgər nəzərə alsaq ki, Sovet hökumətinin, Kommunist Partiyasının özündən əvvəlki bütün başçıları ilə müqayisədə Mixail Qorbaçov hakimiyyətdə ən az olan adamdır, - o, Sovet hökumətinə cəmi beş il başçılıq etmişdir, - 1985-ci ilin mart ayından 1991-ci ilin sonuna qədər, - amma Sovet hökumətinin ondan əvvəlki başçıları Brejnev 18 il, Xruşşov 10 il, Stalin 30 il, ondan əvvəl rus çarları da uzun müddət öz ölkələrinin başçısı, çarı kimi yaşamışlar və özləri üçün saraylar tikmişlər. Ancaq Mixail Qorbaçov qısa bir müddətdə özü üçün bu qədər işlər görmüşdü. Bu, məni çox həyəcanlandırır, təəssüfləndirir, ona görə ki, Mixail Qorbaçov özündən əvvəl hakimiyyətdə olan bütün insanları bir çox günahlara, o cümlədən özləri üçün xüsusi şərait, imtiyazlar yaratdıqlarına görə çox qəti tənqid edirdi, günahlandırırdı. Ancaq o özü qısa müddətdə, - mən hələ Moskvadakıları demirəm, - Moskvada «Vorobyovı qorı» deyirlər, sonra onun adını «Leninskiye [109-110] qorı» qoymuşdular, - Lujniki stadionundan bir az yuxarıda, Miçurin prospekti var idi, orada qısa müddətdə özü üçün bir yaşayış evi tikdi.

Moskvanın ətrafında Siyasi Büro üzvlərinin və hökumət başçılarının yaşaması üçün çox gözəl, yaxşı şəraiti olan malikanələr, yaylaq evləri var idi. Qorbaçov da vaxtilə Siyasi Büro üzvü kimi belə evlərdən birində yaşayırdı. Brejnev də, Andropov da, Çernenko da, Tixonov da, Qorbaçov da beləsində yaşayırdı. Bəlkə mənim yaşadığım onlarınkından şəraitinə görə bir az kiçik idi, amma mən də beləsində yaşayırdım. Ancaq o, Mərkəzi Komitənin Baş katibi olan kimi bunları bəyənmədi. Moskvanın yaxınlığında özü üçün böyük bir malikanə tikdi. Danışırdılar ki, bunu qısa bir müddətdə tikdilər. O, ora köçdü, bir az orada yaşadı. Sonra dedilər ki, burada ağcaqanad çoxdur, ona görə də biz burada yaşaya bilmərik. Qısa müddətdə başqa yerdə yenisini tikdilər.

Mən bunları Moskvada görmüşdüm. Mən Moskvada yaşayarkən Forosda, yəni Krımda, Yaltada da belə bir malikanənin tikilməsini bilirdim, eşitmişdim və hətta orada, bizim dövlət dairələrində danışıqlar gedirdi ki, o, bu malikanənin, böyük bir iqamətgahın tikintisini Müdafiə Nazirliyinin tikinti təşkilatlarına tapşırmışdı. Danışırdılar ki, orada minlərlə əsgər, ordunun tikinti təşkilatları işləyirlər. Danışırdılar ki, müdafiə naziri marşal Yazov həftədə bir dəfə – bazar günləri Moskvadan xüsusi təyyarə ilə gəlib bu tikintinin gedişinə nəzarət edir və bunu təmin edir. Şübhəsiz, əgər bu tədbirlər olmasaydı, qısa müddətdə belə bir nəhəng və həddindən artıq əzəmətli, böyük bir ərazini əhatə edən və deyə bilərəm ki, qayaların, dağların içində, yamacların döşündə belə böyük bir malikanə yarada bilməzdi.

Doğrudur, indi bu qalıbdır və Ukrayna dövləti ondan istifadə edir. Hər bir padşahın, kralın, çarın vaxtilə hər bir ölkədə yaratdıqları belə saraylar onlardan sonra gələnlər [110-111] tərəfindən istifadə olunur. Bu təbiidir. Ancaq mən bu cəhətini demirəm. Məni hiddətə gətirən odur ki, Qorbaçov özü Sovet hökumətinin bütün başçılarının, rəhbər işçilərinin, funksionerlərinin imtiyazlarına qarşı guya mübarizə apardığı bir dövrdə, yenidənqurma adlandırdığı bir proses apardığı dövrdə bu işlərin əksinə olaraq özü üçün belə imkanlar yaradırdı.

Güman edirəm ki, bunlar hələ gələcəkdə təhlil olunacaq, təhlil aparılacaqdır. Qorbaçovun buraxdığı başqa böyük səhvlərlə yanaşı və xüsusən onun etdiyi cinayətlərlə yanaşı, ona bu ittihamlar da veriləcəkdir.

Mən bu barədə fikirlərimi ona görə bölüşmək istədim ki, ola bilər, bunları çox az adam bilir. Mənim bildiyim bu şeylər istəyirəm ki, bizim xalqımıza, millətimizə də çatsın. Çünki biz – Azərbaycan 70 il Sovet hökumətinin tərkibində olmuşuq, o quruluşda yaşamışıq, o quruluşun Azərbaycan üçün verdiyi müsbət cəhətləri də bilirik, dərk edirik. Amma bizim xalqımıza qarşı edilən ədalətsizliyi də, təcavüzü də bilirik. Xüsusən 1990-cı ildə Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzün məhz Qorbaçov və onun Azərbaycanın başında duran, Azərbaycanda o vaxt siyasi fəaliyyətdə olan bəzi adamlar tərəfindən bir yerdə təşkil edildiyini nəzərə alaraq, mən Qorbaçovun həmin fəaliyyətinin, həyatının o gizli hissələrini də bizim xalqımıza çatdırmaq istəyirəm. Bu fikirlərimi, təəssüratlarımı açıram ki, bizim xalqımız bunu bilsin. Ancaq bu, mənim səfərimin xüsusi bir hissəsidir. Yəni bu, təəssüratlarımın xüsusi bir hissəsidir. Bəlkə bu da faydalıdır.

Əsas məsələ ondan ibarətdir ki, mən bu səfərimi çox əhəmiyyətli, səmərəli hesab edirəm. Hesab edirəm ki, mən bu səfər zamanı Ukrayna ilə Azərbaycan arasında da əlaqələrin inkişaf etdirilməsi üçün yeni bir addım atmışam. Təkcə Ukrayna ilə yox, burada, Krımda görüşdüyüm dövlət başçıları ilə, onların

rəhbərlik etdikləri ölkələrlə respublikamız [111-112] arasında əlaqələrin inkişaf etdirilməsi üçün bir addım atmışam.

Mənim səfərim başa çatır. Güman edirəm ki, bir saat, bəlkə ondan da az vaxt qalıbdır ki, biz vətəndə olacağıq, Bakıya enəcəyik. Məni siz də burada müşayiət etmisiniz. Sizin bu səfərdə məni bilavasitə müşayiət etmək və bu prosesdə iştirakçı olmaq imkanlarınız olmadığına görə sizə təyyarədə bu məlumatları verirəm. Sağ olun. [112]

## SEÇİCİ BİRLİKLƏRİ VƏ TƏŞƏBBÜS QRUPLARININ AZƏRBAYCAN PREZİDENTİNƏ MÜRACİƏTİ İLƏ ƏLAQƏDAR RESPUBLİKA TELEVİZİYASI İLƏ BƏYANAT

*10 avqust 1998-ci il*

**J u r n a l i s t: Cənab prezident, Siz bir neçə dəfə bəyan etmisiniz ki, 1998-ci ildə keçiriləcək prezident seçkilərində iştirak etməyəcəksiniz. Lakin respublikamızda yaradılmış dörd seçici birliyinin və 11 təşəbbüs qrupunun üzvləri, eləcə də Sizin namizədliyinizi irəli sürmək üçün öz imzalarını atmış yüz minlərlə seçici 1998-ci il avqustun 7-də Sizə müraciət qəbul etmişlər. Həmin müraciətdə deyilir ki, respublikamızda yaradılmış dörd seçici birliyinin və 11 təşəbbüs qrupunun üzvləri və Sizin namizədliyinizi irəli sürmək üçün öz imzalarını atmış yüz minlərlə seçicinin adından Sizdən xahiş edirik ki, 1998-ci il oktyabrın 11-də keçiriləcək prezident seçkilərində iştirak etməyə razılıq verəsiniz. Xahiş edirəm, bu müraciətə öz münasibətinizi bildirəsiniz.**

**H e y d ə r Ə l i y e v**: Bu müraciət mənə məlumdur. Bu müraciət mənə çatdırılıbdır. Mən dünən televiziyada da bu müraciətin oxunuşunu dinləmişəm. O, bu gün mətbuatda da dərc olunubdur. Yaranmış seçici birlikləri, təşəbbüs qrupları Azərbaycanda prezident seçkilərinin keçirilməsi üçün artıq xeyli fəaliyyət göstəriblər. Onların hamısı yenidən prezident seçilməyim üçün mənə müraciət ediblər və bu barədə xeyli iş görüblər. [113-114]

Mən bu münasibətlə onu deyə bilərəm ki, indiyə qədər mənim həyatım həmişə Azərbaycan xalqının iradəsinə tabe olmuşdur. Mən həyatımın mənasını həmişə xalqa xidmətdə görmüşəm. Son illər, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra öz xalqına xidmət etmək hər bir azərbaycanlı üçün böyük şərəfdir. Keçmişdə etdiyim xidmətlərin nə qədər böyük olmasına baxmayaraq, mən müstəqil Azərbaycana xidmət etməyi həyatımın ən mənalı, ən əhəmiyyətli hissəsi hesab edirəm. Ona görə də mən bu növbəti prezident seçkilərindən də kənarda qala bilmərəm.

Doğru buyurursunuz, dəfələrlə bəyan etmişəm ki, mən yenidən prezident seçilmək üçün özümün namizədliyimi irəli sürməyəcəyəm. Bu gün də bu fikirdəyəm. Ancaq keçmiş günlərdə də demişdim və bu gün də buna riayət edirəm, - əgər vətəndaşlar, xalq mənim bundan sonra da prezident vəzifəmi aparmağa ehtiyaclıdırlarsa, şübhəsiz ki, mən buna etiraz etməyəcəyəm.

Bunlara əsasən bu gün bəyan edirəm ki, mənə olan bu müraciətlərə müsbət cavab verirəm. Mənim namizədliyimi irəliyə sürdüklərinə və namizədliyim üçün çoxsaylı imzalar topladıqlarına görə, bu barədə əməli fəaliyyətlərinə görə seçici birliklərinə, təşəbbüs qruplarına öz təşəkkürümü bildirirəm. Bəyan edirəm ki, bu müraciətə cavab olaraq mən oktyabr ayının 11-də keçiriləcək prezident seçkilərində iştirak etməyə razılıq verirəm. Prezident seçilməyim üçün mənim namizədliyimin qeydə alınmasını da xahiş edirəm.

Bu müraciət mənə çatdırılmışdır. Bunun əsasında mən Mərkəzi Seçki Komissiyasına öz rəyimi artıq bildirmişəm. Ancaq bu məsələ Azərbaycan ictimaiyyətində çox böyük maraq doğurduğuna və mənim əvvəllər verdiyim bəyanatlardan çoxlarının narahat olduğuna görə bu gün sizin bu sualınıza cavab verərək bildirirəm ki, mən prezident seçkilərində iştirak edəcəyəm. Təşəbbüs qruplarının, seçici birliklərinin mənə [114-115] göstərdikləri qayğıya, diqqətə, xoş münasibətə cavab olaraq çalışacağam ki, onların bu etimadını doğruldum.

Oktyabrın 11-də respublikamızda prezident seçkiləri ilk dəfə müstəqil Azərbaycanın 1995-ci ildə qəbul edilmiş ilk Konstitusiyası əsasında keçiriləcəkdir. Mən müstəqil Azərbaycanın ilk Konstitusiyası əsasında aparılan seçkilərdə iştirak etməyi özüm üçün şərəf hesab edirəm. Çalışacağam ki, bu şərəfə layiq olum, məni yenidən prezident seçmək istəyən Azərbaycan vətəndaşlarının arzularına və istəklərinə çatması üçün öz xidmətimi göstərim.

Azərbaycanın prezidenti kimi mən bu gün bir daha bildirirəm ki, Azərbaycanda prezident seçkilərinin demokratik prinsiplər əsasında keçirilməsi üçün bütün imkanlar yaradılıb və bundan sonra da yaradılacaqdır. Təbiidir ki, prezident seçkilərini seçki komissiyaları – Mərkəzi Seçki Komissiyası, ərazi və məntəqə seçki komissiyaları aparır. Ümid edirəm ki, onlar öz üzərlərinə düşən bu tarixi məsuliyyəti, missiyanı layiqincə həyata keçirəcəklər. Ancaq Azərbaycanın icra orqanları prezident seçkilərinin keçirilməsində seçki komissiyalarına kömək etməlidirlər və üzərlərinə düşən vəzifələri yerinə yetirməlidirlər.

İctimaiyyətə artıq məlumdur ki, mən bu barədə lazımi tədbirlər görmüşəm və icra orqanları qarşısında müvafiq vəzifələr qoymuşam. Bu gün də bildirirəm ki, Azərbaycanın icra orqanları respublikamızda oktyabr ayının 11-də prezident seçkilərinin keçirilməsi üçün üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər və əminəm ki, onlar heç bir səhvə, qanun pozuntusuna yol verməyəcəklər.

Şübhəsiz ki, bu, təkcə icra orqanlarından asılı deyil, Azərbaycanda yaşayan bütün vətəndaşlardan, ictimai-siyasi təşkilatlardan, siyasi partiyalardan asılıdır. Düşünürəm ki, Azərbaycanın hər bir vətəndaşı,

hər bir ictimai-siyasi təşkilat, siyasi partiya Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən [115-116] prezident seçkilərinin demokratik prinsiplər əsasında keçirilməsi üçün öz səylərini əsirgəməyəcəklər. Hərə öz üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Hesab edirəm ki, hər kəsin üzərinə bu sahədə ona məxsus olan vəzifə düşür.

Mən bəyan edirəm ki, indiyə qədər görülmüş iş, qəbul olunmuş qanunlar, Azərbaycanın Konstitusiyası, Azərbaycan vətəndaşlarına verilmiş azad hüquqlar hamısı birlikdə ölkəmizdə prezident seçkilərinin demokratiya şəraitində, azad, ədalətli, sərbəst, aşkar keçirilməsini təmin edəcəkdir. Əminəm ki, Azərbaycanda oktyabr ayının 11-də keçiriləcək prezident seçkiləri dünya ictimaiyyətinə Azərbaycanda demokratiyanın inkişafını nümayiş etdirəcəkdir və Azərbaycanın demokratiya yolunda atdığı böyük, dəyərli bir addım olacaqdır.

**J u r n a l i s t**: **Cənab prezident, təşəkkür edirəm. Çox sağ olun.**

**H e y d ə r Ə l i y e v**: Sağ olun. [116]

## AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ SARATOV VİLAYƏTİNİN HÖKUMƏT NÜMAYƏNDƏ HEYƏTİ ARASINDA DANIŞIQLAR

*Prezident sarayı*

*15 avqust 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli Dmitri Ayatskov! Sizi Saratov vilayətinin qubernatorunu və hökumət nümayəndə heyətinin üzvlərini səmimi-qəlbdən salamlayıram. Azərbaycan rəhbərliyinin dəvətini qəbul edib Bakıya gəlməyinizdən şad olduğumu söyləyirəm. Respublikamızın Rusiya Federasiyası və onun subyektləri ilə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə və dərinləşdirməyə səy göstərməsi baxımından bunu mühüm hadisə adlandırır və bildirirəm ki, bu xətt müstəqil Azərbaycanın xarici siyasətinin başlıca istiqamətlərindən biridir.

Azərbaycanla Rusiya Federasiyasının subyektləri arasında əməkdaşlığın həyata keçirilməsi 1997-ci il iyulun 3-də Moskvada iki ölkənin prezidentləri tərəfindən imzalanmış, Azərbaycan – Rusiya münasibətlərinin əsasını təşkil edən dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilədə nəzərdə tutulur. Bu sahədə, Rusiya Federasiyasının bir sıra subyektləri ilə birbaşa əlaqələr yaradılmasında müəyyən uğurlar var. Saratov vilayəti ilə də birbaşa əlaqələr yaradılmasından məmnun qaldığımı söyləyir və qeyd edirəm ki, bu [117-118] vilayət coğrafi baxımdan ölkəmizə yaxındır. Bizi Xəzər dənizi və Volqa çayı birləşdirir, Rusiya ilə tarixi əlaqələr çox vaxt Saratov vilayəti vasitəsilə həyata keçirilmişdir ki, bu da əməkdaşlığımızı dərinləşdirməyi zəruri edir.

**D m i t r i A y a t s k o v**: Azərbaycana gəlməyə dəvət üçün Sizə, cənab prezident, təşəkkür edirik. Bakıda olduğumuz müddətdə bu gözəl şəhərdən böyük təəssürat aldıq, dörd il idi bu şəhərdə olmamışdım və burada baş verən dəyişikliklər məni heyran qoymuşdur. Bu dəyişikliklər ən əvvəl Sizin, hörmətli prezident Heydər Əliyevin və onun komandasının xidmətidir. Mənim Azərbaycana xüsusi meyl göstərməyim yaradıcı, daim arayıb axtaran şəxs saydığım və dünya siyasətinin liderlərindən biri kimi qiymətləndirdiyim Azərbaycan dövlətinin başçısının müdrik siyasəti ilə bağlıdır.

Saratov vilayətinin hökumət nümayəndə heyəti Azərbaycanda islahatların aparılması sahəsində burada toplanmış təcrübəni öyrənmək üçün gəlmişdir və bu təcrübədən çox şey öyrənmək olar. Azərbaycan Nazirlər Kabinetində görüşdən sonra mən bu qənaətə gəlmişəm ki, iqtisadiyyat, siyasət, mədəniyyət sahəsində əməkdaşlıq etmək üçün imkanlar var.

Saratov vilayətində 30 mindən çox azərbaycanlı yaşayır və onların mədəniyyət cəmiyyətləri var. Şadam ki, Azərbaycanda da rus diasporu var və ruslar öz ənənələrini, mədəniyyətini qoruyub saxlamaq imkanına malikdirlər.

Saratov vilayəti azərbaycanlı tələbələrin, xüsusən qaçqınlar sırasından olan tələbələrin Saratov ali məktəblərində pulsuz təhsil almasını öz üzərinə götürməyə hazırdır.

Saratov vilayətinin və Azərbaycanın torpaq islahatı aparılmasına münasibətlərində bir çox oxşar cəhətlər olduğunu görürəm və bu sahədə topladıqları təcrübəni bölüşməyə hazır olduğunu və Saratov mütəxəssislərinin Azərbaycanda müvafiq təcrübəni öyrənmək istədiklərini bildirirəm. [118-119]

Sənaye sahəsində əməkdaşlıq haqqında Bakıda əldə edilmiş razılaşmalar, Saratov mütəxəssislərinin neft sahəsində Azərbaycanın təcrübəsini öyrənmək niyyətləri barədə məlumat verərək bildirirəm ki, mədəniyyət sahəsində əməkdaşlıq üçün də imkanlar var. Əminəm ki, Saratov vilayətinin Azərbaycan ilə birbaşa təmasları, «sərhədlərin və suverenliklərin toxunulmazlığını pozmadan», ənənəvi iqtisadi və mədəni əlaqələrin bərpa olunmasına kömək edəcək, Bakıda imzalanmış sazişlərdən sonra isə çoxlu birbaşa müqavilələr bağlanacaqdır.

Mən özümün müəllimi saydığım prezident Heydər Əliyevə görüş üçün bir daha təşəkkür edirəm və əmin olduğumu bildirirəm ki, Saratov vilayətindəki 30 minlik Azərbaycan diasporu Azərbaycanda qarşıdakı prezident seçkilərində ona səs verəcəkdir.

**H e y d ə r Ə l i y e v**: Mənim fikrimcə, Azərbaycanın Rusiya ilə, onun subyektləri ilə əlaqələri nə qədər çox olarsa, problemlərin həllində bütün tərəflər üçün bir o qədər yaxşı olacaqdır. Azərbaycan üçün ən böyük problem Ermənistan-Azərbaycan münaqişəsidir. Bu münaqişənin tarixi, ölkəmiz üçün ağır nəticələri, onun sülh yolu ilə aradan qaldırılması sahəsində görülən tədbirlər haqqında müəyyən məlumatımız var. Rusiyanın Ermənistana böyük təsiri olduğunu, münaqişənin aradan qaldırılmasında Rusiyanın həlledici rol oynaya biləcəyini vurğulamaq istəyirəm. Azərbaycanın sülhə tərəfdar olduğunu bir daha təsdiq edirəm. Biz hələ də ümid bəsləyirik ki, Rusiya öz sözünü deyəcək, ATƏT-in Minsk qrupunun digər həmsədrlərindən fərqli olaraq, məsələnin tənzimlənməsi üçün daha əhəmiyyətli addımlar atacaqdır.

Sosial-iqtisadi problemlərin həlli sahəsində, iqtisadiyyatda islahatlar aparılması üçün ölkəmizdə böyük işlər görülmüş, bu sahədə, o cümlədən aqrar bölmədə uğurlar qazanılmış, xarici [119-120] sərmayələri cəlb etmək üçün şərait yaradılmış, ictimai-siyasi sabitlik əldə olunmuşdur.

Mənə xoşdur ki, Saratov vilayətində 30 mindən çox azərbaycanlı yaşayır və Rusiyanın digər bölgələrində, MDB-nin başqa ölkələrində də onlar məskunlaşmışlar. Mən milli çərçivəyə qapanmağın həmişə əleyhinə olmuşam və vaxtilə hər şey etmişəm ki, azərbaycanlı gənclər keçmiş Sovetlər İttifaqının, əsasən Rusiyanın ən yaxşı ali məktəblərində təhsil alsınlar. Hesab edirəm ki, SSRİ-də təhsil sistemi dünyada ən yaxşılarından biri olmuşdur. Bunun sayəsində keçmiş SSRİ-nin müxtəlif bölgələrində indi çoxlu azərbaycanlı yaşayır və onlar orada Azərbaycan mədəniyyətini yayırlar. Bunu müsbət amil kimi qiymətləndirirəm.

Bu məsələyə münasibətdə bizim baxışlarımız ilə üst-üstə düşdüyünü vurğulayıram və ona təşəkkür edirəm ki, Saratov vilayətində yaşayan azərbaycanlılar oranın tam hüquqlu vətəndaşlarıdır. Bu, Azərbaycan ilə Saratov vilayəti arasında əməkdaşlığı fəallaşdırmağın və konkretləşdirməyin zəruriliyini şərtləndirən amildir, bundan ötru böyük imkanlar var və ölkəmiz bu əməkdaşlığa hazırdır.

**Dmitri Ayatskov**: Cənab prezident, mənim fikrimcə, maneələri aradan qaldırmağın, son dövrdə yığılıb qalmış məsələləri, ən əvvəl millətlərarası məsələləri həll etməyin vaxtı gəlib çatmışdır. Bu isə nəinki MDB ölkələrinin ali pəhbərliyinin, həm də regional siyasətçilərin işidir. Saratov vilayətinin qubernatoru, Rusiya Federasiya Şurasının üzvü kimi özümü də bu siyasətçilər sırasına aid edirəm.

Rusiyanın, MDB-nin digər ölkələrinin taleyi üçün narahatlığınıza və ölkələrimizin qarşılaşdıqları bütün problemləri əlbir aradan qaldıra və irəliləyə biləcəklərinə əmin olduğunuza görə Sizə təşəkkür edirəm.

**Heydər Əliyev**: Azərbaycan Rusiyada demokratiyanın bərqərar olmasını istəyir, çünki sabah Rusiyanın necə [120-121] olacağına biganə deyildir. Biz demokratik, yeni Rusiya ilə, köhnə zəmanələrə qayıda bilməyəcək Rusiya ilə sıx dostluq münasibətləri saxlamaq istəyirik. Saratov vilayətində islahatlar, o cümlədən torpaq islahatı aparılmasında Sizin, hörmətli qubernator, cəsarətinizi, fəallığınızı lazımınca qiymətləndirirəm və Azərbaycanın təcrübəsinə əsaslanaraq bunu düzgün saydığımı bildirirəm. Saratov vilayətində sənayenin dirçəldilməsi sahəsində görülən işlərin təqdirəlayiq olduğunu bildirirəm.

**Dmitri Ayatskov**: Mən əmin olduğumu bildirərək cəsarətlə demək istəyirəm ki, Rusiya tutduğu demokratik yoldan dönməyəcəkdir. Bununla belə, hesab edirəm ki, məsələn, 1994, 1995-ci illərdə Azərbaycanda baş vermiş mənfi hadisələrə bənzər hadisələrin olması üçün, demokratiya da qanun çərçivəsi ilə, qanunun amirliyi ilə məhdudlaşmalıdır. Xoş sözlərə və arzulara görə Sizə təşəkkürümü bildirirəm.

**Heydər Əliyev**: Qanunçuluq, gənc müstəqil dövlətlərimizin yenicə mənimsədiyi və ayrı-ayrı adamların, - o cümlədən də Azərbaycanda, - öz bildikləri kimi başa düşdükləri, öz məqsədləri üçün istifadə etdikləri demokratiya barəsində Sizin sözlərinizlə razılaşıram. Mən özlərini demokratlar kimi qələmə vermiş və şüar altında iqtidara gəlmiş adamların 1992–1993-cü illərdəki hakimiyyətinin ölkəmiz üçün ağır nəticələr verdiyini qeyd etmək istəyirəm. Bir il ərzində onlar respublikanı vətəndaş müharibəsi həddinə, fəlakət və parçalanma həddinə gətirib çıxardılar. Davam gətirə bilmədiklərini hiss etdikdə isə, ölkəni taleyin hökmünə buraxaraq hərə bir yana qaçdı. Onların demokratiyası hərc-mərclik diktaturası idi.

Ölkəmizin prezidenti bu mövzunu davam etdirərək, öz məğlubiyyətini bəri başdan görərək seçkilərdə iştirak etməkdən boyun qaçıran üzdəniraq «demokratik müxalifət» Azərbaycanda prezident seçkiləri ərəfəsində naqis əməllərə əl atdı[121-122]lar: qanunsuz, Konstitusiyaya zidd tələblər irəli sürdülər. Qətiyyətlə bildirirəm ki, bu, məhz hərc-mərclik diktaturasıdır və o, Azərbaycanda baş tutmayacaqdır. Qanun istər vətəndaşlar üçün, istərsə də partiyalar üçün hər şeydər ucadır. İnanıram ki, Azərbaycan xalqı düzgün qərar qəbul edəcəkdir.

**Dmitri Ayatskov**: Cənab prezident, qarşıdakı seçkilərdə qalib gələcəyinizə, Azərbaycan xalqının Sizi dəstəkləyəcəyinə şübhə etmirəm. [121]

## DÜNYA ŞÖHRƏTLİ ÜRƏK CƏRRAHI MAYKL DEBEYKİ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*17 avqust 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Respublikamıza ziyarətə gəldiklərinə görə hörmətli professoru və digər qonaqları səmimi-qəlbdən salamlayıram. Sizin, cənab Debeykinin çox məşhur bir insan, böyük cərrah, alim, dünyada ilk dəfə ürək transplantasiyasını həyata keçirən, böyük və çox xeyirxah işin əsasını qoyan həkim olduğunuzu vurğulayıram.

Mən həmişə tibb işçilərinə xüsusi hörmət etdiyimi, insanların sağlamlığını qoruyan, onları xəstəliklərdən xilas edən, ömrünü uzadan həkimlərin xüsusi hörmətə layiq olduğunu bildirmişəm. Sizinlə bu görüşüm bir il əvvəl ABŞ-a etdiyim rəsmi səfəri xatırlatdı, Texasa, Hyüstona ziyarət zamanı, cənab Debeyki, Sizinlə görüşməyimi razılıqla qeyd etmək istəyirəm.

Hörmətli alimin özü və işi ilə şəxsən tanış olmağım mənim üçün böyük bir hadisə olduğunu nəzərə çarpdırıram. ABŞ-da, cənab Debeyki, Sizin bizə göstərdiyiniz qonaqpərvərliyi məmnuniyyətlə xatırlayıram. Mənim dəvətimi qəbul edib, vaxt tapıb Azərbaycana gəldiyinizə görə Maykl Debeyki, Sizə təşəkkür edirəm. Mən istəyirdim siz Azərbaycanı görəsiniz. Çünki ABŞ-la Azərbaycan arasında əlaqələrin inkişaf etməsi üçün biz bütün vasitələrdən istifadə edirik. Ancaq siz dünən [123-124] və bu gün gördüyünüz işlərlə kifayətlənməmisiniz. Bizim tibb işçiləri ilə görüşmüsünüz, Səhiyyə Nazirliyi ilə çox işlər görmüsünüz. Mənə səhiyyə naziri məlumat verdi ki, siz gələcəkdə burada çox böyük işlər görmək istəyirsiniz.

**M a y k l  D e b e y k i**: Cənab prezident Heydər Əliyev, Siz dünyada görkəmli şəxsiyyət, lider kimi tanınırsınız. Bir il öncə Hyüstonda məni ziyarət etməyinizdən şərəf duyduğumu bildirirəm. Mən bu bölgədə baş verən hadisələrdən, prezident Heydər Əliyevin Azərbaycanda və bütün regionda apardığı böyük işlərin bölgəyə sabitlik gətirməsindən məlumatım var. Ölkənizdəki qonaqpərvərliyi heç bir yerdə görmədiyimi vurğulayıram və məni Bakıya dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm.

Sizə məlumat verim ki, mən Respublikanızda Səhiyyə Nazirliyi, tibbi mərkəzlər, hospitallar, eləcə də kardioloji mərkəz ilə yaxından tanış oldum. Azərbaycanda poliomielit xəstəliyinin ləğv olunması sahəsində Səhiyyə Nazirliyinin fəaliyyətini yüksək qiymətləndirirəm. Ürək xəstəliklərinin qarşısının alınması üçün bir çox işlər görülməsinin zəruriliyini qeyd etmək istəyirəm.

Etiraf edim ki, Azərbaycanda çox bilikli və bacarıqlı həkimlər var və Bakıda müasir kardioloji mərkəz yaradılması vacibdir. Bu, yalnız Azərbaycan üçün yox, Mərkəzi Asiya üçün də çox əhəmiyyətlidir. Bakıda bu cür mərkəzin açılması bütün bölgə üçün ümid mənbəyinə çevrilə bilər. Ölkənin sabit inkişafı üçün sağlam adamların olması vacibdir.

Cənab prezident, Siz bunu yaxşı bilirsiniz. Çünki Siz özünüz tibb sahəsinə çox kömək etmisiniz. Ümumiyyətlə, ürək xəstəliklərindən dünyasını dəyişənlərin sayı digər bütün xəstəliklərə nisbətən daha artıqdır. Buna görə də biz istəyirik ki, həmin xəstəliyin qarşısını almaq üçün bu bölgədə mərkəz yaradaq. Mən səhiyyə naziri və onun işçiləri ilə işləyərkən gördüm ki, onlar biliyə malik olmaqla yanaşı, eyni zamanda [124-125] öz işlərinə sədaqətlə yanaşırlar. Əgər burada belə mərkəz açılarsa, həmin mərkəzdə mütləq sədaqətli həkimlər işləməlidirlər. Bu layihənin həyata keçirilməsinin böyük əhəmiyyəti var. Mən Səhiyyə Nazirliyinin işindən də çox razıyam.

Teletəbabət məsələsi barədə nazir Əli İnsanovla müzakirələr apardım. Mən bu sahə ilə 30 ildir məşğul oluram. Böyük məsafədən fəaliyyət göstərən teletəbabətin özünəməxsus iş prinsipi, uğurlu nəticələri var və onu da nəzərə çarpdırım ki, mən bunun vasitəsilə azərbaycanlı həmkarlarım ilə birgə işləyəcəyəm.

**A n n a  P e ç o r s k a y a** (*«Peçorski and Assoşieyts» şirkətinin prezidenti*): Cənab prezident, biz Sizə təşəkkür edirik, doktor Debeykinin Bakıda kardioloji mərkəz yaratmaq ideyasının böyük əhəmiyyətini mən də qeyd etmək istəyirəm. Bu mərkəz Mərkəzi Asiya ölkələrinin təxminən 60-70 milyon əhalisinə xidmət göstərə biləcəkdir. Bu layihə, iqamətgahı Hyüstonda yerləşən «Merikem» şirkətinin nümayəndəsi, tanınmış bankir Toni Bunun və Bakıda fəaliyyət göstərən xarici neft şirkətlərinin köməyi ilə həyata keçiriləcəkdir. Bu ideyanın ABŞ hökuməti tərəfindən dəstəkləndiyini və humanitar yardım göstəriləcəyini də nəzərinizə çarpdırıram. Biz cənab Debeyki ilə birlikdə ABŞ-a qayıtdıqdan sonra bir çox konqresmenlərlə görüşüb 907-ci maddənin aradan qaldırılmasına çalışacağıq.

**T o n i  B u n** (*«Merikem» şirkətinin nümayəndəsi*): Cənab prezident, ən əvvəl, Sizi salamlamaq və bundan məmnun qaldığımı bildirmək istəyirəm. Bakıya gəlməyimdən də şərəf duyduğumu bildirirəm, Xəzər dənizi sahilində yerləşən ölkələrdə müxtəlif layihələrin həyata keçirilməsinə, Qərb sərmayəsi qoyuluşuna beş ildir ki, çalışıram və əminəm ki, prezident Heydər Əıiyevin xeyir-duası ilə Bakıda müvafiq təşkilatlarla birlikdə bu işlər həyata keçiriləcəkdir. [125-126]

**H e y d ə r Ə l i y e v**: İlk öncə səmimi görüş və xoş sözlər üçün təşəkkür edirəm. Qeyd edim ki, hörmətli professor Debeykinin dəyərli sözləri məni çox maraqlandırdı. Ürək xəstəlikləri ilə mübarizə ABŞ-da yaxşı təşkil edilmişdir və Azərbaycanda bu səviyyəyə gəlib çatmaq üçün çox işlər görülməlidir.

Azərbaycanın kardioloq həkimlərinin imkanları haqqında professor Debeykinin müsbət fikirlərini razılıq hissi ilə qəbul edirəm. Bu məlumatı məşhur ürək cərrahından eşitməyimdən məmnun qaldığımı, onun təəssüratlarının bizim üçün çox qiymətli olduğunu nəzərə çarpdırıram və əminəm ki, bu sahə ilə məşğul olan həkimlərimiz alimin məsləhətlərindən səmərəli istifadə etməyə çalışacaqlar. Azərbaycanda müasir səviyyəli kardioloji mərkəz yaradılması haqqında hörmətli qonağın təklifləri maraqlı və əhəmiyyətlidir və bunları dəstəklədiyimi bildirirəm. Respublikamızın, eləcə də Bakıda fəaliyyət göstərən neft şirkətlərinin imkanlarını cəlb etməklə belə bir mərkəz yaratmaq mümkündür. Çox arzu edərdim ki, biz bu işi görə bilək, beləliklə də insanların sağlamlığının qorunması üçün təkcə Azərbaycanda yox, bizim bölgəmizdə xeyirxah işlərin əsasını qoyaq. Xahiş edərdim ki, bizim Səhiyyə Nazirliyi və Sizin məsləhət gördüyünüz şəxslər bu barədə konkret təkliflər irəli sürsünlər. Mən öz tərəfimdən bütün imkanlardan istifadə edib bu işin həyata keçirilməsinə çalışaram.

Teletəbabət haqqında söylənilən fikirlər də çox əhəmiyyətlidir. Bu barədə Azərbaycanda hələlik ancaq məlumat var. Bakıda teletəbabətin tətbiqi vacibdir. Mən bu təklifi də qəbul edirəm.

ABŞ ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi barədə və məlum 907-ci maddənin aradan götürülməsi sahəsində Konqresdə və ABŞ hökumətində görülə biləcək işlər haqqında xanım Peçorskayanın söylədiyi fikirlərə münasibətimi açıqlamaq istəyirəm. [126-127]

Müstəqillik dövründə respublikamızın qarşılaşdığı ən ağır problemlərdən biri – Ermənistan-Azərbaycan münaqişəsi hələ də qalmaqda davam edir. Qonşu respublikanın hərbi təcavüzü ölkəmizə çox böyük fəlakətlər gətirmiş, ərazimizin 20 faizi işğal olunmuşdur. Bununla belə, biz məsələnin sülh yolu ilə həllinə çalışırıq. Bu isə yalnız ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında olmalıdır. Təcavüzkar Ermənistan isə bu prinsipləri, habelə Minsk qrupu həmsədrlərinin son təkliflərini qəbul etməkdən boyun qaçırır.

Respublikamıza dəyən bütün zərbələrə baxmayaraq, hələ 1992-ci ildə ABŞ Konqresi tərəfindən Azərbaycana qarşı ədalətsiz 907-ci əlavənin qəbul edilməsi və indiyədək qüvvədə qalması narahatlıq doğurur.

Ermənistanla Azərbaycan arasında müharibənin dörd il əvvəl dayandırılmasını böyük nailiyyət hesab edirəm. Ümidvaram ki, münaqişənin həllini öz üzərinə götürmüş ATƏT-in Minsk qrupu və onun həmsədrləri olan üç böyük dövlətin – ABŞ, Rusiya və Fransanın səyləri müsbət nəticələr verəcəkdir.

ABŞ hökumətinin bu sahədə gördüyü işlər Azərbaycanda qiymətləndirilir.

İnanırıq və ümid edirik ki, ABŞ hökuməti daha da ciddi səylər göstərəcəkdir və beləliklə də Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi mümkün olacaq, bir milyondan artıq qaçqın və köçkün öz yerlərinə-yurdlarına qayıdacaqdır. Lakin ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi 907-ci maddənin bu gün də mövcud olması ABŞ hökumətinin bu sahədə görəcəyi işlərə maneçilik törədir. Ona görə də bu 907-ci maddənin aradan götürülməsi üçün daha da ciddi səylər göstərilməlidir. Ümid edirəm ki, siz ölkənizdə olan böyük hörmətinizdən istifadə edərək bu məsələyə də müdaxilə edə bilərsiniz. [127-128]

Ötən il ABŞ neft sənayesinin mərkəzi Hyüstona, Texasa səfərimi məmnunluqla xatırlayıram, Amerika şirkətləri Bakıda uzunmuddətli işə başlamışlar. Nəzərə çarpdırım ki, bu sahədə imzalanmış müqavilələr ABŞ şirkətləri ilə Azərbaycan arasında müştərək iş görülməsini təmin edəcəkdir.

**D o k t o r D e b e y k i**: 907-ci maddə ilə bağlı prezident Heydər Əliyevlə eyni fikirdə olduğumu, Ermənistanın işğalçı qüvvələri tərəfindən doğma yerlərindən zorla çıxarılmış qaçqınların ağır vəziyyətini öz gözlərimlə gördüyümü bildirirəm.

Cənab prezident, Sizi əmin etmək istəyirəm ki, biz ABŞ-a qayıtdıqdan sonra konqresmenlərimizlə bu barədə danışacağıq.

Sizin səhiyyə ilə bağlı fikirlərinizi dəstəkləyirəm. Məlumat verim ki, Türkiyədə Turqut Özal adına böyük bir tibbi mərkəz fəaliyyət göstərir.

İcazə verin rəhbərlik etdiyim səhiyyə müəssisəsinin təcrübəsi haqqında ətraflı məlumat verən kitablarımı və xüsusi hədiyyəmi xatirə olaraq Sizə təqdim edim. [128]

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYERƏ**

Hörmətli cənab Baş nazir!

Şimali İrlandiyanın Oma şəhərində bomba partlayışı nəticəsində çoxlu insanın həlak olması və yaralanması xəbəri məni dərindən sarsıtdı.

Bu terror hərəkətini qətiyyətlə pisləyir, sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 avqust 1998-ci il*
[129]

**NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BİM KOKA**

Zati-aliləri!

Sizi yenidən Niderland Krallığının Baş naziri seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Biz ölkələrimiz və xalqlarımız arasında təşəkkül tapmış dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, başçılıq etdiyiniz hökumət Niderland-Azərbaycan əlaqələrinin genişləndirilməsi, iki ölkə arasındakı əməkdaşlığın dərinləşdirilməsi sahəsində bundan sonra da səmərəli fəaliyyət göstərəcəkdir.

Sizi bir daha ürəkdən təbrik edir, Niderland xalqının rifahı naminə məsul işinizdə sizə yeni-yeni uğurlar diləyirəm.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 avqust 1998-ci il*
[130]

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LEONİD DANİLOVİÇ KUÇMAYA**

Hörmətli Leonid Daniloviç!

Luqanskda kömür şaxtasında metan partlayışı nəticəsində çoxlu adamın həlak olması xəbəri qəlbimizi ağrıtdı.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 avqust 1998-ci il*
[131]

## AZƏRBAYCANIN ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, ELM, DİN VƏ İDMAN XADİMLƏRİNİN BÖYÜK BİR QRUPUNA «ŞÖHRƏT» ORDENLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*Prezident iqamətgahı*

*21 avqust 1998-ci il*

Hörmətli xanımlar və cənablar!

Müstəqil Azərbaycan dövlətinin dövlətçilik atributlarından biri dövlətin mükafatlarıdır – ordenlər, medallar və başqa mükafatlardır.

Bildiyiniz kimi, Azərbaycan dövlətinin ordenləri, medalları təsis olunub və ötən illərdə Azərbaycanın görkəmli şəxsləri bu ordenlərlə, medallarla təltif ediliblər. Təltif olunanların əksəriyyəti Azərbaycanın mədəniyyət, elm xadimləri – ədəbiyyatda, incəsənətdə, elmdə xalq qarşısında xidmət göstərmiş, fərqlənmiş şəxslərdir.

Bu gün siz təltif olunanlara ordenlərin təqdim edilməsi mərasiminə dəvət olunmusunuz. Mən də bu şərəfli vəzifəni, yəni ordenləri sizə təqdim etmək kimi şərəfli vəzifəni həyata keçirməyimdən çox məmnunam.

Mərhum xalq yazıçısı İlyas Əfəndiyevin layiq görüldüyü «Şöhrət» ordenini onun oğlu Elçin Əfəndiyevə təqdim edirəm. Heyf ki, mən bu ordeni İlyas Əfəndiyevin özünə təqdim edə bilmədim, çox təəssüf edirəm. Çünki o vaxt, sadəcə, bizim bu nişanlarımız hazır deyildi. Ancaq, eyni zamanda, mən məmnunam ki, Elçin, sən onun yaradıcılığını [132-133] davam etdirirsən. Həm oğlu kimi, həm də Azərbaycanın mədəniyyət xadimi kimi sənin İlyas Əfəndiyevə məxsus olan ordeni almağa tam hüququn var.

**E l ç i n  Ə f ə n d i y e v**: Hörmətli prezident! Əziz dostlar!

Sizin dediyiniz kimi, mən də böyük bir ağrılı-acılı duyğu ilə təəssüf edirəm ki, layiq olduğu bu yüksək mükafatı bu gün Sizdən bilavasitə İlyas Əfəndiyev özü almadı. Ancaq təskinliyi onda tapıram ki, bu gün İlyas Əfəndiyevin ruhu burada, bu salonda, bizimlə bir yerdədir və onun ruhu şad olur. Şad olur ona görə ki, İlyas Əfəndiyev bütün varlığı, canı-qanı ilə Azərbaycan xalqına bağlı olan sənətkar, yazıçı idi. Bütün varlığı ilə Azərbaycan Respublikasına, onun müstəqilliyinə və ərazi bütövlüyünə bağlı bir sənətkar idi. İlyas Əfəndiyev Azərbaycan Respublikasının prezidentinə, cənab Heydər Əliyev, şəxsən Sizə son dərəcə böyük hörmət və ehtiram bəsləyən bir insan idi.

Mən bu yüksək mükafata görə İlyas Əfəndiyevin ailə üzvləri adından Sizə bir daha dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirirəm. Çox sağ olun.

**H e y d ə r  Ə l i y e v**: Xalq yazıçısı Hüseyn İbrahimovu orden alması münasibətilə təbrik edirəm.

**H ü s e y n  İ b r a h i m o v**: Hörmətli prezident! Dörd il bundan əvvəl Siz məni Azərbaycanın şöhrət rəmzi olan «Şöhrət» ordeni ilə təltif edəndə və 75 yaşım münasibətilə təbrik edəndə ürəyimdən çox qəribə bir hiss keçmişdi. Düşünürdüm ki, gün o gün olsun, mən Sizin 75 yaşınızı təbrik edim. Düzdür, mən uzaqda yaşadığım üçün Sizi bilavasitə təbrik edə bilmədim. Ancaq bu il çıxan üç kitabımı Sizə hədiyyə göndərdim və onlardan birində Sizə avtoqraf-təbrik yazdım. Bunlar mənim seçilmiş əsərlərimdir və oraya böyük memar Əcəmi Əbubəkr oğluna həsr etdiyim «Əsrin onda biri» romanım daxil edilmişdir. Mən avtoqraf-təbriki ona görə bu roman olan kitabda yazdım ki, Sizi XX əsr Azərbay[133-134]canının Atabəyi hesab edirəm. Ona görə öz ürək sözlərimi yazdım ki, bəlkə Sizi üzbəüz görüb öz təşəkkürümü çatdıra bilmədim.

Bu gün özümü xoşbəxt sayıram ki, üzbəüz Sizin 75 illiyinizi təbrik edirəm. Fürsətdən istifadə edərək onu demək istəyirəm ki, bu xalqa lazım olan şəxsiyyət olduğunuz üçün allah-təala Sizə uzunömürlülük kimi bir bəxtəvərlik, xoşbəxtlik nəsib edibdir. Bir də ona görə Sizə təşəkkürümü bildirirəm ki, bu yaxınlarda bir qrup yazıçı ilə birlikdə mənə də «Xalq yazıçısı» kimi yüksək ad vermisiniz. Mən bu fəxri adı Sizin ürəkdən bağlandığınız, sevdiyiniz Naxçıvan torpağına məhəbbətiniz və ehtiramınız kimi qiymətləndirirəm. Lev Tolstoyun gözəl bir kəlamı var, deyir ki, Yasnaya Polyanasız bütün Rusiyanı təsəvvür etmək çətindir. Naxçıvansız da bütün Azərbaycanı təsəvvür etmək çətindir.

Arzu edirəm ki, Siz həmişə xeyirxah fərmanlar imzalayasınız, xoş niyyətli, xoş məramlı, xoş müjdəli sərəncamlar verəsiniz. İstərəm ki, Siz xalqımızı XXI əsrə aparan bələdçi olasınız. Mən istərəm ki, ölkəmizin haqq qafiləsinin sarbanı Siz olasınız və onu XXI əsrə aparasınız. İstərəm ki, Siz XXI əsrin ilk illərində də Azərbaycanın prezidenti olasınız və xalqımıza başçılıq edəsiniz. Biz torpaqlarımızı erməni işğalçılarından dinc yolla azad edə bilsək, ona Siz rəhbərlik edəsiniz. Lazım gəlsə, böyük intiqam günü üçün ayağa qalxmalı olsaq, ordumuzun baş komandanı Siz olasınız. Gələn il Sizin 76 yaşınız tamam olur, mənim isə 80 yaşım. Mən bu 80 yaşı Naxçıvan torpağında yaşamışam. Ona görə də Sizə xeyir-dua vermək

istəyirəm. Allah-təala Sizi həmişə hifz eləsin, Sizi bu xalqa çox görməsin. Mənim bu sözlərimi də ixtiyar bir yazıçının həmişə cavan görünən prezidentə xeyir-duası kimi qəbul edin.

**H e y d ə r Ə l i y e v** : Mərhum xalq şairi İsmayıl Şıxlının oğlu Elçin Şıxlıya atasının ordenini təqdim edərək, - İlyas [134-135] Əfəndiyev haqqında dediyim sözləri İsmayıl Şıxlı haqqında da təkrar etmək istəyirəm. Mənim İsmayıl Şıxlıya olan böyük hörmətim məlumdur. Onun Azərbaycan xalqı qarşısındakı xidmətləri də hamıya məlumdur. Təəssüflər olsun ki, o, həyatı vaxtsız tərk etdi və mən bu ordeni şəxsən ona təqdim edə bilmədim. Sənə, onun oğluna təqdim edirəm. Allah bundan sonra sizin ailənizə heç bir qəm-kədər verməsin.

**E l ç i n Ş ı x l ı**: Məndən əvvəl burada İlyas Əfəndiyevin oğlu, - onunla da adaşıq, - Elçin müəllim bir söz dedi, onu təkrar etmək istəyirəm. Çox təəssüf ki, atam özü bu böyük mükafatı Sizdən ala bilmədi. Sağ olun.

**H e y d ə r Ə l i y e v** : Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Hacı Allahşükür Paşazadəni orden alması münasibətilə təbrik edirəm. Şeyx həzrətləri, siz Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmiş və bunlara görə də bu yüksək mükafata layiq olmusunuz. Bu ordeni məmnuniyyətlə təqdim edir, sizə cansağlığı arzulayıram.

**Ş e y x ü l i s l a m H a c ı A l l a h ş ü k ü r P a ş a z a d ə**: Möhtərəm prezident! Mən hesab edirəm ki, bu təltif bütün Qafqaz müsəlmanlarına, mənəviyyatımıza verilən qiymətdir. Müstəqil Azərbaycan dövlətinin rəhbərinin mənəviyyatımıza verdiyi qiymətdir. Ona görə də mən allah-təaladan Sizə cansağlığı, uzun ömür, başda Siz olmaqla bütün xalqımıza xoşbəxtlik arzu edirəm. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v**: Mərhum akademik İmam Mustafayevin təltif olunduğu ordeni onun qızı Tərlan Mustafayevaya təqdim edirəm. Təəssüf edirəm ki, bizim dəyərli insanlarımız həyatdan gediblər. Ancaq onların gördükləri işlər durur, o cümlədən İmam Mustafayevin gördüyü işlər də yaşayır. Ordeni də böyük məmnuniyyətlə sizə təqdim edirəm.

**T ə r l a n M u s t a f a y e v a**: Bu gün mənim üçün çox təsirli, gözəl gündür ki, atamın layiq görüldüyü mükafatı Sizdən alıram. Məni buraya dəvət etməyi lazım bildiyinizə [135-136] görə ailəmiz Sizə minnətdardır. Otuz ildir ki, Siz həmişə bizim ailəmizə böyük diqqət göstərmisiniz. Ailəmizin, atamın çətin günlərində həmişə elə etmisiniz ki, ədalət öz yerini tutubdur. Bunu unutmaq olmaz.

Mən Sizi ad gününüz münasibətilə təbrik edənlərə həmişə qibtə edirdim. İcazə verin, bu gün mən də Sizi təbrik edim. Çünki bu il Sizin ilinizdir, ona görə də dekabrın 31-dək təbrik etmək olar. Sizə xoşbəxtlik, cansağlığı, tükənməz enerji arzulayıram. Qoy Sizin bütün ülvi arzularınız həyata keçsin.

Sizə kiçik bir hədiyyə etmək istəyirəm. Ərəb ustalarının hazırladıqları bu metal nimçədə Allahın 99 adı həkk olunmuşdur. Qoy bu Sizi hifz eləsin.

**H e y d ə r Ə l i y e v** : XXV olimpiya oyunlarının çempionu Nazim Hüseynovu orden alması münasibətilə təbrik edirəm.

**N a z i m H ü s e y n o v**: Möhtərəm prezident! Fəxr edirəm ki, Siz mənə yüksək «Şöhrət» ordenini təqdim etdiniz. Sizə uzun ömür, cansağlığı arzulayıram.

**H e y d ə r Ə l i y e v**: Xalq artisti Qəmər Almaszadəyə ordeni təqdim edir və onu təbrik edirəm. Sizi yubileyiniz münasibətilə təbrik edirəm. Ancaq hesab edirəm ki, bir müddətdən sonra sizi daha bir yubiley münasibətilə təbrik edəcəyik. Bu mükafat əvvəlki yubileyə görədir. Elə bilirəm ki, sonrakı yubileyi daha yaxşı qeyd edəcəyik və siz daha yüksək mükafata layiq görüləcəksiniz.

Azərbaycanda maarifin inkişafında böyük xidmətləri olan Sona xanım Tağıyevaya bu yüksək mükafatı təqdim edirəm. Mən sizi təbrik edirəm. On illərdir sizinlə əməkdaşlıq edirik. Şadam ki, bu gün də varsınız və Azərbaycan ordenini sizə təqdim edirəm.

**S o n a T a ğ ı y e v a**: Hörmətli prezident! Bu, dördüncü ordendir ki, mənə verirsiniz. Bu, maarifə olan böyük hörmətdir. Siz 1969-cu ildən 1982-ci ilədək maarifimizin inkişafına [136-137] nə qədər böyük qayğı göstərmisiniz. Mən 1969-cu ildən 1982-ci ilə qədər Heydər Əliyevin Mərkəzi Komitədə işləməsini görmüşəm. Plenumlardan qayıdanda həmişə müəllimlərə danışardım – nə qədər diqqət, qayğı göstərirdi. 1982-ci ildən sonra maarifimiz çox kasıbladı, 1990-cı ildən sonra isə birdən dağıldı. Amma indi Siz əvvəlki maarifimizi bizə qaytardınız. İndi hamı bilir ki, arxasında Heydər Əliyev kimi çox qayğıkeş prezidentimiz var. Siz uşaqların bayramlarında əyilib onları öpür, qucağınıza götürürsünüz, görün, ürəyinizdə nə qədər atalıq, babalıq qayğısı var! Nə qədər sevinirəm ki, prezidentimiz işinin bu cür çoxluğuna baxmayaraq, məni də yaddan çıxarmır. İlham 6 nömrəli məktəbdə oxuyanda onun buraxılış gecəsində olmağınız da yadımdadır. Biz bunların hamısını müəllimlərə, uşaqlara danışırıq. Tədrisimizə daxil etmişik ki, aşağı siniflərdən on birinci sinfə qədər şagirdlərimiz prezidentimizin həyat və fəaliyyətini bilsinlər. Hər dəfə dərs zamanı uşaqlara deyirəm ki, Siz Heydər Əliyevə baxırsınızmı, görürsünüzmü necə olmaq lazımdır?

Siz mənə qardaşlıq etmisiniz, bəlkə də özünüz bilmirsiniz. Mən Sizə ailəm adından cansağlığı arzu edirəm. İki gün qabaq Səbail rayonunda maarif işçiləri toplaşmış, seçkidə hamı Sizə səs verəcəyini bildirmişdir.

**H e y d ə r Ə l i y e v** : Əməkdar idman ustası **Ələkbər Məmmədovu** təbrik edirəm. Futbolumuz da yaşayır, inkişaf edir və edəcəkdir.

Xalq şairi Fikrət Qocanı yüksək mükafat alması münasibətilə təbrik edirəm.

**F i k r ə t  Q o c a**: Cənab prezident! Keçən dəfə «İstiqlal» ordeni təqdim ediləndə mənim dostum, qardaşım Anarın dediyi sözləri təkrar eləmək istəmirəm. Amma demək istəyirəm ki, onunla yüz faiz razıyam. Ancaq həm 75 illiyinizi təbrik etmək üçün, həm də bugünkü gün münasibətilə Sizə zarafatyana balaca bir şer yazmışam: [137-138]

*İstiqlal verdiniz,*
*şöhrət gətirdiz bizə,*
*Bu yerdə ehtiyac var*
*qafiyələnmiş sözə.*
*Çox yaxşılıq etmisiz,*
*demirəm ki, aman ver,*
*Bir yaxşılıq da elə,*
*bir az bizə zaman ver,-*
*Bir yetmiş il də yaşa*
*Belə cavan,*
*Firavan,*
*Hər gün zövq ala-ala.*
*Mən də o yetmiş ildə*
*Sizin yaxşılığınızdan*
*Çıxaram bala-bala.*

**H e y d ə r  Ə l i y e v**: Üzeyir Hacıbəyovun Dövlət Ev Muzeyinin direktoru Ramazan Xəlilovu təbrik edirəm.

Mən istəyirəm ki, sizin 100 illiyinizi qeyd edək, mən bunu gözləyirəm. İstəyirəm özüm də o vaxtadək yaşayım və 100 illik yubileyiniz münasibətilə sizə mükafat təqdim edim.

**R a m a z a n  X ə l i l o v**: Zati-aliləri, bizim əziz, çox hörmətli prezidentimiz!

80 il bundan əvvəl 3-cü Ləzgi Süvari Alayının komandiri mənə poqonlar və başlıq təqdim edərək dedi ki, poqonları şərəflə, başlığı isə ləyaqətlə daşı. Bugünkü gün təkcə məndən ötrü deyil, hamı üçün, bizim bütün ziyalılarımız üçün böyük bayramdır. Bu gün mən yaradıcılığıma görə Sizin əlinizdən yüksək mükafat alıram. Ürəyim Sizin ünvanınıza demək istədiyim səmimi sözlərlə doludur. Mən Sizin çıxışlarınızı diqqətlə izləyir və hər gün ən müxtəlif səviyyəli adamlarla gördüyünüz nəhəng işə heyran qalıram.

Allah Sizə böyük istedad bəxş edibdir. Lakin bu istedad misilsiz zəhmətlə birləşibdir. Siz elə bir insansınız ki, istənilən səviyyədə, istənilən diplomatlarla danışıqlar apara bilirsiniz. Bunu hər kəs bacarmır. Ona görə də demək istəyirəm ki, [138-139] Heydər Əliyevin ətrafında birləşmək lazımdır, bəziləri kimi ona mane olmaq yox, kömək etmək lazımdır. Mane olmaq istəyən miskin adamlardır, onlar xalqa xidmət etmək üçün yox, öz ciblərini doldurmaq üçün vəzifə tutmaq istəyirlər. Xalqın əsl xidmətçisi Sizsiniz. Siz bütün biliyinizi, qüvvənizi, sağlamlığınızı öz xalqınıza həsr edirsiniz.

Mən II Nikolaydan başlamış çox adamlarla görüşmüşəm, sonuncu görüşüm Cövhər Dudayevlə olubdur. Təhlil etməyə imkanım var. Heydər Əliyeviç, deyə bilərəm ki, Allahın verdiyi xoşbəxtlikdir ki, Azərbaycanın Sizin kimi övladı var. Siz hər şeyi, hamını yadda saxlayırsınız, Sizin fövqəladə yaddaşınız var. Elə burada müxtəlif sahələrdən olan nə qədər adam əyləşib, Siz onların hər birini tanıyırsınız. Allah Sizə uzun ömür versin ki, respublikamıza rəhbərlik edəsiniz. Çünki mən respublikanı bu çətin vəziyyətdən çıxara biləcək ikinci adam tanımıram.

Öz ölkəsinin «Şöhrət» ordeninə layiq görülmək hər adama qismət olmur. Siz bizim hər birimizin əməyinə qiymət vermisiniz. Çox sağ olun, Allah Sizə cansağlığı versin. Mən isə çalışacağam ki, Sizin istəyinizi yerinə yetirim.

**H e y d ə r  Ə l i y e v**: Sovet İttifaqı qəhrəmanı Məlik Məhərrəmovu orden alması münasibəti ilə təbrik edirəm. Sən İkinci Dünya, Böyük Vətən müharibəsində qəhrəmanlıq göstərib «Qızıl ulduz» medalına layiq görülmüsən. İndi ictimaiyyətimiz də bilir ki, azərbaycanlılardan Sovet İttifaqı Qəhrəmanı adı daşıyanların əksəriyyəti həyatını dəyişibdir. Xoşbəxtlikdir ki, Məlik Məhərrəmov bizim sıralarımızdadır, özü də möhkəm durubdur. Müharibədə qəhrəmanlıq göstərmisən, 1945-ci ildən 1998-ci ilə qədər 53 ildir ki, sən öz xalqına yenə də sədaqətlə xidmət edirsən. Həm xalq, həm də dövlət bunu yüksək qiymətləndirir. Ona görə də mən Azərbaycanın yüksək mükafatını – «Şöhrət» ordenini böyük [139-140] məmnuniyyətlə sənə təqdim edib, cansağlığı arzulayıram. Təbrik edirəm.

**M ə l i k  M ə h ə r r ə m o v** : Möhtərəm prezident. Mən bir neçə ordenlə təltif olunmuşam və bu ordenləri mənə ayrı-ayrı yüksək vəzifəli adamlar təqdim ediblər. Bu gün mənim üçün ona görə daha şərəflidir ki, müstəqil Azərbaycan dövlətinin «Şöhrət» ordenini mənə Siz təqdim edirsiniz. Bu gün bir daha fərəhlidir ki, bu yüksək mükafatı mənə həm hörmətli prezidentimiz, həm də ondan qabaq bir-birimizin xətrimizi istədiyimiz, ən çox sevdiyim adam təqdim edir. Hörmətli prezident, buna görə Sizə «Çox sağ olun» deyirəm, minnətdarlığımı bildirirəm.

**H e y d ə r  Ə l i y e v** : Xalq artisti, bəstəkar Vasif Adıgözəlova bu ordeni təqdim edirəm. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**V a s i f  A d ı g ö z ə l o v**: Möhtərəm cənab prezident. Mən müstəqil dövlətimizin bu yüksək mükafatını Azərbaycanın bütün musiqi xadimlərinin, sənətşünaslarının yaradıcılığına Sizin tərəfinizdən verilən böyük qiymət kimi qəbul edirəm. Çünki, bir Allah bilir ki, Azərbaycan musiqisinin inkişafında rolunuz Siz hələ prezident olmamışdan xeyli əvvəl – 1960-cı illərin axırlarında başlamışdır. Mən Sizinlə tanış olduğum illəri nəzərdə tuturam. Siz ondan da əvvəl Azərbaycan musiqisinin inkişafına çox kömək etmisiniz. Bilirsiniz ki, musiqi xadimlərinin həyatı çoxlu problemlərlə qarşılaşır. Bizim həyatımız asan yolla getmir. Bu da təbiidir. Çünki musiqi elə bir sənətdir ki, həyatı rahatlıqla axıra çatdırmaq çox çətindir. Bu çətinliklərə, xüsusən də son illərdə qarşılaşdığımız çətinliklərə baxmayaraq, biz Azərbaycan musiqisini qorumaq, saxlamaq və daha da inkişaf etdirmək yolunda əlimizdən gələni əsirgəməmişik. Biz bunu ona görə etmişik ki, Siz bizdə bu inamı yaratmısınız. Biz Sizə arxalanıb bunu etmişik, ən çətin anlarda belə heç nədən çəkinməmişik. Çünki həmişə [140-141] bilmişik ki, Azərbaycan musiqisinin böyük dostu, musiqimizi sevən, musiqi xadimlərinin yaradıcılığına yüksək qiymət verən vardır. Bugünkü gün mənim dediklərimin sübutudur.

Heydər Əlirza oğlu, bu gün bütün bəstəkarlar, musiqişünaslar adından mən Sizə öz minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqının siyasi həyatında böyük hadisələr gözlənilir. Yəni xalqımız prezident seçkilərinə hazırlaşır. Möhtərəm prezident, mən Sizi əmin edirəm ki, bütün bəstəkarlar, musiqişünaslar ancaq bir prezident tanıyırlar, o da Sizsiniz. Biz hamımız ancaq Sizə səs verəcəyik. Mən Sizi əmin edirəm ki, biz 2000-ci ildə və ondan sonra da musiqimizin inkişafı üçün əlimizdən gələni edəcəyik və Siz də bizə həmişə kömək olacaqsınız. Çox sağ olun, Sizə minnətdaram.

**H e y d ə r  Ə l i y e v** : Xalq artisti Səyavuş Aslanı təbrik edirəm. Sənə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Əgər çıxış edəcəksənsə, gülməli bir söz de. Yoxsa sən də siyasətdən danışacaqsan.

**S ə y a v u ş  A s l a n**: Hörmətli prezident, mənim siyasətlə işim yoxdur. O gün olsun ki, 80 illiyinizdə də prezident olasınız, biz də yubileyinizdə səhnəyə çıxıb Sizi doyunca güldürək. Mən söz verirəm ki, 80 illiyinizdə Sizi doyunca güldürəcəyəm. Sağ olun.

**H e y d ə r  Ə l i y e v** : Tarix elmləri doktoru Sara Aşurbəyliyə bu yüksək mükafatı təqdim edirəm. Sara xanım, biz sizin yubileyinizi də qeyd etdik. Çox məmnunam ki, indi bu ordeni də şəxsən mən sizə təqdim edirəm.

**S a r a  A ş u r b ə y l i**: Cənab prezident. Sizə öz minnətdarlığımı bildirirəm. Siz həmişə mənə yaxşı münasibət bəsləmisiniz. Çox arzu edirdim ki, Sizinlə görüşüm və Sizə yeni-yeni uğurlar diləyim.

**H e y d ə r  Ə l i y e v**: Sara xanım, Azərbaycan elmində, xüsusən tarix elmində və Bakının tarixinin yazılmasında sizin [141-142] misilsiz xidmətləriniz vardır. Sağ olun. Sizə cansağlığı arzu edirəm.

Naxçıvan Dövlət Filarmoniyasının solisti Abdulla Babayevi orden alması münasibətilə təbrik edirəm. Sən Naxçıvanın, Azərbaycanın müğənnisisən, həmişə yaxşı oxumusan, indi də yaxşı oxuyursan. Arzu edirəm ki, yeni-yeni mahnılar oxuyasan.

**A b d u l l a  B a b a y e v**: Çox sağ olun, möhtərəm prezident. Mən Sizə həsr etdiyim mahnılarımı həmişə oxuyacağam və Sizə dua edəcəyəm.

**H e y d ə r  Ə l i y e v**: Mərhum akademik Mark Dalinin təltif olunduğu ordeni onun qızı Alla Markovna Knyazyuka təqdim edirəm. Sizin atanızı həmişə xatırlayacağıq. O, Azərbaycan elminin inkişafı üçün çox iş görmüşdür və Azərbaycan xalqının, elminin tarixində həmişə qalacaqdır.

**A l l a  K n y a z y u k**: Əziz Heydər Əliyeviç! Mən çox xoşbəxtəm və özüm üçün böyük şərəf sayıram ki, bu təntənəli mərasimə dəvət olunmuşam. Mən ikili hiss keçirirəm: bir tərəfdən, fəxr edirəm ki, atamın təltif olunduğu bu ordeni mənə şəxsən Siz təqdim edirsiniz, digər tərəfdən də təəssüflənirəm ki, atam bu xoşbəxt günü görə bilmədi.

Atam çox təvazökar, şöhrətpərəstlikdən uzaq adam idi. Ancaq o, «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında fərmanı eşidəndə bunu böyük minnətdarlıqla qarşılamış və özünü çox xoşbəxt saymışdı. Çünki bu, onun Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərə verilən qiymət, şəxsən Sizin verdiyiniz qiymət idi. Atam Bakıda doğulmuş və bütün ömrünü burada yaşamışdır. Azərbaycan onun vətəni idi. Atam əsl vətənpərvər idi və öz vətənini sevirdi, ona sadiq idi. Onun yaratdığı və rəhbərlik etdiyi institut məşhur idi və hələ atamın sağlığında ona «Dalin İnstitutu» deyirdilər. Bunu xaricdə də bilirdilər. Hələ o vaxtlar atam «Britiş Petroleum», «Mobil» kimi şirkətlərlə elmi əlaqələr saxlayırdı. [142-143]

O, Sizinlə olan görüşlərini tez-tez xatırlayır, hələ o illərdə Azərbaycanda neft, neft kimyası sənayesinin sürətlə inkişafında Sizin misilsiz rolunuzdan danışırdı. Sizinlə olan görüşlərini «Azərbaycanda neft kimyasının inkişaf yolları» monoqrafiyasında əks etdirmişdir.

Mən çox xoşbəxtəm ki, atamın adı Azərbaycanın Məmmədəliyev, İsmayılov, Quliyev, Nağıyev və başqa kimyaçı alimləri ilə bir sırada durur. Əlbəttə, atam sağ olsaydı, Sizə minnətdarlıq etmək üçün daha yaxşı sözlər deyə bilərdi. Mən isə onun xatirəsini əziz tutduğunuza görə Sizə minnətdaram. Atamın adının unudulmayacağı barədə dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm.

İcazə yerin, Sizi 75 illiyiniz münasibətilə təbrik edim, Sizə cansağlığı, xoşbəxtlik, qarşıdakı prezident seçkilərində parlaq qələbə arzulayıram. Biz hesab edirik ki, Azərbaycanın işıqlı gələcəyi yalnız Sizin adınızla bağlıdır.

**H e y d ə r  Ə l i y e v**: Xalq artisti Sofya Hüseynovanı orden alması münasibətilə təbrik edirəm. Mən sənə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Mən Naxçıvanda olanda sənin anan sağ idi. O, çox gözəl aktrisa olubdur. Sənin anan Xədicə xanım Qazıyeva Naxçıvan teatrının uzun illər ən aparıcı aktrisası olub, baş rolları oynayıbdır. Mən teatrla həmişə bağlı olmuşam. Hələ uşaqlıq, gənclik illərimdə teatra gedərkən Xədicə xanım Qazıyevanın oynadığı baş rollara heyranlıqla baxmışam.

**S o f y a  H ü s e y n o v a**: Azərbaycan xalqının əziz, çox hörmətli, görkəmli və əvəzolunmaz prezidenti cənab Heydər Əliyev!

Hörmətli mərasim iştirakçıları!

Ömrümün 50 ilini teatr aləminə bağlamağıma baxmayaraq, bu gün mən öz sevincimi, həyəcanımı gizlədə bilmirəm. Çünki mən bu anı səbirsizliklə gözləyirdim.

Möhtərəm prezident, burada, Sizin qarşınızda öz ürək sözlərimi bildirmək həm çətin, həm də çox xoşdur. Mən bun[143-144]dan qürur hissi keçirirəm, fərəh duyuram. Hörmətli prezidentim, məni fərəhləndirən, yüksəklərə qaldıran, sadə əməyimə qiymət verən Sizsiniz. Bu, biz incəsənət adamları üçün mənəvi qidadır. Mənə verilən ali mükafatı Naxçıvan teatrında çalışan öz yoldaşlarımla bölmək istəyirəm. Çünki mən tək heç nə edə bilməzdim. Yəqin anam Xədicə xanım məni vaxtilə teatra gətirməsəydi, mən bu günü, bu anı yaşamazdım. Mənə verdiyiniz qiymət, göstərdiyiniz qayğı Naxçıvan teatrında çalışan bütün sənət yoldaşlarıma aiddir.

Əziz prezident, Sizin 75 illiyiniz münasibətilə Naxçıvanda keçirilən mərasimdə mən öz ürək sözlərimi bildirmişdim və Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbova demişdim ki, mən cənab Heydər Əliyevlə görüşmək arzusundayam. Nəhayət ki, bu gün mənə nəsib oldu. Mən Sizə öz minnətdarlığımı bildirirəm.

Hörmətli prezidentim, Sizin həyat yolunuz hamar olmayıbdır, ancaq xalqımıza məhəbbətiniz daimidir. Siz xalqın məhəbbətini işinizlə, düzgün apardığınız siyasətlə qazanmısınız. Bizim Sizə olan məhəbbətimiz, inamımız tükənməzdir.

Bütün Azərbaycan xalqı, Naxçıvan Muxtar Respublikasının əhalisi qarşıdan gələn prezident seçkilərində yalnız Sizə səs verəcəkdir və yalnız Sizə ümid bağlayır. Azərbaycan xalqı nicatını yalnız Sizdə görür. Əziz prezidentimiz, Azərbaycan xalqının yeganə xilaskarı Sizsiniz. Mən ümidvaram ki, qarşıdakı prezident seçkilərində hamı bir nəfər kimi yalnız və yalnız Sizə səs verəcəkdir.

Möhtərəm prezident, mənə göstərdiyiniz qayğıya və verdiyiniz mükafata görə Hüseynovlar ailəsi adından Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, möhkəm cansağlığı arzulayıram. Allah Sizi qorusun.

**H e y d ə r  Ə l i y e v**: Xalq rəssamı Maral Rəhmanzadə, Sizi orden almağınız münasibətilə təbrik edirəm. Çox məm[144-145]nunam ki, bu gün görüşürük. Sizə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**M a r a l  R ə h m a n z a d ə**: Möhtərəm prezident, böyük qayğı və diqqətə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

**H e y d ə r  Ə l i y e v**: Xalq şairi Qabil, orden almağınız münasibətilə səni təbrik edirəm. Qabil, Səni xoş gördük. Mən sənə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Q a b i l**: Möhtərəm prezidentimiz! Mən həmişə Sizə «Heydər müəllim», - deyə müraciət etmişəm. Çünki Siz doğrudan da, sözün geniş mənasında, ismin bütün hallarında əsl müəllimsiniz.

Bu orden mənim üçün çox əzizdir. Birincisi, ona görə ki, bu, mənim həyatımda aldığım ilk ordendir, ona görə də əzizdir. Doğrudur, dövlət mükafatı nişanını mənim sinəmə Siz taxmısınız. O da öz yerində əladır. İkincisi, bu, müstəqil Azərbaycanımızın ilk «Şöhrət» ordenidir ki, mən ona layiq görülürəm. Üçüncüsü, bu orden mənim üçün ona görə əzizdir ki, onu mənə Siz – ədəbiyyatımızın, şerimizin, sənətimizin, mədəniyyətimizin, yazıçılarımızın, alimlərimizin, ziyalılarımızın əziz, xiridar dostu təqdim edir. Şair yaxşı deyib ki, «Mətahın atma bazarə, xiridar olmayan yerdə». Mən bu mükafatı qiymət verən, xiridar dostun, Heydər müəllimin əlindən alıram. Sağ olun.

**H e y d ə r  Ə l i y e v**: Akademik Adilə Namazova, Sizi orden almağınız münasibətilə təbrik edirəm. Sizə yeni –yeni uğurlar arzulayıram.

**A d i l ə  N a m a z o v a**: Sevimli, möhtərəm prezidentimiz Heydər Əlirza oğlu! Mən hesab edirəm ki, bu orden təkcə mənim yox, Azərbaycanın bütün səhiyyə işçilərinin, pediatrlarının əməyinə verdiyiniz yüksək qiymətdir. Mən və mənim həmkarlarım gələcək nəslin, uşaqların sağlamlığı keşiyində möhkəm dayanmaq və müstəqil, azad Azərbaycan [145-146] üçün sağlam vətəndaşlar yetişdirmək üçün bundan sonra da var gücümüzlə çalışacağıq.

Möhtərəm prezident, mən Sizə minnətdaram, çox sağ olun. Mən bütün tibb işçiləri adından Sizə təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v**: Xalq rəssamı, heykəltəraş Mirələsgər Mirqasımovu orden alması münasibətilə təbrik edirəm. Siz respublikamızın görkəmli heykəltəraşısınız. Sizin yaratdığınız Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə abidələri yüksək qiymətə layiqdir.

**M i r ə l ə s g ə r M i r q a s ı m o v**: Cənab prezident. Siz olmasaydınız, bu abidələr ucaldılmazdı. Ona görə də Sizə minnətdaram.

**H e y d ə r Ə l i y e v**: Yeri gəlmişkən, mən həmişə narahat olmuşam ki, sizin atanız Mirəsədulla Mirqasımovun məzarı üzərində nə üçün qəbirüstü abidə yoxdur. Görkəmli alim Mirəsədulla Mirqasımov Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti olmuşdur. Deyirsiniz ki, onun məzarı üzərində indi abidə ucaldılır, mən onun açılışına mütləq gələcəyəm. Sizi təbrik edirəm.

Xalq artisti Zeynəb Xanlarovaya «Şöhrət» ordenini təqdim edirəm. Mən sənə cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

**Z e y n ə b X a n l a r o v a**: Hörmətli prezident. Xalqımız Sizin haqqınızda həmişə xoş sözlər deyir. Mənim Sizə olan məhəbbətim ürəyimdədir. Sizi hamı çox tərifləyir, bunlar mənim ürəyimə yatır. Amma hərdən əsəbiləşirəm ki, bu görünən günəşi, dağı bu qədər tərifləmək lazım deyildir. Azərbaycanımız, millətimiz üçün Sizin gördüyünüz işlər göz qabağındadır, uşaqdan böyüyə qədər bunu hamı bilir.

Mən SSRİ xalq artisti adına qədər yüksəlmişəm. Hər yerdə doğma Azərbaycanı təmsil edirəm. Bəlkə də dünyanın yarısında məni tanıyırlar. Belə hesab edirəm ki, əməyimə, sənətimə Sizin verdiyiniz yüksək qiymət sayəsində mən bir azərbaycanlı qızı kimi dünyada tanınmışam. [146-147]

Heydər müəllim, mənim bu mərasimə gələcəyimi eşidən bir ailə dünən mənə bir söz dedi, mən onu Sizə çatdırmalıyam. Möhtərəm prezident, milyonlarla insan Sizi qəlbən sevir. Sizi istəməyənləri barmaqla saymaq olar. Amma yenə də deyirəm, milyonlarla insan sizi sevir. Belə ailələrdən birinin dünən dediyi söz məni qəhərləndirdi, inanın ki, səhərədək yata bilmədim.

Həmin ailənin üzvləri mənə zəng edib dedilər ki, Zeynəb xanım, prezidentlə görüşə gedirsiniz, xahiş edirik, bizim sevgimizi, məhəbbətimizi Heydər müəllimə çatdırın. Biz görmüşük ki, bir insan can verəndə uzaqda olan oğlunun, qızının şəklini ürəyinin üstünə qoyur. Bizim anamız isə ürəyinin üstünə prezidentimizin şəklini qoyub can verdi. 95 yaşlı həmin qadın can verərkən vəsiyyət edib ki, Heydər Əliyevin şəkli mənim ürəyimin üstündə olmasa, can verə bilmərəm. Deməli, bu xalq üçün yaşamağa dəyər. Doğrudan da bu xalq üçün prezident olmağa dəyər.

Hörmətli prezident, mən həmin ailənin adından Sizi bir daha öpmək istəyirəm. Biz sənətkarlara, bütün millətimizə Siz həmişə qayğı göstərmisiniz. Siz hər bir dildə danışırsınız. Demək istəyirəm ki, Siz həkimlə həkim kimi, heykəltəraşla heykəltəraş kimi danışırsınız. Ona görə də Sizi sevən milyonlarla insanın əvəzinə Sizi öpmək istəyirəm.

**H e y d ə r Ə l i y e v**: Həmin ailəyə mənim salamımı söyləyin.

Akademik Nəriman Quliyevi orden alması münasibətilə təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram.

**N ə r i m a n Q u l i y e v**: Bu yüksək mükafata görə dövlətimizin başçısına, - Sizə, cənab prezident, öz minnətdarlığımı bildirirəm.

**H e y d ə r Ə l i y e v**: Bakı Xoreoqrafiya Məktəbinin direktor müavini, xalq artisti Leyla Vəkilovaya «Şöhrət» [147-148] ordenini təqdim edirəm. Sizə cansağlığı, yeni uğurlar diləyirəm.

**L e y l a V ə k i l o v a**: Mənə göstərilən diqqətə görə təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v**: Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının quruluşçu rejissoru Lütfi Məmmədbəyovu təltif olunması münasibətilə təbrik edirəm. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**L ü t f i M ə m m ə d b ə y o v**: Cənab prezident, Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

**H e y d ə r Ə l i y e v**: Xalq şairi Balaş Azəroğluna «Şöhrət» ordenini təqdim edirəm, sənə cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

**B a l a ş A z ə r o ğ l u**: Möhtərəm prezident, mən Sizə dərin minnətdarlığımı bildirirəm. Xalqımız Sizi ürəkdən sevir. Mənim ürəyimdə də Sizə deyiləsi sözüm çoxdur, vaxtınızı almaq istəmirəm. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v**: Azərbaycan teatr sənətinin inkişafındakı böyük xidmətlərinə görə xalq artisti Nəsibə Zeynalovaya «Şöhrət» ordenini təqdim edirəm. Səni bağrıma basıram, sənə cansağlığı arzulayıram. Möhkəm ol, öz sənətinlə bizi yenə də sevindir, güldür.

**N ə s i b ə Z e y n a l o v a**: Böyük qayğı və diqqətə görə Sizə minnətdaram. Möhtərəm prezident, təəssüflənirəm ki, xəstələndiyimə görə yubileyinizdə iştirak edib, Sizə gülüş bəxş edə bilmədim. Arzu edirəm ki, həmişə üzünüz gülər olsun. Mən Sizi sevirəm, qəlbimdə Sizin xüsusi yeriniz vardır.

**H e y d ə r Ə l i y e v**: Bizim xalqımız Sizi çox sevir, mən isə hamıdan çox sevirəm. Mən Sizi bir daha təbrik edirəm, bu gülü də Sizə özüm təqdim edirəm.

Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, akademik Mirməmməd Cavadzadəni orden alması [148-149] münasibətilə təbrik edirəm. Ona daha böyük uğurlar arzulayıram.

**M i r m ə m m ə d C a v a d z a d ə**: Cənab prezident, mənim üçün böyük şərəfdir ki, bu yüksək ordeni mənə Siz təqdim edirsiniz. Çox sağ olun. Mən Sizə uzun ömür, cansağlığı arzulayıram.

**H e y d ə r  Ə l i y e v**: Xalq artisti, bəstəkar Aqşin Əlizadəni təbrik edirəm. Çoxdandır, neçə illərdir səni görmürəm. Mən ad gününün münasibətilə sənə zəng etdim, səni təbrik etdim. Yadımdadır, mən vaxtilə səni görəndə sən gənc bir oğlan idin. Adətən, sən ananla birlikdə Mehdi Hüseynzadənin heykəlinin yanına gəlirdin. Rəhmətlik Aslan Əzizbəyov da sizinlə birlikdə olardı. Sonra sən böyük bir bəstəkar oldun. Mənə də söz verdin ki, «Babək» baletini yaradacaqsan, yaratdın. Mən səni bir daha təbrik edirəm, cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**A q ş i n  Ə l i z a d ə**: Cənab prezident. Bunlar hamısı mənim yaxşı yadımdadır. Qazandığım bütün nailiyyətləri Sizin diqqət və qayğınız sayəsində əldə etmişəm.

Bu yüksək ordeni də mənə təqdim etməyinizdən sonsuz şərəf duyuram. Sizə dərin təşəkkürümü bildirirəm və cansağlığı arzulayıram.

**H e y d ə r  Ə l i y e v**: Azərbaycan müsiqi sənətinin inkişafındakı xidmətlərinə görə xalq artisti Habil Əliyevə «Şöhrət» ordenini təqdim edirəm. Sənə daha böyük uğurlar arzulayıram. Habil, yenə kamança çalırsan, yoxsa yox? Sən sözünü kamança ilə deyəndə daha yaxşı olur.

**H a b i l  Ə l i y e v**: Möhtərəm prezident. Mən Ağdaşdan Bakıya kamançaçı kimi gəlmişdim. Özümə başqa sənət axtarmaq artıq gec idi, amma kamança çaldığıma görə də xəcalət çəkirdim. Çünki istəyirdim, mən də elə bir işdən yapışım, özümə elə bir sənət seçim ki, o, xalqıma çox lazımlı olsun. Ancaq atalar yaxşı deyib ki, «Arxalıya arxa durmaq [149-150] hər kişinin işidir, arxasıza arxa durmaq nər kişinin işidir». Cənab prezident, Siz mənə arxa durdunuz, sahib oldunuz. Siz mənə xalq artisti adı, «Şöhrət» ordeni, prezidentin fərdi pensiyasını verdiniz. Məni o xəcalətdən qurtardınız ki, mən kamança çalanam.

Möhtərəm prezident, ürək sözlərimi Sizə demək üçün böyük bir şair, yazıçı lazımdır ki, mənim Sizə olan məhəbbətimi, hörmətimi bildirsin. Onsuz da Sizi bütün Azərbaycan sevir. Sizi hamı sevir. Özünüz bilirsiniz ki, bu aksiomadır. Amma incəsənət ustaları Sizin bizə göstərdiyiniz qayğıya cavab verən söz tapıb deyə bilmirlər. Mən incəsənət ustaları, xüsusən xalq musiqisi ifaçıları adından deyə bilərəm. Siz 3-4 günlük bir xarici ölkəyə səfərə gedəndə, vallah, elə hesab edirik ki, Azərbaycan boşalıbdır. Allah Sizi əskik etməsin. Cənab prezident, Sizə prezidentlik yaraşır, Siz də prezidentliyə yaraşırsınız. Allah həmişə Sizi var etsin.

**H e y d ə r  Ə l i y e v**: Səmimi sözlərə görə sənə təşəkkür edirəm. Mən sənin dediyin bu sözlərə bir neçə kəlmə əlavə edəcəyəm. Bu sözlərin hamısını düz dedin. Amma bizim xalqımız kamançanı həmişə yüksək qiymətləndiribdir. Ulu babalarımızdan qalan musiqi alətlərimiz tar və kamançadır. Başqa sənətlərə çox adamlar gedə bilərlər: Hər adam mühəndis də, həkim də, müəllim də, tacir də ola bilər, amma tar, kamança çala bilməz. Hər adam kamança çala bilər, ancaq sənin kimi çala bilməz. Ona görə də sən bu sənəti seçməyinlə fəxr edə bilərsən. Biz də sənin kimi kamança çalan Habillə fəxr edirik. Sağ ol.

Xalq artisti Sara Qədimovanı orden alması münasibətilə təbrik edirəm.

Sara xanım, sizi xoş gördük. Mən nə deyə bilərəm. Azərbaycan incəsənətinin tarixi sizdə əks olunubdur. Mən çox şadam ki, siz varsınız və bu ordeni sizə məmnuniyyətlə təqdim edirəm. [150-151]

**S a r a  Q ə d i m o v a**: Bu qayğıya və diqqətə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm.

Mənim hörmətli, əziz prezidentim! Əziz məclis əhli!

Mən 1942-1943-cü illərdə cəbhədə olmuşam, medallar almışam. 15 il səhnədə olandan sonra 1954-cü ildə əməkdar artist adı almışam. Bunları deməkdə mənim məqsədim vardır. Siz hamınız görmüsünüz, 1959-cu ildə ongünlükdə Xan əmi ilə, Şövkət xanımla birlikdə «Qarabağ şikəstəsi» oxuduq. Orada mənə «Şərəf nişanı» ordeni verdilər. 1960-cı ildə xalq artisti adını aldım. Sonra gözüm yollarda qaldı ki, bizim Heydər Əlirza oğlu bəs, mənə heç nə vermədi. Elə bir məqam da olmadı ki, mən nəsə bir şey alım.

Möhtərəm prezident, Allah adamı istəyəndə, Allahın nəzəri bəndəsinin üstündə olanda prezidentlərin də, prezidentimin də yadına düşürsən. Prezident bu üç ay ərzində hansı müğənni ilə telefonla danışıb? Bu, mənim üçün böyük fəxrdir. Mən bunlara böyük qiymət verirəm.

Mənim aldığım mükafatların hamısını kənara qoyuram, bir məsələni isə heç vaxt unutmuram. Mən 59 il səhnədə olmuşam. 1992-ci ildə mədəniyyət naziri məni məcbur etdi ki, 70 illik yubileyini keçir, il başa çatır. Mən may ayında anadan olmuşam, nazirlə mənim aramda belə bir söhbət isə dekabrın 18-də gedibdir.

Nazirə cavab verdim ki, mən yubiley keçirmək istəmirəm. Çünki doğma kəndim Gülablı işğal edilib, ölkəmizin təlatümlü vaxtıdır. Xülasə, başınızı da ağrıdıram. Rəhmətlik Gülağa da bizdə idi. Bir də gördüm ki, Naxçıvandan mənə zəng oldu. Məndən iki dəfə soruşdular ki, bu, Sara xanımın evidir? Cavab verdim ki, bəli. Mənə dedilər ki, Heydər Əlirza oğlu sizinlə danışmaq istəyir. Çox həyəcan keçirdim, bilmədim ki, nə edim. Gülağa da oturmuşdu, ona dedim ki, səs eləmə. Qərəz, telefon xəttini birləşdirdilər, biz danışdıq. Siz mənə xeyir-dua verdiniz. [151-152]

Ordenin də, medalın da öz yeri var, bunları almağın da öz yeri var, çünki zəhmət çəkmişik. Biz indikilər kimi yaşamamışıq, öküz arabasında, palçıqlı yollarla gedib camaat, əsgərlər qarşısında çıxış etmişik. İndi yaxşı yollar, maşınlar, şərait vardır. Biz çox ağır günlər keçirmişik, bir qarnı ac, bir qarnı tox yaşamışıq.

Şükürlər olsun ki, bizim hörmətli prezidentimiz incəsənətə həmişə böyük diqqət yetirir, qayğı göstərir. Hər bir sənətkara öz zəhmətinə layiq olan adlar, mükafatlar verilir. Bəzi cavanlar da var ki, eybi yoxdur, onlar da alarlar. Bütün bunları ona görə danışdım ki, mən o günü, dəqiqəni – Heydər Əlirza oğlunun Naxçıvandan mənə zəng etdiyini heç vaxt yaddan çıxara bilmərəm.

Mənim əziz prezidentim, ailə üzvlərinizlə bərabər Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Biz də Sizin sayənizdə fərəhlənirik, yaxşı günlər görürük. Çox sağ olun. Siz mənə həmişə diqqətli olmusunuz. Sağ olun.

**H e y d ə r  Ə l i y e v** : Çox sağ olun. İnşallah, Gülablı kəndini də düşməndən azad edəcəyik, Qarabağ da azad olacaqdır, oraya bir yerdə gedəcəyik.

**S a r a  Q ə d i m o v a**: Allah qoysa. Əziz prezidentim, çox sağ olun.

**H e y d ə r  Ə l i y e v**: Xalq artisti, müğənni Fidan Qasımovanı orden alması münasibətilə təbrik edirəm.

**F i d a n  Q a s ı m o v a**: Bu yüksək mükafata görə Sizə minnətdarlığımı bildirirəm. Prezident Heydər Əliyev bizi həmişə ruhlandırır. Mən öz xalqıma, vətənimə və dünyanın ən gözəl prezidenti olan prezidentimizə xidmət etməyə hazıram.

**H e y d ə r  Ə l i y e v**: Xalq artisti, bəstəkar Əhməd Cövdət Hacıyevə yüksək mükafatı təqdim edirəm. Cövdət müəllim, Sizi təbrik edir, Sizə cansağlığı, bundan sonra da çox illər ömür, yeni-yeni uğurlar arzulayıram.

**C ö v d ə t  H a c ı y e v**: Hörmətli, sevimli prezident! [152-153]

Mən Sizin fəaliyyətinizin bütün cəhətlərini bacardıqca izləmişəm. O qərara gəlmişəm ki, Siz elə şaxəli insansınız ki, bunu bir sözlə, bir əsərlə əhatə eləmək mümkün deyildir. Mən öz bacarığım çərçivəsində Sizə səkkizinci simfoniyamı ithaf eləmişəm. Simfoniya belə adlanır: «Onu zaman seçib. Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyevə həsr olunur».

Mən bu simfoniyanın İsmayıl Hacıyevin dirijorluğu ilə lentə yazılmış audiokassetini Sizə hədiyyə edirəm.

**H e y d ə r  Ə l i y e v**: Yüksək mükafat almağınız münasibətilə əziz Müslüm Maqamayev səni təbrik edirəm.

**M ü s l ü m  M a q o m a y e v**: Heydər Əliyeviç, Sizə olan məhəbbətimiz barədə danışmağa, zənnimcə, ehtiyac yoxdur. Mən Sizin şərəfinizə simfoniya yazmamışam, amma «Azərbaycan» adlı bir mahnı bəstələmişəm. Vaxtilə, sovet hakimiyyəti zamanı Siz onu qəbul etmədiniz. Bu yaxınlarda isə təsdiqlədiniz ki, onu qəbul edirsiniz. O vaxt bu mahnıda demək istədiklərimi indi Tamara ilə birlikdə oxuyuruq, başqa sözlə, Sizə olan məhəbbət ikiqat artmışdır.

Hamı bilir ki, Azərbaycanda incəsənət Sizin sayənizdə çiçəklənir. Ona görə biz istəyirik ki, Siz hələ uzun illər prezident olasınız. Sizə xoşbəxtlik və enerji arzulayıram.

**H e y d ə r  Ə l i y e v**: Müslüm Maqomayev 70-ci illərdə şair Nəbi Xəzrinin sözlərinə bəstələdiyi «Azərbaycan» mahnısının not yazısını mənə təqdim edərək demişdi ki, bu mahnı Sizə həsr olunmuşdur. O zaman mən bu fikrin yayılmasını istəmədim. Xatirə sözləri yazılmış notları evə apardım, kitablarımla bərabər Moskvaya da apardım, sonra buraya, Bakıya gətirdim. İndi, üstündən illər keçəndən sonra bu mahnının mənə ithaf olunduğunu bildirməsinə etiraz etmədim. Mən sənə təşəkkür edirəm, sağ ol.

Lidiya Rəsulova, Sizi «Şöhrət» ordeninə layiq olmağınıza görə təbrik edirəm. [153-154]

**L i d i y a  R ə s u l o v a**: Hörmətli cənab prezident!

«Şöhrət» ordeni ilə təltif olunduğuma görə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Mən Azərbaycanda çox işləmişəm. Amma bunun ən maraqlı illərini Sizin rəhbərliyiniz altında işləmişəm. Siz məni vicdanla, haqq-ədalətlə, xalqımızın sevincini, kədərini bölüşməklə işləməyə, əqidədən dönməməyə öyrətmisiniz. Sizin gözəl təcrübənizdən həmişə faydalanmışam. Əməyimə böyük qiymət verdiyinizə görə dərin təşəkkürümü bildirir, Sizə qüdrət və qüvvət, cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

**H e y d ə r  Ə l i y e v**: Xalq yazıçısı Əkrəm Əylislini yüksək mükafata layiq görülməsi münasibətilə təbrik edirəm. Mən o zaman dedim ki, gələn dəfə bu ordeni sənə təqdim edəcəyəm. İndi vaxtı gəlib çatdı. Bir daha təbrik edirəm.

**Ə k r ə m  Ə y l i s l i**: Əziz və hörmətli prezident! Əziz mərasim iştirakçıları!

Buraya gələcəyimi eşidəndə, haradansa ağlıma gəldi ki, izahlı lüğəti götürüb baxım ki, «mədəniyyət» sözünün anlamları nədir. Qəribəsi budur ki, orada oxuduğum anlamlar məni xeyli təəccübləndirdi. Çünki mənə elə gəlirdi ki, «mədəniyyət» sözü hörmətli Polad Bülbüloğlunun rəhbərlik elədiyi sahəni əhatə edir. Yəni kitabxana, klub, teatr və sairə. Amma, sən demə, «mədəniyyət» sözünün belə mənaları da varmış: becərmək, bəsləyib böyütmək, tərbiyələndirmək, savadlandırmaq, hərəkətə gətirmək, saya salmaq. Latın sözü olan «kultura»nın başlıca, mənası da həyata yaradıcı münasibət bəsləməkdir.

Hörmətli prezident, əziz mərasim iştirakçıları! Mən elə bilirəm ki, zaman bizi elə bu sözün, ona yekdil münasibətin zəminində yenidən bir yerə toplayıbdır. Yəni, «mədəniyyət» sözünün ifadə elədiyi mənalara həm ziyalıların yekdil münasibəti, həm də bu sözün əhatə elədiyi o gözəl aləmin cazibəsi. [154-155]

Hörmətli cənab prezident, yəqin burada oturanlar da bilir, deyirlər ki, Allahın 1001 adı var. Zaman da Allahın 1001 adından biridir. Mənə elə gəlir ki, biz burada, Sizin ətrafınızda Allahın 1001 adından birinin işığında toplaşdıq. Heç kəsin şübhə edə bilmədiyi, təkzibolunmaz faktdır ki, Azərbaycanın bütün yaradıcı ziyalıları Sizi səmimiyyətlə dəstəkləyir və Sizin cazibə dairənizdə gündən-günə daha sıx birləşirlər.

Heç yadımdan çıxmır, rəhmətlik Yusif Səmədoğlu ölüm yatağında ikən dedi ki, Sizə səs verəcək, yəni bunu deməyi lazım bildi. Yəqin ki, Yusif o ağır vəziyyətində bəlkə də rəhmətə gedəcəyini bilirmiş.

Bu yaxınlarda Məmməd Arazın müsahibəsini oxudum. Deyib ki, Heydər Əliyev ömrümə ikinci bir ömür əlavə elədi.

Yadınızdadırsa, İsa Hüseynov yaşının bu vaxtında nə desə yaxşıdır? Dedi ki, bir əsgər kimi hər gün küçəyə çıxıb Sizi hər cür düşməninizdən müdafiə eləməyə hazıram.

Hörmətli cənab prezident, burda əyləşənlər Azərbaycanda çox mürəkkəb bir dövrü keçmiş adamlardır. Bilirsiniz ki, təbiətdə, biologiyada mutasiya halları olur. Bu o deməkdir ki, Allah uzaq eləsin, qadın bir-birinə bitişik uşaqlar doğur. Bu, gec-gec baş verən, hər kəsin öz gözü ilə görə biləcəyi hallardır. Amma mənəviyyatda baş verən mutasiya hallarını görmüş bugünkü Azərbaycan ziyalısı Allahın 1001 adından birinin altında və bu adın işığında Sizinlə birlikdə olmağı lazım bildi və buna ehtiyac duydu.

Biz elə bir dövr keçirdik ki, Mirzə Cəlilimizə «kollaborasionist» dedilər. Bu sözü faşistlərin işğal etdikləri Fransada faşistlərə qulluq edənlərə deyirdilər. Biz bunun cavabını ləyaqətlə verdik. Elə bir dövrü gördük ki, mənəvi mutasiyanın başqa əlamətlərini Allah heç kəsə göstərməsin.

Söhbəti uzatmaq istəmirəm, deyiləcək söz kifayət qədərdir. Mən elə bilirəm ki, Azərbaycan bütün bu əzablı mənəviyyat [155-156] keçidlərini ötəcək, mənəviyyatın çox yüksək, ali mövqeyində, bundan da ucada dayanacaqdır. Buna göstərdiyiniz qayğıya, şəxsən mənə olan hər bir diqqət və qayğınıza görə Sizə dərin-dərin təşəkkürümü bildirirəm. Çox sağ olun.

*Heydər Əliyev dirjor, xalq artisti Rauf Abdullayevə, Azərbaycan EA-nın akademik katibi Cəmil Quliyevə, Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyliyə «Şöhrət» ordeni təqdim etdi.*

**H e y d ə r  Ə l i y e v**: Bəstəkar Emin Sabitoğlunu orden alması münasibətilə təbrik edirəm. Sənə cansağlığı, yeni-yeni mahnılar yazmağı arzulayıram. Sənin son vaxtlar yazdığın «Şükriyyə» mahnısı yaxşıdır, mənim xoşuma gəldi. Yəqin ki, onu hamı bəyənibdir.

**E m i n  S a b i t o ğ l u**: Mən Sizə təşəkkür edirəm. Cənab prezident. Mən neçə vaxtdır ki, Türkiyədə yaşayıram, işləyirəm. Amma buna baxmayaraq, Azərbaycanı unutmuram, xalqım üçün işləyirəm. Ürəyim həmişə Sizinlə bir yerdədir. Çox sağ olun ki, Siz bunu hiss etdiniz və məni «Şöhrət» ordeni ilə təltif etdiniz. Mən Sizə bir daha təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v**: Əlbəttə, Türkiyədə işləmək Azərbaycandan ayrılmaq demək deyildir. Bizim də ürəyimiz səninlədir.

**E m i n  S a b i t o ğ l u** : Cənab prezident, çox var olun. İcazə verin, bu yeni kassetlərimi sizə təqdim edim.

**H e y d ə r  Ə l i y e v**: Xalq artisti, müğənni Arif Babayevə «Şöhrət» ordenini təqdim edirəm. Səni təbrik edir, cansağlığı arzulayıram. Şübhəsiz ki, burada «Qarabağ şikəstəsi» çox yerinə düşərdi.

**A r i f  B a b a y e v**: Hörmətli prezident! Mənə verilən bu mükafat muğam sənətinə, xalq musiqisinə, əvəzolunmaz sərvətimizə verdiyiniz yüksək qiymətdir. Bütün sənət adamları Sizi ürəkdən sevir, salamlayır, minnətdarlıq edirlər. [156-157]

Mənim ürəyimdə böyük bir nisgil vardır. O nisgil budur ki, gün o gün olsun, Qarabağ torpağımız düşməndən azad edilsin, dediyiniz kimi, Siz başda olmaqla biz orada gözəl bir tədbir keçirək və mən Sizin qarşınızda, xalqın qarşısında «Qarabağ şikəstəsi»ni var gücümlə oxuyum. Çox sağ olun.

**H e y d ə r  Ə l i y e v**: İnşallah.İndi isə İdman veteranı, məşqçi Muxtar Dadaşova «Şöhrət» ordenini təqdim edirəm. Mən sənə yeni-yeni uğurlar diləyirəm. Azərbaycan idmanının daha uca zirvələrə çatması naminə böyük işlər görməyinizi istəyirəm.

**M u x t a r  D a d a ş o v**: Hörmətli prezidentim! Hörmətli xanımlar və cənablar!

Cənab prezident. Bu yüksək ordeni mənə təqdim etməyinizdən böyük şərəf duyuram. Bu, təkcə mənim əməyimə yox, Azərbaycan pəhləvanlarının qazandığı nailiyyətlərə verilən yüksək qiymətdir. Allah Sizin ömrünüzü uzun eləsin! Siz biz idmançıları heç vaxt yaddan çıxarmırsınız. İdmana böyük qayğı göstərmisiniz.

Möhtərəm prezident, mən öz adımdan və idmançılar adından Sizə daha böyük uğurlar, cansağlığı, uzun ömür arzulayıram. Sizə söz verirəm ki, öz biliyimi, təcrübəmi bundan sonra da gənclərə həvəslə öyrədəcəyəm. Bu, mənim müqəddəs borcumdur.

Bu yaxınlarda respublikamızda prezident seçkiləri keçiriləcəkdir. Cənab prezident, biz – bütün idmançılar yalnız Sizə səs verəcəyik. Allah Sizə cansağlığı versin! Sağ olun.

**H e y d ə r  Ə l i y e v**: Xalq rəssamı Böyükağa Mirzəzadəyə «Şöhrət» ordenini təqdim edirəm. Sənə daha böyük yaradıcılıq uğurları arzulayıram.

**B ö y ü k a ğ a  M i r z ə z a d ə**: Əziz və hörmətli prezident!

Hər bir insanın həyatında baş verən xoşbəxtlik mənə də qismət olubdur. Birincisi, mən rəssam olmuşam. Həyatda yaşamaq çox qəribədir, ancaq rəssama qiymət vermək hər kəsin işi deyildir. [157-158]

Mən vaxtınızı çox almaq istəmirəm, ona görə də fikrimi qısaca olaraq bir neçə kəlmə ilə deyəcəyəm.

Möhtərəm prezident, Sizin mənə verdiyiniz qiyməti son nəfəsimə qədər yaddan çıxarmaram. 1981-ci ildə mənim 60 yaşım tamam oldu. Sizin kimi dahi bir insan həyatımda birinci dəfə mənə zəng etdi.

Cənab prezident, mən Sizi bəlkə də lap cavanlığınızdan tanıyıram. Mənim həmişə Sizə böyük hörmətim olubdur. Mən Sizə həmişə böyük məhəbbət hissləri bəsləmişəm. Möhtərəm prezident, 1981-ci ildə Siz

evimə zəng edib məni təbrik etdiniz, mən indiyədək onun təsiri altında yaşayıram. Bir də bu gün mənim həyatımda böyük, xoşbəxt bir gün oldu.

Möhtərəm prezident, mən özümü xoşbəxt hesab edirəm ki, Sizinlə bir vaxtda yaşamışam, Sizin müasirinizəm. Dahi insanla, rəhbərlə bir dövrdə yaşamaq hər adama qismət olmur. Bu, mənə qismət olubdur.

İndi 80 yaşa çatmaq üzrəyəm. Azərbaycanlılarda yaxşı bir söz vardır: Cənab prezident, Allah mənim ömrümdən kəssin, Sizin ömrünüzə calasın.

**H e y d ə r Ə l i y e v**: Yox, sənin ömrün sənin, mənim ömrün mənim olsun.

**B ö y ü k a ğ a M i r z ə z a d ə**: Cənab prezident, Siz Azərbaycan xalqına lazımsınız. Azərbaycan xalqı Sizsiz nə edə bilər? Bunu Allah bilir. Sizi istəməyən beş-altı nəfər var, bilmirəm, onlara ya «beşlik», ya da «üçlük» deyirlər. Mən xalqın arasındayam, dəqiq bilirəm ki, Sizi istəməyən adam yoxdur.

Cənab prezident, mən Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

**H e y d ə r Ə l i y e v**: Böyükağa, mən gənc vaxtlarımdan səni Azərbaycanın böyük rəssamı kimi tanımışam. Bilirsən ki, mən rəssamlıqla o vaxtdan çox maraqlanan bir adamam. Gənc yaşlarımda mən də rəssam olmaq istəyirdim, rəsmlər [158-159] çəkirdim. Böyükağa Mirzəzadə bizim qarşımızda böyük bir rəssam idi. Ona görə də mən səni heç vaxt unuda bilmərəm və heç vaxt unutmamışam.

**B ö y ü k a ğ a M i r z ə z a d ə**: Cənab prezident, çox sağ olun. Mən Sizə minnətdaram.

**H e y d ə r Ə l i y e v**: Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri professor Zəhra Quliyevanı «Şöhrət» ordeni ilə təltif olunması münasibətilə təbrik edirəm.

**Z ə h r a Q u l i y e v a**: Hörmətli cənab Heydər Əliyev!

Əvvəla, bu yüksək mükafata görə Sizə təşəkkürümü, minnətdarlığımı bildirirəm. Həmin mükafatı təkcə özümə aid etmirəm, - bu, bizim səhiyyə işçilərimizə, oftalmoloqlarımıza, qadınlarımıza göstərilən diqqət və qayğıdır.

Qəzetlərdən məlum olduğu kimi, bu yaxınlarda, sentyabrın 14-15-də müstəqil respublikamızda qadınlar qurultayı keçiriləcəkdir. Bu münasibətlə mən Azərbaycanın bütün ərazisini gəzərək, zona qadın konfransları keçirmişəm. Həmin konfranslarda qadınların problemləri müzakirə olunmuşdur. Eyni zamanda, məndən xahiş etmişlər ki, onların sözlərini Sizə, xalqımıza yetirim. Cənab Heydər Əliyev, bizim qadınlarımız Sizin müdrik daxili və xarici siyasətinizi ürəkdən bəyənir, dəstəkləyirlər, ətrafınızda sıx birləşərək Sizin dayağınıza, istinadgahınıza çevrilmək istəyirlər. Məndən dəfələrlə xahiş etmişlər ki, qadınlarımızın təşəkkürünü, minnətdarlığını, ünvanınıza deyilən bütün xoş sözləri Sizə yetirim. Allah Sizə uzun ömür, cansağlığı, ailə, övlad səadəti qismət eləsin.

Seçkilərlə əlaqədar olaraq qeyd etmək istəyirəm ki, biz qadınlar 11 təşəbbüs qrupundan birini təşkil etdik. Siz biləydiniz ki, qadınlarımız necə həvəslə, səylə imza toplayırdılar. Əsas mükafat da o oldu ki, Siz televiziya ilə çıxış edərək, prezidentliyə namizəd kimi seçkilərdə iştirak etməyə razılığınızı verdiniz və təşəbbüs qruplarında çalışanların əməyini yüksək qiymətləndirdiniz. Buna görə mən bütün qadın[159-160]larımızın adından Sizə təşəkkür edirəm. Minnətdarıq, çox sağ olun. Həmişə Siz olasınız!

*Azərbaycan Akademik Milli Dram Teatrının direktoru, xalq artisti Həsən Turabova «Şöhrət» ordeni təqdim olundu.*

**H e y d ə r Ə l i y e v**: Xalq artisti, Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru Hacıbaba Bağırova bu yüksək mükafatı təqdim edirəm.

**H a c ı b a b a B a ğ ı r o v**: Cənab prezident, mükafata görə də, Musiqili Komediya Teatrının yeni binasına görə də çox sağ olun.

**H e y d ə r Ə l i y e v**: Xalq rəssamı Elbəy Rzaquliyevə «Şöhrət» ordenini təqdim edirəm.

**E l b ə y R z a q u d i y e v** :Azərbaycanın yüksək dövlət mükafatına layiq görüldüyüm üçün Sizə, cənab prezident, səmimi təşəkkürümü bildirirəm və bu əlamətdar gündən xatirə olaraq Sizə qələm hədiyyə edirəm.

*Heydər Əliyev xalq artisti, bəstəkar Hacı Xanməmmədova, xalq artisti Rasim Balayevə, akademik Kamal Talıbzadəyə də «Şöhrət» ordeni təqdim etdi.*

**H e y d ə r Ə l i y e v**: Hörmətli xanımlar və cənablar!

XX əsrdə Azərbaycan mədəniyyəti, elmi, ədəbiyyatı, musiqisi, incəsənəti çox inkişaf edibdir. Bizim xalqımız çox istedadlı xalqdır və qədim dövrlərdən də elm, mədəniyyət, incəsənət, musiqi sahəsində böyük əsərlər yaratmışdır. Ancaq biz bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanın istedadlı şəxsləri, insanları XX əsrdə, ötən bütün əsrlərin nailiyyətlərindən istifadə edərək daha da böyük, dəyərli əsərlər yaratmış, incəsənət nümunələri meydana çıxarmış, tariximizi, elmimizi, mədəniyyətimizi zənginləşdirmişlər. XX əsrin ikinci yarısı isə bu baxımdan daha da məhsuldar olmuşdur.

Bu gün Azərbaycan müstəqil dövlət olaraq xalqımız tərəfindən tarix boyu yaradılmış əsərləri, əldə edilmiş nailiyyətləri bütün dünyaya nümayiş etdirir və bununla da dünya xalqları [160-161] içərisində xalqımızın nə qədər böyük, istedadlı xalq olduğunu sübut edir.

Bu əsərləri yaradanlar xalqımızın içindən çıxan ən istedadlı insanlardır. XX əsrdə, xüsusən də bu əsrin ikinci yarısında, şükürlər olsun ki, Azərbaycanda belə insanlar çox olmuşdur, böyük əsərlər yaranmışdır. Bir daha

qeyd edirəm ki, bir müstəqil dövlət kimi bu gün biz hər bir xalqın, ölkənin nümayəndəsi ilə danışarkən, görüşərkən xalqımızın istedadı haqqında ümumi sözlərlə yox, yaranmış əsərlər əsasında söhbət aparırıq.

Bizim yaradıcı, elm adamlarımızın – XX əsrdə yazıb – yaradanların bir qismi dünyasını dəyişibdir. Ancaq bu gün çoxları da yaşayır, yaradır və öz yaradıcılığını davam etdirir. Hesab edirəm, biz çox xoşbəxt adamlarıq ki, Azərbaycanın milli azadlığını, müstəqilliyini gördük, müstəqil, azad ölkədə, dövlətdə yaşayırıq.

Ölkəmiz yeddi ildir ki, müstəqildir. Bu gün bu mükafatları sizə təqdim etmək ərəfəsində mən tarixə, günə nəzər saldım. Bu gün avqust ayının 21-dir. Yadıma düşdü ki, 1991-ci ildə məhz avqust ayının 19,20,21-də Rusiyada dövlət çevrilişinə cəhd olmuşdur və onun qarşısı alınmışdır. Bundan sonra Sovetlər İttifaqının dağılması prosesi güclənmiş, nəhayət, 1991-ci ilin sonunda böyük bir dövlət kimi Sovetlər İttifaqı süqut etmişdir. Bunun nəticəsində Azərbaycan da öz müstəqilliyini əldə etmişdir.

İndi bəziləri deyirlər ki, sovet imperiyasını guya onlar dağıdıblar. Sovet imperiyası güclü bir imperiya, dövlət idi. O, 70 ildən çox hökm sürdü və bu ölkəni dağıtmaq istəyənlər çox oldu. 1941-ci ildə alman faşistləri Sovet İttifaqının üzərinə hücum etdilər, ancaq Sovet ittifaqını dağıda bilmədilər. Ondan sonra sovet İttifaqı daha da möhkəmləndi. «Soyuq müharibə» başlandı, dünyada iki blok yarandı. Onlardan biri Qərb ölkələrinin daxil olduqları NATO bloku, ikincisi – Var[161-162]şava paktına daxil olan, Sovet İttifaqı başda olmaqla digər blok idi.

O dövrdə uzun illər qarşıdurma oldu. Bu «soyuq müharibə»dən dünya da, insanlar da çox əziyyət çəkdilər. O cümlədən, sovet ittifaqının vətəndaşları olaraq biz – Azərbaycan da bundan çox əziyyət çəkdik. Belə bir fövqəldövləti, imperiyanı küçədə qışqırmaqla, bağırmaqla, hay-küy salmaqla dağıtmaq mümkün deyildi. Ancaq bu quruluş, ölkə dağılmalı idi və dağılma prosesi gedirdi.

Mən 80-ci illərin sonlarından bu quruluşun dağılmasını görürdüm, bu quruluşun dağılması üçün öz arzularımı, istəklərimi də bildirirdim və bunu xalqa da çatdırırdım. Ancaq təəssüflər olsun ki, Azərbaycanda bəziləri bunu anlamırdılar. İndi mən tarixi yada salaraq, bir neçə məqamları deməliyəm.

1990-cı ildə mən və mənim kimi çoxları da Azərbaycanın müstəqil olması şüarı ilə çıxış edirdik. Ancaq hakimiyyətdə olan şəxslər isə Sovetlər İttifaqının qorunub saxlanmasını dəstəkləyir, müdafiə edirdilər. Hətta 1991-ci ilin mart ayında Qorbaçov və onun dəstəsi Sovetlər İttifaqını bu fəlakətdən, uçurumdan qoruyub saxlamaq üçün yeni bir islahat elan etdi. Ancaq bu islahat da ona kömək etmədi. Baxmayaraq ki, 1991-ci ilin mart ayında Azərbaycanın o vaxtkı rəhbərliyinin səyləri nəticəsində elan edildi ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti Sovetlər İttifaqının qorunub saxlanmasının tərəfdarıdır. Amma bundan bir neçə ay keçəndən sonra, yəni avqust ayının 19-da Rusiyada, Moskvada Fövqəladə Vəziyyət Komitəsi yarandı və demokratiya tərəfindən olan qüvvələr onun əleyhinə çıxdılar. Beləliklə, Sovetlər İttifaqının dağılması prosesi gücləndi. Dediyim kimi, nəhayət, 1991-ci il dekabrın sonunda Sovetlər İttifaqı dağıldı, süqut etdi.

Bir daha qeyd edirəm, - bu, həmin illərdə dünyada və Sovetlər İttifaqında gedən ictimai-siyasi proseslərin nəticəsi[162-163]dir. Heç kəs deyə bilməz ki, o, Sovetlər İttifaqını təkbaşına dağıdıbdır. Bu günləri, hadisələri mən ona görə xatırlayıram ki, Sovetlər İttifaqının dağılması üçün təkan baş verdiyi məhz həmin gündən 7 il keçmiş, indi biz müstəqil Azərbaycanda yaşayaraq müstəqil dövlətimizin atributlarını təqdim edirik. Bu gün mən sizə, Azərbaycanın dəyərli insanlarına müstəqil dövlətimizin ordenlərini təqdim etdim.

Bu gün buraya toplaşanlara nəzər salarkən mən bir fikri də ifadə etmək istəyirəm. Birincisi, siz – bu gün Azərbaycanın yüksək mükafatlarını alan şəxslər – hər biriniz Azərbaycanın mədəniyyət, elm, incəsənət tarixinə öz töhfələrinizi vermiş, xalqımıza böyük xidmətlər göstərmiş insanlarsınız. Siz Azərbaycanın mənəvi dəyərlərini inkişaf etdirmiş insanlarsınız.

İkincisi, bu gün burada orden alan insanlar müxtəlif yaşlara mənsubdurlar. Ramazan Xəlilov 100 yaşına çatır. Fərhad Bədəlbəylinin, Rasim Balayevin 50 yaşı tamam olubdur. Buraya toplaşanlar 50 yaş ilə 100 yaş arasında olan insanlardır. Bu, nəyi göstərir? Bu onu göstərir ki, Azərbaycanda nəsillər bir-birini ardıcıl surətdə əvəz edir. Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri nəsilləri arasında əlaqələr qırılmır. Onlar bir-biri ilə bağlıdır, bir-birini irəliyə aparır. Gənc də, yaşlı da – hamısı bir yerdədir. Bunun xüsusi əhəmiyyəti vardır. Çünki son illərdə bəziləri Azərbaycanın tarixi keçmişini tamamilə pozmağa, qaralamağa, hörmətdən salmağa cəhdlər göstərmişlər.

Şübhəsiz ki, bu cəhdlər heç bir nəticə verə bilməz. Biz Nizamini, Füzulini, Nəsimini, Vaqifi qiymətləndirdiyimiz kimi, Mirzə Fətəli Axundovu da, Üzeyir Hacıbəyovu da, Cəlil Məmmədquluzadəni də, Cəfər Cabbarlını da, Müslüm Maqomayevi də, Səməd Vurğunu da, Rəsul Rzanı da, Süleyman Rəhimovu da, Mehdi Hüseyni də, Qara Qarayevi də, Fikrət Əmirovu da, Niyazini də, Rauf Hacıyevi də və başqalarını da qiymətləndiririk. Biz bu gün yaşayıb-yaradanları da qiymət[163-164]ləndiririk. Bunların hamısı bir-biri ilə üzvi surətdə bağlıdır. Xalqımızın, mədəniyyətimizin, incəsənətimizin, elmimizin çox gözəl keçmişi, tarixi və bu günü vardır. Mən tam əminəm ki, bundan da gözəl gələcəyi olacaqdır.

Kim hansı dövrdə, hansı hökmdarın dövründə, hansı ictimai-siyasi quruluşda yaşayıb, yazıb, kim müstəqil Azərbaycanda yaşayır, yazır – bunun fərqi yoxdur. Onların hər biri keçmişdə də, bu gün də xalqımıza, Azərbaycan xalqına, doğma millətimizə, vətənimizə xidmət edibdir.

Mənim əziz dostlarım, siz də həmin bu xidməti göstərən insanlarsınız. Azərbaycanın dövlət başçısı kimi mən də həm 100 yaşına çatan Ramazan Xəlilovun, həm də 50 yaşını dünən adlayan Rasim Balayevin, Fərhad Bədəlbəylinin xidmətlərini qiymətləndirirəm. Onlar da, 80 yaşını adlamış Cövdət Hacıyev də, 80 yaşını çatan Sara Qədimova da, 80 yaşına adlayan Nəsibə Zeynalova da, bu gənclər də bizim üçün əzizdirlər. Onların hamısı bizim üçün əzizdir.

Bu gün mən çox böyük iftixar hissi keçirirəm ki, mədəniyyətimizi, elmimizi, incəsənətimizi çiçəkləndirən, inkişaf etdirən, yaradan və bizim hər birimizə mənəvi, estetik qida verən insanlarla bir daha görüşürəm, bu dövlət mükafatlarını, ordenləri sizə təqdim etmək mənə nəsib olubdur.

Sara xanım xatırladı ki, 1992-ci ildə mən Naxçıvandan ona zəng etdim. Bu belədir, doğrudur. Onda mən Naxçıvanda – çox təcrid olunmuş, blokada şəraitində yaşayan bir diyarda idim. Özüm də çətin şəraitdə yaşayırdım. O vaxt eşitdim ki, Sara xanımın yubileyidir. Mən ona bir məktub göndərdim. Xatirimdədir, həmin məktubu sonra televiziya ilə verdilər. O zaman Naxçıvanda televiziyada gördüm ki, filarmoniyada keçirilən tədbirdə mənim məktubumu oxudular. Mən çox məmnun oldum ki, Sara xanımın filarmoniyadakı yubileyinə toplaşanlar həmin məktubu həyəcanla, alqışlarla qarşıladılar. Ancaq mən bu məktubla kifayətlənmədim, zəng də etdim ki, [164-165] o mənim, mən də onun səsini eşidim. Sara xanımı unutmaq olarmı? Mən harada olsaydım, Naxçıvanda da – baxmayaraq ki, o vaxt Naxçıvan blokada şəraitində idi, – başqa yerdə də olsaydım, Sara xanımı unutmayacaqdım. Çünki Sara xanımın nə sisini, nə də özünü unutmaq olmaz.

Sara xanım 1940-cı illərdə mahnılar oxuyubsa, insanlara ruh veribsə, - bəli, İkinci Dünya müharibəsi zamanı gənc bir qız, müğənni olan Sara xanım gedib əsgərlərin qarşısında mahnılar oxuyub, insanlara ruh verib, - onu unutmaq olarmı? Sara xanım ondan sonrakı dövrdə də öz fəaliyyətini davam etdirib, bu gün də xalqın içindədir, ictimaiyyətin görkəmli insanlarından biridir. Bəs kimsə deyə bilərmi ki, Sara xanım o vaxt olub, biz indi onu tanımırıq, bu gün hansısa bir müğənni çıxıb mitinqdə söz deyir – onu tanıyırıq? Bu, dəhşətli bir əhvali-ruhiyyədir.

Biz heç kəsi inkar etmirik, heç kəsin də kimisə inkar etmək hüququ yoxdur. Bu hüquq heç kəsə verilməyibdir, bir Allahdan başqa, heç kəsin belə bir hüququ yoxdur.

Yenə də çox məmnunam ki, nəhayət, bu ordeni vermək imkanı əldə edildi, mən sizə bu ordeni verdim və çox mehriban görüşümüz oldu. Biz iki saatdan artıqdır ki, bir yerdəyik. Fərq təkcə ondan ibarətdir ki, siz hamınız oturmusuz, mən isə ayaq üstə durmuşam. Amma Azərbaycanın sizin kimi dəyərli insanlarına görə mən iki saat yox, on saat da ayaq üstə durmağa hazıram.

Siz burada mənim haqqımda xoş sözlər dediniz, öz hissiyyatlarınızı bildirdiniz, məhəbbətinizi, sevgilərinizi, arzularınızı izhar etdiniz. Mən bunlara görə sizə təşəkkür edirəm.

Bilirsiniz ki, mənim həyatım xalqa, millətə, Azərbaycana həsr olunubdur. Bu, mənim həyatımın mənasıdır. Əgər insanlar bunu görürsə və qiymətləndirirsə, bu, mənim üçün ən yüksək mükafatdır. Ancaq kimsə qiymətləndirir, kimsə qiymətləndirmirsə, bu da mənim üçün heç bir narahatlıq hissi doğur[165-166]mur. Cəmiyyətdə hamı üçün yaxşı olmaq mümkün deyildir. Xüsusən də hakimiyyətdə olan insan üçün. Hakimiyyətdə olan insan kimisə təltif edir, amma onun hakimiyyəti dövründə kimsə cəzalanır. Bu təbiidir. Qanunu pozan, cinayət edən cəzalanmalıdır. Amma təəssüf ki, cəzalanan həmin insan bəzən öz cinayətini unudaraq hakimiyyəti, onu cəzalandırmış orqanları günahlandırır. Bu da var. Bu da bizim reallığımızdır. Bu da məndə heç bir təəccüb doğurmur. Ancaq Azərbaycanda insanların tam əksəriyyəti dövlətimizin müstəqilliyi yolunda son beş ildə görülmüş işləri qiymətləndirir və sizin burada dediyiniz kimi, yüksək qiymətləndirir. Bu da mənim üçün, mənim gələcək işlərim üçün böyük dəstəkdir. Bu, məni daha da ruhlandırır, mənə daha da çox güc verir.

Doğrudur, gücüm onsuz da vardır. Ancaq hər bir insanın duası da tarixi missiyamı yerinə yetirməkdə mənə yardım edir. Buna görə mən sizə təşəkkür edirəm.

Mən inanıram ki, sizin hər biriniz Azərbaycan mədəniyyətini, incəsənətini, elmini bundan sonra daha da zənginləşdirmək üçün əzmlə çalışacaqsınız, yeni-yeni əsərlər yaradacaqsınız, xalqımızı sevindirəcəksiniz. İndi bunun üçün bəlkə də bir tərəfdən şərait çətindir, amma digər tərəfdən daha da əlverişlidir.

Şübhəsiz ki, sosial-iqtisadi çətinliklər cəmiyyəti də və sizləri də sıxır. Ancaq mənəvi nöqteyi-nəzərdən biz azadıq, müstəqilik, sərbəstik. Biz heç kəsdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik. Bilirsiniz, bunun üçün, yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar. Məhz bunun üçün illərlə ac qalmaq olar. Çünki əsrlər boyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, milli azadlıq, müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Bilin ki, indi bunu əlimizdə saxlamaq, qorumaq hər bir insan üçün canından da artıqdır. Mən sizə deyi[166-167]rəm, bunu bilin, Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, onu əbədi etmək mənim üçün öz həyatımdan, canımdan artıqdır.

Ona da əmin ola bilərsiniz ki, Azərbaycan dövlətinin, prezidentinin apardığı siyasət və həyata keçirdiyi tədbirlər Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirir və yüksəklərə qaldırır. Azərbaycanın dövlət başçısı kimi mən deyirəm, bilin, - bundan sonra Azərbaycan heç kəsdən asılı, heç

kəsin vassalı olmayacaqdır. Ancaq özü öz taleyini hər gün həll edəcək və öz gələcəyini müəyyənləşdirəcəkdir. Azərbaycan müstəqil, sərbəst qalacaqdır.

Mən sizi bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uzun ömür arzulayıram. Sizə yeni-yeni uğurlar, ailə səadəti arzulayıram. Ümidvaram ki, siz bundan sonra da öz gözəl işlərinizlə, əsərlərinizlə xalqımızı millətimizi sevindirəcəksiniz. Sağ olun. [167]

**RUSİYA FEDERASİYASI**
**DAĞISTAN RESPUBLİKASI**
**DÖVLƏT ŞURASININ SƏDRİ**
**CƏNAB MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOVA**

Hörmətli Məhəmmədəli Məhəmmədoviç!

Dağıstan Müsəlmanları Dini İdarəsinin sədri, Müfti Səid Məhəmməd Abubakarovun terror aktı nəticəsində faciəli surətdə həlak olması haqqında xəbər məni dərindən həyəcanlandırdı və sarsıtdı.

Bu cür terror aktlarını qətiyyətlə pisləyir, Dağıstanın qardaş xalqlarını sıx birliyə və təmkinliliyə çağırıram.

Sizə, mərhumun doğmalarına və yaxın adamlarına səmimi- qəlbdən başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 avqust 1998-ci il*
[168]

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LEONİD KUÇMAYA**

Hörmətli Leonid Daniloviç!

Sizi və bütün qardaş Ukrayna xalqını Ukraynanın milli bayramı – Müstəqillik günü münasibətilə təbrik edirəm.

Xalqlarımız arasındakı ənənəvi dostluq münasibətlərini, ölkələrimizin qarşılıqlı surətdə faydalı və səmərəli əməkdaşlığını, sizinlə, əziz dost, aramızda olan səmimi və mehriban şəxsi münasibətləri mən yüksək qiymətləndirirəm.

Əminəm ki, bu münasibətlər xalqlarımızın rifahı, regionumuzda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə, qardaş Ukraynanın bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 avqust 1998-ci il*
[169]

## RUSİYANIN AZƏRBAYCANDAKI YENİ SƏFARƏTXANA KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*23 avqust 1998-ci il*

Hörmətli cənab səfir!

Azərbaycanın və Rusiya səfirliyinin hörmətli qonaqları, xanımlar və cənablar!

Bu gün Azərbaycanda, Bakıda əlamətdar hadisə baş verir – biz Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin yeni kompleksinin açılışında iştirak edirik. Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi 1992-ci ildən mövcuddur və son illər böyük təşəbbüskarlıq və fəallıq göstərmiş, öz imkanlarından və ölkəmizdəki imkanlardan istifadə etmiş, özünün gələcək işi üçün belə gözəl kompleks yarada bilmişdir.

Bu hadisə Rusiya Federasiyası səfirliyi üçün də böyük əhəmiyyətə malikdir, belə ki, onun əməkdaşlarının fəaliyyəti, həyatı və istirahəti üçün daha əlverişli şərait yaradır. Bununla yanaşı, səfirlik kompleksinin tikintisi və istifadəyə verilməsi şəhərimizin memarlıq simasını zənginləşdirir və Bakıda olanlara daha bir gözəl kompleks əlavə edir. Ona görə də bu hadisəni həm Rusiya Federasiyası, həm də Azərbaycan üçün çox əlamətdar hesab edirəm.

Simvolikdir ki, səfirlik kompleksinin açılışı Rusiya üçün, Azərbaycan üçün, habelə keçmişdə Sovetlər İttifaqının tərkibinə daxil olmuş digər müstəqil dövlətlər üçün tarixi əhəmiyyəti olan günlərdə keçirilir. Avqustun 19-21 və 22-də Moskvada baş vermiş qaynar qiyam adlandırılmış unudulmaz hadisələrin yeddi [170-171] ili tamam olmuşdur. Fövqəladə Vəziyyət Komitəsi, qiyam, onun nəticələri bir çox cəhətdən təkcə Rusiyanın deyil, həm də Sovet Sosialist Respublikaları İttifaqını təşkil edən digər respublikaların da gələcək taleyini müəyyən etdi. Məhz avqustun 22-də Rusiya Federasiyası Ali Sovetinin sessiyasında Rusiya bayrağı haqqında qərar qəbul olundu. Bu akt Rusiya üçün çox əlamətdardır. O, həm də onunla əlamətdardır ki, onun ardınca keçmiş Sovetlər Birliyinin digər respublikalarında da belə aktlar baş verdi və avqustun 22-i bayram – Rusiya bayrağı günü elan edildi. Ona görə də bizim məhz bu günlərdə burada toplaşmağımızın və Rusiya Federasiyası səfirliyinin yeni kompleksinin açılışında iştirak etməyimizin böyük əhəmiyyəti var.

Rusiya ilə Azərbaycan arasında münasibətlərin böyük tarixi var. Dünən sankt-peterburqlu və moskvalı qonaqlarımızla söhbət əsnasında biz xatırladıq ki, 1724-cü ildə böyük I Pyotr Rusiyanın Azərbaycana ilk səfirini göndərmişdir. Biz onu da xatırladıq ki, XIX əsrin əvvəllərində, Rus-İran müharibəsindən sonra Azərbaycan iki hissəyə parçalandı və onun şimal hissəsi Rusiyanın tərkibinə daxil oldu. Ötən bu tarixi dövrdə çox hadisələr baş vermişdir. Faciəli, ağır hadisələr çox olmuşdur, ancaq xeyirxah, yaxşı işlər də çox olmuşdur. Bütün bunlar artıq tarixə çevrilmişdir. Biz irəliləyirik və bunu edərkən vaxtı 1991-ci ilin avqustunda Moskvada tarixi hadisələr baş verdiyi, Rusiya Federasiyası öz bayrağı haqqında, öz suverenliyi haqqında qərar qəbul etdiyi zamandan hesablamağa başlayırıq. Bu proseslər Sovet İttifaqının süquta uğramasına və ona daxil olmuş respublikaların dövlət müstəqilliyi qazanmasına, bayraq haqqında öz qərarlarını qəbul etməsinə gətirib çıxardı.

Bir ölkə, bir dövlət kimi Rusiya zəngin tarixə malikdir, lakin 1922-ci ildən sonra Rusiyanın əslində öz suverenliyi yox idi. Azərbaycanın da suverenliyi yox idi. O, suverenliyə ondan əvvəl də, XIX əsrin başlanğıcından da malik deyildi. Pusiya isə suverenliyə 1922-ci ildən, Sovet Sosialist Respubli[171-172]kaları İttifaqı yarandığı vaxtdan malik deyildi. Ona görə də Rusiyanın, eləcə də Azərbaycanın heç yerdə öz səfirliyi yox idi. Sovet İttifaqının tərkibində Azərbaycanın heç olmasa Moskvada daimi nümayəndəliyi vardı. Ancaq bu, Sovet İttifaqı hökuməti nəzdində idi. Rusiya isə heç nəyə malik deyildi.

İkinci dünya müharibəsi qurtardıqdan sonrakı dövrü xatırlayıram. Birləşmiş Millətlər Təşkilatı yaranmışdı. Dünyanın o vaxt mövcud olan bütün ölkələri Birləşmiş Millətlər Təşkilatının tərkibinə daxil oldular. Bu təşkilatın baniləri isə bir neçə ölkə, o cümlədən Sovet İttifaqı idi. O vaxt Sovet İttifaqı BMT-nin üzvü oldu. Ukrayna və Belorusiya Birləşmiş Millətlər Təşkilatının üzvləri oldu. Rusiya isə BMT-nin üzvü ola bilmədi. Söhbəti ona gətirirəm ki, Rusiya Federasiyasının öz dövlət suverenliyini bəyan etməsi onun üçün və Rusiya ilə birlikdə Sovet İttifaqının tərkibinə daxil olmuş digər respublikalar üçün tarixi hadisədir.

Mən xatırlatdım ki, ilk səfir I Pyotr tərəfindən 1724-cü ildə göndərilmişdi. Pusiyanın Azərbaycana ikinci səfiri isə 1992-ci ildə gəlmişdir. Səfirlik üçün ilk belə gözəl kompleksi isə biz sizinlə birlikdə bu gün açırıq. Bütün bunlar Rusiya, Azərbaycan tarixinin, Rusiya-Azərbaycan münasibətləri tarixinin mühüm mərhələləridir.

Azərbaycanla Rusiya arasında dostluq münasibətləri olmuşdur. Xalqlarımız – rus və Azərbaycan xalqları arasında, Rusiyanın bütün xalqları ilə Azərbaycan xalqı arasında həmişə xoş dostluq münasibətləri olmuşdur. Bu baxımdan biz keçmişin zəngin mirasına malikik. Bu gün də Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq, tərəfdaşlıq və əməkdaşlıq münasibətləri təşəkkül tapmış və mövcuddur. Biz buna böyük əhəmiyyət veririk. 1997-ci il iyulun 3-də Moskvada, Kremldə, Rusiyaya rəsmi

səfərim zamanı Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalanmışdır. Bu, [172-173] münasibətlərimizin perspektivlərini və xarakterini müəyyənləşdirən mühüm sənəddir. Dövlətlərimiz arasında bir çox digər sənədlər də imzalanmışdır və onlar həyatın bir çox sahələrində əməkdaşlığı təmin edir. Biz bunu yüksək qiymətləndiririk və dostluğumuzu möhkəmlətmək və inkişaf etdirmək üçün, əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək üçün hər şey etməyi vacib və zəruri hesab edirik.

Bu baxımdan bir çox konkret faktlar və misallar var. Biz Rusiya Federasiyası ilə dövlətlərarası münasibətləri saxlamaqla yanaşı, onun subyektləri ilə bilavasitə əlaqələrə də böyük əhəmiyyət veririk. Rusiya 89 subyektə malik olan çox böyük ölkədir. Rusiya Federasiyasının subyektləri ilə bilavasitə əlaqələr istər Rusiya Federasiyası üçün, istərsə də onunla əməkdaşlıq edən ölkələr üçün böyük əhəmiyyətə malikdir. Biz bu sahədə çox işlər görmüşük. Bizdə Moskva, Sankt-Peterburq hökumətləri ilə, Şimali Qafqaz respublikaları ilə, Rusiya Federasiyasının bəzi digər vilayətləri, Tatarıstan və başqa respublikaları ilə imzalanmış sənədlər var.

Hörmətli qubernator Vladimir Anatolyeviç Yakovlevin başçılıq etdiyi Sankt-Peterburqun nümayəndə heyəti indi buradadır. Dünən biz çox səmərəli danışıqlar apardıq, mühüm sənədlər imzaladıq və Azərbaycanın Sankt-Peterburq ilə bilavasitə əməkdaşlığının inkişaf etdirilməsinin və dərinləşdirilməsinin istiqamətlərini müəyyənləşdirdik. Bundan əvvəl bu, Moskva, Dağıstan, Kalmıkiya, Tatarıstan, Saratov ilə, Rusiya Federasiyasının bir çox digər subyektləri ilə edilmişdir.

Bütün bunlar Azərbaycan ilə Rusiya Federasiyası arasında əməkdaşlığa münasibətimizin çoxcəhətli və çoxplanlı olduğuna dəlalət edir. Bu addımlar ona yönəldilmişdir ki, əməkdaşlığımız həqiqətən real və səmərəli olsun. Ümidvarıq ki, biz bu istiqamətdə konkret praktiki nəticələrə nail olacağıq.

Rusiya ilə qarşılıqlı münasibətlərimizin xüsusi əhəmiyyəti var. Müstəqil dövlət kimi, Dünya Birliyinin üzvü kimi Azər[173-174]baycan dünyanın, demək olar, bütün ölkələri ilə diplomatik münasibətlərə, dünyanın bir çox ölkələrində öz səfirliklərinə malikdir. Bir çox ölkələrin Azərbaycanda səfirlikləri var. Lakin Rusiya ilə münasibətlərimiz, Rusiyanın Azərbaycanda və Azərbaycanın Rusiyada səfirliyinin olması xüsusi məna, xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, biz 200 il birlikdə olmuşuq, Çar Rusiyasının, Sovet İttifaqının tərkibində olmuşuq. Sovet İttifaqı da özlüyündə Rusiyanı təcəssüm etdirirdi. İndi isə biz bərabər hüquqlu dövlətlərarası münasibətlərə malikik. Bu amil də Rusiya Federasiyasının suverenliyinin nə demək olduğunu, Azərbaycanın müstəqilliyinin nə demək olduğunu əyani şəkildə nümayiş etdirir.

Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi Azərbaycanın dövlət müstəqilliyini, eləcə də Rusiya Federasiyasının suverenliyini möhkəmləndirir və inkişaf etdirir. Bununla əlaqədar Rusiyanın Azərbaycandakı səfirliyinə belə gözəl kompleks yaradılması Rusiyanın Azərbaycandakı səfirliyinin, həmçinin Azərbaycanın Rusiyadakı səfirliyinin fəaliyyəti üçün xüsusi əhəmiyyətə malikdir. Söhbət təkcə ondan getmir ki, bu gün biz Rusiya Federasiyası səfirliyi üçün yeni kompleksin açılışını bayram edirik, söhbət məhz ondan gedir ki, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin bütün tarixi ərzində ilk dəfə olaraq Rusiyanın Azərbaycanda səfirliyi var və bu səfirlik Rusiya ilə Azərbaycan arasında bərabər hüquqlu münasibətləri, Rusiyanın və Azərbaycanın suverenliyini, Azərbaycan dövlətinin müstəqilliyini bir daha və yenə nəzərə çarpdırır.

Buna görə də bu gün bu mərasimdə xüsusi məmnunluqla iştirak edirəm və şadam ki, qısa müddətdə Rusiya səfirliyi və şəxsən səfir Aleksandr Viktoroviç Bloxin belə gözəl kompleks yarada bilmişlər.

Hörmətli cənab səfir və səfirliyin əməkdaşları, sizi bu gözəl kompleks münasibətilə ürəkdən təbrik edirəm. Rusiya Fede[174-175]rasiyasının hökumətini təbrik edirəm və xarici işlər nazirinin müavini İvan İvanoviç Sergeyevdən xahiş edirəm ki, bu hadisə ilə əlaqədar mənim ən xoş arzularımı Rusiya Federasiyasının prezidenti Boris Nikolayeviç Yeltsinə, bütün Rusiya hökumətinə yetirsin.

Mən burada Sankt-Peterburqun qubernatoru Vladimir Anatolyeviç Yakovlevi və Sankt-Peterburqun bütün nümayəndə heyətini salamlayıram. Moskvanın ən iri cənub dairəsinin prefekti, Aleksandr Vasilyeviç Belyayev başda olmaqla, Moskvanın nümayəndə heyətini və Rusiya Federasiyasının nümayəndə heyətini salamlayıram.

Dağıstan hökuməti sədrinin müavini başda olmaqla bu respublikanın nümayəndə heyətini və bu şəxsin simasında Dağıstan xalqını salamlayıram. Məlum hadisələrlə əlaqədar Dağıstan xalqı bu günlər ağır kədər içəndədir. Düşünürəm ki, Dağıstan xalqı bu çətinlikləri aradan qaldıracaq və öz dövlətçiliyini, eləcə də bütün Rusiya Federasiyasının dövlətçiliyini möhkəmlədəcək və inkişaf etdirəcəkdir.

Bu gün bu şənliklərdə iştirak edərək bir daha bəyan edirəm ki, Rusiya ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın inkişafı və möhkəmlənməsi üçün biz öz tərəfimizdən bütün işləri görəcəyik. İnanıram ki, Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi indi Bakıda heç bir xarici ölkə səfirliyinin malik olmadığı belə şəraitə malik olaraq, Azərbaycan ilə Rusiya Federasiyası arasında dostluğun möhkəmlənməsinə və inkişafına xidmət edəcək, dövlətlərimiz, hökumətlərimiz arasında imzalanmış bütün müqavilə və sazişləri birgə həyata keçirəcəkdir.

Sizin hamınızı bu hadisə münasibətilə ürəkdən təbrik edirəm və Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin kollektivinə bu gözəl kompleksdə uğurlu fəaliyyət arzulayıram. [175-176]

## UKRAYNANIN MİLLİ BAYRAMI – MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA ÇIXIŞ

*24 avqust 1998-ci il*

*«Hyatt Recensi-Naxçıvan» mehmanxanası*

Hörmətli cənab səfir!
Xanımlar və cənablar!

Sizi bayram – Ukraynanın müstəqilliyi günü münasibətilə ürəkdən təbrik edirəm.

Biz bu bayramı öz bayramımız kimi qeyd edirik. Ukraynanın dövlət müstəqilliyi əldə etməsinin Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi kimi bizim üçün eyni əhəmiyyəti vardır.

Biz hamımız – keçmiş Sovet İttifaqının respublikaları bir dövlətin tərkibində idi, bir-biri ilə dostluq münasibətləri saxlayır, əməkdaşlığı inkişaf etdirirdilər. Ancaq biz hamımız daha azad, müstəqil olmaq zəruriliyini həmişə hiss edirdik. Bu müstəqilliyi Ukrayna da, Azərbaycan da, keçmişdə Sovet İttifaqının tərkibinə daxil olmuş digər respublikalar da qazandılar.

Milli azadlığın və dövlət müstəqilliyinin nə demək olduğunu ötən yeddi il inandırıcı surətdə göstərir. Bu, Ukraynanın və Azərbaycanın həyat timsalında əyani şəkildə görünür.

Ukrayna Avropanın və bütün dünyanın iri ölkəsidir, onun geniş ərazisi, çoxlu əhalisi, olduqca böyük iqtisadi və intellektual potensialı var. Ukrayna xalqı qədim tarixə, zəngin sivilizasiyaya malikdir, ümumbəşəri sivilizasiyaya böyük töhfə vermişdir. Lakin Azərbaycan kimi Ukraynanın da azadlığı, [176-177] müstəqilliyi yox idi. Odur ki, Ukrayna müstəqil dövlət, öz taleyinin sahibi olduqdan sonra öz imkanlarından, öz potensialından öz xalqının rifahı üçün və öz dövlətçiliyinin inkişafı üçün daha səmərəli istifadə etməyə başlamışdır.

O unudulmaz gündən, Ukraynanın öz müstəqilliyini bəyan etdiyi gündən keçən yeddi il onun üçün asan olmamışdır. Mürəkkəb ictimai-siyasi proseslər baş vermişdir və bu gün də baş verir. Ukrayna demokratiya yoluna, bazar iqtisadiyyatının inkişaf etdirilməsi, siyasi, iqtisadi və sosial islahatlar aparılması yoluna qədəm qoymuş və böyük uğurlar qazanmışdır. Bununla yanaşı, bütün bu proseslər qarşıya bir çox problemlər, bir çox çətinliklər çıxarmışdır və onları Ukrayna hökuməti azadlıq və müstəqillik şəraitindən istifadə edərək aradan qaldırır.

İndicə deyildi ki, 70 dövlətin Ukraynada öz səfirlikləri və nümayəndəlikləri var. Ukrayna bütün beynəlxalq təşkilatların, cəmiyyətlərin üzvüdür, Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, digər beynəlxalq təşkilatlarda öz səsinə malikdir. Bütün bunlar- keyfiyyət dəyişiklikləri məhz dövlət müstəqilliyi əldə edildikdən sonra baş vermişdir.

Ukrayna zəngin mədəniyyətə, elmə malikdir. Ukrayna xalqının özünəməxsus mədəniyyəti, Ukraynanın böyük elmi potensialı indi onun xalqına və ölkənin həyatının bütün sahələrinin intensiv inkişafının təmin olunmasına xidmət edir.

Ukrayna ilə Azərbaycan arasında dostluq münasibətləri var və bu münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Biz bir çox beynəlxalq məsələlərdə eyni mövqelərdəyik, bizi bir-birimizə yaxınlaşdıran, mövqelərimizi identik edən ən əvvəl budur ki, Azərbaycan kimi Ukrayna da öz müstəqilliyini möhkəmlətməyə çalışır. Bu amil Ukrayna ilə Azərbaycanın ikitərəfli dövlətlərarası münasibətlərinin inkişafı üçün çox mühümdür. [177-178]

İndi iqtisadi əməkdaşlıq sahəsində aramızda yaxşı münasibətlər təşəkkül tapmışdır və bu münasibətlər böyük perspektivə malikdir. Ukrayna Xəzər hövzəsinin energetika ehtiyatlarına, TRASEKA proqramına böyük maraq göstərir və onun özü də bu proqramın iştirakçısıdır. Ukrayna Avropa, Qafqaz və Asiyanın inteqrasiya problemlərinə böyük maraq göstərir. Böyük məmnunluqla demək istəyirəm ki, Ukrayna bütün bu proseslərin təşəbbüsçüsü və fəal iştirakçısıdır.

Ölkələrimiz arasında bütün sahələrdə ən xoş və deməliyəm ki, səmimi münasibətlər mövcuddur. Biz Azərbaycanda bunu özümüz üçün, xarici siyasətimiz üçün mühüm hesab edirik ki, Ukrayna ilə Azərbaycan arasında dostluq münasibətləri, strateji tərəfdaşlıq münasibətləri var.

Gənc dövlətlər kimi biz münasibətlərimizi inkişaf etdirmək, əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək üçün hələ çox imkanlara malikik. Buna Ukrayna da çalışır, biz də çalışırıq. Bu məsələlər dövlətlərarası, hökumətlərarası danışıqlarımızda, görüşlərimizdə diqqət mərkəzində olmuş, çoxsaylı dövlətlərarası, hökumətlərarası sənədlərdə, xüsusən Ukrayna ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilədə öz əksini tapmışdır.

Bu məsələlər Ukrayna prezidentinin və Azərbaycan prezidentinin görüşləri zamanı diqqət mərkəzində olur. Ukrayna prezidenti Leonid Daniloviç Kuçma ilə mənim aramda yaranmış dostluq, yoldaşlıq münasibətlərini, səmimi münasibətləri bu gün xüsusi qeyd etmək istəyirəm.

Mən bunu yüksək qiymətləndirirəm. Bilirəm ki, buna Leonid Daniloviç Kuçma da böyük əhəmiyyət verir və bu, münasibətlərimizin daha da inkişaf etməsi üçün böyük əhəmiyyətə malikdir. Bütün bunlar, yəni şəxsi münasibətlərimiz Ukrayna ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın inkişafına büsbütün və tamamilə həsr olunur. [178-179]

Hesab edirəm ki, Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığın böyük perspektivi var. İnanıram ki, biz yeni böyük sazişlərin şahidi olacağıq, başlıcası isə, əməkdaşlığımızın konkret praktiki nəticələrinin şahidi olacağıq və bu nəticələr Ukraynaya da, Azərbaycana da fayda verəcəkdir.

Ukrayna xalqına ürəkdən sülh, əmin-amanlıq, firavanlıq və xoşbəxtlik arzulayıram. İnanıram ki, Ukrayna xalqı öz milli azadlığının və dövlət müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi keşiyində qətiyyətlə duracaqdır. İnanıram ki, müstəqillik və azadlıq Ukrayna xalqı üçün əbədi, dönməz hallar olacaqdır.

Əziz dostlar, sizi bayram münasibətilə bir daha təbrik edirəm. Hamınıza cansağlığı, firavanlıq və Ukraynanın çiçəklənməsi naminə, Ukrayna-Azərbaycan dostluğunun daha da inkişaf etməsi naminə yeni-yeni uğurlar arzulayıram. Sağ olun. [179]

**KOLUMBİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDRES PASTRANA ARANQOYAYA**

Zati-aliləri,

Sizi Kolumbiya Respublikasının prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Mən ölkələrimiz arasında mövcud olan siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsinə böyük əhəmiyyət verirəm və əminəm ki, Azərbaycan Respublikası ilə Kolumbiya Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri daha da genişlənəcəkdir.

Bir daha sizi təbrik edir, Kolumbiya xalqının rifahı naminə məsul işinizdə uğurlar arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 avqust 1998-ci il*
[180]

## AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI ARASINDA PARTNYORLUQ MÜNASİBƏTLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA

Azərbaycan Respublikası prezidentinin 1998-ci il iyul ayının 19-dan 24-dək Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfəri iki dövlət arasında qarşılıqlı münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Bu səfər zamanı dövlət və hökumət başçıları ilə – Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası, Baş naziri, xarici işlər, müdafiə işləri və beynəlxalq inkişaf üzrə dövlət katibləri, energetika naziri, Britaniya parlamentinin üzvləri və başqa təşkilatların, o cümlədən beynəlxalq təşkilatların rəsmi şəxsləri ilə yüksək səviyyədə keçirilən görüşlərdə və aparılan çoxsaylı danışıqlarda Böyük Britaniyanın dövlət strukturlarının və iş adamlarının Azərbaycana maraqlarının artması bir daha təsdiq olunmuşdur.

1998-ci il iyul ayının 21-də Azərbaycan Respublikasının prezidenti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri tərəfindən iki ölkə arasında çox mühüm sənəd – Azərbaycan Respublikası prezidentinin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannaməsi imzalanmışdır. Bu sənəd 1994-cü ilin fevralında Azərbaycan Respublikası prezidentinin Böyük Britaniyaya ilk səfəri zamanı iki ölkə arasında imzalanmış Azərbaycan-[181-182]Böyük Britaniya arasında dostluq və əməkdaşlığa dair siyasi bəyannaməyə əsaslanaraq, iki dövlət arasında münasibətlərin dostluq və tərəfdaşlıq təməlində keyfiyyətcə yeni mərhələyə qalxmasını səciyyələndirir.

1998-ci il iyul ayının 21-də Londonda iki ölkənin başçıları arasında keçirilmiş görüş zamanı siyasət, təhlükəsizlik, iqtisadiyyat və ticarət sahələrində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi əsasında Böyük Britaniya və Azərbaycan Respublikası arasında əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrinin daha da genişləndirilməsinin zəruriliyi vurğulanmışdır. Demokratiyaya və insan hüquqlarına riayət olunması, Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi, ölkədə stabilliyin və əhəmiyyətli iqtisadi artımın əldə olunması siyasi, iqtisadi və demokratik islahatların həyata keçirilməsi xüsusi vurğulanmış, Azərbaycanın müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün və demokratik inkişafının Böyük Britaniya tərəfindən dəstəkləndiyi təsdiq edilmişdir.

Azərbaycanın Avropa strukturlarında geniş təmsil olunmasında Böyük Britaniyanın yaxından səy göstərəcəyi, o cümlədən Avropa Şurasına və Ümumdünya Ticarət Təşkilatına Azərbaycanın tam hüquqlu üzv kimi qəbul olunması dəstəklənmişdir.

Müstəqil Azərbaycanın Avropaya inteqrasiya üçün göstərdiyi maraq yüksək qiymətləndirilmişdir. NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi və Böyük Britaniya tərəfindən bu sahədə Azərbaycana yardım göstərilməsi təsdiq olunmuşdur.

Dağlıq Qarabağ ətrafında münaqişənin sülh yolu ilə və qəti şəkildə həll edilməsinin ən mühüm prioritet olması, habelə 1994-cü ildə əldə olunmuş atəşkəsin qorunub saxlanılmasının vacibliyi qeyd olunaraq, ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin – Amerika Birləşmiş Ştatları, Rusiya və Fran[182-183]sanın səylərinin dəstəklənməsi bəyənilmişdir. ATƏT-in Budapeşt zirvə görüşünün bəyannaməsinin və ATƏT-in Lissabon zirvə görüşünün icraçı sədrinin bəyanatında əks olunmuş üç prinsipin bu münaqişənin həlli üçün əsas olması barədə Birləşmiş Krallığın mövqeyi bir daha təsdiq olunmuşdur.

Bütün Xəzər regionunda kommunikasiyaları və ticarət əlaqələrini təkmilləşdirən TRASEKA layihəsi bəyənilmişdir. Avropa –Asiya nəqliyyat dəhlizinin yaradılması və fəaliyyətində beynəlxalq əməkdaşlığın əhəmiyyəti qeyd edilmiş və bu dəhlizin inkişafını təmin etməyə yönəldilən bütün səylər dəstəklənmişdir. Bununla əlaqədar, 1998-ci il sentyabrın 7-8-də Bakıda tarixi İpək yolunun bərpasına dair beynəlxalq konfrans keçirilməsinin əhəmiyyəti qeyd edilmişdir.

Xəzər dənizinin enerji ehtiyatlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsündə Britaniya şirkətlərinin geniş iştirakı, ölkələr arasında enerji siyasəti və kommersiya məsələləri üzrə rəsmi dialoqun yaradılması yüksək qiymətləndirilmişdir.

Səfər zamanı neft sahəsi ilə bağlı mühüm sənədlər – Xəzər dənizinin Azərbaycan sektorunda «Araz», «Alov», «Şərq», «İnam» və quruda yerləşən «Muradxanlı», «Cəfərli» və «Zərdab» perspektivli strukturlarının kəşfiyyatı, istismarı və hasilatın pay bölgüsü haqqında üç böyük neft sazişi imzalanmışdır. Bu sazişlərin Azərbaycan-Böyük Britaniya əməkdaşlığının daha da genişləndirilməsinə yeni güclü təkan verəcəyi qeyd edilmişdir. «Britiş Petroleum», «Monument Oyl ənd Qaz» və «Ramko» kimi neft şirkətləri ilə neft hasilatına dair bağlanmış bu yeni 3 saziş Azərbaycana investisiya axınını gücləndirməklə yanaşı, ölkələr arasında iqtisadi əlaqələri daha da genişləndirəcəkdir.

Bundan əlavə, neft və energetika sahəsi ilə bağlı olmayan daha bir iqtisadi sənəd imzalanmışdır. Bakı şəhərinin dənizkənarı bulvarında mühüm mehmanxana-ofis kompleksinin [183-184] tikilməsi haqqında

Bakı Şəhər İcra Hakimiyyəti ilə İngiltərənin «Morrison Konskrakşn Qrup» şirkəti arasında niyyətlər haqqında bəyannamə imzalanmışdır.

Ümumiyyətlə, imzalanmış sənədlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyin təmin olunmasına və onun sosial-iqtisadi tərəqqisinə xidmət edəcəkdir.

Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında əməkdaşlıq əlaqələrinin hərtərəfli və səmərəli inkişafını, ölkədə demokratik cəmiyyət və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan islahatların ardıcıl aparılmasını təmin etmək məqsədi ilə q ə r a r a  a l ı r a m :

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Milli Bankı və digər müvafiq orqanları ilə birlikdə Azərbaycan Respublikası və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında partnyorluq münasibətlərinin genişləndirilməsini və bütün imzalanmış ikitərəfli sənədlərin həyata keçirilməsini təmin etsin, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin daha da genişlənməsinə nail olmaq məqsədi ilə Birləşmiş Krallığın müvafiq strukturları ilə dialoqu davam etdirsin;

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında parlamentlərarası əlaqələri genişləndirsin və inkişaf etdirsin;

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli məqsədi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər zamanı aparılmış zirvə danışıqlarının nəticələri zəminində ABŞ, Rusiya və Fransanın Minsk qrupundakı nümayəndə heyətləri ilə danışıqları intensivləşdirsin; [184-185]

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və başqa əlaqədar nazirliklər və idarələr Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında təhlükəsizlik, silahlara nəzarət, müdafiə və digər sahələrdə, eləcə də Şimali Avropa-Atlantik tərəfdaşlıq və NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramları çərçivəsində əməkdaşlığın genişləndirilməsi üçün təkliflər versinlər;

5. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Böyük Britaniyanın «Britiş Petroleum», «Monument Oyl ənd Qaz», «Ramko», ABŞ-ın «AMOKO», Rusiyanın mərkəzi yanacaq, Türkiyənin TPAO və Norveçin «STATOYL» şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı «Araz», «Alov», «Şərq» və «İnam» perspektivli strukturların, quruda yerləşən «Muradxanlı» və «Cəfərli» neft yataqlarının və «Zərdab» perspektivli strukturunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında bağlanmış üç sazişin müəyyən olunmuş qaydada təsdiq olunması və onların həyata keçirilməsi üçün müvafiq tədbirlər görsün;

6. Bakı Şəhər İcra Hakimiyyəti onunla Böyük Britaniyanın «Morrison Konstrakşn Qrup» şirkəti arasında Bakı şəhərinin dənizkənarı bulvarında mehmanxana-ofis kompleksinin tikintisi ilə əlaqədar niyyətlər haqqında imzalanmış birgə bəyannamənin gerçəkləşdirilməsi üzrə müvafiq tədbirlər görsün;

7. Azərbaycan Respublikasının Səhmdar Kommersiya Beynəlxalq Bankına tapşırılsın ki, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə imzalanmış kredit müqaviləsinin şərtlərinə uyğun olaraq alınacaq vəsaitin Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına yönəldilməsini təmin etsin;

8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi digər müvafiq dövlət orqanları ilə birlikdə Azərbaycana Böyük Britaniyanın Beynəlxalq İnkişaf Departamentinin Noy-Hay [185-186] fondu tərəfindən təqdim edilmiş ikitərəfli əməkdaşlıq üzrə sənədlər paketini razılaşdıraraq, gələcəkdə imzalanmasını təmin etsin;

9. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 avqust 1998-ci il*
[186]

**MOLDOVA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB PETRU LUÇİNSKİYƏ**

Hörmətli cənab prezident!

Milli bayramınız – İstiqlaliyyət günü münasibətilə sizi və bütün dost Moldova xalqını təbrik edirəm.

Mən ölkələrimiz və xalqlarımız arasında təşəkkül tapmış ənənəvi dostluq və əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirirəm.

Əminəm ki, bu münasibətlər regionumuzda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə, dost Moldovanın bütün vətəndaşlarına əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 avqust 1998-ci il*
[187]

## AZƏRBAYCANDA DÜNYƏVİ PEŞƏKAR TEATRIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA

Azərbaycan teatr sənətinin qədim və zəngin tarixi vardır. Əmək fəaliyyəti ilə bağlı oyunlar və rəqslər, mövsüm bayramları, aşıq sənəti, meydan mərasimləri, «Qaravəlli» tipli müxtəlif tamaşa növləri xalq teatrının əsasını müəyyən etmiş, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır. Xalq teatrının repertuarını təşkil edən əxlaqi və tərbiyəvi əhəmiyyətə malik əsərlərlə yanaşı, dini tamaşalar da teatr sənətinin formalaşmasında özünəməxsus rol oynamışdır.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda cərəyan edən ictimai-siyasi hadisələr ölkədə maarifçilik hərəkatının inkişafına güclü təkan verdi. Ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində köklü forma və məzmun dəyişiklikləri baş verdi. Həmin dövr Azərbaycan teatrı üçün də əlamətdar oldu. Dahi mütəfəkkir Mirzə Fətəli Axundovun ədəbiyyatımıza dram janrını gətirməsi xalq teatrının peşəkar teatr sənətinə çevrilməsində həlledici rol oynadı.

Böyük maarifçi Həsən bəy Zərdabinin və görkəmli yazıçı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə 1873-cü ildə Bakıda Mirzə Fətəli Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşaya qoyulması Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində dünyəvi peşəkar teatrın təməlini qoydu.

Teatrın böyük ictimai əhəmiyyətini dərk edən Azərbaycan ziyalıları Bakıda, Qubada, Şəkidə, Şuşada, Naxçıvanda, həmçinin Tiflisdə və İrəvanda teatr tamaşaları təşkil edirdilər. [188-189] Azərbaycanın görkəmli ziyalıları Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov və başqaları dövrün mühüm hadisələrinin real bədii təsvirini verən pyesləri ilə teatr repertuarlarını zənginləşdirirdilər. Rusiyada və Avropada təhsil aldıqdan sonra vətənə qayıtmış azərbaycanlı gənclər dünya klassiklərinin əsərlərini tərcümə edərək tamaşaya qoymaqla teatr həvəskarlarını dünya ədəbiyyatının nümunələri ilə tanış edir, Azərbaycanda milli dəyərlərə söykənən yeni tipli teatrın yaradılması işinə xidmət edirdilər.

Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Hüseynqulu Sarabski, Abbas Mirzə Şərifzadə, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Ülvi Rəcəb və başqalarının səyləri nəticəsində Azərbaycanda milli peşəkar aktyorluq məktəbi formalaşdı. Məhz bu dövrdə Azərbaycanda xüsusi teatr binalarının inşası başlandı və peşəkar teatrla bağlı digər sənət növləri də inkişaf etdirildi.

Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra ölkənin bir çox sahələrində olduğu kimi, teatr sənətimizin inkişafında da mühüm işlər həyata keçirildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti pərakəndə fəaliyyət göstərən teatr truppalarını birləşdirərək dövlət teatrını yaratdı. 1919-cu il oktyabrın 24-də Azərbaycan Xalq Cümhuriyyətinin bütün dövlət və hökumət rəhbərlərinin iştirakı ilə dövlət teatrının rəsmi açılışı oldu.

Azərbaycanda peşəkar teatr sənətinin inkişafı Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi böyük sənətkarların xalqımızın tarixi keçmişini, məruz qaldığı sarsıntıları, xeyirlə şərin qarşıdurması ilə bağlı fəlsəfi düşüncələri canlandıran səhnə əsərləri ilə böyük vüsət aldı.

Sovet hakimiyyəti illərində Azərbaycan teatrı yad ideoloji təsirlərə məruz qalsa da, öz milli varlığını qoruyub saxlaya bilmiş və respublikanın mədəni həyatında fəal rol oynamış[189-190]dır. Azərbaycan teatrının coğrafiyası genişlənərək respublikanın demək olar ki, bütün bölgələrini əhatə etdi.

Teatrların repertuarları dünya ədəbiyyatının gözəl nümunələri ilə yanaşı, Səməd Vurğun, Süleyman Rüstəm, Sabit Rəhman, Mirzə İbrahimov, İlyas Əfəndiyev və başqalarının əsərləri ilə daha da zənginləşdi. Həmin dövrdə tamaşaçıların sonsuz məhəbbət və rəğbətini qazanmış Mərziyə Davudova, Rza Təhmasib, İsmayıl Hidayətzadə, Kazım Ziya, Rza Əfqanlı, Mustafa Mərdanov, Fatma Qədri, İsmayıl Dağıstanlı, Ağadadaş Qurbanov, Adil İsgəndərov, Ələsgər Ələkbərov, Ağasadıq Gəraybəyli, Möhsün Sənani, İsmayıl Osmanlı, Hökumə Qurbanova, Münəvvər Kələntərli, Lütfəli Abdullayev, Bəşir Səfəroğlu, Əliağa Ağayev, Əli Zeynalov, Sergey Yakuşev, Rahil Ginzburq, Mehdi Məmmədov, Həsənağa Salayev, Şəmsi Bədəlbəyli, Tofiq Kazımov, Barat Şəkinskaya, Leyla Bədirbəyli, Nəsibə Zeynalova və başqa aktyor və rejissorların adları Azərbaycan teatr sənəti tarixinə həmişəlik həkk olunmuşdur.

Azərbaycanda dram teatrı ilə yanaşı, opera və baletin də qədim tarixi kökləri vardır. Muğam sənətimiz uzun inkişaf yolu keçərək xüsusi ifaçılıq məktəbinə çevrilmiş, muğam əsasında yaradılmış tamaşalar meydana çıxmışdır. Bunların məntiqi nəticəsi olaraq dahi Azərbaycan bəstəkarı Uzeyir Hacıbəyovun yaratdığı «Leyli və Məcnun» operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün müsəlman Şərqində opera sənətinin təməli qoyuldu. Üzeyir Hacıbəyov ilə birlikdə Azərbaycanda Avropa tipli peşəkar musiqi sənətinin bünövrəsini qoyan Müslüm Maqomayevin «Şah İsmayıl» operası da muğam operası janrının incilərindən biri kimi Azərbaycan səhnəsində həmişəlik yer tutdu.

Üzeyir Hacıbəyovun dramaturgiya sahəsindəki fəaliyyəti də milli mədəniyyət tariximizdə mühüm mərhələ olmuşdur. O, həm bəstəkar, həm də dramaturq kimi 1909-1913-cü [190-191] illərdə yaratdığı əsərləri ilə Azərbaycan teatrına musiqili komediya janrını gətirdi. Bu janr sonralar Qara Qarayev, Rauf

Hacıyev, Tofiq Quliyev, Süleyman Ələsgərov və başqa bəstəkarların yaradıcılığında öz inkişafını tapdı. Qara Qarayevin və Rauf Hacıyevin operettaları bir çox ölkələrdə teatrların repertuarlarına daxil edildi.

Əsası Üzeyir Hacıbəyov və Müslüm Maqomayev tərəfindən qoyulmuş muğam opera janrının təşəkkül tapması Cabbar Qaryağdı məktəbinin davamçıları olan xalq xanəndələrinin opera səhnəsində uğurla çıxış etmələrinə şərait yaratdı. Hüseynağa Hacıbababəyov, Əlövsət Sadıqov, Həqiqət Rzayeva, Əbülfət Əliyev, Sara Qədimova, Rübabə Muradova, Zeynəb Xanlarova, Arif Babayev və başqaları muğam operası janrında çıxışları ilə öz yaradıcılıqlarını daha da zənginləşdirdilər.

30-cu illərdə Üzeyir Hacıbəyovun «Koroğlu» və Müslüm Maqomayevin «Nərgiz» operalarının səhnəyə qoyulması Azərbaycan opera sənətində yeni mərhələnin başlandığını bildirdi. Opera sənətimizin incilərindən sayılan bu əsərlərdə ilk dəfə olaraq klassik opera formasına riayət olunmuşdur. Bu tipli operaların yaranması Bülbül və Şövkət Məmmədova kimi böyük sənətkarların öz nadir istedadlarını nümayiş etdirmək imkanlarını artırdı. Azərbaycan vokal məktəbi ənənələrini Avropa opera mədəniyyəti ilə birləşdirən Bülbül yaradıcılığı ölkəmizdə vokal sənətinin inkişafında və yeni tipli opera solistlərinin yetişməsində mühüm rol oynadı.

1953-cü ildə Fikrət Əmirovun «Sevil» operası Cəfər Cabbarlının eyni adlı əsərinə yeni həyat verərək xalq ruhuna yaxın gözəl melodiyaları ilə opera sənətinin inkişafına təkan verdi. Bu əsər Rəşid Behbudov, Firəngiz Əhmədova, Sona Aslanova və başqaları kimi tanınmış sənətkarlarımızın yaradıcılığına keyfiyyətcə yeni cizgilər əlavə etdi. [191-192]

Azərbaycan baletinin də zəngin ənənələri vardır. Qobustan qaya təsvirləri, xalq rəqs yaradıcılığının bəzi növləri Azərbaycanda bu janrın meydana çıxması və inkişafı üçün münasib şərait olduğundan xəbər verirdi. Təməli 1923-cü ildə Azərbaycan opera teatrının nəzdində balet studiyası kimi qoyulmuş Bakı xoreoqrafiya məktəbinin fəaliyyəti Azərbaycanda balet janrının təşəkkül tapması və inkişafı üçün lazımi baza yaratdı. Məktəbin məzunlarının ilk çıxışları klassik rus və Avropa baletlərinin respublikamızda tamaşaya qoyulması ilə bağlı olurdu. 30-cu illərin sonlarında Azərbaycanda artıq milli baletin yaradılması üçün möhkəm zəmin var idi.

1940-cı ildə ilk milli Azərbaycan baleti – Əfrasiyab Bədəlbəylinin «Qız qalası» baleti tamaşaya qoyuldu. 1952-ci ildə isə Qara Qarayevin məşhur «Yeddi gözəl» baletinin səhnəyə qoyulması respublikanın mədəni həyatında əlamətdar hadisəyə çevrildi. Qara Qarayevin bu əsəri, habelə onun «İldırımlı yollarla» baleti Azərbaycanın teatr sənətinin dünyada şöhrət tapması işinə xidmət etdi. Öz sələflərinin ənənələrini ləyaqətlə davam etdirən Arif Məlikovun 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti nəinki Azərbaycanın, eləcə də dünyanın bir çox ölkələrinin opera teatrlarının repertuarında möhkəm yer tutmuşdur. 70-ci illərin ən uğurlu səhnə əsəri isə Fikrət Əmirovun yaratdığı «Min bir gecə» baleti oldu.

Rusiyada təhsil almış ilk Azərbaycan balerinası Qəmər Almaszadənin həm baletmeyster, həm də pedaqoq kimi Azərbaycan baletinin formalaşmasında və milli xoreoqrafiya kadrlarının hazırlanmasında böyük əməyi olmuşdur. Klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs yaradıcılığı xüsusiyyətlərini birləşdirən Azərbaycan balet məktəbi böyük uğurlar qazandı. Leyla Vəkilova, Konstantin Bataşov, Valeri Pletnyov, Rəfiqə Axundova, Maqsud Məmmədov, Çimnaz Babayeva, [192-193] Tamilla Şirəliyeva və başqaları respublikamızda və onun hüdudlarından kənarda Azərbaycan baletinə şöhrət gətirdilər.

Azərbaycanda opera və balet sənətinin inkişafında görkəmli Azərbaycan dirijoru və bəstəkarı Niyazinin böyük xidmətləri olmuşdur. Azərbaycan dirijorluq məktəbinin formalaşması və inkişafında mühüm rol oynamış Niyazi müxtəlif simfonik əsərlərlə yanaşı, «Xosrov və Şirin» operası və «Çitra» baletinin müəllifi kimi də geniş şöhrət qazanmışdır.

Kino sənətimiz öz tarixini 1898-ci ildən başlasa da, ölkəmizin teatr ənənələri və təcrübəsindən həmişə bəhrələnmişdir. Kino sənətinin uğurları ilk növbədə Azərbaycanın teatr xadimləri və aktyorlarının adları ilə bağlıdır.

Azərbaycan teatr sənətinin sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil sənət ocaqlarının yaranmasına gətirib çıxardı. Bu gün respublikada milli dram teatrı, opera və balet teatrı ilə yanaşı, musiqili komediya teatrı, rus dram teatrı, gənc tamaşaçılar teatrı, kukla teatrı, marionet teatrı, pantomima teatrı, «Yuğ» teatrı, Bakı Bələdiyyə Teatrı və başqa teatrlar uğurla fəaliyyət göstərirlər. İrəvan, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Salyan, Mingəçevir, Qazax, Qax, Qusar, Ağdam, Şuşa, Füzuli teatrları öz tamaşaları ilə teatrsevərlərin dərin rəğbətini qazanmışlar.

Milli mədəniyyətimizin inkişafında, vətənpərvərlik hisslərinin aşılanmasında, yüksək əxlaqi keyfiyyətlərin, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan teatrı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir. O, öz fəaliyyəti ilə xalqın milli sərvətinə çevrilmişdir.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə milli teatrımızın inkişafı üçün geniş perspektivlər açılmışdır. [193-194] Teatrlar müstəqil dövlətimizin qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir.

Müsəlman Şərqində ilk dünyəvi peşəkar teatr olan Azərbaycan teatrının milli mədəniyyətimizin inkişafındakı mühüm rolunu, onun yaradılmasının 125 illik yubileyinin keçirilməsinin respublikanın mədəni həyatında böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Azərbaycanda Dünyəvi Peşəkar Teatrın yaradılmasının 125 illiyi münasibətilə respublikada geniş yubiley tədbirləri keçirilsin.

2. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi məqsədi ilə təşkilat komitəsi yaradılsın.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 avqust 1998-ci il*
[194]

## AVROPA ŞURASININ BAŞ KATİBİ DANİEL TARŞİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*30 avqust 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli cənab Baş katib, hörmətli qonaqlar. Mən sizi Azərbaycanda salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Avropa Şurası ilə Azərbaycan arasında yaranmış əlaqələr ötən illərdə inkişaf etmişdir. Biz bu əlaqələrin bugünkü vəziyyətini və bu əlaqələri daha da genişləndirmək və möhkəmləndirmək üçün sizin Azərbaycana bu ziyarətinizi yüksək qiymətləndiririk.

Xatirimdədir, son dəfə biz keçən ilin oktyabr ayında Strasburqda görüşmüşdük. Mən Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Strasburq zirvə görüşünü xüsusi qiymətləndirirəm. Mən o zirvə görüşündə digər ölkələrin başçıları kimi, Avropa Şurası qarşısında Azərbaycanın adından söz demək imkanı əldə etmişdim. Bundan əlavə, sizinlə, cənab Tarşis, xanım Fişerlə və Avropa Şurasında rəhbər vəzifələrdə çalışan digər şəxslərlə də çox səmərəli görüşlərimiz olmuşdu. Mən hesab edirəm ki, həmin görüşlərdən indiyədək Avropa Şurasına tam üzv olmaq üçün biz xeyli addımlar atmışıq. Avropa Şurasında qonaq statusu vəziyyətində olmağımızdan razıyıq, ancaq bilirsiniz ki, biz tam üzv olmaq istəyirik. Mən bunu əvvəllər də demişdim, - düşünürəm ki, biz bu imtahan, sınaq dövrünü artıq keçmişik. İmtahanı [195-196] hansı qiymətlə vermişik, - onu siz deyə bilərsiniz. Amma biz hesab edirik ki, bu imtahanı vermişik. Ona görə də güman edirəm ki, sizinlə bu danışıqlarımızda bu məsələni müzakirə etməyə ehtiyac vardır.

Ümumiyyətlə, Azərbaycan Avropa qitəsinə mənsub olan ölkə kimi Avropanın həyatında fəal iştirak etmək istəyir və bu baxımdan da Avropa Şurasının üzvü olmaq bizim üçün lazımdır. Bir daha sizi salamlayıram.

**D a n i e l  T a r ş i s**: Cənab prezident, bizi səmimi qarşıladığınıza görə minnətdarlığımı bildirirəm və hər şeydər əvvəl sözü cənab İoanis Kranidiotisə vermək istəyirəm. O, bu görüşdə Yunanıstanın təmsilçisi kimi çıxış edir.

**İ o a n i s  K r a n i d i o t i s** (*Yunanıstanın xarici işlər üzrə dövlət katibi*): Cənab prezident, bizim üçün Azərbaycana gəlmək böyük şərəfdir. Bu gün şəxsən Sizin qonağınız olmaq, Prezident sarayında Sizinlə görüşmək bizim üçün böyük şərəfdir. Bu, Avropa Şurasının Azərbaycana gəlmiş geniş nümayəndə heyətinin tərkib hissəsidir. Gördüyünüz kimi, bu nümayəndə heyətinə Baş katib başçılıq edir və Nazirlər Şurası Yunanıstan tərəfindən təmsil olunmuşdur. Bu, bizim Qafqaz regionuna olan səfərimizdir. Səfər zamanı Avropa Şurasının üzvlüyünə namizəd olan üç ölkədə – Gürcüstan, Azərbaycan və Ermənistanda olacağıq. Ümid edirəm ki, burada olduğumuz müddətdə Sizin hökumət nümayəndələri ilə, rəsmi şəxslərlə görüşlər keçirəcəyik və Azərbaycan haqqında kifayət qədər doğru məlumat əldə edəcəyik. Vəzifəmiz bu səfərdən sonra geri qayıtmaq və Azərbaycanın bugünkü vəziyyəti haqqında Avropa Şurasının Parlament Assambleyasına məruzə etməkdir. Biz orada Azərbaycanda müxtəlif sahələrdə əldə olunmuş tərəqqi haqqında öz qiymətimizi verəcəyik və bu barədə məruzə edəcəyik. Ona görə də bu görüşün vacibliyini bir daha qeyd edirəm və ümid edirəm ki, burada olduğumuz müddətdə Sizin hökumət nümayəndələri ilə [196-197] şəxsən konstruktiv fikir mübadiləsi aparmaq imkanımız olacaqdır.

Cənab prezident, mən qəti inanıram və elə bilirəm ki, Avropa Şurasında da heç kimin buna şübhəsi yoxdur ki, bizim səfərə çıxdığımız bu üç Qafqaz ölkəsi Avropanın bir hissəsidir. Bir halda ki, bu üç ölkə, o cümlədən Azərbaycan Avropanın bir hissəsidir, demək, bizim böyük tarixi köklərimiz, xüsusiyyətlərimiz və eyni tarixi ənənələrimiz, tarixi dəyərlərimiz vardır. Bu baxımdan Avropa Şurası Sizin ölkə ilə – Azərbaycanla bir yerdə işləməyə hazırdır və biz Azərbaycanın Avropa Şurasına bir üzv kimi daxil olması prosesində fəal iştirak etməyə hazır olduğumuzu bildiririk. Bu baxımdan Avropa Şurası Azərbaycana hər cür texniki yardım etməyə hazırdır. Əgər Sizin ehtiyacınız varsa, Avropa Şurası Sizə istənilən məsləhəti verə bilər. Yəni müasirləşməyə, Avropaya daxil olmağa doğru yolunuzun hamar olması üçün biz birlikdə işləməliyik.

Böyük məmnuniyyətlə qeyd etməliyəm ki, Azərbaycanda bir sıra sahələrdə artıq müəyyən tərəqqi əldə olunubdur. Mən hər şeydən əvvəl demokratik islahatları nəzərdə tuturam. Məlumdur ki, Avropa Şurası demokratik islahatlara, ölkədə insan hüquqlarının qorunmasına böyük əhəmiyyət verir və bu baxımdan Azərbaycanda artıq bir sıra tərəqqi əldə olunmuşdur. Lakin, əlbəttə, Azərbaycanda hələ atılası addımlar çoxdur. Yenə təkrar etmək istəyirəm ki, Avropa Şurasının katibliyi və Avropa Şurasına daxil olan ölkələrin hamısı Azərbaycana hər cür yardım etməyə hazırdırlar.

Cənab prezident, bizə məlumdur ki, Azərbaycan Qafqaz regionunda çox mühüm bir ölkədir. Biz onu da bilirik ki, Azərbaycanın böyük, parlaq gələcəyi vardır. İstərdim ki, Azərbaycanın bu illər ərzində əldə

etdiyi tərəqqidə Sizin şəxsi rolunuzu da qeyd edim. Siz Azərbaycanın müstəqilliyinin [197-198] möhkəmlənməsi üçün, dünyada bu cür rol oynaması üçün böyük işlər görmüsünüz.

Cənab prezident, icazənizlə, mən sözü indi cənab Baş katibə verərdim və elə bilirəm ki, o, Avropa Şurasının Sizin barənizdə olan mövqeyi haqqında daha ətraflı, dolğun məlumat verəcəkdir.

Sözümün sonunda qonaqpərvərliyinizə, bizi bu cür qəbul etdiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm və ümid edirəm ki, tezliklə biz Sizi Avropa ailəmizdə görəcəyik.

**H e y d ə r Ə l i y e v**: Təşəkkür edirəm. Çox sağ olun.

**D a n i e l T a r ş i s**: Cənab prezident, icazə verin, mən sözümə davam edim. Avropa Şurasının adından bildirmək istəyirəm ki, Azərbaycanda gedən proseslərdən dərindən razıyam. Yəqin, yaxşı xatırlayırsınız ki, mən son dəfə burada iki il bundan əvvəl olmuşdum. O vaxt Azərbaycanın Avropa Şurasına müraciəti dövrü idi. Çox şadam ki, ötən müddət ərzində Azərbaycanda bütün sahələrdə müəyyən tərəqqi əldə olunubdur.

Son zamanlar Azərbaycanın nümayəndələri Avropa Şurasının işində fəal iştirak edirlər. Azərbaycandan Avropa Şurasına gəlib-gedənlərin sayı artmaqdadır. Bunu yalnız Parlament Assambleyasına aid etmirəm, parlamentlərarası işlərdə də Azərbaycanın nümayəndələri çox fəal iştirak edirlər.

Cənab prezident, Avropa Şurasının son sammiti zamanı Sizin çıxışınızı böyük məmnuniyyətlə xatırlayıram. Siz orada Azərbaycanın adından çıxış etdiniz və yəqin, özünüz də hiss etdiniz ki, biz Avropa Şurasında namizəd ölkələrlə tam üzv ölkələr arasında heç bir fərq qoymuruq. Yəni Siz üzvlüyə namizəd ölkənin prezidenti kimi çıxış etdiniz. Bu da Avropa Şurasının namizəd ölkələrə, Azərbaycana olan münasibətinin bir növ ifadəsidir. Yəni biz Azərbaycanı tezliklə öz tərkibimizə qəbul etməyə hazırıq. [198-199]

Ölkənizin daxilində gedən proseslərdən məmnunluqla danışmaq istəyirəm. Sizin ölkənizdə Avropa standartlarına uyğun olan bir sıra qanunverici aktlar qəbul edilmişdir. Onu da qeyd etmək istəyirəm ki, bu qanunların çoxu Sizin tapşırıqlarınız və tövsiyələriniz əsasında qəbul olunmuşdur. Siz həmin qanunlarda Avropa standartlarına uyğunlaşmağı əsas götürmüsünüz.

Cənab prezident, Sizinlə söhbətlərimiz zamanı biz qaçqınların problemlərinə dair məsələlərə dəfələrlə toxunmuşuq. Bildirmək istəyirəm ki, qaçqınlar problemi Avropa Şurasını həqiqətən dərindən narahat edən bir problemdir. Biz qaçqınların problemlərinin həlli üçün digər beynəlxalq təşkilatlarla birlikdə əlimizdən gələni edəcəyik. Çalışacağıq ki, onları bu işə daha çox cəlb edək.

Ölkənizin həyatında növbəti siyasi hadisə prezident seçkiləri olacaqdır. Məlumdur ki, Siz Avropa Şurasının müşahidəçilərini prezident seçkilərində iştirak etmək üçün Azərbaycana dəvət etmisiniz. Bilirsiniz ki, Avropa Şurasının Parlament Assambleyası öz müsbət cavabını vermişdir. Biz bu seçkilərdə böyük məmnuniyyətlə müşahidəçi kimi iştirak edəcəyik. Belə hesab edirəm ki, Azərbaycanda qarşıdakı prezident seçkiləri demokratik dəyərlərə, fikir müxtəlifliyinə, hörmətin rəmzinə çevriləcəkdir.

Avropa Şurasının tərkibindəki təşkilatlardan yalnız birində Azərbaycanın nümayəndəsi yoxdur. Doğrudur, bu o qədər də tanınan bir təşkilat deyildir. O, yerli Seçki Dairələri Şurasıdır və burada ayrı-ayrı regionların nümayəndələri təmsil olunur. Mən istərdim ki, orada da Azərbaycan nümayəndəsi olsun. Buna görə də mənim Sizə bir sualım vardır: Yerlərdə demokratiyanın inkişafı sahəsində hansı müsbət dəyişikliklər əldə olunmuşdur?

Cənab prezident, mən təbrik edirəm ki, Siz ölkənizdə ölüm cəzasını ləğv etmisiniz. Lakin o da məlumdur ki, ölüm [199-200] cəzasının ləğvi bir çox mühüm şərtlərdən biridir. Yəni bir sıra şərtlər də vardır ki, onlara əməl edilməlidir. Bu, yalnız bir-iki ölkənin problemi deyil, bir çox ölkələrin problemidir. Biz birlikdə çalışacağıq ki, bütün bu şərtlərin hamısına əməl edək. Mən bilirəm ki, biz bu sahədə də Azərbaycanla sıx əməkdaşlıq edəcəyik.

Mən bilirəm ki, Azərbaycanın məqsədi Avropa Şurasının üzvü olmaqdır. Bu, sadəcə olaraq, milli siyasət deyildir. Bu, Avropanın bir hissəsi olmaq arzusundan irəli gəlir. Məlumdur ki, Avropa Şurası ümumi ideyaları həyata keçirmək üçün birgə fəaliyyətə üstünlük verir. Biz Avropa ölkələri ilə birgə fəaliyyət göstərərək problemləri də birgə həll etməyə çalışırıq. Avropa Birliyi qitənin bütün ölkələrini özündə birləşdirir və biz Azərbaycanın Avropa ailəsinə üzv olmaq sahəsində atdığı fəal addımları görəndə özümüzü xoşbəxt hesab edirik.

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab nazir!

Hörmətli cənab Baş katib!

Avropa Şurasının Azərbaycana münasibəti haqqında və respublikamızın Avropa Şurasının üzvü olması ilə əlaqədar ölkəmizdə görülən işlər barədə dediyiniz dəyərli sözlərə görə sizə təşəkkür edirəm.

Azərbaycanın Avropa Şurasına tam üzv olmaq səyləri respublikamızın təkcə Avropa qitəsinin ərazisində yerləşməsi ilə əlaqədar deyildir. Biz indiyə qədər də coğrafi nöqteyi-nəzərdən Avropa qitəsində yaşamışıq. İndi, Avropa Şurasında qonaq statusu ilə olduğumuz bir vaxtda bu Şuranın tam üzvlüyünə qəbul edilməyimiz barədə göstərdiyimiz cəhdlər ölkəmizin bütün sahələrini Avropa Şurasının standartlarına uyğunlaşdırmaq məqsədi daşıyır.

Siz tamamilə doğru buyurdunuz ki, Avropa Şurasına üzv olan ölkələrin heç biri ideal deyildir. Onu da qeyd etdiniz ki, bu ölkələr bir-birindən öyrənməklə daha da inkişaf edə bilər. Mən sizin bu sözlərinizi bir daha təsdiq edirəm və ona [200-201] əsaslanaraq deyirəm ki, bəli, biz özümüzü ideal ölkə hesab etmirik. Çünki bizim dövlət müstəqilliyi əldə etməyimizin hələ yeddi ili tamam olmayıbdır. Biz bu dövlət müstəqilliyinin bəlkə də gənclik yox, uşaqlıq dövrünü yaşayırıq. Amma biz çox iti qaçmağa qadir olan bir gəncik. Sürətimiz elədir ki, biz on illik məsafəni bir ilə keçmək istəyirik. Siz buyurdunuz ki, bunun üçün Azərbaycanda artıq xeyli işlər görülübdür.

Avropa Şurasının qəbul və təbliğ etdiyi bəşəri dəyərlərin Azərbaycanda yaranması və inkişaf etməsi bizim əsas məqsədimizdir. Bunların əsasını demokratiya təşkil edir. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən indiyədək və xüsusən son illərdə respublikamızda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi əzmlə aparılır. Bu, asan proses deyildir. Amma bizim ölkəmizdə bu prosesi mürəkkəbləşdirən amillər də vardır. Siz bunları bilirsiniz. Onlardan birincisi Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində ölkəmizin ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovulması ilə əlaqədar yaranmış problemdir. Ölkəmizin vəziyyətini mürəkkəbləşdirən ikinci cəhət əvvəlki illərdə Azərbaycanda ictimai-siyasi sabitliyin olmaması və cürbəcür cinayətkar qrupların, qanunsuz silahlı dəstələrin hakimiyyət uğrunda mübarizə aparması ilə əlaqədar olmuşdur.

Məlumdur ki, hər bir ölkədə demokratik inkişafı sağlam iqtisadiyyat və insanların rifahının tədricən yüksəlməsi şəraitində həyata keçirmək mümkündür. Sizə məlumdur ki, biz keçid dövrünü yaşayırıq və ötən illərdə də, indi də bir çox sosial-iqtisadi problemlərlə rastlaşırıq. Başqa amillər də vardır. Ancaq sizə məlumdur ki, biz bu amilləri də aradan götürməyə çalışmışıq və çalışırıq.

1994-cü ilin may ayında biz Ermənistan – Azərbaycan müharibəsində atəşi dayandırmışıq, atəşkəs sazişi imzala[201-202]mışıq və dörd ildən çoxdur ki, bu sazişə riayət edirik. Biz böyük sülhün əldə olunması üçün bunu mühüm addım, nailiyyət hesab edirik. Eyni zamanda, bunu Azərbaycanda demokratik dəyərlərin yaranması, inkişaf etdirilməsi üçün əlverişli şərait hesab edirik.

Bir neçə ildir ki, Azərbaycanda daxili ictimai-siyasi vəziyyət tam sabitləşibdir, insanlar rahat yaşayırlar, cinayətkar qruplar zərərsizləşdiriliblər. Azərbaycanda hər bir insanın hüquqları qorunur, onların azad, sərbəst yaşaması üçün hər cür şərait yaradılıbdır. Biz respublikamızda sosial-iqtisadi sahədə də geniş islahatlar, xüsusən iqtisadi islahatlar həyata keçiririk, onlar da öz müsbət nəticələrini verir.

Bilirsiniz ki, iqtisadiyyatın, xarici ticarətin liberallaşdırılması, özəlləşdirmə proqramının, aqrar, torpaq islahatının həyata keçirilməsi, torpağın şəxsi mülkiyyətə verilməsi – bunlar hamısı iqtisadi islahatların əsasını təşkil edir. Sosial-iqtisadi islahatların həyata keçirilməsi nəticəsində biz son illər iqtisadiyyatda artımı təmin edə bilmişik. Azərbaycanın maliyyə vəziyyətini sağlamlaşdırmışıq və tamamilə sabit etmişik. Əhalinin rifah halının yaxşılaşdırılması üçün bir sıra tədbirlər həyata keçirmişik.

Sizə məlumdur ki, 1993-1994-cü illərdə və onlardan əvvəlki illərdə də, - amma mən 1993, 1994, 1995-ci illəri götürürəm, - o dövrdə Azərbaycanda iqtisadiyyat inkişaf etmək əvəzinə, tənəzzüldə idi. İqtisadiyyatın tənəzzülü hər il təxminən 15-20 faiz təşkil edirdi, o cümlədən sənaye sahəsində məhsul istehsalı hər il aşağı düşürdü. Biz iqtisadiyyatın tənəzzülünün qarşısını aldıq və 1996-cı ildən artım başlandı. 1997-ci ildə ümumi daxili məhsul 5,8 faiz, 1998-ci ilin ötən aylarında isə təxminən 9 faiz artmışdır. Azərbaycanda inflyasiya 1994-cü ildə 1600 faiz, 1995-ci ildə təxminən 80 faiz idi. 1996-cı ildə biz inflyasiyanı tamamilə aşağı endirdik. 1997-1998-ci illərdə Azərbaycanda inflyasiya demək olar ki, tamamilə yoxdur. [202-203]

Bilirsiniz ki, biz özümüzü Müstəqil Dövlətlər Birliyinə daxil olan digər ölkələrlə müqayisə edirik. Rusiyada gedən prosesləri siz özünüz yaxşı görürsünüz. Allaha şükürlər olsun ki, Azərbaycanda belə proseslər yoxdur. Hətta Rusiyada gedən həmin proseslər bizə o qədər də təsir edə bilməz. Çünki biz maliyyə vəziyyətimizi sağlamlaşdırmışıq, sabitləşdirmişik və bu sabitliyi də qoruyuruq. İnsanların əmək haqqı son iki-üç ildə xeyli artıbdır. Aqrar islahatların həyata keçirilməsi nəticəsində Azərbaycanda kənd təsərrüfatı istehsalı çox yüksəlibdir. Aparılan özəlləşdirmə iqtisadiyyatı xeyli canlandırıbdır. Bütün bunlar Azərbaycanda demokratiyanı, demokratik dəyərləri inkişaf etdirmək üçün yaxşı şərait yaradır.

Mən sizin dediyiniz sözləri məmnuniyyətlə qəbul etdim. Siz Azərbaycanda ölüm hökmünün ləğv edilməsini qiymətləndirdiniz. Onu da bilməlisiniz ki, Azərbaycan Avropa qitəsindədir, həm Avropa ölkəsidir, həm də Şərq sivilizasiyasının dəyərləri ilə əsrlər boyu yaşamış və inkişaf etmişdir. Azərbaycanda Şərq ilə Qərbin, Avropa ilə Asiyanın dəyərlərinin necə birləşdiyini bəlkə də başqa ölkələrdə müşahidə etmək olmaz. Ona görə də bəzi ölkələrdə şəriət qanunu ilə insanları əhalinin gözü qabağında güllələmək, asmaq halları olduğu halda, Azərbaycanda ölüm hökmünün ləğv edilməsi tarixi bir hadisədir.

Hesab edirəm ki, Azərbaycanda siyasi plüralizmin tamamilə bərqərar olunması üçün çox işlər görülüb və yaxşı nailiyyətlər qazanılıbdır. Çap edilən qəzetlərin sayına görə Azərbaycan Avropa ölkələri arasında rekord yer tutur. İnanmıram ki, Yunanıstanda Azərbaycandakı qədər qəzet çıxsın. Güman edirəm, səfiriniz sizə bu barədə dəqiq məlumat verə bilər. Şübhəsiz, mən demək istəmirəm ki, biz Yunanıstandan irəliyə getmişik. Sadəcə, demək istəyirəm ki, biz hər şeyi açmışıq. Uzun illər bağlı olan sahəni açanda o, çox sürətlə irəliyə gedir. Azərbaycan mətbuatında senzura çoxdan [203-204] götürülmüşdür. Amma «Qlavlit» deyilən bir idarə var idi. Onun mətbuata heç bir təsiri yox idi. Amma həmin idarənin

mövcudluğu müxalifət qüvvələrinə Azərbaycanda senzura olduğunu deməyə əsas verirdi. Biz «Qlavlit»i ləğv etdik və onu qəbiristanlıqda basdırdıq. Özü də elə dərin basdırmışıq ki, oradan heç cür çıxa bilməz. Beləliklə, mətbuat, söz, vicdan azadlığı təmin olunubdur.

Şübhəsiz, siz dediyiniz kimi, biz heç bir şeyi ideallaşdırmırıq. Hələ görüləsi işlər çoxdur. Əgər nəsə edilməyibsə, bu o demək deyildir ki, biz onu istəmirik. Sadəcə, buna vaxtımız çatmır.

Yerli idarəetmə haqqında mənə sual verdiniz. Dediniz ki, Avropa Şurasındakı həmin təşkilatda Azərbaycan təmsil olunmayıbdır. Bildirmək istəyirəm ki, respublikamızda 1999-cu ildə yerli idarəetmə orqanlarına seçkilər keçiriləcəkdir. Bu, mənim şəxsi fikrimdir. Mən parlamentə belə bir təklif vermək fikrindəyəm. Güman edirəm ki, Milli Məclis bu barədə müvafiq qərar qəbul edəcəkdir.

Sizin həmin sualınıza cavab olaraq mən onu da bildirmək istəyirəm, - biz çalışarıq ki, Avropa Şurasının həmin bölməsində də Azərbaycan respublikamızda seçkilər keçirilənə qədər təmsil edilsin.

Siz düzgün qeyd etdiniz, mən də belə hesab edirəm ki, Azərbaycanda demokratiya sahəsində ən böyük addımlardan biri qarşıdan gələn prezident seçkiləridir. Güman edirəm, bunu qiymətləndirməlisiniz ki, ötən prezident seçkilərindən indiyə qədər, yəni 1993-cü il oktyabrın 10-dan indiyədək Azərbaycanda beş il müddətinə seçilmiş prezident fəaliyyət göstəribdir. Əvvəlki illərdə, elə bu beş ilin içərisində də daxili sabitlik olmayan bir ölkədə xalq tərəfindən seçilmiş bir prezidentin beş il müddətində fəaliyyət göstərməsi və səlahiyyətinin qurtardığı zaman yeni seçkilərin elan edilməsi bir tərəfdən Azərbaycanın daxilində ictimai-siyasi sabitliyin [204-205] mövcud olmasının təzahürüdür, digər tərəfdən isə demokratiya yolunda atılan böyük bir addımdır.

Hesab edirəm, Azərbaycanda prezident seçkilərinin keçirilməsi üçün demokratik şərait yarada bilən qanunlar qəbul olunubdur. İndi həmin qanunlar icra edilir. Biz dərk edirik ki, qanunun icra olunması onun qəbul edilməsindən daha da çətindir. Ümid edirəm ki, Azərbaycanda prezident seçkiləri ilə əlaqədar bütün qanunlar maksimum dərəcədə tətbiq olunacaqdır.

Oktyabrın 11-də Azərbaycanda növbəti prezident seçkilərinin keçirilməsini biz həyatımızda, müstəqil dövlətimizin tarixində demokratiya yolunda ən mühüm bir mərhələ hesab edirik. Seçkilərin azad, sərbəst, ədalətli keçirilməsi bizim ali məqsədimizdir. Çünki yaxşı dərk edirik ki, bununla biz Avropa Şurasına və ümumiyyətlə, dünyanın demokratik ölkələrinə Azərbaycanda demokratiyanın inkişaf etdiyini bir daha nümayiş etdirəcəyik.

Azərbaycanda xeyli siyasi partiya vardır. Bunlardan təxminən 31-32-si qeydiyyata alınıbdır. Bəzi partiyalar isə heç qeydiyyata alınmadan fəaliyyət göstərirlər. Bu partiyalar öz fəaliyyətlərini tamamilə sərbəst həyata keçirirlər və heç kəs onların fəaliyyətini məhdudlaşdırmır. Bu partiyaların və ayrı-ayrı təşəbbüs qruplarının nümayəndələrinin prezidentliyə irəli sürdükləri 6 namizəd qeydiyyata alınmışdır. Güman edirəm ki, indi seçkilərin böyük bir mərhələsi başlanır. Prezidentliyə namizədlər sentyabr ayının 1-dən televiziya və radio vasitəsilə çıxışlar edəcəklər. Ölkəmizin maliyyə imkanları o qədər də böyük olmasa da, Mərkəzi Seçki Komissiyasının təklifi ilə hökumətimiz çox səxavət göstəribdir və lazım olan vəsait ayrılıbdır.

Beləliklə, hesab edirəm ki, Azərbaycanda prezident seçkiləri yüksək səviyyədə keçiriləcəkdir. Buna əmin ola bilərsiniz. Mən bilirəm ki, siz də bunu arzu edirsiniz. Amma biz bunu [205-206] həddindən artıq istəyirik. Güman edirəm ki, sizin arzularınızın və bizim istəklərimizin hamısı çin olacaqdır.

Beləliklə, biz Avropa Şurasına üzv olmaq istiqamətində addım-addım irəliləyirik. Siz isə artıq qapılarınızı açmalısınız və oraya tamamilə girmək üçün bizə icazə verməlisiniz.

**D a n i e l  T a r ş i s**: Cənab prezident, bir qədər əvvəl qeyd etdiyim kimi, Avropa Şurasının qapıları Sizin üzünüzə çox geniş açılıbdır və Siz həmin qapıdan demək olar ki, əsas etibarilə içəri adlamısınız. Mən belə hesab edirəm ki, Azərbaycan Avropa Şurasına tezliklə tam üzv kimi qəbul olunacaqdır. Lakin Sizin bildiyiniz kimi, biz gərək parlament üzvlərini inandıra bilək. Avropa Şurasının parlament üzvləri sual verə bilərlər ki, Azərbaycanın millət vəkilləri nə iş görürlər.

Cənab prezident, Siz doğru dediniz ki, hər bir hökumətin çoxlu vəzifələri vardır və bu vəzifələri eyni zamanda yerinə yetirmək mümkün deyildir. Özünüz dediyiniz kimi, ölkənizdə sabitliyin əldə olunması və iqtisadi inkişafın başlanması ilə Siz demokratiya üçün yaxşı təməl qoymusunuz. Bu təməl əsasında həm demokratiyanı inkişaf etdirmək, həm də prezident seçkilərini demokratik şəraitdə keçirmək, parlament demokratiyasına nail olmaq mümkündür. Çox güclü, fəal demokratiya üçün ilkin şərtlər artıq həyata keçirilmişdir. Söhbətimizin əvvəlinə qayıdaraq, bu münasibətlə mən şəxsən Sizi təbrik etmək istəyirəm. Çox sağ olun ki, ölkənizdə Sizin təşəbbüsləriniz əsasında lazımi qanunlar həyata keçirilibdir. Xüsusilə ölüm hökmü ləğv edilmişdir.

Azərbaycanın millət vəkillərinin işi çox vacibdir, onlar Strasburqdakı parlament üzvləri ilə çox sıx əlaqədə işləməli və onları tam inandırmalıdırlar ki, Azərbaycanda gedən hadisələrə düzgün qiymət verə bilsinlər və ümumiyyətlə, respublikanızda əldə olunan tərəqqini yüksək qiymətləndirə bilsinlər. Mən hesab edirəm ki, Avropa Şurası Parlament [206-207] Assambleyasının çoxsaylı nümayəndələrinin Bakıya gəlişi və burada keçirilən görüşlər bütün bunlara bir növ yardımçı olmuşdur. Ümid edirəm ki, payızda Parlament Assambleyasında bu mövzu daha ətraflı müzakirə olunacaq və prezident seçkilərindən sonra bu

mövzunun geniş müzakirəsi üçün daha yaxşı imkanlar açılacaqdır. Mən çox məmnun oldum ki, Azərbaycanda prezidentliyə namizədlər üçün eyni şərait yaradılmışdır.

**İoanis Kranidiotis**: Cənab prezident, mən bildirmək istəyirəm ki, Yunanıstanda da qəzetlərin sayı kifayət qədərdir. Yəqin ki, biz bu sahədə Azərbaycanla rəqabət apara bilərik.

Cənab prezident, mən Azərbaycanda qazanılan tərəqqi münasibətilə Sizi təbrik edirəm. Biz çox məmnunuq ki, Azərbaycanda həqiqətən belə tərəqqi vardır, iqtisadi islahatlar sahəsində böyük yol keçilmişdir. Bu da demokratiyanın inkişafı üçün vacib sahələrdən biridir. Prezident seçkilərinin keçirilməsi və yerli hakimiyyətin əldə olunmuş uğurlarda iştirakı çox lazımlı şərtlərdir. Demokratiyanın digər vacib şərtlərindən biri də mətbuat azadlığının olmasıdır. Ümumiyyətlə, demokratiyanın mövcud olması üçün təkcə demokratik təsisatların yaranması yox, onların necə fəaliyyət göstərməsi də çox vacibdir.

Hörmətli prezident, bugünkü görüşə görə Sizə minnətdarlığımı bildirirəm. Elə bilirəm ki, bu görüşdən sonra Avropa Şurası Parlament Assambleyasının üzvlərini inandıra biləcəyik ki, Azərbaycanda həqiqətən böyük tərəqqi əldə olunmuşdur. İstəyirəm Sizi həvəsləndirəm ki, tutduğunuz yolu davam etdirəsiniz.

**Daniel Tarşis**: Cənab prezident, biz deyəsən onu unutduq ki, bizim ölkələrimiz demokratiya üçün 250 ildir ki, çalışırlar. [207-208]

**Heydər Əliyev**: Bu, çox gözəl sözdür. 250 ildir çalışırlar, amma hələ də qüsurları vardır. Biz kitablardan demokratiya haqqında ilk bilgiləri yunan alimlərinin və siyasətçilərinin dediyi sözlərdən və yazılardan almışıq.

Mən bir məsələni də qeyd etmək istəyirəm ki, bizim əldə etdiyimiz nailiyyətlərdə Avropa Şurasının Azərbaycana göstərdiyi yardımın və bu Şura ilə əməkdaşlığımızın xüsusi əhəmiyyəti olmuşdur. Bu əlaqələrimiz yaranandan və xüsusilə Azərbaycan Avropa Şurasında qonaq statusu, namizədlik statusu alandan sonra respublikamızın nümayəndələrinin Avropa Şurasında keçirdiyi görüşlər və bu Şuranın çoxsaylı nümayəndələrinin Azərbaycana gəlməsi bizi çox zənginləşdirdi, bunlar hamısı gördüyümüz işlərə çox böyük kömək etdi. Mən bu səmərəli əməkdaşlığa, Azərbaycanda demokratiyanın və ümumiyyətlə, respublikamızda Avropa dəyərlərinin inkişafı sahəsində göstərdiyiniz diqqət, qayğı və yardıma görə təşəkkür edirəm. [208]

## 1970-1987-ci İLLƏRDƏ AZƏRBAYCANDAN KƏNARDA ALİ TƏHSİL ALMIŞ MÜTƏXƏSSİSLƏRİN ÜMUMRESPUBLİKA TOPLANTISINDA NİTQ

*Respublika sarayı*

*31 avqust 1998-ci il*

Əziz dostlar!
Xanımlar və cənablar!

Güman edirəm, bu görüş həm sizin üçün, həm də mənim üçün tarixi bir görüşdür. Biz çox illər bundan əvvəl bu möhtəşəm sarayda, salonda dəfələrlə görüşmüşük. Ancaq həmin görüşlər sonra kəsilmişdir və böyük fasilədən sonra biz bir daha görüşürük.

Mən çox həyəcanlıyam və eyni zamanda böyük sevinc hissi keçirirəm. Çünki bugünkü – 1998-ci ildəki bu toplantımız 1969-cu ildə Azərbaycanda ilk dəfə əsası qoyulmuş görüşlərin nəticəsidir. Mən həmin görüşlərin təşəbbüskarı, təşkilatçısı olmuşam. Bu görüşlər, o vaxt görülmüş həmin işlər barədə və bunların sizin hər birinizin taleyində oynadığı rol haqqında burada kifayət qədər deyildi. Mən ona görə sevinirəm ki, 29 il bundan əvvəl əsasını qoyduğum xeyirxah işin gözəl bəhrələrini görürəm.

Əziz dostlar, siz artıq böyümüş, kişi olmusunuz. Vaxtilə bu salona 16-17 yaşında daxil olmuş insanlar – siz ötən illərdə böyük həyat yolu keçmisiniz, formalaşmısınız, püxtələşmisiniz, Azərbaycanın həyatının müxtəlif sahələrində fəaliyyət göstərirsiniz. Bunların hamısının əsası həmin illərdə qoyu[209-210]lubdur. Ona görə də mən sizin hər birinizin həyatında etdiyim xidmətin nəticəsini görərək bu gün sevinirəm, şadlanıram və iftixar hissi keçirirəm.

Mən sizi səmimi qəlbdən salamlayıram, bu gözəl, məzmunlu görüş münasibətilə təbrik edirəm. Hər birinizə cansağlığı arzu edirəm və gələcək işlərinizdə böyük uğurlar diləyirəm.

Mən 16 il bundan əvvəl – 1982-ci ilin avqust ayının ya 29-da, ya da 30-da bu salonda Azərbaycandan kənarda olan ali məktəblərə göndərilən gənclərlə son görüşü keçirmişdim. Bilirsiniz ki, mən ondan sonra Moskvaya işə dəvət olundum, orada çalışdım. Mənim həyatımın sonrakı səhifələri də sizə məlumdur. Nəhayət, 1993-cü ildə yenidən Bakıya gəldim. Son görüşümüzdən 16 il keçibdir. Düzü, mən belə görüşlər üçün çox darıxmışdım. Çünki o vaxt, o illər bu görüşlər artıq ənənəyə çevrilmişdi. Burada danışan gənc qızlardan biri dedi ki, Heydər Əliyev 1974-cü ildən başlayaraq respublikadan kənara gedən tələbələrlə görüşürdü. Yəqin bir balaca dəqiqsizliyə yol verildi. Mən həmin tələbələrlə ilk dəfə 1969-cu ildə görüşmüşdüm. Ancaq ola bilər, bu səhvin də əsası vardır. Çünki mən 1969-cu ildə görüşərkən nə bu saray, nə bu salon var idi, nə də görüşmək üçün bu qədər adam var idi.

Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Bilirsiniz ki, mən o vaxta qədər də dövlət işində işləmişdim. Azərbaycanda təhsilin, xüsusilə ali təhsilin vəziyyəti məni daim maraqlandırmışdı və mən bu barədə xeyli məlumata malik idim. Ona görə də bizim təhsilin nailiyyətlərini də, qüsurlarını, nöqsanlarını da bilirdim. Şübhəsiz ki, respublikanın başçısı kimi məsuliyyətimi də dərk edirdim. Ona görə də mən birinci növbədə təhsil məsələlərinə ciddi fikir verdim.

Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikanın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir. [210-211] Mən maraqlandım ki, bəs nə üçün bu qədər azdır? Çünki respublikamız geniş inkişaf yoluna başlamışdı və iqtisadiyyatımızın bir çox sahələrində mütəxəssislər çatışmırdı, bizim ali məktəblərimizdə də belə mütəxəssislər hazırlanmırdı. Yəni o vaxt respublikamızda belə fakültələr, kafedralar yox idi. Buna çox böyük ehtiyac var idi. Soruşdum ki, bəs nə üçün 50 nəfərlik yer ayrılıb? Mənə məlumat verdilər ki, respublikamıza hər il 50 nəfərlik limit verirlər. Ona görə də biz bundan artıq bir şey edə bilmərik. Onda mən maraqlandım ki, respublikadankənar ali məktəblərə kimlər gedir və nə yolla gedir?

Bu, müsabiqədənkənar qəbuldur. Deməli, o vaxtkı mərkəzi şəhərlərin, yəni Moskva, Leninqrad və başqa şəhərlərin ali məktəblərinə qəbulun hamısı müsabiqə əsasında keçirdi. Müttəfiq respublikalara bəzi ixtisaslar üzrə mətəxəssislər hazırlanması üçün kadrlara güzəşt edərək, onlara müsabiqədən kənar limit verilirdi. Məsələn, Azərbaycana 50 nəfərlik limit verilmişdi.

Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim və bu məsələ ilə ciddi məşğul olmağın lazım gəldiyini bir daha dərk etdim. Çünki, birincisi, avqustun sonları idi, sentyabrın 1-də dərslər başlanmalı idi, amma hələ 50 nəfər toplaya bilməmişdilər. İkincisi, siyahıya baxanda gördüm ki, təyin olunmuş namizədlərin içərisində azərbaycanlılar azlıq təşkil edirlər, çoxluğu isə başqa millətlərdən olan gənclər təşkil edirlər. Yenə də maraqlandım ki, nə üçün belədir? Mənə məlumat verdilər ki, bilirsiniz, indi artıq Azərbaycanda ali məktəblər çoxdur,

valideynlər öz övladlarını respublikadan kənara göndərmək istəmirlər. Ona görə də kim istəyirsə onu göndəririk. Beləliklə, milli tərkib bu cür olubdur.

Şübhəsiz ki, əgər biz respublikamızın gələcəyi haqqında həqiqətən düşünürdüksə, bu vəziyyət məsələyə səthi, bəlkə də biganə münasibətdən irəli gəlirdi. [211-212]

Həmin il, 1969-cu il avqustun sonunda mən ilk dəfə sayı 50 nəfərdən az olan gənclərlə o vaxt işlədiyim iş yerindəki kiçik bir salonda görüşdüm, danışdım, onlara öz tövsiyələrimi verdim. Ancaq bu, mənim üçün də böyük bir siqnal oldu ki, bu işlə məşğul olmaq, həm də çox ciddi məşğul olmaq lazımdır.

Mən bu işlə məşğul oldum. Həmin sahədə o vaxt əldə olunmuş göstəricilər haqqında sizə dedilər. Mən bu mövzuya sonra bir daha qayıdacağam. Ancaq onu da aydınlaşdırmaq istəyirəm ki, bu iş, bu təşəbbüs yalnız və yalnız ondan irəli gəlirdi ki, mən istəyirdim biz özümüzün, ölkəmizin, respublikamızın ali təhsil ocaqlarının, eyni zamanda o vaxt yaşadığımız ölkənin mərkəzi və daha yüksək səviyyəli ali məktəblərinin imkanlarından səmərəli istifadə edərək Azərbaycanın gələcəyi üçün lazım olan kadrlar hazırlayaq. Bu təşəbbüsün doğulmasının səbəbi və məqsədi bundan ibarət olmuşdur.

Bilirsiniz ki, ümumiyyətlə, Azərbaycan xalqı həmişə biliyə, elmə böyük maraq göstərmiş xalqdır. Çoxəsrlik tariximizdə xalqımız bəşər mədəniyyətinə, elminə böyük töhfələr vermiş, xalqımızın içərisində böyümüş görkəmli alimlər, ixtiraçılar, şairlər, yazıçılar dünya mədəniyyətini, elmini öz əsərləri ilə zənginləşdirmişlər.

Ancaq bununla yanaşı, orta əsrlərdə, hətta XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycan əhalisinin əksəriyyəti savadsız idi. XX əsr bütün dünya üçün, o cümlədən Azərbaycan üçün tarixi hadisələr və böyük dəyişikliklər əsri olmuşdur. Azərbaycan xalqı, ölkəmiz üçün də XX əsrin çox ağrılı-acılı, faciəli səhifələri də, eyni zamanda xalqımıza böyük nailiyyətlər gətirmiş, onu yüksəltmiş gözəl səhifələri də vardır. XX əsrdə Azərbaycan xalqının əldə etdiyi böyük nailiyyətlərdən biri də xalqın savadsızlığının ləğv olunması və xalqın maariflənməsi olmuşdur.

Bu gün biz fəxr edə bilərik ki, regionumuza mənsub olan başqa ölkələrlə müqayisədə xalqımızın bilik, savad, elm, [212-213] mədəniyyət səviyyəsi bir çoxundan yüksəkdir. Birincisi, bu, xalqımızın istedadlı xalq olduğunu bir daha nümayiş etdirir, qədim dövrlərdən indiyə qədər xalqımızın içində zəkalı, elm və təhsil ilə məşğul olan mütəfəkkir insanların olması ilə bağlıdır. Şübhəsiz ki, bunlarla yanaşı, XX əsrin 20-30-cu illərindən sonra Azərbaycanda kütləvi surətdə təhsil müəssisələrinin yaranması və bunun nəticəsində xalqımızın maariflənməsi, savadsızlığın ləğv edilməsi ilə bağlıdır. Bu, böyük nailiyyətdir. Biz bununla fəxr edə bilərik və fəxr də etməliyik.

1919-cu ildə Azərbaycanda ilk ali təhsil ocağı olan Bakı Dövlət Universiteti yaranmışdır. Bakı Dövlət Universiteti Azərbaycanda ali məktəblərin yaranmasının bünövrəsini qoymuşdur. Ondan sonra bir sıra ali məktəblər yaranmış və onların vasitəsilə biz Azərbaycanda ölkəmizə lazım olan kadrların hazırlanmasına nail ola bilmişik.

1970-ci illərdə Azərbaycanda 17 ali məktəb – universitet, institut fəaliyyət göstərirdi, 100 mindən artıq gənc ali məktəblərdə təhsil alırdı. Məhz bunların nəticəsində bu gün Azərbaycanın böyük kadr potensialı – ali təhsilli kadr, böyük elm, intellektual potensialı vardır. Bunlar hamısı əvvəlki dövrün, illərin, onilliklərin nəticəsində mümkün olmuşdur.

Beləliklə, biz 1969-cu ildə azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması işləri ilə ciddi məşğul olarkən ölkəmizdə ali məktəblər də var idi, kadrlar da hazırlayırdıq. Ancaq nə üçün bu sahəyə belə ciddi fikir verdik və bunu böyük bir iş etdik? Nə üçün bununla çox ciddi məşğul olduq və nə üçün onunla bilavasitə Azərbaycanın birinci rəhbəri məşğul olurdu?

Yenə də deyirəm, birincisi, ona görə ki, bizə bir çox ixtisaslar üzrə mütəxəssislər lazım idi, onlar Azərbaycanın ali məktəblərində hazırlana bilmirdi. İkincisi, şəxsən mən bu təşəbbüsü göstərərkən Azərbaycan gənclərini öz çərçivəsindən çıxıb dünyaya daha geniş baxış etmək yoluna salmaq istəyirdim. [213-214]

Keçmiş dövrlərdə də Azərbaycanda istedadlı gənclərin başqa ölkələrdə təhsil almaq ənənəsi olmuşdur. Orta əsrlərdə Azərbaycanda zəkalı, istedadlı gənclər adətən İranda, İraqda, Türkiyədə, Misirdə və başqa Şərq ölkələrində təhsil alırdılar. Amma onlar çox az idilər və şübhəsiz ki, onlar ali təhsil alıb, böyük biliyə malik olub öz istedadları, zəkaları ilə Azərbaycan xalqının tarixində əks olunmuş dəyərli əsərlər yaratmışdılar. Ancaq onlar xalqımızın savadsızlığının aradan götürülməsinə, maariflənməsinə böyük təsir etməmişlər.

XIX əsrdə, XX əsrin əvvəllərində Azərbaycanda imkanlı insanlar öz övladlarını təhsil almaq üçün Rusiya, Avropa ölkələrinə göndərirdilər. Onların bir çoxu yüksək təhsil alaraq gəlib Azərbaycanda öz xalqına xidmət edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində, hətta 1939-cu, 1940-cı, 1950-ci illərə qədər yaşamış, yaratmış bir çox mütəxəssislərimiz, alimlərimiz, mühəndislərimiz və başqa sahələrdən olan mətəxəssislər məhz əvvəlki dövrlərdə Rusiyada, Avropa ölkələrində təhsil almış insanlar olmuşlar. 1919-cu ildə Bakı Dövlət Universiteti yaranarkən həm Rusiyadan bir çox alimlər, mütəxəssislər dəvət edilmişdir, həm də o vaxt artıq Rusiyada, Avropada ali təhsil almış və Azərbaycana qayıtmış azərbaycanlılar da Bakı Dövlət Universitetinin yaranmasında və fəaliyyət göstərməsində fəal iştirak etmişlər.

Həmin illərdə, o dövrdə bəzi imkanlı adamlar xeyriyyəçilik fəaliyyəti göstərərək ayrı-ayrı gənc, istedadlı azərbaycanlıları Rusiyaya, Avropa ölkələrinə təhsil almağa göndərmişdilər. Onlardan bir çoxlarının adları məlumdur. 1918-ci ildə Azərbaycanda ilk Xalq Cümhuriyyəti yaranan zaman onun qurucularının bir çoxu, o cümlədən Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov məhz Moskvada, Sankt-Peterburqda yüksək təhsil almış insanlar idilər. Amma o vaxt da mütəxəssislər çatmırdı. İlk Xalq Cümhuriyyəti hökumətinin [214-215] tərkibinə azərbaycanlılarla yanaşı, başqa millətlərin nümayəndələri – ruslar, polyaklar, yəhudilər də cəlb olunmuşdular. Çünki müəyyən ixtisaslara malik olan ali təhsilli insanlar lazım idi.

Yəni bu ənənə keçmişdə də – orta əsrlərdə də, XIX əsrdə, XX əsrin əvvəllərində də olmuşdur. Bu ənənə Azərbaycan xalqına həmişə xeyir gətirmişdir. 1969-1970-ci illərdə mən bu təşəbbüsü irəli sürərək və bunu inadla, ardıcıl surətdə həyata keçirərək, bir də onu əsas tuturdum və hiss edirdim ki, təxminən 1940-1950-ci illərdə respublikamızda ali məktəblər yaranandan sonra Azərbaycan ictimaiyyətində yalnız öz respublikasında, öz şəhərlərində yaşamaq, təhsil almaq meylləri əvvəlki dövrə nisbətən müəyyən qədər artmışdır. Şəxsən mən belə bir meyllə razı deyildim.

Bilirsiniz, əgər insan bir kənddə doğulursa və ömrü boyu həmin kənddə yaşayırsa, yaxud bir qəsəbədə doğulursa, həmin qəsəbədə ömrü boyu yaşayırsa, yaxud bir şəhərdə doğulursa və ömrü boyu o şəhərdə yaşayırsa, təhsil almaq, işləmək üçün başqa bir yerə getmirsə, nə qədər kitab oxusa da, başqa vəsaitlərdən istifadə etsə də onun dünyagörüşü o çərçivədən çox kənara çıxa bilməz. Ancaq insan öz baxış dairəsini nə qədər genişləndirərsə, öz ölkəsindən, şəhərindən, kəndindən çıxıb başqa ölkələrdə, şəhərlərdə olanları nə qədər görüb-götürürsə və öyrənirsə, insan daha da zənginləşir. Bax, o illər mən bu prinsipi nəzərə alırdım.

Şübhəsiz, bizim gənclərin əksəriyyəti Azərbaycanın çox yüksək səviyyəli ali məktəblərində təhsil alırlar, - o vaxt da, indi də təhsil alırlar və bizim ali məktəblərimiz çox dəyərli kadrlar hazırlamışdır. Həmin kadrlarımız indi müstəqil Azərbaycanın müxtəlif sahələrində fəaliyyət göstərirlər və ölkəmizin inkişafını təmin edirlər. Amma bununla bərabər, Azərbaycandan kənarda olan ali məktəblərin imkanlarından istifadə edib, beləliklə, respublikamızda verilən biliklərlə [251-216] Moskvada, Leninqradda, Kiyevdə, başqa şəhərlərdə verilən bilikləri bir-birinə bağlamaqla biz həm ali təhsilimizin, həm elmimizin, həm iqtisadiyyatımızın, həm də mədəniyyətimizin müxtəlif sahələri üçün daha da yüksək səviyyəli kadrların hazırlanmasına nail olurduq.

Bu gün burada çıxış edənlər və buraya toplaşanlar artıq bunu əyani surətdə sübut ediblər. Ona görə də mənim bunu sübut etməyimə ehtiyac yoxdur. Mən sadəcə, bu məsələnin başlanğıcında bu təşəbbüs üçün olan əsasları, prinsipləri sizə bir daha çatdırıram.

Bir məsələ də vardır. Azərbaycanda təhsil alanların əksəriyyəti Azərbaycan dilində təhsil alır. Doğrudur, Azərbaycanda rus bölməsi də olmuşdur. Ancaq o vaxtlar bizə Sovetlər İttifaqı məkanında xalqımızı bu dövlətin hər yerinə daha da yaymaq və xalqımızın səviyyəsini artırmaq üçün rus dilində təhsil alan kadrlar da lazım idi. O illərdə Azərbaycandan kənara göndərilən tələbələrin hamısı, şübhəsiz ki, rus dilində təhsil alırdı.

Beləliklə, biz doğma ana dilimizdəki təhsillə o vaxt çərçivəsində yaşadığımız Sovet İttifaqının hakim dili olan rus dilini birləşdirirdik. Bu da təbiidir ki, respublikamızda bir çox sahələr üzrə Azərbaycan dilində ədəbiyyat, lazımi təhsil vasitələri yox idi. Bir çox elmi jurnalları, kitabları o vaxt yalnız rus dilində oxuyub öyrənmək mümkün idi. Ona görə də Moskva, Leninqrad və başqa şəhərlərin institutlarında, universitetlərində hazırlanan kadrlar respublikamızda elmi ədəbiyyatın çatışmazlığı sahəsində olan boşluğu da müəyyən qədər doldururdular.

Sonra mən bu işi başladım genişləndirdim. Özüm də təsəvvür etmədən gördüm ki, Azərbaycan üçün yeni bir ali məktəb yaratmışam. Bu, nədən ibarətdir? 1969-cu ildə biz respublikadan kənara oxumağa heç 50 nəfər də göndərmədik, 1970-ci ildə 60 nəfər göndərdik. Ondan sonra bunu ilbəil [216-217] artırdıq. Nəhayət, biz 1975-ci ildə gərək ki, 600 nəfər, 1977-1978-ci illərdə hər il 800-900 nəfər gənci respublikadan kənar ali məktəblərə göndərirdik.

Ali təhsil sahəsində işləyənlər bilirlər – hər bir ali məktəbin illik qəbulu 700-800 nəfər olur. Beləliklə, əgər biz ildə 800-900 nəfər azərbaycanlı balasını o vaxtlar Sovet İttifaqının müxtəlif şəhərlərindəki ali məktəblərə göndərirdiksə, demək, biz, Azərbaycan Dövlət Universitetinə olan qəbul qədər əlavə tələbə hazırlayırdıq.

Sonralar bunu Moskvada hiss etmişdilər. Onlar görmüşdülər ki, beləliklə biz Azərbaycanın ərazisində olmayan, ancaq respublikamız üçün kadr hazırlayan yeni bir ali məktəb yaratmışıq. Burada doğru deyildi ki, buna da çox qısqanc-lıqla yanaşırdılar. Doğrudur, biz bu işə çox vaxt sərf etdik. Amma bu gün elə bir gündür ki, hamı hər şeyi bilməlidir. Bu, asan bir iş deyildi. Məsələn, 50 nəfərlik limiti 100 nəfərə qaldırmaq üçün mən nə qədər danışıqlar aparmalı oldum. Ondan sonra bunu 200, 300, 400 etmək asan deyildi. Bu danışıqlar sadə danışıqlar deyildi. Mən bu barədə təkliflərimi Sovet hökumətinin ən yüksək nöqtəsinə qədər verirdim və hər il artımı təmin edirdim, buna da nail olurdum.

Onu da bilməlisiniz – məsələn, mən 1976-1980-ci illəri götürürəm – o illərdə müttəfiq respublikalardan yalnız Qazaxıstana 400 nəfərlik limit verilmişdi. Başqa respublikalara 100-150 nəfərdən artıq limit verilmirdi. Ona görə verilmirdi ki, onlara, necə deyərlər, pis baxırdılar, sadəcə, belə təşəbbüs göstərilmirdi.

Başqa respublikalarda vaxtilə bizdə olduğu kimi, hesab edirdilər ki, hər bir respublikanın ərazisində istənilən qədər ali məktəb vardır, kim harada istəyirsə oxusun, niyə bunun üçün özümüzə əlavə iş yaradaq, bu işlə məşğul olaq… Lakin bizim təşəbbüsümüzlə Azərbaycandan Sovet İttifaqının yüksək ali məktəblərinə – Moskvada, Leninqradda və başqa şəhərlərdə olan ali məktəblərə göndəri[217-218]lən tələbələrin sayı bütün digər respublikalardan göndərilən tələbələrin sayından artıq idi.

Mən bir məsələni də nəzərinizə çatdırmaq istəyirəm. Bu da ondan ibarətdir ki, məsələn, 17-18 yaşında olan azərbaycanlı gənc üçün Moskva Dövlət Universitetində müsabiqədən keçmək çətin idi. Onlardan bəzilərinin biliyi çatmırdı, digərlərinin isə dil bilməməsi çətinlik törədirdi. Olan-olub, keçən-keçib, indi açıq demək lazımdır ki, xalqımıza, millətimizə qarşı ayrı-ayrı şəxslər tərəfindən o vaxt mənfi münasibət var idi. İmkan vermirdilər ki, azərbaycanlılar bu universitetlərə girsinlər. Belə hallar da var idi.

Ancaq biz nəyə nail olduq? Məsələn, vaxtilə Moskva Universitetində təhsil almış adamlardan neçə nəfəri burada çıxış etdi. Onlar Moskva Dövlət Universitetinə daxil olmaq üçün müsabiqədən keçirdilər. Onlar burada müsabiqədən keçəndən sonra artıq Moskva Universitetinə qəbul olunmuş hesab edilirdilər. Eləcə də Leninqrad və digər şəhərlərin universitetlərinə qəbul belə idi.

Bəziləri rus dilini yaxşı bilmirdilər ona görə də biz qəbulu öz respublikamızda keçirməklə bu dil çətinliyini də aradan götürdük. Beləliklə, bu gün açıq demək lazımdır – doğrudur, bunlar tarixdə qalıbdır – bu 800-900 nəfər adam ali məktəblərə müəyyən güzəştlərlə qəbul olunurdu. Güzəşt də ondan ibarət idi ki, onlar müsabiqədən həmin universitetlər, institutlar çərçivəsində yox, Azərbaycanda keçirdilər. Məsələn, abituriyentlər müsabiqədən texniki sahələr üzrə Politexnik, yaxud Neft-Kimya institutlarında, başqa sahələr üzrə Azərbaycan Dövlət Universitetində keçirdilər. Beləliklə, onlar hər şeyi burada edirdilər, avqust ayının axırınadək bütün sənədlər hazır olurdu. Avqustun 28,29 və ya 30-da biz adətən buraya toplaşırdıq.

Burada doğru deyildi ki, mən həmin tələbələri ilk dəfə bu salona 1974-cü ildə dəvət etdim. Çünki onların sayı artdı. [218-219] Onlar artıq əvvəlki illərdə görüş keçirdiyimiz salonlara yerləşmirdilər. Ona görə də mən onları bu salona dəvət etdim. Bir də bilirsiniz ki, bu saray da 1972-ci ilin dekabrında tikilibdir. 1972-ci ilin dekabr ayına qədər bu saray da yox idi. Beləliklə, 1974-cü ildən biz görüşləri bu salonda keçirdik.

Bilirsiniz, həmin görüşlər mənim üçün çox əziz idi. Mən sizə bildirmək istəyirəm, - bəzən avqustun sonunda mən Bakıda olmurdum: ya iş üçün harasa gedirdim, yaxud da – o illər bəzən olurdu – mən yalnız avqust ayının ikinci yarısında 10-15 gün istirahətə gedə bilirdim. Bir neçə dəfə elə olubdur ki, mən istirahətə təzəcə getmişəm, aradan bir həftə, yaxud 10 gün keçibdir, hələ bir az da istirahət etmək lazımdır, ancaq məlumat almışam ki, avqustun 28-də, ya da 29-da görüş var. İstirahəti də, hər şeyi də buraxaraq görüşə gəlmişəm.

1969-cu ildən 1982-ci ilin avqust ayına qədər bir il də olmayıb ki, mən tələbələrlə görüş keçirməyim. Bunun ən böyük nəticələrindən biri də nə idi? Məsələn, o vaxt Moskvada oxuyan tələbələrlə MXAT teatrının binasında keçirdiyimiz görüş barədə burada kiçik bir kinoxronika göstərdilər. Mən onu xatırladım. Bəli, o vaxtlar mən Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində tələbələrlə bir neçə dəfə görüşmüşdüm. Ancaq onların sayı artdı, daimi nümayəndəlikdə görüş keçirmək imkanı olmadı. Bilmirəm, 1977-ci il, yoxsa 1978-ci il idi, ola bilər, 1979-cu il idi, - mən xahiş etdim ki, görüş keçirmək üçün bir salon götürək. Biz danışıb Moskvada MXAT teatrını götürdük, tələbələr oraya toplaşdılar. Mən oraya getdim. Ölkənin çox yüksək vəzifəli şəxsləri – SSRİ-nin təhsil naziri və yüksək vəzifəli başqa şəxsləri də oraya gəldilər. Biz orada görüş keçirdik, danışdıq.

Məsələn, orada bir hadisə mənim yadımdadır. Bir gənc – Moskva Dövlət Universitetinin 4-cü kursunda oxuyan bir tələbə çıxış edirdi. Həmin gənc özü deyirdi ki, Cəbrayıl rayonundandır. Mənim xatirimdədir, danışırdı, - indi burada çıxış edən o fermer də dedi ki, kəndli ailəsindən, kasıb bir ailədən olmuş bir adamdır, - həmin teatrda çıxış edən gənc də deyirdi ki, kasıb ailədən olubdur, indi gəlib Moskva Universitetinin riyaziyyat fakültəsinin 4-cü kursunda yaxşı qiymətlərlə oxuyur. O, rus dilində yaxşı danışırdı. Kənd məktəbini bitirmişdi və müsabiqədən keçəndə riyaziyyatdan yaxşı cavab vermişdi, amma rus dilini bilmirdi. Ancaq gedib Moskva Universitetində dörd il oxuduğu, orada yaşadığı vaxt rus dilini mükəmməl mənimsəmişdi və həmin dildə çox səlis danışırdı. O cümlədən Ukraynaya, Rusiyanın vilayətlərinə oxumağa gedənlər xalqımıza məxsus olan mədəniyyəti, adət-ənənələri qoruyub saxlayaraq, eyni zamanda, Rusiyanın, Ukraynanın, Özbəkistanın, Latviyanın, Litvanın, o vaxtkı başqa respublikaların adət-ənənələrini, oradakı əhval-ruhiyyəni də öyrənir, bunlardan özləri üçün maraqlı olanları götürürdülər.

Mən sizə dedim ki, 1969-cu ildə respublikadan kənara oxumağa göndərilənlərin siyahısına baxanda gördüm ki, onların əksəriyyəti azərbaycanlı deyildir. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Bilirsiniz ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. O vaxt mən 2-3 ildən sonra hər il respublikadan kənara oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum.

Yaxud, bir xüsusiyyəti də deyim. Hər şey göz qabağındadır, açıq demək lazımdır. 1969-cu ildən sonra mən təkcə bu iş üçün yox, Azərbaycanın ali təhsil sistemində ədalətin təmin olunması üçün də çoxlu tədbirlər gördüm. Düzdür, sonralar bunların bəziləri pozuldu. Hətta bəzilərinə görə sonralar mənə irad

tutdular ki, nə üçün Heydər Əliyev bu cür sərt qərarlar qəbul etmişdir. Ancaq bunlar o dövr üçün lazım idi. Mən istəyirdim ki, hər bir azərbaycanlı gənc atasının, anasının kimliyindən, ailəsinin maddi vəziyyətinin səviyyəsindən asılı olmayaraq, əgər istedadı varsa və ali təhsil almaq istəyirsə, buna nail ola bilsin. [220-221]

Ancaq mən nə ilə rastlaşdım? Vəzifəli, yaxud imkanlı şəxslərin hamısının övladları ali məktəblərə daxil olurdu, amma kasıb insanların, vəzifəsi olmayan çoxlu valideynin uşaqları ali məktəbə daxil ola bilmirdi. Xatirinizdədir, biz bu məsələlərlə o illər çox məşğul olurduq. Nəhayət, bir neçə ildən sonra mən buna nail oldum ki, Azərbaycanda ali məktəblərə – deyə bilmərəm tamamilə, əksərən, çünki o vaxt bəzən ədalətsizliklər baş verirdi – gənclərin əksəriyyəti ədalətli qəbul edilsin.

İndi bəzən ayrı-ayrı mütəxəssislərlə rastlaşıram. Deyirlər ki, məhz Sizin o vaxtkı siyasətiniz nəticəsində heç kəsi olmayan, atası-anası kasıb bir adam kimi mən gəlib filan ali məktəbə girdim, təhsil aldım və sairə. Mənə deyirlər ki, bunlar hamısı Sizin siyasətiniz nəticəsində olubdur. Bilirsiniz, mənim üçün bundan artıq mükafat ola bilməz. Mən belə xeyirxah işlər çox görmüşəm.

Azərbaycandan kənarda oxumağa göndərilənlərin arasında da birinci illərdə xüsusən valideynləri vəzifədə olanların, yaxud da ki, imkanlı adamların uşaqları çox idi. Amma sonralar mən ona nail oldum ki, həmin gənclər bütün təbəqələri təmsil etsinlər. Mən xüsusən ona nail oldum ki, həmin gənclər valideynlərinin heç bir vəzifəsi olmayanlar arasından seçilsin və burada istedad əsas meyar kimi götürülsün, başqa bir şey meyara çevrilməsin.

Xatirinizdədir, o vaxt mən qərar qəbul etmişdim ki, hüquq fakültəsinə rəhbər vəzifəli adamların və hüquq-mühafizə orqanlarında işləyənlərin övladları qəbul olunmasın. Doğrudur, mən istefaya gedəndən sonra, Moskvada yaşayanda bu barədə məni günahlandırırdılar ki, Heydər Əliyev kiminsə hüquqlarını pozubdur. O vaxt mən heç kəsin hüququnu pozmamışdım. Mən, sadəcə, o axının qarşısını alırdım. Çünki əgər hüquq-mühafizə orqanlarında çalışanlar da, onların övladları da orada işləyəcəksə, onda axı başqa adamlara yer qalmayacaqdır. Axı belə şey olmaz. [221-222]

Bilirsiniz, siz öz taleyinizdə də görmüsünüz ki, mən həmişə, bizim loru dildə deyildiyi kimi, kasıb-kusubun təəssübkeşi olmuşam. Mən həmişə belə olmuşam.

Sizin bu alqışlarınız onu göstərir ki, doğrudan da bu belə olubdur. Yəqin ki, sizin əksəriyyətiniz də onlardansınız, ona görə də belə alqışlayırsınız.

Əziz dostlar, bax, beləliklə o illər biz böyük iş başlamışıq və indi də onun gözəl nəticələrini görürük. Doğrusu, mən bu gün sizin hamınızı burada öz doğma övladlarım kimi görürəm. Mən bir dəfə bunu demişəm, o illər sizlərin – hər il respublikadankənar ali məktəblərə qəbul olunanların siyahısından bir neçə nüsxəlik böyük bir kitab düzəldirdilər. Həmin kitablardan birini də gətirib mənə verirdilər. Mən o kitabları o vaxtdan indiyədək öz şəxsi kitabxanamda, arxivimdə saxlayıram. Çünki bu iş mənim üçün o qədər əziz olubdur ki, bəzən işləmədiyim zaman, Moskvada yaşayarkən çox darıxırdım, kitab, qəzet, jurnal oxuyurdum, bəzən də kitab rəfindən onu çıxarıb vərəqləyirdim ki, bax, bu filankəsdir, atası, anası budur, yaşı filandır, filan rayondandır. Onların heç birisini şəxsən tanımıram. Amma bütün bunları oxuyurdum. Çünki orada hər birinin valideyni də, valideynin hansı vəzifədə işlədiyi də yazılmışdı. Mən bunları oxuyub təsəlli alırdım ki, düzdür, indi işləmirəm, mənə qarşı belə ədalətsizlik var, amma mən bu işləri görmüşəm və həmin adamlar məni heçə vaxt unutmayacaqlar, mənim zəhmətimi qiymətləndirəcəklər.

Məhz bunlara görə də mən sizə, təkcə sizə yox, ümumiyyətlə, o vaxt bu salondan təhsil almağa göndərdiyimiz və tövsiyələrimi, sözlərimi dediyim gənclərin hamısına, o cümlədən sizə bir doğma övladım kimi baxıram. Mən bu gün çox böyük iftixar hissi keçirirəm ki, siz artıq böyümüsünüz. Burada danışırdınız, 17 yaşınız var idi. İndi 17-nin üstünə 20-25 də qoy, gör neçə olur. Yaşınız da artıbdır. İş yaşda deyildir, iş [222-223] ondadır ki, sizin hər biriniz cəmiyyətdə öz yerinizi tutmusunuz, alimlik dərəcəsi almısınız, böyük mütəxəssis olmusunuz, işləyirsiniz. Ailə qurmusunuz, ailəniz, övladlarınız vardır. Siz bu gün müstəqil Azərbaycana lazımsınız, gərəklisiniz. Demək, o illər biz müstəqil Azərbaycanın bu günü üçün işlər görmüşük və bu da öz nəticəsini veribdir.

Müdafiə nazirliyinin nümayəndəsi burada çıxış etdi, o illərdə ali hərbi məktəblərə elə bu cür münasibətlə azərbaycanlıların göndərilməsi barədə də məlumatlar verdi. Güman edirəm ki, bu məktəbləri bitirənlərlə mənim ayrıca görüşüm olacaqdır. O, rəqəmləri dedi, mən bunları təkrar etmək istəmirəm. Amma burada səslənən bir fikri təsdiq etmək istəyirəm. Bəli, o illərdə mən Azərbaycanda təhsilin, respublikamızda ali məktəblərin işini təkmilləşdirmək yolunda həddindən artıq çalışarkən, Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən və Azərbaycan gənclərinin o vaxtlar Sovetlər İttifaqının çoxsaylı ali hərbi məktəblərinə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm.

O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər.

O vaxt gəlib çatdı. Azərbaycan artıq öz dövlət müstəqilliyinin 7-ci ilini yaşayır. Son beş ildə Azərbaycanın dövlət müstəqilliyi möhkəmlənib, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi inkişaf edir. Azərbaycan demokratiya, bazar iqtisadiyyatı yolu ilə gedir. Azərbaycan

Dünya Birliyində özünə layiq yer tutubdur. Azərbaycanın dünya miqyasında hörməti qalxıb, ölkəmiz tanınıb və Azərbaycan müstəqillik yolu ilə bundan sonra da gedəcəkdir. [223-224]

Əziz dostlar, siz Azərbaycanın bu müstəqillik yolu ilə getməsində fəal iştirak edirsiniz və bundan sonra da iştirak etməlisiniz. Bəli, indi müstəqil Azərbaycana gənc, yüksək bilikli, ali elmi dərəcələri olan kadrlar, yaxşı mütəxəssislər lazımdır. Onlar Azərbaycanda çoxdur, siz də onların bir hissəsisiniz. Ancaq sizinlə birlikdə bizim vəzifəmiz ondan ibarətdir ki, bax, bu çoxsaylı kadrların içərisindən ən istedadlılarını, bacarıqlılarını seçib, çox məsul vəzifələrə təyin edib Azərbaycanın müstəqilliyini daha sürətlə inkişaf etdirək.

Mən vaxtilə apardığım işlərin bəhrəsini görürəm. Mən o vaxt sizi təhsil almaq üçün göndərmişəm. Bu gün belə hesab edirəm ki, mən və ümumiyyətlə, bizim hamımız – indi hakimiyyətdə olanlar sizin imkanlarınızdan, biliyinizdən, bacarığınızdan, istedadınızdan istifadə etməliyik. Biz sizdən kadr kimi səmərəli istifadə etməliyik.

İndi burada danışanlar dedilər, - biri elmlə məşğuldur, digəri ali məktəbdə dərs deyir, başqa işlə məşğuldur. Yəni hərə öz yerini tapıbdır. Ancaq sizlərdən dövlət işləri ilə məşğul olmaq istəyənlər, - ümumiyyətlə, bu gənc kadrlardan olan insanlar, - əgər istəsələr müraciət etməlidirlər. Mən tapşıracağam ki, bu müraciətlər qeydə alınsın. Kimin dövlət işində işləyib, indi Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək istəyi, arzusu varsa, mən sizlərdən – azərbaycanlı kadrlardan istifadə olunmasını çox vacib hesab edirəm.

Əziz dostlar, dedim ki, bu gün mənim üçün çox həyəcanlı bir gündür. Mən 16 ildən sonra sizinlə bir daha görüşürəm. Güman edirəm ki, mənim sizə olan səmimi hissiyyatlarımı və məhəbbətimi hiss edirsiniz. Çünki əgər mən bu iş üçün çalışmışamsa və o, nəticə veribsə, bu mənim üçün doğma, əziz işdir. Siz də mənim üçün doğmasınız, əzizsiniz.

Mən hesab edirəm ki, biz bundan sonra da Azərbaycan təhsilini inkişaf etdirməliyik və kadrlar hazırlamaq üçün müxtəlif imkanlardan istifadə etməliyik. Təhsil naziri [224-225] məlumat verdi ki, islahatların layihələri hazırlanıbdır. Mən qısa bir müddətdə bu layihələrə baxacağam və onların həyata keçirilməsi təmin olunacaqdır.

İndi bizdə dövlət ali məktəbləri ilə bərabər özəl ali məktəblər də yaranıbdır. Mən çox arzu edərdim ki, həm dövlət ali məktəbləri, həm də özəl ali məktəblər birinci növbədə gənclərə təhsil verməyi və yüksək təhsil verməyi öz qarşılarında vəzifə kimi qoysunlar. Təəssüf ki, bəziləri bu özəl məktəbləri qazanc məqsədi ilə yaradırlar. Bu yolverilməzdir. Təhsildən heç vaxt qazanc kimi istifadə etmək olmaz. Doğrudur, indi biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Özəl, pullu, yəni ödənişli təhsil sahələri genişlənir və genişlənəcəkdir.

Ancaq eyni zamanda dövlət ali məktəblərini də qoruyub saxlayacağıq. Çünki lazımdır ki, pulu, ödəmək imkanı olmayan hər bir istedadlı Azərbaycan övladı, Azərbaycan gənci ali təhsil almaq hüququ ala bilsin və ona layiq ola bilsin. Mən çox arzu edərdim ki, həm dövlət universitetləri, ali məktəbləri, həm də özəl ali məktəblər təhsilin keyfiyyətinə xüsusi fikir versinlər və indiki bu çətinliklərə baxmayaraq, - bilirəm, maddi, sosial çətinliklər var, - təhsilin səviyyəsini və müəllim adını yüksək saxlasınlar.

Mən eşitmişəm ki, sentyabr ayında Azərbaycanda müəllimlərin qurultayı keçiriləcəkdir. Müəllimlər buna hazırlaşırlar. Güman edirəm, orada müəllimlər qarşısında söhbət aparılacaq, əgər imkan olsa, mən də iştirak edəcəyəm. Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir. Orta məktəb olsun, yaxud ali məktəb, fərqi yoxdur, hamısında təhsil verən müəllimdir. Ona görə həyatımda ən çox sevdiyim adamlar mənim müəllimlərim olubdur. Mənə ilk təhsil verən, birinci [225-226] sinifdən başlayaraq təhsil verən müəllimlərin hamısını böyük minnətdarlıqla xatırlayıram və bu fürsətdən istifadə edib müəllim peşəsinə bir daha yüksək hörmət-ehtiramımı bildirirəm. Sizə də tövsiyə edirəm ki, müəllim adını həmişə yüksək tutasınız.

Təhsil naziri burada məlumat verdi ki, indi xarici ölkələrdə 3 minə qədər azərbaycanlı oxuyur. Bu vasitədən bundan sonra da səmərəli istifadə etmək lazımdır. Şübhəsiz ki, bu sahədə həm dövlət proqramı olmalıdır, həm də insanlar öz imkanlarından istifadə edərək övladlarını təhsil almaq üçün ayrı-ayrı ölkələrə göndərirlər, yaxud gənclər cürbəcür sponsorlar tapıb təhsil alırlar. Bunlar indinin tələblərinə, dövrün şəraitinə görə mümkün olan vasitələrdir və hamısından istifadə etmək lazımdır.

Bir sözlə, Azərbaycanın ali məktəblərinin, təhsil sisteminin səviyyəsini qaldırmalıyıq. Eyni zamanda dünyanın inkişaf etmiş ölkələrinin, yüksək səviyyəli universitetlərin, institutların imkanlarından Azərbaycanın gələcəyi, dəyərli kadrlar hazırlanması üçün bundan sonra da səmərəli istifadə etməliyik.

Təhsil almış və indi ayrı-ayrı ölkələrdə yer seçmiş, yaşayan dostlarımız da burada iştirak edirlər və çıxış etdilər. Azərbaycana qayıtmadıqlarına görə onların heç birinə iradım yoxdur. O vaxt onları göndərəndə də hesab edirdim ki, bir qismi təhsilini qurtarandan sonra ayrı-ayrı şəhərlərdə qalacaqdır, - ya aspiranturada, ya da doktoranturada təhsilini davam etdirmək üçün, yaxud hansısa evlənərək, özünə ailə quracaq, ya da başqa səbəbdən qalacaqdır. Bu təbiidir və mən bunu normal, Azərbaycanın bu günü üçün çox xeyirli hesab edirəm. Çünki Azərbaycanda kadr çoxdur, onların hamısı gəlsə, yer də olmayacaqdı. Ona görə bir qisminin ayrı-ayrı ölkələrdə fəaliyyət göstərməsi, hesab edirəm ki, respublika üçün də əlverişlidir. [226-227]

Ancaq onun əsas mənası bundan ibarət deyildir. Əsas mənası ondan ibarətdir ki, onlar Azərbaycanın yüksək intellektə malik olan diasporunu yaradırlar. Bu, bizə çox lazımdır. Biz Sovetlər İttifaqının tərkibində olanda bu barədə o qədər də düşünmürdük. Hesab edirdik ki, Moskvadan başqa millətlərlə bərabər, azərbaycanlının da səsi gəlsin. Nə üçün Moskvada azərbaycanlı olmasın? Nə üçün Leninqradda, Kiyevdə olmasın? Mən bunu çox istəyirdim. Sadəcə, milli qürur hissim məni həmişə buna yönəldirdi. Mən millətimi sevən adamam, o vaxt da sevmişəm, bu gün də sevirəm. Bilirəm ki, mənim millətimdən olan insanlar çox yüksək istedada malikdirlər, onlar üçün sadəcə, şərait yaratmaq lazımdır. Mən bu şəraiti yaratdım və bu şəraitdən səmərəli istifadə edib Rusiyada, Ukraynada, başqa ölkələrdə özlərinə yer tapmış həmvətənlərimizə uğurlar, xoşbəxt həyat arzulayıram. Əminəm ki, beləliklə, ayrı-ayrı ölkələrdə, o cümlədən Rusiyada, Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa ölkələrdə müstəqil Azərbaycanın diasporu formalaşacaqdır. Bu da müstəqil Azərbaycan üçün böyük dayaq olacaqdır. Bu, bizə lazımdır və buna ehtiyacımızı indi də duyuruq, hiss edirik.

Ancaq indi Azərbaycandan kənarda yaşayan azərbaycanlılara yeganə tövsiyəm var – Azərbaycanı heç vaxt unutmasınlar. Burada çıxış edənlər çox gözəl danışdılar. Bu, məni sevindirdi. Mən hesab edirdim ki, indi onlar bəlkə də Azərbaycan dilini unudublar. Yox, Azərbaycan dilində danışdılar. Bu, məni çox sevindirdi. Xatirimdədir, o illər burada, bu salonda sizləri yola salarkən mən bir çox tövsiyələr verirdim. Verdiyim tövsiyələrdən biri o idi ki, rus dilini mükəmməl öyrənin. Bu sözləri sizə hər dəfə demişəm. Bu gün isə deyirəm ki, rus dilini mükəmməl öyrənmisiniz, Azərbaycan dilini unutmayın, mükəmməl öyrənin. O vaxt rus dilinin öyrənilməsinə ehtiyac var idi, çünki siz həmin ali məktəblərdə yaxşı təhsil almalı idiniz. Təhsil aldınız, öyrəndiniz – bu, sizin [227-228] qazancınızdır. İnsan nə qədər çox dil bilsə, bir o qədər də zəngin olar. Amma Azərbaycan dilini nəinki unutmayın, müasir Azərbaycan dilini öyrənin. Bütün diasporlarda Azərbaycan dili hökm sürməlidir. Çünki dilini unudan adam, şübhəsiz ki, milli keyfiyyətlərini də xırda-xırda unudur. Buna yol verməк olmaz.

Əziz dostlar, bilirsiniz, bu, 29 illik bir tarixdir. Bu, mənim üçün o qədər əzizdir ki, bu barədə sizinlə saatlarla danışa, keçmişlərdən çox şey deyə bilərəm. Bu gün demədiklərimi, ola bilər, gələcək görüşlərimdə deyəcəyəm. Ancaq hesab edirəm ki, bu, bu gün üçün yetərlidir. Sizinlə görüşməyimdən çox məmnunam. Hamınıza cansağlığı, yeni-yeni uğurlar arzu edirəm. Hesab edirəm ki, siz artıq formalaşmış bir cəmiyyət kimi bir-birinizlə sıx əlaqə saxlamalı və Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin möhkəmləndirilməsi, Azərbaycanda demokratiyanın inkişafı, bazar iqtisadiyyatının inkişafı üçün öz səylərinizi qoymalısınız. Sizə cansağlığı, bütün işlərinizdə uğurlar arzu edirəm. Sağ olun. [228]

## «İSTİQLAL» QAZMA QURĞUSUNUN İŞƏ SALINMASINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*Azərbaycan Dövlət Neft Şirkətinin gəmi təmiri zavodu*

*2 sentyabr 1998-ci il*

Hörmətli xanımlar, cənablar!
Əziz dostlar!

Biz, buraya toplaşmış insanlar bu gün Azərbaycanın neft sənayesinin həyatında, bütün Azərbaycanın həyatında əlamətdar bir hadisənin iştirakçısıyıq: Xəzər dənizinin dərin sularının altında zəngin neft və qaz yataqlarının kəşfi, neft və qaz hasilatının təmin olunması layihəsinin həyata keçirilməsi çərçivəsində bu işlər üçün üzən yarımdalma qazma qurğusunun işə başlaması mərasimində iştirak edirik.

Bu, adi bir hadisə deyildir. Çünki önünə toplaşdığımız qazma qurğusu nəhəng, əzəmətli və eyni zamanda müasir texnikanın, texnologiyanın tələbləri ilə təchiz olunmuş böyük bir qurğu, böyük bir istehsal müəssisəsidir. Cənab Mayk Şerman rica etdi ki, bu qurğuya ad qoyulsun. Mən bir neçə gün bundan öncə bu qurğuya ad qoymuşam – onun adı «İstiqlal»dır.

Bu nəhəng istehsal müəssisəsinə, qazma qurğusuna bu ad heç də təsadüfi olaraq verilməyibdir. Bilirsiniz ki, bir neçə vaxt bundan əvvəl biz böyük qazma qurğusunun bərpa olunub modernləşdiriləndən sonra işə başlamasını təntənəli surətdə qeyd etdik və ona «Dədə Qorqud» adı verdim. Bu adı [229-230] mən vermişəm. Nə üçün «Dədə Qorqud»? Çünki Qorqud bizim ulu babamız, dədəmizdir, tarixi kökümüz, soyumuzdur. İkinci qazma qurğusuna «İstiqlal» adı verərkən, bununla mən keçmişimizi bu günümüzlə daha da sıx bağlamaq arzusunda, istəyində olmuşam. Bizim tarixi keçmişimiz Dədə Qorquddur, bu günümüz, gələcəyimiz isə əbədi müstəqillikdir, istiqlaliyyətdir. Mən əminəm ki, bu üzən qazma qurğusu «İstiqlal» adını şərəflə daşıyacaq, onun ömrü uzun olacaq və daim Azərbaycan xalqının iqtisadiyyatının inkişafına, Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşmasına, Azərbaycanın istiqlaliyyətinə sədaqətlə xidmət edəcəkdir.

Azərbaycanın neft sənayesinin qədim və zəngin tarixi var. Azərbaycan qədim Odlar diyarıdır. 1848-ci ildə dünyada ilk dəfə məhz Azərbaycan torpağında neft fontan vurub və dünyada neftin sənaye üsulu ilə hasilatına başlanıbdır. XX əsrin əvvəllərində Azərbaycan neftçiləri qurudan dənizə doğru irəliləyiblər və Xəzərin sahillərində neft quyuları qazıb dənizin dibindən də neft çıxarmaqla məşğul olublar. 1922-ci ildə məhz burada, bu sahədə mühəndis, polyak vətəndaşı Pototskinin təklifləri əsasında suda, dənizdə quyular qazılmağa və dənizin dibindən neft çıxarılmağa başlanıbdır.

Əsrimizin 40-cı illərində isə Azərbaycan neftçiləri dünya miqyasında böyük nailiyyət əldə etmişlər, məşhur Neft Daşlarında ilk dəfə quyu qazıb, Xəzər dənizinin, demək olar, ortasında neft fontanı almağa nail olmuşlar. Bu hadisə 1949-cu ilin noyabr ayında baş vermişdir. Sonrakı illərdə əfsanəvi Neft Daşlarında dənizin dibindən neft hasilatı genişlənib və Azərbaycan yenə də dünyada dənizdən neft çıxarılmasının bünövrəsini, əsasını qoymuşdur.

Beləliklə, Azərbaycanda neft sənayesinin inkişafını üç mərhələyə bölmək olar: XIX əsrin ikinci yarısından, ortasından təxminən XX əsrin 20-ci ilinə qədər – bu, birinci mərhələdir. 1920-ci ildən Azərbaycan öz dövlət müstəqilliyini əldə [230-231] edənə qədərki dövr neft sənayesinin ikinci mərhələsidir. Nəhayət, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ötən illər Azərbaycan neft sənayesinin üçüncü mərhələsidir. Hər bir mərhələnin özünəməxsus xüsusiyyətləri və parlaq tarixi var.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tarixdə ilk dəfə olaraq öz milli təbii sərvətlərinin sahibi olmuşdur və bu sərvətlərdən özü istədiyi kimi istifadə etməyə başlamışdır. Bildiyiniz kimi, biz geniş proqram tərtib etmişik, böyük işlərə başlamışıq və bu işlər qarşıdan gələn illərdə, XXI əsrdə də Azərbaycan xalqının iqtisadiyyatının və vətəndaşlarımızın rifah halının yüksəlməsinə xidmət edəcəkdir.

Müstəqil dövlət olaraq bu işləri başlayarkən Azərbaycan neftçilərinin bir neçə nəslinin əməyi nəticəsində Azərbaycanın ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş zəngin neft və qaz yataqlarının mövcud olması bizim bugünkü və gələcək işlərimizin əsasını təşkil edir. Keçmişdə yaşamış və bu gün bizim sıralarımızda olan Azərbaycan neftçiləri, alimləri, geoloqları öz xalqının təbii sərvətlərinin aşkar edilməsi üçün dəyərli işlər görmüş, böyük neft və qaz yataqları açmışlar və bunlar da indi müstəqil Azərbaycan dövləti üçün böyük proqramlar tərtib etməyə əsas yaradır. Bu gün, bu əlamətdar bayram günü Azərbaycan neftçilərinin bütün nəsillərini minnətdarlıq hissi ilə xatırlayır və bildirmək istəyirəm ki, Azərbaycan xalqı onların gördüyü işləri heç vaxt unutmayacaqdır. Mən bu gün onların xatirəsi qarşısında baş əyirəm.

Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının da dəyərli insanları, böyük alimləri, fədakar neftçiləri və başqa mütəxəssisləri bu zəngin sərvətlərin vətən, xalq naminə istifadə

edilməsi üçün böyük işlər görmüşlər. Bu işlərdən biri də neft sənayesinin texniki, istehsal bazasının, infrastrukturunun yaranması olmuşdur. [231-232] 70-80-cı illərdə dənizdə neft və qaz yataqlarının işlənilməsi üçün, suyun dərinliklərində olan yataqlardan neft hasil etmək məqsədi ilə yeni qurğuların, cihazların, texnikanın yaradılması zərurəti meydana çıxmışdı. Bu məqsədlə o illərdə üzən yarımdalma qazma qurğularının yaradılması və istifadə edilməsi məsələsi həll olunmuşdu. O illərdə «Şelf-1» üzən qazma qurğusunun istifadəsinə başladıq. Bundan sonra ardıcıl olaraq «Şelf -2», «Şelf-3», «Şelf-4» və «Şelf-5» qazma qurğuları yarandı.

Bildiyiniz kimi, «Şelf-2» üzən qazma qurğusu keçən illərdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən, Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə modernləşdirildi, bərpa olundu və işə başladı. İndi o, «Dədə Qorqud» adı ilə Xəzər dənizinin «Şahdəniz» yatağında quyu qazmaqla məşğuldur.

Bu gün isə biz «Şelf-5» üzən qazma qurğusunun təmirindən, bərpa olunmasından, modernləşdirilməsindən, yeniləşdirilməsindən sonra onun işə başlamasını bayram edirik.

Biz bu gün «İstiqlal» üzən yarımdalma qazma qurğusunu, bu nəhəng qurğunu seyr etdik, onun idarə olunması ilə əlaqədar bir çox sahələrinə baxdıq, tanış olduq. Bizə geniş məlumatlar verildi. Mən Azərbaycanda belə qurğuların yaranmasının təşəbbüskarlarından olduğuma görə və bu qurğuları keçmişdə də yaxşı bildiyimə görə bu gün «İstiqlal» qurğusuna baxıb bunu görərkən böyük iftixar hissi keçirirəm. Çünki bu qurğu Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarının istifadə olunması üçün çox böyük işlər görəcək və bunun tərkibində böyük işlərin görülməsi üçün müasir tələblərə cavab verən texnika, texnologiya, cihazlar insanların səmərəli işləməsi üçün çox gözəl şərait yaratmışdır. Bu qurğunun modernləşməsi, yenidən həyata gəlməsi ilə «Şahdəniz» layihəsi üzrə konsorsium məşğul olmuşdur. Bu layihəyə rəhbərlik edən cənab Mayk Şerman burada bu barədə öz fikrini söylədi. [232-233]

«Şahdəniz» müqaviləsi layihəsi 1996-cı il iyun ayının 4-də imzalanıbdır və Azərbaycanın dünyanın böyük neft şirkətləri ilə müştərək iş görməsi proqramının həyata keçirilməsi istiqamətində imzalanan üçüncü böyük müqavilədir. Mən məmnuniyyətlə qeyd edirəm ki, 1994-cü il sentyabr ayının 20-də imzalanmış müqavilədən başlayaraq ondan sonra imzalanan müqavilələrin hamısı ardıcıl surətdə həyata keçirilir və artıq öz bəhrələrini verir. Bu proqramların həyata keçirilməsi nəzərdə tutulmuş nəticələrdən yüksək göstəricilərin əldə olunduğunu göstərir.

Mən bu gün bunu deməyi ona görə vacib bilirəm ki, biz ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzalayanda da bunu anlamayanlar da var idi, yaxud qəsdən bu müqaviləni ləkələmək istəyənlər də var idi və bunun Azərbaycan üçün xeyir verməyəcəyini bəyan edənlər də var idi. Güman edirəm ki, əgər onlarda heç olmasa bir kiçik ədalətlilik varsa, onlar artıq öz səhvlərini, bəd fikirlərini ləğv etməlidirlər. Çünki «Əsrin müqaviləsi» əsasında «Çıraq» neft yatağından artıq neft alınır və görülən işlər onu göstərir ki, müqavilə imzalanarkən burada 510 milyon ton neft əldə olunması nəzərdə tutulurdusa, artıq indi 630 milyon ton neft alınması gerçəkləşibdir.

«Çıraq» neft yatağında qazılan quyular nəzərdə tutulduğundan dörd-beş dəfə artıq neft verir. Gündə 10 min tondan artıq neft alınır. Mənə bir neçə gün bundan öncə məlumat verdilər ki, yeddinci quyu daha da gözəl nəticələr veribdir. O quyudan gündə 500 ton neft çıxarılması nəzərdə tutulduğu halda, indi gündə üç min ton, bəlkə də dörd min ton neft alınması gözlənilir. Budur bizim gördüyümüz işlərin nəticəsi!

Xatirimdədir, «Şahdəniz» müqaviləsinin imzalanması ərəfəsində Azərbaycanda yenə də bəzi şəxslər belə bir müqavilənin respublikamız üçün əhəmiyyətli olmaması, yaxud da ki, mənfəətli olmaması haqqında cürbəcür fikirlər [233-234] irəli sürürdülər. Ancaq bizim mütəxəssislər bu məsələni hərtərəfli müzakirə etmişdilər və «Şahdəniz» yatağında böyük qaz ehtiyatları, eyni zamanda böyük neft ehtiyatları olduğunu dəfələrlə sübut etmişlər. Buna baxmayaraq bəziləri heç bir əsas olmadan əksinə sübut etmək istəyirdilər.

Milli Məclisin keçmiş sədri, özünü neft sahəsində guya böyük mütəxəssis hesab edən Rəsul Quliyev 1996-cı ildə «Şahdəniz» müqaviləsinin imzalanmasının əleyhinə çıxdı. Biz bunu geniş müzakirə etdik. Şübhəsiz ki, mənə də və başqalarına da yaxşı məlum idi ki, bu əks fikir heç bir şeyə əsaslanmayıbdır. Sadəcə olaraq, Azərbaycanın gördüyü işlərə ləkə salmaq, yaxud da onlara mane olmaq, Azərbaycan iqtisadiyyatının inkişafına mane olmaq məqsədi daşıyırdı. Bu bəd niyyətlər bizə məlum idi. Amma buna baxmayaraq mən bu barədə geniş müzakirə apardım və burada iştirak edən bizim neft sahəsində çox böyük alimlərimiz, mütəxəssislərimiz, Dövlət Neft Şirkətinin rəhbərliyi bu müzakirədə iştirak etdilər. Bir daha təsdiq olundu ki, «Şahdəniz» neft və qaz yatağı zəngin yataqdır və bunun istifadə edilməsi üçün mütləq işə başlamaq lazımdır, müqavilə imzalanmalıdır. Beləliklə, 1996-cı il iyun ayının 4-də Bakıda «Gülüstan» sarayında bu müqavilə imzalandı.

İndi o vaxtdan iki il keçibdir. Artıq biz bunun gözəl nəticələrini görürük. Məhz «Şahdəniz» müqaviləsinin imzalanması nəticəsində, «Şahdəniz» proqramı əsasında bir konsorsium yarandı. Bu konsorsiuma «Bi-Pi», «Statoyl», «Türk petrolları şirkəti», ondan sonra isə «Elf Akiten», «LUKoyl» və İranın «OİEK» şirkəti daxil oldular. Bunlar işə başladılar və biz bu gün bunun bəhrələrini görürük. Bu bəhrələr nədən ibarətdir? Biz Xəzər dənizində azı 20 il fəaliyyət göstərə biləcək belə nəhəng bir üzən qazma qurğusu əldə etmişik.

«Şelf-5» qurğusu suyun 200 metr dərinliyində quyu qazmaq qabiliyyətinə malik idi. Quyunun dərinliyi isə 6 min metrə [234-235] qədər ola bilərdi. Ancaq bu, layihədə var idi. Burada məlum olduğu kimi, bu,

1990-cı illərdə işləmirdi və 1995-ci ildən bu qurğu konservasiya edilmişdi. Lakin həmin qurğu artıq yeniləşib, modernləşib, bərpa olunubdur və onun bütün göstəriciləri yüksəlibdir. Artıq bu, suyun 700 metr dərinliyində quyu qazmağa qadirdir. Quyunun dərinliyi isə 6 min metr deyil, 7,5-7,6 min metr ola bilər. Dünyada bu qəbildən olan üzən qazma qurğuları ilə müqayisədə bu, ən yüksək səviyyədə duran bir qurğudur. Bu bizim üçün böyük milli sərvətdir. Bu qurğunun hazırkı vəziyyətə gətirilməsi üçün 200 milyon dollar vəsait sərf edilibdir. Deməк, Azərbaycana 200 milyon dollar sərmayə gəlibdir. Bu qurğunun 17 ay müddətində modernləşməsində, bərpa olunmasında, burada bildirildiyi kimi, 1200 nəfər iştirak edibdir. Bunlar Azərbaycan vətəndaşlarıdır, mütəxəssisləridir, fəhlələridir. Demək, onlar üçün yeni və yüksək maaşlı iş yerləri açılıbdır.

Biz sizinlə Dövlət Neft Şirkətinin gəmi təmiri zavodunun ərazisindəyik. Bu zavod demək olar ki, dayanmışdı və bu ərazi bərbad vəziyyətdə idi. Ancaq 12 milyon dollar sərmayə qoyulub, zavod modernləşdirilib, təmir olunub, yeniləşibdir və bundan sonra böyük işlər görməyə qadirdir. Bu, «Şahdəniz» müqaviləsinin, «Şahdəniz» layihəsinin hələ ilkin bəhrəsidir, nəticəsidir. Heç şübhə yoxdur ki, tezliklə «İstiqlal» qazma qurğusu «Şahdəniz» neft yatağında, suyun dərinliyi 700 metr olan bir yerdə yeni quyular qazmağa başlayacaqdır və oradakı zəngin neft və qaz yataqlarından neft və qaz hasil edə biləcəyik.

Layihəyə görə «Şahdəniz» yatağından 500 milyard kubmetr qaz alınması gözlənilir, 200 milyon ton neft kondensatı alınması gözlənilir. Ancaq hələ bu layihədir, proqnozdur. Güman edirəm ki, «İstiqlal» qazma qurğusu bu rəqəmləri daha da artıracaqdır və biz böyük işlərin şahidi olacağıq. Bu qurğunun yüksək səviyyəyə gətirilməsi Azərbay[235-236]canda bir tərəfdən texnikanın, texnologiyanın inkişaf etməsini nümayiş etdirir və bununla bərabər, Azərbaycan vətəndaşlarının, mütəxəssislərinin, bu qurğuda çalışan bütün işçilərin hamısının müasir, yüksək səviyyəyə qalxmasını təmin edir. Bu da böyük nailiyyətdir.

Mən hesab edirəm ki, biz gələcəkdə yenə belə qurğuların, yəni o «Şelf» adlanan qurğuların bərpasını davam etdirəcək və yenə belə bir qurğunun işə salınmasının şahidi olacağıq.

1994-cü il sentyabr ayının 20-də biz ilk böyük müqaviləni – «Əsrin müqaviləsi»ni imzalamışıq. Az bir vaxt keçibdir, hələ dörd ili də tamam deyildir. Amma ötən illər yeni-yeni müqavilələr imzalanmışdır. İndi Azərbaycan Dövlət Neft Şirkəti həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də Azərbaycan ərazisində dünyanın böyük neft şirkətləri ilə 15 müqavilə imzalayıbdır və onların icrasına başlanıbdır. İmzalanmış müqavilələrin əsasında sərmayə qoyuluşunun həcmi təxminən 35-38 milyard dollar miqdarında nəzərdə tutulubdur. Onlar Azərbaycanın bu gün və ən çox gələcəkdə iqtisadiyyatının, həyatın bütün sahələrinin inkişafını təmin etmək üçün çox böyük vasitədir.

Görülən işlər bu gün öz bəhrəsini verir. Neft sənayesində çalışan insanlar işləyirlər, iş yerləri əldə edirlər, yüksək maaş alırlar və onların maddi vəziyyəti günü-gündən yaxşılaşır. Ancaq bu gördüyümüz işlər daha da çox Azərbaycanın gələcəyinin xoşbəxtliyini təmin edir, Azərbaycanın parlaq gələcəyini təmin edəcəkdir. Biz çalışırıq ki, gələcək nəsillər, övladlarımız, nəvələrimiz, nəticələrimiz bizim çəkdiyimiz çətinlikləri çəkməsinlər, firavan yaşasınlar. Biz bu addımlarla Azərbaycanı iqtisadi cəhətdən inkişaf etmiş bir ölkə etmək istəyirik. Biz bu addımlarla Azərbaycan vətəndaşlarını, xalqını xoşbəxt etmək istəyirik, onlara firavan yaşayış təmin etmək istəyirik. Biz bu işləri dünyanın böyük neft şirkətləri ilə və onların vasitəsilə başqa böyük şirkətlərlə birgə görürük. [236-237]

Bu gün «İstiqlal» qazma qurğusunun işə başlaması Azərbaycanın dünyanın bir neçə neft şirkəti ilə 1996-cı ildə başladığı işin gözəl nəticəsidir. Mən bu münasibətlə Azərbaycanda neft sahəsində, iqtisadiyyatın bütün başqa sahələrində Azərbaycan vətəndaşları ilə yan-yana işləyən, çalışan xarici şirkətlərin nümayəndələrinə, mütəxəssislərinə, xarici ölkələrin hər bir vətəndaşına müştərək, faydalı birgə işlərimizə görə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Ötən bir neçə ildə Azərbaycanda iş görən xarici ölkələrin şirkətləri inandılar ki, Azərbaycanda iş görmək olar, Azərbaycanda iş görmək üçün bütün imkanlar və ən əsası, əlverişli şərait yaranıbdır. Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik, respublikamızda xarici şirkətlərin səmərəli iş görməsi üçün mövcud olan qanunlar və qaydalar xarici sərmayənin Azərbaycana gəlməsi üçün böyük imkanlar yaratmışdır və bu da hər iki tərəf üçün olduqca faydalıdır.

Bugünkü mərasim – xarici şirkətlərin nümayəndələri ilə Azərbaycan neftçiləri və ictimaiyyətin nümayəndələrinin birlikdə keçirilən bu təntənəli mərasimi bizim gözəl əməkdaşlığımızın parlaq təzahürüdür. Bu bir daha sübut edir ki, Azərbaycanda görülən işlərin hamısı böyük gələcəyə malikdir və Azərbaycana sərmayə gətirən insanlar öz sərmayəsinin xeyrini görəcəklər. Azərbaycanda yaranmış şərait bundan sonra da respublikamıza xarici sərmayənin gəlməsini təmin edəcəkdir.

Görülən işlər və əldə olunmuş bəhrələr yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir və Azərbaycan dövlətinin bu müstəqillikdən, azadlıqdan istifadə edərək apardığı doğru, düzgün, düşünülmüş daxili və xarici siyasətin parlaq nəticəsidir.

Biz bu gün «İstiqlal» adı daşıyan üzən qazma qurğusunun işə başlaması mərasimində iştirak edərək və bu nəhəng istehsal müəssisəsinə gələcək uğurlar arzu edərək bir daha [237-238] bəyan edirik ki, Azərbaycanın dövlət müstəqilliyi bundan sonra günü-gündən yüksələcək, möhkəmlənəcək və bu qurğu kimi qüdrətli, möhkəm, əyilməz, dönməz olacaqdır.

«İstiqlal» qurğusunun işləməsini təmin edən insanlar bir neçə gündən sonra sahildən ayrılıb qurğunun üzərində Xəzər dənizinin dərin yerlərinə, demək olar ki, dənizin ortasına doğru gedəcəklər. Dənizdə çalışan işçilər, mütəxəssislər adətən çox mətin, qoçaq, qəhrəman olurlar. Ümid edirəm ki, onlar yeni-yeni qəhrəmanlıq nümunələri nümayiş etdirəcəklər. Onların hamısına cansağlığı arzu edirəm və bu qurğunun səmərəli işləməsində uğurlar arzulayıram.

«İstiqlal» qurğusuna bir daha uzun ömür, xoşbəxt gələcək və yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan neftçilərinə eşq olsun!

Azərbaycanın milli azadlığına, istiqlaliyyətinə eşq olsun!

«İstiqlal» qurğusuna eşq olsun, eşq olsun, eşq olsun! [238]

## ÇİN XALQ RESPUBLİKASININ, İSPANİYA KRALLIĞININ, POLŞANIN VƏ FİNLANDİYANIN AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRLƏRİNİN ETİMADNAMƏLƏRİNİ QƏBULETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident iqamətgahı*

*4 sentyabr 1998-ci il*

Hörmətli səfirlər, mən sizin etimadnamələrinizi məmnuniyyətlə qəbul edirəm. Azərbaycanda öz ölkələrinizin səfiri kimi göstərəcəyiniz fəaliyyətdə sizə uğurlar arzulayıram.

Çin Xalq Respublikası, İspaniya, Polşa və Finlandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirləri bu gün işə başlayırlar. Mən bu hadisəni Çin Xalq Respublikası, İspaniya, Polşa və Finlandiya ilə Azərbaycan arasındakı diplomatik, dostluq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində mühüm addım hesab edirəm.

Hörmətli səfirlər, sizin təmsil etdiyiniz ölkələrlə Azərbaycan arasında olan əlaqələr bizi məmnun edir və biz bu əməkdaşlığın inkişaf etməsinin, genişlənməsinin tərəfdarıyıq. Biz bunun üçün öz tərəfimizdən bundan sonra da lazımi tədbirlər görəcəyik.

Güman edirəm ki, yeni təyin olunmuş səfirlər kimi siz Azərbaycanın dövlət və hökumət orqanları, ictimai təşkilatları ilə və bütün ictimaiyyətlə sıx əlaqə saxlayacaqsınız və ölkələrimiz arasındakı əlaqələrin inkişaf etməsinə xidmət göstərəcəksiniz. [239-240]

Mən Çin Xalq Respublikasının sədri Tszyan Tszeminin, İspaniya kralı birinci Xuan Karlosun, Polşa prezidenti Aleksandr Kvasnevskinin, Finlandiya prezidenti Marti Ahtisaarinin salamlarını və xoş arzularını böyük məmnuniyyətlə qəbul edirəm. Rica edirəm ki, mənim səmimi salamlarımı və xoş arzularımı ölkələrinizin başçılarına çatdırasınız.

Çin Xalq Respublikasına rəsmi səfərimi, cənab Tszyan Tszeminlə apardığımız danışıqları və ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün imzaladığımız sənədləri böyük məmnuniyyətlə xatırlayıram.

NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin 8-9 iyulunda Madriddəki zirvə görüşündə kral birinci Xuan Karlos ilə, Baş nazirlə keçirdiyim görüşləri, apardığımız çox səmərəli danışıqları və İspaniya ilə əlaqədar gözəl təəssüratlarımı da həmişə məmnuniyyətlə xatırlayıram.

Polşa prezidenti cənab Kvasnevski ilə bir neçə dəfə görüşlərim olmuşdur. Xüsusən cənab Kvasnevskinin dəvəti ilə mənim Polşaya rəsmi səfərim zamanı danışıqlarımız, söhbətlərimiz və imzaladığımız sənədlər Polşa ilə Azərbaycan arasındakı əlaqələrin inkişafı üçün böyük bir mərhələ açmışdır. Mən ümidvaram ki, bu sənədlərin icra olunması nəticəsində bizim əməkdaşlığımız, dostluğumuz daha da genişlənəcəkdir.

Finlandiya ilə Azərbaycan arasındakı əməkdaşlıq bizim tərəfimizdən müsbət qiymətləndirilir. Finlandiyanın prezidenti cənab Ahtisaari ilə mənim beynəlxalq təşkilatların toplantılarında çox əhəmiyyətli görüşlərim və danışıqlarım olmuşdur. Ermənistan- Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün yaradılmış Minsk qrupunun həmsədri kimi Finlandiyanın 1997-ci ilin əvvəlinə qədərki fəaliyyətini biz yüksək qiymətləndiririk. Mən həmin illərdə bizim ölkələrimizin səmərəli və geniş əməkdaşlığını məmnuniyyətlə xatırlayıram. Bu günlərdə Finlandiya Seyminin böyük nümayəndə [240-241] heyəti Azərbaycanda olmuşdur. Biz çox səmərəli və əhəmiyyətli danışıqlar aparmışıq.

Azərbaycan ilə sizin təmsil etdiyiniz ölkələr arasındakı əlaqələr yaxşı səviyyədədir. Mən bunu yüksək qiymətləndirirəm. Ancaq qarşıda hələ çox işlər durur. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizin səfirlik fəaliyyətiniz qarşıda duran işlərin həyata keçirilməsinə kömək edəcəkdir, biz əməkdaşlığımızı genişləndirəcək və inkişaf etdirəcəyik. Azərbaycan ilə Çin Xalq Respublikası, İspaniya, Polşa və Finlandiya arasındakı əlaqələr daha da yüksəklərə qalxacaqdır. Mən bunun üçün sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Hər birinizə cansağlığı, səadət diləyirəm. Sağ olun. [241]

## TÜRKİYƏDƏ LAYİQ GÖRÜLDÜYÜ «DƏDƏ QORQUD», «İNSAN HAQLARI» MÜKAFATLARININ, «İPƏK YOLU» VAQFININ FƏXRİ ÜZVÜ DİPLOMUNUN VƏ MÜKAFATININ TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident sarayı*

*5 sentyabr 1998-ci il*

«Dədə Qorqud» mükafatı mənim üçün əzizdir. Çünki Dədə Qorqud bizim hamımızın babamızdır, atamızdır. Azərbaycanda Dədə Qorqud adı hamı üçün əzizdir. Türkiyədə məlumdur ki, mən «Dədə Qorqud» dastanının, əfsanəsinin 1300 illik yubileyini keçirmək məqsədi ilə mühüm qərarlar qəbul etmişəm, yubiley komissiyası təşkil olunubdur. Biz bunu YUNESKO ilə birlikdə beynəlxalq səviyyədə keçirəcəyik: Bayqurtluların bu təşəbbüsləri bizim hamımızın müştərək işimizin bir hissəsidir. Onların Dədə Qorqud simasını bu heykəldə əks etdirməsi və bu mükafatı mənə verməsi mənim üçün çox əhəmiyyətlidir.

Azərbaycanda insan haqlarının qorunması həm dövlətin, həm də ictimaiyyətin fəaliyyətində əsas yer tutur, demokratik, hüquqi, dünyəvi dövlət quran Azərbaycanda insan haqlarının qorunması sahəsində çox işlər görülmüşdür, ölkəmizdə ölüm hökmünün ləğv olunması bu sahədə çox ciddi və dəyərli bir addım kimi qiymətləndirilir. İnsan haqları ilə əlaqədar 1948-ci ildə qəbul olunmuş bəyannamənin 50 illik yubileyinin [242-243] BMT tərəfindən keçirilməsində Azərbaycan da iştirak etmiş və bu barədə ölkəmizdə bir çox tədbirlər görülmüşdür. Bu sahədə görülən işlərə İzmirdə verilən yüksək qiymətə görə minnətdarlığımı bildirirəm.

Qədim Böyük İpək yolunun bərpası tarixi hadisə olmuşdur. Bunun üçün Azərbaycanda xeyli iş görüldüyünü nəzərə çarpdırmaq istəyirəm. Azərbaycan İpək yolu xəttində mühüm yer tutur. Keçmişdə Böyük İpək yolu mövcud olan zaman Azərbaycan burada öz əhəmiyyətli rolunu oynayıbdır. Bu gün onun bərpasında da Azərbaycan fəal iştirak edir.

Bu sahədə görülən işlər dünyada məlumdur. Azərbaycanın təşəbbüsü ilə Avropa Komissiyası ilə birlikdə sentyabrın 7-8-də Bakıda Böyük İpək yolunun bərpasına dair beynəlxalq konfrans keçiriləcəkdir. Bu tədbirin yüksək səviyyədə keçəcəyinə ümidvar olduğumu bildirirəm. Bunun üçün xeyli hazırlıq işləri görüldüyünü və konfransda mühüm sənədlər qəbul ediləcəyini vurğulayıram.

Türkiyənin «İpək yolu» Vaqfı bu sahədə Azərbaycanda görülən işlərə diqqət yetirdiyinə və məni bu münasibətlə mükafatlandırdığına görə təşəkkür edirəm. Mən bu mükafatı məmnuniyyətlə qəbul edirəm. Bunlar, yəni mənim fəaliyyətimə göstərilən bu qayğı, diqqət Türkiyə ilə Azərbaycan arasında əlaqələrin inkişaf etməsinə bundan sonra da xidmət edəcəkdir və bu sahədə bizim müştərək işlərimiz üçün çox böyük əhəmiyyətə malikdir. Rica edirəm ki, Bayqurt və İzmir bələdiyyələrinin rəhbərlərinə, İpək yolu Vaqfının nümayəndələrinə və bütün Türkiyə vətəndaşlarına minnətdarlığımı, salamımı, ən xoş arzularımı, hörmət və ehtiramımı çatdırasınız. [243]

## BAKININ BİNƏ HAVA LİMANINDA TARİXİ BÖYÜK İPƏK YOLUNUN BƏRPASI ÜZRƏ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMƏK ÜÇÜN AZƏRBAYCANA GƏLƏN DÖVLƏT BAŞÇILARININ VƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN QARŞILANMASINDAN ƏVVƏL ÖLKƏMİZİN VƏ XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ MÜXBİRLƏRİNİN SUALLARINA CAVAB

*7 sentyabr 1998-ci il*

**S u a l: Cənab prezident, Böyük İpək Yolu Ukrayna ərazisindən keçməyəcəkdir. Sizin bu layihənizin Ukrayna dövləti üçün nə kimi faydası ola bilər?**

**C a v a b:** Nə üçün deyirsiniz ki, keçməyəcək?

**M ü x b i r: Mən xəritədə baxmışam.**

**H e y d ə r Ə l i y e v:** Xəritəni istənilən kimi çəkmək olar. Əvvəla, Ukrayna TRASEKA proqramına qoşulmuşdur. Tarixi İpək Yolunu isə məhz 1993-cü ildə qəbul olunmuş TRASEKA proqramı əsasında bərpa etmək planlaşdırılır. Ukrayna bu proqrama fəal qoşulub və zənnimcə, çox istəyir ki, Böyük İpək yolunun iştirakçısı olsun. Bunun üçün bütün imkanlar var.

**S u a l: Azərbaycan və TRASEKA-nın iştirakçısı olan digər ölkələr bugünkü konfransdan nə kimi siyasi, iqtisadi mənfəət götürəcəklər?**

**C a v a b:** Bilirsiniz, beş ildən bəri həyata keçirilən TRASEKA proqramı öz faydasını verir. Kommunikasiya xətləri, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, magistralı [244-245] yaradılmışdır. Bunun özü iqtisadi fayda gətirir. O ki qaldı siyasi mənfəətə, biz bir-birimizlə nə qədər çox əməkdaşlıq etsək, əlaqə saxlasaq, o qədər çox tərəfdaş olacağıq və bu, bir o qədər də siyasi fayda gətirəcəkdir. Ən başlıca siyasi fayda isə sülhü, sabitliyi, dövlətlər arasında qarşılıqlı anlaşmanı təmin etməkdən ibarətdir. Bütün bunlar hamısı birlikdə həm iqtisadi, həm də siyasi faydaları təşkil edir.

**S u a l: Cənab prezident, bildiyiniz kimi, Ermənistanın Baş naziri də bu tədbirə qoşulacaqdır. Mümkünsə, deyin, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə bunun bir köməyi ola bilərmi?**

**C a v a b:** Birincisi, Ermənistan TRASEKA proqramının qəbulunda iştirak etmiş ölkələrdən biridir. 1993-cü ildə Brüsseldə Qafqaz və Mərkəzi Asiya ölkələri TRASEKA proqramını tərtib ediblər. Ona görə də Ermənistanın bu konfransda iştirak etməyə hüququ var.

İkincisi, biz Ermənistanla Azərbaycan arasında olan münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Bunun üçün də iki ölkə arasında düşmənçilik əhval-ruhiyyəsindən qarşılıqlı inam əhval-ruhiyyəsinə keçmək lazımdır. Qarşılıqlı inam olmasa, bu məsələnin sülh yolu ilə həlli də çətin ola bilər. Doğrudur, ötən on ildə biz böyük yaralar almışıq, bizə çox böyük zərbələr dəyibdir. Qurbanlar vermişik, qan tökülüb, torpaqlarımız işğal olunubdur. İşğal edilmiş torpaqlar viran olunub, bərbad vəziyyətdədir.

Bunlar hamısı məlumdur. Ancaq irəliyə baxmaq lazımdır. İrəliyə baxmaq üçün də düşünmək lazımdır ki, iki qonşu ölkə bir-biri ilə daim düşmənçilik münasibətlərində yaşaya bilməz. Dünyanın bütün ölkələrini, Avropa ölkələrini götürün. Fransa ilə Almaniya yüz il müharibə etdilər, indi dost ölkələrdir. Yaxud, Rusiya, Avropanın bir çox ölkələri Almaniya ilə müharibə etdilər, nə qədər qurbanlar verildi, insanlar həlak oldu, şəhərlər dağıldı. İkinci dünya müharibəsində Sovetlər [245-246] İttifaqından 27 milyon adam həlak oldu. Təkcə Azərbaycandan cəbhəyə 600 min adam səfərbər edilmişdi, onlardan 300 mini qayıtmadı. Amma görürsünüz, indi Almaniya ilə Rusiya, keçmiş Sovetlər İttifaqına mənsub olmuş digər ölkələr arasında əməkdaşlıq, dostluq əlaqələri var. Bu həyatdır, ona görə irəliyə baxmaq lazımdır.

**S u a l: Cənab prezident, Sizin ikitərəfli görüşlərinizdə Azərbaycan neftinin dünya bazarlarına nəqlinin marşrutları müzakirə ediləcəkmi?**

**C a v a b:** Bilirsiniz, bu elə mövzudur ki, biz onu daim müzakirə edirik. Bu, tükənən mövzu deyildir.

**S u a l: Ekspertlər bildirirlər ki, Azərbaycan neftinin ixracından hiss ediləcək gəlir yeddi ildən sonra götürüləcəkdir. Sizin fikriniz, proqnozunuz necədir, - Azərbaycanın bugünkü tarixi tədbirdə iştirakının faydasını sadə vətəndaşlar nə vaxt hiss edəcəklər?**

**C a v a b:** Bilirsiniz, sadə Azərbaycan vətəndaşı buna çox açıq gözlə, obyektiv baxmalıdır. Sadə Azərbaycan vətəndaşı tədricən fayda götürür. Belə təsəvvür etmək olmaz ki, elə bir gün yetişəcək, sadə Azərbaycan vətəndaşına göydən, yaxud kimdənsə içərisində, nə bilim, nə qədərsə pul, yağ və digər şeylər olan bağlama gələcəkdir. Bilirsiniz, indi biz nə ediriksə, hər ay sadə Azərbaycan vətəndaşına praktiki olaraq xeyir gətirir. Bu reallıqdır. Siz ətrafa nəzər salın, görün beş il, üç il əvvəl necə idi. Rusiyada rublun vəziyyətinə baxın. Bir dollar 6 rubl idi, indi təxminən 20 rubla qalxmışdır. Azərbaycanda vəziyyət necədir? Manat sabitdir. 1994-cü ildə inflyasiya 1600 faiz idi, indi isə inflyasiya yoxdur. Rusiyada baş verənlər bizi çox narahat edir – bu, Azərbaycana da mənfi təsir göstərə bilərdi. Biz tədbirlər gördük, bunun qarşısını aldıq, yol vermədik. Bax, bu, Azərbaycan vətəndaşının götürdüyü konkret, praktiki faydadır. [246-247]

İslahatlar keçirilir, iqtisadiyyat inkişaf edir. Ötən illərdə sənaye və kənd təsərrüfatı istehsalı hər il 10,15,20,25 faiz aşağı düşürdü. İndi isə təkcə son səkkiz ayda sənayedə artım 0,9 faiz olmuşdur. Bu, az olsa da, hər halda artımdır, azalma deyildir. Yaxud, ümumi daxili məhsul 9 faiz artıbdır. Dünən mən Almaniya nümayəndə heyətini qəbul etmişəm. Onlar srağagün Nauman fondu çərçivəsində seminar keçirmişlər. Yeri gəlmişkən, orada müxtəlif xüsusi, qeyri-dövlət strukturlarının, habelə bir çox partiyaların, o cümlədən müxalifət partiyalarının nümayəndələri, mənim müşavirim, professor Axundov da iştirak etmişdir. Orada konkret rəqəmlər gətirilmişdir. Almaniya nümayəndə heyətinin başçısı mənə dedi ki, Azərbaycanda gedən müsbət dəyişiklikləri məmnunluqla qarşılayırıq. Bu, hər gün, yavaş-yavaş baş verir, - iqtisadiyyatda sıçrayışlar ola bilməz.

O ki qaldı neftə, hərə öz bildiyi kimi hesablayır. Bizim isə öz hesablamalarımız var. Hər bir ekspert özü düşündüyü kimi danışır. Bizim konkret planlarımız, proqnozlarımız var. Neft və qaz yataqlarının işlənilməsinə dair proqramı ardıcıl həyata keçirərək iqtisadiyyatın və xalqın rifah halının yüksəlişini təmin edəcəyik. Bir neçə gün bundan əvvəl, «İstiqlal» adı verdiyimiz üzən qazma qurğusunun işə salınması münasibətilə təntənəli mərasim keçirilmişdir. Siz orada iştirak etmiş, televiziya ilə görmüsünüz. 17 ay ərzində bu qurğunun bərpasına, yenidən qurulmasına, modernləşdirilməsinə 200 milyon dollar xərclənmişdir. Həmin 200 milyon dolların xeyli hissəsi müxtəlif işlərdə iştirak edən Azərbaycan vətəndaşlarına, sakinlərinə çatmışdır. Digər tərəfdən də Azərbaycana 200 milyon dollar vəsait qoyulmuşdur. Həmin qurğu «Şahdəniz» yatağında quyu qazmağa aparılmışdır. Biz hər bir quyudan neft alacağıq. Bütün bunlar bir-biri ilə bağlı olan prosesdir.

Yaxud, bizim neft şirkətinin gəmi təmiri zavodunu götürək. Bərbad vəziyyətə düşmüşdü, onu bərpa etməyə imkanı[247-248]mız yox idi. Həmin gəmi təmiri zavodunu bərpa etmək üçün 13 milyon dollar xərclədilər. Bərpa etdilər, indi digər qurğular da bərpa olunacaq, gəmilər təmir ediləcəkdir.

Əgər televiziya ilə baxmısınızsa, yaxud orada olmusunuzsa, bilərsiniz – zavodda üç böyük kran var. Onlar işləmirdi. Həmin kranları bərpa etdilər, qaydaya saldılar.

«İstiqlal» qazma qurğusu nədir? O, ən yüksək dünya səviyyəli qurğudur. Mən Norveçdə səfərdə olarkən vertolyotla Stavangerdən təxminən 260 kilometr aralıda – Şimal dənizində yerləşən «Sleypner» platformasına getmişdik. Orada ildə 6 milyard kubmetr qaz çıxarılır və mənə dedilər ki, birbaşa Avropaya- Fransaya göndərilir. Biz həmin platformanı görəndə heyran qaldıq. İndi bizim ona bənzər «Çıraq-1» platformamız var. Təsəvvür edirsinizmi, suyun 700 metr dərinliyində quyu qaza bilən «İstiqlal» üzən qazma qurğumuz var. Suyun 700 metr dərinliyində quyu qazmağın mümkünlüyünü təsəvvürə gətirmək belə çətin idi. O, nəhəng bir qurğudur. Bax, bu, praktiki faydadır.

Mən qurğuda azərbaycanlılarla – mütəxəssislərlə, sadə fəhlələrlə söhbət etdim. Soruşdum ki, nə qədər maaş alırsan. Dedi ki, 2 milyon 600 min manat. Dollara çevirin, görün nə qədər olur. 2 milyon 600 min manat da sanballı səslənir. Adi işçi bu qədər alır. Buyur, bu da bizim iqtisadi faydamız və hər bir Azərbaycan vətəndaşı üçün konkret xeyir. Ona görə də siz başa düşün, - bu, elə prosesdir ki, hər gün faydasını verir.

Biz 15 müqavilə imzalamışıq. Bunların hamısı işləyir. Hər bir müqavilə üzrə investisiyalar gəlir. Təkrar edirəm, «Şahdəniz» yatağına dair müqaviləni 1996-cı il iyunun 4-də imzalamışıq. İki ildən sonra isə orada «Dədə Qorqud» qurğusu quyu qazır. Bir neçə gün bundan əvvəl isə yeni qazma qurğusunu istifadəyə verdik və o, orada quyu qazacaqdır. Həmin qurğu təkcə orada quyu qazmayacaq, Xəzər dənizində əsas qurğu olacaqdır. Xəzərdə öz yataqlarından istifadə [248-249] etmək istəyən digər sahilyanı dövlətlərin belə imkanları yoxdur, onlar bizə müraciət edəcəklər. Hazırda geofiziki, seysmik tədqiqatları bizə, Azərbaycana məxsus olan gəmi aparır. Onu «LUKoyl» neft şirkəti modernləşdirib müasir səviyyəyə çatdırmışdır. O həm Qazaxıstan, həm İran, həm Türkmənistan, həm də Rusiya üçün geofiziki işlər görür. Onda 600 nəfər işləyir və çox yüksək əmək haqqı alırlar. Bax, bu da konkret fayda. Kifayətdirmi?

**S u a l**: **Böyük İpək yolunun bərpasında Çinin rolu haqqında nə deyə bilərdiniz**?

**C a v a b**: Böyük İpək yolu Çindən başlayıb, elədirmi? Nə üçün İpək yolu adlandırıblar? Ona görə ki, Çində hələ qədimdən, eramızdan əvvəl ipək istehsal edir və Avropaya aparırdılar. Həmin Böyük İpək yolu ilə aparırdılar. Əlbəttə, indi Çinin bir çox başqa nəqliyyat kommunikasiyaları var. Amma mən hesab edirəm ki, bərpa olunacaq bu yol da Çinə fayda gətirəcəkdir.

**S u a l**: **Cənab prezident**, **sabah konfransın yekunlarına dair saziş imzalanacaqdır**. **Onun əhəmiyyətini şərh edərdinizmi**?

**C a v a b**? Əhəmiyyəti çox böyükdür, çünki belə saziş ilk dəfə imzalanacaqdır. Bunun özü onu göstərir ki, sazişin məzmunu nəqliyyat xəttinin gələcək inkişafı və Böyük İpək yolunun bərpası üçün yaxşı şərait yaradır.

**S u a l**: **Saziş yüklərin təhlükəsiz daşınmasına təminatı nəzərdə tuturmu**?

**C a v a b**: Şübhəsiz, orada hər şey nəzərdə tutulur.

**S u a l**: **Heydər Əliyeviç**, **TRASEKA Rusiyanı faktiki olaraq kənarda qoyur**. **Bu**, **münasibətləri kəskinləşdirməzmi**?

**C a v a b**: Nə üçün kənarda qoyur? Biz Rusiyanı dəvət etmişik və Rusiya konfransda iştirak edir.

**M ü x b i r**: **Müşahidəçi kimi iştirak edir**.

**H e y d ə r  Ə l i y e v**: Bilirsiniz, kimin müşahidəçi, kimin qeyri-müşahidəçi olması barədə status yoxdur. Hamı [249-250] konfransın iştirakçılarıdır. Biz Rusiya ilə münasibətlərin kəskinləşməsinə heç vaxt yol verməik.

**S u a l**: **Ermənistanın Baş naziri ilə görüşdə münaqişənin həlli yolları müzakirə olunacaqmı**?

**C a v a b**: Baxaq görək, imkan dairəsində danışıqlar aparılacaqdır. [250]

## BAKIDA
## «İSR PLAZA» OFİS-OTELİNİN
## AÇILIŞI MƏRASİMİNDƏ* NİTQ

*7 sentyabr 1998-ci il*

Əziz dostumuz, qardaşımız, hörmətli qonağımız, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl!

Hörmətli qonaqlar, dostlar!

Hörmətli Bakı şəhərinin sakinləri!

Bu gün Azərbaycanda əlamətdar bir hadisə baş verir. Azərbaycan, Bakı Böyük İpək yolunun bərpa olunması ilə əlaqədar keçiriləcək beynəlxalq konfrans ərəfəsindədir və Azərbaycana Avropa, Asiya dövlətlərinin, hökumətlərinin rəhbərləri, nümayəndə heyətləri gəlir və gəlməkdədir. Bir çox beynəlxalq təşkilatların nümayəndələri artıq Bakıya gəliblər.

Sabah Azərbaycanda böyük bir konfrans keçirilir. Böyük iftixar hissi ilə qeyd edirəm ki, bu konfrans Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra respublikamızda keçirilən ilk böyük beynəlxalq konfransdır. Bu konfransın Azərbaycanda keçirilməsi beynəlxalq aləmin, təşkilatların, Avropa, Asiya, Qafqaz ölkələrinin Azərbaycana olan münasibətini parlaq surətdə nümayiş etdirir.

Bizim hamımızı sevindirən bir də odur ki, biz bu gün əziz dostumuz, qardaşımız, Türkiyənin prezidenti cənab Süleyman Dəmirəli qarşılayırıq. Buraya gəlməklə hörmətli cənab Süleyman Dəmirəl bu konfransın işinə çox böyük əhəmiyyət verib və hesab edirəm ki, onun, Türkiyə Cümhuriyyəti [251-252] nümayəndə heyətinin bu konfransda iştirak etməsi bu tədbirin daha da uğurlu olmasını təmin edəcəkdir.

Əziz dostumuz, qardaşımız, yenidən Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Mən sizi bütün Azərbaycan xalqı adından, Bakı şəhərinin vətəndaşları adından ürəkdən salamlayıram.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq əlaqələri sarsılmaz tellərlə bağlıdır. Bunlar son illər daha da möhkəmlənib, yüksəlib və əbədi olubdur. Biz Azərbaycanda Türkiyə ilə dostluğumuzu xüsusi qiymətləndiririk, ona xüsusi əhəmiyyət veririk və bu dostluğumuzun əbədi olaraq davam etməsinə inanırıq.

Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra Türkiyə Azərbaycana hər cür yardım edib və bu gün də edir, sabah da edəcəkdir.

Dünən Azərbaycanın Azadlıq meydanına Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları üçün Türkiyənin «Qızıl Ay» cəmiyyəti tərəfindən yardım karvanı gətirilibdir. 15 böyük yük maşını gəlibdir. Dünən Azərbaycanın vətəndaşları televiziya vasitəsilə gördülər. Bunlar Türkiyədən gəlibdir. Bunlar qardaş yardımıdır. Bunlar humanitar yardımdır, Azərbaycanın işğal olunmuş torpaqlarından didərgin düşmüş insanlara gətirilmiş yardımdır. Bu yardımlar keçmişdə də olubdur. Bu gün «Qızıl Ay» cəmiyyəti yenidən bu yardımı edibdir. Ümidvarıq ki, bu, gələcəkdə də davam edəcəkdir. Bu yardımlara, Azərbaycanı bütün işlərdə dəstəklədiklərinə görə Türkiyə xalqına, cümhuriyyətinə, hökumətinə və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirələ minnətdarlığımızı, təşəkkürümüzü bildirirəm.

Biz son illər Türkiyə-Azərbaycan əməkdaşlığının çox nümunələrinin şahidi olmuşuq. Onlardan biri də bu gün təntənəli açılışı olan ofis-otel binasıdır. Bu binanın inşa edilməsi [252-253] və bu gün istifadəyə verilməsi Azərbaycanın həyatında əlamətdar hadisədir. Birinci ona görə ki, Bakı şəhərini yeni bir gözəl memarlıq abidəsi və Azərbaycanın bu günü, gələcəyi üçün çox lazım olan bina bəzəyibdir. İkinci də ona görə ki, Azərbaycanda gedən iqtisadi islahatlar, sərbəst iqtisadiyyatın inkişafı, iş adamlarının sərbəst iş görmək imkanı əldə etməsi nəticəsində bu binanı özəl şirkət tikib, sərmayə qoyub, inşa edibdir və özü də bundan istifadə edəcəkdir. Bu, gözəl bir hadisədir.

Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra iqtisadi islahatlar aparır, iqtisadiyyatı bazar münasibətləri yolu ilə inkişaf etdirməyə çalışır. Bizim bu sahədə nailiyyətlərimiz çoxdur. Ancaq gələcəkdə görüləcək işlərimiz də çoxdur. Özəlləşdirmə proqramı, torpaq islahatı, torpağın şəxsi mülkiyyətə verilməsi tədbirləri həyata keçirilir. Eyni zamanda biz respublikamızda sahibkarlar təbəqəsi yaradırıq. Sahibkarların, iş adamlarının sərbəst fəaliyyəti, öz vəsaitindən istədiyi kimi istifadə etməsi, sərmayə qoyması, mənfəət götürməsi üçün imkanlar yaratmışıq. Bunu qanunlar təmin edir və biz bütün tədbirlərimizlə onları belə işlər görməyə həvəsləndiririk. Belə sahibkarlardan biri də bu ofis-oteli tikib yaradan şirkətlər qrupudur. Bu otelin məhz burada, Bakının mərkəzi nöqtələrindən birində tikilməsi də Azərbaycanda sahibkarlığa, sərbəst iqtisadiyyata olan diqqətin, qayğının təzahürüdür.

---

* Ofis-otelin açılış mərasimində Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl də iştirak etmiş və nitq söyləmişdir.

Bir daha qeyd edirəm, bu ofis-otelin tikilməsi Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığının nümunəsidir. Bu binanın Türkiyə şirkəti tərəfindən tikilməsi və yüksək səviyyədə inkişaf etdirilməsi onu göstərir ki, bizim əməkdaşlığımız öz əməli nəticəsini verir.

Mən əminəm ki, bu ofis-otel Azərbaycana, iş adamlarına, respublikamıza gələn qonaqlara dəyərli xidmətlər göstərəcəkdir və öz fəaliyyəti, nümunəsi ilə Azərbaycanda sərbəst iqtisa[253-254]diyyatın, bazar münasibətlərinin, sərbəst sahibkarlığın inkişafına kömək edəcəkdir.

Mən bu ofis-oteli tikib yaradan Türkiyənin İnşaat Şirkətinə gördüyü işə görə gələcək işlərində uğurlar arzulayıram.

Əziz dostumuz, qardaşımız hörmətli Süleyman Dəmirəl!

Azərbaycan vətəndaşlarının sizinlə hər bir görüşü bayrama çevrilir. Görürsünüz, buraya nə qədər insan toplaşıbdır. Bunların hamısı sizi görmək, salamlamaq üçün gəlib. Çünki siz həm Türkiyə Cümhuriyyəti, həm Azərbaycan Respublikası üçün, həm də türk dünyası üçün çox böyük işlər görmüş, xidmətlər göstərmiş adamsınız. Biz sizi hər dəfə görəndə sevinirik, sizi daim bağrımıza basırıq, qardaş kimi qəbul edirik. Bu gün bir daha Azərbaycan xalqının, respublikasının bütün vətəndaşlarının hörmət və ehtiramını sizə izhar edirəm. Sizə cansağlığı, uzun ömür, gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram. [254]

## TARİXİ İPƏK YOLUNUN BƏRPASI ÜZRƏ BAKIDA BEYNƏLXALQ KONFRANSDA* GİRİŞ SÖZÜ

*«Gülüstan» sarayı*

*8 sentyabr 1998-ci il*

Hörmətli dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri!

Xanımlar və cənablar!

Sizi, tarixi Böyük İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın iştirakçılarını səmimi salamlayıram.

Avropa Birliyi Komissiyası ilə birlikdə belə mötəbər məclisin təşkilatçısı olmaq Azərbaycan Respublikası üçün böyük şərəfdir.

Konfransımız yeni müstəqil dövlətlərə kömək edilməsi sahəsində Avropa Birliyinin göstərdiyi səmərəli səylərin nəticəsidir. Həmin köməyin bünövrəsini 1991-ci ildə təsis edilmiş TASİS proqramı qoymuşdur. TASİS-in milli və dövlətlərarası proqramları çərçivəsində bir çox mühüm layihələr həya[255-256]ta keçirilir və bunlar yeni müstəqil dövlətlərdə demokratik islahatlar, bazar islahatları aparılmasına kömək göstərir.

Belə layihələrdən biri də 1993-cü ilin mayında qəbul olunmuş «Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi (TRASEKA)» proqramıdır. Avropa Birliyi Komissiyasının təklifi ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Tacikistan, Türkmənistan, Özbəkistan nümayəndələrinin Brüsseldə görüşü olmuş və bu görüşdə regionun nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı məsələlər müzakirə edilmişdir.

Brüssel bəyannaməsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əhəmiyyətini, onun inkişaf etdirilməsi sahəsində əməkdaşlığın konkret istiqamətlərini, forma və mexanizmlərini müəyyənləşdirmiş ilk beynəlxalq sənəd olmuşdur.

O vaxtdan bəri TRASEKA-nın işçi qruplarının Almatıda, Vyanada, Venesiyada, Afinada və Tbilisidə beş iclası keçirilmiş və bu iclaslarda mövcud nəqliyyat strukturlarının modernləşdirilməsinə və yeni obyektlərin tikilməsinə dair bir çox layihələr qəbul edilmiş və artıq qismən yerinə yetirilmişdir. Ukrayna və Monqolustan TRASEKA proqramının tam hüquqlu iştirakçıları olmuşlar.

TRASEKA proqramının uğurla həyata keçirilməsi, Avropa Birliyi Komissiyasının və iştirakçı ölkələrin gördükləri böyük iş, əməkdaşlığımızın konkret müsbət nəticələri daha genişmiqyaslı layihələr işlənib hazırlanmasına təkan vermişdir. Tarixi Böyük İpək Yolunun bərpası bu layihələr arasında başlıca yer tutur.

Bununla əlaqədar olaraq, Avropa Birliyi Komissiyası və TRASEKA proqramının iştirakçısı olan ölkələr bu gün açdığımız Bakı beynəlxalq konfransının keçirilməsi haqqında qərar qəbul etmişlər.

Konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndə heyətləri iştirak edirlər. [256-257]

Əminəm ki, tarixi Böyük İpək Yolunun bərpası məsələlərinin müzakirəsi, konfransımızın nəticələri və yekunları milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edəcəkdir.

İcazə verin, konfransımızın hazırlanması, imzalanmağa təqdim olunmuş sənədlərin işlənib hazırlanması və razılaşdırılması üçün gördüyü böyük işə görə TRASEKA-nın işçi qrupuna təşəkkür edim.

Konfransın təşkilində köməyinə görə, demokratik islahatların, bazar islahatlarının aparılmasında, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində yeni müstəqil dövlətlərə böyük maliyyə yardımı və texniki yardım göstərdiyinə görə Avropa Birliyi Komissiyasına təşəkkür edirəm.

Dəvətimizi qəbul edib, Bakı şəhərinə gəlmiş bütün konfrans iştirakçılarına təşəkkürümü bildirirəm, onlara qonaqpərvər Azərbaycan torpağında uğurlu iş arzulayıram.

Hörmətli dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar!

Bəşər sivilizasiyasının tarixində yollar, nəqliyyat xətləri həmişə çox böyük rol oynayaraq, həyatın bütün sahələrinə – siyasətə, iqtisadiyyata, mədəniyyətə təsir göstərmişdir. Bunun parlaq nümunələrindən və rəmzlərindən biri də bir çox ölkələrin və xalqların minillik tarixini, Çinin qədim mədəniyyətini,

---

* Konfransda Azərbaycan, Avstriya, Belçika, Bolqarıstan, Macarıstan, Böyük Britaniya, Almaniya, Yunanıstan, Gürcüstan, İran, İspaniya, İtaliya, Qazaxıstan, Çin, Qırğızıstan, Moldova, Ermənistan, Monqolustan, Niderland, Norveç, Polşa, Rusiya, ABŞ, Tacikistan, Türkiyə, Rumıniya, Ukrayna, Özbəkistan, Finlandiya, Fransa, İsveç, Yaponiya, Birləşmiş Millətlər Təşkilatının, Avropa Birliyi Komissiyasının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, İqtisadi Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Dəniz Təşkilatının, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Avtomobil Nəqliyyatçıları İttifaqının, Avropa Nəqliyyat Nazirləri Konfransının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, Dəmir Yollarının Əməkdaşlığı Təşkilatının nümayəndə heyətləri iştirak edir.

avropalıların böyük coğrafi kəşflərini, orta əsr müsəlman intibahının nailiyyətlərini və bir sıra digər cəhətləri ehtiva etmiş qlobal, nadir hadisə olan Böyük İpək Yoludur.

Azərbaycan əzəldən Böyük İpək Yolunda mühüm məntəqə olmuş, Avropa ilə Asiya arasında özünəməxsus körpü rolu oynamışdır. Qafqaz, Xəzər dənizi və Qara dəniz hövzələri ölkələri inkişaf etmiş ticarət, qarşılıqlı mədəni zənginləşmə, dini dözümlülük zonasını təşkil edərək, Böyük İpək Yolunun özgür tərkib hissələrindən biri olmuşlar. [257-258]

Bəşər tarixinin ayrılmaz tərkib hissəsi kimi Böyük İpək Yolu yüksəliş və tənəzzül dövrləri keçirmişdir. Müharibələr, ideoloji və coğrafi-siyasi qarşıdurmalar, ayırıcı xətlər dövrləri başlandıqdan sonra bu yol həyatımızdan yox olaraq, gözəl bir əfsanəyə çevrilmişdi.

Lakin «soyuq müharibə» qurtardı, xalqlar müstəqillik əldə etdilər, ümumbəşəri dəyərlər, demokratik normalar, inteqrasiya prosesləri dünya siyasətində üstün yer tutdu və Böyük İpək Yolu ideyasını tarixin gedişinin özü yenidən zəruri etdi.

Avropa Birliyi Komissiyasının uzaqgörən qərarını lazımınca qiymətləndirmək gərəkdir. Bu komissiyanın təşəbbüsü ilə 1993-cü ilin mayında Brüsseldə Qafqaz və Mərkəzi Asiya dövlətlərinin milli və beynəlxalq nəqliyyat, ticarət kommunikasiyalarının inkişafı strategiyasının müzakirəsinə həsr edilmiş xüsusi görüşü oldu.

Həmin görüşdə təsis edilmiş «Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizi» proqramı Avrasiya məkanında həyata keçirilən ən dinamik, iqtisadi cəhətdən ən səmərəli layihələrdən biri oldu.

Proqramın iştirakçısı olan ölkələrin sıx əməkdaşlığı, Avropa Birliyi Komissiyasının fəal köməyi sayəsində ötən beş ildə kommunikasiya obyektlərinin modernləşdirilməsi və tikintisi, müvafiq qanunların və məcəllələrin işlənib hazırlanması, kadrlar hazırlanması, gömrük və tarif siyasətlərinin təkmilləşdirilməsi sahəsində böyük iş görülmüşdür.

Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan arasında tranzit daşımaların tənzimlənməsi haqqında 1996-cı ilin mayında Türkmənistanın Sərəxs şəhərində saziş imzalanması bu proqramın inkişafı üçün mühüm hadisə oldu. Sonralar bu sazişə başqa dövlətlər də qoşuldular. Həmin saziş sayəsində tariflər 50 faiz azaldılmış, gömrük qaydaları sadələşdirilmiş, daşımaların təhlükəsizliyi və qorunması təmin edilmişdir. Bunun nəticəsində son illərdə Transqafqaz dəhlizi [258-259] vasitəsilə Avropa və Asiya arasında mal mübadiləsinin həcmi, demək olar, on dəfə artmışdır.

TRASEKA proqramının uğurla həyata keçirilməsi əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldırmaq üçün, yəni tarixi Böyük İpək yolunun bərpasına dair proqram qəbul etmək üçün zəmin yaratmışdır və konfransımız da buna həsr olunmuşdur.

TRASEKA-nın işçi qrupunun hazırladığı «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş», onun texniki əlavələri, Bakı bəyannaməsi çox böyük iqtisadi, siyasi, tarixi əhəmiyyətə malikdir.

Onların qəbul olunması Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionlarında ticarətin inkişafına, təbii ehtiyatlardan istifadəyə və onların nəqlinə, qarşılıqlı surətdə faydalı əməkdaşlığa kömək edəcəkdir.

Tarixi Böyük İpək yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, bu dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılması üçün güclü təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir.

Böyük İpək Yolu keçmişdən başlansa da, gələcəyə doğru gedən yoldur. Mən inanıram ki, əgər biz əməkdaşlıq edə-edə, bir-birimizə hörmət bəsləyərək və bir-birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır.

Diqqətinizə görə təşəkkür edirəm. [259]

## TARİXİ İPƏK YOLUNUN BƏRPASI ÜZRƏ BEYNƏLXALQ KONFRANSDA SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA YEKUN NİTQİ

*«Gülüstan» sarayı*

*8 sentyabr 1998-ci il*

Hörmətli dövlət başçıları, nümayəndə heyətlərinin rəhbərləri, konfrans iştirakçıları!

Tarixi Böyük İpək Yolunun bərpası üzrə Bakı beynəlxalq konfransı öz işini başa çatdırdı.

Konfransın işinin başa çatması və əsas sənədlərin – əsas sazişin, Bakı Bəyannaməsinin və ümumi rəsmi məlumatın imzalanması münasibətilə sizi təbrik edirəm.

Hesab edirəm, tarixi Böyük İpək Yolunun bərpası üzrə Bakı beynəlxalq konfransının çox böyük tarixi əhəmiyyəti olan hadisəyə çevrildiyini desəm, yanılmaram.

Konfransda bütün nümayəndə heyətləri çıxış etdilər – 45 çıxış oldu. Bu çıxışlarda çox mühüm fikirlər söyləndi və təkliflər irəli sürüldü. Şübhəsiz ki, bunlar gələcək birgə işimizə kömək göstərəcəkdir.

Konfransın hazırlanması və onun uğurla başa çatması bizim birgə səylərimiz nəticəsində mümkün olmuşdur. Ancaq, eyni zamanda, Avropa komissiyasının gördüyü böyük işi konfransın bütün iştirakçıları adından vurğulamağı zəruri hesab edirəm. Beş il bundan öncə 1993-cü ilin may ayında Qafqaz və Mərkəzi Asiyanın səkkiz dövlətinin nümayəndələri Avropa Birliyi Komissiyasının təşəbbüsü ilə Brüsseldə görüşdülər və nəqliy[260-261]yatın, Avropanı, Qafqazı və Asiyanı birləşdirən bütün kommunikasiya növlərinin inkişaf etdirilməsinə dair əməkdaşlığın başlanğıcını qoydular.

O vaxtdan beş il keçmişdir. Bu gün biz şahidi oluruq ki, həmin zəmin çox dəyərli, etibarlı olmuş və böyük beynəlxalq təşkilata çevrilmişdir. Biz bu konfransda da gördük ki, konfrans iştirakçılarının hamısı gördüyümüz işin vacibliyi, əhəmiyyəti və böyük gələcəyi haqqında necə maraqla danışdılar.

Ötən beş il ərzində Avropa Birliyi Komissiyası böyük iş görmüşdür. O, bu konfransın hazırlanması sahəsində də böyük iş görmüşdür. Ümidvarıq ki, indi, mühüm sənədlər imzalandıqdan sonra biz hamımız gələcəkdə də Avropa Birliyinin, Avropa Birliyi Komissiyasının dəstəyindən və yardımından bəhrələnəcəyik.

Konfransda dövlət başçılarının, ölkə prezidentlərinin iştirak etməsi onun işinə xüsusi əhəmiyyət verir. Konfransın hazırlanmasında da maraqla iştirak etdiklərinə görə, çox dəyərli, mühüm çıxışlarına və bizim birgə gördüyümüz böyük işə görə dövlət başçılarına, prezidentlərə minnətdarlığımı bildirmək istəyirəm.

Gün ərzində konfransın bütün iştirakçıları öz səylərini birləşdirdilər və bu salonda qarşılıqlı hörmət, dostluq və əməkdaşlıq mühiti hökm sürürdü. Bu onu göstərir ki, tarixi Böyük İpək yolunun bərpa və inkişafının zəruriliyi məsələsində biz hamımız yekdilik.

Zənnimcə, konfransımızın səciyyəvi xüsusiyyəti odur ki, Avropa-Qafqaz-Asiya Transqafqaz magistralı əsasında Avropa ilə Asiya arasında sıx əməkdaşlıq, əlaqə son dövrdə ilk dəfə olaraq bu konfransda xüsusi xarakter kəsb edir. Avrasiya məkanı nümayəndələrinin burada iştirakı da Avropa və Asiyanın sıx inteqrasiyasını səciyyələndirən çox ciddi dəyişikliklərdən xəbər verir.

Bu konfrans bizim üçün, Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycana belə böyük şərəf göstərildiyinə və belə [261-262] mühüm beynəlxalq konfransın Azərbaycanda, Bakıda keçirilməsinə görə Avropa Birliyi Komissiyasına, konfransın işində iştirak edən dövlətlərin prezidentlərinə, başçılarına, bütün ölkələrə təşəkkür etmək istəyirəm.

Hamınızı əmin etmək istəyirəm ki, sizin bu etimadınızı biz yüksək qiymətləndiririk və Avropa ilə Asiya arasında körpünün həqiqətən çox səmərəli olması üçün, tarixi Böyük İpək yolunun bərpası proqramının həyata keçirilməsində öz borcumuzu yerinə yetirmək üçün hər şeyi edəcəyik.

İqamətgahı Azərbaycanda olmaqla tarixi Böyük İpək yolunun bərpası üzrə təşkilatımızın katibliyinin təsis olunması haqqında qəbul edilmiş qərara görə hamınıza təşəkkür edirəm. Hesab edirəm ki, biz bu gün imzalanmış sənədləri ümumi səylərimizlə reallaşdıracağıq və şübhəsiz, katiblik ümumi vahid orqanımızı təmsil edəcək, öz vəzifələrini layiqincə yerinə yetirəcəkdir.

Bu gün Azərbaycanda, bəlkə də, onun tarixində, daha dəqiq desək, dövlət müstəqilliyi qazandıqdan sonra ilk dəfə olaraq belə bir beynəlxalq konfrans keçirilmiş, 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri burada, Bakıda toplaşmışlar. Biz bunu müstəqil, suveren Azərbaycana, ölkəmizə böyük hörmət kimi qəbul edirik və bu etimada, hörmətə layiq olmaq üçün bütün tədbirləri görəcəyik.

Bugünkü konfrans bizim hamımızı daha da yaxınlaşdırdı, bizi daha çox əməkdaşlığa, qarşılıqlı anlaşmaya, dostluğa çağırır. İnanıram ki, daha fəal əməkdaşlıq edə bilməyimiz, hər bir ölkədə və bütün Avrasiya məkanında sülhü, firavanlığı və əmin-amanlığı təmin edə bilməyimiz üçün bu konfrans öz rolunu oynayacaqdır.

Hörmətli dövlət başçıları, indi isə sizi xatirə şəkli çəkdirməyə dəvət edirəm.

Tarixi Böyük İpək Yolunun bərpası üzrə Bakı beynəlxalq konfransını bağlı elan edirəm. [262]

## XALQ ŞAİRİ RƏSUL HƏMZƏTOVA

Çox hörmətli Rəsul Həmzətov!

Bu əlamətdar gündə sizi – Dağıstanın görkəmli oğlunu, zəmanəmizin ən böyük şairlərindən birini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Xeyirxahlığın və humanizmin nurlu ideyaları ilə aşılanmış əsərləriniz bir çox xalqların nümayəndələri tərəfindən olduqca böyük maraqla qarşılanır. Doğma diyara hədsiz məhəbbət, həyatın bədii qavranışının qeyri-adiliyi, öz xalqının əsrlər boyu təşəkkül tapmış adət və ənənələrinə qayğıkeş münasibət sizin əsərlərinizə ümumbəşəri əhəmiyyətlə yanaşı, dərin milli kolorit verir.

Sizin fəaliyyətiniz müxtəlif dövrlərdə yüksək hökumət təltiflərinə və mükafatlarına layiq görülmüşdür. Lakin ən yüksək mükafat sizin öz xalqınız arasında, istedadınızın bütün dünyadakı milyonlarla pərəstişkarı arasında qazandığınız böyük məhəbbətdir. Poeziyanın çox sevildiyi və yüksək qiymətləndirildiyi bir ölkə olan Azərbaycanda elə bir guşə yoxdur ki, sizi tanımasınlar və yaradıcılığınıza heyran olmasınlar.

Xalqlarımızın mənəvi, mədəni və dini dəyərlərinin ümumiliyi çoxəsrlik dostluq və qardaşlıq əlaqələrinin əsas təməli olmuşdur və olaraq qalır. Əcdadlarımızın nəcib işinin layiqli davamçısı kimi siz bütün çoxsahəli fəaliyyətinizlə bu əlaqələrin möhkəmlənməsi işinə qiymətli töhfə verirsiniz. Əminəm ki, sizin müdrikliyiniz, həqiqi söz ustadı kimi istedadınız, böyük həyat təcrübəniz gələcəkdə də Azərbaycan və Dağıstan xalqları arasında dostluğun və qardaşlığın möhkəmlənməsi işinə xidmət edəcəkdir. [263-264]

Əziz Rəsul!

75 illik yubileyiniz günü sizə möhkəm cansağlığı, əmin-amanlıq və yeni yaradıcılıq uğurları arzulayıram. Sizi bağrıma basıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 sentyabr 1998-ci il*
[264]

## BAKIDA KEÇİRİLMİŞ TARİXİ BÖYÜK İPƏK YOLUNUN BƏRPASI ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN YEKUNLARI İLƏ ƏLAQƏDAR GENİŞ MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*10 sentyabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün mən sizi buraya sentyabrın 7-8-də Bakıda, Azərbaycanda keçirilmiş beynəlxalq konfransın yekunları ilə əlaqədar dəvət etmişəm. Şübhəsiz ki, beynəlxalq konfransın yekunları bundan sonra çox ətraflı və geniş müzakirə olunmalıdır. Xüsusən onun qəbul etdiyi qərarlar, yəni imzalanmış müqavilələr həyata keçirilməlidir. Amma bu gün mən, sadəcə, bu konfransla bağlı görülmüş hazırlıq işində və konfransın keçirilməsində iştirak edənləri buraya dəvət etmişəm ki, konfransın hazırlanması, gedişi və onun işinin sona çatması ilə əlaqədar öz müşahidələrimi bildirim.

İndi respublika və dünya ictimaiyyətinə də artıq məlumdur ki, Bakıda keçirilmiş, qədim tarixi İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans nə qədər böyük əhəmiyyətə malikdir. Vaxtilə biz belə bir konfransın keçirilməsi ilə əlaqədar Avropa Birliyinin Komissiyası ilə danışıqlar aparmışdıq. Hələ xeyli vaxt bundan əvvəl belə bir konfransın keçirilməsi zərurəti meydana çıxmışdı. Ancaq bu konfransın keçirilməsi və ya keçirilməməsi, harada keçirilməsi məsələləri xeyli müzakirə olunmuşdur. Çünki məlumdur ki, Avropa Birliyi Komissiyası və ümumiyyətlə, Avropa Birliyi həm [265-266] 1991-ci ildə TASİS proqramını qəbul edərkən, həm də 1993-cü ildə TRASEKA proqramını qəbul edərkən birinci növbədə, yeni müstəqillik qazanmış ölkələrlə əlaqələr yaratmaq və inkişaf etdirmək, həm də Avropa-Qafqaz-Asiya nəqliyyat xətlərinin yaradılması və inkişaf etdirilməsi məqsədi daşımışdır.

Bu gün tam əsasla demək olar ki, Avropa Birliyi hələ Sovetlər İttifaqı dağılmamışdan, yəni həmin ittifaqın dağılmasını görərək və artıq bunu proqnozlaşdıraraq bu məsələyə həm münasibətini bildirmiş, həm də bu barədə tədbirlər görmüşdür. 1991-ci ildə, hələ Sovetlər İttifaqı mövcud olduğu bir zaman TASİS proqramının – müstəqillik əldə edən ölkələrə iqtisadi yardım göstərilməsi ilə əlaqədar proqramın qəbul olunması buna əyani sübutdur.

SSRİ dağılandan – Şərqi Avropa ölkələrində böyük dəyişikliklər baş verəndən, keçmiş Sovetlər İttifaqına mənsub olmuş ölkələr dövlət müstəqilliyini əldə edəndən sonra Avropa ilə Asiya arasında iqtisadi əlaqələri inkişaf etdirmək üçün, şübhəsiz ki, iqtisadi əlaqələr vasitəsilə başqa əlaqələri də inkişaf etdirmək üçün TASİS proqramının qəbul olunması zərurəti meydana çıxmışdır.

Avropa Birliyinin İqtisadi Komissiyası bu proqrama Qafqaz və Mərkəzi Asiya ölkələrini cəlb etmiş, 1993-cü ilin may ayında TRASEKA proqramı qəbul olunmuşdur. O illər, bəlkə də son vaxtlara qədər həmin TRASEKA proqramının yerinə yetirilməsi ilə əlaqədar ayrı-ayrı ölkələrdə tədbirlər keçirilibdir. O cümlədən biz Avropa Birliyi ilə daim əməkdaşlıq etmişik. Ancaq bu TRASEKA proqramının belə böyük gələcəyə malik olduğu hələ hamı tərəfindən o qədər də dərk edilmirdi. Nəhayət, 1996-cı ildə, xüsusən 1997-ci ildə qədim, Böyük İpək Yolunun bərpa olunması məsələsi ümumi, dünyəvi, qlobal bir məsələ kimi meydana çıxmışdır. Bu, yeni kommunikasiya, nəqliyyat xətləri yaratmaq, Avropanı Asiya [266-267] ilə daha yaxın, əlverişli, təhlükəsiz və daha ucuz yollarla bağlamaq və bu vasitə ilə də ölkələr arasında iqtisadi əməkdaşlıq yaratmaq, onu inkişaf etdirmək və Avropa Birliyinin bu ölkələrə təsirini artırmaq məqsədi daşımışdır.

Tarixi İpək Yolunun bərpa edilməsi məsələsi həm elmi tədqiqat, həm də praktiki nöqteyi-nəzərdən böyük maraq doğurmuşdur. Ayrı-ayrı ölkələrdə bu mövzu həm dövri mətbuatda, həm də elmi kitablarda, jurnallarda, konfranslarda, simpoziumlarda müzakirə olunmuşdur. Böyük tarixi İpək yoluna diqqət və maraq get-gedə artmışdır. Təsadüfi deyildir ki, hətta Böyük İpək Yolundan çox uzaqda olan Amerika Birləşmiş Ştatlarında qədim İpək yolunun bərpasına ciddi maraq göstərilmişdir və bu barədə indiyə qədər də müzakirələr gedir. Yaxud, Yer kürəsinin tamamilə başqa bir uzaq hissəsində yerləşən Yaponiyada Böyük İpək Yoluna maraq göstərilmiş və bu İpək yolunun bərpası ilə əlaqədar təkliflər irəli sürülmüşdür. Məlumdur ki, keçən ilin əvvəlində Yaponiyanın baş naziri Haşimoto Böyük İpək Yolu haqqında öz hökumətinin konsepsiyasını, bu məsələyə baxışını, təklifini irəli sürmüşdür və bu məsələ Yaponiyanın da ardıcıl surətdə diqqət mərkəzində olmuşdur.

Böyük İpək Yolu üzərində yerləşən ölkələrin əksəriyyəti tərəfindən qədim İpək yolunun bərpası, yəni bu İpək Yolu əsasında yeni, müasir nəqliyyat xəttinin yaranması məsələsi zəruri hal kimi tədricən irəliyə sürülmüşdür.

Azərbaycan bu proseslərdə daim iştirak etmiş, Avropa Birliyi ilə sıx əməkdaşlıq etmişdir. Biz Avropa Birliyinin İqtisadi Komissiyası ilə Azərbaycanın bir çox sahələr üzrə əməkdaşlığını çox əhəmiyyətli hesab etmişik və bunun müsbət nəticələrini də görmüşük.

Bilirsiniz ki, ümumiyyətlə, Avropa Birliyi çox mütəşəkkil beynəlxalq bir təşkilatdır. Avropanın böyük olmasına baxmayaraq, bu təşkilatda ancaq 15 ölkə təmsil edilibdir. Bu [267-268] təşkilata daxil olan ölkələr arasında yüksək səviyyəli, müasir tələblərə uyğun iqtisadi əməkdaşlıq prosesi gedir. Bu əməkdaşlığın çox səmərəli olduğu aydın görünür. Çünki Avropa Birliyinə daxil olan ölkələr bu təşkilatın fəaliyyətinə və işinə, bu təşkilata məxsus olduqlarına yüksək qiymət verirlər. Ona görə də bu təşkilat böyük nüfuza malikdir. Avropa Birliyi təşkilatı Avropa və Asiya ölkələri ilə öz əlaqələrini genişləndirir.

Bildiyiniz kimi, biz 1996-cı ilin aprel ayında Lüksemburqda Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq haqqında saziş imzalamışıq və Avropa Birliyinin strukturlarında iştirak etməyə çalışırıq. Biz keçən illərdə Avropa Birliyindən müəyyən maliyyə və maddi yardımlar almışıq və indi də bəzi proqramların həyata keçirilməsində Avropa Birliyi Komissiyasının yardımlarından istifadə edirik.

Avropa Birliyi Komissiyası ilə əməkdaşlığımız uğurludur və biz bu əməkdaşlıqda özümüzü çox etibarlı tərəfdaş kimi göstərmişik. Bir faktı qeyd etmək istəyirəm. Biz 1994-cü ildə, doğrusu, Avropa Birliyinin Komissiyası ilə əməkdaşlığımızın detallarını o qədər də dərindən bilmədiyimiz bir zaman Azərbaycanla Avropa Birliyi arasında müqavilələr imzalanmışdı. Avropa Birliyi Azərbaycana müəyyən yardımlar etmişdi. O vaxt Azərbaycanda qıtlıq olduğu zaman biz Avropa Birliyindən xeyli miqdarda taxıl alıb respublikamızın əhalisini çörəklə təmin etmək məsələlərini həll edirdik. Avropa Birliyi o vaxt Azərbaycana bununla bərabər kredit də vermişdir.

Mən bu gün etiraf etməliyəm ki, o vaxt həmin kreditin verilməsi şəxsən mənə o qədər də dəqiq məlum olmamışdır. Nazirlər Kabineti mənimlə razılaşmamış, həmin kreditlərin alınması ilə əlaqədar sazişlər imzalamışdı. Mən bu məsələni biləndən sonra həm Nazirlər Kabineti, həm də bizim maliyyə orqanlarımız mənə belə bildirdilər ki, bu kredit elə kredit adı ilə verilir, amma bu, Avropa Birliyi Komissiyasının Azərbay[268-269]cana olan yardımıdır. Sonra da dedilər ki, biz onsuz da bu kreditləri hələ üç ildən sonra qaytaracağıq, ona görə də bunun üçün narahat olmaq lazım deyildir.

Bilirsiniz, təəssüf ki, həmin illərdə Azərbaycanın rəhbərliyində vəziyyət gərgin idi. 1994-cü ildə Nazirlər Kabinetinə kim tərəfindən rəhbərlik edildiyi də sizə məlumdur. Bütün bunlara görə bu gün mən hesab edirəm ki, o vaxt səhvlər buraxılmışdır. Doğrudur, o vaxt Azərbaycanın həm maliyyə kreditinə, həm də maddi yardıma ehtiyacı böyük idi. Ancaq biz həmişə bilməliyik ki, krediti nə üçün alırıq və bunu necə qaytaracağıq. Amma o vaxt çoxları, o cümlədən həmin kreditin alınmasına imza atanlar da bu haqda düşünməmişdilər.

Kreditlər Azərbaycana guya ərzaq gətirilməsi və həmin ərzağın da ancaq Avropa ölkələrindən alınması üçün bağlanıbdır. İndi məlum olur ki, həmin kreditlərdən istifadə olunmasında da səhvlərə yol verilmişdir. Nəhayət, vaxt gəldi çatdı və alınmış həmin kreditlərin qaytarılması keçən il – 1997-ci ildə bizdən tələb olundu.

Həmin kreditlər təkcə bizə yox, Gürcüstana da verilmişdi. Hətta Gürcüstana Azərbaycandan da çox verilmişdi. Ermənistana da, başqa ölkələrə də verilmişdi. Ancaq Avropa Birliyi və xüsusən İqtisadi Komissiya bu kreditlərin qaytarılmasını Azərbaycandan qətiyyətlə tələb etdi. Biz onun vaxtının artırılmasına çalışdıq. Çalışdıq sübut edək ki, biz bu krediti alanda səhvlər olubdur və bəziləri bunun qaytarılacağını anlamayıblar. Ancaq bunlar heç bir nəticə vermədi. Biz keçən il həmin bu kreditlərin əvəzinə Avropa Birliyinin İqtisadi Komissiyasına 57 milyon dollar qaytarmağa məcbur olduq.

Olan-olub, keçən-keçib, 1993-cü, 1994-cü illərdə hətta 1995-ci ildə Azərbaycanda iqtisadiyyata rəhbərlik edən və xüsusən də iqtisadiyyatla məşğul olan Nazirlər Kabinetində [269-270] normal bir rəhbərlik yox idi. Ona görə də belə bir səhv buraxılmışdı.

Bu məsələni mənə məruzə edərkən dəfələrlə təkidlə soruşurdum ki, bəs nə üçün, niyə belə olubdur? Ola bilərdi ki, o vaxt biz həmin kreditləri almayaydıq. Onsuz da çətin yaşayırdıq. Yaşayacaqdıq. Amma indi biz 57 milyon dollar dəyərində məbləği qaytardıq. Yəni Avropa Birliyi ilə bizim belə bir münasibətimiz də olubdur.

Doğrudur, Avropa Birliyi bizim vəziyyətimizi anlayaraq və verilən həmin krediti qaytardığımıza görə qərar qəbul edibdir ki, belə saf əməkdaşlıq etdiyimiz üçün Azərbaycana 30 milyon ekyu məbləğində yardım göstərsinlər. Bu da 1998, 1999 və 2000-ci illərdə olacaqdır. Şübhəsiz ki, bu, 57 milyon dolların yerini vermir. Ancaq hesab edirəm ki, biz bunu da qiymətləndirməliyik. Avropa Birliyi Azərbaycana xoş münasibət göstərir, Azərbaycanın həmin krediti qaytarması ilə əlaqədar atdığı addımı qiymətləndiribdir. Amma onu da bilirik ki, bizə qonşu olan ölkələr aldıqları kreditləri qaytarmayıblar, həmin kreditlərin vaxtları uzadılıbdır.

Bizə izah edirlər ki, krediti qaytarmağa Azərbaycanın iqtisadi imkanları var, amma o biri ölkələrin iqtisadi imkanları yoxdur. Bu da bir tərəfdən Azərbaycanın həqiqətən öz iqtisadiyyatını öz imkanları ilə idarə etməsini göstərir. Çünki 907-ci düzəlişə görə Amerika Birləşmiş Ştatları müstəqil dövlətlərə göstərdiyi yardımdan Azərbaycanı məhrum edibdir. Məsələn, qonşu ölkələr – Ermənistan, Gürcüstan və başqaları Amerika Birləşmiş Ştatlarından ildə 100 milyon dollar birbaşa yardım alırlar. Biz bu yardımdan məhrumuq.

1994-cü ildə Avropa Birliyi bizə ayırdığı kreditdən də çox o biri ölkələrə yardım etmişdi. Biz bu krediti qaytardıq, amma onlara güzəşt ediblər, vaxtını uzadıblar.

Mən bunu sadəcə bir məlumat kimi bildirmək istədim. Çünki lazımdır ki, Siz də, ictimaiyyətimiz də hər bir şeyi [270-271] bilsin. Bizim iqtisadiyyatımızda görülən hər bir iş və aparılan tədbirlərin hamısı göz qabağındadır. Hesab edirəm, gördüyümüz işləri də çox peşəkar səviyyədə aparırıq.

Bu, Avropa Birliyi və İqtisadi Komissiya ilə bizim əməkdaşlığımızın bir hissəsidir. Ancaq TRASEKA proqramı əsasında Avropa Birliyinin yardımı ilə Azərbaycanda bir çox işlər görülübdür və bundan sonra da görülür. Bu, təkcə Azərbaycan üçün deyildir. Bu, Azərbaycandan keçən nəqliyyat xəttinin TRASEKA proqramının həyata keçirilməsindən ötrü lazımi səviyyəyə gətirilməsi üçündür. Məsələn, Poylu körpüsü Avropa Birliyindən alınmış 2 milyon dollar vəsait hesabına bərpa olundu. Dəmir yolunda da müəyyən işlər görülür. Yəni bunlar kredit deyildir, bu işlərin görülməsi üçündür. İşğaldan azad olunmuş ərazilərdə , - Füzuli rayonunun işğaldan azad edilmiş qəsəbə və kəndlərində bərpa işləri aparılmasına da Avropa Birliyi yardım edir. Baş nazirin müavini Abid Şərifov buradadır. Avropa Birliyi nə qədər yardım edir?

**A b i d  Ş ə r i f o v**: 7 milyon ekyu məbləğində. Onun 4 milyonunu veriblər, 3 milyonunu da ayıracaqlar. Bu, Ağdam və Füzuli rayonlarında işğaldan azad olunmuş kəndlərin bərpasına sərf edilir.

**A r t u r  R a s i z a d ə**: Ümumiyyətlə, Avropa Birliyi tərəfindən indiyə qədər Azərbaycana 225 milyon dollar yardım edilibdir.

**H e y d ə r  Ə l i y e v**: Qaytarılan kredit də buraya daxildir?

**A r t u r  R a s i z a d ə**: Xeyr. Bunlar Azərbaycana birbaşa edilmiş yardımdır.

**A b b a s  A b b a s o v**: Avropa Birliyi respublikamızın təkcə aqrar sahəsinə 16 milyon dollar yardım edibdir.

**A r t u r  R a s i z a d ə**: Bəli, bütün bunlar hamısı 225 milyon dollardır. [271-272]

**A b i d  Ş ə r i f o v**: Cənab prezident, Avropa Birliyi TRASEKA proqramı çərçivəsində Azərbaycana qrant şəklində 7 milyon 650 min ekyu məbləğində investisiya qoymuşdur. Bu vəsaitin 6 milyondan çoxu respublikamızda körpülərin, sərhəd postlarının tikilməsinə, bərpasına və Bakı limanında bir sıra yenidənqurma işləri aparılmasına xərclənibdir.

**H e y d ə r  Ə l i y e v**: Beləliklə, yenə də deyirəm, Avropa Birliyi ilə bizim əməkdaşlığımız uğurludur və bu yardımlar Azərbaycanın problemlərinin həll edilməsinə sərf olunur və bundan sonra da sərf olunacaqdır. Bizim əməkdaşlığımızın məhz belə – həm səmimi, həm də uğurlu olması nəticəsində də TRASEKA proqramının inkişaf etdirilməsi və Böyük İpək Yolunun bərpa edilməsi mövzusu Avropa Birliyinin İqtisadi Komissiyasında bir neçə dəfə müzakirə olunmuş və belə bir konfransın keçirilməsinin zəruriliyi bildirilmişdir.

Mən bunu konfransda demişəm. TRASEKA proqramı qəbul ediləndən sonra işçi qrupları bir neçə dəfə görüşüblər və bu proqramın həyata keçirilməsi hər dəfə müzakirə olunubdur. Ancaq bu konfrans TRASEKA proqramının təkcə həyata keçirilməsi yox, onun yeni bir proqrama çevrilməsi, yəni TRASEKA proqramı əsasında yeni böyük bir proqramın qəbul olunması zərurətindən meydana çıxmışdır. Bunun üçün də bir çox hazırlıq işləri görülmüşdür və belə bir konfransın harada keçirilməsi də müzakirə olunmuşdur.

Bütün bu hazırlıq işlərində Azərbaycan çox fəal iştirak etmişdir.İmzalanan əsas sənəd, saziş – «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxətraflı saziş» və onun texniki əlavələri bir neçə ay, bəlkə də bir il müddətində hazırlanmışdır.

Belə bir konfransın keçirilməsi zərurəti meydana gəldiyi zaman onun harada keçirilməsi də müzakirə olunmuşdur.

TRASEKA proqramında iştirak edən ölkələrin, şübhəsiz ki, hər biri belə bir konfransın öz ölkəsində keçirilməsinin [272-273] arzusunda olmuş və namizədliyini vermişdi. Biz də belə bir konfransın Azərbaycanda keçirilməsi təklifini irəli sürmüşdük.

Şübhəsiz, biz belə bir təklif irəli sürərkən dərk edirdik ki, bu, çox məsuliyyətli, çətin işdir. İndi, Azərbaycan problemlərlə rastlaşdığı, Ermənistan-Azərbaycan münaqişəsi mövcud olduğu bir zaman belə böyük beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bizim üzərimizə həm çox vəzifələr və həm də böyük məsuliyyət qoyur. Biz bunları dərk edərək Azərbaycanın namizədliyini irəli sürdük. Başqa ölkələr də öz namizədliklərini irəli sürmüşdülər. Bu məsələlər bir neçə dəfə müzakirə olunmuşdu, ancaq həm Avropa Birliyinin Komissiyası, həm də TRASEKA proqramında fəal iştirak edən ölkələrin əksəriyyəti bu konfransın Azərbaycanda keçirilməsinə razılıq vermişdilər. Yenə də deyirəm, qərar qəbul olunanadək hələ mübahisələr gedirdi ki, bu beynəlxalq konfrans Azərbaycanda, Bakıda, yaxud Qafqazın, Asiyanın başqa bir ölkəsində kesirilsin.

Nəhayət, bizim təklifimiz qəbul olundu və beynəlxalq konfransın Azərbaycanda, Bakıda keçirilməsi qərara alındı. Bununla əlaqədar biz əməli işə başladıq. Bu əməli iş xeyli zaman idi ki, gedirdi. Ancaq bu işi daha da mütəşəkkil aparmaq üçün mən iyun ayında xüsusi sərəncam qəbul etdim və konfransın hazırlanması, keçirilməsi üçün komissiya təşkil etdim. Bu komissiyaya Baş nazir Artur Rasizadə başçılıq edirdi və axıra qədər də başçılıq etdi. Komissiyanın tərkibində bugünkü müşavirədə iştirak edənlərin bir çoxu vardır.

Qeyd etməliyəm ki, komissiya çox iş görmüşdür və beynəlxalq konfrans yaxşı hazırlanmışdır. Konfransı keçirmək üçün Avropa Birliyinin Komissiyası ilə məsləhətləşərək mən, Azərbaycanın prezidenti

bu konfransda iştirak etmələri zəruri olan ölkələrin dövlət və hökumət başçılarına xüsusi məktub[273-274]lar göndərdim və bu ölkələri konfransda iştirak etməyə dəvət etdim.

Şübhəsiz ki, həmin ölkələr Böyük İpək Yolunun bərpası ilə əlaqədar olan ölkələrdir. Bu ölkələrin tərkibi Avropa Birliyinin Komissiyası ilə razılaşdırılmışdır. Ancaq dəvəti Azərbaycan prezidenti göndərmişdir. İndi artıq görünür ki, bizim dəvətimiz qəbul olunmuşdur və 32 dövlət, ölkə beynəlxalq konfransda iştirak etmişdir. Biz dövlətlərlə, ölkələrlə bərabər, beynəlxalq təşkilatlara da dəvətlər göndərmişdik. Dəvət olunan beynəlxalq təşkilatların – 13 beynəlxalq təşkilatın hamısının nümayəndə heyətləri konfransda iştirak etmişdir.

Beləliklə, konfrans həqiqətən böyük beynəlxalq bir konfrans oldu. Konfransın iştirakçıları həm İpək yolunun bilavasitə xətti üzərində yerləşən, həm də bu İpək yoluna böyük maraq göstərən ölkələrin nümayəndələri idilər. Konfransda Amerika Birləşmiş Ştatlarından, Yaponiyadan, Çindən, Avropa ölkələrinin demək olar ki, əksəriyyətindən nümayəndə heyətləri, Qafqaz, Mərkəzi Asiya, Monqolustan və Asiyanı təmsil edən digər ölkələr iştirak edirdilər.

Siz bilirsiniz, nümayəndə heyətləri yüksək səviyyəli idi. Konfransda 9 ölkə dövlət başçıları – prezidentlərlə təmsil olunmuşdu, bir ölkədən nümayəndə heyətinə Baş nazir rəhbərlik edirdi. Digər nümayəndə heyətlərinə nazirlər, Baş nazirin müavini və başqa yüksək vəzifəli şəxslər rəhbərlik edirdilər. Təkcə nümayəndə heyətləri üzvlərinin sayı 180 nəfər idi. Ancaq bilirsiniz ki, hər ölkədən gələn nümayəndə heyətini müşayiət edən çoxsaylı şəxslər də var idi.

Konfransda 20 ölkədən 210 mətbuat nümayəndəsi – jurnalistlər, kütləvi informasiya orqanlarının nümayəndələri iştirak etmişlər. Bu konfransda dünyanın böyük agentliklərinin, televiziyalarının nümayəndələri iştirak etmişlər.

Beynəlxalq təşkilatların demək olar ki, hamısı konfransda təmsil olunmuşdur. Birləşmiş Millətlər Təşkilatının, ATƏT-[274-275]in, Avropa Birliyinin, Müstəqil Dövlətlər Birliyinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının nümayəndə heyətləri, dünyanın böyük banklarının – Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam Bankının, bir çox beynəlxalq nəqliyyat təşkilatlarının nümayəndələri, yəni dünyanın əsas beynəlxalq təşkilatlarının hamısı bu konfransda təmsil olunmuşdur.

Həmin nümayəndə heyətlərinin konfransda təkcə təmsil edilməsi deyil, hər bir nümayəndə heyəti beynəlxalq konfransın işində fəal iştirak etmişdir. Çünki 32 ölkəni, dövləti təmsil edən nümayəndə heyətləri başçılarının hamısı konfransda nitq söyləmişdir.

13 beynəlxalq təşkilatı təmsil edən nümayəndə heyətlərinin başçıları konfransda çıxış etmişlər. Bütün bu danışıqların, nitqlərin, konfransın işinin məzmunu sizə məlumdur. Konfransın işi əvvəldən axıradək Azərbaycan televiziyası vasitəsilə canlı yayılıbdır. Güman edirəm ki, siz bunları seyr etmisiniz, dinləmisiniz, bilirsiniz. Bizim qəzetlər də konfransın demək olar ki, stenoqramını dərc edirlər.

Ancaq qısaca olaraq onu deyə bilərəm ki, konfransda gedən bütün danışıqların məzmunu ondan ibarət olmuşdur ki, hamı eyni fikirdədir. Tarixi Böyük İpək Yolunu bərpa etmək lazımdır. Bunu bərpa etmək üçün hər bir ölkə lazımi kommunikasiya xətləri yaratmalıdır. Avropa Birliyi Komissiyasının bunu indiyədək himayə etdiyi kimi, bundan sonra da himayə edəcəkdir. Yəni konfransın bütün iştirakçıları həm Avropa Birliyi ilə Azərbaycanın təşəbbüsünü – bizim bu təşəbbüsümüzə Gürcüstan prezidenti Eduard Şevardnadze də qoşulmuşdur – yüksək qiymətləndirmişlər, həm də konfransın əhəmiyyətini və orada müzakirə olunan məsələlərin gələcək üçün çox böyük əhəmiyyətini qeyd etmişlər.

Bilirsiniz ki, bəzi ölkə və dövlət başçıları konfransla əlaqədar mənim ünvanıma xüsusi məktublar göndərmişlər. [275-276] Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszemin, Yaponiyanın Baş naziri cənab Obuti, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri cənab Toni Bleyer, Qazaxıstanın prezidenti cənab Nazarbayev özləri iştirak edə bilmədiklərinə görə məktublar göndərmişlər. Bu məktublar mənə təqdim olunubdur. Onlar mətbuatda dərc ediləcəkdir.

Başqa nümayəndə heyətləri, hansılar ki, dövlət, hökumət başçıları tərəfindən təmsil olunmurdular, onların da hər biri çıxışlarında öz dövlət və hökumət başçılarının konfransa münasibətini, fikrini və təkliflərini bəyan etdilər.

Beləliklə, mən hesab edirəm ki, konfrans qarşıya qoyulan vəzifəni layiqincə həyata keçirdi və beynəlxalq aləmdə tarixi bir hadisəyə çevrildi. Konfransda çıxış edən natiqlərin demək olar ki, hamısı bunu qeyd etdilər.

Məlumdur ki, bu konfransda üç sənəd imzalandı. **Birincisi** – «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş» və onun texniki əlavələri, **ikincisi** – Bakı bəyannaməsi, **üçüncüsü** – tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekun rəsmi məlumatıdır. Bildirmək istəyirəm ki, bu sənədlər cürbəcür imzalanıbdır. Birinci sənəd 14 dövlət tərəfindən imzalanıbdır. Bakı bəyannaməsi çox dövlətlər tərəfindən imzalanıbdır. Üçüncü sənəd – yekun rəsmi məlumatı 29 dövlətin və Avropa Birliyinin nümayəndə heyətləri tərəfindən imzalanıbdır.

Beləliklə, bu sənədlər artıq böyük əhəmiyyət kəsb edir. Biz bu sənədlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görəcəyik. Konfransın yekunları, Azərbaycan Respublikasının üzərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar mənim fərmanım artıq hazırlanır. Həmin fərmanda respublikamızın,

ölkəmizin hökumət, dövlət orqanları tərəfindən görüləcək işlərin hamısı müəyyən ediləcəkdir. Mən bu fərmanı yaxın günlərdə imzalayacağam. [276-277]

Mən bu gün iftixar hissi ilə deyə bilərəm ki, biz, Azərbaycan müstəqil dövlət kimi böyük bir beynəlxalq konfransın təşkilatçısı olduq, belə bir konfransın Azərbaycanda, Bakıda yüksək səviyyədə keçirilməsini təmin etdik.

Mən konfransın işini yekunlaşdırarkən bunu bəyan etmişdim. Bu gün bir də bəyan edirəm ki, konfransın Bakıda keçirilməsi Avropa Birliyi və TRASEKA proqramının iştirakçıları tərəfindən Azərbaycana göstərilən etimaddır və böyük diqqətdir. Biz bunu yüksək qiymətləndirməliyik. Bunun əhəmiyyəti ondan ibarətdir ki, Avropa Birliyi kimi yüksək səviyyəli beynəlxalq təşkilat Azərbaycan ilə ötən illər etdiyi əməkdaşlığın nəticəsində Azərbaycanın bir müstəqil, demokratik, azad ölkə kimi böyük beynəlxalq konfrans keçirmək hüququna malik olduğunu nümayiş etdirib və belə bir konfransın Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edibdir. Konfransın iştirakçıları da bu konfransın birinci Azərbaycanda keçirilməsinin zəruri olduğunu qəbul ediblər və bu konfransda fəal iştirak ediblər.

Dediyim kimi, konfransda Azərbaycan da daxil olmaqla 9 ölkə dövlət başçıları ilə, bir ölkə isə Baş nazirlə təmsil olunmuşdu. Beləliklə, 32 nümayəndə heyətindən 10-u dövlət və hökumət başçıları tərəfindən təmsil edilmişdi. Bunun özü də böyük hadisədir və konfransa bu ölkələr tərəfindən çox yüksək əhəmiyyət verilməsinin təzahürüdür, eyni zamanda bu ölkələrin dövlət başçılarının Azərbaycana göstərdikləri münasibətin təzahürüdür.

Biz çalışırdıq ki, konfransın keçirilməsi bütün parametrlərinə görə beynəlxalq standartlar səviyyəsində olsun. Bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, biz buna nail olduq. Çünki mən və mənimlə bərabər Azərbaycanın bir neçə rəhbər vəzifəli şəxsləri son illər, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bir çox beynəlxalq toplantılarda, sammitlərdə, konfranslarda iştirak etmişik. Bu konfransı hazırla-[277-278]yarkən biz birinci növbədə çalışmışdıq ki, gördüklərimizdən və bu beynəlxalq konfransların hazırlanması, xüsusən həyata keçirilməsi təcrübəsindən səmərəli istifadə edək və Bakıda keçirilən konfrans da gördüyümüz konfranslar səviyyəsində olsun. Mən bu gün deyə bilərəm ki, biz buna nail olmuşuq.

Həqiqətən, nümayəndə heyətlərinin Bakıya endikləri vaxtdan Bakı hava limanından ayrıldıqları zamana qədər onların səmərəli işinin təmin olunması və ümumiyyətlə, konfransın mütəşəkkil aparılması hamının gözü qabağındadır. Demək olar ki, bütün nümayəndə heyətləri, onların başçıları, üzvləri konfransın işinin təşkilinə, gələn qonaqların yerləşdirilməsinə, onlara göstərilən xidmətə və konfransın çox mütəşəkkil aparılmasına, müasir texniki vasitələrdən istifadə olunmasına yüksək qiymət verdilər.

Təbiidir, bu, asanlıqla olmamışdır. Biz çox hazırlıq işləri gördük və birincisi, gələn nümayəndə heyətlərinin münasib şəraitdə yerləşdirilməsi, onların burada olduqları müddətdə fəaliyyətlərinə lazımi şərait yaradılması üçün, ikincisi də konfransın keçiriləcəyi yerdə beynəlxalq standartlara uyğun şəraitin yaradılması üçün çox iş gördük.

Bu baxımdan bizim «Gülüstan» sarayı Azərbaycanın bu günü üçün də çox gərəkli oldu. «Gülüstan» sarayı 1980-ci ildə tikilib istifadəyə verilibdir, 18 ildir ki, Azərbaycana xidmət edir. Ancaq mən, bu «Gülüstan» sarayının tikilməsinin, inşa edilməsinin, yaranmasının təşəbbüskarı kimi və bu işi o illər bilavasitə həyata keçirən adam kimi, böyük iftixar hissi keçirirəm ki, bu saray Azərbaycanın dövlət müstəqilliyinə çox dəyərli xidmətlər göstərir. Tək bu konfransda yox, ona qədər də. Ancaq bu konfransın keçirilməsi üçün «Gülüstan» sarayı əsaslı təmir olundu. Bu da lazım idi, çünki 18 il bundan öncə tikilmiş binanın təmirə ehtiyacı var idi. Təmir olundu və müasir səviyyəyə çatdırıldı. Bununla bərabər, konfransın keçirilməsi üçün orada əlavə ayrı-ayrı otaqlar, bölmələr [278-279] yaradıldı. Bunların da sayəsində həm konfrans iştirakçılarının, yəni nümayəndə heyətlərinin, onların üzvlərinin orada normal şəraitdə fəaliyyət göstərməsi üçün, həm nümayəndə heyətlərini müşayiət edənlər üçün, həm də çoxsaylı jurnalistlər üçün bütün imkanlar yaradıldı.

Mən bu gün tam əsasla deyə bilərəm ki, «Gülüstan» sarayının o böyük salonu dünyanın bir çox ölkələrində keçirilmiş konfransların salonlarından nəinki fərqlənmirdi, bəlkə də bəzilərinə nisbətən daha da görkəmli, daha da münasib görünürdü. Bu, tarixi bir hadisədir.

Ancaq bir «Gülüstan» sarayı deyildir. Artıq bizim Bakıda çoxsaylı qonaqların yerləşdirilməsi üçün müasir tələblərə uyğun otel imkanlarımız vardır. Bunlar da çox xeyirli oldu.

Bilirsiniz ki, bu konfransın keçirilməsi ilə əlaqədar biz bir çox avtonəqliyyat vasitələri-avtobuslar, müasir tələbələrə cavab verən minik avtomobilləri aldıq və bunlardan da istifadə olundu. Bütün bunların hamısı Azərbaycanın bu gününu nümayiş etdirirdi. Hətta bizim hava limanının binasındakı, Azərbaycan dilində desək, o şərab salonu – və yaxud beynəlxalq termində bir «vip» sözü vardır, - müasirləşdirildiyinə görə o da çox böyük təəccüb doğurdu ki, bu necə də yaxşıdır. Baxmayaraq ki, mənim özüm istərdim ondan da yaxşı olsun.

Bizim dostumuz, Türkiyənin prezidenti cənab Süleyman Dəmirəl mən onu yola salarkən çox şeydən razılığını bildirdi və dedi ki, buranı da çox gözəl etmisiniz. Mən əvvəllər buranı belə görməmişdim, indi müasir tələblərə uyğun olan şərab salonudur. Mən ona dedim ki, biz başqa bir hava limanı tikirik və onu gələn il istifadəyə verəcəyik. Dedim ki, açılışa sizi dəvət edəcəyəm və orada hər şey, o cümlədən şərab salonu bundan da yaxşı olacaqdır.

Orada tikilən hava limanını hamı görür. Mən ona dedim ki, 1981-ci ildə biz o hava limanının əsasını qoyduq. Mən o [279-280] illər Azərbaycanda müasir tələblərə uyğun yeni bir hava limanının tikilməsinə çalışırdım və mənim qərarım əsasında Moskvada layihələr hazırlandı, bizim memarlar işlədilər. O layihələrə bir neçə dəfə baxdıq. 1981-ci ildə onun əsasını qoyduq. Ancaq baxın, neçə illər keçdi, o tikilmədi. Görünür ki, onun əsasını mən qoyduğuma görə, böyük bir fasilədən sonra onu mən də axıra çatdırmalıyam. 1999-cu ildə biz onu mütləq istifadəyə verəcəyik.

İndi Azərbaycan bütün dünya ilə hava xətləri ilə birləşibdir. Lazımdır ki, bu hava xətlərindən, hava yollarından istifadə edən hər bir şəxs – Azərbaycan vətəndaşı, ya başqa hər bir ölkənin vətəndaşı bizim hava limanında yaxşı, müasir şəraitə uyğun olan imkanlardan istifadə edə bilsin. Ancaq bu gün üçün də bizim o şərab salonunun təmir olunması və müasirləşdirilməsi qonaqlara müsbət təsir bağışladı.

Siz nümayəndə heyətlərinin çıxışlarını televiziya ilə izləyirdiniz, dinləyirdiniz. Sizə məlumdur ki, çıxış edənlərin əksəriyyəti həm Azərbaycanın bu konfransın keçirilməsi barədə təşəbbüsünü çox yüksək qiymətləndirmişlər, həm də konfransın işinin yaxşı təşkil olunmasını dəyərləndirmişlər. Bu, onların rəsmi bəyanatları idi. Ancaq şəxsi, mənimlə olan danışıqlarda, Azərbaycanın konfransda iştirak edən başqa nümayəndələri ilə danışıqlarda, o cümlədən nümayəndə heyətlərinə təhkim olunmuş Azərbaycan Nazirlər Kabinetinin, Prezident Aparatının, nazirliklərin işçiləri ilə danışıqlarda hamısı çox böyük razılıq hissi ilə konfransın yaxşı təşkil olunmasını və keçirilməsini qeyd edirdilər. Bu da özü-özlüyündə bizim üçün çox əhəmiyyətlidir.

Beləliklə, biz böyük bir imtahan verdik. Azərbaycanda 1998-ci ilin sentyabr ayında yüksək səviyyəli beynəlxalq konfrans keçirildi. Burada iştirak edənlər və iştirak etməyənlərin çoxu, bütün bu işlərə cəlb olunmuş insanlar – kiçik işçidən başlayaraq ayrı-ayrı məmurlara qədər hamı, şübhəsiz [280-281] ki, Azərbaycanda belə bir konfransın keçirilməsi üçün səylərini qoymuşlar, hərə öz xidmətini, vətənpərvərliyini göstərmişdir, beləliklə də konfrans uğurla keçmiş, başa çatmışdır.

Şübhəsiz ki, bu işlərin bilavasitə rəhbərləri var idi. Mən qeyd etdim ki, komissiya təşkil olunmuşdu. Mənim sərəncamımla hələ iyun ayında yaradılmış komissiyaya Baş nazir Artur Rasizadə rəhbərlik edirdi. Komissiya sədrinin başçılığı ilə komissiya üzvlərinin hamısı çox iş görüblər. Ona görə də mən komissiyanın sədri, Baş nazir Artur Rasizadəyə və komissiyanın bütün üzvlərinə təşəkkür edirəm. Komissiyanın üzvlərindən Abid Şərifovun da xidmətini xüsusi qeyd edirəm. Çünki Baş nazirdən əlavə, TRASEKA proqramı ilə bizim Nazirlər Kabinetində o məşğul olmuşdur, bütün işçi qrupunun keçən görüşlərində iştirak etmişdir və Avropa Birliyi ilə bilavasitə əlaqələr saxlamışdır. Mən Abid Şərifovun xidmətini xüsusi qeyd edirəm.

Təbiidir, bu komissiyanın üzvlərinin hərəsi öz sahəsini təmin edibdir və hər biri mənim təşəkkürümü alır. Amma komissiyanın üzvlərindən başqa, Prezident Aparatının işçiləri də çox işlər görmüşlər. Komissiyanın üzvü olaraq şəhər icra hakimiyyəti aparatı çox işlər görmüşdür. Bizim hüquq-mühafizə orqanları bu konfransın işinin təhlükəsizliyini və ictimai asayişi təmin etmək üçün çox işlər görmüşlər. Nümayəndə heyətlərinə təhkim olunmuş şəxslər də öz vəzifəsini yerinə yetirmişlər.

Bu gün buraya dəvət olunanların hər biri bu və ya digər miqdarda, səviyyədə bu işlərdə iştirak etmişdir. Ona görə də mən konfransın hazırlanmasında, keçirilməsində iştirak etmiş bütün şəxslərə təşəkkür edirəm və hamını bu konfransın uğurlu keçməsi münasibətilə təbrik edirəm.

Konfransın Azərbaycanda keçirilməsi ölkəmiz üçün tarixi bir hadisədir. Biz tariximizi yaxşı bilirik və ona görə də [281-282] cəsarətlə demək olar ki, Azərbaycanın çoxəsrlik tarixində belə böyük beynəlxalq konfransın keçirilməsi ilk hadisədir. Doğrudur, keçmiş illərdə, xüsusən 60-70-80-ci illərdə Azərbaycanda bir çox böyük tədbirlər keçirilibdir. Onların əksəriyyəti Sovet İttifaqı respublikaları çərçivəsində olubdur. Respublikamızda bəzi beynəlxalq tədbirlər də keçirilibdir. Onlar da ya bəzi sosialist ölkələrinin iştirakı ilə, ya da bəzi beynəlxalq fəhlə hərəkatı, yaxud kommunist hərəkatı təşkilatlarının iştirakı ilə keçirilibdir. Onların heç biri yüksək dövlət səviyyəsində olmayıbdır.

Mən bir də deyirəm və qətiyyətlə, cəsarətlə deyirəm ki, tarixə nəzər salarkən Azərbaycan Respublikasının, dövlətinin, ölkəsinin tarixində bu, ilk böyük beynəlxalq konfransdır. Biz bunu yüksək qiymətləndirməliyik və bu, Azərbaycan xalqının, dövlətinin böyük nailiyyəti kimi qiymətləndirilməlidir.

Beynəlxalq konfransın Azərbaycanda keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsini, inkişaf etməsini və beynəlxalq aləmdə tamamilə tanınmasını nümayiş etdirir. Bu bizim müstəqilliyimizin, suverenliyimizin rəmzidir. Biz müstəqil dövlət kimi Bakıda 32 dövlətin nümayəndə heyətlərini qəbul etdik və dünyanın böyük bir hissəsini əhatə edən əraziyə məxsus böyük bir proqramın – tarixi İpək yolunun bərpası proqramının əsasını qoyduq. Bu, böyük tarixi hadisədir. Vətənini, torpağını, millətini, ölkəsini sevən hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının bu hadisə ilə fəxr etməyə əsası vardır və bununla hər bir adam fəxr edə bilər. Çünki bu, bizim millətimizin, ölkəmizin, dövlətimizin adıdır.

Biz Azərbaycanda dövlət müstəqilliyi əldə edəndən sonra ağır yollar keçmişik və yolumuz bu gün də asan deyildir. Bizim ən birinci vəzifəmiz o olubdur ki, Azərbaycanı dünyada olduğu kimi tanıdaq. Bu, müstəqilliyini əldə edən [221-283] hər bir ölkə üçün əsas vəzifədir. Amma bu, bizim üçün qat-qat mühüm vəzifə idi. Ona görə ki, Azərbaycan dövlət müstəqilliyini əldə edərkən artıq Ermənistanla Azərbaycan arasında üç ildən artıq idi münaqişə gedirdi. Ermənistan və ermənilərin dünyadakı diasporu, lobbisi bu

münaqişədə Azərbaycanı günahlandırmışdı. Azərbaycan haqqında demək olar ki, dünyanın bütün ölkələrində çox mənfi fikir yaranmışdı. Təkcə bütün ölkələrdə deyil, Sovetlər İttifaqında da, Moskvada da, yəni biz o vaxtlar tərkibində olduğumuz ölkədə də belə bir əhval-ruhiyyə var idi ki, guya Qarabağ münaqişəsinin yaranmasında günahkar Azərbaycandır.

Xatırlayın, hətta bizim özümüzün içimizdə olan bəzi azərbaycanlılar da ermənilərin bu fikrini gücləndirirdilər. 1988-ci ildə Moskvada nə yazılar gedirdi? Bu münaqişə nə üçün başlandı? Çünki Azərbaycan rəhbərliyi və xüsusən, o vaxtlar təqib altında olan, təcrid vəziyyətində yaşayan Heydər Əliyev, Azərbaycanın keçmiş rəhbəri guya erməniləri Azərbaycanda əzibdir və Dağlıq Qarabağa ögey münasibət göstərilibdir. Guya Dağlıq Qarabağ Azərbaycanın tərkibində olarkən inkişaf edə bilməyibdir, ona görə də ermənilər boğaza yığılıblar və indi Azərbaycanın tərkibindən çıxıb Ermənistanın tərkibinə keçmək istəyirlər. Guya bunların da əsası var, çünki bunlara ögey münasibət göstərilibdir, guya bunun da günahkarı Heydər Əliyevdir.

Siz bu yazıları, sözləri xatırlayırsınız. Bunu Moskvada təkcə Azərbaycana düşmən olan adamlar demirdilər, bunu burada bəzi azərbaycanlılar da deyirdilər. Azərbaycanın o vaxtkı rəhbərləri bunu Moskvada tribunalardan deyirdilər. Onlar kimə xidmət ediblər? Öz şəxsi ambissiyalarını həyata keçirmək üçün, şəxsi mənfur məqsədlərinə nail olmaq üçün xalqı, milləti ləkələyirdilər.

Mən o vaxt bir neçə yerə məlumat verdim ki, bunlar yalandır. Sənədlər çıxardım ki, Dağlıq Qarabağ Azərbayca[283-284]nın tərkibində ümumazərbaycan səviyyəsindən üç dəfə artıq inkişaf edibdir. Bütün illərdə, elə 20-ci illərdən başlayaraq, o cümlədən 70-ci illərdə. Rəqəmlər var idi, statistika var idi. Amma o statistikaya baxan yox idi. Həmin vaxt onlara lazım idi ki, Azərbaycanı günahlandırsınlar və Azərbaycanı günahlandırdılar, ləkələdilər. Beləliklə, həm Sovetlər İttifaqında, Moskvada belə bir fikir yarandı və həm də erməni diasporu bütün dünyada bu fikri yaratdı ki, guya bu münaqişədə Azərbaycan günahkardır.

Ona görə də mən deyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən biz çalışmışıq, məqsədimiz ondan ibarət olub ki, bax, bu mənfi fikri dağıdaq, Azərbaycanı azad, müstəqil, sivilizasiyalı bir ölkə kimi göstərək. Erməni diasporunun dediyi kimi yox. Onlar deyirlər ki, «Azərbaycanlılar vəhşidirlər, köçəridirlər, bu, millət deyil» və sairə. Siz bunları unutmusunuzmu? Bu yazılar hər yerdə yazılırdı. Bizi, azərbaycanlıları təhqir edirdilər. Bu fikir beynəlxalq aləmdə çoxlarının beyninə girmişdi.

Son beş ildə bizim apardığımız siyasət, görülən işlər, saysız-hesabsız görüşlər, xarici ölkələrə səfərlər, Azərbaycana gələn nümayəndələrlə görüşlər, beynəlxalq təşkilatlarda gur sözlər deməyimiz nəticəsində Azərbaycan haqqında fikir dəyişilmişdir.

Mən konfransdan sonra, sentyabrın 8-də qonaqları yola salandan sonra axşam saat təxminən 8-9 idi. Gəldim Prezident sarayında Yaponiyanın nümayəndəsini qəbul etdim. O, çox xahiş edirdi ki, mən onu qəbul edim, çünki o, gecə vətəninə yola düşəcəkdi. Yaponiyanın Baş naziri cənab Obutinin məktubunu mənə təqdim etmək istəyirdi. O, fevral ayında mən Yaponiyada rəsmi səfərdə olduğum zaman keçirilən görüşlərdə iştirak etmişdi. Öz təəssüratlarını söyləyir və Yaponiya ictimaiyyətinin Azərbaycan haqqında fikirləri barəsində danışırdı. Deyirdi siz Yaponiyada olduğunuz [241-285] zaman o qədər görüşlər keçirdiniz, danışıqlar apardınız ki, ölkəmizdə belə təəssürat yarandı ki, Yaponiyaya gəlmiş heç bir dövlət başçısı öz ölkəsini bu qədər geniş açmamış, təbliğ etməmişdir. Bu, onun dediyi sözlərdir. Siz məni düzgün başa düşün, mən bunu deyirəm ona görə yox ki, sizə özüm haqqımda bir şey çatdırım. Mənim buna ehtiyacım yoxdur.

Bilirsiniz, ona görə ki, bəli, Yaponiyada bizi tanımırdılar. Biz Azərbaycanı Yaponiyada da tanıtdıq və çox yaxşı tanıtdıq. İndi nə qədər Yaponiya şirkətləri gəlib Azərbaycanda işləyirlər və nə qədəri də gəlmək istəyir. Sentyabrın 8-də axşam həmin nümayəndə heyətinin başçısı bu sözləri mənə dedi.

Beləliklə, bu beynəlxalq konfrans indiyə qədər görülən işlərə demək olar ki, yekun vurdu. O mənada ki, ayrı-ayrı ölkələrə səfərlər zamanı gördüyümüz işlərlə, yaxud ayrı-ayrı ölkə başçılarının, nümayəndələrin Azərbaycana gəldiyi zaman gördüyümüz işlərlə, bizim nümayəndələrin ayrı-ayrı ölkələrə, beynəlxalq təşkilatlara getdiyi zaman gördüyümüz işlərlə bərabər və onların məntiqi nəticəsi olaraq indi 32 dövlətin nümayəndələri, 13 beynəlxalq təşkilatın nümayəndələri bir gündə, bir zamanda, bir yerdə Azərbaycanda toplaşıb respublikamızın bu gününü gördülər. Bu, Azərbaycanı tanıtmaq, müstəqil dövlət kimi göstərmək üçün ən gözəl bir vasitə idi və biz bunu göstərdik, bu, Azərbaycanın müstəqilliyinə xidmət edən və onu daha da təsdiq edən bir tədbir idi və biz bu tədbiri həyata keçirməyə nail olduq.

Şübhəsiz ki, hər bir təəssürat yayılır və yayılacaqdır. Mən dedim, - konfransda 20 ölkənin kütləvi informasiya orqanlarının 210 nümayəndəsi iştirak etmişdir. Yazılar yazılacaqdır. Bunlar artıq yazılır. Bir çox ölkələrin qəzetlərində məqalələr dərc olunur. Bunlar davam edəcəkdir. Beləliklə, Azərbaycan dünyaya müstəqil dövlət, azad, demokratik ölkə kimi göstərilir. [285-286]

Mən bir faktı da sizə demək istəyirəm. Biz bazar iqtisadiyyatını inkişaf etdiririk. Bakıya gələn prezidentlər şəhərin mərkəzində tikilmiş ofis-otel kompleksində yaşadılar. Biz Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl ilə bərabər həmin ofis-otel kompleksinin açılış mərasimini keçirdik. Bu şəxsi biznesin meydana gətirdiyi bir kompleksdir. Bu bazar iqtisadiyyatının real nəticəsidir, Azərbaycanda azad sahibkarlığın real nəticəsidir.

Sentyabrın 7-də mən dövlət başçılarına və nümayəndə heyətlərinin rəhbərlərinə qəbul verdim. O qəbul yenə də özəl sektor tərəfindən «Ramstor»un yanında tikilmiş Bakı Əyləncə Mərkəzində verildi. O da özəl sektorun, sahibkarlığın Azərbaycanda verdiyi nəticədir. Siz bunu bilirsiniz. Ancaq mən sizə deməliyəm ki, məsələn, Bakıya gələn ölkə prezidentləri ilə birlikdə idim. Onlar bu oteldə qaldılar. Onlara deyəndə ki, bu otel dövlətin deyildir, özəl sektora məxsusdur, həmin o qəbul verdiyim yer də dövlətin, hökumətin deyildir, özəl sektora məxsusdur, onlar məəttəl qaldılar. Yəni mən Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin prezidentlərini deyirəm. Şübhəsiz ki, bizim dostumuz Süleyman Dəmirəl də buna çox sevindi ki, burada həm özəl sektor yaranır və artıq yaranıbdır, həm də bu özəl sektorun yaranmasında Türkiyənin inşaat şirkətləri də iştirak edirlər. Bunun özü də böyük bir təsir bağışlayır ki, həqiqətən Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir.

Bilirsiniz, bu, adi bir hal deyildir. Şəhərin mərkəzində 17 mərtəbəli ofis-otel kompleksi tikilibdir. Bunu da özəl sektor yaradıbdır. Deməli, bu, bazar iqtisadiyyatının əməli nəticəsidir və bunun dönməzliyidir. Bəli, bu, xarici sərmayə üçün inandırıcı bir haldır ki, Azərbaycanda şərait yaranıbdır. Hər bir sahibkar, sərmayədar gəlib sərmayə qoyub, iş görüb onun nəticəsini görə bilər. Bu da nümayiş olundu. [286-287]

Ən nəhayət, Bakının bugünkü görünüşü, əhval-ruhiyyəsi, insanların vəziyyəti. Mən yenə də dostum Süleyman Dəmirəlin sözlərini xatırlatmaq istəyirəm. Deyəsən o, 16-cı mərtəbədə yaşayırdı. Bakı, Xəzər dənizi oradan çox gözəl görünür. Deyir, mən səhər durub baxdım ki, insanlar gedirlər. Hələ səhər erkən adamlar az idi. Sonra yavaş-yavaş insanlar, uşaqlar çoxaldı və oradakı parka gəlib, oturub istirahət edirdilər. Deyir ki, mən yanımda olan adamlara söylədim ki, baxın, Heydər Əliyevin Azərbaycanda yaratdığı sakitlik, sabitlik budur, - insanlar rahat gəzirlər, istirahət edirlər. O, oradan bunların hamısını müşahidə etmişdi, görmüşdü, öz təəssüratlarını mənə deyirdi.

Amma bu, yeganə təəssürat deyildir. Belə bir təəssürat hamısında var idi. Yəni bu gün Azərbaycan demokratik yolla, sərbəst iqtisadiyyat yolu ilə gedən azad bir ölkə kimi göz qabağındadır və Azərbaycanın, Bakının bugünkü mənzərəsi, görünüşü respublikamıza gələn həm dövlət başçıları, həm başqa nümayəndələr, həm də nümayəndə heyətlərinin üzvləri üçün açıq-aydındır.

Beləliklə, biz Azərbaycanı göstərdik. Yəni beş-altı il bundan öncə Azərbaycan haqqında olan fikri və bu gün Azərbaycan haqqında olan fikri göstərdik. Əgər o fikir kənarda Azərbaycan haqqında cürbəcür böhtanlar əsasında yaranmışdısa, bu fikir isə Azərbaycanın bugünkü gerçəkliyi və görünüşü əsasında yaranır. Həm ictimai-siyasi vəziyyət, sabitlik, həm də qurulmuş infrastruktur zəminində yaranır.

Bilirsiniz ki, Bakı həmişə gözəl şəhər olubdur. Mən yenə də Süleyman Dəmirəlin sözünə qayıdıram. O deyir ki, nümayəndə heyətimizə bildirdim ki, xatirinizdədirmi, mən 1991-ci ildə Bakıya gələndə nələr var idi. İndi görün, Azərbaycan nə yerdədir, nə vəziyyətdədir. Bəli, 1991-ci ildə buraya gələn adam o vaxt gördüyü ilə indi gördüyü arasında nə qədər fərq olduğunu söyləyir. Bunu dərhal görmək mümkün olur. [287-288]

Beləliklə, bu konfrans bizə belə bir böyük imkan da verdi və biz bundan istifadə edərək bundan sonra da Azərbaycanın həqiqətlərini, bugünkü reallığını, gerçəkliyini hər yerdə, hər ölkədə göstərməliyik, yaymalıyıq, təbliğ etməliyik. Bu, ona görə lazımdır ki, bizi daha da tanısınlar. Bir də ona görə lazımdır ki, Ermənistan- Azərbaycan münaqişəsi ilə əlaqədar Azərbaycan haqqında yaranmış mənfi fikirləri biz gərək tamamilə ləğv edək və konfransın keçirilməsi bunun üçün çox böyük vasitə olmuşdur.

Konfransın işi, onun nəticələri, hesab edirəm ki, bundan sonra da təhlil və təbliğ olunmalıdır. Konfransa hazırlığın Azərbaycan ictimaiyyəti üçün bir əhəmiyyəti də ondan ibarətdir ki, Azərbaycanda ictimaiyyət tarixi İpək yolunun nə olduğunu bildi. Bəlkə də ayrı-ayrı insanlarda İpək yolu haqqında çox az məlumat var idi, amma indi İpək yolu ictimaiyyətimiz üçün açıldı.

Məsələn, təsəvvür edin, bu konfransın hazırlanması Azərbaycanda İpək yoluna həsr olunmuş nə qədər elmi konfransların keçirilməsinə səbəb oldu. Elmi araşdırmalar aparılır, kitablar yazılır. Artıq «İpək yolu» jurnalı çıxır, gərək ki, onun iki nömrəsi çıxıbdır. Qəzet nəşr olunur. Onlar ingilis dilində də çap olundu, nümayəndə heyətlərinə də verildi. Yaxud, bizim Prezident Aparatının humanitar siyasət şöbəsi İpək yoluna həsr olunmuş bir yaxşı kitab hazırladı. Orada çox gözəl tarixi xəritələr, materiallar toplandı və gələn nümayəndələrin hamısına verildi.

Mən sizə demişdim, o kitabın tirajını artırmaq lazımdır və ümumiyyətlə, yaymaq lazımdır. Çünki o kitabda Azərbaycanın və İpək yolunun keçmiş, tarixi xəritələri vardır. Onları, ola bilsin ki, ayrı-ayrı alimlər, tədqiqatçılar bilirlər. Amma bizim ictimaiyyət bilmir. Ancaq bunu bilmək lazımdır. Çünki artıq yeni proqram meydana çıxıbdır və o proqram da bundan sonra illər boyu həyata keçiriləcəkdir. [288-289]

Yəni konfransa qədər çox işlər görülmüşdür. Amma hesab edirəm ki, indi, konfransdan sonra bizim alimlərimiz, tədqiqatçılarımız bu sahədə daha çox işlər görə bilərlər, kitablar, elmi əsərlər yaza bilərlər, bu məsələni dərindən tədqiq edə bilərlər və konfransın nəticələrini təhlil edə bilərlər. Ona görə də konfransın nəticələri, imzalanmış sənədlər geniş təbliğ olunmalıdır, onun mahiyyəti, mənası ictimaiyyətə çatdırılmalıdır və bu barədə mütəmadi iş aparılmalıdır. Güman edirəm ki, bu tədbirlər hazırlanan sənədlərdə öz əksini tapacaqdır. Ancaq mən indidən bunu deyirəm ki, bizim müvafiq elmi təşkilatlar, dövlət orqanları bu məsələlərlə ciddi məşğul olsunlar.

Tarixi İpək yolunun bərpası ilə əlaqədar keçirilmiş Bakı Beynəlxalq konfransı XXI əsr üçün yeni böyük bir proqram açdı. İndi dünyada son 10 ildə baş vermiş dəyişikliklərlə əlaqədar bir neçə proqram

yaranıbdır. Bu proqramların bəzisi regional xarakter daşıyır, bəzisi bir neçə regionu birləşdirir. Hər birinin özünəməxsus əhəmiyyəti vardır.

Biz Avropa Birliyi ilə birgə yeni böyük bir proqram irəli sürdük. Bu proqram isə Avropanın Asiya ilə birləşməsi və burada Qafqazın, o cümlədən xüsusən Azərbaycanın rolu və əhəmiyyətidir. Güman edirəm ki, XXI əsrdə bu proqram genişlənəcək, inkişaf edəcəkdir. Ancaq biz XXI əsrə doğru gedərək həm ölkəmiz, həm regionumuz, həm də bəşəriyyət üçün yeni bir proqramın irəli sürülməsinin iştirakçısıyıq və bununla əlaqədar keçirilən konfransın təşkilatçısıyıq. Biz çalışmalıyıq ki, bundan sonra da öz rolumuzu göstərə bilək.

Konfransın yekunlarından biri də ondan ibarətdir ki, proqramın həyata keçirilməsi üçün daimi katiblik yaradılıb və daimi katibliyin də Bakıda yerləşməsi qərara alınıbdır. Mən deməliyəm ki, bu qərar da asanlıqla qəbul olunmayıbdır. Çünki bu proqramda iştirak edən bir neçə başqa ölkələr də arzu edirdilər ki, katiblik onların ölkəsində yerləşsin. Bu [289-290] qərarın da əhəmiyyətinin nədə ibarət olduğunu izah etməyə ehtiyac yoxdur. Ancaq bizim gördüyümüz işə qiymət verildiyinə görə və bizim səylərimiz nəticəsində sazişi imzalayan əsas ölkələrin hamısı razı oldular ki, birincisi, katiblik təsis olunsun, ikincisi də bu katiblik Bakıda, Azərbaycanda yerləşsin. Bu, konfransın yekunu olaraq bizə göstərilən böyük etimaddır, qayğıdır. Beləliklə, biz bu proqramın həyata keçirilməsi barəsində öz uzərimizə böyük məsuliyyət götürmüşük.

Təsəvvür edin, indi dünyada belə proqramlar çoxdur. Məsələn, Qara dəniz hövzəsi dövlətlərinin İqtisadi Əməkdaşlıq Təşkilatı vardır, onun katibliyi İstanbulda yerləşir. Bu da təbiidir. Çünki vaxtilə, 1992-ci ildə Türkiyənin Baş naziri Süleyman Dəmirəlin təşəbbüsü ilə belə bir təşkilat yaranıbdır. Yaxud İqtisadi Əməkdaşlıq təşkilatı vardır, onun katibliyi Tehranda yerləşir. Bu da məlumdur. Başqa belə təşkilatlar vardır və onların katibliyi ayrı-ayrı ölkələrdə yerləşir. Ancaq Böyük İpək yolu, Avropanı və Asiyanı bir-birinə bağlayan, birləşdirən proqramı həyata keçirən təşkilatın katibliyi Azərbaycanda yerləşir. Bir də qeyd edirəm, bu, bizə göstərilən böyük etimaddır və bizə bu proqramın həyata keçirilməsi sahəsində səy göstərmək üçün imkanlar yaradıbdır. Biz bunu da qiymətləndirməliyik və bu etimadı doğrultmağa çalışmalıyıq.

Beləliklə, bizim Avropa Birliyi ilə uğurlu əməkdaşlığımızın nəticəsində, TRASEKA proqramına qəbul olunmuş ölkələrlə əməkdaşlığımızın nəticəsində və bu sahədə göstərdiyimiz təşəbbüslərin nəticəsində Azərbaycanda böyük beynəlxalq konfrans keçirildi və biz də bu gün bunun nəticələrini görürük.

Mən sizi və bütün Azərbaycan xalqını, vətəndaşlarını bu böyük və tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu proqramın həyata keçirilməsi üçün dəyərli işlər görəcəyik və bu vasitə ilə [290-291] Avropa ilə Asiya arasında olan inteqrasiya prosesinə öz xidmətimizi göstərəcəyik, Azərbaycanın Avropa-Asiya əməkdaşlığında daha da əhəmiyyətli rolunu təsdiq edəcəyik.

Mən əminəm ki, biz bundan sonra da beynəlxalq aləmdə Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin əhəmiyyətini nümayiş etdirəcək və respublikamızı azad, sərbəst, müstəqil ölkə, dövlət kimi bundan sonra da irəliyə aparacağıq.

Mənim sizə çatdıracağım sözlər bundan ibarətdir. Bugünkü müşavirənin də məqsədi beynəlxalq konfransın yekunları haqqında mülahizələrimi sizə çatdırmaqdan ibarətdir. Sizin mənə bir sözünüz varmı? Varsa, buyurun. Sualınız, başa düşülməyən heç bir məsələ yoxdur ki, hər şey aydındırmı?

* * *

**A r t u r R a s i z a d ə**: Cənab prezident, komissiyanın ünvanına dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Əsas həqiqət ondan ibarətdir ki, beynəlxalq konfransın hazırlanması, keçirilməsi, orada qəbul olunmuş sənədlər ilk növbədə Sizin uğurunuzdur. Bu beynəlxalq konfrans Sizin adınızla bağlıdır. Səkkiz ölkənin prezidentlərinin də Azərbaycana gəlməsi onların Sizə olan hörmətinin və apardığınız siyasətin nəticəsidir.

Cənab prezident, bütün bunlara görə Sizi bir daha ürəkdən təbrik edirik. Sizi əmin edirik ki, qarşımızda qoyduğunuz vəzifələrin yerinə yetirilməsi üçün gecə-gündüz çalışacağıq.

Cənab prezident, bugünkü müşavirədə iştirak edənlərin hamısının adından Sizə minnətdarlığımı bildirirəm. Yenə də təkrar edirəm, bu beynəlxalq konfrans Sizin adınızla bağlıdır.

Möhtərəm prezident, Siz bu konfransın hazırlanmasında və keçirilməsində bizim rastlaşdığımız çətinliklər haqqında danışdınız. Doğrudan da, bu beynəlxalq konfransın başqa [291-292] ölkələrdə keçirilməsi məsələsi qarşıya çıxmışdı. Cənab prezident, məhz Siz konfransın Bakıda keçirilməsinə nail oldunuz. Hər bir xırda və böyük məsələ cənab prezidentin nəzarəti altında idi. Bunun nəticəsində konfrans həqiqətən də çox böyük uğurla başa çatdı.

Cənab prezident, Sizə təşəkkür edirəm və minnətdarlığımızı bildirirəm. Bir daha deyirəm ki, bu beynəlxalq konfransın Bakıda keçirilməsi Sizin adınızla, şəxsiyyətinizlə bağlıdır. Çox sağ olun. [292]

## MƏŞHUR PİANOÇU, HƏMYERLİMİZ BELLA DAVİDOVİÇİN KONSERTİNDƏN SONRA ONUNLA VƏ KONSERTİN DİGƏR İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Respublika sarayı*

*10 sentyabr 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Sizi uğurlu çıxışınız münasibətilə təbrik edirəm. Oğlunuz da əla çıxış etdi. Siz Azərbaycanda çox məşhur şəxsiyyətsiniz. Azərbaycandan çoxdan çıxıb getsəniz də, sizi unutmayıblar, hey sizi xatırlayırlar. Bununla bərabər, fəxr edirlər ki, bizim bakılı dünya şöhrətli pianoçudur.

Bu gün səhnədə çıxış edərkən bakılı olduğunuzu söylədiniz və tamaşaçılar bunu hərarətlə qarşıladılar. Bilirsinizmi, bu gün mən sizi məmnunluqla dinlədim, konsert qurtardıqdan sonra isə siz cəmi bir neçə kəlmə dediniz, amma Bakı haqqında deyilən bu sözlər çox xoş idi. Həqiqətən gözəl şəhərdir, bu şəhər nə qədər görkəmli adamlar yetirmişdir. Bu adamlar bütün dünyada məşhurdurlar. Alimlər, musiqiçilər, rəssamlar, bəstəkarlar. Nə qədər belə adamlar, nə qədər belə nəsillər olubdur! Bir sözlə, mən bu barədə düşünərkən fəxr edirdim ki, şəhərimiz, ölkəmizin paytaxtı, artıq müstəqil dövlətimizin paytaxtı necə misilsiz şəhərdir, belə zəngin tarixə və zəngin ənənələrə malikdir.

Burada musiqi ənənələri olmasaydı, belə istedadlar yetişməzdi. Burada musiqi mühiti, şəraiti, atmosferi, ziyalılıq atmosferi, belə yüksək intellekt atmosferi olubdur. Burada [293-294] belə adamlar da, ailələr də olubdur. Bu ailələr, - onlar burada doğulmuş 70 yaşlıların nəslidir. Onlar burada anadan olmuş, 20-ci, 30-cu, 40-cı illərdə boya-başa çatmışlar.

**B e l l a D a v i d o v i ç**: Hörmətli cənab prezident. Xoş sözlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mən Bakını doğma şəhərim kimi sevirəm. 70 illik yubileyim ilində öz doğma şəhərimin küçələri ilə gəzirəm. Bütün illər ərzində daim fəxr etmişəm ki, mən bakılıyam.

Bilirsiniz, mənim valideynlərim əsl bakılı idilər. Mənim babam konsertmeyster olmuşdur. Mən fəxr edirəm ki, o, hələ 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə Azərbaycanı uğurla təmsil etmiş, hətta bu ongünlükdə iştirakına görə ordenə layiq görülmüşdür. Çox sevdiyimiz dahi Üzeyir bəyin ən gözəl sənət əsərlərindən olan «Koroğlu» operasının ilk tamaşası da həmin ongünlükdə olmuşdur.

**H e y d ə r Ə l i y e v**: Bunun sizin üçün əhəmiyyəti var ki, çox böyük fasilədən sonra da xalq sizi unutmayıbdır. Mən fasilədə salona göz gəzdirdim. Salondakılar əsasən musiqiçilər, incəsənət aləminin adamları, Azərbaycan ziyalılarının nümayəndələri, görkəmli incəsənət xadimləri idilər. Odur ki, bu, sizin üçün də, bakılılar üçün də hadisədir, ölkəmiz üçün də hadisədir.

İndi Bakının çox yaxşı vaxtıdır. Sentyabr Azərbaycan üçün ümumiyyətlə yaxşı aydır. Biz burada iki gün, sentyabrın 7-8-də böyük beynəlxalq konfrans keçirdik. Bu işlərdən yalnız dünən başım açıldı, hava həqiqətən xoş, mülayimdir, bizdə deyildiyi kimi, indi ilin ən yaxşı çağıdır. Biz konfransı çox uğurla keçirdik, çoxlu qonaq vardı – onlar 32 ölkədən gəlmişdilər. Onların arasında prezidentlər, nazirlər, 13 beynəlxalq təşkilatın nümayəndələri var idi. Böyük tarixi İpək yolunu bərpa edirik. Bu İpək yolu hələ eramızdan əvvəl mövcud olmuş və orta əsrlərdə bir çox coğrafi kəşflərlə əlaqədar yox olub [294-295] getmişdir, indi isə onu bərpa edirik. O, Asiya ilə Avropanı birləşdirmək üçün çox gərəkli, zəruri olmuşdur.

Təsəvvür edirsinizmi, Birləşmiş Ştatlardan tutmuş Yaponiyayadək nümayəndələr vardı – ABŞ, bütün Avropa və Asiya. Təbii ki, Yaponiya, Çin, Monqolustan Mərkəzi Asiyanın bütün ölkələri – Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Qafqaz – Azərbaycan, Gürcüstan, Ermənistan, İran, Rusiya, sonra – Türkiyə və Avropa ölkələri, ta İspaniyaya qədər, demək olar, bütün Avropa ölkələri bu konfransda iştirak edirdilər. Biz nəqliyyat dəhlizini bax belə çəkirik. Bir sözlə, hava bizə onda da kömək etmişdi, indi də kömək edir.

O ki qaldı simfonik orkestrin əla çıxış etdiyi barədə ümumi rəylə mən də razılaşıram. Bilirsiniz, müsiqiçilər 1989-cu ildən bəri böhran dövrü keçirmişlər. Lakin sonra mən simfonik orkestrə kömək haqqında qərar qəbul etdim. İndi onlar yeni həyata başlamışlar. Biz onlara bundan sonra da kömək edəcəyik.

Bu gün siz hamınız, konsertin bütün iştirakçıları xoşuma gəldiniz, siz çox yaxşı görünürdünüz. Hətta heyran qaldım ki, siz çox mürəkkəb əsərləri necə rəvan və səlis ifa edirdiniz.

Bella Davidoviçə və konsertin digər iştirakçılarına yaradıcılıqda yeni uğurlar arzulayıram. Sağ olun. [295]

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB YEVGENİ MAKSİMOVİÇ PRİMAKOVA

Hörmətli Yevgeni Maksimoviç!

Sizi Rusiya Federasiyası hökumətinin sədri vəzifəsinə təsdiq edilməyiniz münasibətilə təbrik edirəm.

Rusiya cəmiyyətinin demokratik, bazar islahatları yolunda qarşılaşdığı çətinliklərin aradan qaldırılması sahəsində Sizə uğurlu iş arzulayıram.

Əminəm ki, Rusiya – Azərbaycan ənənəvi dostluq münasibətlərini regionda sülh və sabitlik, xalqlarımızın əmin-amanlığı və tərəqqisi naminə daha da möhkəmləndirmək və inkişaf etdirmək üçün böyük potensial vardır.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 sentyabr 1998-ci il*
[296]

## XALQ ARTİSTİ ARİF MƏLİKOVA

Hörmətli Arif Məlikov!

Sizi – müasir Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri olan görkəmli sənətkarı 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Üzeyir Hacıbəyov və Qara Qarayev məktəbinin ənənələrini layiqincə davam etdirərək hələ gənc yaşlarınızda böyük sənət uğurları qazanmısınız. Millilikla müasirliyin vəhdətinin gözəl nümunəsi olan «Məhəbbət əfsanəsi» baletiniz Azərbaycan müsiqisinin şöhrətinin artmasında müstəsna rol oynamışdır. Musiqi dilinin zənginliyi, obrazlarının cazibədarlığı və hisslərin poetik ifadəsi ilə səciyyələnən bu balet dünyanı fəth edərək teatr səhnələrində indi də müvəffəqiyyətlə tamaşaya qoyulmaqdadır. Sonrakı dövrlərdə bəstələdiyiniz balet əsərlərinin taleyi də uğurlu olmuşdur.

Dövrümüzün dərin ziddiyyətlərini əks etdirən simfoniya və simfonik poemalarınız beynəlxalq festivallarda, bir çox ölkələrin musiqi salonlarında daim səslənir. Romans və mahnı janrında əsərlərin müəllifi kimi siz dinləyicilərin dərin rəğbətini qazanmısınız. Kinofilmlərə və dram tamaşalarına yazdığınız musiqi də yaradıcılığınızın mühüm bir qolunu təşkil edərək musiqi xəzinəmizi zənginləşdirir.

Azərbaycanda gənc bəstəkar kadrların yetişdirilməsi sahəsindəki xidmətləriniz yüksək təqdirə layiqdir. Sizin ictimai fəaliyyətiniz əsl vətəndaşlıq mövqeyini əks etdirir. Azərbaycan xalqının ağır «Qara yanvar» günlərində təcavüzə qarşı etirazınız, haqq-ədalətə çağırışlarınız ən yüksək kürsülərdən cəsarətlə səslənirdi. [297-298]

Ümidvaram ki, fitri istedad, milli musiqimizə sonsuz bağlılıq, sənət yollarında əldə etdiyiniz böyük təcrübə ilə səciyyələnən yaradıcılığınız Azərbaycan mədəniyyətinin daha da zənginləşməsinə bundan sonra da xidmət edəcəkdir.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 sentyabr 1998-ci il*
[298]

## «AZƏRBAYCAN» QƏZETİNİN KOLLEKTİVİNƏ

Azərbaycanın dövlət müstəqilliyi tarixində xüsusi rol oynamış «Azərbaycan» qəzetinin 80 illiyi tamam olur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış «Azərbaycan» qəzeti yarandığı gündən milli azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra fəaliyyətini dayandıran «Azərbaycan» qəzeti xalqımızın 1991-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir.

Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən «Azərbaycan» qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və azad, demokratik cəmiyyət qurulması işində ölkəmizin digər mətbuat orqanları kimi, «Azərbaycan» qəzetinin də üzərinə böyük vəzifələr düşür. İnanıram ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına dönməz sədaqət göstərmiş [299-300] «Azərbaycan» qəzetinin kollektivi bundan sonra da respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi nümayiş etdirərək, xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirə biləcəkdir.

Ölkəmizin adını daşıyan və demokratik, milli dövlətçiliyimizin yaşıdı olan «Azərbaycan» qəzetinin 80 illiyi münasibətilə sizi ürəkdən təbrik edir, kollektivinizə daha böyük yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 sentyabr 1998-ci il*
[300]

## AZƏRBAYCAN QADINLARI QURULTAYINA

Hörmətli qurultay nümayəndələri!

Sizi – Azərbaycan qadınlarının nümayəndələrini müstəqil respublikamızın ilk qadınlar qurultayının açılışı münasibətilə ürəkdən təbrik edir və qurultayın işində müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan qadını əsrlər boyu cəmiyyətimizin həyatında müstəsna rol oynamışdır. Qədim rəvayət və dastanlarımızda müdrik və gözəl qadın obrazlarının bədii təsviri verilmişdir. «Kitabi-Dədə Qorqud»un qadın surətləri bu günə qədər mətinliyin, böyük iradənin və mərdliyin parlaq rəmzi sayılır.

Azərbaycan tarixinin bütün dövrlərində böyük fitri istedada, dərin zəkaya, möhkəm iradəyə malik şair, hökmdar, döyüşçü qadınlar fəaliyyət göstərmişlər. Hələ orta əsrlərdə Məhsəti Gəncəvinin şer məclisləri Azərbaycan qadınının adını uzaq ellərdə tanıtmışdı.

Dahi Nizami öz «Xəmsə»sində Şirin və Məhinbanu, Fitnə və Nüşabə kimi ölməz qadın obrazları yaratmışdır. Həmin dövrdə Əcəmi Naxçıvani tərəfindən ucaldılmış Möminə Xatun türbəsi əzəmətli memarlıq abidəsi olmaqla yanaşı, həm də xalqımızın qadına göstərdiyi hörmət-izzətin parlaq təcəssümüdür.

Şair və sənətkarlarımıza ilham verən Azərbaycan qadınları ana dilimizi, adət-ənələrimizi, xalq yaradıcılığının ən gözəl nümunələrini qoruyub saxlamaqla, milli mədəniyyətimizin inkişafında misilsiz rol oynamışlar. Həqiqətən bütün Azərbaycan mədəniyyəti əslində həssas qadın qəlbini, qadın zəkasını və nadir qadın müdrikliyini əks etdirən güzgüdür. [301-302]

XIX əsrdən Azərbaycanda baş verən ictimai-siyasi proseslər, neft sənayesinin sürətli inkişafı qadınların maariflənməsinə və ictimai həyata qoşulmasına da güclü təkan verdi. Dünyəvi teatr, demokratik mətbuat, anadilli məktəb Azərbaycan qadınlarının hərtərəfli inkişafı üçün yeni üfüqlər açdı. Tariximizdə ilk dəfə olaraq qadınlara seçib-seçilmək hüququ verildi. Qadın demokratik cəmiyyətin fəal üzvü kimi çıxış etməyə başladı.

1920-1991-ci illərdə Azərbaycan qadını olduqca mürəkkəb və şərəfli yol keçmişdir. Qısa bir müddətdə qadınlar arasında savadsızlıq ləğv edilmiş və təhsil səviyyəsi kəskin surətdə artmışdır. Qadınlar pedaqoq, həkim, mühəndis və digər peşələrə yiyələnmişlər. Yaradılmış qadın şuraları, «Azərbaycan qadını» jurnalı Azərbaycan qadın hərəkatının inkişafında mühüm rol oynamışdır. Azərbaycan qadınları təhsildə, elmdə və mədəniyyətdə kişilərlə bərabər layiqincə təmsil olunmuşlar. Müstəqillik dövründə üzləşdiyimiz ağır sınaqlardan – Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ərazimizin 20 faizinin işğal edilməsi nəticəsində yaranmış sosial-iqtisadi çətinliklərdən əziyyət çəkən ilk növbədə qadınlarımız oldu.

İqtisadi əlaqələrin qırılması, sosialist sistemindən sərbəst iqtisadiyyat formasına keçid hər bir azərbaycanlı ailəsində qadınların üzərinə çox ağır problemlər yükü qoydu. Müstəqil dövlətçiliyimizə mane olmağa çalışan daxili və xarici qüvvələr Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdılar. Dövlət quruculuğumuzun bu mürəkkəb mərhələsində qadınların böyük xidməti oldu. Həmişə sülhün, əmin-amanlığın carçısı olmuş Azərbaycan qadınları respublikada baş verən mürəkkəb ictimai-siyasi proseslərin gedişində daim milli dövlətçilik mövqeyindən çıxış etmişlər. Bunu onlar 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri zamanı bir daha əyani nümayiş etdirdilər. [302-303]

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı.

Bu gün ölkəmizin qarşısında duran problemlərin həllində qadınların fəal iştirakı xüsusi əhəmiyyət kəsb edir. Qadınların problemləri ilə məşğul olan dövlət qurumu – Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Respublikamızda çoxsaylı qadın təşkilatı fəaliyyət göstərir. Bütün Azərbaycan qadınlarının bir məqsədi, bir amalı vardır: Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirmək.

XX əsrdə Azərbaycan qadınlarının dörd qurultayı keçirilmişdir. Onların hər biri Azərbaycanda qadın hərəkatının inkişafında mühüm bir mərhələ olmuşdur.

Ümidvaram ki, cəmiyyət qarşısında öz məsuliyyətini və rolunu dərindən dərk edən Azərbaycan qadınlarının XXI əsrin astanasında keçirdiyi bu qurultay müstəqil respublikamızın tarixində mühüm yer tutacaqdır.

Qurultayınıza uğurlar diləyirəm, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 sentyabr 1998-ci il*
[303]

## AZƏRBAYCAN QADINLARI QURULTAYINDA NİTQ

*Respublika sarayı*

*15 sentyabr 1998-ci il*

Əziz qadınlar, analar, bacılar, qızlar!
Hörmətli qurultay!

Mən sizi – müstəqil Azərbaycanın ilk, Birinci Qadınlar Qurultayının iştirakçılarını, bütün Azərbaycan qadınlarını səmimi qəlbdən salamlayır, sizə cansağlığı, səadət, bütün işlərinizdə və qurultayın işində böyük uğurlar arzulayıram.

Azərbaycanın qadınlar qurultayına mənim təbrik məktubum dünən sizə çatıbdır. Təəssüf edirəm ki, dünən sizin qurultayın işində iştirak edə bilməmişəm. Ancaq bu, mənim iştirak etməmək fikrimlə bağlı olmayıb, sadəcə, sizin təşkilat komitəsi deyib ki, qurultaya nə vaxt gəlməliyəm, o vaxtda da gəlmişəm. Mən intizamlı adamam. Əgər desəydilər ki, dünən gəlmək lazımdır, gəlib bu salonda oturardım. Sizə deyim ki, sizinlə bir yerdə, sizin yanınızda olmaq və bu salonda sizinlə bir yerdə oturmaq bütün başqa işlərimdən mənim üçün xoşdur.

Ancaq dünən burada qurultayın işi, çıxışlar haqqında, deyilən sözlər, irəli sürülən təkliflər haqqında mənim məlumatım var. Əmin ola bilərsiniz, - bu, məni o qədər maraqlandırır ki, sizin qurultay televiziya vasitəsilə videoya çəkilibdir, vaxt tapıb onun hamısına baxacağam və hesab edin ki, mən dünən burada sizin yanınızda olmuşam. [304-305]

İndi isə burada həqiqətən çox fəal çıxış eləyiblər. Doğrudur, onlar sizin adınızdan çıxış ediblər. Ancaq biri, ikisi, üçü çıxış edəndə istədim əlimi qaldırıb deyəm ki, a kişi, bəsdir çıxış elədin, qoy qadınlar çıxış etsinlər. Ancaq bilirdim ki, sizin reqlamentlə, qanun-qayda ilə belə yazılıbdır. Yenə də deyirəm, intizamlı adamam, buna riayət etdim, səbrlə kişilərin çıxışlarını dinlədim.

Amma sizin bu qurultayın əsas mənası, məzmunu bizim nazirlərimizin, yəni kişilərin çıxışı deyildir. Doğrudur, onlar bölmələrdəki çıxışların, müraciətlərin yekunlarını qurultay iştirakçılarına çatdırdılar və çox əhəmiyyətli məlumatlar verdilər. Ancaq mən bugünkü şəxsi təəssüratımı deyirəm ki, qurultayın əsas məzmunu, mənası, bu qurultayda hökm sürən ab-hava, əhval-ruhiyyə sizin birliyiniz, həmrəyliyiniz, sevinciniz və sizdə olan ruh yüksəkliyidir. Bu, məni çox sevindirdi.

Mən bu gün bu salona baxarkən bir fikir söyləmək istəyirəm. Mən Azərbaycanın tarixində son əlli ildə keçirilən, demək olar, bütün mərasimlərin iştirakçısı olmuşam. Xüsusən 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayan zamandan bütün mərasimlərdə iştirak etmişəm. Bu salonda ilk dəfə təntənəli mərasim 1972-ci ilin dekabr ayında olubdur. Ondan sonra burada qurultaylar, beynəlxalq konfranslar, keçmiş zamanlarda da, indi, biz dövlət müstəqilliyi əldə edəndən sonra da çox toplantılar, qurultaylar, təntənəli mərasimlər, yubileylər keçirilibdir. Əksəriyyətində də mən iştirak etmişəm. Bunların hər birinin özünəməxsus yeri var, hər biri xalqımızın, ölkəmizin tarixinin müəyyən səhifəsidir. Böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, bunların hamısı yüksək səviyyədə keçibdir.

Ancaq bu gün bu salondakı mənzərə Azərbaycanın tarixində ilk dəfə olan mənzərədir. Keçmiş Sovetlər İttifaqı vaxtında Azərbaycan xanımlarının dörd qurultayı keçirilmişdir. O qurultaylar haqqında məlumatlar var, onla[305-306]rın hər birinin özünəməxsus əhəmiyyəti var və Azərbaycanda qadın hərəkatının, qadınların inkişafında çox böyük rol oynamışlar. Ancaq onların heç birisi bununla müqayisə oluna bilməz. Şübhəsiz, bugünkü qurultayın əsasını, mənasını, məzmununu təşkil edən odur ki, bu, müstəqil Azərbaycan Respublikasının qadınlarının ilk qurultayıdır. Ancaq bununla yanaşı, yenə də deyirəm, iyirmi beş yaşı olan bu salonda ilk dəfə yalnız məhz qadınlar toplaşıblar, kişilər isə çox azlıq təşkil edirlər. Qadınlar insan cəmiyyətinin ən gözəl, ən zəkalı hissəsi olduğuna görə, təsəvvür edin, bu salonda nə qədər gözəllik var! Əgər ayrı-ayrı kişilər, bu nazirlər burada oturmasaydılar bu salon necə olardı. Ancaq bilirəm ki, siz buna razı olmazdınız, çünki siz də istəyirsiniz ki, aranızda bir az kişilər olsun. Həqiqətən, çox gözəl bir mənzərədir, gözəl mühit, gözəl əhval-ruhiyyədir.

Nəhayət, mən sizin dünənki çıxışlarınızın şərhini eşitməmişdim. Amma bu gün buradakı əhval-ruhiyyə, mühit, iqlim və qəbul etdiyiniz sənədlər və xüsusən son sənəd- qadınlar qurultayının bütün Azərbaycan qadınlarına müraciəti məni çox həyəcanlandırdı, coşdurdu, sevindirdi. Ağdamlı qızımız burada şer oxuyanda mən çox həyəcanlandım, mənə həddindən artıq təsir etdi. O təsirin altında sizin hamınızı dinləyirdim. Qurultayın Azərbaycan qadınlarına müraciəti həm məzmunu, həm də onu oxuyan bacımızın səsi ilə məni daha da həyəcanlandırdı. Ümumiyyətlə, mən çox mərasimlər görmüşəm, həyəcanlandığım, coşduğum vaxtlar da olubdur. Amma bilin, inanın, bugünkü qədər həyəcanlı, sevincli, coşğun olmamışam. Bu da burada bir daha hiss etdiklərim – sizin mənə olan münasibətiniz, hissiyyatlarınız və eyni zamanda mənim sizə olan münasibətim, hissiyyatlarım, sevincim və məhəbbətimdir.

Hesab edirəm ki, bu qurultay XX əsrdə Azərbaycanın tarixində ən böyük tarixi hadisələrdən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcəyin [306-307] qadın hərəkatının əsasını qoyublar, qadınların cəmiyyətdə fəallığının, onların cəmiyyət və dövlətin həyatında iştirakının əsasını qoyublar. Siz bunun əsasını qoymusunuz, böyük iş görmüsünüz. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.

Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır. Ancaq bununla bərabər, əsrlər boyu Azərbaycan qadınının üzərinə böyük zəhmətlər düşmüşdür. O zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmişdir və heç vaxt bu zəhmətdən inciməmişdir. Tarixi keçmişimizdə Azərbaycan qadınının görkəmli nümayəndələri olmuşdur. Onların adları dünən də, bu gün də burada çəkilibdir. Ancaq bununla yanaşı, Azərbaycan qadını əsrlər boyu bir çox hüquqlardan məhrum olmuşdur.

Ona görə də sona çatan XX əsr Azərbaycan qadını üçün böyük nailiyyətlər, hadisələr, böyük dəyişikliklər əsri olmuşdur. Ən böyük nailiyyət ondan ibarətdir ki, Azərbaycan qadını azadlığa çıxmışdır. Azərbaycan qadınının emansipasiyası tarixi bir hadisə, böyük inqilabdır. İndi qadınlar da bugünkü vəziyyətlərinə öyrəşiblər, biz hamımız da öyrəşmişik. Bəzən keçmişi unudarkən elə gəlir ki, həmişə belə olubdur və belə də olmalı idi. Həqiqətən belə olmalı idi, Azərbaycan qadını buna layiqdir.

Amma əslində isə belə olmayıbdır. Azərbaycan qadını zülm, əziyyət çəkib, ana olub, övlad böyüdüb, kişisinə xidmət edib, ailəsini, elini-obasını saxlayıbdır, çox hüquqlardan məhrum olubdur. 1918-1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan qadınına tarixdə ilk dəfə hüquqlar – seçmək və seçilmək hüququ verilibdir. Sonrakı dövrdə, 1920-ci ildən başlayaraq, Azərbaycan qadınının həyatında tarixi nöqteyi-nəzərdən qısa bir zamanda böyük [307-308] hadisələr baş veribdir. Qadın çadranı atıb, azad, sərbəst olub, cəmiyyətdə bərabər hüquqlara malik olub, öz istedadını göstərə bilib və cəmiyyətdə özünəməxsus yer tutubdur, öz daxili və zahiri gözəlliyini dünyaya nümayiş etdiribdir.

Dünən də, bu gün də rəqəmlər gətirildi ki, indi Azərbaycan qadını səhiyyədə işləyənlərin 70 faizini, təhsildə, maarifdə işləyənlərin 50-60 faizini, mədəniyyətdə işləyənlərin 70 faizini təşkil edir. Ancaq təsəvvür edin, əsrin əvvəlində bunların heç biri yox idi. Bəli, biz XX əsrin əvvəlində, yaxud da XIX əsrin sonunda Azərbaycan qadınlarının savadlı, bilikli, mədəniyyətə qovuşmuş, dünya mədəniyyətini mənimsəmiş tək-tək nümayəndələrini tanıyırıq, bilirik. Ancaq indi səhiyyə sistemində həkimlərin 70 faizi qadınlardırsa, əsrin əvvəlində bir nəfər də qadın həkimimiz yox idi. Təsəvvür edin, qısa bir tarixi zamanda nə qədər sıçrayış əmələ gəlibdir. Bu, təkcə səhiyyə, təhsil sahəsində deyildir. Həyatın bütün sahələrində mühəndis, iqtisadçı, başqa ixtisaslardan olan nə qədər qadınlar var. Əsası isə ondan ibarətdir ki, qadınlar savad, bilik alıblar, elmə, mədəniyyətə qovuşublar.

XX əsrin Azərbaycan xalqı üçün ən böyük nailiyyəti ondan ibarətdir ki, xalqımız savadsızlıqdan xilas olubdur. Savadsızlığın ləğv olunması XX əsrdə Azərbaycan xalqının həyatında böyük bir inqilabi hadisədir. Savadsızlığın ləğvində qadınların xüsusi rolu var. Birincisi, qadınlar özləri savadsızlığını ləğv etmişlər, ikincisi də qadınlar tezliklə müəllim olmuş, məktəblərdə işləmiş və öz övladlarını, balalarını məktəbə oxumağa göndərmişlər, onlara rəhbərlik etmiş, qayğı göstərmişlər və xalqımız qısa müddətdə savadlanmış, biliklənmişdir. Bəzən bunu da unudurlar ki, nə bilim, bəlkə belə də olmalıymış. Amma yanınıza-yörənizə, sağınıza-solunuza, Şərqə-Qərbə, Şimala-Cənuba baxın, - bizə bənzər ölkələr, xalqlar var. Onların savad-bilik səviyyəsi ilə Azərbaycan xalqının [308-309] savad-bilik səviyyəsinin fərqi böyükdür. Bunda da qadınların çox böyük rolu olubdur.

Beləliklə, qadınlar Azərbaycanda özlərinə layiq yeri tutmuşlar. Doğrudur, siz dünən də, bu gün də bir çox təkliflər irəli sürmüsünüz. Onlardan bəziləri də bundan ibarətdir ki, qadınlar hakimiyyət orqanlarında, icra orqanlarında daha çox təmsil olunmalıdırlar, qadınlara yer verilməlidir. Mən bununla tam razıyam və sizə dərhal demək istəyirəm ki, burada özünüz seçdiyiniz şura qurultayın yekunlarını müzakirə edərkən lazımi tədbirlər həyata keçirəcəkdir. Ancaq eyni zamanda, mən bu gün sizi dinləyərək dərk edirəm ki, bu qurultayın yekunları bizim üzərimizə, mənim üzərimə çox böyük vəzifələr qoyur. Ona görə də o məsələlər ki, hökumət tərəfindən, hakimiyyət, icra orqanları tərəfindən həll olunmalıdır, rica edirəm, onları mənə təqdim edəsiniz və mən mütləq onlara baxacaq, lazımi tədbirlər görəcəyəm. Burada sizi dünləyərkən düşünürdüm və belə bir qərar qəbul etdim ki, qadınlar qurultayının yekunları ilə əlaqədar, irəli sürülmüş təkliflərin hakimiyyət orqanları tərəfindən həyata keçirilməsi üçün bir prezident fərmanı verilməli və müvafiq orqanlara lazımi tapşırıqlar verilməlidir.

Bu gün sizin qurultayınızı daha da zənginləşdirən aldığınız təbriklərdir, başqa ölkələrin qadın təşkilatları nümayəndələrinin iştirakı və dedikləri sözlərdir. Xarici ölkələrdən, o cümlədən Amerika Birləşmiş Ştatları prezidentinin xanımı Hillari Klintondan, Gürcüstan prezidentinin xanımı Nanuli Şevardnadzedən və başqalarından aldığınız təbriklər sizi sevindirdiyi kimi, məni də çox sevindirdi. Gürcüstan nümayəndə heyətinin rəhbəri, səhv etmirəmsə, Qurgenidzenin çıxışı, Ukrayna nümayəndə heyəti rəhbərinin çıxışı da çox səmimi, həyəcanlı və çox sevindirici oldu. Bu təbriklərə, çıxışlara görə dost ölkələrə sizin adınızdan təşəkkürümü bildirirəm. Çox məmnunam ki, Gürcüstandan gələn xanımlar vaxtilə [309-310] gürcü qadınları ilə bir yerdə çəkdirdiyim fotoşəkli göstərdilər. Mən ona baxdım, yadıma düşdü, -

bu, çox illər bundan öncə olubdur. Amma şəkildə təkcə mən deyiləm, Gürcüstan prezidenti Şevardnadze də qadınlarla bir yerdədir. Mən tam razıyam ki, gürcü qadınları doğrudan da çox gözəldirlər. Siz qadınsınız, belə söhbət eləmək olar, - mən hələ çox gənc olarkən bəzən söhbət aparırdıq ki, hansı qadınlar daha gözəl olur. Biri deyirdi ki, gürcü qadını, biri deyirdi rus qadını gözəl olur, başqası deyirdi ki, yunan qadını gözəl olur. Mən də hesab edirəm ki, gürcü qadını çox gözəldir, amma Azərbaycan qadını da çox gözəldir. Mən bilirəm ki, keçmişdə bir çox azərbaycanlılar gürcü qızları ilə evlənib ailə həyatı qurmuşlar, elə indi də qururlar. Təkcə Gürcüstanda yaşayan azərbaycanlılar deyil, elə Azərbaycanda yaşayan azərbaycanlı oğlanlar, gənclər də gürcü qızları alıb çox xoşbəxt yaşayıblar.

Ümumiyyətlə, bu, bizim qədim dostluğumuzun rəmzidir. Mən bunu dəfələrlə demişəm və Gürcüstandan gələn xanım dostumuzun da dilindən eşitdik ki, gürcü xalqı ilə Azərbaycan xalqı arasında əsrlər boyu həqiqətən çox səmimi dostluq əlaqələri olmuşdur, bizim aramızda heç vaxt nifaq olmayıbdır. İndi də müstəqil dövlətlər kimi Gürcüstanla Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri Qafqazda sülhün, əmin-amanlığın yaranmasının böyük bir amilidir.

Hesab edirəm, bugünkü qurultayın əsas mənası bir də ondan ibarətdir ki, qadınlar müstəqil Azərbaycanın həyatında daha fəal iştirak etməlidirlər. Buna bizim ehtiyacımız var. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra çox düzgün, doğru yol tutubdur. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulur. Azərbaycanda demokratiya prinsipləri yaradılır və inkişaf etdirilir. Ölkənin iqtisadiyyatında böyük dəyişikliklər gedir və bunların əsas mənası Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat prinsipləri əsasında aparmaqdan ibarətdir. Bunun [310-311] üçün də biz bütün sahələrdə islahatlar aparırıq. Siyasi islahatlar dövlət quruculuğu sistemində apardığımız işləri əhatə edir. Bu, bizim ilk Konstitusiyamızın qəbul olunması, çoxsaylı qanunlarımızın qəbul edilməsi, bir çox fərmanların verilməsi və başqa tədbirlərin görülməsi ilə əlaqədardır.

İqtisadi islahatlar Azərbaycanda iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə aparmaq məqsədi daşıyır. Bu, özəlləşdirmə proqramının, torpaq islahatının həyata keçirilməsidir, sahibkarlıq fəaliyyətinin, sahibkarlar təbəqəsinin yaradılmasıdır, azad sahibkarlığa imkanlar yaradılmasıdır, Azərbaycana xarici investisiyanın gəlməsidir, xarici investisiyanın gəlməsi ilə Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunmasıdır. Bunlar hamısı qlobal proqramlardır. Biz bu proqramları tətbiq etmişik, son illərdə bunları həyata keçiririk və bilirsiniz ki, uğurlar əldə etmişik.

Sosial sahədə islahatlar keçirilir. Bilirsiniz ki, səhiyyə sahəsində islahatlar aparmaq üçün komissiya yaranıb və təkliflər hazırlanıbdır, bu yaxınlarda baxılıb lazımi qərarlar qəbul olunacaqdır. Təhsil sahəsində islahatlar keçirilməsi üçün təkliflər hazırlanıb və yaxın vaxtlarda baxılacaqdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sosial islahatların böyük istiqamətini təşkil edən bu sahədə böyük işlər görür və bir çox tədbirlər həyata keçirilir. Bütün başqa sahələrdə də işlər görülür. Bunların hamısından məqsəd Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu işini inkişaf etdirmək və Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə irəlilətməkdən ibarətdir.

Bütün bunlar həyata keçirilir, öz müsbət nəticəsini verəcəkdir. Azərbaycanın iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklər sizə məlumdur, bunları görürsünüz. Burada Beynəlxalq Əməliyyat Şirkətinin, yəni 1994-cü ilin sentyabr ayının 20-də imzalanmış müqavilə əsasında yaranmış ilk konsorsiumu idarə edən şirkətin prezidentinin təbriki oxun[311-312]du. Orada bir çox rəqəmlər gətirildi. ABƏŞ Azərbaycana 1 milyard 200 milyon dollar sərmayə, yatırım, investisiya gətiribdir. Bunun nəticələrini də siz bilirsiniz və təbrikdən də göründü. «İstiqlal» adı verdiyimiz qazma qurğusunun işə başlamasını bu yaxın günlərdə qeyd etdik. Başqa bir konsorsium təkcə o qazma qurğusunun bərpası, modernləşdirilməsi üçün 200 milyon dollar sərf edibdir. Həm də burada, o birisində, başqasında nə qədər adam işləyir. Təkcə neft sahəsində deyil, bütün başqa sahələrdə də inkişaf var və bunun nəticəsində də iqtisadi dəyişikliklər görünür. Bakının siması dəyişir. İndi Azərbaycanda heç bir mal qıtlığı yoxdur, ərzaq qıtlığı yoxdur.

Doğrudur, iqtisadi çətinlik var, bəli, aztəminatlı ailələr, köçkün-qaçqın vəziyyətində yaşayan vətəndaşlarımız var. Onların vəziyyəti çətindir. Bunlar var, bu, keçid dövrünün əlamətləridir. Biz bunları nə inkar edirik, bildirmək istəyirəm ki, nə də bunlarsız keçinmək olar. Əgər bir ictimai-siyasi quruluşdan başqa bir ictimai-siyasi, iqtisadi sistemə, quruluşa keçiriksə və dağılanın əsasında başqası yaranırsa, bu, asan şey deyildir. Ancaq başqa yol yoxdur, ola bilməz. Biz bu yolla gedirik və mən inanıram ki, bu yol bizi böyük gələcəyə, böyük iqtisadi yüksəlişə, Azərbaycan xalqının və vətəndaşlarının rifah halının yüksəlməsinə aparır.

Ancaq bilirsiniz, bəzi bədxah adamlar orada-burada danışırlar ki, Azərbaycanda əhalinin 90-95 faizi səfalət içindədir. Burada oturanlar səfalət içindədir? Yox! Xaricdən qonaqlar gəlir, mən dövlət başçılarını adətən hava limanında qarşılayıram, onları müşayiət edirəm, şəhəri gəzirəm. Çoxları şəhərdə insanların sifətinə, geyiminə, davranışına baxır, ümumiyyətlə, şəhərin görünüşünə baxırlar. Deyirlər ki, burada insanlar çox yaxşı yaşayırlar. Həqiqətdir. Çətin yaşayan insanlar, aztəminatlı, maddi gərginlik içində yaşayan adamlar var. Biz bunu bilirik və onlara kömək edirik. Əmək və [312-313] əhalinin sosial müdafiəsi naziri Əli Nağıyev burada dedi ki, pensiyalar nə qədər artıb və nə qədər artacaqdır. Bir milyondan artıq pensiyaçı var. Qalanların da pensiyası artacaqdır. Əmək haqqı artıb və bundan sonra da artacaqdır. Burada səsləndi ki, guya mədəniyyət işçiləri meşə işçiləri ilə bərabər ən az əmək haqqı

alanlardır. Gərək buna baxaq. Mədəniyyət işçiləri də bilirlər ki, onların bir qisminin maaşlarını artırmışıq və çox da yüksək artırmışıq. Amma bundan sonra da artıracağıq.

Ancaq bunu artırmaq üçün gərək bu vəsaiti əldə edək, qazanaq. Qazanmasaq, pul göydən tökülmür və yerin altından da çıxmır. Bunları etmək lazımdır, bunun üçün də islahatları keçirmək, tədbirlər görmək lazımdır. Biz bunları edirik və edəcəyik.

Ancaq bütün bunlarla bərabər, Azərbaycanda insanların həyat şəraitini, yaşayışını böhtancasına, yalandan, bilirsiniz, Azərbaycan xalqını ləkələyən ifadələrlə təsvir etmək xalqımıza, millətimizə və müstəqil dövlətimizə sadəcə, düşmənçilikdən başqa bir şey deyildir.

Bizim problemlərimiz içərisində ən ağır, ən çətin problem işğal edilmiş torpaqlar, Azərbaycanın ərazi bütövlüyünün pozulması və işğal olunmuş torpaqlardan didərgin düşmüş, ağır şəraitdə – çadırlarda, yaxud yaşayış üçün münasib olmayan başqa yerlərdə, binalarda yaşayan bacılarımızın, qardaşlarımızın, övladlarımızın vəziyyətidir. Bəli, bu, bizim böyük dərdimizdir. Ona görə də mən bu gün bu münasibətlə, xüsusən bu salonda, qadınlar qurultayında iştirak edən şəhid analarına öz hörmət və ehtiramımı bildirirəm. Şəhid ailələrinə, yerindən-yurdundan didərgin düşmüş, ağır vəziyyətdə, çadırlarda yaşayan qadınlara, qızlara, köçkün düşmüş insanların hamısına öz hörmət –ehtiramımı bildirirəm. Onlar da bilir və bu gün bunu bir daha deyirəm ki, onların o dərdi, o problem, o qayğı Azərbaycan prezidenti kimi şəxsən mənim [313-314] hər gün, hər dəqiqə diqqət mərkəzimdə olan bir problemdir və əsas qayğımdır. Mən indiyə qədər çalışmışam və bundan sonra da çalışacağam ki, bu problem həll olunsun, işğal edilmiş torpaqlar azad olunsun və didərgin düşmüş insanlar öz yerinə-yurduna qayıtsınlar. Biz buna nail olacağıq, buna arxayın ola bilərsiniz.

Bu gün buraya, sizin yanınıza gəlməmişdən qabaq iki saatdan artıq ATƏT-in Minsk qrupu həmsədrlərinin nümayəndələri ilə görüşmüşəm. Bilirsiniz ki, Ermənistan –Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək üçün hələ 1992-ci ildə ATƏT Minsk qrupu deyilən təşkilat yaradıbdır. ATƏT-in bir neçə - 1994-cü ilin dekabrında Budapeşt, 1996-cı ilin dekabrında Lissabon zirvə görüşləri olubdur. Məsələnin həlli üçün orada dəyərli sənədlər əldə edə bilmişik və indi ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Bilirsiniz ki, onlar Ermənistan – Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək üçün fəaliyyət göstərirlər, vaxtaşırı ölkəyə gəlirlər və biz onlarla görüşlər keçiririk.

Son zamanlar onlar işlərində müəyyən fasilə vermişdilər. İndi dünəndən gəliblər və bu gün mən onlarla iki saatdan artıq danışıq apardım. Biz məsələni yenə kəskin qoymuşuq və bu gün sizə də bəyan edirəm: biz məsələnin sülh yolu ilə həll edilməsinin tərəfdarıyıq və sülh yolu ilə həll olunmasını istəyirik. Mən başqa yolu məqbul hesab etmirəm, bunu sizə də, bütün Azərbaycan vətəndaşlarına da elan edirəm. 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında saziş əldə elədik və dörd ildən artıqdır atəşkəs rejimində yaşayırıq. Bəziləri bunu bəyənmir, bəziləri dodaq büzürlər, bəziləri tənqid edirlər. Gəlsinlər, desinlər ki, onlar nə ediblər? Mən müharibəni saxlamışam, qan tökülməsini saxlamışam, mən şəhidlərin olmamasına nail olmuşam. Onlar isə Azərbaycanı tarmar ediblər, Azərbaycan torpaqlarının işğal olunmasına [314-315] şərait yaradıblar, Azərbaycanın balalarını qurban veriblər, torpaqlarımız işğal edilib, insanlar yerindən-yurdundan didərgin düşüblər. Amma onlardan heç birinin burnu da qanamayıbdır.

Mən bu gün ATƏT-in Minsk qrupunun həmsədrlərinə bir daha bəyan etdim ki, məsələnin sülh yolu ilə həll olunması prinsipini bu gün də təsdiq edirəm və hesab edirəm ki, bu yolla həll etmək lazımdır. Sülh yaratmaq lazımdır. Biz daim müharibə apara bilmərik. Heç bir ölkə həmişə müharibə aparmayıb və apara da bilməz. Hər bir müharibənin sonu olur. Hesab edirəm ki, bundan sonra yenidən müharibə etmək – bu, Azərbaycana lazım olan bir şey deyildir.

Ancaq eyni zamanda mən onların qarşısında məsələni çox kəskin qoymuşam ki, bizim prinsiplər var, 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə bunlar qəbul edilibdir: işğal olunmuş torpaqlar azad edilməlidir və Ermənistan silahlı qüvvələri həmin ərazilərdən çıxarılmalıdır. O yerlərin sakinləri öz yurdlarına qayıtmalıdır. Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində özünüidarə statusu verilə bilər, biz buna razı olmuşuq. Ermənistanla Azərbaycan arasında uzunmüddətli, etibarlı sülh yaranmalıdır. Biz bu şərtlərlə məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Biz heç vaxt razı olmamışıq və bu gün bir daha bəyan elədim, heç vaxt razı ola bilmərik ki, Azərbaycanın daxilində Dağlıq Qarabağa müstəqillik statusu verilsin. Biz buna yol verə bilmərik. Biz Azərbaycanın ərazi bütövlüyünün pozulmasına heç vaxt dözə bilmərik və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Biz heç vaxt öz torpağımızın, ərazimizin, öz sərhədlərimizin içərisində olan torpaqlarımızın bir metrini, bir santimetrini də heç kəsə verməyəcəyik.

Bu prinsiplər əsasında danışıqlar aparırıq və güman edirəm ki, danışıqlar davam edəcək və məsələnin sülh yolu ilə həllinə nail olacağıq. Ancaq bizim xalqımız dözümlü xalqdır və bunu [315-316] yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızın həyatında görürük. Mən bəzən televiziya verilişlərinə baxıram. İki həftə bundan öncə burada, bu salonda, işğal olunmuş rayonlardan, torpaqlardan zorla çıxarılmış vətəndaşlarımızın nümayəndələri ilə görüşdüm, danışdım. Bilirsiniz, ağır, çətin vəziyyətdə, çadırda yaşayırlar, amma ürəkləri təmizdir, safdır, vəziyyəti düzgün qiymətləndirirlər, başa düşürlər və

dözürlər. Bu gün mən bu dözümlü insanların - bacılarımın, qardaşlarımın qarşısında, ağır vəziyyətdə yaşayan insanların qarşısında baş əyir və onlara minnətdarlığımı bildirirəm.

Ancaq özlərini müxalifət adlandıran adamların heç biri bu vəziyyətə dözə bilməzdi. Onlar naməlum mənbələrdən aldıqları çoxlu pullarla-paralarla şəhərdə çox zəngin yaşayırlar və böyük iddialar edirlər. Bu adamların heç biri qaçqınlarla görüşmür, qayğısına qalmır, onların vəziyyətində yaşamır. Bunlar ancaq cürbəcür iddialar irəli sürür, iddialarla yaşayırlar.

Bir sözlə, işğal olunmuş torpaqların azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim ən birinci vəzifəmizdir və inana bilərsiniz, bu vəzifəni həyata keçirmək üçün hər gün çalışırıq, hər gün lazımi tədbirlər görürük və mən inanıram ki, biz buna nail olacağıq.

Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesi müvəffəqiyyətlə həyata keçirilir. Bunun ən parlaq nümunəsi Azərbaycanın ilk Demokratik Konstitusiyasının qəbul edilməsi, Azərbaycanın ilk Demokratik Parlamentinin seçilməsi və indi də növbəti prezident seçkilərinin keçirilməsidir. Burada izah etməyə ehtiyac yoxdur, - mən hiss etdim ki, qurultay iştirakçıları çox düzgün qiymətləndirdilər ki, prezident seçkilərinin keçirilməsi üçün, çox ədalətli və demokratik seçkilər keçirilməsi üçün yararlı olan qanunlar qəbul olunub və onlar da həyata keçirilir. Ancaq təəssüflər olsun ki, kəskin müxalifətdə duran və bu gün artıq siyasi [316-317] ekstremizm mövqeyi tutmuş bəzi siyasi partiyalar və qurumlar Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyi, rahatlığı pozmağa cəhd göstərirlər, «Demokratik seçkilər uğrunda mübarizə» şüarları altında Azərbaycanda xaos yaratmaq istəyirlər, ictimai-siyasi sabitliyi pozmaq istəyirlər, Azərbaycanı yenə də 1991-ci, 1992-ci, 1993-cü illərin vəziyyətinə qaytarmaq istəyirlər.

Bu, çox təəssüflüdür, ancaq eyni zamanda məni təəccübləndirmir. Çünki son beş ildə bu siyasi partiyaların və xüsusən də onların rəhbərlərinin fəaliyyətindən gəldiyim qənaət onu göstərir ki, onlara nə demokratiya lazımdır, nə Azərbaycanın müstəqilliyi lazımdır, nə də Azərbaycanda sabitlik lazımdır. Onlara xaos, qarmaqarışıqlıq lazımdır. Çünki keçmişdə onların əlində belə imkanlar olub, Azərbaycanda xaos yarada biliblər və ondan da öz şəxsi mənafeləri üçün istifadə ediblər.

Amma onlar unudurlar ki, artıq bu, mümkün deyildir. Onlar unudurlar ki, Azərbaycan xalqı daha buna yol verməz! Prezident kimi mən buna heç vaxt yol verməyərəm! 1993-cü ilin iyun ayını yadınıza salın. Azərbaycanda qardaş qanı tökülmüş, vətəndaş müharibəsi başlanmışdı. Azərbaycan xaos vəziyyətində idi. Azərbaycanı idarə edən və guya 1992-ci ildə xalq tərəfindən seçilmiş adamlar vəzifələrini qoydular, qaçdılar. Belə ağır vəziyyətdə xalqı başlı-başına buraxıb Bakını tərk etdilər, orada-burada gizlənməyə başladılar.

Beş ildir ki, qarış-qarış, addımbaaddım Azərbaycanda ictimai-siyasi vəziyyəti normallaşdırırıq, sabitləşdiririk. Artıq son üç ildir ki, vəziyyət sabitdir, rahatdır. Onlar isə orada-burada gizlənirlər, altdan-altdan təxribat işləri aparırlar. İndi isə artıq görürlər ki, bu sabitlik, rahatlıq günü-gündən möhkəmlənir və prezident seçkiləri zamanı dünyaya bir daha nümayiş etdiriləcək ki, Azərbaycanda demokratiya inkişaf edir. Ona görə də bunları pozmaq istəyirlər və cürbəcür cəhdlər göstərirlər. [317-318]

Avqust ayının 15-də mitinq keçirmək istədilər. Keçirdilər, biz mitinqə etiraz etmirik. Azərbaycanın Konstitusiyasında göstərilib, bəli, insanlar mitinq etmək hüququna malikdirlər və o hüquqdan istifadə edə bilərlər. Ancaq qanunlara, hakimiyyət orqanlarına tabe olmaq şərti ilə. Mitinq yeri göstərilmişdi, avqust ayının 15-də Motodromda keçirdilər. Keçirsinlər. İstədiklərini dedilər – yalan, böhtan, şər, şəbədə – hamısı orada göründü. Onlar sadəcə buna çalışırdılar, başqa istəkləri yox idi. Amma o yalan sözləri, böhtanları cəmiyyət qəbul etmədi və etmir.

Onlar isə sabitliyi pozmaq, yenidən mitinq keçirmək istəyirlər. Şəhərin hakimiyyət orqanları yenə də onlara bəyan edirlər ki, buyurun, mitinq üçün ayrılmış yer var – Motodrom stadionu. Deyirlər ki, yox, Azadlıq meydanında mitinq keçirəcəyik. Nə üçün? Azadlıq meydanında mitinq keçirməyə nə ixtiyarınız var? Bu gün Azərbaycanda müstəqil dövlət var və müstəqil dövlətin qanunları, başçısı var. Mən heç vaxt heç kəsə imkan verməyəcəyəm ki, Azərbaycanın qanunları pozulsun, Azərbaycanda böyük əzab-əziyyətlə yaranmış sabitlik alt-üst olunsun – buna imkan verilməyəcəkdir.

Ancaq onlar cəhd göstərdilər ki, Azadlıq meydanında mitinq keçirsinlər. Elan olunub ki, Azadlıq meydanı ancaq rəsmi dövlət tədbirləri üçündür, müstəqil Azərbaycan Respublikasının, Bakı şəhərinin mərkəzi meydanıdır. Burada hərə gəlib özbaşına mitinq edə bilməz. Mitinqlər keçirmək üçün yer var – Motodrom. Mən də orada keçirəcəyəm. Mənim namizədliyimi irəli sürmüş bəzi partiyalar və təşəbbüs qrupları ayın 19-da seçicilərin mənimlə görüşünü keçirmək istəyirlər. Mən bu görüşü keçirməyə razılıq vermişəm. Ancaq deyirlər ki, çox adam olacaq, bu salona yerləşməz. Motodromun sahəsi böyükdür. Ayın 19-da mən Motodromda olacağam.

Nə üçün mən oraya gedə bilərəm, onlar gedə bilməzlər? İş bunda deyildir. İş ondadır ki, şəhərdə asayişi, qanun-qaydanı [318-319] pozmaq və buna cəhd göstərmək, polis qanuni vəzifəsini yerinə yetirdiyi zaman ona daş, butulka, dəmir parçaları, başqa şeylər atmaq, - hamısını televiziyada gördünüz, - bunlar cinayətdir. 78 nəfər polis işçisi xəsarət alıbdır, onlardan təxminən 30 nəfəri ağır vəziyyətdədir, xəstəxanalarda müalicə olunur. Bunu edənlər buna görə cavab verməlidirlər. Bundan sonra Azərbaycanda heç kəsin özbaşınalıq etməsinə yol verilməyəcəkdir. Heç kəsə imkan verilməyəcək ki, Azərbaycanda qanun-qaydanı pozsun, xaos yaratsın. Sentyabrın 12-də Azadlıq meydanına getmək istəyən adamları, -

bilmirəm, beş yüz, altı yüz nəfər idi, neçə idi, - bu küçədən çıxarırdılar, o küçədən girirdilər, o küçədən çıxarırdılar, bu küçədən girirdilər.

Amma Azərbaycanın yeddi-səkkiz milyon əhalisi var, onların hüquqlarını mən qoruyuram. Bakıda iki milyon yarım əhali yaşayır, onların hüquqlarının təminatçısı mənəm. Mən burada and içmişəm - hər bir Azərbaycan vətəndaşının hüquqlarının qorunmasının təminatçısıyam. Onların hüquqlarını qoruyacağam. Ona görə ki, xalq seçkidə mənə bu etimadı göstərib və bu gün də göstərir. Mən həmişə xalqa arxalanmışam, xalq mənim dayağım olub, siz mənim dayağım olmusunuz. Ona görə də bu ağır işləri görə bilmişəm.

1993-cü ilin iyun ayında məni buraya dəvət edən siz idiniz, eyni zamanda o vaxt hakimiyyətdə olan adamlar idi. Buraya özüm gəlməmişdim. Mən Azərbaycanın ən ağır dövründə, 1993-cü ilin iyun ayında Bakıya gəlib öz üzərimə böyük məsuliyyət götürmüşəm. Mən dərk edirdim ki, Azərbaycanda vəziyyət nə qədər ağır idi. Dərk edirdim ki, özümü oda atıram. Dərk edirdim ki, öz üzərimə böyük məsuliyyət götürürəm. Mən də insanam, başa düşün, mənim də övladım var, nəvəm var, şəxsi həyatım var. Amma mən şəxsi həyatımı, ailəmi, övladlarımı bir tərəfə qoydum, xalqın mənafeyi üçün özümü odun içinə atdım. [319-320]

1993-cü ildən indiyədək nə qədər çətinliklərlə, bəlalarla rastlaşdım, siz onu bilirsiniz. 1993-cü ilin özündə Azərbaycan parçalanmışdı. Lənkəran zonasında bir «Talış-Muğan Respublikası» yaranmışdı, Gəncə hakimiyyətdən çıxmışdı, şimal zonası qaynayırdı, orada özlərinə bir dövlət yaratmaq istəyirdilər. Bakıda da insanlar rahat yaşaya bilmirdilər. Bunların hamısını bir gündə, bir ayda yox, ilbəil yerinə qoyduq.

1994-cü ilin oktyabr hadisələrini xatırlayın. Burada dövləti devirmək, məni öldürmək istədilər. Mən xalqa müraciət etdim, televiziya ilə sizə müraciət etdim. Özü də gec, axşam vaxtı. Mən həmin gecəni heç vaxt unuda bilmərəm, bu gün də böyük minnətdarlıq hissi ilə xatırlayıram. Çünki mənim müraciətimdən sonra cəmi bir-iki saat ərzində Prezident sarayının ətrafı insanlarla doldu. Oraya yüz minlərlə insan gəldi və onların əksəriyyəti siz idiniz, qadınlar idi. O gecə çox faciəli bir gecə idi, Azərbaycanın müqəddəratı həll olunurdu, «Olum ya ölüm» dəqiqəsi keçirirdik. Ancaq sizin, xalqın – Azərbaycan xalqının dəstəyi, köməyi, yardımı ilə biz o böhrandan çıxdıq.

Mən o gecə yarısı Prezident sarayının önündəki meydana çıxdım. Orada ağbirçək qadınları, ayaqyalın qadınları, qucağında südəmər uşağı olan qadını görəndə, - gecə yarısı, saat dörd idi, avtomatlar göydə fırlanırdı, - mən dəhşətə gəldim: gör insanlar etimad etdiyi adamı nə qədər sevirlər, ona nə qədər inanırlar ki, evini-eşiyini buraxıb gəliblər. O lentlər hamısı qalır, mən bəzən onlara baxanda yenidən həyəcanlanıram. Bəzən mənim gözlərim yaşarır. Nə üçün yaşarır? O insanların qəhrəmanlığını görəndə, qadınların simasında olan sevgi, məhəbbəti, eyni zamanda həyəcanı və narahatlığı görəndə gözlərim yaşarır.

Biz bu günləri yaşamışıq. Yaxud, 1995-ci ilin mart ayında çoxları elə bilirdi ki, hakimiyyət artıq əldən gedib və Azərbaycan dağılır. Bu gün müxalifətdə olan Xalq Cəbhə[320-321]sinin, Müsavatın rəhbərləri və başqaları da OMON (XTPD) dəstəsi ilə bir yerdə idilər, əlbir idilər. Onda həm Moskvadan, həm Türkiyədən, həm də başqa yerlərdən cürbəcür xüsusi xidmət orqanları hamısı birləşmişdi və Azərbaycanı dağıtmaq istəyirdilər.

Siz bilin, Azərbaycanı dağıtmaq təkcə Heydər Əliyevi yox etmək deyildir. Heydər Əliyev yox olsaydı, Azərbaycanı dağıtmaq mümkün olardı. Bütün insanlar hamısı bilir – hələ ki, Heydər Əliyev var, Azərbaycanı dağıtmaq mümkün deyildir.

Mən sizin qarşınızda belə cəsarətlə çıxış edərkən sizə arxalanıram, xalqa, millətə arxalanıram. Bilin, mən şübhəsiz ki, böyük həyat yolu keçmiş insanam, təcrübəli adamam. Bəli, böyük siyasi təcrübəm var, biliyim var, dünyada çox şeylər görmüş adamam. Ancaq mən təklikdə özümü qəhrəman hesab etmirəm. Mən sizə görə, sizin dəstəyinizə görə qəhrəmanam. Sizə arxalanaraq Azərbaycanın müstəqilliyi yolunda müstəqil siyasət aparıram. Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyə qəsd edən adamlar, Azərbaycanın dövlət müstəqilliyinə qəsd edən, Azərbaycanda gedən demokratik quruculuq prosesinə mane olmaq istəyən adamlar, qruplar, dəstələr, yaxud da siyasi partiyalar qulaqlarını açsınlar, eşitsinlər – qanun nəyə imkan verir, qanun çərçivəsində fəaliyyət göstərə bilərlər. Qanunsuz heç bir şeyə yol verilməyəcəkdir. Azərbaycanda həm Konstitusiyanın, həm qəbul olunmuş qanunların təminatçısı kimi, hər bir Azərbaycan vətəndaşının təhlükəsizliyinin və rahat yaşamasının təminatçısı kimi mən bu qanunların keşiyində durmuşam və axıra qədər də duracağam.

Əziz qadınlar, əziz dostlar! Mən yenə də tarixə bir nəzər salıram. Çox iclaslar keçirmişik, ancaq sizin kimi dözümlü adamlar hələ indiyədək görməmişəm. Bu gün bölmələrdə müzakirələr aparmısınız, saat 3-ün yarısından indiyə qədər [321-322] bir yerdəyik, indi də saat 8-dir. Nə qədər dözümlü, dəyanətli və nə qədər intizamlısınız! Mən heyran olmuşam.

Mənim sizə bir neçə tövsiyələrim də var, əgər vaxt imkan verirsə, onları demək istəyirəm. Siz Azərbaycanın ictimai-siyasi həyatının fəal iştirakçılarısınız. Arzu edirəm ki, bundan sonra da belə fəal olasınız və bilin ki, mən də öz tərəfimdən bütün imkanları yaratmağa hazıram. Bir arzum da var. Çalışın öz intizamlılığınızı, dözümlülüyünüzi və sədaqətliliyinizi kişilərə də öyrədəsiniz.

Məlumdur ki, cəmiyyətdə qadının təsiri çox böyükdür. Doğrudur, ola bilər, hakimiyyət orqanlarında istədiyiniz yeri tutmamısınız, amma cəmiyyətdə qadının təsiri böyükdür. Qadının sözü də çox kəsərlidir, təsirlidir. Məlumdur ki, kişilərin çoxu da qadınların təsiri altındadır. Ona görə çalışın, təbliğ edin ki, kişilər sizdən nümunə götürsünlər, sizin kimi fədakar, cəfakeş və sizin kimi də sədaqətli olsunlar.

Mən sizə xüsusi minnətdarlığımı bildirirəm, ona görə ki, siz Azərbaycan ordusunun yaranmasında böyük işlər görmüsünüz. Sizin övladlarınız, gənclər indi Azərbaycan ordusunun əsasını təşkil edirlər. Mən dünən fərman vermişəm, 18 yaşına çatan gənclər orduya səfərbər olunmalıdır. Eyni zamanda, 1996-cı ildə səfərbər olunmuş adamlar ordudan tərxis edilməlidir. Görürsünüz, ölkədə sabitlik, hakimiyyət, dinclik olanda gənclər də orduda normal xidmət edir, iki il xidmət edəndən sonra tərxis olunur. Eyni zamanda vətənin müdafiəsi üçün müəyyən biliklər əldə edir və vətənin müdafiəsinə hazır olur. Bu, böyük bir işdir. Biz böyük ordu yaratmışıq və yaradırıq. Əmin ola bilərsiniz, Azərbaycanın Milli Ordusu yaranıb formalaşıbdır və indi Azərbaycanın dövlət müstəqilliyini, ərazilərini qorumağa qadir bir ordudur. Bu sahədə qadınların xidməti böyükdür. Mən sizə xüsusi təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz, Azərbaycan qadınları Azərbaycan ordusunu daha da [322-323] gücləndirmək, inkişaf etdirmək, daha da qüdrətli etmək üçün bundan sonra da gözəl insanlar yetişdirəcəksiniz, o insanlar tərbiyəli, vətənpərvər olacaqlar, vətən yolunda həlak olmağa hazır övladlar olacaqlar. Mən əminəm ki, siz bu işdə də öz xidmətlərinizi göstərəcəksiniz.

Əziz xanımlar, əziz bacılar! Mən çox məmnunam ki, bu gün sizinlə görüşmüşəm. Siz məni o qədər həyəcanlandırdınız ki, mən də çox həyəcanlı danışdım. Ancaq mənim dediyim sözlərə hər dəfə verdiyiniz reaksiya məni daha da həyəcanlandırdı.

Hesab edirəm ki, sizin qurultayınız çox uğurlu keçdi, Azərbaycan tarixinin böyük, parlaq və gözəl səhifəsinə çevriləcək və gələcəkdə Azərbaycanda qadın hərəkatının inkişafı üçün öz xidmətlərini göstərəcəkdir. Mən sizi bu münasibətlə bir daha təbrik edirəm, icazə versəniz, sizin hər birinizi öpürəm. Sizə cansağlığı, səadət arzu edirəm.

Azərbaycan qadınına eşq olsun, eşq olsun, eşq olsun!

Yaşasın müstəqil Azərbaycan! [323]

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab prezident, İran diplomatlarının Əfqanıstanda qətlə yetirilməsi xəbəri məni çox kədərləndirdi.

Bu qəddar terrorçuluq aktını qətiyyətlə pisləyir, Sizə və mərhumların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 sentyabr 1998-ci il*
[324]

## BAKIDA
## AKADEMİK YUSİF MƏMƏMMƏDƏLİYEVİN
## ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*16 sentyabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün mən əvvəlcə sizi, Bakının gözəl guşəsinə toplaşmış ziyalıları, elm adamlarını səmimi qəlbdən salamlayıram və Azərbaycanda, Bakıda bu gün baş verən çox əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Bizim doğma ölkəmiz Azərbaycan öz təbii gözəlliyi ilə yanaşı, torpağımızın üzərində insanların, Azərbaycan xalqının yaratdığı memarlıq, heykəltəraşlıq abidələri ilə də gözəldir.

Azərbaycan xalqının qədim adət-ənənələrinə görə bizim ölkədə, ümumiyyətlə, Şərq aləmində insan heykəli dəb olmayıbdır. Ancaq xalqımız inkişaf edib, dünya mədəniyyətinin gözəl nümunələrini öz həyatına tətbiq etməyə çalışıb, dünya mədəniyyətindən bəhrələnib və XX əsrdə Azərbaycan torpağında, Azərbaycanın paytaxtında çox qədim, gözəl, əzəmətli memarlıq abidələri ilə yanaşı, heykəltəraşlıq abidələri də yaranmışdır. Bu, bizim vətənimizin həyatını daha da zənginləşdirmiş, gözəlləşdirmişdir. Hesab edirəm ki, bu, çox gözəl bir ənənədir. Ona görə ki, heykəltəraşlıq abidələri, heykəllər adətən, insan yaşayan hər bir yeri abadlaşdırır, gözəlləşdirir. Bir də ona görə ki, bu abidələr Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinə, insanlarına, öz tarixinə, elminə, mədəniyyətinə, dövlətinə göstərilən hörmət və ehtiramı əks etdirir.

Azərbaycanda, Bakıda XX əsrdə heykəllər daha çox yazıçılara, şairlərə, mədəniyyət xadimlərinə və bəzi hallarda [325-326] ictimai-siyasi xadimlərə həsr olunmuşdur. Ancaq Azərbaycan xalqının qədim tarixində bəşər mədəniyyətinə ən böyük töhfələrindən biri xalqımızın istedadlı insanlarının yaratdığı elmi əsərlər, dünya elminə verdiyi töhfələr olubdur. Biz fəxr edirik ki, qədim zamanlarda, orta əsrlərdə Azərbaycan xalqının dünya şöhrətli görkəmli alimləri olubdur. Onlar dünya elmini, bəşər mədəniyyətini zənginləşdiriblər və eyni zamanda Azərbaycan xalqını tanıdıblar, adını ucaldıblar.

Biz bu gün bütün Azərbaycan alimlərinin, elm adamlarının hamısını böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq və onların qoyduqları irsi, onların yaradıcılığını heç vaxt unutmayacağıq.

XX əsrdə Azərbaycanın həyatında çox böyük hadisələr baş veribdir. XX əsr bəşər tarixində çox mürəkkəb, ziddiyyətli, böyük dəyişikliklər əsri olmuşdur, inqilablar, müharibələr, eyni zamanda elmin, mədəniyyətin sıçrayışla və sürətlə inkişaf etdiyi bir dövr olmuşdur. Biz XX əsri sona çatdıraraq ötən dövrə doğru-düzgün, ədalətli qiymət verməliyik. Yaxşıya yaxşı, pisə pis deməliyik.

Azərbaycan xalqının da həyatında XX əsr bütün bu dəyişiklikləri özündə əks etdiribdir. Biz XX əsrdə başımıza gələn faciələri, itkilərimizi, verdiyimiz qurbanları kədərlə xatırlayırıq və heç vaxt unutmayacağıq. Bununla yanaşı, XX əsrdə Azərbaycan xalqının bütün bu çətin mərhələlərdən keçdiyi böyük tarixi yolu, əldə etdiyi nailiyyətləri və bu yüksək zirvələrə çatmasını da qiymətləndiririk. Güman edirəm, gələcək nəsillər də qiymətləndirəcəklər.

XX əsrdə Azərbaycan elmi sürətlə inkişaf edibdir, Azərbaycan xalqı kütləvi surətdə savadlanıbdır. Azərbaycan xalqının elmə, mədəniyyətə, dünya sivilizasiyasına qovuşması üçün respublikamızda çoxsaylı məktəblər, universitetlər, elmi-tədqiqat ocaqları, institutlar yaranmışdır. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaranması Azərbaycan [326-327] elminin əldə etdiyi böyük nailiyyətləri bütün dünyaya nümayiş etdirmişdir.

Biz bu gün fəxr edə bilərik ki, Azərbaycan xalqı XX əsrdə dünya elminə böyük töhfələr vermişdir. Azərbaycan ölkəsi elmlər ölkəsidir. Azərbaycan xalqı elmli, bilikli, yüksək təhsilli xalqdır. Bunlar da Azərbaycanın istedadlı insanlarının elmi axtarışları, elmi ixtiraları, böyük elmi əsərləri ilə dünyada tanınmışdır.

Azərbaycanın həm alim, həm gözəl insan, həm ictimai-siyasi xadim kimi görkəmli simalarından biri Yusif Məmmədəliyevdir. Biz 1996-cı ildə Yusif Məmmədəliyevin 90 illik yubileyini ümumxalq bayramı kimi qeyd etdik. Bu, onun xidmətlərinə bugünkü nəslin verdiyi yüksək qiymətin rəmzi idi. Eyni zamanda bu yubiley mərasimləri Azərbaycan xalqının yüksək elminin dünyaya bir daha nümayiş etdirilməsi idi. Ona görə də bu, həm Yusif Məmmədəliyevin xatirəsinə həsr olunan mərasim idi, həm də Azərbaycan elminin bugünkü səviyyəsini dünyaya göstərən mərasim idi.

Yusif Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir fəslidir, hissəsidir, parçasıdır. Bu insan öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur. Ona görə biz bu gün də Yusif Məmmədəliyevin xidmətlərini böyük məmnuniyyətlə xatırlayırıq və onun parlaq siması, əziz xatirəsi qarşısında baş əyirik.

Bu gün Yusif Məmmədəliyevin xatirəsinə həsr olunmuş heykəlin, abidənin burada, Bakının mərkəzində, Elmlər Akademiyasının yanında ucaldılması da əsaslıdır və ədalətlidir. Çünki onun

Azərbaycan elminin inkişafındakı xidmətləri və eyni zamanda Azərbaycan elminin təşkilində, bütün elmlərin [327-328] mütəşəkkil inkişafındakı xidmətləri belə bir qərarı qəbul etməyə əsas vermişdir. Güman edirəm ki, bu abidə də, Yusif Məmmədəliyevin şəxsiyyətini, simasını əks etdirən bu heykəl də həm onun xatirəsinə həsr olunubdur, həm də Azərbaycan elminin inkişafına, keçmişinə və gələcəyinə həsr olunubdur. Bu, bizim insanlara bir də onu nümayiş etdirir ki, Azərbaycanda həmişə elmə hörmət olubdur, bu gün də hörmət var və gələcəkdə də hörmət olacaqdır.

Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün, ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətimizdə böyük hörmətə layiqdirlər. Mən bu fürsətdən istifadə edərək, ölkəmizin alimlərinə, elm xadimlərinə, bütün elm işçilərinə bir daha bəyan edirəm ki, Azərbaycanda elmin inkişafı bu gün də, gələcəkdə də dövlətin əsas qayğılarından biridir, biri də olacaqdır və daim dövlətin himayəsi altında olacaqdır.

Bu gün Yusif Məmmədəliyevin xatirəsi ilə, bu heykəlin açılması ilə əlaqədar hamımızın buraya toplaşması Azərbaycanda elmə verilən qiymətdir və elm adamlarına göstərilən hörmətdir. Mən çox məmnunam ki, Yusif Məmmədəliyevin xatirəsini əbədiləşdirmək məqsədi ilə qəbul etdiyim qərar həyata keçirilibdir. Memarlar, heykəltəraşlar burada bu abidəni yaradıblar. Bakının icra hakimiyyəti və bu abidənin yaranmasında iştirak edən, sponsorluq edən bütün şirkətlər, təşkilatlar öz xidmətlərini göstəriblər.

Yusif Məmmədəliyevin qızı burada çox gözəl çıxış etdi və bu abidənin yaranmasında iştirak edənlərin hamısına təşəkkürünü bildirdi. Mən Sevda Məmmədəliyevanın bu sözlərinə qoşuluram və bu abidənin yaranmasında iştirak edənlərin hamısına təşəkkürümü bildirirəm. Çox sağ olun.

Sevda Məmmədəliyeva çıxış edərkən mən düşündüm, - o, həqiqətən atasının qızıdır. Çox gözəl, məzmunlu danışdı. Görünür ki, Yusif Məmmədəliyevin fitri istedadı onun övlad[328-329]larında da öz əksini tapır. Güman edirəm ki, bu fitri istedad gələcək nəsillərdə də özünü göstərəcəkdir.

Mən böyük məmnuniyyətlə sizinlə birlikdə bu mərasimdə iştirak edirəm. Məmnunam ki, gözəl Bakının, doğma paytaxtımızın bir güşəsi daha da gözəlləşdi, yeni yaraşıq aldı. Beləliklə də biz irəliyə gedirik, xalqımızı irəliyə aparırıq. Bakı şəhərini daha da gözəlləşdiririk və onun dünyanın ən gözəl şəhərləri sırasında olmasına çalışırıq.

Mən sizə bir daha öz xoş arzularımı bildirirəm və sizi əmin edirəm ki, həm Azərbaycanın, həm də Bakının çiçəklənməsi naminə Azərbaycan dövləti bundan sonra da əzmlə çalışacaqdır. Sağ olun. [329]

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi – respublikamızın bütün yəhudi vətəndaşlarını Yeni il bayramınız – Roş-ha-şana münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və səadət arzulayıram.

Əsrlərdən bəri ölkəmizdə məskunlaşıb yaşayan yəhudilər heç zaman Azərbaycanda təqiblərə və ayrı-seçkiliyə məruz qalmamış, öz milli-mədəni özgünlüyünü qoruyub saxlayaraq respublikamızın ictimai-siyasi və elmi-mədəni həyatında yaxından iştirak etmişlər. Yəhudi həmvətənlərimiz bu gün də müstəqil dövlət quruculuğu prosesində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirir, Azərbaycanın tərəqqisi və inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Roş-ha-şana yenilik, tövbə, mənəvi saflıq bayramıdır. Qoy bu bayram hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 sentyabr 1998-ci il*
[330]

## REPRODUKTİV SAĞLAMLIQ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANSA

Hörmətli konfrans iştirakçıları!

Sizi – paytaxtımız Bakı şəhərində təşkil olunmuş beynəlxalq konfransın iştirakçılarını müstəqil Azərbaycan torpağında səmimi qəlbdən salamlayıram.

Birləşmiş Millətlər Təşkilatının Əhaliyə Yardım Fondu ilə İqtisadi Əməkdaşlıq Təşkilatının birgə keçirdiyi bu konfrans səhiyyənin inkişafında əsas istiqamətlərdən biri sayılan reproduktiv sağlamlıq və ailənin planlaşdırılması məsələlərinə həsr olunmuşdur. Cəmiyyətin formalaşmasında və onun sabit inkişafında mühüm rol oynayan bu məsələlərin müzakirəsi və onların həlli yollarının müəyyən edilməsi hər bir millətin sağlamlığı və onun genofondunun mühafizəsi sahəsində milli siyasətin uğurla həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Əsas insan hüquqlarının mühüm tərkib hissəsini təşkil edən reproduktiv hüquqlar Birləşmiş Millətlər Təşkilatının sənədlərində və ayrı-ayrı ölkələrin qanunvericilik aktlarında təsbit olunsa da, planetimizin bütün insanlarının onlardan səmərəli faydalanması imkanlarının tam təmin olunması yolunda hələ çox işlər görülməlidir. Bu məqsədin həyata keçirilməsi üçün beynəlxalq, regional və milli səviyyələrdə səylərin optimal şəkildə birləşdirilməsinə nail olunmalıdır. Konfransınız da bu yolda atılmış mühüm addımlardan biridir.

Cəmiyyətdə demokratik prinsiplərin bərqərar olması və insan hüquqlarının qorunması yolunda ardıcıl siyasət aparan müstəqil Azərbaycan Respublikası insanların sağlamlığının [331-332] qorunmasını dövlət əhəmiyyətli problem hesab edir. Respublika hökuməti 1994-cü ilin sentyabrında əhali və inkişaf məsələlərinə həsr olunmuş Qahirə konfransının qəbul etdiyi fəaliyyət proqramının, ölkəmizdə Reproduktiv Sağlamlıq və Ailənin Planlaşdırılması üzrə Dövlət Proqramının həyata keçirilməsi üçün lazımi tədbirlər görür.

Həmin proqramların yerinə yetirilməsində müxtəlif beynəlxalq təşkilatların metodik, maliyyə və təşkilati yardımını da xüsusilə qeyd edir və onu yüksək qiymətləndirirəm. Güman edirəm ki, onlar xalqımızın taleyi üçün böyük əhəmiyyətə malik bu proqramların həyata keçirilməsində əllərindən gələni bundan sonra da əsirgəməyəcəklər.

Konfransın Bakı şəhərində keçirilməsi respublikamızın inkişafının indiki mərhələsi üçün xüsusi əhəmiyyətə malikdir. Ermənistanın respublikamıza qarşı hərbi təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkün azərbaycanlı ağır iqtisadi və sosial şəraitdə yaşayır. Onların digər problemləri ilə yanaşı, sağlamlıq məsələlərinin həlli də qarşımızda duran aktual vəzifələrdəndir. Ümidvaram ki, konfrans bu sahədəki çətinliklərin aradan qaldırılması yollarının müəyyən edilməsinə kömək edəcəkdir.

İnsan sağlamlığının qorunmasına, gender siyasətinin uğurla həyata keçirilməsinə yönəldilmiş nəcib fəaliyyətinizdə sizə böyük nailiyyətlər, konfransın işində müvəffəqiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 sentyabr 1998-ci il*

[332]

## XALQ ARTİSTİ
## FİRƏNGİZ ƏHMƏDOVAYA

Hörmətli Firəngiz xanım!

Sizi – Azərbaycanın vokal məktəbinin görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycanda klassik opera ifaçılığının inkişafında mühüm rol oynamış böyük sənətkar kimi hörmət qazanmısınız. Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının operalarındakı müvəffəqiyyətli çıxışlarınız sizə respublikamızda və onun hüdudlarından kənarda geniş şöhrət gətirmişdir. Güclü və məlahətli səs, böyük zəhmətsevərlik və yüksək səhnə mədəniyyəti ilə səciyyələnən yaradıcılığınız Azərbaycan bəstəkarlarının klassik opera janrında gözəl əsərlər yaratmasına təkan vermişdir. Klassik opera səhnəmizin ilk qadın ifaçılarından biri kimi yaratdığınız Nərgiz, Gülzar, Nigar, Sevil və başqa obrazlar Azərbaycan müsiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur.

Sizin kamera-vokal əsərlərin ifaçısı kimi fəaliyyətiniz də yüksək qiymətə layiqdir. Böyük sənətkarlıqla oxuduğunuz mahnı və romanslar musiqisevərlərin yaddaşına həmişəlik həkk olunmuşdur. Yaratdığınız bu nadir sənət inciləri öz təkrarolunmazlığı ilə dinləyiciləri indi də heyran etməkdədir!

Xarici ölkələrə qastrol səfərlərində siz Azərbaycan musiqi mədəniyyətini ləyaqətlə təmsil etmiş, onun şöhrətini daha da artırmısınız.

Azərbaycan radiosu xorunun solistliyindən görkəmli opera müğənnisi səviyyəsinə qədər keçdiyiniz böyük yaradıcılıq yolu sənətə sonsuz sədaqət, vətənə və xalqa fədakar xidmət [333-334] məktəbi olmuşdur. İnanıram ki, hələ neçə-neçə sənətkar nəsli bu zəngin məktəbdən bəhrələnərək musiqi mədəniyyətimizin inkişafına öz töhfəsini verəcəkdir.

Bu yubiley gününüzdə sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 sentyabr 1998-ci il*

[334]

## «UTRENNYAYA ZVEZDA» («DAN ULDUZU») – «BAKI-98» MUSİQİ BAYRAMINDA ÇIXIŞ

*Respublika sarayı*

*22 sentyabr 1998-ci il*

**Y u r i  N i k o l a y e v** *(Rusiya ictimai televiziyasının –ORT uşaqlar üçün «Utrennyaya zvezda» proqramının aparıcısı):* Əziz uşaqlar, indi mənə çox böyük şərəf nəsib olur deyəm ki, bu bayram xeyirxah qəlbli, uşaqlara ürəkdən məhəbbət bəsləyən bir insanın – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyeviç Əliyevin sayəsində baş tutmuşdur. Heydər Əliyeviç, sağ olun! Sizdən xahiş edirəm uşaqlara ürək sözlərinizi söyləyəsiniz.

**H e y d ə r  Ə l i y e v**: Əziz balalar, qızlar, oğlanlar!

Mən sizi səmimi qəlbdən salamlayır, sizə öz hədsiz məhəbbətimi bildirirəm və bu gözəl bayram – uşaqların, gənclərin, istedadların bayramı, gözəl sənət bayramı münasibətilə sizi təbrik edirəm.

Azərbaycanın yeniyetmələrinin – qızlarının, oğlanlarının bu gün burada nümayiş etdirdikləri istedadları bir daha onu təsdiq edir ki, Azərbaycan xalqı istedadlı xalqdır, onun zəngin mədəniyyəti var, bu gün müstəqil dövləti, milli azadlığı var və Azərbaycan xalqının bundan da gözəl gələcəyi vardır. Bu gələcək isə, əziz balalar, sizinlə bağlıdır, sizin istedadlarınızla bağlıdır. Ona görə də mən bu gün çox sevinir, həyəcan hissi keçirirəm. Sizin hamınıza qarşıdakı yolunuzda, Azərbaycanın xoşbəxt gələcəyi uğrunda uğurlar arzulayıram.

Bu gün bu əzəmətli Respublika sarayı sizin ixtiyarınızdadır. Siz onun sahiblərisiniz. Burada siz öz [335-336] məharətinizi, öz istedadınızı nümayiş etdirirsiniz. Bununla da siz Azərbaycan xalqının böyük istedadını, bugünkü gününü və gələcəyini nümayiş etdirirsiniz.

Azərbaycan xalqı istedadlarla, görkəmli insanlarla həmişə zəngin olmuşdur. Biz haqlı olaraq fəxr edirik ki, xalqımız böyük incəsənət, elm və mədəniyyət əsərləri ilə dünya sivilizasiyasını zənginləşdirmişdir. Fəxr edirik ki, bizim böyük bəstəkarlarımız, musiqiçilərimiz, müğənnilərimiz, mədəniyyət xadimlərimiz var. Məhz onların yaradıcılığı əsrlər boyu Azərbaycan xalqını ruhlandırmış və onu yeni nailiyyətlər, yeni hünərlər səviyyəsinə qaldırmışdır.

Fəxr edirik ki, bu gün müstəqil, azad Azərbaycan zəngin mədəniyyətə, zəngin elmə, çox böyük intellektual potensiala malikdir. Lakin bu gün biz daha çox əminik ki, müstəqil, azad Azərbaycanın gələcəyi daha gözəl, daha xoşbəxt olacaqdır. Bunun üçün zəmin sizsiniz, əziz uşaqlar, sizin gözəl istedadınızdır, məharətinizdir, bu gün bu gözəl salonda nümayiş etdirdiyiniz keyfiyyətlərdir.

Mən şadam və xoşbəxtəm ki, bu gün siz, Azərbaycan uşaqları ölkəmizin mədəniyyətini, incəsənətini, elmini irəlilətmək üçün, onları daha yüksəklərə qaldırmaq üçün çox böyük məharətə, çox böyük istedada maliksiniz.

Bu gün mən sizə baxdıqda, sizi dinlədikdə sevinir və heyran oluram. Ona görə sevinirəm və heyran oluram ki, siz bugünkü çıxışlarınızla öz gözəl məharətinizi, heyrətamiz istedadınızı, Azərbaycan xalqının, Azərbaycan cəmiyyətinin nə kimi zənginliyə malik olduğunu nümayiş etdirirsiniz. Bu gün siz daha çox inandırırsınız ki, biz Azərbaycanın daha gözəl gələcəyinə və Azərbaycan xalqının daha zəngin mədəniyyətinə ümid bəsləyə bilərik.

Görünür, təsadüfi deyildir ki, ORT teleşirkətinin məşhur «Utrennyaya zvezda» («Dan ulduzu») teleproqramı MDB ölkələri arasında birinci olaraq diqqəti məhz Azərbaycana, [336-337] Azərbaycan gənclərinin, uşaqlarının yaradıcılığına, istedadına yönəltmişdir. Hesab edirəm ki, bu, bizim üçün böyük hadisədir. Bu gün siz «Utrennyaya zvezda» teleproqramına gözəl bir proqram və gözəl Azərbaycan incəsənətini təqdim etdiniz.

Şübhə etmirəm ki, bugünkü görüşün, bugünkü bayramın ORT teleşirkətinin «Utrennyaya zvezda» proqramı ilə göstərilməsi Azərbaycan xalqının nə kimi istedadlara və necə gözəl gənclərə, bugünkü Azərbaycanın necə gözəl uşaqlara malik olduğunu bütün MDB ölkələrinə və zənnimcə, bütün dünya ölkələrinə nümayiş etdirəcəkdir.

Bu gün burada xüsusi ruh yüksəkliyi, sevinc və səadət mühiti hökm sürür. Bu isə hamımızı sevindirir. Əgər hazırda xalqımızın tarixin çox çətin zaman kəsiyində yaşadığını, müstəqil, suveren, demokratik, hüquqi dövlətin təşəkkülü və inkişafı ilə bağlı çox çətinliklər olduğunu nəzərə alsaq, xalqımızın on il öncə Ermənistan tərəfindən hərbi təcavüzə məruz qaldığını, Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyini, sizin kimi uşaqların bu müharibə nəticəsində həlak olduğunu, işğal edilmiş torpaqlardan uşaqların zorla didərgin salındığını və onların çox ağır şəraitdə, əksəriyyətinin çadırlarda yaşadığını da nəzərə alsaq, onda təsəvvürünüzə gətirin ki, bütün bu çətinliklərə, məşəqqətlərə baxmayaraq, uşaqlarımızın təhsil alması, öz məharətini, öz istedadını göstərməsi, mahnılar oxuyub şənlənməsi, rəqs etməsi, sevinməsi və gələcəyə böyük inamla baxması böyük sevinc və fərəhdir.

İnanıram ki, hazırda çadırlarda yaşayan uşaqlar, doğma yurd-yuvalarından didərgin salınmış uşaqlar da öz evlərinə qayıdacaqlar. Əminəm ki, işğal olunmuş torpaqlar azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, bölgəmizdə sülh bərqərar ediləcəkdir. Əminəm ki, sizin kimi, bütün uşaqlarımız da öz istedad və məharətini göstərmək [337-338] imkanına malik olacaq, Azərbaycanın gələcəyini sizinlə birlikdə quracaqlar.

Yuri Aleksandroviç Nikolayev, sizə ürəkdən təşəkkür edirəm. Uşaqlar, o, sizin hamınıza «Utrennyaya zvezda» proqramından tanışdır. Şadam ki, o, Azərbaycana, Azərbaycan uşaqlarına, Azərbaycan incəsənətinə çox böyük diqqət göstərmiş və belə gözəl bayram təşkil etmişdir. Sizə ürəkdən təşəkkür edirəm.

**Y u r i N i k o l a y e v**: Sağ olun, Heydər Əliyeviç, uşaqlara Sizin qayğınız, Sizin məhəbbətiniz hədsizdir. Biz hamımız bu məhəbbəti bu səhnədə hiss etdik. Mən Azərbaycan uşaqları sarıdan arxayınam, çünki onların belə prezidenti var!

**H e y d ə r Ə l i y e v**: Əziz uşaqlar, mənim doğmalarım, mənim sevimlilərim, sizin hamınızı bu gözəl bayram münasibətilə bir daha və yenidən təbrik edirəm, sizə əla oxumağı, xoşbəxt həyat, daha böyük yaradıcılıq uğurları, öz məharət və istedadınızı daha yaxşı nümayiş etdirməyi arzulayıram.

Sizi gördükdə, sizi hiss etdikdə, sizin simalarınıza nəzər saldıqda inanıram ki, Azərbaycan doğru yolla gedir, Azərbaycanın gözəl gələcəyi var. Bu gözəl gələcək sizindir, siz onun qurucularısınız. Sizə cansağlığı, xoşbəxtlik və təhsildə, həyatda, hər sahədə yeni-yeni uğurlar arzulayıram!

Sizi bağrıma basıram, öpürəm, sizə ən xoş arzularımı bildirirəm!

**Y u r i N i k o l a y e v**: Sağ olun, Heydər Əliyeviç. Sizə xoşbəxtlik, cansağlığı və bütün uşaqların məhəbbətini arzulayıram.

Əziz dostlar, sağ olun. Sizi bilmirəm, amma bura, Bakı mənim çox xoşuma gəldi. Biz çox istərdik ki, bu görüşlər ənənəyə çevrilşin, bir-birimizin tez-tez qonağı olaq - biz Bakıya gələk, siz bakılılar isə Moskvaya gələsiniz. Xudahafiz, yeni və çox gözəl görüşlərə qədər. [338]

## UNUDULMAZ ŞAİR TOFİQ BAYRAMIN BÜSTÜNÜN VƏ ONUN ADINI DAŞIYAN İSTİRAHƏT PARKININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*Suraxanı rayonu, Əmircan qəsəbəsi*

*24 sentyabr 1998-ci il*

Əziz bacılar, qardaşlar!
Əziz həmvətənlər, dostlar!

Mən sizin hamınızı və sizin simanızda Suraxanı sakinlərini, Suraxanı camaatını ürəkdən salamlayıram, sizə ən xoş arzularımı çatdırıram. Siz suraxanılıları, Azərbaycanın ziyalılarını, bütün xalqımızı böyük şair Tofiq Bayramın xatirəsinin əbədiləşdirilməsinə həsr olunmuş abidənin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Suraxanı torpağı Azərbaycana, xalqımıza böyük insanlar vermişdir. Onların arasında Tofiq Bayramın xüsusi yeri var. Tofiq Bayram Azərbaycanda gözəl şerləri, əsərləri və onun şerlərinə bəstələnmiş mahnıları, fədakar yaradıcılığı ilə tanınmış və məşhur olmuşdur. Tofiq Bayramın sağlığında da xalq həmişə ona sevgi və məhəbbətini, hörmətini bildirmişdir. Mən şəxsən Tofiq Bayramla dəfələrlə görüşmüşəm, danışmışam, yazıçıların qurultaylarında, onlarla görüşlərimdə, bəzən rayonlara etdiyim səfərlərdə bir yerdə olmuşuq. Onun haqqında mənim ən gözəl xatirələrim var. Bu gün mən çox məmnunam ki, onun xatirəsini əbədiləşdirmək bizə nəsib olmuşdur və biz onun abidəsi qarşısında, sizin qarşınızda bəyan edirik ki, Azərbaycanın belə insanları həmişə qiymələndirilir və bundan sonra da qiymətləndiriləcəkdir. [339-340]

Burada, bu görüşdə Tofiq Bayramın anası iştirak edir. Mən onu salamladım, öpdüm və bu abidənin açılışı münasibətilə onu təbrik etdim. Tofiq Bayramın qohumları buradadırlar. Onun bacısı çox səmimi və gözəl nitq söylədi. Bunların hamısı bizim bu görüşümüzə çox böyük məna verir. Mən belə anlayıram ki, bu görüşümüz oktyabrın 11-də Azərbaycan prezidentinin seçkiləri ərəfəsində keçirilən bir görüşdür. Siz də buraya həm Tofiq Bayramın xatirəsi naminə, həm də Azərbaycanda prezident seçkiləri ilə əlaqədar öz münasibətinizi və duyğularınızı bildirmək münasibətilə toplaşmısınız. Bu münasibətlə mən bildirmək istəyirəm ki, oktyabrın 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri müstəqil respublikamızın həyatında və tarixində çox əlamətdar bir hadisədir.

İlk növbədə xalqın mənə göstərdiyi və göstərəcək etimada görə minnətdarlığımı bildirirəm. Mən xoşbəxtəm. Mən xoşbəxtəm ki, xalqımın etimadını qazanmışam. Mən xoşbəxtəm ki, xalqımın yolunda fəaliyyət göstəririrəm.

«Yaşasın demokratiya! Yaşasın demokratik və müstəqil Azərbaycan!». [340]

## AZƏRBAYCAN MÜƏLLİMLƏRİ QURULTAYINA

Hörmətli qurultay nümayəndələri!

Sizi, bütün Azərbaycan müəllimlərini müstəqil respublikamızın ilk müəllimlər qurultayının açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan müəllimlərinin cəmiyyətimizin həyatında oynadığı rol müstəsna əhəmiyyətə malikdir. Müəllimlik xalqımızın ən çox hörmət etdiyi, ən çox əziz tutduğu bir peşədir. Təsadüfi deyil ki, cəmiyyətimizin ən layiqli nümayəndələri sənətindən, işindən asılı olmayaraq müəllim adlandırılır. Tariximizin bütün dövrlərində bu ada məhəbbətlə yanaşılmış və onun daşıyıcılarına xüsusi ehtiram bəslənmiş, diqqət göstərilmişdir.

Azərbaycanda tərbiyə və təhsil sisteminin qədim zəngin tarixi vardır. Hələ atəşpərəstliyə sitayiş edən azərbaycanlılar «Avesta»dan uşaqların dini-mənəvi və fiziki tərbiyəsi üçün, onlara oxu və yazı vərdişləri aşılamaq məqsədi ilə istifadə edirdilər. III-V əsrlərdə Sasanilərin hökmranlığı altında olan Azərbaycanda «dəbiristanlar» - ibtidai təhsil verən məktəblər geniş yayılmışdı. Bəzi tarixi mənbələr Y-YII əsrlərdə Azərbaycanda ana dilində təhsil verən məktəblərin fəaliyyət göstərdiyini bildirir.

YII əsrin ortalarından etibarən islam dininin yayılmağa başlaması ilə Azərbaycanda da məktəblərin məscidlər nəzdində dini təhsil ocaqlarına çevrilməsi prosesi getdi. X əsrdə təhsil müəssisələrinin yeni növü – orta və bəzən də ali təhsil verən mədrəsələr meydana gəldi. Əsasən dini təhsil ocağı kimi fəaliyyət göstərən mədrəsələrdə islam dininin müddəalarını dərk etmək üçün dünyəvi elmlərin də tədrisinə xüsusi diqqət [341-342] yetirilirdi. Azərbaycan mədəniyyətinin və elminin intibah dövrü sayılan XI-XII əsrlərdə Gəncə, Təbriz, Şamaxı, Naxçıvan, Həmədan və başqa iri mədəniyyət və ticarət mərkəzlərində zəmanəsi üçün mütərəqqi olan böyük mədrəsələr fəaliyyət göstərirdi. Azərbaycanın dünya şöhrəti qazanmış dahi mütəfəkkirləri Əbülhəsən Bəhmənyar, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai və başqalarının yetişməsində mədrəsə təhsilinin müstəsna rolu olmuşdur. Azərbaycanda elmin və mədəniyyətin inkişafında mədrəsələrin böyük təsiri XX əsrə qədər davam etmişdir.

XIX əsrdə dünyada cərəyan edən güclü maarifçilik prosesləri Azərbaycanda yeni tipli təhsil ocaqlarının yaranmasına təkan vermişdir. Azərbaycanın Rusiyanın tərkibinə daxil edilməsi bu prosesləri daha da sürətləndirmiş və beləliklə, uzun əsrlər boyu fəaliyyət göstərmiş mədrəsələr öz yerini müasir tələblərə cavab verən tədris ocaqlarına verməyə başlamışdır. Bu tədris müəssisələrinin yaranması və inkişafında görkəmli maarifçilər Seyid Əzim Şirvaninin, Abbasqulu Ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun və başqalarının xidmətləri əvəzsizdir.

İyirmi üç ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin təhsilə qayğısı xüsusilə diqqətə layiqdir. Məhz bu dövrdə Şərqdə ilk dünyəvi ali məktəbin – Bakı Dövlət Universitetinin əsası qoyulmuşdur. Sovet dövründə rejimin siyasi-ideoloji prinsiplərindən doğan nöqsan və çatışmazlıqlara baxmayaraq, Azərbaycanda təhsil sahəsində böyük irəliləyiş əldə olunmuşdur. Savadsızlığın ləğvi kurslarının fəaliyyəti, ümumtəhsil, peşə, orta ixtisas, ali məktəblər şəbəkəsinin daim genişləndirilməsi, ümumi təhsilin icbari və pulsuz olması, dövlətin təhsil sisteminə diqqət və yardımının get-gedə artması, şagirdlərin bir qisminin dövlət hesabına təmin edilib saxlanılması, orta ixtisas və ali məktəblərdə oxuyanlara müvafiq qaydada dövlət təqaüdünün verilməsi ölkəmizdə əhalinin təhsil səviyyəsinin yüksəlməsini şərtləndirən amillərdən idi. Müttəfiq respublikalarda, o cümlədən Azərbay[342-343]canda təhsilin bütün pillələrində öz ana dilində oxumaq hüququ da bu dövrün müsbət cəhəti kimi qeyd olunmalıdır. Bütün bunların sayəsində Azərbaycan qısa müddətdə vətəndaşlarının təhsil və elmi səviyyəsinə görə nəinki Şərqin, eləcə də dünyanın ən qabaqcıl ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanın öz müstəqilliyini bərpa etməsi digər sahələrdə olduğu kimi, təhsil sistemi qarşısında da böyük vəzifələr qoymuşdur. Müstəqillik dövrünün tələblərinə cavab verən yeni təhsil sisteminin yaradılması üçün köklü islahatların həyata keçirilməsi zəruri və təxirəsalınmazdır. Bu yolda çətinliklər də az deyildir. Sevindirici haldır ki, zəngin təcrübəyə və qədim ənənələrə malik Azərbaycan məktəbi bu gün də qarşıya çıxan bütün çətinliklərə və keçid dövrünün yaratdığı sıxıntılara baxmayaraq məhz Azərbaycan müəlliminin təlim-tərbiyəyə olan sönməz həvəsi, xalqımızın və respublikamızın parlaq gələcəyinə olan qırılmaz ümidi sayəsində öz işini uğurla davam etdirir.

Müstəqillik dövründə üzləşdiyimiz ağır bəla – Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ərazimizin 20 faizinin işğal edilməsi ilə yaranmış sosial-iqtisadi çətinliklər nəticəsində ən çox zərər dəymiş sahələrdən biri də təhsildir. İşğal olunmuş ərazilərlə yüzlərlə təlim-tərbiyə ocağı yerlə yeksan edilmiş, onun illərlə yaradılmış maddi bazası qarət edilmiş, öz yurd-yuvasından didərgin düşmüş soydaşlarımız min bir əzab-əziyyətə dözərək çadırlarda, təlim-tərbiyə üçün yararsız olan yerlərdə təhsil almaq məcburiyyətində qalmışlar. Bütün bu məşəqqətlərə sinə gərən Azərbaycan müəllimi bir daha şərəfli müəllim adını daşımağa layiq olduğunu sübut etmişdir.

Sizin bu qurultayınız müstəqil respublikamızın ilk müəllimlər qurultayı olsa da, Azərbaycanda müəllimlər qurultaylarının ictimai-siyasi hadisə kimi tarixi qədim, əhəmiyyəti danılmazdır. Müəllimlərimizin vaxtaşırı yığışaraq təhsilin qarşısında duran problemlərin həlli üçün yollar aramaları təqdirəlayiqdir. Hələ 1893-cü ildə

Nuxa qəza müəllimlərinin qurultayı, Cavanşir, [343-344] Şuşa, Cəbrayıl qəzalarında çağırılmış sahə qurultayları 1906-cı ildə Bakıda Azərbaycan müəllimlərinin birinci qurultayının çağırılmasına zəmin yaratmışdır. Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Abdulla Şaiq, Üzeyir Hacıbəyov və başqa görkəmli maarifçilərin fəal iştirakı ilə keçirilən həmin qurultay Azərbaycanın ictimai-pedaqoji fikir tarixində mühüm hadisə olmuşdur. Sonralar Azərbaycan müəllimlərinin qurultayları müntəzəm olaraq keçirilməyə başlamışdır. Lakin sizin qurultayınız əvvəlkilərdən qarşısında qoyduğu məsələlərin daha vacib, daha aktual olması ilə səciyyələnir. Çünki dövr cəmiyyətimiz qarşısında çox məsul, qlobal tələblər qoyur və onların həlli bu gün sizin tərbiyə etdiyiniz gələcək nəsillərin öhdəsinə düşür.

Bu gün ölkəmizin qarşısında duran problemlərin həllində müəllimlərin fəal iştirakı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan müəlliminin bir məqsədi, bir amalı olmalıdır: Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək.

Ümidvaram ki, müstəqil Azərbaycan müəllimlərinin ən mötəbər məclisi olan bu qurultay təhsilimizin qarşısında duran məsələlərin həlli yolunda mühüm addım olacaq və pedaqoji fikir tariximizdə əhəmiyyətli yer tutacaqdır.

Hamınıza cansağlığı və xoşbəxtlik, qurultayınıza müvəffəqiyyət diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 sentyabr 1998-ci il*
[344]

## AZƏRBAYCAN MÜƏLLİMLƏRİ QURULTAYINDA NİTQ

*Respublika sarayı*

*25 sentyabr 1998-ci il*

Əziz müəllimlər, qurultay nümayəndələri!
Hörmətli xanımlar və cənablar!

Mən sizi, müstəqil Azərbaycanın ilk müəllimlər qurultayını, bu qurultayın nümayəndələrini və bu möhtəşəm salona toplaşanların hamısını səmimi qəlbdən salamlayıram, sizə cansağlığı, səadət arzulayıram.

Mən Azərbaycan müəllimləri qurultayına təbrik məktubu göndərmişəm. O, bu gün mətbuatda dərc olunubdur, siz bununla tanışsınız. O məktubumda mən müəllim haqqında, Azərbaycan müəlliminin tarixi barədə öz fikirlərimi ifadə etmişəm. Ancaq bu gün səhərdən sizinlə bərabər müəllimlər qurultayının iştirakçısı olduğuma və məruzələrinizi, çıxışlarınızı diqqətlə dinlədiyimə görə, buradakı ab-havanı hiss edərək mən bir neçə fikrimi, mülahizələrimi sizə çatdırmaq istəyirəm.

Hesab edirəm ki, müstəqil Azərbaycanın müəllimlər qurultayı uğurla başa çatır və qurultayın qarşısında duran vəzifələr yerinə yetirilir. Müəllimlər qurultayında sərbəst, tam demokratik şəraitdə geniş və gözəl müzakirə, fikir mübadiləsi keçirildi. Bu, məni çox sevindirir. Güman edirəm ki, siz də bu gün buradakı bütün müzakirələrdən razı olmalısınız. Çünki natiqlər istədikləri kimi danışdılar, sözlərini dedilər, fikirlərini bildirdilər və bir çox səmərəli təkliflər irəli sürdülər. [345-346]

Qurultayın belə sərbəst, açıq, demokratik şəraitdə keçirilməsi müstəqil Azərbaycanda demokratiyanın mövcudluğunu, varlığını və onun inkişaf etdiyini bir daha sübut edir. Hesab edirəm ki, bu gün burada aparılan müzakirə, irəli sürülən fikirlər Azərbaycanda məktəbin, təhsil işinin təkmilləşməsi, mövcud olan nöqsanların aradan qaldırılması, Azərbaycan xalqının təhsilinin daha da yüksəklərə qaldırılması üçün çox əhəmiyyətlidir, faydalıdır.

Ümid edirəm ki, burada irəli sürülən təkliflər, bəyan edilən fikirlər Azərbaycanın hazırlanan təhsil qanunu layihəsində öz əksini tapacaqdır. Təhsil islahatları ilə əlaqədar mart ayından indiyə qədər fəaliyyətdə olan islahat komissiyası bu təklifləri nəzərə alacaqdır. Beləliklə, bugünkü qurultayda irəli sürülən fikirlərin əksəriyyəti iki dövlət sənədində öz əksini tapa biləcəkdir. Bununla bərabər, əgər ehtiyac olsa, mən bəzi məsələlərin həll edilməsi üçün xüsusi bir fərman da imzalaya bilərəm. Həmin fərmanda Azərbaycanın müvafiq nazirliklərinə, hakimiyyət orqanlarına, hökumətinə lazımi tapşırıqlar verilə bilər.

Beləliklə, mən hesab edirəm ki, müstəqil Azərbaycanın birinci müəllimlər qurultayı ölkəmizin təhsilinin gələcəyi və ümumiyyətlə, Azərbaycanın gələcəyi üçün mühüm bir mərhələdir. Bizim və sizin – hamımızın vəzifəmiz ondan ibarətdir ki, bu qurultayda irəli sürülmüş fikirlər, təkliflər həyata keçirilsin və Azərbaycanda bütün təhsil daha da yüksəlsin.

Azərbaycanda təhsilin qədim və zəngin tarixi vardır. Bu gün bu barədə məlumatlar verildi. Siz, təhsil adamları, müəllimlər bizim təhsilin tarixini yaxşı bilirsiniz. Biz tarixin bütün mərhələlərində Azərbaycanda müəllimin, təhsilin rolunu qiymətləndiririk. Ancaq bu gün burada bildirildi, bu fikirlə mən də tamamilə şərikəm ki, Azərbaycanda təhsil, xalqımızın maariflənməsi XX əsrin əvvəlindən böyük sürətlə [346-347] inkişaf edibdir və XX əsrin sonunda müstəqil Azərbaycan Respublikası böyük müəllim ordusuna, geniş təhsil şəbəkəsinə və yüksək təhsilə malikdir.

XX əsrin əvvəlində Azərbaycan müəllimlərinin birinci, ikinci qurultayları keçirilibdir. Bu gün biz əsrin sonunda müstəqil Azərbaycan müəllimlərinin qurultayını keçirərkən əsrin əvvəlində, Azərbaycan çar Rusiyasının tərkibində olduğu, təhsilin bir hissəsinin ruhanilərin, digər qisminin isə çar hakimiyyətinin əlində olduğu bir zaman xalqımızın mütəfəkkir insanlarının müəllimlər qurultayı keçirməsini yüksək qiymətləndirməliyik və bunu böyük minnətdarlıqla qeyd etməliyik.

1918-1920-ci illərdə Azərbaycanda fəaliyyət göstərmiş Xalq Cümhuriyyəti qısa bir dövr ərzində bir çox başqa məsələlərlə yanaşı, xalqımızın maariflənməsinə, Azərbaycanda təhsilin yaranmasına diqqət yetirmişdir və müəllimlər qurultayını keçirmişdir. 1919-cu ildə Azərbaycanda ilk ali məktəb – Bakı Dövlət Universiteti yaradılmışdır. Biz bu gün bu tarixi hadisələri də qiymətləndirməliyik və minnətdarlıq hissi ilə qeyd etməliyik.

Sonrakı 70 il ərzində Azərbaycan sovet hakimiyyəti dövrünü yaşamışdır. Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, o dövrdə Azərbaycan xalqı kütləvi surətdə maariflənmiş, savadlanmış, respublikamızda hər bir adamın təhsilə cəlb olunması məsələsi həll edilmişdir. Azərbaycanda savadsızlıq qısa bir zamanda ləğv olunmuşdur, respublikamızda güclü, zəngin təhsil potensialı, təhsil ocaqları və bu qədər gözəl müəllimlər ordusu yaranmışdır.

Bilirsiniz, tarixi nöqteyi-nəzərdən 70-80 il göz qırpımı kimi bir şeydir. Bu, kiçik bir zamandır. Amma görün, bu illərdə nə qədər böyük işlər görülübdür. Azərbaycanın siması dəyişibdir. Ötən dövrdə

Azərbaycanda iqtisadiyyat, mədəniyyət, həyatın bütün sahələrində, elm sahəsində əldə olunmuş nailiyyətlərin [347-348] başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir.

1918-1920-ci illərdə Azərbaycanda iki paralel proses gedirdi. Bir tərəfdən, o vaxt Azərbaycanda mövcud olan kiçik bir müəllim dəstəsi ilə məktəblər, təhsil ocaqları yaratmaq, insanların savadsızlığını ləğv etmək lazım idi. Ancaq bu böyük işi görmək üçün eyni zamanda, kadr potensialı, müəllim ordusu yaratmaq lazım idi. Böyük xoşbəxtlikdir ki, o dövrün bir çox mənfi cəhətləri ilə, Azərbaycan xalqına dəyən ziyanlarla yanaşı, bu sahədə daim inkişaf olubdur. Qısa bir zamanda, təsəvvür edin, 1920-ci illə 1930-cu il arasında Azərbaycanda bir neçə ali məktəb yaranıbdır. Bakı Dövlət Universiteti inkişaf edibdir. Amma qısa müddətdə Bakı Dövlət Universitetinin əsasında Tusi adına Pedaqoji İnstitut – indiki Pedaqoji Universitet, Tibb İnstitutu, İqtisad İnstitutu və başqa institutlar yaranıbdır.

Ondan sonrakı dövrü götürün, 1930-cu illərdə Sənaye İnstitutu yaranıbdır. 1930,1940,1950,1960,1970-ci illəri götürün. Azərbaycanda bir çox ali məktəblər olmasına baxmayaraq, 1970-ci illərdə bir neçə yeni ali məktəb yarandı. Beləliklə, Azərbaycan öz gənclərinin hamısına ali təhsil vermək iqtidarına malik oldu. Ancaq bunların da əsasını təşkil edən yenə də məktəbdir, müəllimdir.

Azərbaycanda qısa bir zamanda məktəblərin sayı artdı və onlar inkişaf etdi, genişləndi. Hər bir ucqar kənddə məktəb yarandı. Doğrudur, bu proses davam edir. Məsələn, xatirimdədir, 1970-ci illərdə mən Azərbaycana rəhbərlik edəndə bəzi kəndlər var idi ki, orada məktəb yox idi. Biz orada yeni məktəb binaları tikirdik. Amma böyük yaşayış məntəqələrində ilbəil məktəb binaları tikilirdi və onların sayı artırdı.

Məktəblərin maddi-texniki bazası haqqında indi burada ədalətli danışıqlar getdi. Bu həqiqətdir. Mən bu barədə sonra öz fikirlərimi bildirəcəyəm. Ancaq eyni zamanda, təsəvvür [348-349] edin, məsələn, 1979,1980,1981-ci illərdə hər il Azərbaycanda 35 min şagirdin oxuması üçün şəraiti olan məktəb binaları tikilirdi. Bu, bir ildə təxminən 50-60 məktəb binasının tikilməsi deməkdir. Bu, o vaxt olmuşdu ki, o dövrdə məktəblərin sayı həddindən çox artmışdı.

Beləliklə, xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli bir dövr olmuşdur. Biz bunu qiymətləndirməliyik, heç vaxt unutmamalıyıq. Biz tariximizə doğru, ədalətli qiymət verməliyik. Heç bir konyukturaya, hansısa yalançı məlumatlara uyaraq öz tariximizi qaralamamalıyıq. Tariximizin qara səhifələri də, amma çox parlaq, gözəl səhifələri də vardır. Biz bu tarixi yaşamışıq.

Mən gördüm, qurultay nümayəndələrinin 400 nəfərindən çoxunun yaşı 60-dan yuxarı olanlardır. Əgər bu adamın 60-dan yuxarı yaşı varsa, demək o, 40-45 ildir ki, müəllimlik edir, o dövrü yaşayıbdır. O, bu dövrdə təhsil alıb, müəllimlik təcrübəsini artırıbdır və Azərbaycan balalarına, uşaqlarına, gənclərinə bu gün də dərs, təhsil, tərbiyə verir. Burada əyləşənlərdən heç kəs, necə deyərlər, dünən doğulmayıbdır. Burada olan, olmayan müəllimlərin yüz faiz hamısı o illərdə doğulubdur. Azərbaycan müstəqillik əldə edəndən sonra anadan olanların hələ cəmisi 6 yaşı vardır.

Bizim keçmişimizi, tariximizi bu gün ləkələmək istəyən, Azərbaycanın həyatı haqqında ədalətsiz fikirlər söyləyən adamların da hamısı o dövrdə təhsil alıbdır. Bəli, Azərbaycanın o dövrdəki məktəblərində, universitetlərində təhsil alıblar. Müftə, pulsuz təhsil alıblar, Azərbaycan Respublikasının imkanlarından istifadə edib təhsil alıblar. Bir xalq məsəli var: «Adam su içdiyi quyuya tüpürməz». Biz hamımız o quyulardan su içmişik və ora tüpürməyə heç kəsin haqqı yoxdur.

Mən hesab edirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra respublikamızda təhsilin, maarifin inkişa[349-350]fı üçün daha da gözəl imkanlar yaranıbdır. Doğrudur, bizim maliyyə, maddi vəziyyətimiz bu imkanlardan istənilən səviyyədə istifadə etməyə imkan vermir. Amma eyni zamanda, bu, müvəqqəti bir haldır. Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin, əsasın üzərində Azərbaycanın təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcək, inkişaf edəcək və Azərbaycan uşaqları, gəncləri bu inkişaf dövrümüzdə ilbəil daha da geniş, yüksək təhsil alacaqlar.

Bizim bugünkü qurultayımızın məqsədi, mənası məhz bundan ibarətdir. Bu gün mən sizinlə birlikdə müstəqil Azərbaycan Respublikasının ilk müəllimlər qurultayında olmağımı özüm üçün böyük xoşbəxtlik hesab edirəm. Buradakı çıxışlarda bildirildi, hər kəs öz tərcümeyi-halı, öz həyat yolu ilə məktəbin, müəllimin insanın həyatında nə kimi rolu olduğunu bilir və onu qiymətləndirməlidir. Mən isə bütün varlığımla, keçdiyim həyat yolu ilə həmişə məktəbə, müəllimə borcluyam.

Döğrudur, siz məni də müəllim hesab edirsiniz. Burada müəyyən əsas var. Siz mənim təhsilimə əsaslanaraq bunu deyirsiniz. Mən indiyə qədər heç bir sinifdə müəllimlik etməmişəm. Ancaq xatırlayıram, tərcümeyi-halımdan bilirsiniz ki, mən 1939-cu ildə Naxçıvanda Pedaqoji Texnikumu bitirmişəm. Naxçıvan Pedaqoji Texnikumu məhz həmin dövrdə müəllim çatışmazlığına, ibtidai siniflərə, hətta orta məktəblərin 7-8-ci siniflərinə qədər dərs demək üçün müəllim olmadığına görə müəllim kadrları hazırlayırdı. Mən isə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra pedaqoji texnikuma daxil oldum. Məqsədim də o idi ki, müəllim olmaq, müəllim işləmək və ailəmə kömək etmək istəyirdim. [350-351]

Bilirsiniz ki, mən pedaqoji texnikumu bitirəndən sonra Bakıda ali məktəbə qəbul olundum. Pedaqoji texnikumun sonuncu kursunda bizə pedaqoji təcrübə dərsi verirdilər. Biz həftədə 2-3 dəfə gedib

məktəblərin 2-ci, 3-cü, 4-cü siniflərində dərs deyirdik. Ona görə də mənim o vaxt bir az dərs vermək təcrübəm olubdur. O günlər mənim xatirimdədir. Xatirimdədir ki, nə qədər həyəcan keçirirdim. Əvvəlcə bizi o siniflərə aparırdılar, oturub baxırdıq ki, müəllimlər necə dərs verirlər. Bir müddət belə idi. Ondan sonra isə deyirdilər ki, gedib filan gün, filan sinifdə filan dərsi verməlisən. Nə qədər hazırlaşmaq lazım idi. Nə qədər hazırlaşsaydın da 2-ci, 3-cü, 4-cü sinif uşaqları qarşısında böyük həyəcan keçirirdin. Mən həmin günləri indi də xatırlayıram.

Ancaq bununla bərabər, mən bütün həyatım boyu məktəblə, təhsil sistemi ilə bağlı olmuşam. 1969-cu ilə qədər bir çox dövlət işlərində işlədiyim zaman mən daim məktəbə, ali məktəblərə maraq göstərmişəm və onların fəaliyyətində müəyyən xidmətlərim olubdur. Ancaq mən 1969-cu ildə respublikanın rəhbəri seçiləndən sonrakı fəaliyyətimin şübhəsiz ki, bütün sahələrini qiymətləndirərək, Azərbaycanda məktəbin, orta, ali təhsilin, texniki peşə təhsilinin inkişaf etməsini öz fəaliyyətimin əsas hissəsi hesab etmişəm, bununla ciddi məşğul olmuşam. Bu gün iftixar hissi keçirə bilərəm ki, o illər mən Azərbaycana rəhbərlik etdiyim zaman saysız-hesabsız məktəblər yaranıbdır, ali məktəblərin sayı, onların fakültələri, kafedraları artıbdır, yüksək səviyyəli müəllim kadrları, universitetlərdə dərs deyən alim kadrları hazırlanıbdır və bunların hamısında mənim xidmətlərim olubdur.

Bilirsiniz ki, nəhayət, 1982-ci ilin dekabr ayında məni Moskvaya işə dəvət etdilər. Siz bilirsiniz ki, mən o vaxt Sovetlər İttifaqının ən yüksək rəhbərliyində olan adamlardan biri idim. Mən Siyasi Büronun üzvü və Sovetlər İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini idim. Mənim bir çox [351-352] vəzifələrim var idi, bir çox nazirliklərə bilavasitə rəhbərlik edirdim. Onların içərisində Sovet İttifaqının Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi də var idi. Mən Sovet İttifaqında bu üç təhsilə aid olan nazirliklərə 5 il rəhbərlik etmişəm, onların işində bilavasitə iştirak etmişəm. Mən onların məsələlərini həll etmişəm, məruzələrini dinləmişəm, kollegiyalarında, böyük iclaslarında iştirak etmişəm, nitq söyləmişəm, söz demişəm və bir çox qərarlar qəbul etmişəm.

Bu gün biz dünyanın hər yerində təhsil sisteminin necə olduğunu bilirik. Sovetlər İttifaqı dövründə yaranmış təhsil sisteminin böyük üstünlükləri var. Biz bunu başqa ölkələrin təhsil sistemi ilə müqayisə edəndə görürük. Ancaq o sistem də tam təkmil sistem deyildi. Ona görə də onu təkmilləşdirmək lazım idi. Burada natiqlərin bəziləri dedilər ki, mən 1983-1984-cü illərdə Sovet İttifaqında məktəb islahatının keçirilməsi üzrə partiya və hökumət tərəfindən yaradılmış böyük bir komissiyanın sədri olmuşam. Bildiyiniz kimi, o vaxt məktəb islahatı hazırlandı və 1984-cü ildə bu məsələ SSRİ Ali Sovetinin sessiyasında müzakirə olundu. Mən o sessiyada məktəb islahatı haqqında məruzə etdim. Bunun əsasında qanunlar, bir çox qərarlar qəbul olundu. Beləliklə, mən bu təhsil, məktəb sistemini həm gəncliyimdən, həm Azərbaycana rəhbərlik etdiyim dövrdən bilirəm, həm də SSRİ-nin rəhbərlərindən biri kimi, o zaman bu sahə ilə bilavasitə məşğul olduğuma görə bilirəm.

Bildirmək istəyirəm ki, 1983-1984-cü illərdə Sovetlər İttifaqının rəhbərliyində həqiqətən ölkənin demokratikləşdirilməsi üçün bir çox addımlar atılırdı. Andropov Sovetlər İttifaqına rəhbərlik etdiyi, mən də o vaxt SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü olduğum zaman bu sahədə görülmüş işlərin hamısını bilirəm. İndi bunu geniş danışmağa vaxt yoxdur və lazım da deyildir. [352-353] Ancaq atılmış həmin demokratik addımlardan biri 1983-cü ildə Sovetlər İttifaqında ilk dəfə «Əmək kollektivləri haqqında» qanunun qəbul edilməsi və 1984-cü ildə Ali Sovetin sessiyasında məktəb islahatı barədə qanunun, bir çox qərarların qəbul olunması idi. Bu tarixdir və bu tarixi heç kəs poza bilməz.

1983-cü ildə Sovet İttifaqının tarixində ilk dəfə «Əmək kollektivləri haqqında» qanunun hazırlanması üzrə komissiyanın sədri mən olmuşam. Həmin qanunu mən hazırlamışam, 1983-cü ilin iyulunda SSRİ Ali Sovetinin sessiyasında bu qanun haqqında məruzə etmişəm və bu qanun qəbul olunmuşdur. 1984-cü ildə «Məktəb islahatı haqqında» qanun hazırlamışam, o da qəbul edilibdir.

Doğrudur, 1985-ci ildə Qorbaçov Sovetlər İttifaqının başçısı seçiləndən sonra o illərdə görülmüş işlərə görə onda böyük bir qısqanclıq əmələ gəldi. Qorbaçov həm birinci qanunun, həm də məktəb islahatının həyata keçirilməsinə imkan vermədi, şərait yaratmadı. O özü hansısa yeni-yeni islahatlar irəli sürdü. Ancaq buna baxmayaraq, o qanunlar öz işini gördü. Məktəbin təkmilləşməsi sahəsində o illərdə bir çox işlər görülübdür.

Beləliklə, bu gün məktəb, təhsil haqqında sizinlə söhbət aparmağa və bərabərhüquqlu dialoqa girməyə mənim haqqım vardır. Ancaq bütün bunlar tarixdir, keçmişdə qalıbdır. Amma keçmişdə qalan hər bir iş də bugünkü işlərin əsasını təşkil edir.

Bu gün biz müstəqil Azərbaycanda bütün təhsilin – orta, texniki peşə, orta ixtisas məktəblərinin və ali məktəblərin işinin yaxşılaşdırılması sahəsində ciddi tədbirlər görməliyik. Mən hesab edirəm ki, bunlar da həm qəbul olunacaq təhsil qanununda, həm də təhsil islahatı ilə əlaqədar qəbul ediləcək qanunda və qərarlarda öz əksini tapacaqdır. Əmin ola bilərsiniz ki, mən indiyə qədər topladığım təcrübəmdən istifa-[353-354]də edərək və Azərbaycanın prezidenti kimi, müstəqil ölkəmizin gələcəyi haqqında daim düşünərək bu məsələlərlə müntəzəm məşğul olacağam. Respublikamızda məktəb, təhsil bundan sonra da mənim daimi qayğılarım altında, diqqət mərkəzimdə olacaqdır.

Mənim haqqımda siz də çox sözlər demisiniz, mən də öz fikirlərimi indiyə qədər bildirmişəm. Amma bu gün müstəqil Azərbaycanın müəllimlərinin ilk qurultayıdır. Biz XX əsri sona çatdırırıq, XXI əsrə doğru

gedirik. Mən bəyan edirəm ki, bizim müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir.

Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq.

Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlamışam. Bunu bu gün bir daha bildirmək istəyirəm. Arzu edərdim ki, müəllim elə müəllim olsun ki, bax, mənim hafizəmdə orta məktəbdən indiyədək yaşayan duyğular hər bir gəncin hafizəsində qalsın. Xatirimdədir, biz müəllimi görəndə həmişə özümüzü yığışdırırdıq. Müəllimdən həm qorxurduq, həm də ona hörmət edirdik. Biz müəllimin hər sözünü qanun kimi qəbul edirdik. Şəxsən mənim həyatımda müəllim ən ali sima olmuşdur. Mən tək deyiləm, hesab [354-355] edirəm, Azərbaycan vətəndaşlarının əksəriyyəti mənim kimi belə düşünür. Hər kəs öz həyatında müəllimlə özünün əlaqəsi haqqında fikirlər söyləyə bilər. Ancaq mənim çoxillik həyatımda, dünyanın çox mərhələlərini keçib gəldiyim həyatımda ən çox yadımda qalan, mənim üçün əziz olan müəllimlərdir. Mən onları bu gün də böyük minnətdarlıqla xatırlayıram. Hesab edirəm ki, mənim öz daxili istedadımla yanaşı, müəllimlərimin mənə verdikləri bilik, tərbiyə, müəllimlərimin mənə göstərdiyi yol bütün həyatımı həmişə uğurlu edibdir və bu gün də uğurlu edir.

Əziz dostlar, siz fəxr etməlisiniz ki, müəllimsiniz və müəllimlik peşəsinə sadiqsiniz. Doğrudur, müəllimin maddi vəziyyəti başqa təbəqələrə nisbətən zəif olur, elə keçmişdə də belə idi. Həqiqətən belədir. Məsələn, 70-ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman, yaxud da Sovetlər İttifaqında bu məsələlərlə məşğul olduğum zaman biz daim düşünürdük ki, müəllimlərin maaşını nə təhər artıraq, onların maddi vəziyyətini necə yaxşılaşdıraq. Sizə deyə bilərəm ki, 1984-cü ildə məktəb islahatı keçirilərkən biz eyni zamanda müəllimlərin maaşının artırılması haqqında qərar qəbul etdik.

Amma bunlara baxmayaraq, hesab edirəm ki, başqa təbəqələrə nisbətən müəllimlər elə o vaxt da aztəminatlı adamlar olublar və bu gün də aztəminatlıdırlar. Bu, müəllimliyin xüsusiyyətidir. Çünki əsl müəllim pul, sərvət üçün yox, həmişə mənəviyyat üçün xidmət edibdir. Xatirimdədir, orta məktəbdə, pedaqoji texnikumda oxuyanda mənim maddi vəziyyətim, yəni ailəmin vəziyyəti çox zəif idi. Ancaq görürdüm ki, mənə dərs verən müəllimlərin maddi vəziyyəti bizim maddi vəziyyətimizdən o qədər də artıq deyildir. Amma nə qədər həvəslə, sədaqətlə və nə qədər ürəklə bizə tərbiyə, dərs verirdilər. Ona görə də müəllimlik peşəsi həmişə fədakarlıq tələb edir. Bu, belə olubdur. [355-356]

Mən hesab edirəm ki, insan cəmiyyətində ən yüksək yerdə mənəviyyat durur. Maddi vəziyyət, sərvət, bu və ya başqa şeylər xeyli aşağıda durur. Bununla onu demək istəmirəm ki, müəllimlər həmişə maddi çətinlik içərisində yaşamalıdırlar. Yox, sadəcə, bu sözlərimlə mən özünü müəllimlik peşəsinə həsr edən insanın həmin peşəyə sadiqliyini sübut etmək istəyirəm. Ola bilər, o müəllimlər gedib başqa bir işlə məşğul olsaydılar, bir neçə qat artıq fayda götürə bilərdilər və maddi vəziyyətləri də yaxşı olardı. Ancaq onlar müəllimlik peşəsini seçiblər, siz müəllimlik peşəsini seçmisiniz. Buna görə də mən sizə «afərin!» deyirəm, sizin qarşınızda, müəllimin qarşısında baş əyirəm.

Eyni zamanda sizi əmin edirəm ki, müəllimin maddi vəziyyətini yaxşılaşdırmaq üçün mümkün olan tədbirləri görəcəyik, müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılmasına nail olacağıq. Müəllimlər qurultayına bir neçə gün - bir həftə, on gün qalmış Nazirlər Kabinetinə, maliyyə, iqtisadiyyat nazirliklərinə göstəriş verdim ki, qurultay keçiriləne qədər müəllimlərin maaşlarının artırılması üçün nə etmək olar? On gündür bu işlə məşğul olurlar. Bildirmək istəyirəm ki, müəllimlərin maaşının qaldırılması üçün yaxın aylarda ciddi tədbirlər görüləcəkdir.

Siz real vəziyyəti bilməlisiniz. Real vəziyyət ondan ibarətdir ki, son üç ildə biz Azərbaycanda iqtisadiyyatı müəyyən qədər sabitləşdirmişik. Bu gün burada siz Azərbaycanda yaranmış ictimai sabitlik haqqında çox gözəl sözlər dediniz. Onlara görə sizə təşəkkür edirəm. Ancaq eyni zamanda, bu ictimai-siyasi sabitliyə nail olmaq üçün, başqa tədbirlərlə yanaşı, iqtisadiyyatda da sabitliyə nail olmaq lazımdır. Biz iqtisadiyyatda, maliyyə sistemində sabitliyə, normal inkişaf yoluna nail ola bilmişik. Bu, asan məsələ deyildir.

Bilirsiniz ki, son üç ildə müəllimlərin maaşı bir neçə dəfə artırılıbdır. 1995-ci ilə nisbətən müəllimlərin maaşı 1996-cı ildə 2,6 dəfə, 1996-cı ilə nisbətən 1997-ci ildə 1,7 dəfə, 1998-ci ilin birinci yarısında 12 faiz artırılıbdır. Amma bu azdır. Siz də deyirsiniz, mən də bununla razıyam. Amma təsəvvür edin, əgər 1995-ci ilə nisbətən 1996-cı [356-357] ildə 2,6 dəfə, 1996-cı ilə nisbətən 1997-ci ildə 1,7 dəfə və nəhayət, bu ilin birinci yarısında 12 faiz artırılıbsa, bunun üçün vəsait tapmaq lazımdır.

Büdcədən təhsilə ayrılan vəsait ilbəil artır. 1996-cı ildə büdcənin 17 faizi, 1997-ci ildə 20 faizi, 1998-ci ildə isə 22 faizi təhsilə ayrılıbdır. Bu dinamikanı, artımı görürsünüz. Bu da azdır. Ancaq imkanlarımız bundan ibarətdir. Respublika üzrə müəllimin orta əmək haqqı 1995-ci ildə 30 min manat, 1996-cı ildə 78

min manat olubsa, bu ilin birinci yarısında 150 min manatdır. Bu statistikadır. Ola bilər, birində çoxdur, birində azdır, amma bu statistikadır.

Mən dünən Suraxanı rayonunda idim. Ora neftçilər rayonudur və orada böyük istehsal var. Suraxanı rayonunda əhalinin, işləyənlərin orta əmək haqqı 400 min manatdır. Neftçilərin orta əmək haqqı 500 min, bəzən 600 min manatdır. Amma büdcədən maliyyələşdirilən təşkilatlara lazımi vəsaiti büdcəyə gələn gəlirlərdən ayırırıq. Onu da bilməlisiniz ki, büdcədən maliyyələşdirilən təşkilatlar içərisində ən çox vəsait ayrılan təhsil sahəsidir. Bu reallıqdır.

Onu da bilməlisiniz ki, göstərilən artımlarla yanaşı, Azərbaycanda, dediyim kimi, 1996-cı ildən iqtisadiyyatda sabitlik əmələ gəlibdir. Bu da nədən ibarətdir? Məsələn, 1994-cü ildə Azərbaycanda inflyasiya 1400 faiz, 1995-ci ildə 80 faiz, 1996-cı ildə təxminən 8-9 faiz, 1997-ci ildə 0,4 faiz olubdur. 1998-ci ildə inflyasiya yoxdur. Bu, nə deməkdir? O deməkdir ki, bu üç il müddətində Azərbaycanda qiymətlər artmır. Maaş artır, amma qiymətlər artmır.

Bu iqtisadi məsələləri, maliyyə məsələlərini bəlkə də hər kəs dərk edə bilmir. Ancaq dövləti, maliyyəni, iqtisadiyyatı idarə etmək şüarlarla ola bilməz. İndi radikal müxalifətdə olanlar [357-358] hər şeyi pisləyir, tənqid edirlər. Amma onlar yalan danışırlar. Yaxud da bəzi başqaları ucuz şöhrət qazanmaq üçün «filan maaşları filan qədər artırmaq, filan malların qiymətini bu qədər azaltmaq lazımdır, filan işləri belə etmək lazımdır», - deyirlər.

Bilirsiniz, kənarda durub iqtisadiyyatla məşğul olmayan və məsuliyyət daşımayan adamlar hər cür populist söz deyə bilərlər. Əziz bacılar, qardaşlar, ancaq bilin, bu iqtisadiyyatla biz məşğul oluruq, Azərbaycanın iqtisadi sabitliyini təmin etmişik. Biz şüarların, hisslərin təsiri altında iş görə bilmərik. Nə mümkündürsə, biz onu edirik.

Rusiyada gedən proseslərə baxın. Rusiyada son dörd-beş ayda böyük bir böhran baş veribdir. Bu, nədən ibarətdir? Maaşlar verilə bilmir. Neçə aylarla müəllimlərin maaşları, pensiyalar verilə bilmir. Büdcədən maliyyələşdirilən başqalarının maaşları verilə bilmir. Dünən bizim sosial müdafiə fondunun sədri çıxış edirdi, o bildirdi, - bildirməsə də, məndə məlumatlar var, - bizdə avqust ayının pensiyaları hamısı verilibdir. Müəllimlərin yay məvaciblərinin hamısı verilibdir. Bunu təmin etmək asan məsələ deyil, bunu bilin. Əgər büdcənin 22 faizi təhsilə və onun da əksər hissəsi maaşlara gedirsə, bu vəsaiti əldə etmək asan məsələ deyildir.

Sizə bir məsələni də demək istəyirəm. Dünyada – Şərqi və Cənub-Şərqi Asiyada baş vermiş böyük maliyyə böhranı nəticəsində neftin və neft məhsullarının qiyməti iki dəfə azalıbdır. Bizim büdcənin gəlirinin də çox hissəsini neft məhsullarından əldə olunan gəlir təşkil edir. Mən sizə açıq deyirəm, bu, iqtisadiyyatımızın indiki mərhələsində bizə çox böyük zərbə vurubdur. Buna baxmayaraq, bizdə manatın dəyəri sabitdir. Amma Rusiyaya baxın. İqtisadi böhran, maliyyə böhranı orada bir hökuməti istefaya göndərdi – Çernomırdini prezident istefaya göndərdi. Ondan sonra Kiriyenkonu təyin elədi, yeni bir hökumət yarandı. O, bu [358-359] böhranın qarşısını ala bilmədi, böhran daha da dərinləşdi. Prezident onu da istefaya göndərdi. İndi on gündür ki, yeni hökumət yaranır.

Bilirsiniz, bəli, orda bir çox maaşları artırıblar, amma onu təmin edə bilmirlər. Bu, bir tərəfdən. İkinci tərəfdən, buraxılmış cürbəcür nöqsanlar nəticəsində Rusiyanın valyutasının – rublun devalvasiyası gedib, qiyməti düşübdür. Bilirsiniz ki, Rusiyada pul islahatı keçirildi. Pullar dəyişdirildi və sıfırlar götürüldü, bir milyon gəldi oldu, nə bilim, nə qədər. Son üç aya qədər 1 dollar 6 rubl idi. Sonra maliyyə böhranı ki, başladı, 1 dollar 24 rubla qalxdı. Təsəvvür edirsinizmi, Rusiyada dolların qiyməti 4 dəfə qalxdı. Bu, Rusiyanın bütün maliyyəsini, bankların vəziyyətini pozdu, maaşlar verilmir və sairə. Dünən mən dinləyirdim, indi görülən bütün tədbirlər, xaricdən alınan kreditlər nəticəsində 1 dollar 15 rubl olubdur, bir az aşağı salıblar. Ancaq bu, böyük bir fəlakətdir.

Amma bizdə isə dolların məzənnəsi sabitdir, son iki-üç ildə manat dollara nisbətdə daha da möhkəmlənibdir. Demək, üç il müddətində bizim manatın alıcılıq qabiliyyəti tamamilə sabitdir və qiymətlər də qalxmayıbdır. Bilirsiniz, maliyyənin xüsusiyyətləri, incəlikləri bəlkə də hər bir adam üçün məlum deyildir. Amma mən bunları sizə deməyə məcburam ki, siz biləsiniz: Azərbaycanı bu ağır vəziyyətdə idarə etmək, iqtisadiyyatı son üç ildə sabit saxlamaq və onun inkişafına nail olmaq asan məsələ deyildir. Yenə də deyirəm, bu, küçələrdə deyilən şüarlarla, yaxud ayrı-ayrı populist danışıqlarla, məsuliyyətsiz adamların danışıqları ilə bir araya gəlməz. Bunları etmək üçün o adamların biri gəlib məsuliyyəti üzərinə götürməlidir. Amma götürə bilməz. Çünki bu söhbətləri edən adamlar nə maliyyəni, nə də iqtisadiyyatı bilmirlər. Heç bir şey bilmirlər, ancaq şüar deməyi bilirlər.

Təsəvvür edin, əgər mən 70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycanda iqtisadiyyatı bu qədər yüksəklərə [359-360] qaldıra bilmişdimsə, Sovetlər İttifaqının rəhbərliyində olduğum zaman o cümlədən maliyyə işləri ilə məşğul olur və birinci müavin kimi Sovetlər İttifaqının büdcəsinin formalaşdırılmasına rəhbərlik edirdimsə, bu işlərlə məşğul olan adam idimsə, böyük bir superdövlətin maliyyəsini, böyük ölkələrin maliyyəsini bilən adam kimi mən sizə məsuliyyətlə deyirəm ki, vəziyyət bundan ibarətdir.

Konkret olaraq müəllimlərin maaşının artırılması barədə. Əgər neftin qiymətinin düşməsi ilə əlaqədar son aylarda neftdən gələn gəlirlərimiz azalmasaydı, bəlkə də elə bu qurultay zamanı maaşların artırılması haqqında müəyyən bir fərman verə bilərdim. Ancaq sizə açıq deyirəm, yaranmış belə vəziyyətdə mən bunu

edə bilmirəm. Eyni zamanda sizə bəyan edirəm ki, indi 1999-cu ilin büdcəsi hazırlanır, biz onu təxminən noyabr ayında müzakirə edəcəyik və 1999-cu ilin əvvəlindən müəllimlərin maaşının artırılacağına söz verirəm.

Mən sizə hər şeyi olduğu kimi deyirəm. Yalan söz demək, xalqı aldatmaq heç bir rəhbərə, vəzifəli şəxsə heç vaxt uzunmüddətli uğur gətirməyibdir. Mən isə istəyirəm ki, Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik, iqtisadi-maliyyə sabitliyi davam etsin və biz Azərbaycanın iqtisadiyyatını bu ilin sonuna qədər və 1999-cu ildə də inkişaf etdirək. Biz bunu inkişaf etdirəcəyik. Həm Azərbaycanın istehsal sahələrini hərəkətə gətirərək, həm də özəlləşdirməni apararaq, iqtisadi islahatları həyata keçirərək, torpaq islahatını həyata keçirərək istehsalı artırırıq və bu artım da öz nəticələrini verir.

Maaşı artırmaq, maliyyə əldə etmək üçün birinci növbədə ümumi daxili məhsulu artırmaq lazımdır. Mən dəfələrlə demişəm və bu gün bir də demək istəyirəm. Bilirsiniz ki, 1990-cı ildən, hətta 1989-cu ildən Azərbaycanda istehsal tənəzzülə başlayıbdır. Bu tənəzzül 1995-ci ilə qədər davam edib və istehsalın – sənaye, kənd təsərrüfatı istehsalının və ümumi daxili məhsul istehsalının həcmi hər il təxminən 20-25 faiz [360-361] aşağı düşübdür. 1996-cı ildə biz bu azalmanı dayandırmışıq. Ümumi daxili məhsul 1996-cı ildə 5,8 faiz, 1997-ci ildə 8 faiz artmışdır. Bu ilin ötən aylarında isə 9 faiz artıbdır. Bu, böyük hadisədir ki, biz tənəzzülü dayandırmışıq və artıma nail olmuşuq. Bu artım çoxaldıqca bizim maliyyə gəlirimiz də artacaq və beləliklə, əhalinin iqtisadi vəziyyətini yaxşılaşdıracağıq, o cümlədən büdcədən maliyyələşdirilən müəllimlərin, təhsil işçilərinin maddi vəziyyətini yaxşılaşdıracağıq.

Burada bir çox təkliflər irəli sürüldü. Mən hesab edirəm ki, bu təkliflərin hamısı çox dəyərlidir və nəzərə alınmalıdır. Amma təkliflərdən bir-ikisinə öz münasibətimi bildirmək istəyirəm. Birincisi, məktəblərin, ümumiyyətlə, təhsil ocaqlarının maddi-texniki vəziyyəti haqqında. Doğrudur, indi biz əvvəllərdəki kimi məktəb binaları, ali təhsil ocaqlarına lazımi binalar tikə bilmirik. Çünki bu imkanlar yoxdur. Mən sizə dedim, 1979,1980,1981-ci illərdə biz orta hesabla ildə 50-60 məktəb tikib istifadəyə verirdik. Yaxud da Bakı Dövlət Universitetinin, başqa universitetlərin tədris kompleksləri nə qədər genişlənib, inkişaf edibdir. Bütün bu çətinliklərə baxmayaraq, Tibb Universitetinin də yeni tədris korpusu hazırlanıb, istifadəyə verilmək ərəfəsindədir. Mən yəqin ki, bu günlərdə gedib onunla tanış olacağam. Ancaq bunlar bizim keçmişdə olan imkanlarımız deyildir, ona görə də edə bilmirik.

Açıq demək lazımdır, əgər mən bu respublikaya rəhbərlik etdiyim zaman ildə 50-60 məktəb tikmək mümkün idisə, bu gün yenə də respublikaya rəhbərlik edirəm, niyə bunu tikə bilmirik? Ona görə yox ki, biz bunu bacarmırıq, istəmirik. Ona görə ki, bunun üçün bizim maddi və maliyyə imkanlarımız çatmır. Ancaq bildirirəm ki, maliyyə, maddi imkanlarımız ilbəil artacaq və bunun nəticəsində də biz Azərbaycanda yenidən təhsil ocaqlarının tikilməsi, istifadəyə verilməsi prosesini aparacağıq. [361-362]

Eyni zamanda, burada tamamilə düzgün fikir söyləndi ki, bizim iş adamları, ayrı-ayrı şirkətlər ya məktəb binası tikə, yaxud da mövcud məktəblərin təmirini öz üzərinə götürə bilərlər. Burada doğru deyildi, bəzi iş adamları məscid tikirlər, - o da lazımdır, mən bunu çox əhəmiyyətli hesab edirəm, - ancaq bir məscid tikəndə, bir dənə də məktəb binası tikmək lazımdır. Ona görə də mən burada deyilən fikirlərə şərik çıxaraq üzümü tuturam Azərbaycanda fəaliyyət göstərən iş adamlarına, şirkətlərə və müraciət edirəm ki, onlar bu sahədə təşəbbüs göstərsinlər. Bəyan edirəm ki, kim bu sahədə təşəbbüs göstərsə, hansısa bir məktəbi yaxşı təmir edib müasir vəziyyətə salmağı öz üzərinə götürsə, şübhəsiz ki, o, dövlət tərəfindən müəyyən qayğı altında olacaqdır. Ümidvaram ki, mənim bu çağırışıma qoşulanlar olacaqdır. Hesab edirəm ki, bizim Təhsil Nazirliyi mənim bu çağırışımla əlaqədar lazımi işlər görməlidir. Beləliklə, biz şirkətləri, iş adamlarını təhsilə vəsait sərf etməyə və təhsilin inkişafına qoşulmağa cəlb edə bilərik.

Burada məktəbə altı yaşından getmək məsələsi barədə də fikir söyləndi. Mən anlamıram, nə üçün bu, indiyə qədər müzakirə olunur? 1984-cü ildə «Məktəb islahatı haqqında» qəbul olunmuş qanunda uşaqların altı yaşından məktəbə getməsi tamamilə məqbul hesab edilmişdi. Burada deyildi, doğrudan da bəzən heç altı yaşına çatmamış uşaqlar var ki, çox istedadlı, hazırlıqlıdırlar və onları məktəbə qəbul etmək lazımdır. Hesab edirəm, bu barədə də lazımi tədbirlər görülməlidir.

Mən sizə öz təcrübəmdən deyə bilərəm. Mən özüm altı yaşımda məktəbə getmişəm, - o vaxt hələ nə islahat, nə də qanun var idi, - məni məktəbə qəbul ediblər və on altı yaşımda məktəbi bitirmişəm. Oğlum isə məktəbə gedəndə hələ altı yaşı da tamam deyildi. Bunlar hamısı təkcə mənim yox, çox insanların övladlarının təcrübəsindən keçibdir və buna mane olmaq lazım deyildir. [362-363]

Bizim hamımızın ən əsas qayğısı işğal olunmuş torpaqlardan didərgin düşmüş soydaşlarımızın, vətəndaşlarımızın vəziyyəti və onların, xüsusən çadırlarda və qeyri-münasib binalarda yaşayan ailələrin uşaqlarının təhsili məsələsidir. Mən bəzən görürəm, televiziya ilə göstərirlər ki, çadır şəhərciklərində müəllimlər uşaqlara çadır altında dərs keçir-lər. Bizim dövrümüzdə bunu görmək bir tərəfdən ağırdır, çünki indi, XX əsrin sonunda bir çox vətəndaşlarımız çadırda yaşayır və uşaqlar da çadırlarda təhsil alırlar. Amma ikinci tərəfdən də, bu, məndə böyük qürur hissi doğurur ki, Azərbaycan vətəndaşları, azərbaycanlılar təhsilə nə qədər bağlıdırlar, övladlarını nə qədər təhsilləndirmək, maarifləndirmək istəyirlər, hətta çadırda, ağır şəraitdə yaşayaraq uşaqlarını məktəbə oxumağa göndərirlər. Xüsusən çadır şəhərciklərindəki məktəblərdə dərs verən müəllimlərin fəaliyyətini qiymətləndirirəm. O müəllimlər ki, çətin vəziyyətdə, bəzən qarın altında, palçığın içində, ağır vəziyyətdə, çadırda dərs verir, özünün şərəfli

müəllimlik vəzifəsini yerinə yetirir, köçkün uşaqlarını tərbiyələndirir və onlara təhsil verirlər – bunlar xüsusi hörmət və ehtirama layiqdirlər.

Bilirsiniz ki, Azərbaycanın işğal olunmuş torpaqları problemi ilə biz məşğuluq. Siz də burada dediniz ki, bu məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarısınız. Mən bu gün bir də bəyan edirəm ki, biz ötən il müddətində, yəni atəşkəs əldə ediləndən sonra bu sahədə çox iş görmüşük və məsələnin sülh yolu ilə həll olunması üçün bir çox imkanlar yaranıbdır. Əminəm ki, biz buna nail olacağıq. Ancaq sizin qarşınızda bəyan edirəm: əgər biz bu yolla torpaqlarımızı işğalçı dəstələrdən azad edə bilməsək, işğal edilmiş torpaqların hamısının nəyin bahasına olur-olsun, hamımız birlikdə, indi yaranmış güclü ordumuzla və öz iradəmizlə azad edilməsinə nail olacağıq. Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik. [363-364]

Bu gün buradakı çıxışlarda son vaxtlar Azərbaycanda yaranmış mövcud vəziyyət haqqında da öz fikirlərinizi bildirdiniz. Bizim ən böyük nailiyyətlərimizdən biri ölkəmizdə ictimai-siyasi sabitliyin yaranmasıdır. Buna da çox çətinliklə nail olmuşuq. 1993-cü ili xatırlayın, Azərbaycanın o ildəki vəziyyətini, vətəndaş müharibəsini və müxtəlif cinayətkar dəstələrin tüğyan etməsini yadınıza salın. Biz böyük çətinliklərdən keçərək və böyük fəlakətlərin qarşısını alaraq, Azərbaycanda vətəndaş müharibəsinə yol vermədik. Ondan sonra, 1994-cü ilin oktyabr ayında dövlət çevrilişinin qarşısını sizin köməyinizlə, dəstəyinizlə aldıq. 1995-ci ilin mart ayında daxildə olan düşmən qüvvələrin xarici ölkələrin xüsusi xidmət orqanları ilə birlikdə Azərbaycanı dağıtmaq, parçalamaq məqsədi ilə başladıqları dövlət çevrilişinin qarşısını aldıq.

Ondan sonra Azərbaycanın dövlətçiliyinə qarşı təxribatlar, terrorlar baş verdi. Bəli. Sabunçuda olan körpünü partlatmaq istədilər – onun qarşısını aldıq. Prezidentin təyyarəsini vurmaq istədilər – onun qarşısı alındı. Biz bir çox belə bəlalardan keçib gəlmişik. Ancaq bizim iradəmiz, apardığımız siyasət, gördüyümüz işlər sayəsində Azərbaycanda bütün bu cinayətkar dəstələr zərərsizləşdirilib, ölkədə rahatlıq yaranıbdır və siz də, bütün Azərbaycan vətəndaşları da ictimai-siyasi sabitlik şəraitində rahat, sakit yaşamaq imkanı əldə etmisiniz.

Biz bunu qoruyub saxlamalıyıq. Çünki Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğunu aparmaq, siyasi, iqtisadi və sosial islahatları həyata keçirmək, iqtisadiyyatı inkişaf etdirmək üçün, Azərbaycanın işğal olunmuş torpaqlarından işğalçı dəstələri çıxarmaq, respublikanın ərazi bütövlüyünu bərpa etmək üçün, Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək üçün daxili vəziyyət daim sabit olmalı və hər bir təxribatçı qüvvənin qarşısı alınmalıdır.

Ancaq təəssüf olsun ki, bəzi qüvvələr yenə də Azərbaycanda qarışıqlıq salmaq, yaranmış sabitliyi pozmaq, xalqımı[364-365]za cürbəcür çətinliklər yaratmaq istəyirlər. Siz bunu görürsünüz və çıxışlarınızdan, qəbul etdiyiniz qətnamədən belə qənaətə gəlirəm ki, bütün bu hərəkətləri pisləyir, bunlara etiraz edirsiniz, Azərbaycanın dövlətçiliyini qoruyursunuz və qoruyacaqsınız. Mən isə sizə söz verirəm ki, biz yaranmış ictimai-siyasi sabitliyi, Azərbaycanın dövlətçiliyini bundan sonra da qoruyacağıq, buna qadirik. Azərbaycanın dövlət müstəqilliyini qoruyub inkişaf etdirəcəyik.

Azərbaycanda demokratiya bərqərar olub, demokratiya inkişaf edir. Oktyabr ayının 11-də keçiriləcək prezident seçkiləri Azərbaycanın demokratiya yolu ilə getməsini dünyaya bir daha nümayiş etdirəcəkdir və ölkəmizdə demokratiyanın təntənəsinə çevriləcəkdir. Mən çox məmnunam ki, siz oktyabr ayının 11-də keçiriləcək prezident seçkilərinin siyasi əhəmiyyətini və mahiyyətini yaxşı bilirsiniz. Bu gün öz çıxışlarınızda, qəbul etdiyiniz qətnamədə və xalqa ünvanlanmış müraciətinizdə bəyan etdiniz ki, bu seçkilərin keçirilməsi üçün vətəndaş kimi öz mövqeyinizi bundan sonra da bildirəcək və öz xidmətlərinizi göstərəcəksiniz.

Prezidentliyə altı namizəd var. Hər bir namizədin sərbəst fəaliyyət göstərməsi üçün imkanlar yaranıbdır. Seçicilər, siz isə istədiyiniz adama səs verə bilərsiniz. Bunun üçün hər kəs sərbəstdir, azaddır. Azərbaycanın prezidenti kimi mənim məqsədim ondan ibarətdir ki, respublikada prezident seçkilərinin sərbəst, azad, ədalətli keçməsi təmin olunsun. Bu, sizdən, hər bir vətəndaşdan, hamınızdan asılıdır. Bu gün burada hökm sürən əhval-ruhiyyə göstərir ki, biz sizinlə birlikdə buna nail olacağıq.

Siz burada mənim ünvanıma çox dəyərli sözlər dediniz. Bunlara görə sizə təşəkkür edirəm. Sizə bildirirəm ki, mənim həyatımın mənası və məqsədi həmişə xalqa xidmət etməkdən ibarət olubdur. Bu gün də burada bütün günü sizinlə birlikdə Azərbaycanın təhsil məsələlərinin müzakirəsində iştirak [365-366] edərək, ölkəmizin bu gününə və gələcəyinə öz xidmətimi göstərmək istəyirəm. Siz hətta mənə, - belə başa düşürəm, - bir fəxri ad da verdiniz. Bu, mənim üçün gözlənilməz hadisə, sürpriz oldu. Bunu sadəcə, sizin, ictimai təşkilatın mənə göstərdiyi hörmət kimi və mənim xidmətlərimə verdiyiniz qiymət kimi qəbul edir və sizə təşəkkür edirəm.

Görürsünüz ki, mən nümayəndə olmasam da, sizin qurultayınızda fəal iştirak edirəm. Hətta Təhsil şurası haqqında siyahı oxunanda yalnız mən təşəbbüs göstərdim. Amma gördüm ki, buraxılmış həmin səhvi siz də görmüşdünüz, ancaq nədənsə, bunu demədiniz. Bəlkə də, mən deməsəm, siz deyəcəkdiniz.

Bu barədə öz fikrimi izah etmək istəyirəm. Mən belə anladım ki, qurultayda yaradılan Təhsil şurası ictimai təşkilatdır, müəllimlərin, təhsil işçilərinin təşkilatıdır. Ona görə də belə bir təşkilatda yalnız müəllimlər, bilavasitə təhsil sahəsində işləyənlər, bilavasitə təhsillə məşğul olanlar olmalıdırlar. Belə bir şuraya hökumət üzvlərini və Prezident Aparatının bir çox məsul vəzifəli şəxslərini, başqa vəzifəli şəxsləri,

hətta daxili işlər nazirini, müdafiə nazirini və baş prokuroru salmaqla bu şuranın tamamilə mənasını dəyişirsiniz.

Əksinə, mən hesab edirəm ki, bu şuranın müstəqil olması üçün orada dövlət nümayəndələri olmamalıdır. Gərək bu şura müstəqil olsun, ictimai təşkilat olsun, öz sözünü hökumətə, hakimiyyət orqanlarına desin və öz təkliflərini irəli sürsün. Şurada nazirlərin olması sizə lazım deyildir. Mən isə söz verirəm ki, hər bir nazirin, hökumət nümayəndəsinin sizin şuranın bütün təkliflərinə, qərarlarına baxmasını təmin edəcəyəm. Ona görə də şuranın tərkibində onların olmasına ehtiyac yoxdur. Güman edirəm ki, şuranın tərkibi sizin də, mənim də düşündüyümüz kimi olacaqdır. Əminəm ki, bu şura formal bir təşkilat yox, işlək təşkilat olacaq və təhsilin, müəllimin, məktəbin problemlərini həll etmək üçün həmişə [366-367] fəal olacaqdır. Azərbaycanın prezidenti kimi mənim tərəfimdən isə bu şura həmişə dəstək ala biləcəkdir.

Əziz dostlar, siz mənim yenidən prezident seçilməyim üçün burada öz fikirlərinizi bildirdiniz. Buna görə sizə təşəkkür edirəm. Sizə açıq demək istəyirəm ki, mən Azərbaycan xalqı qarşısında öz borcumu yerinə yetirmişəm. İndiyə qədərki həyatım və gördüyüm işlər bunu hər bir insan üçün sübut edir. Ancaq mən Azərbaycanı bu müstəqillik dövründə daha da inkişaf etdirmək üçün bundan sonra da öz xidmətlərimi göstərməyi lazım bilirəm. Ona görə ki, mən hiss edirəm – sizin də, Azərbaycan vətəndaşlarının əksəriyyətinin də buna ehtiyacı var. Bu ehtiyacı hiss edərək mən yenidən prezident seçilməyimə razılıq vermişəm.

Mən bəyan edirəm ki, əgər siz, Azərbaycanın seçiciləri mənə səs verib 11 oktyabrda məni yenidən prezident seçsəniz, gələcəkdə də bu vəzifəni namusla, şərəflə yerinə yetirəcəyəm.

Əziz və hörmətli müəllimlər! Mən sizin hamınıza cansağlığı, səadət, gələcək işlərinizdə uğurlar arzu edirəm. Sizi əmin edirəm ki, mən daim sizinlə olacağam. Siz mənim ən yaxın dostlarımsınız və heç bir qüvvə məni sizdən, sizi də məndən ayıra bilməz!

Eşq olsun Azərbaycan müəlliminə!

Eşq olsun Azərbaycan məktəbinə!

Yaşasın müstəqil, demokratik Azərbaycan! [367]

# RUSİYANIN XALQ ARTİSTİ GENNADİ XAZANOVUN KONSERTİNDƏN SONRA ONUNLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Respublika sarayı*

*26 sentyabr 1998-ci il*

**G e n n a d i X a z a n o v**: Hörmətli cənab prezident. Sizin mənim yaradıcılıq gecəmə gəlişiniz məni çox məmnun etdi. Bunun üçün Sizə dərin təşəkkürümü bildirirəm. Ancaq çox təəssüf edirəm ki, Sizin 75 illik yubileyinizə dəvət almadığım üçün həmin xoş mərasimdə iştirak edə bilmədim.

**H e y d ə r Ə l i y e v**: Əvvəla gözəl çıxışınıza görə Sizə təşəkkür edirəm. Sonra isə deməliyəm ki, siz heç də yubileyimə dəvət almadığınız üçün məndən inciməyin. Axı əslində, mən bu dəfə heç öz yubileyimi qeyd etmədim də. Sizin çıxışınıza gəldikdə isə, mənə xoşdur ki, bakılı tamaşaçılar Sizin kimi sənətkarı unutmur, həmişə olduğu kimi çıxışlarınızı yenə də heyranlıqla qarşılayırlar. Mənim fikrimcə bu sübut edir ki, Azərbaycanın müstəqillik qazandığı gündən 7 il keçməsinə baxmayaraq ölkəmiz əvvəllər bir dövlətin tərkibində olduğu Rusiya ilə əlaqəni kəsmir, verilişləri məmləkətimizə də yayımlanan Rusiyanın telekanalları sayəsində burada rus dili saxlanılır.

**G e n n a d i X a z a n o v**: Mən Bakıda 16 il əvvəl olmuşam. Bununla belə, bu gün mən özümü elə o illərdə Sizin Moskvaya işləməyə getməzdən əvvəl burda olduğum vaxtlardakı kimi, yenə də yaxşı hiss edirəm. [368-369]

**H e y d ə r Ə l i y e v**: Yəqin ki, yadınızdadır, mən Moskvada olanda da Sizinlə görüşməyi çox xoşlayırdım. Bütün ailəmlə Moskva Estrada Teatrında keçirilən konsertlərinizə böyük məmnuniyyətlə gedərdik.

**G e n n a d i X a z a n o v**: Çox sağ olun, əziz Heydər Əliyeviç. Sizə bir daha səmimi-qəlbdən təşəkkür edirəm. Ancaq bir şey məni çox maraqlandırır. Sizin belə cavan qalmağınızın sirri nədədir? [369]

## NƏRİMAN NƏRİMANOV ADINA AZƏRBAYCAN DÖVLƏT TİBB UNİVERSİTETİNİN YENİ TƏDRİS BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*28 sentyabr 1998-ci il*

Hörmətli həkimlər!

Hörmətli alimlər, müəllimlər, əziz tələbələr!

Mən bu gün sizinlə burada, tibb universitetinin yeni böyük, möhtəşəm binasının açılışı münasibətilə görüşümdən çox məmnunam, çox şadam, çox sevinirəm və sizi ürəkdən salamlayıram.

Azərbaycan Tibb Universitetinin böyük tarixi vardır. Tibb universiteti Azərbaycan Respublikası, xalqı qarşısında böyük xidmətlər göstərmişdir. Əsrin əvvəlində Azərbaycanda həkimləri barmaqla saymaq olardı. Onların da hamısı Rusiyada, Avropada təhsil almış insanlar idi. Amma eyni zamanda bu gün qeyd etmək lazımdır ki, çox dəyərli, görkəmli insanlar idilər.

1919-cu ildə Bakı Dövlət Universiteti yaranarkən onun tərkibində tibb fakültəsi də var idi. Azərbaycan özü üçün həkimlər, səhiyyə işçiləri hazırlamağa başladı. Amma o vaxt həkimləri hazırlamaq, onlara dərs vermək, təbabət elmini, həkimlik peşəsini öyrətmək üçün kadrlarımız, müəllimlərimiz yox idi. Onlar çox az idi. Başqa ölkələrdən gəlmiş müəllimlər, həkimlər Azərbaycanda tibb işçilərinin hazırlanmasına səy göstərdilər. Qısa bir zamanda tibb fakültəsi böyüdü, inkişaf etdi, azərbaycanlılar məhz azərbaycanlıların özündən [370-371] həkimlər hazırladı və 1930-cu ildə ilk dəfə Azərbaycanda indi tibb universiteti olan tibb institutu yarandı.

Mənim xatirimdədir, 1980-ci ildə biz tibb institutunun 50 illiyini qeyd edirdik və institutun xidmətlərini böyük iftixar hissi ilə dünyaya bəyan edirdik. İndi isə biz artıq tibb institutunun, universitetinin 70 illik yubileyinə yaxınlaşırıq. Bu dövrdə Azərbaycanda məhz tibb institutunun, universitetinin fəaliyyəti nəticəsində böyük və çox gözəl səhiyyə işçiləri, həkimlər dəstəsi yaranmışdır. Onlar Azərbaycan vətəndaşlarıdır, azərbaycanlıdırlar, onlar bizim millətə mənsubdurlar, öz xalqına, millətinə xidmət edirlər, onun sağlamlığının keşiyində dururlar ki, məmnuniyyətlə deyirəm ki, dəyərli xidmət edirlər.

Azərbaycanda səhiyyənin, tibb işinin inkişaf etdirilməsi üçün xəstəxanalar, müxtəlif tibb ocaqları yarandı və tibb institutu da günbəgün inkişaf etdi.

Mən xatırlayıram, 60-cı illərdə tibb institutunun əsas binası «Molokan bağı» adlanan yerin yanında iki-üç mərtəbəli kiçik bir bina idi. Biz burada, məhz bu sahədə o zaman Semaşko adını daşıyan xəstəxananın yanında tibb institutunun böyük şəhərciyini yaratmağa başladıq. İndi burada artıq bu şəhərcik yaranıbdır. Bu gözəl universitet binası da bu şəhərciyin daha da gözəl olmasını nümayiş etdirir və tibb universitetinin bundan sonrakı fəaliyyəti üçün də çox əhəmiyyətli olacaqdır.

Bəli, biz o illər tibb institutunun yataqxanalarını, müxtəlif kafedraların yerləşdiyi xəstəxanaları yaratdıq, tikdik, quraşdırdıq, genişləndirdik. Beləliklə, Azərbaycanda səhiyyə işi yüksək inkişaf əldə etdi. Bunlar hamısı insan üçündür, Azərbaycan vətəndaşları, xalqı üçündür. İndi biz fəxrlə deyə bilərik ki, müstəqil Azərbaycanın hər bir şeyi vardır: onun müstəqil dövləti var, onun güclü iqtisadi potensialı var, onun böyük elmi var, onun parlaq mədəniyyəti var, onun gözəl [371-372] səhiyyəsi var, onun böyük alimləri, həkimləri var, onun gözəl həkim olmaq istəyən gəncləri vardır.

Burada qeyd olundu ki, bu binanın əsası 1980-ci ildə qoyulubdur. O işlər, qərarlar xatirimdədir. Şübhəsiz ki, biz bunu qısa bir zamanda tikib başa çatdırmaq əzmində idik. Amma sonrakı dövr və Azərbaycanda vəziyyətin ağırlaşması, gənginləşməsi, inşaatın demək olar ki, tamamilə dayanması buna da təsir etdi və bu bina yarımçıq qaldı. Son illər Azərbaycanda iqtisadi çətinliklərə, inşaat sahəsində imkanlarımızın xeyli azalmasına, yeni tikinti aparmaq üçün vəsaitimizin, imkanımızın çox az olmasına baxmayaraq, biz bu binanın tikilib başa çatdırılması barədə qərar qəbul etdik, vəsait ayırdıq və sizin hamınız da bu işləri gördünüz. İndi bu gözəl, möhtəşəm bina bizim qarşımızdadır və biz bu gün bunu böyük iftixar hissi ilə açırıq.

Azərbaycanda həkimlər, tibb alimləri həmişə ziyalılarımızın görkəmli hissəsini təşkil ediblər. Bəlkə gənclər bunu bir o qədər bilmir, ancaq kitablardan oxuya bilərlər. Burada bizim hörmətli professorlarımız bu işlərin şahididirlər. Mən də onlarla bərabər ötən onilliklərdə və Azərbaycanın tarixində həkimlərin, tibb alimlərinin respublikamızda təkcə insanların sağlamlığını qorumaq sahəsində yox, tibb elminin inkişaf etdirilməsi sahəsində yox, eyni zamanda Azərbaycanda ziyalılığın, ziyalı təbəqəsinin yaranmasında, elmin inkişafında, dövlət quruculuğu işində iştirakını yaxşı bilirəm və bu gün xüsusi qeyd edirəm.

Azərbaycanda böyük tibb alimləri olubdur, onlar sizin xatirinizdədir. Azərbaycanda 1945-ci ildə Elmlər Akademiyası yarananda onun ilk prezidenti həkim, professor, alim Mirəsədulla Mirqasımov olubdur. Elmlər Akademiyasını yaradanlardan biri böyük cərrah, alim Mustafa bəy Topçubaşov olubdur. Azərbaycanda tibb elminin, səhiyyənin inkişafında böyük xidmətlər göstərmiş, uzun müddət tibb [372-

373] institutunun rektoru, səhiyyə naziri olmuş, Azərbaycanın rəhbərliyində olmuş, Dağıstana rəhbərlik etmiş böyük tibb alimi, professor Əziz Əliyev olubdur. Bəli, bu insanlar və onlarla bərabər yüzlərlə belə insanlar Azərbaycanda mədəniyyəti, ziyalılığı, yüksək tərbiyəni, mənəviyyatı yaradıblar və Azərbaycanın mühitinə çox böyük təsir ediblər. Bu gün də Azərbaycanın səhiyyə, tibb elmi sahəsində fədakarcasına çalışan alimlərimiz, həkimlərimiz, ziyalılarımızın gözəl bir hissəsini təşkil edir və Azərbaycanın mədəniyyətinin, elminin, səhiyyəsinin inkişafında böyük xidmətlər göstərirlər.

Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra isə Sovetlər İttifaqının, SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm. Mən 80-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən eyni zamanda səhiyyə sisteminə rəhbərlik edirdim. Səhiyyə Nazirliyi birbaşa mənim rəhbərliyim altında işləyirdi. Mən o vaxt Sovet İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm onkoloji mərkəzin, həm kardioloji mərkəzin, həm ürək cərrahiyyəsi mərkəzinin, həm oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində, onların maddi-texniki bazasının yaranmasında çox səylərim olmuşdu. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ Tibb Elmləri Akademiyasının 40 illik yubileyində Sovet İttifaqının rəhbərliyi adından iştirak etdim, tibb elmi haqqında böyük nitq söylədim və tibb alimlərinə müxtəlif mükafatlar təqdim etdim. Bunlar o vaxt mənim vəzifəmdən irəli gələn işlər idi. Bununla bərabər, mənim şəxsən səhiyyə, tibb elminə çox bağlı olduğumdan irəli gəlirdi. Mən bir də bunları edərək o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırırdım. [373-374] Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin, səhiyyə mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım.

Bəlkə də bilirsiniz ki, bununla bərabər, mən şəxsən səhiyyə ilə, həkimlik, tibb elmi ilə də çox bağlıyam. Ona görə yox ki, mənim həkimlərə ehtiyacım olubdur. Allaha şükürlər olsun ki, indiyə qədər buna ehtiyacım olmayıbdır. Mən bu fürsətdən istifadə edib bir şəxsi məsələni də sizə çatdırmaq istəyirəm.

Mən 1993-cü ildən Bakıya gəlmişəm, burada işləyirəm və Azərbaycanın prezidentiyəm. Çoxları maraqlanırlar ki, Heydər Əliyev necə yaşayır, nə yeyir, yaxud da ki, nə içir və ona hansı həkim baxır. Bu təbiidir. Çünki adətən böyük dövlət işində olan adamları həkimlər həmişə müşahidə edirlər, onlara vaxtaşırı baxırlar. Sizə bildirmək istəyirəm ki, mən Moskvada işləyəndə Siyasi Büronun üzvü olduğuma görə, hər bir Siyasi Büro üzvünün şəxsi həkimi var idi. Onun başqa işi yox idi, ancaq bir adamın, onun ailəsinin səhhəti ilə məşğul idi. Moskvaya gələndə mənə də bir həkim gətirdilər, tanış etdilər. Qəbul etdim. Ancaq bir, iki, üç ay keçəndən sonra o həkim mənim yanıma gəldi, dedi ki, bilirsiniz, məni işdən çıxarmaq istəyirlər. Dedim ki, nə üçün? Dedi, axı mən gəlib sizə heç baxmıram. Bizdə də qanun vardır – gərək gündə bir dəfə gəlib görəm ki, onun qan təzyiqi, səhhəti necədir. Siz də buna imkan vermirsiniz. Mən ona dedim ki, əgər mənim buna ehtiyacım yoxdursa, nəyə görə vaxt itirməliyəm? Cavab verdi ki, bilirəm, ehtiyacınız yoxdur, - mən sizi müayinədən keçirmişəm, - ancaq rica edirəm, heç olmasa həftədə bir dəfə icazə verin, mən gəlim sizi görüm. Ondan sonra gedim öz rəhbərlərimə deyim ki, mən bu adama baxmışam.

Mən belə yaşadım. Amma sonra, 1987-ci ildə həkimlər bir gün məni xəstəxanaya apardılar və dedilər ki, mənim ürəyim xəstədir. Sonra da o vaxtlar Moskvada mənimlə SSRİ [374-375] rəhbərliyi arasında münasibətlər gərginləşmişdi. Məni işdən kənar etmək istəyirdilər, amma bunu edə bilmirdilər. Sonra mənə bəzi həkimlər gəlib dedilər ki, siz bundan sonra işləyə bilməzsiniz, ərizə yazın və gedin istirahət edin. Dedim nəyə görə işləyə bilmərəm? Dedilər sizin səhhətiniz elədir ki, əgər gedib bir, iki, üç saat işləsəniz vəziyyətiniz xarab olar. Mən dedim, sizin işiniz həkimlikdir, siz müalicə edin, amma başqa məsələni mən bilərəm.

Bir sözlə, 1987-ci ilin sonunda mən istefa verdim. Bir müddət işləmədim. Amma orada həkimlərin bəziləri mənə demişdilər ki, onlar sizə yalan deyirlər. Mən özüm də sonra bildim ki, yalan deyirlər. Çünki ondan sonra on ildir işləyirəm və bu gün də həkimlərə ehtiyacım yoxdur. Burada da bir prezident kimi mənim şəxsi həkimim yoxdur, mənə daimi baxan bir həkim yoxdur, nəbzimi də yoxlamırlar, qan təzyiqimi də heç vaxt ölçmürəm.

Ancaq mən ailədə öz ailəmlə, həkimlərlə çox yaxın olmuşam. Bilirsiniz ki, mənim ailəmin bir hissəsi həkim olubdur. Ona görə də mən elə gənc vaxtlarımdan bu həkimlik, tibb sahəsini şəxsi həyatımda da hiss etmişəm, maraqlanmışam və bu barədə həm Azərbaycanda, həm də Moskvada işləyəndə çox tövsiyələr də vermişəm. Bu gün mənim sizə tövsiyə verməyimə ehtiyacınız yoxdur. Siz hər şeyi bilirsiniz. Amma mən həmişə həkimlərə bir şeyi demişəm: elminizi inkişaf etdirin, biliyinizi artırın, müalicə işinizi gücləndirin. Ancaq keçmişdə də demişəm, bu gün də deyirəm – Hippokratın andını heç vaxt unutmayın.

Mən keçmişdə SSRİ Tibb Elmləri Akademiyasının prezidenti Nikolay Nikolayeviç Bloxinlə çox yaxın dost idim. O, buraya gəlib-gedirdi. Sonra Moskvada da mənimlə çox təmasda idi. Onunla bu barədə bir neçə dəfə söhbət apardıq. Mənim mərhum həyat yoldaşım Zərifə xanım da deontologiya haqqında böyük bir məruzə hazırladı. Sonralar bir [375-376] kitab da yazmışdı. Güman edirəm, siz deontologiyanı bilirsiniz. Mən bəzən başqa adamlara izahat verirəm, amma siz bunu yaxşı bilirsiniz. Yəni həkimlərin, səhiyyə işçilərinin mənəviyyatı. Həkim üçün hər bir keyfiyyət lazımdır. Amma ən əsas keyfiyyət yüksək

mənəviyyatdır. Mən sizə arzu edirəm ki, hər biriniz öz peşənizlə bərabər, yüksək mənəviyyata malik olasınız.

Əziz dostlar!

Bu gün siz burada mənim haqqımda xoş sözlər dediniz və oktyabr ayının 11-də yenidən prezident seçilməyimi arzuladınız, bəyan etdiniz ki, siz mənim indiyə qədər gördüyüm işləri qiymətləndirirsiniz, fəaliyyətimi dəstəkləyirsiniz və oktyabr ayının 11-də də mənim prezident seçilməyim üçün mənə səs verəcəksiniz. Mən buna inanıram və buna görə də sizə ürəkdən təşəkkür edirəm.

Mənim keçmiş xidmətlərim tarixdə qalıb və Azərbaycanın hər bir yerində onların izi var, onlar görünür. Ancaq müstəqil Azərbaycanın, hələ yeddi yaşı tamam olmamış müstəqil Azərbaycanın beş illik prezidentliyim dövründə gördüyüm işləri siz daha da yaxşı bilirsiniz. Bu işlər haqqında çox danışmaq olar, amma buna ehtiyac yoxdur, çünki siz bilirsiniz. Qısa demək istəyirəm ki, bu beş il müddətində Azərbaycanın dövlət müstəqilliyi möhkəmlənib, inkişaf edib və dönməz olubdur.

Ermənistan – Azərbaycan müharibəsi dayandırılıb. Sülh danışıqları aparılır. Artıq qan tökülmür, döyuşlər yoxdur və Azərbaycan xalqı şəhidlər vermir. İnanıram ki, sülh danışıqları nəticəsində Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqları azad olacaq, bizim vətəndaşlarımız öz yerlərinə-yurdlarına qayıdacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Azərbaycanda 1990-cı ildə başlamış və gün-gündən ölkəmizin vəziyyətini gərginləşdirmiş hərc-mərcliyə, özbaşınalığa, [376-377] hakimiyyətsizliyə və nəhayət, 1993-cü ildə baş vermiş vətəndaş müharibəsinə son qoyulub, Azərbaycanda ictimai-siyasi vəziyyət sabitləşdirilib, insanlar rahat yaşayırlar, çalışırlar və öz müstəqil dövlətini qururlar.

Müstəqil Azərbaycan demokratiya yolu ilə irəliləyir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedir. Azərbaycanda insan haqları, siyasi plüralizm, demokratiyanın bütün prinsipləri bərqərar olubdur. Azərbaycan iqtisadi islahatlar keçirir, iqtisadiyyatda dəyişikliklər əmələ gətirir. Bunlar hamısı Azərbaycanı bundan sonra da sərbəst, azad demokratiya yolu ilə irəli aparacaqdır.

Azərbaycanda demokratiyanın varlığının ən gözəl təzahürü indi respublikamızda prezident seçkilərinin keçirilməsidir. Prezident seçkiləri azad, sərbəst, demokratik şəraitdə keçirilir. Hər bir vətəndaş öz fikrini açıq bildirir və oktyabrın 11-də istədiyi namizədə səs verəcəkdir. Beləliklə, oktyabrın 11-i Azərbaycanda demokratiyanın təntənəsinə çevriləcəkdir.

Demokratiya Azərbaycanda müxalifətin mövcud olmasını təmin edibdir və Azərbaycanda müxalifət mövcuddur. Ancaq lazımdır ki, müxalifətdə duran qüvvələr yalnız və yalnız qanun çərçivəsində hərəkət etsinlər, Azərbaycanın Konstitusiyasına və qanunlarına tabe olsunlar. Təəssüf edirəm ki, Azərbaycanda radikal mövqedə duran bəzi qüvvələr, partiyalar demokratik müxalifət səviyyəsində deyillər. Burada deyildi, - onlar dağıdıcı, pozucu mövqe tutublar, ayrı-ayrı mitinqlər, küçə yürüşləri və başqa təxribat tədbirləri həyata keçirməklə, Azərbaycanda böyük çətinliklə yaranmış ictimai-siyasi sabitliyi pozmaq istəyirlər və oktyabr ayının 11-də keçiriləcək prezident seçkilərinə mane olmaq, onu pozmaq istəyirlər. Amma siz buna yol verməyəcəksiniz. Azərbaycan xalqı buna yol verməyəcəkdir. Azərbaycanın müstəqil dövləti, qanunları bunların heç birinə yol verməyəcəkdir. [377-378]

Biz sizin hüquqlarınızı qoruyuruq, Azərbaycanın qanunlarını, konstitusiyasını qoruyuruq. Mən Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyin, sakitliyin, rahatlığın keşiyində durmuşam və bundan sonra da duracağam.

Azərbaycanda prezidentliyə namizəd olan, qeydiyyatdan keçmiş şəxslər indi seçicilərlə görüşlər keçirirlər, televiziya və radio vasitəsilə çıxış edirlər. Bunlar hamısı normal haldır. Bir də deyirəm – bu, Azərbaycanda prezident seçkilərinin demokratik keçirilməsini dünyaya nümayiş etdirir. Ancaq eyni zamanda bəzi namizədlər televiziya və radio vasitəsilə seçicilər qarşısında öz çıxışlarında yalan danışırlar, iqtidara böhtan atırlar, xalqa heç bir əsası olmayan vədlər verirlər və beləliklə, ucuz şöhrət qazanmaq istəyirlər. Mən onlara bildirmək istəyirəm ki, bu yollarla insanları aldatmaq lazım deyildir.

Əlbəttə, mən hər bir namizədə arzu edirəm ki, o, istəyinə nail olsun. Ancaq hələ onların heç biri bu xalqın qarşısında heç bir xidmət etməyib, heç biri bir yerə bir kərpic qoymayıb, bir daş qoymayıb, bir ağac əkməyib, bir bina tikməyib, bir təşkilat yaratmayıb. Onlar, ola bilər, bundan sonra işlər görsünlər. Ancaq əvvəl iş görmək lazımdır, ondan sonra bilmək lazımdır ki, nəyi etmək olar, nəyi etmək olmaz.

Bizim gördüyümüz işlər çoxdur. Onları siz bilirsiniz. Onlardan biri də Bakını – Azərbaycanın paytaxtını gözəlləşdirən bu əzəmətli binadır. Əgər biz indiyə qədər belə binaları, tibb ocaqlarını, belə elm, tədris ocaqlarını yaratmışıqsa, bu gün də yaradırıqsa, demək, biz bundan sonra da bunları etməyə qadirik.

Əziz dostlar!

Siz həkimsiniz, tibb alimlərisiniz. Tibb universitetinin tələbələri həkim olub xalqa, millətə xidmət edəcəklər. Biz indi səhiyyə sahəsində böyük islahatlar aparırıq. Azərbaycanda gedən islahatlar səhiyyə sahəsinə də toxunubdur. Bu təbiidir. [378-379] Mənim yaratdığım islahat komissiyası artıq islahatların layihələrini hazırlayıbdır. Biz onları həyata keçirəcəyik. Bu islahatların həyata keçirilməsi bəzi çətinliklər yaratsa da, gələcək üçün Azərbaycanda səhiyyəni daha da keyfiyyətli edəcək və insanlara xidmətin keyfiyyətini daha da artıracaqdır. Mən bu islahatlara inanıram və ümidvaram ki, siz, səhiyyə işçiləri, hamınız birlikdə səhiyyə sahəsində islahatların aparılmasında fəal iştirak edəcəksiniz.

Sizin peşəniz elə bir peşədir ki, hər bir insana lazımdır və dünyanın hər bir yerində lazımdır. Bu, sizin kimi adamlar üçün böyük xoşbəxtlikdir. Çünki siz hamıya, hər bir vətəndaşa, cəmiyyətə, dövlətə lazımsınız. Ona görə də sizin sahəniz çox dəyərli sahədir, xalq, cəmiyyət, ölkə, dövlət üçün çox vacib sahədir. Biz bundan sonra da səhiyyəyə qayğını artıracağıq.

Siz rəqəmləri bilirsiniz, artıq bu deyilib, mətbuatda da yazılıb ki, son illər səhiyyə sahəsinə ayrılan vəsait iki dəfə də, bəlkə ondan da çox artıbdır. Bundan sonra da artacaqdır. Həkimlərin maddi vəziyyətini yaxşılaşdırmaq üçün bundan sonra da tədbirlər, işlər görəcəyik. Bizim həyata keçirdiyimiz islahatlar məhz bunları təmin etməkdən ötrüdür.

Əziz dostlar!

Mən sizinlə görüşməyimdən xoşbəxt olduğumu bir daha bildirirəm: Hamınıza cansağlığı, səadət arzulayıram. Hər bir insan üçün çox gərəkli olan şərəfli peşənizdə sizə yeni uğurlar arzulayıram.

Eşq olsun tibb universitetinə!

Eşq olsun Azərbaycanın gözəl tələbələrinə, gənclərinə!

Eşq olsun həkimlərə!

Yaşasın müstəqil, demokratik Azərbaycan!

İndi mən bu universitet binasının qapılarını açıram ki, siz buraya daxil olasınız, burada işləyəsiniz, təhsil alasınız. [379]

## TÜRKİYƏNİN «NƏRGİZ TV» KANALININ BAKI STUDİYASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*Bakı, Yasamal rayonu*

*29 sentyabr 1998-ci il*

Əziz dostlar, əziz həmvətənlər, bacılar, qardaşlar!

Əziz qonaqlar, Türkiyə Cümhuriyyətinin «Nərgiz TV» kanalının yüksək nümayəndə heyəti!

Azərbaycanın əziz dostu, Türkiyə Böyük Millət Məclisinin millət vəkili, keçmiş dövlət naziri, «Nərgiz TV»nin başqanı hörmətli Cavid Çağlar, Türkiyədən gəlmiş hörmətli dostlarımız!

Mən öncə Türkiyədən Azərbaycana gəlmiş dostlarımızı, qonaqlarımızı ürəkdən salamlayıram. Onlar Azərbaycana xoş gəliblər, səfa gətiriblər. Bu gəliş Türkiyə – Azərbaycan dostluğunun, qardaşlığının daha bir gözəl təzahürüdür.

Bu gün həm Azərbaycanda, həm də Türkiyədə əlamətdar bir hadisə baş verir. Bu mərasim Türkiyənin ən böyük televiziya kanallarından birinin, 200 milyon tamaşaçısı, seyrçisi olan «Nərgiz TV» kanalının Azərbaycandan Türkiyəyə birbaşa yayımlanması münasibətilə keçirilir. Bildiyiniz kimi, Türkiyənin «Nərgiz TV» kanalı keçən il Azərbaycana gəldi və indi daim öz verilişlərini Azərbaycanda yayır. Bu televiziya kanalı olduqca maraqlı, hörmətli və çox gözəl, operativ məlumatlar verdiyinə görə Türkiyədə sevildiyi kimi, Azərbaycanda da böyük hörmət qazanıb və sevilir. Bu gün isə bu mərasim «Nərgiz TV» kanalının verilişlərinin Azərbay[380-381]candan Türkiyəyə, həm də təkcə Türkiyəyə yox, kanalın əhatə etdiyi ölkələrə yayımlanması münasibətilə keçirilir. Bu, əlamətdar hadisədir. Bildiyiniz kimi, Azərbaycanda Türkiyənin bir neçə televiziya kanalı, o cümlədən «Nərgiz TV» sərbəst yayılır.

Ancaq biz həmişə düşünürdük ki, Azərbaycanda olan televiziya kanallarının da Türkiyədə yayılması lazımdır və bu, Türkiyə – Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün çox əhəmiyyətli olacaqdır. Bu addımı ilk olaraq «Nərgiz TV» kanalı atır. Ona görə də mən «Nərgiz TV» kanalının rəhbərlərinə, dostumuz, qardaşımız Cavid Çağlara və bütün heyətə təşəkkürümü bildirir, «Nərgiz TV» kanalına bundan sonra da böyük uğurlar arzulayıram.

Bu hadisənin əhəmiyyəti təkcə televiziya baxımından qiymətləndirilə bilməz. Bu hadisə Azərbaycan Respublikasının müstəqilliyini bir daha sübut edir, onun dövlət müstəqilliyini dünyaya nümayiş etdirir. Bütün dünyaya bir daha bəyan edir ki, Azərbaycan müstəqil dövlət olaraq demokratiya, sərbəstlik, azadlıq, hürriyyət yolu ilə gedir. Azərbaycanda söz, fikir, informasiya azadlığı mövcuddur və hər bir vətəndaş, mətbuat, hər bir qəzet, radio və televiziya bu imkanlardan istədiyi kimi istifadə edir və edə bilər. Hətta başqa ölkələrin informasiya orqanları, televiziya kanalları da Azərbaycanda sərbəst, azad, hürr içində fəaliyyət göstərə bilərlər və istədikləri verilişləri verə bilərlər. Azərbaycanda demokratiyanın inkişafını bundan da gözəl sübut edən fakt, misal ola bilərmi? Biz bununla fəxr edir və dünyaya bir daha bəyan edirik ki, Azərbaycan azad ölkə, müstəqil dövlətdir, öz məsələlərini özü həll edir və Azərbaycanda hər bir insan azaddır, müstəqildir, bütün insan haqları qorunur, bütün vətəndaşlara azadlıq verilib, Azərbaycan bütün dünyaya açıqdır.

Bugünkü bu hadisə Türkiyə – Azərbaycan dostluğunun və qardaşlığının əyani nümunəsidir. Xalqlarımız arasındakı [381-382] dostluq, qardaşlıq əlaqələri qədim tarixə malikdir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə – Azərbaycan dostluğu, qardaşlığı günü-gündən inkişaf edir və yüksəlir. Biz həyatın bütün sahələrində sıx əməkdaşlıq, dostluq edir, bir-birimizə dayaq dururuq. 65 milyonluq Türkiyə Cümhuriyyəti Azərbaycanın dostu, qardaşıdır və beynəlxalq aləmdə çox etibarlı dayağıdır.

Azərbaycan bu dostluğa, qardaşlığa həmişə sadiq olmuşdur. Müstəqil Azərbaycan ölkəsi özünün qapılarının hamısını Türkiyə üçün, bizim dostlarımız, qardaşlarımız üçün açıbdır. Bizim aramızda sərhəd yoxdur, biz birik. Azərbaycan da müstəqil dövlət, Dünya Birliyində özünə layiqli yer tutmuş dövlət kimi həmişə Türkiyəyə dayaq olub və bundan sonra da olacaqdır.

Biz çox sevinir və iftixar hissi keçiririk ki, türk xalqı 75 il cümhuriyyət şəraitində yaşayaraq böyük nailiyyətlər əldə etmişdir. Bir ay sonra Türkiyə Cümhuriyyətinin yaranmasının 75 illik yubileyini hamımız birlikdə qeyd edəcəyik. Bu, böyük, şərəfli bir yoldur. Bu yolun əsasını türk dünyasının qəhrəman oğlu, böyük öndər Müstafa Kamal Atatürk qoymuşdur. 75 ildir ki, türk xalqı, Türkiyə Cümhuriyyəti böyük Mustafa Kamal Atatürkun yolu ilə gedir, böyük nailiyyətlər əldə edibdir, demokratiya yolu ilə gedir, iqtisadi cəhətdən dünyanın inkişaf etmiş ölkələrinin sırasında durur, öz vətəndaşlarının rifah halını günü-gündən yaxşılaşdırır və dünyada sülhün, əmin-amanlığın təmin olunması üçün öz xidmətlərini göstərir.

Biz sevinirik ki, bu gün Türkiyə Cümhuriyyəti dünyada tanınmış, mustəqil, demokratik cümhuriyyətdir, dünyəvi dövlətdir. İnanırıq ki, türk xalqı bundan sonra da böyük Atatürkün qoyduğu yolla irəli gedəcək, yüksələcəkdir.

Biz Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrini daim inkişaf etdiririk. Türkiyə Cümhu[382-383]riyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl Azərbaycana daim qayğı göstərir. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini elan edən zaman ölkəmizin səsinə ilk səs verən Türkiyə oldu. Azərbaycanın müstəqilliyini dünyada ilk dəfə Türkiyə tanıdı və bu qərarı Türkiyə Cümhuriyyətinin başçısı, dostumuz Süleyman Dəmirəl qəbul etdi.

Prezident Süleyman Dəmirəlin Azərbaycana səfərləri həmişə xalqımızın bayramına çevrilir. Bizim dostumuz, qardaşımız Süleyman Dəmirəl bu ayın əvvəlində Azərbaycanda keçirilmiş beynəlxalq konfransda – qədim, böyük, tarixi İpək yolunun bərpası ilə əlaqədar təşkil olunmuş konfransda iştirak etdi və özünün parlaq nitqi, dəyərli tövsiyələri ilə bu böyük proqramın həyata keçirilməsinə çox fayda verdi. Bir daha qeyd edirəm, bunlar hamısı Türkiyə – Azərbaycan dostluğunun, qardaşlığının gözəl nümunələridir.

Mən bu gün «Nərgiz TV» vasitəsilə türk xalqını ürəkdən salamlayır, Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarına Azərbaycan xalqının, vətəndaşlarının hərarətli salamlarını, ən xoş arzularını yetirirəm. Türkiyə Cümhuriyyətinə, türk xalqına, Türkiyənin vətəndaşlarına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Yaşasın Türkiyə Cümhuriyyəti! Mustafa Kamal Atatürkün yolu ilə gedən qəhrəman türk xalqına eşq olsun! Yaşasın müstəqil Azərbaycan! Yaşasın əbədi, sarsılmaz Türkiyə – Azərbaycan dostluğu! Eşq olsun, eşq olsun, eşq olsun! [383]

## «NƏRGİZ TV»yə MÜSAHİBƏ*

*29 sentyabr 1998-ci il*

**S u a l: «Nərgiz TV»nin bir az öncə gözəl bir mərasimlə açdığımız Bakı bürosundayıq. Studiyamızda qonağımız sayın cümhur başqanı Heydər Əliyevdir.**

**Sayın Əliyev, bu gün Sizi burada görmək bizim üçün xüsusi bir şərəfdir. Sadəcə cümhur başqanı yox, oktyabrın 11-də keçiriləcək Azərbaycan prezidenti seçkilərində namizədlərdən də birisiniz. Keçən həftə başlanmış «Günaydın, Qafqaz» səhər proqramımızda digər beş namizədi dinləmişdik. Sizinlə isə görüşə bilməmişdik. Ona görə də indi Sizi burada görmək bizi çox məmnun edir.**

**Sayın Əliyev, beş illik cümhur başqanlığınızı başa çatdırırsınız və indi təkrar seçkilərdə ən güclü namizəd sayılırsınız. Sizcə, qarşıdakı beş ildə Azərbaycan üçün daha nə edə bilərsiniz?**

**C a v a b**: Bilirsiniz, Azərbaycanda ötən beş ildə gördüyümüz işlər önümüzdəki böyük işlərin görülməsi üçün təməl olubdur, əsas yaradıbdır. Bildiyiniz kimi, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra demokratiya, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu tutubdur. Yəni, keçmişdə olan iqtisadiyyatın, siyasi quruluşun hamısı dəyişilir, yeni müstəqil dövlət qurulur və bu dövlət də demokratik, hüquqi, dünyəvi dövlət olaraq dünya Birliyinə, Avropa Birliyinə daxil olmaq məqsədi daşıyır. Buna görə də ötən beş ildə olduğu kimi, gələcək illərdə də işlərimiz bu istiqamətdə [384-385] gedəcəkdir, yəni Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlətin qurulması davam etdiriləcəkdir, Azərbaycanda insan haqlarının qorunması bundan sonra da daim təmin olunacaqdır. Azərbaycanda demokratiya tələblərinə uyğun insan azadlığı, yəni hürriyyət təmin olunacaqdır. Mətbuat azadlığı, vicdan, söz, fikir azadlıqları – hamısı bundan sonra da təmin olunacaqdır.

Dediyim kimi, Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə gedir. Bu, çox böyük dəyişiklikdir. Çünki 70 il ərzində Azərbaycan sosialist iqtisadiyyatı əsasında qurulubdur və Azərbaycanın böyük iqtisadiyyatı, böyük sənaye potensialı, böyük iqtisadi, böyük elmi, intellektual potensialı vardır. Amma bunları çevirmək, döndərmək, özəlləşdirmə aparmaq çətindir.

Məsələn, torpağın xüsusi mülkiyyətə verilməsi. 70 il bundan öncə sovet hakimiyyəti torpağı insanlardan alıb dövlətin ixtiyarına veribdir. Biz isə 70 il ötəndən sonra dövlətdə olan torpağı insanlara, şəxsi, xüsusi mülkiyyətə veririk. Bu, çox çətin, ağır bir prosesdir. Bu, həm zaman tələb edir, həm də böyük iradə tələb edir. Ancaq biz bu yol ilə gedirik, özəlləşdirmə aparırıq. Azərbaycanda hər şey dövlətin əlində olubdur. Amma indi istəyirik ki, bu, insanların olsun, sərbəst olsun, insanlar bundan istədikləri kimi istifadə etsinlər, dolansınlar. Deməli, iqtisadiyyatda özəlləşdirmənin aparılması, torpaq islahatı, yəni torpağın şəxsi mülkiyyətə verilməsi və insanlara sərbəstlik verilməsi, dünya iqtisadiyyatı ilə Azərbaycan iqtisadiyyatı arasında maneəsiz, sərbəst əlaqələr yaradılması – bunlar hamısı Azərbaycanın inkişafına gətirib çıxaracaqdır.

**S u a l: Cümhur başqanı kimi çox israrla üstündə durduğunuz məsələ Azərbaycanın ən önəmli təbii ehtiyatı olan neftin dünya bazarına çıxarılması üçün bir boru xəttinin çəkilməsi layihəsidir. Bakı – Ceyhan boru xətti üçün gecə-**[385-386]**gündüz çalışırsınız. Sizcə, önümüzdəki beş ildə bunun gerçəkləşməsi yolunda nələr ola bilər?**

**C a v a b**: Öncə demək istəyirəm ki, ötən müddət içərisində, dörd il bundan öncə bu işin təməlini qoyduq – «Əsrin müqaviləsi» adlanan bir müqavilə imzaladıq. Ötən dörd il içərisində Azərbaycan dünyanın ən böyük neft şirkətləri ilə 15 müqavilə imzalayıbdır. Bunların hamısının birlikdə Azərbaycana sərmayəsi 40 milyard dollardan yuxarı olacaqdır.

Bir şeyi qeyd etmək istəyirəm. Bunu Türkiyədəki tamaşaçılarınız, mənim dostlarım bilməlidirlər ki, mən bu dörd il içərisində Türkiyəni bir neft ölkəsi etdim. Türkiyənin bizim birinci müqavilədə payı 1,75 faiz idi. Sonra mən onun üzərinə beş faiz də qoydum, 6,75 etdim. Üçüncü müqavilədə Türkiyəyə «Şahdəniz» neft yatağından 9 faiz pay verildi. Son dəfə iyul ayında Londonda, Böyük Britaniyada imzaladığımız müqavilədə Türkiyəyə 10 faiz yer verildi. Artıq Azərbaycanın müqavilələrində Türkiyənin 25 faizə qədər payı vardır. Bu, işin bir tərəfidir və bu da çox önəmlidir. «Türk petrolları» şirkəti artıq Azərbaycandadır.

İkincisi, bu, neftin dünya bazarına çıxarılmasıdır. Bunun bir neçə yolları vardır. İndi bütün dünya ölkələri bir-biri ilə yarışır və çalışırlar ki, bu boru xətləri haradan, nə cür keçsin. İndi bir boru xətti buradan Qara dənizə, Rusiyanın Novorossiysk limanına gedir. Bir boru xətti buradan qarşımızdakı ildə Qara dənizə, Gürcüstanın Supsa limanına gedəcəkdir. Amma ən əsas və ən böyük boru xətti Bakı – Ceyhan boru xəttidir. Bütün neftin böyük bir hissəsi bu xətlə gedəcəkdir. Mən öncə dediyim kimi, indi də deyirəm – biz Bakı – Ceyhan boru xəttini həyata keçiririk və keçirəcəyik. Bu ilin sonuna qədər bu barədə qərar qəbul olunacaqdır.

* Müsahibə canlı yayımla bütün dünyaya yayımlanmışdır.

**S u a l**: **Bakı – Ceyhan boru xəttinin tamamlandığı təqdirdə Azərbaycanın gəlirində nə kimi artım olacaqdır**? [386-387]

**C a v a b**: Bilirsiniz, indi heç bir rəqəm demək istəmirəm. Siz təsəvvür edin, 1994-cü ildə imzalanmış birinci müqavilədən Azərbaycanın 80 milyard dollar gəliri olacaqdır. Amma 15 müqavilə imzalanıbdır. Bunlar 25 il içərisində olacaqdır. Bu, bir ildə olmayacaqdır. Bu gəlirin çox hissəsi də bir, iki, üç, dörd, beş il bundan sonra olacaqdır. Ola bilər, altı, yeddi il bundan sonra daha da çox olacaqdır. Mən bu gün Azərbaycanın gələcəyi üçün, bizim uşaqlarımız, nəvələrimiz üçün çalışıram və biz buna da nail olacağıq.

**S u a l**: **Heydər bəy**, **icazənizlə**, **son sualımı Azərbaycanın qan axan yarası Qarabağ barədə vermək istəyirəm**. **Bakıda və ondan kənarda bir milyondan çox qaçqın vardır**. **Bu insanlar torpaqlarına qayıtmaq istəyirlər**. **Siz bu istiqamətdə önəmli diplomatik addımlar atır**, **mühüm görüşlər keçirirsiniz**. **Bu sahədəki irəliləyiş nədən ibarətdir**?

**C a v a b**: Bəli, biz bu barədə çox işlər görmüşük.

On il bundan öncə, 1988-ci ildə Ermənistan – Azərbaycan savaşı, münaqişəsi başlayıbdır. Ermənistan Azərbaycana təcavüz edib, Qarabağı əlinə keçirmək istəyibdir.

1994-cü ilin may ayında, yəni dörd il bundan öncə mən birinci onu etdim ki, atəşi dayandırmağa nail oldum. Atəşkəs sazişi imzaladıq və artıq atəş yoxdur. Bu məsələni sülh, barış yolu ilə həll etmək istəyirik və bu barədə də çox irəliləmişik. Yəni ATƏT-in Minsk qrupu vardır, biz bu məsələni Minsk qrupu daxilində həll edirik. Türkiyə Cümhuriyyəti də Minsk qrupuna daxildir. Biz Türkiyə ilə daim əməkdaşlıq edir, bir yerdə çalışırıq. Güman edirəm ki, 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş qərarlara əsasən, yəni Ermənistan – Azərbaycan münaqişəsinin, Qarabağ münaqişəsinin sülh, barış yolu ilə həll edilməsi üçün qəbul olunmuş prinsiplər əsasında bunu həll edəcəyik.

Yaxın vaxtlarda yeni görüşlər olacaqdır. Mən inanıram ki, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək, işğal olunmuş [387-388] torpaqlardan erməni silahlı qüvvələri çıxarılacaq və bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerlərinə-yurdlarına qayıdacaqdır.

**S u a l**: **Digər həmkarlarımla birlikdə mən oktyabrın 11-də Azərbaycanda keçiriləcək prezident seçkilərində Sizə şans və uğurlar arzulayıram. Bu seçkinin Azərbaycanın daha böyük rifahı üçün, arzularının gerçəkləşdirilməsi yolunda daha önəmli xeyirlər gətirəcəyinə ümid bəsləyirik. Sizə yaxşı günlər arzulayırıq.**

**Sayın Heydər Əliyev**, **Sizə belə bir sualla müraciət etmək istəyirəm**. **Oktyabrın 11-də**, **bazar günü dörd milyon Azərbaycan seçicisi sandıq başına gedəcəkdir**. **Sandıqdan kim çıxacaqdır**? **Buna nə ümid bəsləyirsiniz**?

**C a v a b**: Mən hesab edirəm ki, sandıqdan Heydər Əliyev çıxmalıdır. Təşəkkür edirəm. [388]

## «MÜASİRLİK VƏ DİNİ-MƏNƏVİ DƏYƏRLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSA

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Hörmətli konfrans iştirakçıları!

Sizi – paytaxtımız Bakı şəhərində təşkil olunmuş beynəlxalq konfransın iştirakçılarını müstəqil Azərbaycan torpağında səmimi qəlbdən salamlayıram.

Bu konfrans dövrümüzün ən aktual məsələlərinin – dini-mənəvi dəyərlərlə müasirliyin əlaqəsi, üzvi bağlılığı, müasir tərəqqi prosesində onların rolu problemlərinin müzakirəsinə həsr olunmuşdur. Dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır. XXI əsrin astanasında dini fəaliyyət sahələrində gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək üçün fikir mübadiləsi aparmaq xüsusi əhəmiyyətə malikdir.

Yaşadığımız dövrün mürəkkəb və ziddiyyətli xarakteri dini-mənəvi dəyərlər məsələsinə münasibətdə dəqiq, aydın və perspektivli bir mövqeyin işlənib hazırlanmasını aktuallaşdırır. Bu mövqe xalqlarımızın əsrlər boyu yaratmış olduğu zəngin mədəni və dini-mənəvi irsdən bəhrələnməklə yanaşı, zamanın ruhu və tələbləri ilə səsləşən prinsipləri özündə əks etdirməlidir. Əminəm ki, konfransınız bütün dünyada, o cümlədən ümumqafqaz evimizdə sülhün və əmin-amanlığın bərqərar edilməsi yolunda mühüm bir addım olacaqdır.

Müsəlman alimləri və din xadimlərinin dinimizin mühüm aktual problemlərini müzakirə etməsi sırf elmi-dini əhəmiyyəti ilə yanaşı, müsəlman dövlətləri və xalqları arasında [389-390] qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, islam həmrəyliyinin daha da möhkəmlənməsinə xidmət edir. Dünyanın bir çox yerlərində islam dininin əsaslarına, müsəlman ölkələrinə qarşı qərəzli həmlələrin aparıldığı müasir dövrdə bu, xüsusilə böyük əhəmiyyət kəsb edir. Belə görüşlər həmçinin müştərək tarixi, mədəni,mənəvi ənənələrə malik olan, oxşar tale və inkişaf yolu keçmiş ölkələrimizin qarşısına çıxan problemlərin həllində bir-birimizin təcrübəsindən səmərəli istifadə etmək imkanlarını genişləndirir.

Biz bu yüksək forumun respublikamızın paytaxtı Bakı şəhərində keçirilməsini Azərbaycanın, Qafqaz Müsəlmanları İdarəsinin artmaqda olan beynəlxalq nüfuzuna verilən yüksək qiymətin ifadəsi kimi qəbul edirik. Konfransda müzakirə olunan məsələlər siyasi müstəqillik əldə etdikdən sonra keçid dövrünün bir çox çətinlikləri, o cümlədən milli və dini dəyərlərin bərpası problemləri ilə də üzləşmiş respublikamız üçün olduqca aktualdır. Bu görüş müsəlman qardaşlarımızın Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkün Azərbaycan vətəndaşının problemləri ilə həmrəyliyinin də parlaq təzahürü sayıla bilər. Ümidvaram ki, konfrans bütün islam aləminin həmrəylik, dostluq və qardaşlığının daha da möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verəcəkdir.

İnsan mənəviyyatının saflaşması, dinimizin dini-mənəvi dəyərlərinin bərqərar olması işinə yönəldilmiş nəcib fəaliyyətinizdə uca Allahdan sizə böyük nailiyyətlər, konfransın işində uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 sentyabr 1998-ci il*

[390]

# BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA VƏ QAFQAZ MÜSƏLMANLARI QURULTAYINDA NİTQ

*30 sentyabr 1998-ci il*

Möhtərəm Şeyxülislam həzrətləri! Hörmətli konfrans, qurultay iştirakçıları, hörmətli qonaqlar, əziz qardaşlar!

Sizi – «Müasirlik və dini-mənəvi dəyərlər» mövzusunda beynəlxalq konfransın iştirakçılarını, Qafqaz müsəlmanları X qurultayının nümayəndələrini səmimi qəlbdən salamlayıram. Beynəlxalq konfransın və qurultayın işinə uğurlar arzulayıram!

Mən çox məmnunam ki, bu iki böyük beynəlxalq tədbir məhz Azərbaycanda, onun paytaxtı Bakı şəhərində keçirilir. Dünya müsəlmanlarının «Müasirlik və dini-mənəvi dəyərlər» mövzusuna həsr etdikləri beynəlxalq konfrans çox böyük əhəmiyyətə malikdir. Qafqaz müsəlmanları özlərinin X qurultayını keçirirlər. Beynəlxalq konfrans və qurultay adı daşıyan bu iki yüksək səviyyəli tədbirin məhz Azərbaycanda, Bakı şəhərində keçirilməsi müstəqil Azərbaycana, onun bugünkü imkanlarına və Azərbaycanın dövlətçiliyinə göstərilən diqqət və ehtiram əlamətidir. Buna görə mən bütün din xadimlərinə, islam aləminin mötəbər insanlarına, Qafqaz müsəlmanlarına təşəkkürümü bildirirəm və sizi əmin edirəm ki, həm konfransın, həm də qurultayın müvəffəqiyyətlə keçməsi üçün Azərbaycanın hökuməti, hakimiyyət orqanları əlindən gələni edəcəklər.

Əmin ola bilərsiniz ki, Azərbaycanın ciddi problemlərlə və çətinliklərlə rastlaşmasına baxmayaraq, siz bu günlər böyük [391-392] qonaqpərvərlik, mehribanlıq, dostluq münasibətləri görəcəksiniz. Bu, Azərbaycan xalqının mənəvi xüsusiyyətlərindən, mənəvi dəyərlərindən biridir. Bizim xalqımız həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə cəhd göstərmiş, insanların dini mənsubiyyətindən asılı olmayaraq onların arasında sülh və əmin-amanlıq, mehribanlıq əlaqələrinin olmasına çalışmışdır. Ümid edirəm ki, siz bu günlər Azərbaycan xalqının bu mənəvi dəyərlərinin şahidi olacaqsınız.

Beynəlxalq konfrans həqiqətən tək islam aləmimiz üçün yox, bütün müasir dünya üçün də vacib bir məsələnin müzakirəsinə həsr edilibdir. XX əsrin sonunda bəşəriyyət böyük təhlükələrlə, böyük münaqişələrlə, çətinliklərlə rastlaşıbdır. Dünyada gedən ictimai-siyasi proseslər, dünyanın əksər ölkələrində demokratiyanın inkişafı, dünyanın əksər ölkələrində insanlara bütün azadlıqların verilməsi və insan haqlarının qorunması sahəsində görülən işlər və xüsusən 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin 50 illiyi tamam olan bir ildə müsbət cəhətlərlə yanaşı, dünyada gedən proseslər içərisində mənfi cəhətlər, mənfi meyllər də mövcuddur. Bunların çoxu da insanın mənəviyyatı ilə bağlıdır. Ona görə də müasir dünyada dini-mənəvi dəyərlərdən səmərəli istifadə olunması hər bir ölkə üçün, hər bir xalq üçün, hər bir din üçün çox əhəmiyyətlidir.

Məlumdur ki, bütün dinlər dünyada yüksək mənəviyyatı təbliğ edirlər. O da məlumdur ki, bəşər tarixində insanlar öz şüurunu, adət-ənənələrini və cəmiyyətlərdə yaranan qanun-qaydaları əsasən dini dəyərlərdən, dinin insanlara bəxş etdiyi keyfiyyətlərdən götürüblər.

Bu gün biz keçmiş tariximizə baxaraq böyük məmnuniyyətlə qeyd etməliyik ki, din çoxminillik bəşər tarixində həmişə müstəsna, böyük rol oynamışdır və insanlara həmişə səadət, sülh və əmin-amanlıq gətirmişdir. İslam dini yüksək [392-393] mənəvi dəyərlərə malik olan bir dindir. İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir. Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz islam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir. Ona görə də mən inanıram ki, bu gün burada işə başlayan beynəlxalq konfrans islam dininin mənəvi dəyərlərindən müasir həyatda səmərəli istifadə olunması üçün müvafiq tövsiyələr irəli sürəcək və beləliklə, biz ölkəmizin və buraya toplaşan nümayəndələrin ölkələrinin həyatında olan çətinliklərin, problemlərin həll edilməsinə nail ola biləcəyik.

Bu konfransın xüsusən keçmişdə Sovetlər İttifaqına mənsub olan, indi müstəqil dövlət kimi yaşayan ölkələr, dövlətlər üçün çox böyük əhəmiyyəti vardır. Çünki məlumdur ki, biz 70 il kommunist ideologiyası altında tərbiyələnərək dinimizdən və dinin bizə bəxş etdiyi mənəvi dəyərlərdən məhrum olmuşduq. Kommunist ideologiyasının bəşəriyyətə vurduğu zərbələrdən ən böyüyü 70 il müddətində dinə qarşı aparılmış təbliğat və xüsusən dinin qadağan olunması və dinin təhrif edilməsi olmuşdur. Ancaq eyni zamanda bu tarix onu da göstərir ki, din və o cümlədən bizim mənsub olduğumuz islam dini o qədər qüdrətə malikdir ki, o qədər gücə malikdir ki, heç bir ideologiya, heç bir hakimiyyət, heç bir hökmdar onunla bacara bilməz və 70 illik tarix də göstərdi ki, bunu bacara bilmədi.

Doğrudur, kilsələri, məscidləri partlatdılar, dağıtdılar, dinin əleyhinə müntəzəm təbliğatlar apardılar. O dövrdə doğulmuş, həyata atılmış insanlar bəzən dinin nə olduğunu da bilmədilər və onlara təsir gücü xüsusən artıq oldu. Amma bunlara baxmayaraq insanlar, o cümlədən müsəlmanlar dini öz qəlbində yaşatdılar. Hər bir ailədə, hər bir evdə, hər bir [393-394] ocaqda din yaşadı və dinin insanlara bəxş etdiyi

adət və ənənələr, qanun və qaydalar yaşadı və onlar o hakimiyyət dövründə tətbiq edilən qanunlardan və yeni yaranan adət-ənənələrdən hətta güclü oldu. Çünki din və xüsusən bizim islam dini çoxəsrlik tarixi boyu özündə elə gözəl xüsusiyyətlər formalaşdırmışdır ki, bizim üçün müqəddəs olan Qurani-Kərim, həzrəti Məhəmməd peyğəmbərin müsəlmanlara göstərdiyi yol və verdiyi tövsiyələr insanların daxili mənəviyyatına o qədər uyğun olmuşdur, insanlar üçün o qədər faydalı olmuşdur və insanların həyatında o qədər müsbət rol oynamışdır, insanları o qədər səadətə çatdırmışdır ki, bu adət-ənənələr, bu dini qanun-qaydalar nəsildən-nəslə yaşamış və heç bir məhdudiyyət bunun qarşısını ala bilməmişdir.

Təsəvvür edin, o dövrdə Azərbaycanda məscidlər məhv oldu, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman ölkəmizdə cəmi 18 məscid var idi. Azərbaycanın dövlət müstəqilliyinin hələ 7 yaşı tamam olmayıbdır. Yəni tarixi nöqteyi-nəzərdən biz dövlət müstəqilliyi, milli azadlıq şəraitində kiçik bir zaman yaşamışıq. Ancaq Azərbaycan xalqı öz milli azadlığını qazanandan sonra, özünün dövlət müstəqilliyini elan edəndən sonra, öz dövlətini, öz quruluşunu özü istədiyi kimi qurandan sonra qısa bir zamanda indi Azərbaycanda 1000-dən artıq məscid var. Deməк, insanların hamısının qəlbində məscid intizarı, məscid arzusu, - məscid Allah evidir, məscid dini məbəddir, dini mərkəzdir, - o qədər yaşayıbdır ki, qısa bir zamanda heç bir hökumətin, dövlətin köməyi, vəsaiti olmadan məscidlər tikilib yaradılıbdır. Bu, mənim dediklərimə əyani sübutdur. Mən bu il böyük sevinc hissi ilə Bakıda müqəddəs yer adlanan Bibiheybət məscidinin yerində yeni bir məscidin yaradılmasına nail oldum və onun açılışında iştirak etdim.

Təsəvvür edin, o yer müqəddəs yerdir. Orada YII əsrdən həzrəti Hökumənin qəbri olmuşdur. İmam Museyi-Kazımın [394-395] qızı, imam Rzanın bacısı həzrəti Hökumənin qəbri üzərində vaxtilə insanlar məscid qurmuşdular və ora ziyarətgaha çevrilmişdi. Ancaq o müqəddəs yer, o insanların, tək Azərbaycandan yox, dünyanın bir çox yerlərindən də gələn müsəlmanların ziyarət etdiyi müqəddəs yer 1933-cü ildə partladılmışdır, dağıdılmışdır. Məscidi partladıblar, dağıdıblar, yerlə yeksan ediblər, amma insanlar ayağını o yerdən çəkməyiblər. Həmişə Bibiheybət piri, - bizdə ona pir deyirlər, - müsəlmanların ziyarət yeri olubdur, müsəlmanlar gedib orada o yerə öz ehtiramını bildiriblər, nəzirlərini veriblər və o yeri yaşadıblar.

Biz dövlət müstəqilliyini əldə edəndən sonra, 1994-cü ildə mən piri ziyarət edən kimi orada yeni, ondan da gözəl bir məscidin tikilməsi haqqında qərar verdim və məscid bu ilin may ayında açıldı. Ancaq tikilmiş o məscid daha da genişlənəcək və böyük bir ibadət, ziyarət yerinə çevriləcəkdir.Bu, mənim, Azərbaycan prezidentinin etdiyi işdir. Amma qalan bütün məscidləri insanların özləri tikiblər, dövlətin heç vəsaiti ayrılmadan. Bu onu göstərir ki, bizim islam dininə insanlar nə qədər bağlıdır, buna nə qədər itaət edirlər və islam dini nə qədər güclüdür.

Buna görə də hesab edirəm ki, konfransın mövzusu – «Müasirlik və dini-mənəvi dəyərlər» - bir-biri ilə bağlanmalıdır. Dini-mənəvi dəyərlərdən biz müasir həyatımızın daha da genişlənməsi və inkişaf etməsi üçün istifadə etməliyik. Dini mənəvi dəyərlər bizi geriyə çəkməməlidir, irəli aparmalıdır və mütləq belə olmalıdır. Çünki islam dininin mənəvi dəyərləri insanları həmişə inkişafa aparmışdır, insanlara həmişə qarşıdakı uzaq və işıqlı yolu göstərmişdir və insanları daha da irəli getməyə, daha da savadlanmağa, mədəniyyətə daha da qovuşmağa, müasir həyatın bütün vasitələrindən öz həyatını, öz millətinin həyatını, xalqının həyatını daha da yaxşılaşdırmaq üçün, maddi və mənəvi vəziyyətini yaxşılaşdırmaq [395-396] üçün daha da səmərəli istifadə etməyə yönəldilmişdir. Mən güman edirəm ki, siz məsələləri məhz bu istiqamətdə müzakirə edəcəksiniz. Əminəm ki, beynəlxalq konfrans islam aləmində tarixi bir hadisəyə çevriləcəkdir və biz dövlət olaraq, dövlət işləri ilə məşğul olan insanlar Azərbaycanda, tək Azərbaycanda yox, bütün ölkələrdə sizin konfransın verdiyi tövsiyələrdən istifadə edərək cəmiyyətimizdə mənəviyyatı daha da yüksəltməyə nail ola biləcəyik.

Azərbaycan müstəqil dövlət olaraq demokratiya yolu ilə gedir. Biz öz müstəqilliyimizi əldə edəndən sonra Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yolunu tutmuşuq və bu yolla da gedirik. Hesab edirəm ki, Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün bu, yecanə və ən düzgün, ən doğru yoldur. Demokratik, hüquqi dövlət insanlara bütün azadlıqları verir və bunlar Azərbaycanın 1995-ci ildə qəbul etdiyi ilk demokratik Konstitusiyasında öz əksini tapıbdır. Dövlətimiz, Azərbaycan Konstitusiyası insanlara bütün azadlıqları verərək, o cümlədən vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab edir. Konstitusiya din azadlığını, vicdan azadlığını elan etmişdir, biz isə dövlət kimi bunun təmin olunmasının qarantıyıq, bunu öz üzərimizə götürmüşük. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik. Din ilə dövlət arasında sıx əməkdaşlıq var və hesab edirik ki, Azərbaycanda islam dini özünün gözəl mənəvi dəyərlərini Azərbaycan vətəndaşlarına aşılayaraq, Azərbaycan vətəndaşlarını islam dininin bu gözəl mənəvi dəyərləri əsasında tərbiyələndirərək Azərbaycan cəmiyyətini mənəviyyatca daha da yüksəldəcək və insanlar bu demokratiyanı, bütün azadlıqları doğru-düzgün başa düşəcək, onlardan səmərəli istifadə edəcəklər.

Bu, çox lazımdır, çünki ayrı-ayrı insanlar, yaxud qruplar, dəstələr demokratiyanın insanlara verdiyi bütün bu azad[396-397]lıqları bəzən özbaşınalıq, qanuna itaətsizlik, qanunu pozmaq, hərc-mərclik, hətta tərbiyəsizlik kimi anlayırlar, yaxud da ki, bu cür anlamaq istəyirlər. Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yüksək mədəniyyəti hər bir

Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarda tərbiyələndirmək üçün və böyütmək üçün islam dininin mənəvi dəyərləri çox gərəklidir.

Bu münasibətlə Qafqaz müsəlmanlarının X qurultayının keçirilməsini də mən çox əhəmiyyətli hesab edirəm. Qafqaz həqiqətən bir-biri ilə bağlı olan dövlətlərin, ölkələrin, xalqların ümumi evidir. «Ümumqafqaz evi» şüarı çox gözəl şüardır, mən bunu dəstəkləyirəm. Cəsarətlə deyə bilərəm ki, dünyanın bəlkə heç bir guşəsində, heç bir regionunda Qafqaz kimi çoxmillətli, çoxdinli və rəngarəng bir region, bir bölgə tapmaq mümkün deyildir. Bizim Qafqaz ərazi cəhətdən kiçik bir yerdir. Bizim o qədər böyük ərazimiz yoxdur. Ancaq eyni zamanda Qafqaz gözəl təbiətə, çox yüksək məğrur dağlara, gözəl çaylara, bulaqlara, gözəl meşələrə, dünyada təbiətin yaratdığı ən böyük gözəlliklərə malik olan yerdir. Qafqazın xüsusiyyəti bir də ondan ibarətdir ki, burada əsrlər boyu müxtəlif millətlərə, müxtəlif dillərə mənsub olan insanlar bir ailədə yaşamışlar.

Doğrudur, keçmişdə də münaqişələr olmuş, davalar olmuşdur, ancaq keçmiş tariximizin əsas hissəsi sülh və əmin-amanlıq şəraitində keçmişdir. Ona görə də Qafqazı parçalamaq, Qafqaz xalqlarının içərisində təfriqə yaratmaq, iğtişaş yaratmaq cəhdləri bizim hamımızı narahat edir və məlumdur ki, bu, «Ümumqafqaz evi» üçün zərərlidir və bundan heç bir xalq xeyir götürməyəcəkdir.

Eyni zamanda o da məlumdur ki, Qafqazda olan xalqların, millətlərin, insanların əksəriyyəti islam dininə mənsubdur və islam dini Qafqazda böyük mənəvi gücə malikdir, islam dini [397-398] Qafqazda böyük hörmətə malikdir. Qafqazın adət-ənənələrindən biri ondan ibarətdir ki, Qafqazda həmişə ağsaqqala hörmət olubdur. Bu, bizim islam dininin xüsusiyyətlərindən biridir. Cəmiyyətdə seçilən adama, cəmiyyətdə mötəbər din xadiminə, özündə yüksən mənəvi dəyərləri cəm edən insana, müdrik insana, dünyagörmüş insana, ağsaqqal insana həmişə hörmət olub, ehtiram olub və onun da sözünə həmişə baxıblar. Xüsusən gənclər, cəmiyyətin başqa hissəsi. Bu, gözəl adət-ənənədir. Başqa yerlərdən, başqa diyarlardan, şimaldan, qərbdən Qafqaza gələn qonaqlar bəzən bizim bu xüsusiyyətimizə təəccüb edirlər, bəzən də heyran qalırlar. Xatirimdədir, 70-ci illərdə mən Azərbaycanda rəhbər olan zaman Azərbaycana cürbəcür qonaqlar gəlirdilər. Onlar ayrı-ayrı məntəqələrə, kəndlərə, şəhərlərə gedirdilər, görürdülər ki, məsələn, bir meydanda gənclər, insanlar oturublar. Bu qonaq ora daxil olan kimi hamı ayağa qalxır. Sonra gəlib bunu mənə çox təəccüblə danışırdılar ki, bu nə gözəl adətdir! Nə gözəl ənənədir, siz buna nə cür nail olmusunuz? Mən isə deyirdim ki, biz buna nail olmamışıq. Bu, bizim xalqımızın nəsildən-nəslə keçən xüsusiyyətidir. Bu, bizim xalqımızın mənəvi dəyərləridir. Sizinlə açıq danışıram, - o vaxt deyə bilmirdim ki, bu, islam dininin mənəvi dəyərləridir. Çünki biz hamımız o vaxtlar islam dinini qadağan edən adamlar idik. Amma bu gün deyirəm ki, bu, həqiqətən islam dininin bəşəriyyətə və islam aləminə bəxş etdiyi çox yüksək mənəvi dəyərlərdir.

Siz bunları bilirsiniz. Bəlkə mən bu sözlərimlə sizi heç də təəccübləndirmirəm. Çünki bu, bizim üçün adi bir şeydir. Ancaq bunu bilməyənlər, bizim dini ənənələrimizi bilməyənlər üçün bu, qeyri-adidir. Mən belə faktları çox saya bilərəm və deyə bilərəm. Ancaq indi buna ehtiyac yoxdur. Bir faktla göstərmək istəyirəm ki, bəli, islam dininin mənəvi dəyərləri içərisində mötəbər adama hörmət, din xadiminə hörmət, [398-399] ağsaqqala hörmət həmişə cəmiyyəti tərbiyələndirib, cəmiyyətdə sabitlik yaradıbdır, cəmiyyəti düzgün istiqamətdə irəli aparıbdır. Mən bunu ona görə xüsusi qeyd edirəm ki, hətta bizim Azərbaycanda da islam dininin inkişafı ilə yanaşı, bizim konstitusiyamızın, qanunlarımızın verdiyi azadlıqları, demokratiyanı təhrif edən insanlar öz doğma atasını belə bəzən təhqir edirlər, hesab edirlər ki, insan azaddır, insan istədiyini edə bilər, ona görə də ağsaqqalı da təhqir edə bilər, öz doğma atasını da təhqir edə bilər, başqasını da təhqir edə bilər. Bizim içimizdə bunlar da var.

Məhz buna görə də mən hesab edirəm ki, müasir dünyada, xüsusən bizim Qafqazda dini-mənəvi dəyərlərdən geniş istifadə olunması Qafqazda, hər bir ölkədə inkişafı təmin edəcək, ictimai-siyasi sabitliyin yaranmasına kömək edəcək, sülhün, əmin-amanlığın yaranmasına kömək edəcəkdir. Bizim hamımızın, Qafqazda yaşayan insanların ən ali məqsədi Qafqazda sülhün, əmin-amanlığın təmin olunmasıdır. Təəssüflər olsun ki, XX əsrin son onilliyində Qafqaz, deyə bilərəm ki, dünyanın bütün başqa bölgələrindən fərqli olaraq bu münaqişələr içərisində çapalayır, boğulur. Birinci münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana torpaq iddiası, Dağlıq Qarabağı ədalətsiz olaraq ələ keçirib özünə birləşdirmək cəhdi ilə başladı və sonra bu, Ermənistanla Azərbaycan arasında müharibəyə çevrildi.

On ildir ki, bu münaqişə, sonra müharibə davam edir. Biz böyük itkilər verdik. Azərbaycan xalqı şəhidlər verdi. Müxtəlif səbəblərdən, o cümlədən o vaxt sovet hökuməti rəhbərliyinin Ermənistana xüsusi köməyi və qayğısı nəticəsində və başqa dövlətlərin, - mən bu gün açıq deyə bilərəm ki, dini fərqi nəzərə alaraq, - Ermənistana daha çox kömək etməsi nəticəsində və Azərbaycanın özünün içərisində buraxılmış müxtəlif səhvlərin nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal [399-400] olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı, Azərbaycan vətəndaşı, müsəlman zorla çıxarılıbdır, yerindən-yurdundan didərgin düşübdür. Onlar çadırlarda yaşayırlar, ağır vəziyyətdə yaşayırlar.

İşğal olunmuş torpaqlarda yaranmış hər bir şey dağıdılıbdır, viran olubdur, - məktəb də, xəstəxana da, mədəniyyət evi də, fabrik də, zavod da. Eyni zamanda islam dininin müqəddəs yerləri də, məscidlər də dağıdılıbdır, qəbiristanlar da dağıdılıbdır. Böyük bir ölkənin – Azərbaycanın, müsəlman bölgəsinin bütün

mənəvi-dini dəyərləri dağıdılıbdır, viran edilibdir. Bu, şübhəsiz ki, vəhşilikdir, barbarlıqdır. Belə vəhşilik dünyanın bəlkə də heç bir yerində olmayıbdır. Ancaq bu həqiqətdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan öz mənəvi köklərinə sadiq olaraq, mənəvi dəyərlərinə sadiq olaraq yenə də Qafqazda sülhün yaranmasına çalışır və məhz buna görə də dörd il bundan öncə, 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs sazişi imzalanıbdır. Dörd ildən artıqdır ki, atəş yoxdur, qan tökülmür, ancaq sülh də yoxdur və işğal olunmuş torpaqlar işğal altında qalır və oradan zorla çıxarılmış insanlar da 5-6 ildir ki, çadırlarda yaşayırlar.

Buna baxmayaraq, biz məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq, danışıqlar aparırıq və bu gün bəyan edirəm ki, Ermənistan – Azərbaycan müharibəsinin, münaqişəsinin sülh yolu ilə həll olunması üçün Azərbaycan bundan sonra da öz səylərini qoyacaqdır. İnanıram ki, vəziyyət belə davam edə bilməz, sülh yaranmalıdır. Ancaq onun əsas şərti bundan ibarətdir ki, işğal olunmuş torpaqlar erməni silahlı qüvvələrindən azad olmalıdır, oradan zorla çıxarılmış azərbaycanlılar, müsəlmanlar öz yerlərinə, yurdlarına qaytarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağ kimi kiçik [400-401] bir vilayətə, bir quruma özünüidarəetmə hüququ verilə bilər və Dağlıq Qarabağda ermənilər də, azərbaycanlılar da təhlükəsiz yaşaya bilərlər. Biz məsələnin bu şərtlərlə həll edilməsinə çalışırıq.

Ancaq, eyni zamanda, Abxaziya münaqişəsi də bizi narahat edir. Gürcüstanla Azərbaycan arasında sıx dostluq, qardaşlıq əlaqələri var. Bu gün mən burada xüsusi qeyd etmək istəyirəm ki, bəzən dini mənsubiyyətlərə görə ölkələr, xalqlar arasında savaşlar, davalar, müharibələr başlayır. Amma eyni zamanda insanlar sülhsevər olarkən, xalqlar, millətlər sülhsevər olduğu halda dini fərq heç vaxt müharibəyə, münaqişəyə gətirib çıxarmır. Gürcüstanla Azərbaycan arasında bizim dini mənsubiyyətimizin fərqli olmasına baxmayaraq, heç vaxt münaqişə olmayıbdır. Gürcüstan- Azərbaycan dostluğu dünya xalqlarına nümunə kimi göstərilə bilər. Gürcüstanda yarım milyon azərbaycanlı müsəlman yaşayır, onlar orada Gürcüstanın bərabərhüquqlu vətəndaşlarıdır. Azərbaycanda isə gürcülər də yaşayırlar. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır, Azərbaycanın bütün imkanlarından istədikləri kimi istifadə edə bilirlər. Ona görə də ürəyimiz ağrıyır ki, nə üçün Abxaziya münaqişəsi indiyə qədər davam edir. Şübhəsiz ki, biz öz münaqişəmizə son qoyulması kimi, Abxaziya münaqişəsinin də ləğv olunmasını istəyirik.

Çeçenistanın son illər başına gələn bəlalar, keçirdiyi həyat bizim hamımızı, bütün müsəlmanları, o cümlədən biz azərbaycanlıları incidib, narahat edibdir.

Ona görə də inanırıq ki, çeçen xalqı bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaqdır və çeçen xalqına qarşı keçmişdə olan təcavüz və vəhşiliklər bundan sonra təkrar edilməyəcəkdir. Biz inanırıq ki, Çeçenistanın içində də bütün insanlar, o cümlədən müsəlmanlar həmrəy olacaqlar, birlik əldə edəcəklər, Çeçenistanın xalq tərəfindən seçilmiş prezi[401-402]dentinin ətrafında birləşəcəklər və Çeçenistanda sabitliyin, sülhün yaranması Qafqazda sülhün, əmin-amanlığın yaranmasına çox kömək edəcəkdir.

Dağıstanda indi gedən proseslər də şübhəsiz, bizi narahat edir, çünki Azərbaycan Dağıstanla çox sıx əlaqədədir. Azərbaycanda yaşayan insanların bir qismi Dağıstan xalqlarına mənsubdur. Dağıstanda azərbaycanlılar da yaşayır. Bizim aramızda olan sərhəd tamamilə formal xarakter daşıyır, sərhəd yoxdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir-birimizlə bir yerdə olmuşuq və Allaha şükürlər olsun ki, dinimiz də birdir. İslam dini bizi həmişə birləşdiribdir, bizi həmişə bir-birimizə daha da yaxınlaşdırıbdır. Ona görə də burada heç bir ayrı-seçkilik ola bilməz – nə Azərbaycanda, nə də Dağıstanda. Azərbaycanda bizim siyasətimiz məhz bundan ibarətdir. Ona görə də Dağıstanda ictimai-siyasi vəziyyətin sabitliyi, daxili vəziyyətin sabitliyi, sülh, əmin-amanlıq olması Qafqazda sülh, əmin-amanlıq olmasının əsasını təşkil edir.

Azərbaycanla Dağıstan arasındakı münasibətlər ümumqafqaz münasibətlərinə çox böyük təsir göstərir. Biz arzu edirik ki, Dağıstanda gedən cürbəcür mənfi proseslərə son qoyulsun. Biz hamımız Dağıstan müftisinə qarşı edilən təcavüz, terror aktından sarsıldıq. Mən onu şəxsən tanıyırdım və o, Azərbaycana rəsmi səfərə gəlmişdi, mən onunla çox maraqlı söhbətlər aparmışdım. Onun xahişi ilə biz hər il Dağıstandan həcc ziyarətinə gedən insanlara Azərbaycan ərazisində gözəl şərait yaradırıq. Hər il oradan 13 -14 min Dağıstan vətəndaşı, müsəlmanlar Azərbaycanın imkanlarından istifadə edərək, Azərbaycan ərazisindən həcc ziyarətinə, Məkkəyə, Mədinəyə, Kəbəyə gedib öz müqəddəs borclarını yerinə yetirirlər. Bunların hamısını Dağıstanın müftisinin, bizim unudulmaz dostumuzun xahişi ilə və onunla əməkdaşlığımız nəticəsində edirdik. Buna görə də ona terror [402-403] edilməsini pisləyirik. Bilirsiniz, din xadiminə terror etməkdən də böyük cinayət yoxdur. Hər bir cinayət bağışlanılmazdır. Amma din xadiminə, böyük bir ölkədə islam dininin başçısına terror etmək, onu həlak etmək, onu qətlə yetirmək ən böyük cinayətdir. Biz ümid edirik ki, Dağıstanın, Rusiyanın hakimiyyət orqanları bu cinayətkarları axtarıb tapacaqlar və lazımi ölçü götürəcəklər.

Biz istəyirik ki, Şimali Qafqazda olan bütün respublikaların, ölkələrin hamısı sülh, əmin-amanlıq əldə etsinlər. Bu münasibətlə Rusiya müsəlmanları ilə Azərbaycan arasındakı əlaqələrə də mən xüsusi əhəmiyyət verirəm. Burada bizim dostumuz Ramazan Abdulatipov bəyan etdi ki, Rusiyada 20 milyon müsəlman yaşayır. Bunu bilmək lazımdır və Rusiyanın hakim dairələri bununla hesablaşmalı və öz siyasətində bunu nəzərə almalıdırlar.

Keçmişdə sovet hakimiyyətinin, kommunist ideologiyasının vurduğu zərbələrdən biri də bu idi ki, bu din tamamilə qadağan edildiyinə görə harada insanların hansı dinə mənsub olduğu bilinmirdi. Məsələn, müttəfiq respublikalarda, tutaq ki, Azərbaycanda, yaxud Orta Asiyada bilinirdi ki, burada əhalinin əksəriyyəti müsəlmanlardır. Amma Rusiyada nə qədər muxtar respublikalar vardı, vilayətlər vardı. Elə Şimali Qafqazın özündə hamısı islam dininə etiqad bəsləyirlər, müsəlman dininə mənsubdurlar.

Amma sovet hakimiyyəti onlarla hesablaşmırdı. Bu da keçmiş hakimiyyətin, keçmiş ideologiyanın tarix qarşısında ən böyük günahlarından biridir.

Güman edirəm ki, Rusiyanın hakim dairələri keçmiş Sovetlər İttifaqında buraxılmış səhvlərdən nəticə çıxaracaq və onlara yol verməyəcəklər. Mən bunu xüsusi qeyd edirəm, çünki Rusiya həmişə bəyan edir ki, o, keçmiş Sovetlər İttifaqının beynəlxalq aləmdə varisidir. Biz də bununla hesablaşırıq. Əgər bugünkü Rusiya keçmiş Sovetlər İttifaqının [403-404] varisidirsə, Sovetlər İttifaqında, xüsusən milli münasibətlər sahəsində, Rusiya ərazisində yaşayan ayrı-ayrı millətlərə mənsub olan insanlara qarşı buraxılan səhvlər artıq bu gün və gələcəkdə buraxılmamalıdır.

«Qafqaz evi»ni yaratmaq üçün, Qafqazı sülhün bərqərar olduğu Qafqaz etmək üçün 1996-cı ildə mən Gürcüstanda rəsmi səfərdə olarkən prezident Eduard Şevardnadze ilə mən, iki prezident – Gürcüstan və Azərbaycan prezidentləri bəyanat verdik, «Qafqazda sülh» bəyanatı verdik ki, başqa ölkələr də, başqa dövlətlər də bu bəyanata qoşulsunlar və hamımız birlikdə sülhü təmin edək. Mən bu gün də bu bəyanatın vacib olduğunu bəyan edirəm, bu gün sizin irəli sürdüyünüz «Ümumqafqaz evi» təklifini də müsbət qiymətləndirirəm və hesab edirəm ki, bu iki təşəbbüsü bir-biri ilə birləşdirərək Qafqazda sülhün, əmin-amanlığın yaranmasına nail ola bilərik və nail olmalıyıq.

Xalqlarımız, Qafqazda yaşayan xalqlar və Qafqaz müsəlmanları böyük tarixə malikdirlər. Qafqaz elə bir yerdir ki, ayrıca bir kənd də özünün müstəqil dili ilə, müstəqil adət-ənənələri ilə və qədim tarixi ilə seçilir. Bunları sovet hakimiyyəti vaxtı hesaba almırdılar, saymırdılar, hamını bir hesab edirdilər. Hətta belə bir ideya vardı ki, sovet xalqı adamların yeni tarixi birliyidir. Bunu xatırlayırsınızmı? Yəqin ki, bunu dostum Abdulatipov da xatırlayır. Bilirsinizmi, ortaya əcaib bir ideya atılmışdı: sovet xalqı adamların yeni tarixi birliyidir. Şübhəsiz ki, belə bir ideya tarixin sınağından keçə bilmədi, dağıldı. Amma xalqlara, o cümlədən Qafqaz xalqlarına çox ziyan gətirdi, bizim xalqlarımızın bəzi adət-ənənələrinin ləğv olunmasına, yaxud unudulmasına gətirib çıxardı.

Ona görə də biz bu keçmiş tarixi düzgün qiymətləndirməliyik və buraxılan səhvləri aradan qaldırmalıyıq. Bunun üçün də Qafqaz müsəlmanlarının hamısının bir yerdə olması, sıx əməkdaşlıq etməsi və Ümumqafqaz məsələlərinin həll olun[404-405]masında öz səylərini göstərməsi hər bir xalq üçün əhəmiyyətlidir, bizim üçün, Azərbaycan üçün əhəmiyyətlidir, mən Azərbaycanın prezidenti kimi bəyan edirəm ki, Azərbaycan dövləti üçün əhəmiyyətlidir.

Bu baxımdan Qafqaz müsəlmanlarının X qurultayını tarixi hadisə hesab edirəm. IX qurultay beş il bundan öncə keçirilibdir. Amma güman edirəm ki, o qurultay bu səviyyədə keçməyibdir. Elədirmi? Bu beş il müddətində bütün Qafqaz müsəlmanları böyük bir yol keçiblər. Bu yolun çox əzab-əziyyətli cəhətləri var, bu yol bizə böyük itkilər verib, amma bu yol hər bir Qafqaz müsəlmanını daha da irəli aparıbdır və əsas odur ki, biz öz hüquqlarımızı əldə etmişik, öz müstəqilliyimizi əldə etmişik, milli azadlığımızı əldə etmişik və öz dini adət-ənənələrimizdən istifadə edə bilərik. Beş il bundan öncə bunlar hələ indiki səviyyədə deyildi.

Ona görə də Qafqaz müsəlmanlarının X qurultayı tarixi bir hadisədir. Mən çox məmnunam ki, siz keçmiş ənənələrə sadiq olaraq bu qurultayı da Azərbaycanda, Bakıda keçirirsiniz. Siz əmin ola bilərsiniz ki, mən Azərbaycanın prezidenti kimi Qafqaz Müsəlmanları İdarəsinə və ümumiyyətlə, Qafqaz müsəlmanlarının bütün işlərinə bundan sonra da hər türlü dəstək verməyə hazıram, hər türlü yardım etməyə hazıram.

Hesab edirəm ki, bir faktı da qiymətləndirmək lazımdır. Qafqaz Müsəlmanları İdarəsi hələ Sovetlər İttifaqı vaxtında yaranıbdır. O vaxtlar bir tərəfdən din qadağan olunmuşdu, amma digər tərəfdən, xüsusən İkinci dünya müharibəsi qurtarandan sonra, 1945-1946-cı illərdən sonra guya dini azadlıqlar verildi və Rusiyanın patriarxına imkanlar verildi ki, o özünü göstərsin. Eləcə də Gürcüstanın patriarxına da, başqalarına da, o cümlədən Orta Asiya, Qafqaz müsəlmanlarına da imkanlar verildi. Qafqaz Müsəlmanları İdarəsi hələ o vaxtlar yaranmışdı, amma o, simvolik bir şey idi. İndi isə [405-406] Qafqaz xalqları Ali Dini Şurası çox böyük, güclü və səlahiyyətli bir təşkilatdır və özünün X qurultayını keçirir.

Mən əminəm ki, siz bu qurultayda Qafqaz müsəlmanlarının gələcək fəaliyyəti haqqında lazımi müzakirə aparacaqsınız və müəyyən qərarlar qəbul edəcəksiniz. Bu qurultay Qafqaz müsəlmanlarının daha sıx birləşməsi üçün, bir-birinə dayaq olması üçün, bir-birinə dəstək olması üçün böyük bir mərhələ olacaqdır. Çox məmnunam ki, Qafqaz Xalqlarının Ali Dini Şurasına rəhbərlik edən əlahəzrət Şeyxülislam Hacı Allahşükür Paşazadə də ötən illərdə öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetiribdir və beləliklə, sizin hörmət-izzətinizi qazanıbdır. Siz Şeyxülislam Hacı Allahşükür Paşazadəni tanıyırsınız, onu ali bir dini xadim kimi qəbul edirsiniz, ona hörmət edirsiniz və indi onun rəhbərliyi ilə bu qurultay toplaşıbdır.

İçkeriyanın prezidenti tərəfindən Şeyxülislam Hacı Allahşükür Paşazadəyə İçkeriya Cümhuriyyətinin ali mükafatının – ordeninin verilməsini də mən əlamətdar hadisə hesab edirəm. Bu münasibətlə sizin

adınızdan və öz adımdan, Azərbaycan dövləti adından şeyxülislam həzrətlərini təbrik edirəm. Bilməlisiniz ki, şeyxülislam həzrətləri öz xidmətlərinə görə hələ 1994-cü ildə Azərbaycanın ali mükafatı – «Şöhrət» ordeni ilə də təltif olunubdur. İndi yeni bir cümhuriyyətin, ölkənin ali mükafatını alması münasibətilə mən onu təbrik edirəm, ona cansağlığı arzu edirəm və gələcək işlərində uğurlar arzulayıram.

Siz bu gün burada öz nitqlərinizdə, qonaqlarımız öz çıxışlarında Azərbaycanda qarşıdan gələn – oktyabrın 11-dəki prezident seçkiləri haqqında arzularınızı, istəklərinizi bildirdiniz. Bunlara görə sizə təşəkkür edirəm. Mən beş il bundan öncə demokratik prinsiplər əsasında Azərbaycanın prezidenti seçilmişəm və məmnunam ki, mənim bu beş il müddətində etdiyim işləri həm Azərbaycan vətəndaşları görür və qiymət[406-407]ləndirir, həm də mən bu gün hiss etdim ki, müsəlman aləminin din xadimləri də və bizim dost, qonşu ölkələrin yüksək səviyyəli nümayəndələri də bunu qiymətləndirirlər və seçkilərdə mənə uğur arzulayırlar. Buna görə mən sizə təşəkkür edirəm. Ümidvaram ki, Azərbaycanın seçiciləri həm keçmişdə Azərbaycan xalqı qarşısında göstərdiyim böyük xidmətlərə görə, həm də ötən beş ildə Azərbaycan xalqı qarşısında göstərdiyim böyük xidmətlərə görə mənim işimi qiymətləndirəcəklər və oktyabr ayının 11-də mənə səs verəcəklər.

Əziz dostlar, əziz qonaqlar, sizə söz verirəm ki, mən bundan sonra da həm Azərbaycan xalqının etimadını doğruldacağam, həm də sizin etimadınızı doğruldacağam. Mənim həyat yolum böyükdür. Bilirsiniz ki, yaşım da çoxdur və bəzən olur ki, məsələn, Dağıstanda ali din xadiminə terror edildiyi kimi, mənə qarşı da belə cəhdlər göstərilir. Mən həmişə bütün o terrorçulara və cinayət yolu ilə məni məhv etmək istəyənlərə bir söz deyirəm. Deyirəm ki, bütün ömrümdə heç vaxt həyatımdan qorxmamışam, həmişə, hər yerdə cəsarətlə hərəkət etmişəm və heç vaxt düşünməmişəm ki, mənə nə olacaqdır.

1993-cü ilin iyun ayında mən Bakıya dəvət olunanda Azərbaycanda qardaş qırğını, vətəndaş müharibəsi gedirdi, Azərbaycan parçalanırdı. Mən isə – heç bir silahlı dəstəsi, ordusu olmayan bir adam – tək öz canımla odun içinə atıldım. Nə üçün atıldım? Çünki inanırdım ki, mənim arxamda xalq var və xalq məni dəstəkləyəcəkdir. Bir də ona görə ki, inanırdım ki, Allah məni indiyə qədər saxladığı kimi, bundan sonra da saxlayacaqdır.

Mən həmişə xalqa xidmət etmişəm. Mən əməlisaleh adam olmuşam. Bu gün də bu yolla gedirəm. Ona görə də öz xalqımın yolunda həyatımın son dəqiqəsinə qədər xidmət edəcəyəm və heç vaxt heç şey məni qorxutmayıb, çəkindirməyibdir. Əgər hansı bir namərd gülləsi məni məhv edə bilərsə, [407-408] mən də Azərbaycan xalqının yolunda həlak olmuş şəhidlərin biri olacağam. Ancaq əminəm ki, böyük cənabi Allah məni indiyə qədər hifz etdiyi kimi, qoruduğu kimi, bundan sonra da hifz edəcək, qoruyacaqdır və mən Azərbaycan xalqı üçün öz xidmətlərimi bundan sonra da göstərəcəyəm.

Əziz dostlar, qardaşlar, mən bu gün sizinlə burada keçirdiyim saatları, dəqiqələri özüm üçün çox qiymətli hesab edirəm. Sizdən mən çox yeni şeylər öyrəndim və əmin ola bilərsiniz ki, bundan sonra da mən öz əqidəmə, islam dininin mənəvi dəyərlərinə sadiq olacağam və Azərbaycanda mənəviyyatın, mənəvi dəyərlərin, islam dininin yüksək dəyərlərinin inkişaf etməsini təmin edəcəyəm.

Sizə və sizin işlərinizə bir daha uğurlar arzulayıram. Çox sağ olun. [408]

## BAKIDA SƏFƏRDƏ OLAN NATO-nun BAŞ KATİBİ HAVYER SOLANA İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*30 sentyabr 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Havyer Solana!

Mən Sizi səmimi-qəlbdən salamlayıram və Sizin Bakıya yeni səfərinizdən məmnun qaldığımı söyləyirəm.

**H a v y e r S o l a n a**: Mən də Azərbaycana təkrar gəlişimdən, görkəmli siyasi xadim Heydər Əliyev ilə bir daha görüşməkdən, Sizinlə fikir mübadiləsi aparmaq imkanından şad olduğumu bildirirəm.

**H e y d ə r Ə l i y e v**: Mən bundan əvvəl Lissabonda, Madriddə, Bakıda, habelə mənim Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfərim zamanı Nyu-Yorkda olan görüşlərimizi məmnunluqla xatırlayıram.

**H a v y e r S o l a n a**: Mən də o görüşləri çox məmnunluqla xatırlayıram. Müstəqil Azərbaycan dövləti ilə Şimali Atlantika İttifaqı arasında əməkdaşlığın yaranması və inkişafında bu görüşlərin böyük əhəmiyyəti var.

**H e y d ə r Ə l i y e v**: Mən də bu əlaqələrin əhəmiyyətini vurğulayıram. Mən 1994-cü və 1996-cı illərin mayında Brüsselə olan səfərlərimi yada salaraq demək istəyirəm ki, ilk səfərdə mən NATO-nun baş qərargahında «Sülh naminə tərəfdaşlıq» proqramını imzaladım, sonra isə Azərbaycanın həmin proqrama qoşulması haqqında prezentasiya sənədini Sizə təqdim etdim. [409-410]

O vaxtdan ötən müddətdə NATO ilə əlaqələrimiz daim genişlənir. Azərbaycan «Sülh naminə tərəfdaşlıq» proqramında yaxından iştirak edir. Azərbaycan bu əməkdaşlığı yüksək qiymətləndirir və gələcəkdə də inkişaf etdirmək niyyətində olduğunu vurğulayır. Mənim fikrimcə, cənab Solananın indiki səfəri bu sahədə bir sıra məsələləri müzakirə etməyə imkan yaradır.

**H a v y e r S o l a n a**: Sizin qeyd etdiyiniz fikirlərinizə tamamilə şərik çıxıram. Mənim Azərbaycanın paytaxtına olan bu səfərim zamanı aparılan danışıqları əvvəlki görüşlərin davamı və inkişafı kimi qiymətləndirirəm. Əsrimizin sonunda dünyada çoxlu hadisələr baş vermişdir. Bizim günlərdə bu hadisələr çox sürətlə cərəyan edir, qloballaşır, təhlükəsizlik məsələləri xüsusilə gündəlikdə durur. Bu baxımdan prezident Heydər Əliyev kimi təcrübəli siyasətçi ilə fikir mübadiləsindən çox şey əxz etmək mümkündür.

**H e y d ə r Ə l i y e v**: Məlumunuz olsun ki, cənab Havyer Solana, hazırda Azərbaycanda hərtərəfli inkişaf üçün siyasi, iqtisadi, sosial, mənəvi, psixoloji şərait yaranmışdır. Bazarın inkişafına hər cür şərait yaranmışdır. Yeni infrastrukturlar yaratmaqla yanaşı, mövcud infrastrukturların normal fəaliyyət göstərməsinə köməklik edilmişdir. Bir sözlə, geniş islahatlar aparılmışdır.

Bunların hamısı Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğuna, bazar iqtisadiyyatına keçməyə, Dünya Birliyinə geniş inteqrasiyaya yönəldilmişdir.

Əsrimizin sonunda dünyada təhlükəsizliyə, əmin-amanlığa nail olmaq hamı üçün çox vacibdir. Ancaq bu, Azərbaycan üçün xüsusilə böyük əhəmiyyətə malikdir. Belə ki, xalqımızın ən ağır problemi olan Ermənistan- Azərbaycan münaqişəsinə hələ də son qoyulmaması nəinki müstəqil dövlətimizin təhlükəsizliyi üçün maneə törədir, eyni zamanda ölkəmizdə quruculuq proseslərinin daha sürətlə getməsinə mane olur. [410-411] Bu münaqişənin Azərbaycana hədsiz zərər vurmasına, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan didərgin düşməsinə baxmayaraq, biz məsələnin sülh yolu ilə həllinə çalışırıq. Dörd ildən çoxdur ki, atəşkəsə nail olmuşuq və ona indi də əməl edilir.

Mən Ermənistan – Azərbaycan münaqişəsinin ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş üç prinsip əsasında həllinin vacibliyini bir daha vurğulayıram. Bu sahədə Siz ATƏT-in Minsk qrupunun fəaliyyətindən, onun Rusiya, ABŞ və Fransadan olan həmsədrlərinin münaqişənin həlli barədə irəli sürdükləri təkliflərdən xəbərdarsınız. Ümidvar olduğumu bildirirəm ki, bu problemi danışıqlar, sülh yolu ilə həll etmək mümkün olacaqdır.

**H a v y e r S o l a n a**: Cənab prezident, son vaxtlar bütün dünyanın diqqət mərkəzində olan bir hadisəni – tarixi İpək yolunun bərpası üzrə Bakıda böyük uğurla keçirilmiş beynəlxalq konfransı mən də böyük diqqətlə izlədim. Bu konfrans təkcə regional yox, beynəlxalq əhəmiyyətə malik olan yeni, dəyərli təşəbbüsü reallaşdırdı. Bakıda belə bir konfransın çağırılmasının təşəbbüsçüsü olan və onun müvəffəqiyyətlə keçməsi üçün bütün imkanları yaradan Sizin, prezident Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirirəm. 30-dan çox ölkənin və bir sıra beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi bu mötəbər tədbir göstərir ki, həmin ölkələr sıx iqtisadi əməkdaşlıq edərək gələcəyə doğru birlikdə irəliləmək istəyirlər. Bu isə təkcə iqtisadi məsələ deyil, həm də sabitliyə və təhlükəsizliyə nail olmaq istəyidir.

Mən xüsusi olaraq vurğulamaq istəyirəm ki, prezident Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Asiya ilə Avropa arasında əlaqələr, əməkdaşlıq körpüsü qurulur. Həmin proqramın həyata

keçirilməsi İpək yolu üzərində ən mühüm, başlıca məntəqə olacaq Azərbaycan üçün xüsusilə [411-412] böyük imkanlar açacaq, onun iqtisadiyyatının dünya iqtisadiyyatına qovuşmasını daha da dərinləşdirəcək, beynəlxalq aləmdə nüfuzunu yüksəldəcəkdir.

**H e y d ə r Ə l i y e v**: Xoş sözlərə görə, Bakı beynəlxalq konfransını yüksək qiymətləndirdiyiniz üçün, cənab Solana, Sizə təşəkkür edirəm. Qədim İpək yolunu bərpa etməklə biz üçüncü minilliyin astanasında həqiqətən tarixin böyük bir səhifəsini açırıq. İlk dəfə idi ki, 32 ölkənin nümayəndələri, o cümlədən doqquz dövlətin başçısı, 13 beynəlxalq təşkilatın təmsilçiləri Bakıda toplaşmışdılar, onların hamısı bu məsələdə eyni istiqamətdə düşünürdü. Onu da xatırladım ki, konfransda çox mühüm iqtisadi məsələlər barəsində ətraflı fikir mübadiləsi aparılmış, yenidən dirçəldilən tarixi İpək yolunun keçəcəyi geniş bir ərazidə sülhün və təhlükəsizliyin təmin edilməsinə kömək olan mühüm sənədlər qəbul olunmuşdur.

Azərbaycan bu sahədə mühüm addımlar atır. Belə hesab edirəm ki, ölkələr, dövlətlər arasında əməkdaşlıq həm də dünyanın bütün xalqlarının, o cümlədən Azərbaycan xalqının təhlükəsizliyinin təmin olunması məqsədinə xidmət etməlidir.

**H a v y e r S o l a n a**: Cənab Heydər Əliyev, mən Sizin bu fikirləriniz ilə həmrəy olduğumu, bugünkü səmərəli danışıqlardan çox məmnun qaldığımı, Azərbaycan prezidenti Heydər Əliyev ilə gələcəkdə yenidən görüşmək arzusunda olduğumu bir daha vurğulayıram.

**H e y d ə r Ə l i y e v**: Sizə bir daha təşəkkür edərək əmin olduğumu bildirirəm ki, NATO-nun Baş katibinin ölkəmizə növbəti səfəri, aparılan danışıqlar hər iki tərəf üçün faydalı olacaqdır. [412]

## NATO-nun BAŞ KATİBİ HAVYER SOLANANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏKİ DANIŞIQLARDAN

*Prezident sarayı*

*30 sentyabr 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli qonaqları səmimi qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Cənab Baş katib, sizinlə yenidən görüşməyimdən çox məmnun olduğumu bildirirəm. Mən 1994-cü ilin may ayında, dörd il bundan öncə ilk dəfə Brüsseldə NATO-nun, baş qərargahına gəldim və NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına imza atdım. 1996-cı ilin may ayında ikinci dəfə Brüsselə gəldim və cənab Baş katib, sizinlə görüşdük və onda Azərbaycanın NATO ilə «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında prezentasiya sənədini sizə təqdim etdim. Beləliklə, biz bu proqrama qoşulduq və sizinlə əməkdaşlıq edirik.

NATO-nun Baş katibi cənab Havyer Solana, Siz ötən ilin fevralında ilk dəfə Bakıya səfər etdiniz, Sizinlə iki dəfə – Madriddə və Nyu-Yorkda görüşüb maraqlı və əhəmiyyətli söhbətlər apardığımızı məmnuniyyətlə yada salıram. İndi siz yenidən Azərbaycanı ziyarət edirsiniz. Deyə bilərəm ki, ötən dörd il içərisində Azərbaycanla NATO arasındakı əlaqələr və «Sülh naminə tərəfdaşlıq» proqramında Azərbaycanın iştirakı yaxşı inkişaf edibdir. Biz bunu qiymətləndiririk və bu əməkdaşlığı davam etdirmək istəyirik. Güman edirəm, sizin [413-414] Bakıya ziyarətiniz zamanı bu barədə bir çox məsələləri ətraflı müzakirə edə bilərik.

**H a v y e r S o l a n a**: Xoş sözlərə görə, cənab prezident, Sizə təşəkkürümü bildirirəm. Ötən il, yəni 1997-ci ildə Azərbaycan dövlətinin başçısı ilə üç dəfə görüş düyümü və Sizinlə ünsiyyətdə olmağımı həmişə məmnunluqla xatırlayıram.

Başlıcası budur ki, biz nəinki «Sülh naminə tərəfdaşlıq» proqramı üzrə ümumi işi təhlil etmək üçün, həm də dünyada təhlükəsizliyə aid digər məsələləri müzakirə etmək üçün toplaşmışıq. Fikrimcə, prezident Heydər Əliyevlə ən geniş məsələlər barəsində söhbətdən həmişə çox şey öyrənmək olar. Belə hesab edirəm ki, XXI əsr ərəfəsində isə məsələlər daha da çox olur, çünki dünya sürətlə dəyişir, dünyada hər şey sürətlə qloballaşır, regional səviyyədə daim təşəbbüslər irəli sürülür. Tarixi İpək yolunun bərpasına dair Azərbaycanın təşəbbüsü ilə bu yaxınlarda Bakıda keçirilmiş konfrans buna inandırıcı sübutdur. Bu konfrans, bir tərəfdən, qloballaşmaya, digər tərəfdən isə regional əməkdaşlığa sübutdur və göstərir ki, həmin konfransa toplaşan 30-dan çox ölkə birlikdə irəliləmək istəyir. Bu, sabitlik və təhlükəsizlik naminə iqtisadi əməkdaşlıq, ticarət, birgə təşəbbüslər vasitəsilə həyata keçirilən qarşılıqlı fəaliyyətə gözəl nümunədir.

Mən belə hesab edirəm ki, qarşıdakı əsr ərəfəsində sabitlik və təhlükəsizlik məsələsinə daha geniş mənada yanaşmaq lazımdır. Əlbəttə, «sabitlik» sözünün praktiki mənası var, lakin onun digər cəhətləri də var ki, bunlar da iqtisadi inkişafla, ticarətlə, gələn əsrdə dünyamızı daha təhlükəsiz və daha sabit edəcək digər məsələlərlə bağlıdır.

Cənab prezident, Sizi irəli sürdüyünüz təşəbbüslər münasibətilə təbrik edirəm. Azərbaycan ilə NATO arasında ikitərəfli münasibətlər çox yaxşı irəliləyir və mən buna çox şadam. Biz [414-415] istərdik ki, Azərbaycan və NATO ikitərəfli səviyyədə daha geniş qarşılıqlı fəaliyyət göstərsinlər.

Mən səmimi qonaqpərvərliyə görə Sizə təşəkkür edərək, Bakıda olmaqdan böyük sevinc duyduğumu bildirirəm.

**H e y d ə r Ə l i y e v**: Mən Sizə, NATO-nun Baş katibinə təşəkkürümü bildirir və söylədiyiniz fikirlərlə tam razı olduğumu nəzərə çarpdırıram, həqiqətən, bu əsrin sonunda dünya çox sürətlə dəyişir və biz artıq XXI əsrə doğru gedərək dünyada təhlükəsizliyin daha da təmin edilməsinə nail olmalıyıq. Hər bir ölkə üçün, bütün dünya üçün sabitlik, təhlükəsizlik lazımdır. Bizim üçün, Azərbaycan üçün isə bu, xüsusi əhəmiyyət kəsb edir.

Nəzərinizə çarpdırıram ki, Azərbaycan çox əlverişli coğrafi-strateji mövqeyə malikdir. Bundan təkcə respublikamız üçün yox, əməkdaşlıq etdiyimiz bütün ölkələr üçün də daha səmərəli istifadə etmək istəyini açıqlamaq istəyirəm. Onu da qeyd edim ki, Azərbaycanın bir çox problemləri var. Sizə məlumdur ki, Ermənistan – Azərbaycan münaqişəsi hələ ləğv olunmayıbdır. Bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ərazisinin 20 faizi işğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, azərbaycanlılar zorla çıxarılıblar. İndi onlar çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Dörd il bundan öncə biz atəşi dayandırmışıq. Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalanıbdır. Ancaq məsələ həll olunmayıbdır. Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. ATƏT-in Minsk qrupu və onun həmsədrləri – Rusiya, ABŞ, Fransa bu işlə məşğul olurlar. Ümid edirik ki,

biz məsələnin sülh yolu ilə həllinə nail olacağıq. Ancaq belə bir vəziyyətdə bizi narahat edən amillər da vardır.

Məsələn, Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi mövcud olduğu halda son üç ildə Rusiyadan Ermənistana [415-416] gizli olaraq, qanunsuz yolla bir milyard dollar dəyərində ağır texnika, silahlar və sursatlar verilmişdir. Biz buna etiraz etmişik. Ancaq hələ bu barədə müsbət nəticə əldə olunmayıbdır. Yaxud, Rusiyanın Ermənistan ərazisində hərbi bazasının və çoxsaylı ordu hissələrinin saxlanılması, Gürcüstan ərazisində ordu hissələrinin saxlanılması bizi narahat edir. Biz Qafqazda sülhün bərqərar olmasına çalışırıq. Qafqazda olan ölkələr müstəqil dövlətlərdir. Başqa bir ölkənin Ermənistanın, ya da Gürcüstanın ərazisində ordu, hərbi baza saxlamasına heç bir əsas, ehtiyac yoxdur. Şübhəsiz ki, bunlar bizim bölgədə, Qafqazda təhlükəsizliyin təmin edilməsinə mane olan amillərdir.

Sentyabrın 7-8-də Bakıda keçirilmiş, Böyük İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransa çox yüksək qiymət verdiyinizə görə Sizə, NATO-nun Baş katibinə təşəkkürümü bildirirəm. Həqiqətən, biz XXI əsrə doğru gedərkən tarixin böyük bir səhifəsini açırıq. 32 dövlətin nümayəndələrinin, o cümlədən doqquz prezidentin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin belə bir beynəlxalq konfransda iştirak etməsi bunların hamısının eyni istiqamətdə düşünməsini göstərir. Bu konfrans böyük iqtisadi məsələləri müzakirə etmişdir. Eyni zamanda, qəbul olunmuş qərarlar, bəyanatlar bizim bölgədə, ümumiyyətlə, İpək yolu xəttində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsinə yönəlibdir.

Bu gün səhər Bakıda daha bir beynəlxalq konfrans və Qafqaz müsəlmanlarının X qurultayı işə başladı. Sizə məlumat verim ki, mən orada iştirak etdim. Orada həm Qafqazda olan dövlətlərdən, islam ölkələrindən gələn nümayəndələr, həm də din xadimləri iştirak edirlər. Bu beynəlxalq konfransın da əsas məzmunu, mənası sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin olunmasıdır. Yəni bildirmək istəyirəm ki, biz bu istiqamətdə çox müsbət addımlar atırıq. Ancaq eyni zamanda sülhün, təhlükəsizliyin təmin olunması yolunda [416-417] meydana çıxan maneələr də az deyildir. Bizim arzumuz, istəyimiz ondan ibarətdir ki, həqiqətən, bütün əməkdaşlığımız hər yerdə, o cumlədən bölgəmizdə təhlükəsizliyin təmin olunmasına yönəldilə bilsin. Hesab edirəm ki, sizin bölgəmizə ziyarətiniz, bugünkü danışıqlarımız da bu məqsədə xidmət edir. Mən buna görə sizə təşəkkür edirəm.

**Havyer Solana**: Mən Sizə bir daha minnətdarlığımı bildirirəm və inanıram ki, Bakıya səfərim səmərəli və uğurlu olacaqdır. [417]

## AZƏRBAYCAN RESPUBLİKASININ VƏ NATO-nun NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA YERLİ VƏ XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident sarayı*

*30 sentyabr 1998-ci il*

### *AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI*

Hörmətli mətbuat nümayəndələri!

Siz bizim danışıqlarımızda iştirak etmisiniz və bəlkə də buna görə heç əlavə görüş keçirməyə ehtiyac yox idi. Ancaq bu, əvvəldən planda olduğuna görə biz hesab etdik ki, sizinlə görüşməyə gəlmək lazımdır.

Siz eşitdiyinizdən əlavə onu deyə bilərəm ki, NATO-nun Baş katibi cənab Havyer Solana ilə bizim danışığımız çox qarşılıqlı anlaşma, mehribanlıq şəraitində keçibdir və Azərbaycan ilə NATO arasında «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığımızı müsbət qiymətləndirmişik. Bundan sonra da bu əməkdaşlığı davam etdirmək əzmində olduğumuzu bildirmişik.

Bizim bugünkü görüşümüz çox əhəmiyyətli olubdur. Bu görüşdən əvvəl bizim qonağımız cənab Havyer Solana Azərbaycanın Baş naziri, müdafiə naziri ilə görüşübdür və çox [418-419] səmərəli danışıqlar aparılıbdır. Hesab edirəm ki, biz beləliklə, əlaqələrimizi, əməkdaşlığımızı sürətləndiririk.

Azərbaycan hökuməti bu əməkdaşlığı qiymətləndirir və çox əhəmiyyətli hesab edir. Bugünkü görüşlərimiz, danışıqlarımız bu əməkdaşlığın sürətləndirilməsi üçün yaxşı əsas yaradıbdır.

İndi isə mən sözü cənab Baş katibə verirəm.

### *NATO-nun BAŞ KATİBİ HAVYER SOLANANIN BƏYANATI*

Çox sağ olun, cənab prezident.

Çox güman ki, Sizin dediklərinizə mənim əlavə etməyə sözüm yoxdur. Sadəcə olaraq demək istəyirəm ki, Sizdə yenidən qonaq olmağıma görə və nəinki prezidentlə, həm də Baş nazirlə, habelə müdafiə naziri ilə görüşmək, il yarım bundan əvvəl Sizdə axırıncı dəfə olduğum vaxtdan bəri istər «Sülh naminə tərəfdaşlıq» proqramının xətti ilə, istərsə də Avratlantika Tərəfdaşlığı Şurasının xətti ilə birlikdə nə qədər iş gördüyümüzü qiymətləndirmək imkanı olduğuna görə çox şadam.

Bu dövrdə həqiqətən çox iş görülmüşdür. Lakin iki məqamı ayrıca vurğulamaq istərdim. Azərbaycan qoşunlarının təlimlərdə iştirakına görə, Sizə, Sizin hökumətinizə və xalqınıza xüsusilə təşəkkür etmək istərdim. Məsələn, Makedoniya ərazisində çox mühüm təlimlər keçirildi və bu təlimlərdə Azərbaycan da iştirak etdi. Tərəfdaş ölkələrin və alyans ölkələrinin geniş iştirakı ilə Orta Asiyada da belə oldu. Azərbaycan orada da iştirak etdi.

Həqiqətən, çox rəmzidir ki, biz regionda sabitliyin, təhlükəsizliyin və sülhün təminatçısı kimi birlikdə işləyirik. [419-420] Sizə demək istəyirəm ki, biz bu istiqamətdə sonrakı illərdə də işləməyi davam etdirəcəyik.

Qonaqpərvərliyə görə cənab prezidentə də, Sizin hökumətinizə də təşəkkür etmək istəyirəm. Çox sağ olun.

* * *

**S u a l: Cənab Baş katib, bu gün deyildi ki, Serbiya öz qoşunlarının bir hissəsini geri çəkmişdir, lakin bu, kifayət deyildir və çox ləng edilmişdir. Çoxları serblərin həqiqətən nə isə bir iş görmək əzmini şübhə altına alırlar. Siz deyə bilərsinizmi ki, NATO-nun öz mövqelərində həqiqətən möhkəm durmaq iradəsi və imkanları var?**

**H a v y e r  S o l a n a**: Həqiqətən, demək lazımdır ki, biz prezident Miloşeviç haqqında onun sözlərinə əsasən yox, işlərinə əsasən mühakimə yürüdəcəyik. Biz ondan lap çox, həddindən çox sözlər eşitmişik. Amma o, çox vaxt öz sözünün yiyəsi deyildir. Onu da demək lazımdır ki, son bir neçə gündə Kosovo haqqında iki çox mühüm qərar qəbul edilmişdir. Birincisi - BMT Təhlükəsizlik Şurasının qətnaməsidir. Bu

qətnamədə prezident Miloşeviçdən nə gözlədiyimiz dəqiq müəyyənləşdirilmişdir. Deməliyəm ki, bu qərar əslində yekdilliklə qəbul edilmişdir. Təkcə Çin səs vermədi, qalanlarının hamısı qərarın qəbul olunmasının lehinə səs verdi. İkincisi - NATO Şurasında qəbul edilmiş qərardır. Burada öz hərbi komandanlarınıza müraciət edilir ki, onlar texnikaya zərurət yaranması təqdirdə onu kimlərin verəcəyini alyansın ayrı-ayrı ölkələrindən öyrənməyə başlasınlar. Lakin Təhlükəsizlik Şurasının mandatı olmadan, əlbəttə, heç bir tədbir görülməyəcəkdir.

**S u a l**: **Cənab Solana, siz Bakıda danışıqlar zamanı bəyan etdiniz ki, NATO Azərbaycanla əməkdaşlığın dərinləşməsində maraqlıdır. Bilmək istərdik, siz konkret olaraq nəyi nəzərdə tuturdunuz: «Sülh naminə tərəfdaşlıq» proqramı və Avratlanti**[420-421]**ka Tərəfdaşlığı Şurası çərçivəsində əməkdaşlığın genişlən-dirilməsini, yoxsa tərəflər qarşılıqlı fəaliyyətin yeni formalarını nəzərdə tuturlar?**

**H a v y e r S o l a n a**: Siz «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində və Avratlantika Tərəfdaşlığı Şurası çərçivəsində əməkdaşlığı genişləndirmək barədə doğru dediniz. Bu iki struktur həqiqətən çox imkanlar verir. Onlarda çox ölkələr iştirak edirlər və NATO ilə münasibətlərin inkişaf etdirilməsi üçün geniş yer var. Biz artıq bu proqramlar üzrə işləyirik və öz əməkdaşlığımızı dərinləşdirmək istəyirik.

**S u a l**: **Üzr istəyirəm, Baltiya xartiyası kimi gələcəkdə Zaqafqaziya xartiyası da imzalamaq mümkündürmü?**

**H a v y e r S o l a n a**: NATO-da heç bir Baltiya xartiyası yoxdur.

**M ü x b i r**: Ukrayna və Rusiya ilə var, Baltiya xartiyası var.

**H a v y e r S o l a n a**: Yox, bu, NATO-nun xətti ilə deyildir.

**S u a l**: **Cənab Solana, biz, Azərbaycan jurnalistləri sizin dəvətinizlə Belçikada olarkən Dağlıq Qarabağla bağlı Azərbaycanın ən böyük problemi barəsində dediniz ki, bu problemlə ATƏT məşğul olur və bütün məsuliyyət bu təşkilatın üzərinə düşür. İndi Azərbaycanda sizdən soruşuruq: Əgər Ermənistan böyük Sülh sazişini imzalamasa və bu zaman Azərbaycan tərəfi NATO-ya müraciət etsə, onda sizin ittifaqın reaksiyası necə ola bilər.**

**H a v y e r S o l a n a**: Dediklərimi təkrar edirəm. Bu problemin həlli üçün çərçivə mövqeyi yaradılmışdır. Bütün bunlar 1996-cı ildə ATƏT-in xətti ilə qəbul edilmişdir. Biz vəziyyətdən çıxışı məhz bunun əsasında axtarmalıyıq. [421]

## RESPUBLİKANIN ŞƏHƏR VƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇILARININ İŞTİRAKI İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*6 oktyabr 1998-ci il*

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirə Azərbaycanda prezident seçkilərində yerli icra hakimiyyəti orqanlarının rolu, iştirakı, məsuliyyəti ilə əlaqədardır. Bunlar hamısı «Azərbaycan Respublikası prezidentinin seçkiləri haqqında» və «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» qanunlarda öz əksini tapıbdır. Siz öz vəzifələrinizi, məsuliyyətinizi bilirsiniz.

Hələ seçki kampaniyası başlanan zaman biz burada böyük bir müşavirə keçirdik.Yerli icra hakimiyyəti orqanlarının başçıları oraya dəvət olunmuşdular. Xatirinizdədir, o vaxt mən yerli icra hakimiyyəti, hüquq-mühafizə orqanlarının vəzifələri, onların yeri, məsuliyyəti haqqında əlavə göstərişlər verdim. Amma əsas göstərişlər Azərbaycan Respublikasının qanununda öz əksini tapmışdır.

Bu gün sizin buraya dəvət olunmağınız və bu müşavirənin keçirilməsi o zərurətdən doğur ki, seçki kampaniyasının əsas hissəsi artıq arxada qalıbdır. Bir neçə gündən sonra - oktyabrın 11-də Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. Prezident seçkilərini mərkəzi və yerli seçki komissiyaları aparırlar və onlar aparacaqlar. Ancaq yerli icra hakimiyyəti orqanlarının da vəzifələri vardır. Bir daha qeyd edirəm, siz [422-423] bilirsiniz, - bu vəzifələr qanunda əks olunubdur. Ancaq mən bunları sizə bir daha xatırlatmaq istəyirəm ki, hərə öz işi ilə məşğul olsun.

Bilirsiniz ki, indi seçki kampaniyası çox qızğın gedir. Biz Azərbaycan Respublikasının qanunları əsasında hərəkət edirik. Deyə bilərəm ki, qanunlarda nəzərdə tutulduğu kimi, seçki kampaniyası tam açıq, aydın, sərbəst, demokratik şəraitdə keçir. Prezidentliyə namizədlər öz platformalarını bəyan etmək, öz fikirlərini açıqlamaq və özləri haqqında istədikləri məlumatları vermək imkanına malikdirlər. Radio, televiziya, mətbuat - hamısı hər kəs üçün açıqdır. Hər kəs, o cümlədən prezidentliyə namizədlər, onların vəkilləri, tərəfdarları da bu imkanlardan istifadə edirlər.

Ancaq bilirsiniz ki, bununla yanaşı, seçkidə iştirak etməkdən imtina edən bəzi siyasi partiyalar, qruplar Azərbaycan prezident seçkilərinin həyata keçirilməsinin əleyhinə iş, kampaniya aparırlar, cürbəcür tədbirlərə, bəzən də qanunsuz tədbirlərə əl atırlar, qanunu pozurlar və Azərbaycanda prezident seçkilərinin guya qeyri-demokratik keçiriləcəyini sübut etməyə çalışırlar. Bu barədə cürbəcür təbliğatlar aparırlar, beynəlxalq təşkilatlara, müşahidələrə müraciət edirlər.

Bunlar hamısı bizim seçkilərin azad, sərbəst, demokratik şəraitdə keçirilməsi çərçivəsində mümkündür və ona görə də mövcuddur. Hərə öz fikrini deyə bilər. Ancaq hansı fikir düzdür, hansı əyridir, hansı fikir doğrudur, hansı yalandır, - onu ictimaiyyət, xalq, vətəndaşlar müəyyən edirlər.

Təəssüflər olsun ki, bu qüvvələr seçkiləri nəyin bahasına olursa-olsun, onların sözləri ilə desək, «boykot etmək» istəyirlər. Bu da onların işidir. Ancaq onlar bununla qənaətlənmirlər, seçkiləri pozmaq istəyirlər. Gələn bəzi siqnallar göstərir ki, hətta təxribat xarakterli hərəkətlərə əl atmaq istəyirlər, ağlasığmaz iddialar irəli sürürlər ki, seçkilər dayandırılsın, seçkilərin vaxtı uzadılsın və onlar seçkidə [423-424] iştirak etsinlər. Şübhəsiz ki, bunlar təəccüb doğurur. Bəzən düşünürsən, - ilahi, bu insanlar özlərini göydən gəlmiş hesab edirlər, yaxud da onların Azərbaycanda xüsusi tarixi bir xidmətləri var? Nəyə görə Azərbaycanın qanun-qaydalarından, Azərbaycan vətəndaşlarına verilmiş hüquqlardan özləri üçün əlahiddə artıq, fövqəladə hüquqlar, xüsusi status tələb edirlər?

Azərbaycanda seçki prosesi bir il bundan əvvəl başlayıbdır. «Azərbaycan Respublikası prezidentinin seçkiləri haqqında», «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» qanunların layihələri, qəbul olunması nə qədər müzakirə edilibdir. Biz xalqla nə qədər məsləhətləşmişik. O cümlədən müxalifətdə olan, xüsusi iddialarla yaşayan partiyalarla, qruplarla da dialoqa girmişik.

Mən hələ iyun ayında bütün siyasi partiyalara müraciət etdim, onları seçkidə iştirak etməyə dəvət etdim. Mərkəzi Seçki Komissiyasında iştirak etmək üçün öz namizədlərini təqdim etmələrini onlardan xahiş etdim. Ancaq onlar mənim - Azərbaycan dövlətinin başçısının, prezidentinin bu müraciətinə etinasızlıq göstərdilər, heç bir cavab vermədilər. Əksinə, yeni-yeni iddialar meydana çıxartdılar.

Amma bunlara baxmayaraq, mən hər bir vətəndaşın, hər bir siyasi qrupun, yaxud partiyanın fikirlərinə hörmətlə yanaşaraq avqust ayının 3-də bir neçə partiyanın başçılarına məktub göndərdim, müraciət etdim. Bunlar mətbuatda elan olundu ki, mən onları seçkilərdə iştirak etməyə dəvət edirəm və Mərkəzi Seçki Komissiyasında təmsil olunmaq üçün öz namizədlərini təqdim etmələrini xahiş edirəm. Ancaq onlar buna da etinasızlıq göstərdilər, öz hikkələri, iddiaları ilə işlərini davam etdirdilər. Yəni onların seçkilərdə iştirak

etməsi üçün bütün imkanlar yaranmışdır və onlara dəfələrlə müraciət olunmuşdur. Lakin onlar bunların hamısından imtina etdilər. [424-425]

İndi, seçki kampaniyası son mərhələsində olduğu bir zaman bəyan edirlər ki, onlar guya dialoq istəyirlər. Dialoqun da əsas şərti ondan ibarətdir ki, «Gərək seçki kampaniyası dayandırılsın, seçkilərin vaxtı uzadılsın və sonra onlarla dialoq başlansın». Bunu kim edə bilər? Bunu Mərkəzi Seçki Komissiyası edə bilməz, çünki qanun ona belə hüquq vermir. Azərbaycan prezidenti kimi, mənim ancaq qanunvericilik təşəbbüsüm vardır. Mənim bu barədə bundan artıq başqa bir imkanım yoxdur. Ancaq mən qanunvericilik təşəbbüsü ilə çıxış etmək üçün də heç bir əsas görmürəm və belə təklifləri qəbul etmirəm.

Milli Məclis bu məsələyə öz münasibətini göstəribdir. Milli məclisin sədri hörmətli Murtuz Ələsgərov bu barədə onlara açıq məktubla cavabını göndəribdir. Ona görə də burada hər şey açıq-aydındır. Biz, Azərbaycanın bugünkü iqtidarı, dövlət, hakimiyyət orqanları respublikamızda demokratiya yaradırıq, onu inkişaf etdiririk və ölkəmizdə prezident seçkilərini də demokratik şəraitdə keçirmək üçün üzərimizə düşən vəzifələri, hesab edirəm, layiqincə yerinə yetiririk. Mən inanıram ki, Azərbaycanda prezident seçkilərinin tam demokratik, ədalətli, sərbəst keçirilməsi üçün qarşıdan gələn günlərdə də hakimiyyət orqanları tərəfindən lazımi işlər görüləcək və respublikamızda oktyabrın 11-də prezident seçkiləri tam demokratik, azad, ədalətli şəraitdə keçiriləcəkdir.

Bir daha qeyd edirəm, bütün bunları təmin etmək üçün hər kəsin qanunla tənzimlənmiş vəzifəsi, rolu vardır. Hərə öz vəzifəsini, rolunu qanun çərçivəsində yerinə yetirməlidir. Qanunda göstərilən o vəzifə çərçivəsini aşmaq da, ancaq qanun çərçivəsindəki həmin vəzifəni yerinə yetirməmək, yaxud da yerinə yetirilməsində səhlənkarlıq etmək də olmaz.

Ona görə də Azərbaycanın hakimiyyət, icra orqanları, xüsusən yerli icra hakimiyyəti orqanları qanun çərçivəsində üzərlərinə düşən vəzifələri tam yerinə yetirməlidirlər. [425-426] Qanunun çərçivəsindən bir millimetr də kənara çıxmaq, onu aşmaq olmaz. Eyni zamanda, həmin qanun çərçivəsində olan vəzifəni tam yerinə yetirmək lazımdır.

İndi Azərbaycanda seçkiləri tamamilə pozmaq istəyən həmin o radikal müxalifətlə yanaşı, təəssüflər olsun ki, prezidentliyə namizədlər də bəzən öz çıxışlarında «Seçkilər saxtalaşdırılacaqdır» fikirlərini bəyan edirlər.

Azərbaycanın prezidenti və oktyabrın 11-də keçiriləcək seçkilərdə prezidentliyə namizəd kimi mən bu gün bəyan edirəm ki, Azərbaycanın bugünkü iqtidarı, hakimiyyət orqanları, icra orqanları respublikamızda prezident seçkilərinin demokratik, açıq-aşkar, sərbəst, ədalətli keçirilməsini hamıdan çox istəyir. Şəxsən mənə gəldikdə isə, deyə bilərəm ki, Azərbaycanda hamıdan çox bunu mən istəyirəm. Çünki beş ildir ki, hamımız - Azərbaycanın sağlam qüvvələri, ölkəmizin əhalisinin bizi dəstəkləyən əksəriyyəti ilə birlikdə respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət qururuq və dövlət quruculuğu prosesi aparırıq. Həm siyasi, həm ictimai, həm sosial, həm də iqtisadi sahədə bununla əlaqədar lazımi tədbirlər görülür, islahatlar aparılır və müəyyən müsbət nəticələr əldə olunubdur.

Biz dünyaya bəyan etmişik ki, Azərbaycan demokratik dövlət, ölkə, cəmiyyət kimi dünya demokratiyasına qoşulur. Məhz buna görə də biz Avropa Şurasına daxil olmaq istəyirik. Məhz buna görə də biz Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında fəaliyyət göstəririk və Azərbaycanı bu təşkilatın bərabər hüquqlu üzvü kimi təmsil edirik. Məhz buna görə də biz Avropa Birliyinin Parlament Təşkilatı ilə əməkdaşlıq edirik. Məhz buna görə də biz 1996-cı ilin aprel ayında Lüksemburqda Avropa Birliyi ilə əməkdaşlıq haqqında saziş imzalamışıq. Məhz buna [426-427] görə də biz Dünya Parlamentlər Assambleyasında iştirak edirik. Məhz buna görə də dünyanın bütün demokratik təşkilatlarında biz Azərbaycanı təmsil edirik.

Biz belə işlər görərək artıq dəfələrlə sübut etmişik ki, Azərbaycanda demokratiya qurulur, inkişaf etdirilir və Azərbaycan demokratiya yolu ilə gedir.

Belə bir halda seçkilərin hansısa bir şəkildə saxtalaşdırılması bizə nə verəcəkdir? Biz seçkiləri nə üçün saxtalaşdırmalıyıq? Nə üçün? Əgər həmin radikal müxalifət, yaxud da prezidentliyə namizədlərdən bəziləri özlərinin gücünü, xalqın, əhalinin arasındakı sosial bazasını Azərbaycanda beş il prezident olan adamdan artıq hesab edirlərsə, demək, onlar ölkəmizdəki reallığı da bilmirlər.

Biz beş ildə Azərbaycanda dövlətçiliyi nəinki qorumuşuq, saxlamışıq, həm də onu inkişaf etdirmişik, respublikamızda iqtisadi inkişafa nail olmuşuq. Biz Azərbaycanda beş il müddətində cinayətkarlığa qarşı ciddi tədbirlər görüb, cinayətkarlığın qarşısını almışıq. Bu beş ildə ölkəmizin əsas problemi olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında dəyərli işlər görmüşük və müəyyən nəticələr əldə etmişik. Biz müharibədə atəşkəs əldə etmişik, sülhsevər siyasət aparırıq. Dünyanın bir çox dövlətləri ilə tarixi əhəmiyyətə malik olan müqavilələr imzalamışıq. Azərbaycanın iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamışıq. Azərbaycana xarici investisiyalar gəlir. Dünyanın, o cümlədən xarici işgüzar dairələrin Azərbaycana marağı artıbdır. Bunların hamısını biz etmişik, ölkəmizdəki bugünkü reallığı biz yaratmışıq. Nə cür ola bilər indi biz şübhə edək ki, o biri namizədlərə görə guya bizim dəstəyimiz azdır və seçkilərdə nəyə görəsə saxtakarlıq etməliyik? Şübhəsiz, bu, gülünc bir şeydir.

Ancaq təəssüflər olsun ki, belə fikirlər söyləyənlər vardır. Siz buraya bunları nəzərə aldığımıza görə dəvət olunmamı[427-428]sınız. Onlar yalan fikirlərdir. Mən bunları tamamilə rədd edirəm, belə fikirlərin hamısına etiraz edirəm.

Ancaq yenə deyirəm, Azərbaycanın prezidenti kimi, mən seçkilərdə yerli icra hakimiyyəti orqanlarının öz vəzifələrini qanun çərçivəsində düzgün həyata keçirməsi üçün sizi buraya dəvət etmişəm.

Qanunda göstərilibdir ki, yerli icra hakimiyyəti orqanları, hüquq mühafizə orqanları seçki komissiyalarının işinə qarışmamalıdırlar. Seçki komissiyaları öz işlərini müstəqil, sərbəst, «Azərbaycan Respublikası prezidentinin seçkiləri haqqında», «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» qanunlar əsasında aparmalıdırlar. Yerli icra hakimiyyəti orqanları seçki məntəqələrinə, komissiyalarına sadəcə, lazım olan köməyi və yardımı göstərməlidirlər.

Güman edirəm ki, indiyə qədər bu işlər görülübdür. Mən hesab edirəm ki, çox işlər görülübdür. Məhz görülən işlərin nəticəsində 4 mindən artıq seçki məntəqəsi təşkil olunubdur. Verilən məlumata görə yerli icra hakimiyyəti orqanları ərazi və məntəqə seçki komissiyalarına binalar ayrılması, onların rahat, normal işləməsi, ləvazimat alınması, şərait yaradılması üçün öz işlərini görüblər, xidmətlərini göstəriblər və bu gün də göstərirlər. Ancaq eyni zamanda, qarşıdakı günlərdə, xüsusən oktyabrın 11-də hərəniz öz vəzifənizi yerinə yetirməlisiniz.

Bir daha deyirəm, əsas şərt ondan ibarətdir ki, siz məntəqə, ərazi seçki komissiyalarının işinə qarışmamalısınız. Mən bunu yerli icra hakimiyyəti orqanlarının başçılarına, hüquq-mühafizə orqanlarına və bütün icra orqanları işçilərinin hamısına deyirəm ki, siz bu işlərə qarışmayasınız. Seçki komissiyalarının hamısının normal işləməsi üçün onların sizə etdiyi müraciətlərə gərək dərhal baxasınız, istənilən köməyi, yardımı edəsiniz, başçılıq etdiyiniz rayonda meydana çıxan, seçki prosesinə mane olan halların qarşısını vaxtında, qanun [428-429] çərçivəsində alasınız, vətəndaşların, seçicilərin məntəqələrə gedib öz seçki hüquqlarını sərbəst yerinə yetirməsinə lazım olan şəraiti, imkanları yaradasınız. Beləliklə, seçkilərin azad, ədalətli, demokratik keçirilməsinə öz xidmətlərinizi göstərəsiniz.

Qeyd etdiyim kimi, Azərbaycanın hakimiyyət, icra orqanları beş il müddətində xeyli iş görmüşlər. Bu işlərin həyata keçirilməsində şübhəsiz ki, yerli icra hakimiyyəti orqanlarının da xidmətləri, payı vardır. Doğrudur, ümumiyyətlə, iqtidarın, hakimiyyət orqanlarının, yerli icra hakimiyyəti orqanlarının fəaliyyətində nöqsanlar da, çatışmazlıqlar, həll olunmamış problemlər də, bəzən həll edilə biləsi, amma səhlənkarlıq, buraxılan səhvlər, nöqsanlar nəticəsində həll olunmamış problemlər də vardır. Bunlar hamısı vardır. Biz bunları heç vaxt inkar etməmişik və bu gün də inkar etmirik.

Yerli icra hakimiyyəti orqanlarının işində olan nöqsanları, çatışmazlıqları, bəzi icra orqanları başçıları tərəfindən vəzifəsindən sui-istifadə etmə hallarını, qanunu pozma hallarını biz ciddi tənqid etmişik, lazımi təşkilati tədbirlər görmüşük. Məhz belə səhvlərə, nöqsanlara, vəzifələrindən sui-istifadə etdiklərinə görə bəzi yerli icra hakimiyyəti orqanları başçıları vəzifədən kənar olunublar, cəzalandırılıblar. Onların haqqında başqa tədbirlər də görülübdür. Mən bu gün bir daha deyirəm ki, hər bir icra orqanı və onun başçısı Azərbaycanın Konstitusiyasından və Qanunundan, Azərbaycan prezidentinin fərmanlarından irəli gələn vəzifələri müasir tələblərə uyğun olaraq vaxtında, layiqincə yerinə yetirməlidir.

Təəssüflər olsun ki, indi yerindən duran icra hakimiyyəti başçılarını, yaxud hüquq-mühafizə orqanlarını tənqid edirlər, Azərbaycandakı çatışmazlıqların onların günahı olduğunu göstərirlər. Amma özlərinin günahı, yaxud da özlərinin Azərbaycana vurduqları zərbələr, zərərlər haqqında heç bir şey demirlər. Bu barədə gur danışan adamlar özləri çox [429-430] şeylərin günahkarıdırlar. Onlar ötən illərdə Azərbaycanda ağır vəziyyəti yaradanlardırlar.

Şübhəsiz ki, mən onların belə əsassız ittihamlarına etiraz edirəm. Bir daha qeyd edirəm, ümumən hakimiyyət orqanlarının, iqtidarın, xüsusən yerli icra hakimiyyəti orqanlarının işində səhvlər, çatışmazlıqlar vardır. Biz bunların aradan qaldırılması üçün tədbirlər görmüşük, bu gün də görürük və gələcəkdə də görəcəyik. Ancaq eyni zamanda, mən hesab edirəm ki, bu gün Azərbaycanın dövlət, hökumət, hakimiyyət orqanlarında işləyənlərin əksəriyyəti müstəqil respublikamıza xidmət edirlər və bəziləri çox dəyərli xidmətlər göstərirlər. Onlara qara yaxmaq və onları qiymətləndirməmək ədalətsizlik, haqsızlıq olardı.

Güman edirəm ki, siz - yerli icra hakimiyyəti orqanlarının başçıları oktyabr ayının 11-də prezident seçkilərinin demokratik, ədalətli, sərbəst keçirilməsində öz vəzifələrinizi layiqincə yerinə yetirərək həmin o əsassız sözlərə, böhtanlara, yalanlara cavab vermiş ola biləcəksiniz. Mən istərdim ki, siz o böhtanlara həmin o gur sözlərlə yox, öz əməli işinizlə cavab verəsiniz, qanunu öz əməli işinizlə, Azərbaycana, respublikamızın bugünkü dövlətçiliyinə sədaqətlə xidmət etməklə yerinə yetirəsiniz. İnanıram ki, mən dediyim bu vəzifələri yerinə yetirməyə sizin gücünüz də, bacarığınız da, imkanınız da vardır. Əminəm ki, siz bunları edəcəksiniz.

Bir daha qeyd edirəm, Azərbaycan prezidentliyinə namizəd kimi, mən hamıdan çox istəyirəm ki, seçki hər yerdə normal, ədalətli, demokratik keçsin.

Bəli, mən oktyabrın 11-də yenidən Azərbaycanın prezidenti seçilmək istəyirəm. Çünki hesab edirəm ki, ötən beş ildə keçdiyimiz yolu, Azərbaycanda dövlətçiliyi, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, ölkəmizi demokratiya yolu ilə aparmaq, respublikamızın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycanı bir

müstəqil dövlət kimi daha da yüksəklərə [430-431] qaldırmaq, Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq, işğal olunmuş torpaqlarımızı azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, yerindən-yurdundan didərgin düşmüş qaçqınları öz yerlərinə, yurdlarına qaytarmaq üçün və bütün başqa işləri görmək üçün mən hələ Azərbaycana, Azərbaycan xalqına lazımam.

Mən öz xidmətimi indiyədək əsirgəməmişəm, bundan sonra da əsirgəməyəcəyəm. İndi seçicilərlə görüşərkən hər dəfə bildirirəm ki, həyatımın son dəqiqəsinə qədər mən müstəqil Azərbaycana, xalqımıza sədaqətlə xidmət edəcəyəm. Böyük həyat yolu keçmiş, zəngin təcrübəsi olan və Azərbaycanın problemlərini, eyni zamanda onun imkanlarını dərindən bilən bir insan kimi, mən hesab edirəm ki, bu gün Azərbaycanın mənə ehtiyacı vardır. Mən də öz borcumu bundan sonra yerinə yetirməliyəm. Məhz ona görə də mən özümdə olan enerjini, biliyi, təcrübəni və qazandığım bu hörmət və ehtiramı Azərbaycanın gələcəyinə həsr etmək istəyirəm. Məhz ona görə də oktyabrın 11-də Azərbaycanda tam demokratik, ədalətli şəkildə seçilən prezident olmaq istəyirəm. (Gurultulu, sürəkli alqışlar).

Kim bunu istəyirsə, o, seçkiyə qədər qalmış günlərdə və seçki günü Azərbaycanın qanunlarını, seçki qanununu olduğu kimi yerinə yetirməlidir və prezident seçkilərinin demokratik, ədalətli, azad, aşkar, sərbəst keçirilməsini təmin etməlidir.

Son günlər mən çoxlu görüşlər keçirmişəm. Mənim Bakıda, Sumqayıtda, Salyanda, Biləsuvarda, Cəlilabadda, Masallıda, Lənkəranda, Astarada çoxsaylı görüşlərim olubdur. Mən şimal bölgəsi rayonlarının hamısında - Qusarda, Xaçmazda, Qubada, Dəvəçidə, Siyəzəndə, Xızıda olmuşam. Mən Əli Bayramlı, Sabirabad, Saatlı, İmişli rayonlarında görüşlər keçirmişəm. Biləsuvarda, İmişlidə, Saatlıda, Sabirabadda qaçqın düşərgələrində olmuşam, yerindən-yurdundan didər[431-432]gin düşmüş insanlarla görüşmüşəm, onların mənə olan inamını, münasibətini görmüşəm.

Bu gün axşam da görüşlərə gedəcəyəm. Sabah da, o birisi gün də mən respublikanın bir çox bölgələrində olacağam. Sonra Bakıda görüşlər keçirəcəyəm. Mən bu günlərdə yüz minlərlə, milyonlarla adamlarla görüşmüşəm. Avtomobillə getdiyim bütün yollarda qəsəbələrdən, kəndlərdən insanlar yolun kənarına çıxıb mənimlə görüşmək istəyirlər, mən də onların bu arzusunu yerinə yetirirəm, görüşürəm. Görürəm ki, insanlar ölkəmizdə mövcud olan çətinliklərə baxmayaraq, Azərbaycanın müstəqilliyinə nə qədər sevinirlər. Onlar ölkəmizin bu azadlığına nə qədər sevinirlər, Azərbaycan iqtidarının, prezidentinin fəaliyyətini ürəkdən bəyənirlər, dəstəkləyirlər, onu alqışlayırlar və mənə gələcək üçün dəstək verirlər.

Şübhəsiz ki, bunlar hamısı mənə əvvəldən də məlum idi. Ancaq həmin görüşləri və mən bir namizəd kimi hər bir seçici ilə görüşləri özümün əsas vəzifəm hesab edirəm. Ona görə də həmin köçkünlərin, yerindən-yurdundan didərgin düşmüş insanların çadırlarına gedib onlarla orada söhbətlər, danışıqlar aparmışam. Əhalinin mənə münasibəti də, fikri də məlumdur. Mənim prezident olmağım üçün bu, yəni o münasibət bəsdir.

Heç bir əyinti, saxtakarlıq lazım deyildir. Əksinə, bu, bizim bugünkü dövlətçiliyimizə, şəxsən mənə zərər olan bir şeydir. Bu məsələnin üzərində bu qədər dayanmağım o demək deyildir ki, mən hesab edirəm kimsə saxtakarlıq edəcəkdir. Yox. Ona görə ki, bu mövzunu indi çox hallandırırlar. Mən onlara -həm o radikal müxalifətdə olanlara, həm də prezidentliyə namizədlərin bəzilərinə cavab olaraq bunu deyirəm.

Mən tam əminəm ki, seçkilər demokratik, ədalətli keçiriləcəkdir. İnanıram ki, siz öz vəzifələrinizi layiqincə yerinə yetirəcəksiniz. Mənə dair bir sualınız, yaxud bu problemlə, qanunun həyata keçirilməsi ilə əlaqədar sözünüz varmı? [432-433]

**R a m i z  M e h d i y e v** (*Prezidentin İcra Aparatının rəhbəri*): Cənab prezident, icra hakimiyyəti başçıları gözəl bilirlər ki, hər kəs özü səs verməlidir, hər bir adam seçki məntəqəsinə öz pasportu ilə gəlməlidir. Heç kim gəlib başqasının əvəzinə səs verə bilməz. Biz bu məsələni əsas götürməliyik.

**H e y d ə r  Ə l i y e v**: Bu tədiidir. Bunu hamı bilməlidir. Mən baxıram, bizim televiziya necə səs vermək barədə yaxşı bir proqram hazırlayıbdır. Bəlkə onu bir az da genişləndirmək lazımdır. Məsələn, orada deyilir ki, kimsə xanımının, oğlunun, qızının, oğul atasının əvəzinə səs verə bilməz. Keçmişdə bu, təkcə Azərbaycanda yox, digər yerlərdə də adət olubdur. Aydındır ki, biz 70 il başqa bir seçki sistemi şəraitində yaşamışıq. Əgər insanlar on illərlə həmin sistemi qavrayıb, mənimsəyibsə, yeni sistemə keçmək, əlbəttə, o qədər asan deyil. Amma sizinlə bizim vəzifəmiz, xüsusilə sizin vəzifəniz ondan ibarətdir ki, bunu insanlara anladasınız, bildirəsiniz.

Məsələn, İmişlidə məskunlaşmış qaçqınların çadır düşərgələrindən birində bir xanım çox xahiş etdi ki, mən gedib onun anası ilə görüşüm. O dedi ki, anasının 100-dən artıq yaşı vardır. Mən gedib həmin çadıra girdim. Mən onsuz da bir çox çadırlarda olmuşdum. O bilmirdi ki, mən onun yaşadığı çadıra gələcəyəm, yoxsa yox. Həmin qadının yaşadığı çadır bizdən bir qədər aralıda idi. Mən onun xahişinə əməl etdim, həmin çadıra getdim, o bacı ilə də görüşdüm. Görünür, onun həqiqətən də 100-dən artıq yaşı vardır. O, yerdə oturmuşdu. Mən də onun yanında oturdum, söhbət etdim. Həmin 100 yaşlı xanım mənə dedi ki, bala, narahat olma, mən seçki məntəqəsinə özüm gedəcəyəm və səs verəcəyəm. Bacım bunu mənə dedi. Ancan mən bununla demək istəmirəm ki, hamı belə fikirdədir.

Ona görə də qanun çərçivəsində sizin əsas vəzifəniz ondan ibarətdir, izah edəsiniz ki, hər kəs gedib özü səs versin. Əgər [433-434] kimsə gedib özü səs verə bilmirsə, qoy o səs verilməsin, nəinki kimsə gedib onun əvəzinə səs versin. O səs lazım deyildir, qoy verilməsin. Amma kimsə onun əvəzinə səs verməsin.

Bilirsiniz ki, burada həm xarici, həm daxili müşahidəçilər, həm də radikal müxalifətdən olan müşahidəçilər çoxdur. İndi haradasa, kimsə heç bir qərəzi olmadan xəstə anasının, yaxud da seçki məntəqəsinə gedə bilməyən bacısının əvəzinə səs verəcəksə, bu, bizim gördüyümüz böyük işə xırda bir şeylə zərər gətirəcəkdir. Niyə, bu zərər bizə nəyə lazımdır? Yaxşı olar ki, bu heç olmasın, nəinki ondan istifadə edib, bizim gördüyümüz işləri gəlib qiymətdən salsınlar.

Ona görə də hər kəsin, hər seçicinin özünün seçki məntəqəsinə getməsi, səs verməsi əsas şərtdir.Xəstə olan adamlar üçün qutular təşkil ediləcəkmi?

**R a m i z M e h d i y e v**: Bəli,olacaqdır.

**H e y d ə r Ə l i y e v**: Bunlar olacaqdır. Amma kim xəstə deyilsə, seçki məntəqəsinə getmək iqtidarına malikdirsə, o, seçki məntəqəsinə getməlidir. Siz onların seçki məntəqəsinə getməsinə kömək etməlisiniz. Belələrinə kömək göstərilməsi qadağan deyildir ki?

**R a m i z M e h d i y e v**: Əvvəlcədən təbliğat aparılmalıdır ki, həmin adamlar gedib səs versinlər.

**H e y d ə r Ə l i y e v**: Bəli, təbliğat aparılmalıdır.

**Ə l i M ə m m ə d o v** (*İmişli Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab prezident, nəqliyyat vasitələri ilə də kömək etmək olar.

**H e y d ə r Ə l i y e v**: Nəqliyyat vasitələri lazımdır, kömək edin. Buna etiraz yoxdur ki? Yaxşı, nəqliyyat vasitələri sizin əlinizdədir. Rayonda, şəhərdə, qəsəbədə, kənddə siz hər şeydən istifadə edə bilərsiniz. Əlbəttə, ola bilər ki, uzaq kəndlərdən seçki məntəqəsinə getmək bir qədər çətinlik yaratsın, pul verib nəqliyyatdan istifadə etmək kimin üçünsə çətin olsun, kimsə heç nəqliyyat vasitəsi tapa bilməsin. Ona görə yox ki, o, seçki məntəqəsinə getmək, səs vermək istəmir. Ona görə ki, [434-435] nəqliyyat vasitəsindən istifadə etməyə onun sadəcə, imkanı yoxdur. Buna görə də siz adamların nəqliyyat vasitələri ilə təmin olunması üçün bütün imkanlardan istifadə etməlisiniz. Çalışmalısınız ki, insanlara şərait yaradılsın, onlar gedib səs verə bilsinlər.

**R a m i z M e h d i y e v**: Möhtərəm prezident, yerli icra hakimiyyəti başçıları xarici və daxili müşahidəçilər üçün lazımi şərait yaratmalıdırlar ki, onlar sərbəst fəaliyyət göstərsinlər.

**H e y d ə r Ə l i y e v**: Bəli. Bütün müşahidəçilərin sərbəst fəaliyyət göstərməsi üçün lazımi tədbirlər görülməlidir. Bu, sizin borcunuzdur. İstər xarici, istərsə də daxili - hər bir müşahidəçi şübhəsiz ki, qanun çərçivəsində fəaliyyət göstərməlidir. Əgər hansısa bir müşahidəçinin bizim yerli icra hakimiyyəti və hüquq-mühafizə orqanlarının onların işinə maneçilik törətməsi ilə əlaqədar şikayəti olsa, şübhəsiz ki, belə hallar birincisi, bizim ümumi işimizə zərər vuracaq, ikincisi isə onlar bağışlana bilməzlər. Çünki müşahidəçiləri biz özümüz dəvət etmişik.

Biz həm Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına, həm də ayrı-ayrı dövlətlərin başçılarına müşahidəçilər göndərmək barədə müraciət etmişik. Biz ayrı-ayrı demokratiya institutlarından xahiş etmişik ki, onlar müşahidəçi göndərsinlər. Mən Avropa Şurası parlamentindən və başqa parlamentlərdən dəfələrlə xahiş etmişəm ki, müşahidəçilər göndərsinlər.

**M u r t u z Ə l ə s g ə r o v** (*Milli Məclisin sədri*): Cənab prezident, 40-a yaxın ölkənin parlamentlərinə müraciət etmişik.

**H e y d ə r Ə l i y e v**: Bəli, 40-a yaxın ölkənin parlamentlərinə müraciət olunubdur. Onların hamısından müşahidəçilər gələcəkdir. Bunları biz etmişik. Əminəm ki, biz seçkiləri [435-436] demokratik, ədalətli keçirəcəyik. Biz müşahidəçiləri buraya ona görə çox çağırırıq ki, seçkinin nəticələri dünyanın hər yerində bizim yazdığlarımızla yox, onların özlərinin gördükləri ilə məlum olsun. Əgər bunu biz özümüz etmişiksə, müşahidəçilərin buraya gəlməsində biz özümüz maraqlıyıqsa, demək, onların fəaliyyətinə şərait yaratmaq, kömək göstərmək lazımdır.

**R a m i z M e h d i y e v**: Cənab prezident, rabitə, işıq və səhiyyə məsələləri də çox vacibdir.

**H e y d ə r Ə l i y e v**: Rabitə, səhiyyə nazirləri və «Azərenerji» Səhmdar Cəmiyyətinin rəhbəri buradadır.

Birincisi, Müslüm İmanova bir də deyirəm, - mən televiziya ilə çıxışımda bunu dedim: Bu gün Azərbaycanın hər yerinə elektrik enerjisi vermək potensialı, enerji ehtiyatları vardır, bəzi yerlərə elektrik enerjisinin verilməsi texniki səbəblərdən pozulanda ayrı-ayrı qüvvələr, o cümlədən prezidentliyə namizədlərin bəziləri gedib söz verirlər ki, bir ildən sonra ölkənin hər yerini elektrik enerjisi ilə təmin edəcəklər.

Respublikada elektrik enerjisinin potensialını biz yaratmışıq. Müslüm İmanov, siz də o illərdən bu işdə işləyirsiniz və bunları bilirsiniz. Azərbaycanın hər yerini elektrik enerjisi ilə təmin etmək üçün potensialımız, enerji ehtiyatlarımız, imkanlarımız olduğu halda əgər bunu etmirsinizsə, bu iş haradasa pozulursa, bu, sizin günahınızdır, bu heç də onun nəticəsi deyildir ki, bizim elektrik enerjisi vermək imkanımız yoxdur. Mən sizdən tələb edirəm ki, bu qüsurları aradan qaldırasınız və Azərbaycanın hər yeri, seçki məntəqələri mütəmadi olaraq, kəsilmədən elektrik enerjisi ilə təmin olunsun.

**M ü s l ü m İ m a n o v**: Möhtərəm prezident, respublikamızda indi elektrik enerjisi bolluğu yaranıbdır. Məsələn, biz hesablamışıq. 1990-cı ilə nisbətən indi xeyli çox elektrik enerjisi sərf edilir. Yəni indi o qədər enerji verilir ki, aparatlar da buna davam gətirmir. [436-437]

Möhtərəm prezident, Sizin iradlarınızı qəbul edirik.

**H e y d ə r Ə l i y e v**: Çalışın ki, aparatlarınız da davam gətirsin.

Rabitə naziri, mən bilirəm ki, son vaxtlar siz bəzi yerlərin telefonlaşdırılması işi ilə məşğul olursunuz. Yeni telefon stansiyaları açmısınız. Məni də dəvət edirdiniz, amma iştirak etməyə vaxtım olmadı. Bu işləri görmüsünüz. Amma bununla yanaşı, bu günlər, xüsusən oktyabrın 11-də hər bir məntəqə ilə telefon əlaqəsi olmalıdır. Siz bunu təmin etməlisiniz və lazım olan əlavə tədbirləri görməlisiniz. Aydındırmı?

**N a d i r Ə h m ə d o v**: Bəli, baş üstə.

**H e y d ə r Ə l i y e v**: Səhiyyə naziri, siz öz işlərinizi yaxşı bilirsiniz. Yəqin ki, bütün seçki məntəqələrində sizin tibbi yardım məntəqələriniz olacaqdır, lazımi işlər görəcəksiniz. Hər şeyə özünüz nəzarət edin.

Başqa hansı problemlər vardır? Yoxdur.

Mən işlərinizdə sizə uğurlar arzulayıram. Ümidvaram ki, bu gün deyilən sözlərdən də siz özünüz üçün nəticə çıxaracaqsınız və oktyabrın 11-də seçkilərin demokratik keçirilməsində öz xidmətlərinizi göstərəcəksiniz. Sağ olun. [437]

## AZƏRBAYCAN MİLLİ BANKININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*6 oktyabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar, dostlar!

Bu gün Azərbaycanın həyatında yeni bir əlamətdar hadisə baş verir. Biz Azərbaycan Milli Bankının inşa edilmiş, başa çatdırılmış yeni binasının açılışına toplaşmışıq. Mən bu gün burada natiqləri dinləyərkən keçmişə nəzər saldım və deyirəm ki, həyatımda indiyə qədər ikinci dəfədir bank binasının açılışında iştirak edirəm. Bizim keçmiş həyatımızda, yəni keçmişdə yaşadığımız dövrdə o dövlətin iqtisadi, sosial, siyasi sistemində bank o qədər əhəmiyyətli bir təşkilat hesab olunmurdu, baxmayaraq ki, bütün maliyyənin, bütün iqtisadiyyatın son göstəriciləri bankdan gəlib keçirdi. Bu təbiidir, çünki keçmiş sovet sosialist iqtisadi quruluşu tamam başqa prinsiplər əsasında idi.

Biz fabriklər, zavodlar, xəstəxanalar, məktəblər, saraylar, mədəniyyət ocaqları, kitabxanalar, yaşayış binaları tikib yaradırdıq. Onları indi Azərbaycanda hamı görür. onlardan bəzilərinin açılışı böyük bir təntənəyə çevrilirdi, bu mərasimlərdə çox adamlar iştirak edirdi. O cümlədən mən də belə mərasimlərin iştirakçısı olmuşam.

Ancaq sovet hakimiyyəti dövründə Azərbaycanda yalnız bir bank binası tikilmişdi. Ona o vaxt İnşaat Bankı deyirdilər. İndi o, Sənaye İnvestisiya Bankı adlanır. Onun binası bu sağdakı binadır. Xatirimdədir, o vaxt onu İnşaat Bankı öz [438-439] vəsaiti hesabına tikdi. Amma Azərbaycanda İnşaat Bankı da tam müstəqil deyildi – SSRİ İnşaat Bankı vardı, Azərbaycan İnşaat Bankı da onun bir hissəsi idi. İndi bu binada müstəqil Azərbaycanın Sənaye İnvestisiya Bankı yerləşir.

Şəhərin mərkəzində yerləşən və yanından bəlkə də çox keçdiyimiz Azərbaycanın Dövlət Bankı bizim hamımızın gənclik vaxtında, 1931-ci ildə tikilmiş bir binadır. Doğrudur, bəlkə də 1931-ci ildə o bina görkəmli görünürdü və şəhərin mərkəzində olduğu üçün diqqəti cəlb edirdi. Mənim xatirimdədir ki, biz tələbə olarkən, gənclik illərimizdə bir-birimizə, hətta qızlarla oğlanlar bir-birinə bəzən görüş təyin edəndə bankın binası qarşısında görüşürdülər. Görürəm ki, yaxşı dəqiqələri çoxlarının xatirinə saldım. Çünki burada olanların əksəriyyəti – yəqin ki, həm qadınlar, həm də kişilər, - o vaxtlar oğlan və qız olarkən ilk görüşlərini o bankın qarşısına təyin ediblər. Bunu mən çox dəqiqliyi ilə deyirəm, ona görə ki, mənim özüm də orada görüşlər keçirmişəm.

Bəli, on illər keçibdir, Azərbaycanın Milli Bankı həmin köhnə binadadır. İndi ondan necə istifadə ediləcəyini mən bilmirəm. Amma mənim bugünkü sözlərimi siz alqışladığınıza görə hesab edirəm ki, o binanın üzərinə bir şərəf lövhəsi yapışdırıb yazmaq lazımdır ki, yüzlərlə, minlərlə, on minlərlə adam öz gələcək xoşbəxtliyini təyin etmək üçün ilk görüşlərini burada keçiribdir.

Ancaq indi biz müstəqil dövlət olaraq sərbəst iqtisadiyyat yolu ilə gedirik, həyatımızın bütün sahələrini demokratikləşdiririk və iqtisadiyyatda da demokratikləşmə sərbəst iqtisadiyyat deməkdir, bazar iqtisadiyyatı deməkdir və bu yola keçmək üçün, bu səviyyəyə çatmaq üçün iqtisadi-maliyyə islahatlarının aparılması deməkdir. Biz son illərdə bu işlərlə çox ciddi məşğul oluruq və hesab edirəm ki, xeyli nailiyyətlər əldə etmişik. Bu işlərin mərkəzində də maliyyə-bank sistemi durur. Hər bir müstəqil dövlət, dünya iqtisadiyyatı ilə sıx [439-440] inteqrasiyada olan müstəqil dövlət, sərbəst iqtisadiyyat yolu ilə, bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət mütləq müasir tələblərə uyğun, dünya standartlarına uyğun maliyyə-kredit, maliyyə-bank sistemi təsis etməlidir. Biz bunu təsis etmişik və bu gün də inkişaf etdiririk. Ona görə də Azərbaycanda Milli Bankın həm funksiyası, həm də fəaliyyət dairəsi xeyli artır. Milli Bank Azərbaycanda bütün bank sisteminin mərkəzini təşkil edir və Azərbaycanda sərbəst, özəl bank sisteminin inkişaf etməsinə imkanlar yaratmalı, bu sahədə fəaliyyət göstərməlidir. Ona görə də Azərbaycan Milli Bankı, şübhəsiz, keçmişdəki kimi işləyə bilməz və keçmişdə olan binada da fəaliyyət göstərə bilməz. Bu zərurətlərdən irəli gələn qərarda Milli Bankın yeni binasının inşa edilməsi, yaranmasıdır. Artıq belə bir bina Bankın mərkəzində yaranıbdır və biz də sizinlə birlikdə bu hadisəni çox mühüm hadisə hesab edərək buraya toplaşmışıq, bunu bizim həyatımızda və xüsusən iqtisadi həyatımızda böyük hadisə hesab edərək onun açılışını belə təntənəli şəraitdə keçiririk.

Mən bu münasibətlə Azərbaycan vətəndaşlarını, Azərbaycandakı müstəqil bankları və bank işçilərini, maliyyə işçilərinin hamısını təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan Milli Bankı yeni, müasir binada Azərbaycanın gələcək iqtisadi inkişafı üçün uğurlu işlər görəcəkdir.

Azərbaycanda iqtisadiyyat, maliyyə, bank sahəsində görülən işlər, aparılan islahatlar, əvvəla, ardıcıl xarakter daşıyır, mütəmadi xarakter daşıyır və dünya təcrübəsinə əsaslanır, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin maliyyə sistemlərinin, banklarının təcrübəsinə əsaslanır. Bu gün mən bəyan edirəm ki, Azərbaycan bu yolla bundan sonra da gedəcək, Azərbaycanda maliyyə-bank sistemi ilbəil inkişaf edəcək və bunların hamısı Azərbaycanın iqtisadiyyatı ilə ahəngdar surətdə inkişaf edəcəkdir. Bunu

deməyə mənim [440-441] əsasım var. Çünki son illərdə aparılan islahatlar – iqtisadi islahatlar, bank-maliyyə sistemində aparılan islahatlar artıq öz nəticələrini verir və Azərbaycanda həm iqtisadiyyatın inkişafını, həm sabit valyuta bazarını təmin edir, həm də insanların rifah halını yaxşılaşdırır.

Mən bir də qeyd etmək istəyirəm ki, bizim keçmişdə yaşadığımız sistemdə bankı o qədər tanımırdıq, çünki bankla əməliyyatlar aparan ancaq müəssisələrin, təşkilatların mühasibləri idi. Onlar bankdan pul alır, maaşları verirdilər. Keçmiş sistemdə qalan bütün maliyyə əməliyyatları isə öz-özünə, o sistemin qanunları ilə gedirdi, kağız üzərində yazılırdı – buradan bu qədər vəsait buraya keçdi, bu qədər vəsait də oradan buraya keçdi. Yəni pul kütləsindən ancaq insanların öz şəxsi istifadəsi üçün istifadə olunurdu. Amma iqtisadiyyatın inkişafı üçün, iqtisadiyyatın fəaliyyəti üçün onlardan istifadə edilmirdi.

İndi isə bank hər bir vətəndaşın, hər bir insanın həyatında mühüm rol oynayır. İnsanlar banklardan, özəl banklardan istifadə edirlər. Bu, həm onların həyat şəraitinin, maliyyə şəraitinin, iqtisadi şəraitinin yaxşılaşmasını, həm də insanların vəsaitinin etibarlı saxlanmasını təmin edir.

İslahatlar nəticəsində Azərbaycanda artıq özəl bank sektoru yaranıbdır. Bu da bir neçə mərhələdən keçibdir. Məsələn, burada deyildi, - bir neçə il bundan öncə Azərbaycanda 210 özəl bank vardı. Ancaq indi 79 özəl bank var. Lakin bu 79 özəl bankın maliyyə kapitalı o 210 bankın olduğu dövrə nisbətən 4 dəfə artıbdır. Bu, çox yaxşı göstəricidir və tamamilə təbii prosesdir, amma eyni zamanda, özbaşına gedən proses deyildir. Bu proses Azərbaycanda mikroiqtisadiyyatın təmin olunmasının, maliyyə-bank sistemində islahatların və ümumiyyətlə, iqtisadi islahatların həyata keçirilməsinin nəticəsidir. Güman edirəm ki, bu proses davam edəcək, Azərbaycanda özəl bank strukturları kapital nöqteyi-nəzərindən, eləcə də bank fəaliyyəti, bank mədəniyyəti nöqteyi-nəzərindən daha da inkişaf [441-442] edəcəkdir. Ola bilər, bu bankların sayı yenə də azalsın, çünki rəqabət gedir – güclü, bacarıqlı banklar şübhəsiz ki, o kiçik, yaxşı fəaliyyət göstərməyən bankları sıradan çıxaracaq və beləliklə, Azərbaycan get-gedə dünyanın inkişaf etmiş ölkələrinin bank sisteminin standartlarına gəlib çatacaqdır.

Ancaq bir də qeyd edirəm ki, bunlar Azərbaycan dövlətinin, hökumətinin apardığı iqtisadi siyasətin nəticəsidir. Bunlar göydən düşməyibdir. Bütün insanların həyatının, iqtisadiyyatın əsasını təşkil edən maliyyə sistemidir, pul sistemidir, valyuta sistemidir. Şübhəsiz ki, burada da birinci növbədə inflyasiyanın azca belə olması həmişə həm ölkənin iqtisadiyyatına, həm də insanların yaşayış səviyyəsinə təsir edir. Azərbaycan bu yollardan keçib gəlibdir. Azərbaycan öz milli valyutasını – manatını 1992-ci ildə dövriyyəyə buraxıbdır. Burada bizim bank rəhbərləri məlumat verdilər ki, 1992-ci ildə manat dövriyyəyə buraxılanda 1 dollar 15 manat, 1 manat 10 rus rublu olubdur. Belə bir vəziyyət var idi. Amma sonra sürətlə gedən inflyasiya Azərbaycanda 1993-94-cü illərdə 1 dolları 4.400 manata qədər qaldırdı, özü də qısa bir zamanda, bir il yarımın içərisində. Fikir verin, 1 dollar 15 manat idisə, qısa bir zamanda 1 dollar gəlib 4.400 manat oldu. Görün, bu, insanların həyat tərzinə, intisadiyyata nə qədər mənfi təsir göstərdi. Həm də bu proses sürətlə getdi və Azərbaycanın maliyyə sistemi çox bərbad vəziyyətə düşdü. Bunun nəticəsində 1994-cü ildə Azərbaycanda inflyasiya 1.800 faiz idi.

O vaxt bəzən düşünürdün ki, bu inflyasiyanın cəngindən Azərbaycan heç vaxt çıxa bilməyəcəkdir. Çünki vəziyyət çox ağır idi. Bəziləri hesab edirdilər ki, ümumiyyətlə, ümidsizlikdir. Bəziləri də o vaxt bizi köhnə sistemdə qalmağa cəlb etmək istəyirdilər, iqtisadiyyatda liberallaşmanın, bazar iqtisadiyyatının həyata keçirilməsinə, xarici ticarətin liberallaşmasına mane olurdular. Beləliklə də Azərbaycanda özəl [442-443] sektorun yaranmasına, biznesmenlərin, iş adamlarının iş görməsinə cürbəcür maneçiliklər törədilirdi.

1994-cü ilin iyul ayında mən Azərbaycanda maliyyə sisteminin tənzimlənməsi və maliyyə sabitliyinin təmin olunması haqqında prezident fərmanı verdim. Bu fərmanın və qəbul etdiyimiz başqa qərarların yerinə yetirilməsi nəticəsində qısa bir zamanda biz inflyasiyanı, bu gün cəsarətlə deyə bilərəm, boğduq, özü də elə boğduq ki, artıq neçə ildir inflyasiya Azərbaycanda özünü göstərə bilmir. Xatirimdədir, 1995-ci ildə inflyasiya 83 faiz idi, 1996-cı ildə gərək ki, 8 faiz idi, 1997-ci ildə, səhv etmirəmsə, 0,4 faiz olmuşdur. İndi isə Azərbaycanda inflyasiya yoxdur.

Bilirsiniz, yenə də deyirəm, o terminlər, o anlayışlar, bu mövzular bəlkə də bizim geniş kütlə üçün hələ çox aydın bir şey deyildir. Ancaq güman edirəm ki, buraya toplaşanların əksəriyyəti maliyyə işçiləri, bank işçiləridir, sahibkarlardır, iş adamlarıdır. Onlar inflyasiyanın qısa bir müddətdə 1.800 faizdən sıfıra endirilməsinin nə demək olduğunu başa düşürlər. Biz manatın dəyərini gündən-günə artırırıq və son iki ildə manatın dəyəri dollara nisbətən qalxıb və möhkəmlənibdir. Hətta son aylarda Şərqi Asiyada, Uzaq Şərqdə baş verən böyük maliyyə hadisələri, inflyasiya və yenə son aylarda Rusiyada baş vermiş maliyyə böhranı, iqtisadi böhran Azərbaycana zərbə vura bilmədi.

Doğrudur, burada, Azərbaycanda indi özlərini müxalifət düşərgəsində aparan bəzi qüvvələr, qruplar, partiyalar, şəxslər o vaxt həvəslə əllərini-əllərinə vurub deyirdilər: «Aha, Rusiya dağıldı, Rusiyada rublun qiyməti düşdü, Rusiyada inflyasiya oldu, bu gün – sabah Azərbaycanda da olacaqdır». Mən o adamlara deyirəm ki, bədbəxt adamlarsınız. Əgər siz bu ölkədə yaşayırsınızsa, əgər siz bu millətin oğlusunuzsa, əgər siz Azərbaycanın vətəndaşısınızsa, belə şeylər gəlib Azərbaycana da sirayət etsəydi, sizin maliyyə vəziyyətiniz yaxşımı [443-444] olardı? Bəlkə də onlar yaxşı şəraitdə yaşayırlar. Çünki onlara qanunsuz pullar o qədər gəlir ki, onlar üçün fərqi yoxdur. Amma bu xalqı düşünmək lazımdır, vətəndaşları, insanları

düşünmək lazımdır. Yox, bizim hörmətli opponentlərimiz, bilin, siz çox çalışdınız ki, Rusiyada olan hadisələr Azərbaycana da keçsin. Amma biz bunun qarşısını aldıq. Bu da avtomatik olmadı. Azərbaycanda aparılan ağıllı iqtisadi siyasət, maliyyə siyasəti və dünyada gedən prosesləri bizim ardıcıl izləməyimiz və vaxtında lazımi tədbirlər görməyimiz, şübhəsiz ki, bizi belə hadisələrdən xilas edir və biz onların qarşısını ala bilirik.

Bəli, mən çox narahatam ki, Rusiyada belə hadisələr baş verir. Bu hadisələr Ukraynaya, bizim Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa ölkələrə də keçib. Ona görə narahatam ki, biz bu ölkələrlə, o cümlədən Rusiya ilə iqtisadi əlaqələr qururuq. Normal iqtisadi əlaqələr qurmaq üçün istəyirik ki, orada iqtisadi sabitlik, maliyyə sabitliyi olsun, inflyasiya olmasın, yaxud aşağı səviyyədə olsun. Biz həqiqi tərəfdaş kimi həqiqi və sağlam əməkdaşlıq edən ölkə kimi bunu arzulayırıq. Ancaq bizdən bir şey asılı deyildir. Görünür, onlar buraxdıqları səhvlərin indi ağır nəticələri ilə rastlaşıblar, bir ilin içərisində üç dəfə hökumət dəyişdiriblər. Amma bizdə hökumətin dəyişdirilməsinə ehtiyac yoxdur. Çünki hökumət işləri normal aparır, hökumət düzgün iqtisadi siyasət aparır və bunların nəticəsində də Azərbaycanda da mikroiqtisadi sabitlik təmin olunubdur, Azərbaycanda pul dövriyyəsi normal səviyyədədir, Azərbaycanda inflyasiya yoxdur, Azərbaycanın milli valyutasının – manatın dəyəri möhkəmdir. Mən bu nailiyyətlər münasibətilə həm maliyyə işçilərini, həm bank işçilərini, həm də bütün iqtisadçıları təbrik edirəm.

Son illər Azərbaycan böyük problemlər içində yaşayıbdır. Bunların hamısı iqtisadiyyata böyük zərbələr vurubdur. Bəziləri götürüb müqayisə edirlər ki, 1990-cı ildə iqtisadiy[444-445]yatın, yaxud sənayenin səviyyəsi belə idi, indi aşağı düşübdür. Əvvəla, mən o adamlara məsləhət görürəm ki, fikirləşsinlər – 1990-cı ildə Azərbaycanın həmin o yüksək iqtisadi səviyyəsini yaradanlar kim və dağıdanlar kimlər olubdur. Yaradanlar biz olmuşuq! Dağıdanlar isə onlar olubdur. Dağıdanlar sonra gəlib, bizim o vaxtlar əldə etdiyimiz yüksək rəqəmlərdən istifadə edib bizə qarşı ittiham irəli sürür, bizi tənqid edir, bizim haqqımızda ədalətsiz sözlər deyirlər. Bilirsiniz, siz o vaxt da, indi də bir iş görməmisiniz.

Bəli, mən bu gün iftixar hissi ilə deyirəm və o gün televiziya ilə də deyildi ki, 1992-ci ildə sovet hökumətindən o qədər əmlak, var-dövlət qaldığına görə vəziyyət yaxşı idi. Ondan sonra dağıtdılar. O var-dövləti, o əmlakı, o iqtisadiyyatı yaradan axı siz olmamısınız, onu da biz yaratmışıq!

İftixar hissi ilə deyirəm ki, 70-80-ci illərdə, xüsusən 80-ci illərin birinci yarısında Azərbaycanda iqtisadiyyat yüksək sürətlə inkişaf edibdir, Azərbaycanda böyük iqtisadi potensial, sənaye potensialı, kənd təsərrüfatı potensialı, infrastruktur, nəqliyyat potensialı yaranıbdır və bunların nəticəsində insanların həyat tərzi yaxşılaşıbdır. Ona görə də bizim şəhərlər o illərdə tikilib böyüyübdür. Bakı inkişaf edibdir, Sumqayıt, Gəncə inkişaf edibdir, bütün kəndlər, qəsəbələr inkişaf edibdir. Ancaq Sovetlər İttifaqı dağıldığına görə və o dağılma vaxtı Azərbaycanın rəhbərliyi səhvlər buraxdığına görə və nəhayət, Azərbaycanda heç bir təcrübəsi, səriştəsi olmayan, iş bilməyən adamlar hakimiyyətə gəldiyinə görə həmin iqtisadi potensialın çox hissəsi dağıdılıbdır.

Ancaq biz iqtisadiyyatı o sistemlə apara bilmərik və aparmayacağıq. Mən o sistemdə o iqtisadiyyatı nəinki Azərbaycanda, həm də Sovetlər İttifaqı miqyasında inkişaf etdirən adamlardan biri olmuşam. Mən Sovetlər İttifaqı hökumətinin başında duran adamlardan olmuşam və beş il Kremldə o ölkənin iqtisadiyyatı ilə məşğul olmuşam. Mən həmin iqtisa[445-446]diyyatın o vaxtlar verdiyi müsbət nəticələri də, onu da bilirəm ki, artıq o iqtisadiyyat tarixdə qalmışdır. Biz yeni iqtisadiyyat qururuq və o iqtisadiyyat sistemindən, o maliyyə sistemindən yeni iqtisadi sistemə, yeni maliyyə sisteminə keçmək üçün ağıllı hərəkətlər etmək lazımdır.

Təəssüflər olsun ki, 1991-ci, 1992-ci və 1993-cü illərdə belə ağıllı hərəkətlər edilməyibdir, ağıllı qərarlar qəbul olunmayıbdır, özbaşınalıq olubdur və bunun nəticəsində də 1994-cü ildə biz belə ağır bir vəziyyətlə qarşılaşdıq. Ona görə də o illərdə Azərbaycanda iqtisadiyyat ilbəil tənəzzülə uğrayırdı, sənaye, kənd təsərrüfatı istehsalı, ümumi daxili məhsul istehsalı ildə 20-25 faiz aşağı düşürdü. Bu, əlbəttə ki, çox acınacaqlı vəziyyət idi. Mən xatırladıram, 70-80-ci illərdə Azərbaycanda sənaye istehsalı ildə 8-9 faiz artır, milli gəlir ildə 7-8 faiz inkişaf edirdi, adambaşına düşən milli gəlir ilbəil yüksəlirdi. Bəli, o sistemin imkanlarından biz Azərbaycanda səmərəli istifadə edə bilirdik və inkişafı da təmin edirdik.

Ancaq o sistem arxada qaldı, yeni sistemi isə yaratmadılar və bu arada, şübhəsiz ki, iqtisadi tənəzzül ilbəil dərinləşdi. Biz bu tənəzzülün qarşısını aldıq. Bəli, 1991-ci ildə də, 1992-ci ildə də, 1993-cü ildə də, 1994-cü ildə də, hətta 1995-ci ildə də biz tənəzzüldə idik – həm sənaye istehsalı, həm kənd təsərrüfatı istehsalı, həm də ümumi daxili məhsul istehsalı tənəzzüldə idi. Amma 1995-ci ildə biz tənəzzülü dayandırdıq. Ümumi daxili məhsul 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə 5,8 faiz artdı, 1998-ci ilin doqquz ayında artım 9 faizdir.

Əziz dostlar, əziz həmvətənlər, bilin ki, bunlar asan məsələ deyildir. Bəlkə bu faizlər Azərbaycan vətəndaşlarının bir çox hissəsində hiss olunmur, onlar bunu öz həyatında, necə deyərlər, öz gündəlik tələbatını ödəmək üçün hiss etmirlər. Amma Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək üçün bunlar çox ciddi addımlardır. Beləliklə də biz irəliləyirik, dövlət quruculuğu prosesi ilə yanaşı, iqtisadi quruculuq [446-447] fəaliyyəti də aparırıq. Biz makroiqtisadi sabitliyə nail olmuşuq, Azərbaycanda iqtisadi-ictimai sabitliyi təmin etmişik, Azərbaycanda olmuş özbaşınalığı, hərc-mərcliyi, qanunsuzluğu, dərəbəyliyi aradan

qaldırdıq, ictimai-siyasi vəziyyəti sabitləşdirdik və Azərbaycanda ictimai-siyasi vəziyyətin sabitləşməsi, Azərbaycan iqtisadiyyatının inkişaf etməsi Azərbaycana xarici sərmayənin gəlməsi üçün əsas şərtdir.

Ancaq bununla yanaşı və bunun vasitəsilə biz Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində makroiqtisadi sabitliyi təmin etmişik və iqtisadi quruculuq prosesini həyata keçiririk. Bunların hamısı həm iqtisadiyyatda, həm maliyyə sistemində, həm də bank sistemində aparılan islahatların nəticəsində əldə olunmuşdur. Baxın, Azərbaycanda 1994-cü ildə cəmi 2 milyon dollar həcmində valyuta ehtiyatımız vardı. Bu, dəhşətli bir vəziyyət idi. İndi isə bizim valyuta ehtiyatımız yarım milyard dollardan artıqdır və o da dünyanın etibarlı banklarındadır.

Biz 1994-cü ilin sentyabr ayında dünyanın böyük neft şirkətləri ilə ilk müqavilə imzaladıq. Şübhəsiz ki, bu müqaviləni imzalayarkən Azərbaycana bonuslar gəlməli idi. Amma aydın oldu ki, biz müqaviləni imzalamazdan əvvəl, 1992-ci ildə hakimiyyətdə olan Xalq Cəbhəsi müqaviləni hələ hazırlamadan, hələ imzalamadan, hələ ortada bir şey olmadan xarici neft şirkətlərindən 80 milyon dollar bonus alıblar və onu da tamamilə dağıtmışlar, bir özəl banka vermişlər. Dağıdılan dağıdılıb, onun 2 milyonu həmin özəl bankdan indiyədək qayıda bilmir. O özəl bankın müdiri də qaçıb gedibdir. Biz bax, belə bir vəziyyətlə rastlaşdıq.

Ancaq bu gün deyildi, - 1994-cü ildə imzalanan müqavilələrdən gələn bonusların hamısı Azərbaycanın valyuta ehtiyatlarındadır. Onların hamısı saxlanılır və onlardan Azərbaycanın bu günü üçün, ən çox da gələcəyi üçün istifadə ediləcəkdir. Bunlar nəyə görə mümkündür? Çünki biz öz iqtisadiyyatımızda, öz maliyyəmizdə elə dəyişikliklər etmişik ki, bizə gələn [447-448] bonuslar ehtiyata gedibdir, əldə etdiyimiz qazancların bir hissəsi ehtiyata gedibdir, bizə verilən güzəştli kreditlərin bir hissəsi ehtiyata gedibdir. Məhz buna görə də qısa bir müddətdə, cəmi üç il ərzində biz Azərbaycanın valyuta ehtiyatını 2 milyon dollardan yarım milyard dollara çatdıra bilmişik.

Azərbaycanda pul dövriyyəsi də çox maraqlıdır. Onun incəlikləri ancaq maliyyəçilərə məlumdur. Bunu adi vətəndaşlar bəlkə də bilmirlər. Məsələn, 1994-cü ildə dövriyyəyə buraxılan manatın 60 faizi geri qayıtmırdı. Buna görə də emissiya vardı və bu, məcburi idi. Amma indi mənə verilən məlumata görə, dövriyyəyə buraxılan manatın cəmi 5-6 faizi geri qayıtmır. Bu, tamamilə təbii haldır. Görürsünüz, biz maliyyə, bank sistemində nə qədər dəyişikliklər edə bilmişik. Bütün bunlar bir tərəfdən, digər tərəfdən isə dünya iqtisadiyyatı ilə bizim sıx əlaqəmiz, dünya iqtisadiyyatı ilə, dünyanın aparıcı şirkətləri ilə əlaqələrimiz Azərbaycana kapital qoyuluşunu artırıbdır.

Biz 1994-cü ildə ilk müqaviləni imzaladıq. İndi artıq 14 müqavilə imzalanıbdır və bunlar həyata keçirilir. Onların həyata keçirilməsi ilə əlaqədar və bütün başqa şirkətlərin Azərbaycana kapital qoyuluşu ilə əlaqədar ölkəmizə artıq bu il 1 milyard 600 milyon dollar həcmində sərmayə qoyulub, xarici investisiya gəlibdir. Bu investisiyanın bir hissəsi şübhəsiz ki, Azərbaycanda gedən quruculuq işlərinə sərf edilibdir. Bir müddət bundan öncə Xəzər dənizinin dərinliklərində olan neft-qaz yataqlarına quyular qazmaq üçün biz keçmişdə istifadə etdiyimiz «Şelf-5» qazma qurğusunun bərpasını qurtarıb onu istifadəyə verdik. Biz ona «İstiqlal» adı verdik. O qurğunun bərpasına, modernləşdirilməsinə 200 milyon dollar xərclənibdir. 200 milyon dollar! Bu qurğu artıq Azərbaycanın əmlakıdır. Bu, Azərbaycanın əsaslı fondudur.

Mən bu günlər rayonlarda oluram və gecə gec qayıdıram. Cənub tərəfdən şəhərə girərkən iki gözəl mənzərəni görürəm. [448-449] Məsləhət görürəm, imkanı olanlar gedib ona baxsınlar. İndi hətta üçünü görürəm. Biri Şıx tərəfdən gələndə Bibiheybət məscididir. Onu biz qurub-yaratmışıq. İkincisi isə həmin «İstiqlal» qazma qurğusudur. O, elə təsəvvür yaradır ki, sanki böyük bir sarayın qülləsidir. Budur, biz Azərbaycan üçün 200 milyon dollar məbləğində yeni bir sərvət əldə etmişik. Onun durduğu yerin yaxınlığındakı gəmi təmiri zavodunun əsaslı təmirinə 12 milyon dollar qoyulubdur. İndi mən vaxt alıb qalan şeyləri demək istəmirəm. Sadəcə olaraq onu göstərmək istəyirəm ki, gələn sərmayədən necə istifadə edilir.

Hazırda Azərbaycanda 1300 xarici şirkət fəaliyyət göstərir, 20 mindən artıq Azərbaycan vətəndaşı bu xarici şirkətlərdə işləyir, yüksək məvacib alır. Bu, Azərbaycanda iqtisadiyyatın sərbəstləşdirilməsi, qapılarımızın xarici ölkələr üçün açılması və beləliklə də Azərbaycan iqtisadiyyatının inkişaf etməsi deməkdir. Bunların hamısı apardığımız iqtisadi siyasətin konkret nəticələridir, konkret bəhrələridir.

Beləliklə, biz Azərbaycanda bazar iqtisadiyyatını, sərbəst iqtisadiyyatı həyata keçiririk. Sərbəst iqtisadiyyatın inkişaf etməsi üçün bütün qanunlar, bütün fərmanlar verilib və sizi əmin edirəm ki, bundan sonra da veriləcəkdir. Azərbaycanın iqtisadi mənzərəsinin əsas hissəsi bir də ondan ibarətdir ki, Azərbaycanda sahibkarlar təbəqəsi yaranıbdır, Azərbaycanın sahibkarlar dəstəsi, iş adamları yaranıbdır. Onlar sərbəst iş görürlər. Onlar sərmayə qoyurlar. Onlar yeni-yeni iş yerləri açırlar. Onlar sərbəst ticarət aparırlar.

Mən bu gün fürsətdən istifadə edib bütün Azərbaycan sahibkarlarına, iş adamlarına və xaricdən gəlib Azərbaycanda iş görən adamlara bəyan edirəm ki, Azərbaycanda sahibkarlığın daha yaxşı fəaliyyəti üçün bizdə bundan sonra da imkanlar yaranacaqdır. Mən Azərbaycan prezidenti kimi ölkəmizi bazar iqtisadiyyatı yolu ilə apararaq, eyni zamanda sahibkarlığın inkişaf etməsini, özəl sektorun yaranmasını və [449-450] inkişaf etməsini əsas şərtlərdən biri hesab edirəm və özəl sektordakı bütün sahibkarlara, iş

adamlarına, Azərbaycana xidmət etmək istəyən xarici və daxili şirkətlərin hamısına imkan yaradacağam və onlara bu işlərdə uğurlar arzulayıram.

Məlumdur ki, sahibkarlığın inkişaf etdirilməsi üçün etibarlı maliyyə sistemi, etibarlı banklar və xüsusən özəl banklar olmalıdır. Artıq bu barədə deyildi. Güman edirəm ki, bu işlər bundan sonra daha da inkişaf edəcəkdir. Ancaq mən bütün iş adamlarına, Azərbaycanda cürbəcür sahələrdə maliyyə vəsaitinə malik olan bütün adamlara məsləhət verirəm ki, heç bir şeydən çəkinməsinlər, heç bir şeydən qorxmasınlar. İndi Azərbaycanda banklar etibarlıdır və kommersiya bankları, özəl banklar artıb, öz yerlərini möhkəm tutublar. Azərbaycan Beynəlxalq Bankı yaxşı fəaliyyət göstərir və dünya bankları tərəfindən tanınıbdır. Azərbaycan Milli Bankı da öz işindəki bəzi nöqsanları aradan qaldırır və qaldıracaqdır, yaxşı fəaliyyət göstərəcəkdir. Ona görə də siz Azərbaycanın banklarından istifadə edin, valyutanızı, vəsaitinizi aparıb xarici banklarda saxlamayın. Mən əvvəlcədən deyirəm, heç kəs qorxmasın, heç kəs çəkinməsin. Kim Azərbaycanın banklarından, özəl banklarından, istədikləri banklardan istifadə edəcəksə, onların vəsaitinin, valyutasının, pullarının toxunulmazlığı təmin olunacaqdır.

Mən bu gün burada Azərbaycanın hüquq-mühafizə orqanlarına deyirəm, bunu bir neçə dəfə də demişəm, amma indi sizin yanınızda deyirəm: Özəl sektorun inkişafına mane olmayın, cürbəcür lazımsız yoxlamaları aradan götürün, insanlara sərbəstlik verin. Qoy insanlar sərbəst yaşasınlar, sərbəst inkişaf etsinlər. Azərbaycanda sahibkarlıq inkişaf edəndən sonra hər şey öz yerini tutacaqdır. Mən bu sözləri ona görə deyirəm ki, mənə çox siqnallar gəlir ki, Azərbaycanda hüquq-mühafizə orqanları sahibkarlara bəzən mane olurlar, onları incidirlər, bəziləri onlardan rüşvət alırlar və rüşvət aldıqlarına [450-451] görə bir şey etmirlər. Beləliklə, həm xaricdən gələn şirkət nümayəndələri, həm də Azərbaycanın daxilində olanlar bu cür çətinliklərlə rastlaşaraq öz fəaliyyətlərini lazımi səviyyədə apara bilmirlər. Mən bunu bütün Azərbaycana bəyan edirəm. Mən belə halların hamısını pisləyirəm. Belə hallar kim tərəfindən edilirsə, Azərbaycanın bugünkü dövlət siyasətinin əleyhinə olan hallardır, bizim siyasətimizə zidd olan hallardır. Mən tələb edirəm ki, belə hallar aradan götürülsün, Azərbaycanda sahibkarlığın inkişafı üçün bütün imkanlar yaradılsın.

Keçmişdə belə idi ki, iş adamı bəzən gizli iqtisadiyyatla məşğul olurdu, onun öz çevrəsində bəzən hörməti olurdu, amma ictimaiyyətdə hörməti olmurdu. İndi dünya tamam başqa bir dünyadır, biz də başqa bir ölkədə yaşayırıq, yəni ictimai-siyasi nöqteyi-nəzərdən, iqtisadi nöqteyi-nəzərdən. Sağlam iş görən hər bir iş adamı, sağlam iş görən hər bir özəl təşkilat, özəl şirkət hörmətə malikdir və biz onların fəaliyyət göstərməsi üçün, inkişaf etməsi üçün əlimizdən gələn köməyi etməliyik.

Əziz dostlar, biz son üç ildə ikinci dəfədir ki, müstəqil Azərbaycanda bank binası açırıq. Biz üç il bundan öncə Beynəlxalq Bankın binasının açılışında olduq və Beynəlxalq Bank, dediyim kimi, yaxşı fəaliyyətdədir. İndi də Milli Bankın yeni binasının açılışında iştirak edirik. Güman edirəm ki, özəl banklar da özü üçün müvafiq binalar yaradacaqlar və bunların hamısı isə Azərbaycanın inkişafı deməkdir, Bakının inkişafı və gözəlləşməsi deməkdir.

Mən ancaq bir şeydən narazıyam və bunu deməsəm, şübhəsiz, səmimi olmaram: Bu bankı gərək burada, bu yerdə tikməyəydilər. Mən bunu biləndən sonra çox etiraz etdim. Çünki bu, Bakının memarlıq, şəhər quruculuğu sistemini pozur və hesab edirəm ki, Bakı şəhərinin baş planının pozulması deməkdir. Çünki mən 70-ci illərin əvvəllərindən Azər[451-452]baycana başçılıq edərkən Azərbaycanın hər yeri mənim üçün əziz, doğma idi. Bakını həddindən artıq sevdiyimə görə paytaxtın inkişaf etməsinə və memarlıq nöqteyi-nəzərindən düzgün inkişaf etməsinə həmişə çox ciddi diqqət yetirmişəm. Biz 70-ci illərdə Bakının baş planını bir neçə dəfə müzakirə və təsdiq etmişdik. Zaman keçib, çox şey dəyişib, amma şəhər tikintisi o qədər də dəyişilə bilməz.

Məsələn, xatirimdədir, burada, o öndəki Respublika sarayını biz 1970-ci ildə tikdik. İndi onun önündə, bax, burada hovuzlar var, gül-çiçək var, ağaclar var. O vaxt isə onun önündə birmərtəbəli binalar yerləşirdi və orada da müxtəlif insanlar ya yaşayır, ya da işləyirdilər. Bu, şəhərin bütün mənzərəsini pozurdu. Biz qısa bir müddətdə o binaların hamısını oradan dağıtdıq, orada yaşayan adamlara başqa yerlərdə mənzil verdik və burada Bakının gözəl bir guşəsini yaratdıq.

Burada bizim Musiqi akademiyamız və onun önündə dahi Üzeyir Hacıbəyovun heykəli, orada əzəmətli Respublika sarayı ucalır. O vaxtkı planımız belə idi: Buradakı binalar da götürülür, Sabunçu vağzalının qarşısında olan meydan, Cəfər Cabbarlının heykəlini qoyduğumuz meydan bura ilə birləşir və bura geniş bir istirahət zonasına çevrilir. Bəli, həmin o Respublika sarayının da yaradılmasının təşəbbüskarı mən olmuşam, Sabunçu vağzalının yanındakı meydanın yenidən qurulmasının da, metro stansiyasının yaradılmasının da təşəbbüskarı mən olmuşam, orada Cəfər Cabbarlının heykəlinin qoyulmasının da təşəbbüskarı mən olmuşam və burada belə bir istirahət zonasının yaradılmasının da təşəbbüskarı mən olmuşam. Şübhəsiz ki, şəhərin Baş Memarlıq İdarəsi ilə birlikdə onların təklifləri və mənim bu barədə fikirlərimin hamısı cəm olubdur.

Belə bir halda bu binanın burada ucaldılması bizim o vaxtkı planımızı pozub. İş onda deyil ki, şəhərin baş planını pozub, iş ondadır ki, bu gözəl mənzərə pozulubdur. Doğru[452-453]dur, bu bina da şəhərə gözəllik verir. Ancaq mənim xatirimdədir, o, vaxt məsələni mənimlə razılaşdıranda bu binanın Tbilisi prospektində tikilməsi nəzərdə tutulmuşdu. Sonra isə şəhərin baş memarı səhv buraxıb və bu binanın

burada tikilməsinə razılıq veribdir. Mən bunu sonra bildim və şəhərin baş memarına çox ciddi xəbərdarlıq etdim. Mən hesab edirəm ki, o başqa yaxşı işlərinə baxmayaraq, hətta cəzalandırılmalıdır. Amma olan-olub, keçən-keçib. Mən indi içimdə olan dərdimi sizə deməsəydim özümü rahat hiss etməzdim.

Mənim dediyim bu sözlər bankın binasının əleyhinə olan bir şey deyildir. Mənim dediyim bu sözlər Bakı şəhərinə, onun memarlıq quruluşuna, gözəlliyinə olan hədsiz məhəbbətimdən irəli gəlir. Mən bu məhəbbətlə yaşayıram və axıra qədər də bu məhəbbətlə yaşayacağam.

Ancaq bunlara baxmayaraq, mən Bakıda yeni bir böyük, gözəl binanın yaranmasını əlamətdar hadisə hesab edirəm, bunu Bakının daha da zənginləşməsi kimi qəbul edirəm və bu münasibətlə Bakının sakinlərini, Azərbaycanın bank, maliyyə işçilərini ürəkdən təbrik edirəm.

Hörmətli xanımlar və cənablar, mən sizin hamınıza və sizin simanızda Azərbaycan vətəndaşlarına, Bakının sakinlərinə cansağlığı arzu edirəm. Azərbaycan xalqına sülh, əmin-amanlıq arzu edirəm, sizin hər birinizə işlərinizdə uğurlar arzu edirəm.

İndi isə mənim üzərimə düşən vəzifəni yerinə yetirməyə başlayıram, yəni Azərbaycan Milli Bankının yeni binasının açılışına başlayırıq. [453]

## Q E Y D L Ə R

1. **Rusiya**, R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dovlət. Ərazisi 17075,4 min km², əhalisi 146,3 milyon nəfərdir. Rusiya respublika idarəetmə fopmalı demokratik federativ dövlətdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı iki palatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəharidir. – 5,20,25, 30,31,38,39,40,41,42,48,50,51,52,53,63,104,106,109,117-122,161,162,168,170-175,182,184,214,221,227,245,246,249,250,295,296,314,342,358,359,368, 386,403,405,411,415,416,421,443,444.

2. **Boris Nikolayeviç Pastuxov** – Rusiyanın siyasi və dövlət xadimi. 1977-86-cı illərdə ÜİLKGİ MK –nın birinci katibi, 1986-92-ci illərdə diplomatik işdə, 1992-96-cı illərdə Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini, 1998-99-cu illərdə MDB üzrə nazir. – 5-20, 25,39.

3. **Böyük Britaniya**, B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n- d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km², əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 6,14,31,32,109,129,181-186,276,386.

4. **Yevgeni Maksimoviç Primakov** (d.1929) – Rusiyanın siyasi və dövlət xadimi, diplomat. REA-nın akademiki. 1990-cı illərdə Rusiya Federasiyasının xarici işlər naziri, Nazirlər Sovetinin sədri vəzifələrində çalışmışdır. [454-455] Hazırda Rusiya Federasiyası Sənaye-Ticarət Palatasının prezidentidir. – 7,296.

5. **Toni Bleyer**, **E** n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın görkəmli siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər partiyasının sədri seçilmişdir.1997-ci ildən B.Britaniyanın Baş naziridir. – 14,129,276.

6. **Yuri Şafrannik**, Y u r i K o n s t a n t i n o v i ç (d.1953) – neftçi – mühəndis. 1993-94-cü illərdə Rusiya Federasiyasının yanacaq və energetika naziri olmuşdur. Hazırda «Mosneft» şirkətinin rəhbəridir. – 14.

7. «**AMOKO**» – dünyanın ən böyük neft və qaz istehsalçılarından biri. 1989-cu ildə yaradılmışdır. Müxtəlif ölkələrdə 42.000 işçisi var. «AMOKO» Şimali Amerikada ən böyük təbii qaz istehsalçısıdır. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. – 14,185.

8. **Sovetlər İttifaqı**, S o v e t S o s i a l i s t R e s p u b l i k a l a r ı İ t t i f a q ı (SSRİ) – 1922-1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 18,19,22,23,30,31,38,39,41,45,50,58,61,62, 63,161,162,163,216,223,227,246,266-283,284,305,352,353,360,403,404, 445. [455-456]

9. **Krasnovodsk** – Türkmənistanda, Xəzər dənizinin şimal sahilində liman. 1992-ci ildən Türkmənbaşı adlanır. – 19,37.

10. **Ukrayna**, U k r a y n a R e s p u b l i k a s ı – Cənub-şərqi Avropada dövlət. Ərazisi 603,7 min km², əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 21-66,80,81,82-99,100-112,131,169,172,176-179,220,244,256, 309,421,444.

11. **Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994-2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. – 21,22,27-28,34,43,44,64,66,80-81,82-86,88-90,96,99,100,101,102, 103,104,131,169,178.

12. **MDB** – bax Müstəqil Dövlətlər Birliyi.

13. **Yalta** – Ukraynada kurort-şəhər, Qara dəniz sahilində liman. – 22,82-99,104,107,110.

14. **Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və xarici sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələn[456-457]dirmə Məsləhət Komitəsidir. – 22,23,28,29,43,57,80,89,98-99,101,102,103, 104,105,120,227,275,286,336,337,444.

15. **Asiya-Avropa Transqafqaz nəqliyyat dəhlizi.**– bax Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi.

16. **Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 22,106,275,290.

17. **ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdı.

1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 24,25,33,51,92,119,182,184,240,314,315, 387,411,415.

18. **Atəşkəs** – 1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 24,182.

19. **Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 26,47,67-70,83,447.

20. **Əbülfəz Elçibəy**, Əliyev Əbülfəz Qədirqulu oğlu (1938-2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin [457-458] sədri. 1992-93-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 27,67-70,82-83,84.

21. **1994-cü ilin oktyabrında dövlət çevrilişi cəhdi**. Oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan Prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident Sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini müdafiə etdiklərini bildirirlər. – 27,48,121,302,320,364.

22. **1995-ci ilin martında dövlət çevrilişi cəhdi**. Martın 12-13-də Qazax və Agstafa, martın 16-17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstələrinin bir qrup üzvünün silahlı çıxışı

nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 27,28,121,302,320,364.

23. «**Britiş Petroleum**» (Bi-Pi) – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğuldur. Bi-Pi 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 31,183,185,234.

24. **Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri İlham Əliyevdir. – 32,67.

25. **Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında liman. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. – 37,41,386. [458-459]

26. **Supsa** – Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı - Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. – 37,38,41,386.

27. **TRASEKA** –bax Avropa – Qafqaz –Asiya nəqliyyat dəhlizi.

28. **İpək yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.
Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.
XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 37,38,90,94,97,99,101,105,183,243,244-292,411,412,414.

29. **Avropa Birliyi** (AB) – 1951-57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi - AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB), AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun - vahid valyutaya keçməsi - AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra - AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 37,86,90,92, 97,99,255,261,265,266,267,268,269,270,271,272,275,277,289,290,384,426. [459-460]

30. **Avropa- Qafqaz – Asiya nəqliyyat dəhlizi** (TRASEKA) – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transqafqaz nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 37,52,89,90,92,94, 97,99,105,178,183,244-292.

31. «**Əsrin müqaviləsi**» – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 38,233,236.

32. «**LUKoyl**» – «LUKoyl» neft şirkəti 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 39,234,249.

33. **Krım**, Krım Respublikası – Ukraynanın tərkibində respublika. Sahəsi 27 min $km^2$, əhalisi 2205,6 min nəfərdir. 1783-cü ildə Rusiyanın tərkibinə daxil edilmişdir. 1954-cü ildən isə Ukrayna Respublikası tərkibinə daxil edilmişdir. – 41,46,100,106,107,110.

34. **Ceyhan** – Aralıq dənizi sahilində liman. Uzunluğu 1695 km olacaq Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi nəzərdə tutulmuşdur. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-ci ildə istifadəyə veriləcək. – 41,86,385, 386.

35. «**Şevron**» – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41 000 işçisi var. 1879-cu ildə «Pasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 42. [460-461]

36. **Qorbaçov**, Mixail Sergeyeviç (d.1931) – 1985-91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990-91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin, həmçinin Tbilisi və Vilnusdakı qanlı hadisələrin təşkilatçısı və günahkarıdır. – 44,45,47,62,104,108,109,110,111,353.

37. **1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi**. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 45,49,111.

38. **Şəhidlər xiyabanı**. Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də Sovet Ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl-abidə qoyulmuşdur. – 45.

39. **Yazov** Dmitri Timofeyeviç (d.1924) – Sovet İttifaqı marşalı. 1987-ci ildən SSRİ Müdafiə Naziri olmuşdur. Yazov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçılarından biridir. – 46, 110. [461-462]

40. **Bakatin** Vadim Viktoroviç (d.1937) – 1989-90-cı illərdə SSRİ Daxili İşlər naziri, 1991-92-ci illərdə SSRİ DTK-nin sədri və Rusiya Federasiyası Təhlükəsizlik İdarəsinin direktoru işləmişdir. Bakatin 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçılarından biridir. – 46.

41. **Kunayev Dinmühəmməd**, Dinmühəmməd Əhməd oğlu (d.1912-1993) – Qazaxıstanın partiya və dövlət xadimi. Qazaxıstan EA akademiki. 1964-86-cı illərdə Qazaxıstan KR MK-nın birinci katibi olmuşdur. – 46.

42. **Kolbin** Gennadi Vasilyeviç (d.1927) – 1986-89-cu illərdə Qazaxıstan KP MK-nın birinci katibi. Kolbinin Qazaxıstana birinci katib təyin olunması Qazaxıstan ictimaiyyəti tərəfindən narazılıqla qarşılanmış və milli zəmində ixtisaslara səbəb olmuşdur. – 46.

43. **Aqanbeqyan** Abel Qezeviç (d.1932) – iqtisadçı, REA-nın akademiki. 1988-ci ildə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında «Humanite» qəzetinə provakasion müsahibə vermişdir. – 47.

44. «**Humanite**» – Fransada siyasi, ictimai qəzet. Fransa Kommunist Partiyasının orqanı. 1904-cü ildən nəşr olunur. – 47.

45. **Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993-2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. 1993-cü il mayın 16-dan isə dövlətə rəhbərlik etmiş Süleyman Dəmirəlin siyasi həyatının mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə-Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə [462-463] Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 48, 251-254,279,286,287,290,383.

46. **Brejnev Leonid İliç** (1906-1982) – Rusiyanın partiya və dövlət xadimi. 1964-82-ci illərdə Sov. İKP MK-nın Baş katibi, 1977-ci ildən həmçinin SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. – 49,108,109,110.

**47. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 52,73,172, 177,243,274,331,392.

48. **ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3-9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində, Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti fəal iştirak edib. – 52,177,274,421.

49. **ÇUAM** - Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 53,54. [463-464]

50. «**Literaturnaya qazeta**» – Rusiya Federasiyasında ədəbi, ictimai, siyasi qəzet. 1929-cu ildən Moskvada (fasilələrlə) nəşr edilir. – 65.

51. **Müsavat partiyası** – 1911-ci ildə Bakıda yaranıb. 1920-ci ildə Bakıda fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 67-70,83.

52. **İsa Qəmbər**, İ s a Y u n i s o ğ l u (d.1957) –1990-95-ci illlərdə parlamentin deputatı, 1992-93-cü illərdə parlamentin sədri olub. 1992-ci ildən Müsavat partiyasının başqanıdır. – 67-70,82.

53. **A z ə r b a y c a n L i b e r a l P a r t i y a s ı** – 1995-ci ildən fəaliyyət göstərir. ALP-nin əsas məqsədi liberal iqtisadiyyatı inkişaf etdirmək, hüquqi dövlətçiliyin qurulmasıdır. Partiyanın ali orqanı qurultaydır. – 67-70,83.

54. **Lalə-Şövkət Hacıyeva** (d.1951) – tibb elmləri doktoru, professor. 1993-94-cü illərdə Azərbaycan Respublikasının Dövlət katibi olmuşdur. 1995-ci ildən isə Azərbaycan Liberal Partiyasının sədridir. – 67-70,82.

55. **Azərbaycan Milli İstiqlal Partiyası** – 1991-ci ildə yaranıb. Sağ-mərkəz təmayüllü partiyadır. – 67,68,83.

56. **Rasim Balayev**, R a s i m  Ə h m ə d  o ğ l u (d.1948) – Azərbaycan kino artisti. Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 77-78,160,163,164.

57. **Bill Klinton**, U i l y a m  C e f e r s o n  B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992-2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 79.

58. **Şevardnadze** Eduard Amvrosiyeviç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972-85-ci illərdə Gürcüstan KP MK-[464-465]nın birinci katibi, 1985-90-cı illərdə SSRİ xarici işlər naziri, 1994-2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. – 91-93,104,109,275,404.

59. **İslam Kərimov**, İ s l a m  A b d u q ə n i  o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989-1990-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 94-95,104,105.

60. **Petru Luçinski** (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997-2002-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdir. – 96-97,104,187.

61. **Berezovski**, B o r i s  A b r a m o v i ç (d.1946) – texnika elmləri doktoru, Rusiya EA-nın müxbir üzvü. Rusiyanın ən böyük oliqarxlarından biri. Hazırda mühacirətdə – İngiltərədə yaşayır. – 98-99,104,105.

62. **NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10-11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 102,409,413,418,420.

63. **Rıbkin**, İ v a n  P e t r o v i ç (d.1946) – Rusiyanın dövlət və siyasi xadimi. 1994-95-ci illərdə Rusiya Federasiyası Dövlət Dumasının sədri, 1996-98-ci illərdə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 104. [465-466]

64. **Şaymiyev Mintemir Şaripoviç**(d.1937) – Rusiya dövlət xadimi. 1985-89-cu illərdə Tatarıstan MSSR Ali Sovetinin sədri, 1991-ci ildən Tatarıstan Respublikasının prezidentidir. – 104.

65. **Nazarbayev Nursultan**, N u r s u l t a n  A b i ş  o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989-91-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 104,276.

66. **Kosıgin Aleksey Nikolayeviç** (1904-1980) – Rusiyanın dövlət xadimi. Müxtəlif illərdə nazir, Sov. İKP MK Siyasi Bürosunun üzvü, 1964-80-ci illərdə SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. – 108.

67. **Podqornı Nikolay Viktoroviç** (1903-1983) – Rusiyanın siyasi və dövlət xadimi. 1960-77-ci illərdə Sov. İKP MK Siyasi Bürosunun üzvü, 1965-77-ci illərdə SSRİ Ali Sovetinin sədri olmuşdur. – 108.

68. **Stalin İosif Vissarionoviç** (1879-1953) – 1922-53-cü illərdə SSRİ-nin partiya və dövlət rəhbəri. Sosializm quruculuğuna dair Lenin planını, SSRİ-nin Böyük vətən müharibəsində (1941-45) müdafiə qabiliyyətinin möhkəmləndirilməsində və s. rəhbər kimi iştirak etmişdir. Fəaliyyətində nəzəri və siyasi səhvlərin çoxluğu, kobud qanun pozuntuları, bəzi mənfi xüsusiyyətləri Stalinin şəxsiyyətinə pərəstişin yaranması ilə nəticələndi. 30-cu illərdə baş verən və milyonlarla insanın repressiyasına səbəb olan qanlı cinayətlər məhz onun səhvlərinin nəticəsidir. Təkcə 1937-ci ildə Azərbaycanda «xalq düşməni» kimi 29 min nəfər güllələnmiş və ya sürgün edilmişdi. – 108,109.

69. **Xruşşov Nikita Sergeyeviç** (1894-1971) – Rusiyanın partiya və dövlət xadimi. 1953-1964-cü illərdə Sov.İKP MK-nın birinci katibi, 1958-1964-cü illərdə həmçinin SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. – 108,109.

70. **Livadiya** – Ukraynada (Krımda) Qara dəniz sahilində şəhər tipli qəsəbə. Gözəl iqlim şəraiti olan kurort. Livadiya Krım konfransının (1945) keçirildiyi yerdir. – 109. [466-467]

71. **Ruzvelt Franklin**, **Franklin Delano** (1882-1945) –ABŞ-in görkəmli siyasi və dövlət xadimi. 1932-1944-cü illərdə 4 dəfə ABŞ prezidenti seçilmişdir. Ruzvelt 2-ci dünya müharibəsi zamanı İngiltərə və SSRİ ilə antihitler koalisiyasının təşəbbüsçülərindən biri olmuşdur. – 109.

72. **Görçill**, Uinston Leonard Spenser (1874-1965) – Böyük Britaniyanın görkəmli dövlət, siyasi və hərbi xadimi, 1940-45, 1951-55-ci illərdə Böyük Britaniyanın Baş naziri. Çörçill 2-ci dünya müharibəsi zamanı Britaniya xalqının «mətanət» rəmzi, ABŞ və SSRİ ilə antihitler koalisiyasının təşəbbüsçülərindən biri olmuşdur.

Görçill bir sıra publisistik əsərlərin və memuarların müəllifidir. Nobel mükafatı laureatıdır. – 109.

73. **Lujniki** – Moskvada stadion, dünyada ən iri idman komplekslərindən biri (1955-56). Kompleksin tərkibinə 140 möhtəşəm idman qurğusu daxildir. – 110.

74. **Andropov Yuri Vladimiroviç** (1914-1984) – Rusiyanın partiya və dövlət xadimi. 1967-ci ildən SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, 1982-1984-cü illərdə Sov.İKP MK-nın Baş katibi olmuşdur. – 110,352.

75. **Çernenko Konstantin Ustinoviç** (1911-1985) – Rusiyanın dövlət xadimi. 1978-ci ildən Sov.İKP MK Siyasi Bürosunun üzvü, 1984-cü ildə Sov.İKP MK-nın Baş katibi və SSRİ Ali Sovetinin sədri olmuşdur. – 110.

76. **Saratov vilayəti** – Rusiya Federasiyasında Privoljskidə Federal mahal. Sahəsi 100,2 min km$^2$, əhalisi 2723,4 min nəfərdir. Vilayətdə 18 şəhər, 30 şəhər tipli qəsəbə var. Mərkəzi Saratov şəhəridir. –117-122,173.

77. **Maykl Debeyki** (d.1908) – dünya şöhrətli ürək cərrahı. Hyüstondakı tibb mərkəzində kardioloji xəstəliklərin müalicəsi üzrə professordur. Tibb mərkəzində 1949-cu ildən çalışır. Debeyki tərəfindən hazırlanan müvəqqəti işləməkdən ötrü süni ürəkdən ilk dəfə 1966-cı ildə istifadə edilmişdir. – 123-128. [467-468]

78. **Hyüston** – ABŞ-ın cənubunda şəhər və port. Texas ştatındadır. Əhalisi təqribən 2 milyon nəfərdir. Demək olar ki, dünyanın bütün ölkələri ilə biznes və ticarət əlaqələri saxlayır. Hyüston ABŞ-ın neft biznesinin mərkəzidir. – 123,125,128.

79. **Texas** – ABŞ-ın cənubunda stat. Sahəsi 691,2 min km2, əhalisi 19 milyon nəfərdir. Texas sənaye-aqrar ştatıdır. İnzibati mərkəzi Ostin şəhəridir. – 123,128.

80. **Əli İnsanov**, Əli Binnət oğlu (d. 1946) – tibb elmləri doktoru, professor, MEA-nın akademiki. 1993-2005-ci illərdə Azərbaycan Respublikasının səhiyyə naziri olmuşdur. – 125.

81. «907-**ci maddə**» ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir.Buna baxmayaraq istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasi yaları bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 125,126,127.

82. **ABŞ Konqresi**, Amerika Birləşmiş Ştatları Kon-qresi – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr Palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 126,127.

83. **ATƏT-in Lissabon Zirvə görüşü** – 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial [468-469] mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 127,183,314,387,411.

84. **İlyas Əfəndiyev**, İlyas Məhəmməd oğlu (1914-1996) – görkəmli Azərbaycan yazıçısı, dramaturq. Azərbaycanın xalq yazıçısı. İ.Əfəndiyevin dram əsərlərinin Azərbaycan Milli Dram Teatrının repertuarının zənginləşməsində müstəsna rolu var. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 132,133,190.

85. **Elçin Əfəndiyev**, Elçin İlyas oğlu (1943) – Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq yazıçısı. Yazıçı İlyas Əfəndiyevin oğlu. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr «Vətən» cəmiyyətinin sədri vəzifəsində işləmişdir. 1993-cü ildən Azərbaycan Respublikasının Baş nazirinin müavinidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 132,133.

86. **İsmayıl Şıxlı**, İsmayıl Qəhrəman oğlu (1919-1995) – istedadlı Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın xalq yazıçısı. İsmayıl Şıxlı məşhur «Dəli Kür» romanında psixoloji baxımdan dərin xarakterlər yaratmışdır. İsmayıl Şıxlı Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 134,135.

87. **Şeyxülislam Hacı Allahşükür Paşazadə**, Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 135,406.

88. **İmam Mustafayev**, İmam Daşdəmir oğlu (1910-1997) – siyasi və elmi xadim. Biologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Mustafayev müxtəlif illərdə Azərbaycan [469-470] Respublikası kənd təsərrüfatı naziri, AKP MK katibi, AKP MK-nın 1-ci katibi vəzifələrində işləmişdir. SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 135.

89. **Qəmər Almaszadə**, Qəmər Hacağa qızı (1915-2006) – Azərbaycan balet artisti, baletmeyster və pedaqoq, ilk azərbaycanlı balerina. Azərbaycan və SSRİ xalq artisti. SSRİ Dövlət mükafatı laureatıdır. Azərbaycan balet məktəbinin yaradıcılarından olan Almaszadənin sənətkarlığı klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs yaradıcılığı xüsusiyyətlərinin vəhdətinə əsaslanmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 136,190.

90. **Ələkbər Məmmədov**, Ələkbər Əmir oğlu (1930) – Azərbaycan futbolçusu, əməkdar idman ustası, dörd dəfə SSRİ çempionu olmuşdur. Futbol üzrə Avropanın ilk kubokunu alan SSRİ yığma komandasının (1958) heyətində çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 137.

91. **Anar**, Rzayev Anar Rəsul oğlu (d.1938) – Azərbaycan yazıçısı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. Azərbaycan SSR Ali Sovetinin və SSRİ xalq deputatı olmuşdur. 1995-2005-ci illərdə Milli Məclisin deputatı və Mədəniyyət məsələləri komissiyasının sədri olmuşdur. 1987-ci ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 137.

92. **Fikrət Qoca**, Qocayev Fikrət Göyüş oğlu (d.1935) – Azərbaycanın xalq şairi. «Qobustan» incəsənət toplusunun baş redaktoru və Azərbaycan Yazıçılar Birliyinin birinci katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 137.

93. **Məlik Məhərrəmov**, M ə l i k  M ə l i k  o ğ l u (d.1920) – polkovnik, Sovet İttifaqı Qəhrəmanı. 1943-cü ilin payızında Məhərrəmovun komandir olduğu rota Dneprin keçilməsində xüsusi məharət göstərdiklərinə görə, onun rotasından 18 nəfərə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 139,140. [470-471]

94. **Vasif Adıgözəlov**, V a s i f  Z ü l f ü  o ğ l u (d.1936) – bəstəkar. Üzeyir Hacıbəyov adına BMA-nın professoru. Azərbaycan Bəstəkarlar İdarə heyətinin 1-ci katibi. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. O, bir çox musiqi əsərinin, 1 operanın, 5 musiqili komediyanın, 3 oratoriyanın, vokal-simfonik əsərlərin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 140.

95. **Səyavuş Aslan**, A s l a n o v  S ə y a v u ş  M ə m m ə d a ğ a  o ğ- l u (d.1935) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. Müxtəlif illərdə, Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, hazırda isə Azərbaycan Milli Dram Teatrının artistidir. Səyavuş Aslanın aktyor sənəti üçün zəngin mimika və obrazı ən xırda incəliklərinədək açmaq bacarığı, milli kolorit səciyyəvidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 141.

96. **Sara Aşurbəyli**, S a r a  B a l a b ə y  q ı z ı (1906-2001) – Azərbaycan tarixçisi, tarix elmləri doktoru. Əsasən onun əsərləri orta əsr Azərbaycan şəhərlərinin öyrənilməsinə həsr edilmişdir. Aşurbəyli bir sıra boyakarlıq əsərlərinin də müəllifidir. – 141.

97. **Mark Dalin**, M a r k  A l e k s a n d r o v i ç (1906-1996) – Azərbaycan kimyaçısı, texnoloq, texnika elmləri doktoru, Azərbaycan Respublikası ME-nın akademiki. SSRİ Dövlət mükafatı laureatı. Əsas elmi işləri neft məhsulları əsasında müxtəlif üzvü maddələrin sintezi proseslərinə həsr olunmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 142.

98. **Maral xanım Rəhmanzadə**, M a r a l  Y u s i f  q ı z ı (d.1916) – rəssam, qrafik. Azərbaycanın xalq rəssamı. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 143,144.

99. **Adilə Namazova**, Adilə Əziz qızı (d.1926) – Azərbaycan pediatrı, kardioloq. Tibb elmləri doktoru, professor. Azərbaycan Dövlət Tibb Universitetinin pediatriya kafedrasının müdiri. Tədqiqatı, əsasən, uşaqlarda revmatizm və ürək xəstəliklərinə həsr olunmuşdur. Rusiya [471-472] Tibb EA-nın müxbir üzvü, Azərbaycan MEA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 145.

100. **Qabil**, İ m a m v e r d i y e v  Q a b i l  A l l a h v e r d i  o ğ l u (d.1926) – Azərbaycan şairi. Azərbaycan Respublikasının xalq şairi. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 145.

101. **Mirələsgər Mirqasımov**, M i r ə l ə s g ə r  M i r ə s ə d u l l a  o ğ- l u (1924- 2003) – Azərbaycan heykəltəraşı. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi. Bir çox monimental əsərlərin (M.Ə.Sabirin büstü, C.Cabbarlının, N.Nərimanovun abidələri) müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 146,372.

102. **Mirəsədulla Mirqasımov**, M i r ə s ə d u l l a  M i r ə l ə s g ə r  o ğ l u (1883-1958) – cərrah. Azərbaycan Respublikası MEA-nın ilk prezidenti. Tibb elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. İlk azərbaycanlı alim-cərrah. Azərbaycan Respublikasında ilk doktorluq dissertasiyası müdafiə etmiş həkimlərdən və müasir tibb elminin əsasını qoyanlardan biri. Mirqasımovun elmi fəaliyyəti əsasən, sidikdaşı xəstəliyinin etiologiya, klinika və müalicəsinin öyrənilməsinə, irinli peritonitlərə, urologiya və cərrahlığın digər aktual məsələlərini əhatə edir. Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin və 5 cildlik «Cərrahiyyə» kitabının müəllifidir. – 146,372.

103. **Zeynəb Xanlarova**, Z e y n ə b  Y ə h y a  q ı z ı (d.1936) – müğənni, xanəndə. Azərbaycan və SSRİ xalq artisti. Xanlarovanın pereprtuarında muğam, təsnif, Azərbaycan xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları əsas yer tutur. Xalq musiqisinin, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarının populyarlaşmasında xidməti böyükdür. Azərbaycan Respublikası Milli Məclisinin (2000-ci ildən) üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 146,191.

104. **Nəriman Quliyev**, N ə r i m a n  A ğ a q u l u  o ğ l u (d.1926) – Fizika-riyaziyyat elmləri doktoru. Azərbaycan MEA-nın akademiki. Tədqiqatları nüvə və elementar zərrəciklər fizikası sahəsindədir. [472-

473] Azərbaycan MEA vitse prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 147.

105. **Leyla Vəkilova**, L e y l a M ə h ə d q ı z ı (d.1927-1999) – Azərbaycan balet artisti. Azərbaycan və SSRİ xalq artisti. 1943-71-ci illərdə M.F.Axundov adına Azərbaycan Akademik Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. L.Vəkilova milli baletlərdə klassik rəqs texnikası və Azərbaycan xalq rəqslərinə xas elementlərdən məharətlə istifadə etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 147,148,192.

106. **Balaş Azəroğlu**, A b i z a d ə B a l a ş A l l a h b a ğ ı ş o ğ l u (d.1921) – şair, ədəbiyyatşünas, Azərbaycanın xalq şairi. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 148.

107. **Nəsibə Zeynalova**, N ə s i b ə C a h a n g i r q ı z ı (1917-2003) – Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Cahangir Zeynalovun qızıdır. 1941-ci ildən Azərbaycan Musiqili Komediya Teatrının solisti olmuşdur. Zeynalova Azərbaycan komediya tarixinə daxil olmuş unudulmaz səhnə obrazları yaratmışdır. Zeynalovanın aktyor sənəti üçün zəngin mimika və obrazı ən xırda incəliklərinə açmaq bacarığı, milli kolorit səciyyəvidir. Zeynalova bir sıra filmlərdə də çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 148,164,190.

108. **Mirməmməd Cavadzadə**, M i r m ə m m ə d C a v a d o ğ l u (d.1927) – cərrah-uroloq. Tibb elmləri doktoru, professor. Rusiya EA-nın müxbir üzvü, Azərbaycan MEA-nın akademiki, SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatıdır. Tədqiqatları, əsasən, urologiyanın aktual məsələlərinə həsr edilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmuşdur. – 148,149.

109. **Aqşın Əlizadə**, A q ş ı n Ə l i q u l u o ğ l u (d.1937) – bəstəkar. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Müxtəlif illərdə Azərbaycan Respublikası Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi vəzifəsində çalışmışdır. Əlizadə müasir Azərbaycan musiqisində orijinal dəst-xətti olan sənətkarlardandır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 149. [473-474]

110. **Habil Əliyev**, H a b i l M u s t a f a o ğ l u (d.1927) – məşhur kamançaçı. Azərbaycanın xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 149.

111. **Sara Qədimova**, S a r a B ə b i ş q ı z ı (1922-2005) – müğənni. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 150,151,152,164.

112. **Fidan Qasımova**, Q a s ı m o v a F i d a n Ə k r ə m q ı z ı (1947) – Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 152.

113. **Cövdət Hacıyev**, Ə h m ə d C ö v d ə t İ s m a y ı l o ğ l u (1917-2002) – Azərbaycan bəstəkarı, pedaqoq. 1957-69-cu illərdə Azərbaycan Musiqi Akademiyasının rektoru olmuşdur. Azərbaycan Respublikasının xalq artisti. İki dəfə SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 152,164.

114. **Müslüm Maqomayev**, M ü s l ü m M ə h ə m m ə d o ğ l u (d.1942) – müğənni. Azərbaycan Respublikasının xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Azərbaycan Milli Musiqi Akademiyasını bitirmişdir. Milanın «La Skala» teatrında (1964-65) təcrübə keçmişdir. SSRİ xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 153,163.

115. **Lidiya Rəsulova**, L i d i y a X u d a d a t q ı z ı (d.1941) – ictimai xadim. Ayrı-ayrı illərdə müxtəlif dövlət və ictimai təşkilatların rəhbəri, 1993-97-ci illərdə Azərbaycan Respublikası Təhsil naziri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. –153.

116. **Əkrəm Əylisli**, N a i b o v Ə k r ə m N ə c ə f o ğ l u (d.1937) – Azərbaycan Respublikasının xalq yazıçısı. Azərbaycan komsomolu və M.F.Axundov adına mükafatları laureatı, 2005-ci ildən Milli Məclisin [474-475] deputatıdır. Ə.Əylisli Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 154.

117. **Rauf Abdullayev**, R a u f  C a n b a x ı ş  o ğ l u (d. 1937) – dirijor, Azərbaycan Respublikasının xalq artisti. Ü..Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 156.

118. **Emin Sabitoğlu**, M a h m u d o v  E m i n  S a b i t o ğ l u (1937-2000) – tanınmış bəstəkar, professor. Dramaturq Sabit Rəhmanın oğlu. Azərbaycanın xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 156.

119. **Cəmil Quliyev**, C ə m i l  B a h a d u r  o ğ l u (d.1927) – tarixçi. Tarix elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki, Azərbaycan Respublikası Dövdət mükafatı laureatı. Müxtəlif illərdə Azərbaycan Respublikası Tarix İnstitutunun direktoru, Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru, Azərbaycan Respublikası MEA-nın prezident müavini vəzifəsində işləmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 156.

120. **Fərhad Bədəlbəyli**, Ş ə m s i  o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ xalq artisti. B.Smetana və J.Viania da Motta adına beynəlxalq müsabiqələr laureatıdır. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoqdur. Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni lə təlbif olunmuşdur. – 156,163,164.

121. **Arif Babayev**, A r i f  İ m r a n  o ğ l u (d.1938) – Azərbaycan müğənnisi. Azərbaycanın xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 156.

122. **Muxtar Dadaşov**, M u x t a r  H ü s e y n  o ğ l u (1928-2002) – Azərbaycan pəhləvanı. Əməkdar idman ustası, əməkdar məşqçi. [475-476] Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 157.

123. **Böyükağa Mirzəzadə**, Böyükağa Məşədi oğlu (d.1921) – Azərbaycanın xalq rəssamı. Azərbaycan Dövlət mükafatı laureatı. Yaradıcılığı boyu tematik tablolar çəkmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 157,158,159.

124. **Zəhra Quliyeva**, Z ə h r a  T a h i r  q ı z ı (1923-2005) oftalmoloq, tibb elmləri doktoru, professor. Tədqiqatı, əsasən, traxoma, gözün refraksiyası, rəng duyğusu və ona müxtəlif amillərin təsirinə həsr olunmuşdur. Quliyeva 1972-1983-cü illərdə Azərbaycan Dövlət Tibb Universitetinin rektoru olmuşdur. SSRİ Ali Sovetinin deputatı və əməkdar elm xadimi adına layiq görülmüşdür. 1998-ci ildən Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 159.

125. **Həsən Turabov**, H ə s ə n a ğ a  S ə t t a r  o ğ l u (1938-2003) – görkəmli Azərbaycan aktyoru. Azərbaycan Respublikasının xalq artisti. 1960-cı ildən Azərbaycan Milli Dram Teatrında çalışmışdır. H.Turabov milli, rus və dünya dramaturqları əsərlərinin tamaşalarında dolğun və yadda qalan obrazlar yaratmışdır. 1987-ci ildən ömrünün axırına kimi Milli Dram Teatrın bədii rəhbəri, direktoru və 1991-ci ildən Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti olmuşdur. İki dəfə Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 160.

126. **Hacıbaba Bağırov** (d.1933) – Azərbaycan Respublikasının xalq artisti. 1962-ci ildən 1988-ci ilədək Ş.Qurbanov adına Musiqili Komediya Teatrında işləyib. 1989-cu ildə «Tənqid-təbliğ» satira teatrını yaradıb. 1996-cı ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və bədii rəhbəridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 160.

127. **Hacı Xanməmmədov**, H a c ı  D a d a ş  o ğ l u (1918-2005) – Azərbaycan bəstəkarı, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (1952-54), Təbriz Filarmoniyasının (1946) bədii rəhbəri, Azərbaycan Dövlət Filarmoniyasının direktoru (1966-68) olmuşdur. H.Xanməmmədov müxtəlif janrlı əsərlərin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 160.

128. **Elbəy Rzaquliyev**, E l b ə y  M i r z ə  H ə s ə n  o ğ l u (d.1926) – Azərbaycan boyakarı və kino rəssamı. Yaradıcılığında tarixi mövzular, əməyin tərənnümü, portretlər mühüm yer tutur. Elbəy Rzaquliyev kino rəssamı («Görüş», «Ögey ana», «Arşın mal alan», «Sevil», «Tütək səsi») kimi də məşhurdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 160.

129. **Kamal Talıbzadə**, K a m a l A b d u l l a Ş a i q o ğ l u (1923-2006) – ədəbiyyatşünas, tənqidçi. Filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Talıbzadə XX əsr Azərbaycan ədəbiyyatında romantizm probleminə ədəbi tənqidin inkişaf yollarına, Azərbaycan – rus ədəbi əlaqələrinə həsr olunmuş monoqrafiyaların, ədəbi-tənqidi məqalə, oçerk və portretlərin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 160.

130. **Lev Tolstoy**, L e v N i k o l a y e v i ç (1828-1910) – dahi rus yazıçısı. İlk yazdığı hekayələrdə ağalarla kəndlilərin münasibətlərindəki dərin sosial ziddiyyətləri göstərmişdir: 1865-69-cu illərdə 1812-ci il Vətən müharibəsinə həsr olunmuş «Hərb və sülh» romanını yazmışdır. Bu əsər XIX əsr dünya realist nəsrinin zirvələrindən biri sayılır. 1873-77-ci illərdə yazdığı «Anna Karenina» romanında kübar cəmiyyətinin saxta əxlaqının qurbanı olan qadının faciəsi əks etdirilir. 1908-ci ildə o, ölüm cəzalarına qarşı nifrət və etirazının ifadəsi olan məşhur «Susa bilmirəm» məqaləsini yazır. Ömrünün son illərində Tolstoy dərin mənəvi əzab keçirirdi. 1910-cu il noyabrın 10-da Yasnaya Rolyananı xəlvətcə tərk etmiş, yolda Astapovo dəmir yol stansiyasında vəfat etmişdir. – 134.

131. **Yasnaya Polyana** – L e v T o l s t o y u n anadan olduğu və təxminən 60 il yaşadığı malikənəsi. Burada o «Hərb və sülh», «Anna Karenina» romanlarını, çoxlu povest, hekayə və məqalələrini yazmış, kəndli üşaqları üçün məktəb açmış, «Yasnaya Polyana» jurnalını nəşr etdirmişdir. 1921-86-cı illərdə L.N.Tolstoyun Dövlət muzey malikanəsi, 1986-cı ildən Lev Tolstoyun Dövlət memorial və qoruq «Yasnaya Polyana» muzey malikanəsi adlanır. – 134. [477-478]

132. **Üzeyir Hacıbəyov**, Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885-1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 138,163,190,191,344.

133. **Nikolay II** (1868-1918) – sonuncu Rusiya imperatoru. Onun hakimiyyəti zamanı 1905-07-ci iqilabına səbəb olan Rus – Yapon müharibəsindəki məğlubiyyət, siyasi partiyaların və Dövlət Dumasının yaranmasına imkan yaradan 1905-ci il 17 oktyabr Manifesti, Stolıpin aqrar reformasının həyata keçirilməsi olmuşdur. 1917-ci il fevral inqilabı nəticəsində taxt-tacdan uzaqlaşdırılan II Nikolay bolşeviklərin sanksiyası ilə ailəsi ilə birlikdə Yekaterinburqda güllələndi. 1998-ci ildə II Nikolayın cənazəsinin qalıqları Sankt-Peterburqda Petropavlovsk kilsəsində dəfn edilmişdir. – 139.

134. **Covhər Dudayev**, C ö v h ə r M u s a o ğ l u (1944-1996) – general-mayor. 1991-ci ildən tanınmamış İçkeriya Respublikasının (Çeçenistan) prezidenti. – 139.

135. **İkinci dünya müharibəsi** (1939-45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942-43-cü illərdə Sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də Sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 139,165. [478-479]

136. **Xədicə xanım Qazıyeva**, X ə d i c ə B a h ə d d i n q ı z ı (1909-1991) – aktrisa. Azərbaycan Respublikasının əməkdar artisti. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmişdir. – 143.

137. **Vasif Talıbov**, V a s i f Y u s i f o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 144.

138. **Cəfər Cabbarlı**, C ə f ə r Q a f a r o ğ l u (1899-1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 146,163,189,191.

139. **Cəlil Məmmədquluzadə**, M i r z ə C ə l i l H ü s e y n q u l u o ğ l u (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866-1932) – böyük Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. – 146,163,189.

140. **Məmməd Araz**, M ə m m ə d İ n f i l o ğ l u İ b r a h i m o v (d.1933) – Azərbaycanın xalq şairi. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. Adına «Məmməd Araz» ədəbi mükafatı təsis edilmişdir. – 155.

141. **İsa Hüseynov**, İ s a M u s t a f a o ğ l u (d.1928) – Azərbaycanın xalq yazıçısı. «Məhşər» tarixi romanı böyük Azərbaycan şairi İ.Nəsimiyə həsr olunmuşdur.Onlarla povest və romanlar müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 155. [479-480]

142. «**Soyuq müharibə**» - bir tərəfdən SSRİ və onun müttəfiqləri, o biri tərəfdən ABŞ və onun müttəfiqləri arasında olan hərbi-siyasi konflikti bildirən termin. «Soyuq müharibə»yə sürətlə silahlanma, bir-birinə qarşı hərbi-siyasi blokların yaradılması, siüasətə təsir fasitəsi kimi hərbi qüvvədən istifadə, iqtisadi təzyiq vasitələrinin tətbiqi daxil idi. «Soyuq müharibə» 2-ci Dünya müharibəsindən sonra başladı və 80-ci illərin sonunda və 90-cı illərin əvvəlində SSRİ-də və başqa sosialist sisteminə daxil olmuş olkələrdə sosial dəyişikliklər baş verdiyi zaman sona çatdı. – 162.

143. **Nizami Gəncəvi**, İ l y a s Y u s i f o ğ l u (1141-1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 163,301,342.

144. **İ m a d ə d d i n Nəsimi**, əsl adı S e y i d Ə l i (1369-1417) – böyük Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə vəhşicəsinə öldürülmüşdür. – 163,342.

145. **Məhəmməd Füzuli**, M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494-1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 163,342.

146. **V a q i f**, Molla Pənah Vaqif (1717-1797) –görkəmli Azərbaycan şairi, dövlət xadimi. Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda şerlər yazmışdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas qayəsidir. Vaqif şerindəki realizmə meyl Azərbaycan poeziyasının inkişafına güclü təsir [480-481] göstərmişdir. Qarabağ hakimi İbrahim xanın (1769-cu il) baş vəziri olmuşdur. – 163.

147. **Mirzə Fətəli Axundov** (1812-1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist – filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850-55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 163,188,342.

148. **Səməd Vurğun**, S ə m ə d Y u s i f o ğ l u V ə k i l o v (1906-1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şerinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 163,190.

149. **Rəsul Rza**, R ə s u l İ b r a h i m o ğ l u R z a y e v (1910-1981) – görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. O, Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, orijinal obrazlarla zənginləşdirmişdir. SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. – 163.

150. **Süleyman Rəhimov**, Süleyman Hüseyn oğlu (1900 - 1983) –görkəmli Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın xalq yazıçısı. Sosialist Əməyi Qəhrəmanı. Onun onlarla roman və povestlərində Azərbaycan xalqının tam birəsrlik tarixi öz əksini tapmışdır. Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur. – 163.

151. **Mehdi Hüseyn**, Hüseynov Mehdi Əli oğlu (1909-1965) – tanınmış Azərbaycan yazıçısı, tənqidçi və ictimai xadim. Azərbaycanın xalq yazıçısı. Azərbaycan Yazıçılar İttifaqının katibi və birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi, SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. SSRİ Dövlət mükafatı laureatıdır. – 163.

152. **Qara Qarayev**, Qara Əbulfəz oğlu (1918-1982) – böyük Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya [481-482] qoyulmuşdur. Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı idi. – 163,191,192.

153. **Fikrət Əmirov**, Fikrət Cəmil oğlu (1922-1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yazan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 163,191,192.

154. **Niyazi**, Tağızadə–Hacıbəyov Niyazi Zülfüqar oğlu (1912-1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı idi. – 163,193.

155. **Rauf Hacıyev**, Rauf Soltan oğlu (1922-1995) – Azərbaycan bəstəkarı. Rauf Hacıyevin operettaları Azərbaycan operettasının inkişafında əhəmiyyətli yer tutur. 1965-1971-ci illərdə Azərbaycan SSR Mədəniyyət naziri olmuşdur. Azərbaycan və SSRİ xalq artisti idi. – 163, 191.

156. **Pyotr I**, **Böyük Pyotr** (1672-1725) – Rusiyanın ilk imperatoru, dövlət xadimi, sərkərdə, diplomat. I Pyotr Rusiyanın qabaqcıl Qərbi Avropa ölkələrindən geriliyini aradan qaldırmaq üçün mühüm islahatlar həyata keçirmişdir. I Pyotrun Azov səfərləri (1695-96) nəticəsində Rusiya Azov dənizi sahillərinə çıxmış, Şimal müharibəsindəki (1700-21) qələbədən sonra Rusiya Avropanın böyük dövlətləri sırasına daxil olmuşdu. 1703-cü ildə Peterburqun əsasını qoydu. O nizami rus ordusunun və hərbi dəniz donanmasının yaradıcısıdır. Onun təşəbbüsü ilə dövlət quruculuğu sahəsində bir sıra islahatlar aparılmış, hərb sənətinə diqqət artırılmış, Rusiya Elmlər Akademiyası yaradılmışdır. – 171,172. [482-483]

157. **Rus-İran müharibəsi**, Rusiya–İran müharibələri (XIX əsr) – 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı, Çar-Balakən camaatlığını (1803), Gəncə xanlığını (1804) tütması İran və Türkiyənin, həmçinin İngiltərə və Fransanın güclü müqavimətinə rast gəldi. İran 1804-cü ilin iyununda Rusiyaya qarşı müharibəyə başladı. Lakin Abbas Mirzənin qoşunu İrəvan yaxınlığında vuruşmada məğlub oldu. 1805-ci ildə Qarabağ, Şəki, Şirvan xanlıqları da işğal edildi. 1806-cı il oktyabrın 3-də rus ordusu Bakını işğal etdi. 1813-cü ilə qədər davam edən qanlı doyüşlər Gülüstan müqaviləsi ilə (1813) nəticələndi. Şimali Azərbaycan xanlıqları Rusiyanın tabeliyinə keçdi.

1826-28-ci illərdə aparılan müharibə nəticəsində isə Naxçıvan, Abbasabad, Yerevan, Xoy, Mərənd, Urmiyə, Ərdəbil, Təbriz işğal edildi. Nəticədə Türkmənçay müqaviləsi (1828) imzalandı. Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya verildi. – 171.

158. **Yeltsin Boris Nikolayeviç** (d.1931) – Rusiyanın siyasi və dövlət xadimi. 1991-2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 175.

159. **Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını qorumaq, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə nazirliklərinin müşavirəsi və katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 182,195-208,435.

160. **Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası

qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 182. [483-484]

161. **ATƏT-in Budapeşt Zirvə görüşü** – 1994-cü il dekabrın 3-7-də Macarıstanın paytaxtı Budapeştdə keçirilmişdir. Görüşdə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Heydər Əliyev Budapeşt sammitində bütün regionlarda və bütünlükdə qitədə sülh konsepsiyasının həyata keçirilməsi üçün çox əhəmiyyətli fəaliyyət göstərdi. Budapeşt zirvə görüşündə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi məsələ kimi müzakirə olundu və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi» haqqında qətnamə qəbul olundu. – 183,314.

162. «**Ramko**» – İngiltərənin aparıcı neft kompaniyalarından biri. 1977-ci ildə yaradılmışdır. Dünyanın bir çox ölkələrində neftin çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən «Bi-Pi» və «Şell» ilə birlikdə «Azəri- Çıraq» yatağında kəşfiyyat işləri aparmışdı. – 183, 185.

163. **Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (**ARDNŞ**) – Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyuarının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 232,234,235.

164. **TRAO**, Türkiyə petrolları – 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TPAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 185,234.

165. «**Statoyl**» – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 185,234.

166. **Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası [484-485] bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 185,275.

167. «**Qaravəlli**» – Azərbaycan şifahi xalq ədəbiyyatında novellavarı nağıl janrının bir növü. Mövzusu, əsasən, yumoristik və satirik məişət səhnələrindən, qədim mərasimlərdən götürülür. Qaravəllidə mükalimə və musiqidən başqa rəqs, şer, gözbağlıca, hoqqabazlıq səhnələri də olur. Qaravəlli teatrının personajları Koca və Keçəldir. – 188.

168. **Həsənbəy Zərdabi**, Məlikov Həsənbəy Səlimbəy oğlu (1842-1907) – Azərbaycan maarifçi-demokrat, təbiətşünas alim, publisist və pedaqoq. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Həcəfbəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F.Axundovun «Hacı Qara» pyesini tamaşaya qoymuşdur.

Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir (1875-77). «Əkinçi» qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsinə çox böyük xidmət göstərmişdir. – 188,344.

169. **Nəcəfbəy Vəzirov**, Nəcəfbəy Fətəlibəy oğlu (1854-1926) – Azərbaycan dramaturqu, publisist, teatr xadimi. Nəcəfbəy Vəzirovun humanizmi, yüksək bəşəri idealları tərənnüm edən «Müsibəti Fəxrəddin» dramı Azərbaycan ədəbiyyatında ilk faciədir. Bu əsər Azərbaycan bədii və ictimai fikir tarixində xüsusi yer tutur. – 188,189.

170. **Əbdürrəhimbəy Haqverdiyev**, Əbdürrəhimbəy Əsəd oğlu (1870-1933) – Azərbaycan yazıçısı, dramaturq, ictimai xadim, Əməkdar incəsənət xadimi. Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının ilk tamaşasının dirijoru Ə.Haqverdiyev olmuşdur. Haqverdiyevin dramaturgiyası Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ədibin məzmunca zəngin, forma və bədii sənətkarlıq cəhətdən kamil hekayələri Azərbaycan nəşrinin inkişafına güclü təsir göstərmişdir. – 189.

171. **Nəriman Nərimanov**, N ə r i m a n  N ə c ə f  o ğ l u (1870-1925) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur. [485-486]

1920-ci il aprelin 27-də Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ərəfəsində Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçildi. O, Azərbaycan xalqının maraqlarını müdafiə etdiyinə görə 1922-ci ildə Moskvaya çağırılır və SSRİ-nin 1-ci Sovetlər qurultayında (1922) SSRİ MİK-nin sədri seçilir. – 189,342.

172. **Hüseyn Ərəblinski**, H ü s e y n  M ə m m ə d  o ğ l u (1881-1919) – Azərbaycan aktyoru və rejissoru, Azərbaycan professional teatr sənətinin banilərindən biri. Onun yaradıcılığında milli teatr ənənələri ilə müasir teatr mədəniyyəti üzvü surətdə birləşmişdi. 1910-cu ildə Azərbaycan teatrında yaratdığı Otello obrazı Ərəblinski yaradıcılığının zirvəsi sayılır. – 189.

173. **Cahangir Zeynalov**, C a h a n g i r  M ə ş ə d i  R z a  o ğ l u (1865-1918) – Azərbaycan aktyoru, teatr xadimi, pedaqoq, Azərbaycan professional teatrının banilərindən biri. Aktrisa Nəsibə Zeynalovanın atası. Komik rolların mahir ifaçısı olan C.Zeynalov dramatik obrazları da eyni müvəffəqiyyətlə yaratmışdır. C.Zeynalov Azərbaycan teatr sənətinin inkişafında mühüm rol oynamışdır. – 189.

174. **Hüseynqulu Sarabski**, R z a y e v  H ü s e y n q u l u  M ə l i k  o ğ l u (1879-1945) – Azərbaycan müğənnisi, aktyor, rejissor, pedaqoq, teatr xadimi; Azərbaycan professional müsiqili teatrının banilərindən biri, Azərbaycanın xalq artisti.

Azərbaycan operasının yaranması və inkişafında Sarabskinin böyük xidməti var. Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasında Məcnun partiyasının ən gözəl ifaçısı olmuşdur. – 189.

175. **Abbas Mirzə Şərifzadə**, A b b a s m i r z ə  M i r z ə  Ə b d ü l - r ə s u l  o ğ l u (1893-1938) – Azərbaycan aktyoru, rejissor, teatr xadimi. Şərifzadə 30 illik səhnə fəaliyyəti ərzində milli, eləcə də dünya klassiklərinin əsərlərində müxtəlif rollar oynamış, zəngin obrazlar qalereyası yaratmışdır. V.Şekspirin qəhrəmanları Şərifzadənin aktyorluq istedadının zirvəsidir. O, Hamlet, Otello və Maqbet rollarının mahir ifaçılarından biri kimi tanınmışdır. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan xalqının ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin qurbanlarındandır. – 189. [486-487]

176. **Mirzağa Əliyev**, M i r z a ğ a  Ə l i  o ğ l u (1883-1954) – aktyor. SSRİ xalq artisti. İki dəfə SSRİ Dövlət mükafatı laureatı. Əliyev 1924-cü ildən ömrünün sonuna qədər Azərbaycan Milli Dram teatrında çalışmışdır. O, fitri komediya istedadına, milli koloritə, ifadəli yumor boyaları və zəngin səhnə nüanslarına malik aktyor idi. – 189.

177. **Sidqi Ruhulla**, A x u n d o v  R u h u l l a  F ə t u l l a  o ğ l u (1886-1959) – aktyor. SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. Onun Azərbaycan, rus və Qərbi Avropa dramaturqlarının əsərlərinin tamaşalarında yaratdığı obrazlar Azərbaycan teatrı tarixində mühüm yer tutur. – 189.

178. **Ülvi Rəcəb** Şaşıq oğlu (1903-1938) – aktyor. Azərbaycan Respublikasının əməkdar artisti. Ü.Rəcəb V.Şekspir, F.Şiller, H.Cavid və C.Cabbarlı qəhrəmanlarının ən yaxşı ifaçılarından biri olmuşdur. Ü.Rəcəb Azərbaycan səhnəsində, müdrik, nəcib, mərd xarakterli obrazlar silsiləsi yaratmış, onun sənəti sonrakı aktyor nəslinin yetişməsinə böyük təsir göstərmişdir. Azərbaycan xalqının ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiyası qurbanlarındandır. –189.

179. **Hüseyn Cavid**, H ü s e y n  A b d u l l a  o ğ l u  R ə s i z a d ə (1882 - 1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. O, lirik şerlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 189.

180. **Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli [487-488] yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk dili elan edildi. Azərbaycan respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan

vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919-20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı-Batum neft kəməri bərpa edildi. – 189,214,307, 342,347.

181. **Süleyman Rüstəm**, Süleyman Əliabbas oğlu Rüs-təmzadə ( 1906 – 1989) – görkəmli Azərbaycan şairi, dramaturq, ictimai xadim. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın xalq şairi, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. Müharibə dövrü (1941-1945) yaradıcılığında Cənubi Azərbaycanda xalqın həyat və milli azadlıq uğrunda mübarizəsinə həsr olunmuş əsərlər xüsusi yer tutur. – 190.

182. **Sabit Rəhman**, Sabit Kərim oğlu Mahmudov (1910-1970) – tanınmış Azərbaycan yazıçısı, dramaturq, Azərbaycan əməkdar incəsənət xadimi. S.Rəhman Azərbaycan sovet komediyasının banilərindən biridir. Onun «Toy», «Xoşbəxtlər», «Aşnalar», «Aydınlıq», «Nişanlı qız» komediyalarında nöqsanlar şən, yumoristik gülüşlə tənqid olunur. – 190.

183. **Mərziyə Davudova**, Mərziyə Yusif qızı (1901-1962) – aktrisa. Geniş yaradıcılıq diapozonuna malik olan M.Davudova müxtəlif xarkterli rolları eyni ustalıqla ifa etmişdir. Davudova [488-489] Azərbaycan səhnəsində Şekspir faciələrinin ən yaxşı ifaçılarından olmuşdur. SSRİ xalq artisti, SSRİ Dövlət mükaftı laureatı. – 190.

184. **Rza Təhmasib**, Təhmasib Rza Abbasqulu oğlu (1894-1980) – aktyor, rejissor, pedaqoq. Azərbaycanın xalq artisti və SSRİ Dövlət mükayatı laureatı. Təhmasibin səhnə yaradıcılığı Azərbaycan Milli Dram Teatrı ilə bağlıdır. Bir çox filmlərin və tamaşaların rejissoru olmuşdur. – 190.

185. **İsmayıl Hidayətzadə**, İsmayıl Hüseyn oğlu (1901-1951) – Azərbaycan aktyoru, rejissor və teatr xadimi. Azərbaycanın xalq artisti. Hidayətzadə istedadlı aktyor olmaqla yanaşı, həmçinin görkəmli rejissor idi. O, 1937-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru vəzifəsində çalışmışdır. – 190.

186. **Kazım Ziya**, Kazımzadə Kazım Səfər oğlu (1896-1956) – Azərbaycan aktyoru, pedaqoq; Azərbaycan Respublikasının xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. K.Ziyanın yaradıcılığının yetkin dövrü Azərbaycan Dövlət Dram Teatrı ilə bağlı olmuşdur. K.Ziya yüksək aktyorluq texnikasına, aydın diksiyalı məlahətli səsə malik sənətkar idi. K.Ziya milli səhnə dilini sistemə salmış ilk Azərbaycan teatr xadimidir. – 190.

187. **Rza Əfqanlı**, Cəfərzadə Rza Rüstəm oğlu (1899-1973) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. Rza Əfqanlının səhnədə ifa etdiyi obrazları Azərbaycan teatrı tarixində əhəmiyyətli yer tutur. Onun aktyor oyunu üçün romantik vüsət, ifadəlilik, hər bir obrazın fərdi xüsusiyyətini qabarıq vermək bacarığı səciyyəvi idi. – 190.

188. **Mustafa Mərdanov**, Mustafa Haşım oğlu (1894- 1968) – aktyor, Azərbaycan Respublikasının xalq artisti. Yüksək aktyorluq texnikasına malik olan Mərdanovun ifası üçün incə yumor, komizm, parlaq teatrrallıq xüsusiyyətinə malik idi. M.Mərdanov həm də, Azərbaycan kinosunun ilk və tanınmış aktyorlarından idi. – 190.

189. **Fatma Qədri**, Fatma Qədir qızı (1907-1968) – aktrisa. Azərbaycan Respublikasının xalq artisti. F.Qədrinin yaratdığı səhnə obrazları Azərbaycan teatr sənəti tarixində əhəmiyyətli yer tutur. Təbiilik, həyatilik emosionallıq Qədri yaradıcılığının başlıca xüsusiyyətləri olmuşdur. – 190. [489-490]

190. **İsmayıl Dağıstanlı**, Hacıyev İsmayıl Yusif oğlu (1907-1980) – Azərbaycan aktyoru. SSRİ xalq artisti, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. 1938-ci ildən Azərbaycan Milli Dram Teatrının aktyoru olmuşdur. Çoxcəhətli aktyor olan Dağıstanlı müxtəlif xarakterli obrazlar qalereyası yaratmışdır. Dağıstanlı həm də kino aktyoru olmuşdur. – 190.

191. **Ağadadaş Qurbanov**, A ğ a d a d a ş  G ü l m ə m m ə d  o ğ l u (1911-1965) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. Dramatik səpkili aktyor olan A.Qurbanov komik və xarakterik rollarda da uğurla çıxış etmişdir. Eyni zamanda kino aktyoru olmuşdur. – 190.

192. **Adil İsgəndərov**, A d i l  R z a  o ğ l u (1910-1978) – rejissor, aktyor və pedaqoq. SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan teatr sənətinin inkişafında böyük xidməti olan A.İsgəndərovun yaradıcılığı üçün realizm, orijinal və təsirli ifadə vasitələri, monumentallıq səciyyəvi olmuşdur. O, müxtəlif illərdə Azərbaycan Milli Dram Teatrının rejissoru, baş rejissoru, direktoru, «Azərbaycan film» kinostudiyasının direktoru olmuşdur. O, kino aktyoru kimi də fəaliyyət göstərmiş və yadda qalan obrazlar yaratmışdır. – 190.

193. **Ələsgər Ələkbərov**, Ə l ə s g ə r  H a c a ğ a  o ğ l u (1910-1963) – görkəmli Azərbaycan aktyoru. Azərbaycan və SSRİ xalq artisti. 1933-cü ildən ömrünün sonunadək Azərbaycan Milli Dram Teatrında işləmişdir. Ələkbərovun yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ələkbərov həmçinin Azərbaycan kinosunun görkəmli aktyorlarındandır. – 190.

194. **Ağasadıq Gəraybəyli**, A ğ a s a d ı q  A ğ a l i  o ğ l u (1897-1988) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. 1933-cu ildən ömrünün sonuna kimi Azərbaycan Milli Dram Teatrının artisti olmuşdur. Gəraybəylinin yaradıcılığında güclü dramatik, komik səpgili səhnə obrazları mühüm yer tutur. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. – 190.

195. **Möhsün Sənani**, M ö h s ü n  S a d ı q  o ğ l u (1900-1981) – aktyor, Azərbaycan Respublikasının xalq artisti. M.Sənaninin yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm yer tutur. Geniş [490-491] diapozonlu aktyor olan Sənani qəhrəmanı, xarakterik və komik rolların ifaçısı kimi şöhrət qazanmışdır. – 190.

196. **İsmayıl Osmanlı**, İ s m a y ı l  O s m a n  o ğ l u (1902-1978) – aktyor. SSRİ xalq artisti. O, 1929-cu ildən ömrünün axırınadək Azərbaycan Milli Dram Teatrının aktyoru olmuşdur. Onun ifası təbiiliyi, psixoloji təsirliliyi, milli koloriti ilə fərqlənmişdir. O, klassik və müasir müəlliflərin pyeslərində parlaq obrazlar qalereyası yaratmışdır. Osmanlı kino aktyoru kimi də məşhur idi. – 190.

197. **Hökumə Qurbanova**, H ö h u m ə  A b b a s ə l i  q ı z ı (1913-1988) – aktrisa. SSRİ xalq artisti, M.F.Axundov mükafatı laureatı. H.Qurbanova yaradıcılığının əsas mövzusunu qəhrəman, mübariz xarakterli, yüksək bəşəri ideallarla aşılanmış güclü insan obrazı təşkil edir. Şekspir dramaturqiyasında ən mürəkkəb qadın obrazlarından olan Kleopatranın daxili aləmini ustalıqla açа bilmişdir. O, bir çox bədii filmlərdə də çəkilmişdir. – 190.

198. **Münəvvər Kələntərli**, M ü n ə v v ə r  S ə m ə d  q ı z ı (1912-1963) – Azərbaycan aktrisası. «Arşın mal alan» filmində yaratdığı Cahan xala obrazı M.Kələntərliyə böyük şöhrət qazandırmışdır. SSRİ Dövlət mükafatı laureatı. – 190.

199. **Lütfəli Abdullayev**, L ü t f ə l i  Ə m i r  o ğ l u (1914-1973) – görkəmli gülüş ustası və aktyor. Azərbaycanın xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. Abdullayevin yaradıcılığı Musiqili Komediya Teatrı ilə sıx bağlı olmuşdur. L.Abdullayev fitri komediya istedadına, milli kalоritə, ifadəli və zəngin yumora malik aktyor idi. Bir sıra filmlərə də çəkilmişdir. – 190.

200. **Bəşir Səfəroğlu** (1925-1969) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. 1942-ci ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrında işləmişdir. B.Səfəroğlu yaratdığı obrazlarda nadanlığı, geriliyi, riyakarlığı qamçılamış, səhnə realizminə sadiq olmuşdur. Onun ifasına incə yumor, mənalı gülüş, zəngin mimika və s. cəhətlər xas idi. – 190.

201. **Əlağa Ağayev**, Ə l i a ğ a  İ s m a y ı l  o ğ l u (1913-1983) aktyor, Azərbaycan Respublikasının xalq artisti. 1962-ci ildən ömrünün [491-492] sonuna kimi Azərbaycan Dövlət Milli Dram Teatrının aktyoru olmuşdur. İncə yumor və şirin danışıq, mənalı gülüş Ə.Ağayev yaradıcılığı üçün səciyyəvi olmuşdur. Bir sıfra kinofilmlərdə də çəkilmişdir. – 190.

202. **Əli Zeynalov**, Ə l i  Y u s i f  o ğ l u (1913-1988) – aktyor, Azərbaycan Respublikasının xalq artisti. M.F.Axundov adına Respublika mükafatı laureatıdır. Ə.Zeynalovun yaradıcılığı üçün psixoloji dolğunluq, emosionallıq səciyyəvidir. – 190.

203. **Yakuşev** Sergey İliç (1910-1995) – aktyor, Azərbaycan Respublikasının xalq artisti. 1948-ci ildən S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında çalışmışdır. Müxtəlif xarakterli rolların ifaçısıdır. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. – 190.

204. **Rahil Ginzburq**, R a h i l  S o l o m o n o v n a (1920-1995) aktrisa. Azərbaycan Respublikasının xalq artisti. 1943-cü ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Teatrında çıxış etmişdir. Ginzburqun ifası üçün çoxcəhətlilik, ifadə vasitələri zənginliyi, emosionallıq səciyyəvidir. – 190.

205. **Mehdi Məmmədov**, M e h d i  Ə s ə d u l l a  o ğ l u (1918-1987) – rejissor, aktyor, pedaqoq. SSRİ xalq artisti. O, müxtəlif illərdə Azərbaycan Milli Dram Teatrının, Azərbaycan Dövlət Rus Dram Teatrının baş rejissoru olmuşdur. Məmmədovun rejisorluq üslubu əsərin fəlsəfi mənasının qabarıq verilməsi ilə səciyyələnir. – 190.

206. **Həsənağa Salayev**, H ə s ə n a ğ a  D ə r y a  o ğ l u (1921-1981) aktyor, Azərbaycan Respublikasının xalq artisti. Səhnə fəaliyyətinə 1988-ci ildən Azərbaycan Dövlət Milli Dram Teatrında başlamışdır. Romantik məktəbə mənsub olan Salayev, əsasən güclü xarakterli obrazların ifaçısı kimi tanınmışdır. – 190.

207. **Şəmsi Bədəlbəyli**, Ş ə m s i  B ə d ə l b ə y  o ğ l u (1911-1986) – Azərbaycan rejissoru, Azərbaycan Respublikasının xalq artisti. Fərhad Bədəlbəylinin atası. Müxtəlif illərdə Azərbaycan Milli Dram teatrında bədii rəhbər, direktor və quruluşçu rejissor, Azərbaycan Dövlət Musiqili [492-493] Komediya Teatrında bədii rəhbər və direktor işləmişdir. Uzun illər Azərbaycan Teatr Cəmiyyətinin sədri olmuşdur. – 190.

208. **Tofiq Kazımov**, T o f i q  S ə m ə d  M ə n s u r  o ğ l u (1923-1980) – rejissor. Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Respublikası əməkdar incəsənət xadimi, M.F.Axundov adına respublika mükafatı laureatı. Müxtəlif illərdə Azərbaycan Milli Dram Teatrının rejissoru, baş rejissoru olmuşdur. – 190.

209. **Barat Şəkinskaya**, B a r a t  H ə b i b  q ı z ı (1914-1999) aktrisa. Azərbaycan Respublikasının xalq artisti. Onun yaratdığı obrazlar yüksək aktyorluq məharəti, səmimiliyi, temperamenti ilə fərqlənmişdir. Şəkinskaya lirik, dramatik rollarla yanaşı, komik, xarakterik rolların ifaçısı kimi də tanınmışdır. – 190.

210. **Leyla Bədirbəyli**, L e y l a  A ğ a l a r  q ı z ı (1920-1999) – görkəmli səhnə ustası, Azərbaycanın xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan Milli Dram Teatrında fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 190.

211. **Tofiq Quliyev**, T o f i q  Ə l ə k b ə r  o ğ l u (1917-2000) – görkəmli Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının xalq artisti. Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Onun lirik mahnıları sadə, aydın və milli koloritlidir. 1973 ildən ömrünün axırınadək Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 191.

212. **Süleyman Ələsgərov**, S ü l e y m a n  Ə y y u b  o ğ l u (1924-2000) – Azərbaycan bəstəkarı, dirijor, pedaqoq. Azərbaycan Respublikasının xalq artisti. Ü.Hacıbəyov adına Respublika mükafatı laureatı. Müxtəlif musiqi janrlarında əsərləri var. S.Ələsgərovun yaradıcılığında operetta janrı əsas yer tutur. Əsərləri üçün musiqi dilinin sadəliyi, səlisliyi, forma aydınlığı səciyyəvidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. –191. [493-494]

213. **Cabbar Qaryağdı**, C a b b a r  M ə ş ə d i  İ s m a y ı l  o ğ l u (1861-1944) – Azərbaycan xanəndəsi, musiqi xadimi. Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biri. Azərbaycan Respublikasının xalq artisti. Cabbar Qaryağdı fitri istedada, zil və olduqca güclü, gözəl tembrli, geniş dliapozonlu səsə, qeyri-adi musiqi hafizəsinə malik sənətkar idi. – 191.

214. **Hüseynağa Hacıbababəyov**, H ü s e y n a ğ a  S o l t a n  o ğ l u (1898-1972) – Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının xalq artisti. 1916-20-ci illərdə Azərbaycan müsiqi truppasında çıxış edən Hacıbababəyov, əsasən qadın partiyalarının ifaçısı olmuşdur (Leyli, Əsli, Gülçöhrə,Çimnaz). Hacıbabəyov 1920-60-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. O, nadir tembrli gözəl səsə, virtuoz vokal texnikasına malik sənətkar idi. – 191.

215. **Əlövsət Sadıqov**, Ə l ö v s ə t  Ş i r ə l i  o ğ l u (1906-1971) – Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Ə.Sadıqov güclü zil səsə, gözəl zəngulələrə malik sənətkar idi. – 191.

216. **Həqiqət Rzayeva**, H ə q i q ə t  Ə l i  q ı z ı (1907-1969) – Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının xalq artisti. H.Rzayeva Azərbaycan səhnəsində çıxış edən ilk azərbaycanlı qadın müğənnilərindəndir. Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Güclü, gözəl və məlahətli səsə malik Rzayevanın yaradıcılığı üçün yüksək professionallıq, artistizm səciyyəvi olmuşdur. – 191.

217. **Firəngiz Əhmədova**, F i r ə n g i z  Y u s i f  q ı z ı (d.1928) – görkəmli Azərbaycan müğənnisi, SSRİ xalq artisti. F.Əhmədova Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının operalarında müvəffəqiyyətlə çıxış edib. O, kamera-vokal əsərlər ifaçısı kimi də məşhurdur. – 191,333-334.

218. **Əbülfət Əliyev**, Ə b ü l f ə t  Ə s ə d  o ğ l u (1926-1990) – Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının xalq artisti. Ə.Əliyev məlahətli, xoş tembrli səsə, ifa tərzinə isə incə lirizm, emosionallıq xas olan sənətkar olmuşdur. – 191. [494-495]

219. **Rübabə Müradova**, R ü b a b ə  X ə l i l  q ı z ı (1933-1983) – Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. R.Muradova güclü, təsirli və müxtəlif çalarlı səsə, orijinal ifaçılıq üslubuna malik sənətkar olmuşdur. – 191.

220. **Bülbül**, M u r t u z a  M ə ş ə d i  R z a  o ğ l u  M ə m m ə -d o v (1897-1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. SSRİ xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. – 191.

221. **Şövkət Məmmədova**, Ş ö v k ə t  H ə s ə n  q ı z ı (1897-1981) – Azərbaycan müğənnisi, pedaqoq, musiqi xadimi, ilk azərbaycanlı professional qadın müğənni. SSRİ xalq artisti. İki dəfə Milanda (1911,1927-29) məşhur Qərb müğənnilərindən dərs almışdır. Güclü musiqi duyumu və yüksək vokal mədəniyyətinə, məlahətli, axıcı səsə malik olan Ş.Məmmədovanın ifası, həmçinin aktyorluq məharəti ilə fərqlənmişdir. O, Azərbaycan opera səhnəsində rus və dünya vokal sənətinin ən yaxşı ənənələrini milli musiqi xüsusiyyətləri ilə əlaqələndirmişdir. – 191.

222. **Rəşid Behbudov**, R ə ş i d  M ə c i d  o ğ l u (1915-1989) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Dünyanın bir çox ölkələrində böyük uğurla keçən qostrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanı idi. – 191.

223. **Əfrasiyab Bədəlbəyli**, Ə f r a s i y a b  B ə d ə l  o ğ l u (1907-1976) – Azərbaycan bəstəkarı, dirijor, musiqişünas. Azərbaycan Respublikasının xalq artisti. Ə.Bədəlbəyli milli Azərbaycan baleti – «Qız qalası»nın müəllifidir. – 192.

224. **Arif Məlikov**, M ə l i k o v  A r i f  C a h a n g i r  o ğ l u (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSR-i xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazan[495-496]dırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 192,297-298.

225. **Vladimir Pletnyov**, V l a d i m i r  N i k o l a y e v i ç (d.1946) – balet artisti. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan Dövlət Opera və Balet teatrının solisti olmuşdur. Pletnyovun ifası üçün plastiklik, güclü musiqi duyumu, virtiozluq səciyyəvidi. – 192.

226. **Rəfiqə Axundova**, R ə f i q ə  H a c ı  q ı z ı (d.1931) – Azərbaycan balet artisti, baletmeyster. Azərbaycanın xalq artisti. Azərbaycan Dövlət Opera və Balet teatrında Maqsud Məmmədovla birlikdə bir sıra baletlərin quruluşunu vermişdir. – 192.

227. **Maqsud Məmmədov**, M a q s u d  D a v u d  o ğ l u (d.1929) – balet artisti, baletmeyster. Azərbaycan Respublikasının xalq artisti. 1951-71-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, bir çox balet tamaşalarında aparıcı rolları ifa etmişdir. – 192.

228. **Çimnaz Babayeva**, Ç i m n a z  M ə m m ə d  q ı z ı (d.1946) – balet artisti. Azərbaycan Respublikasının xalq artisti. 1964-77-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olmuş, 1977-ci ildən isə teatrda məşqçi-baletmeysterdir. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 192.

229. **Tamilla Şirəliyeva**, T a m i l l a  X u d a d a t  q ı z ı (d.1946) – balet artisti. Azərbaycan Respublikasının xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. – 192.

230. **Avropa Şurasının Parlament Assambleyası** (Avroparlament) – 2004-cü ildə təşkil olunmuşdur. Avroparlamentin işində 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 196,198,207.

231. **Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-[496-497]tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 213,214,217,218,342,347,348,361,370.

232. **Fətəli xan Xoyski** (1875-1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, daxili işlər, ədliyyə və xarici işlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 214.

233. **Əlimərdan bəy Topçubaşov** (1865-1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917-1920-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 214.

234. **Moskva Dövlət Universiteti**, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 observatoriya, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyatı var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. – 218,219,220.

235. **MXAT**, Qorki adına Moskva Akademik Bədaye Teatrı – 1898-ci ildə K.Stanislavski və B.Nemiroviç –Dançenko tərəfindən yaradılmışdır. MXAT milli rus və dünya teatr sənətinin inkişafına mühüm təsir göstərmişdir. MXAT-ın ictimai-siyasi simasının müəyyənləşməsində M.Qorki və A.P.Çexov pyeslərinin tamaşaları xüsusi əhəmiyyət kəsb edir. Dünya teatr səhnəsi tarixində rejissorun rolu ilk dəfə MXAT-da yüksək səviyyəyə qaldırılmışdır. 1987-ci ildən kollektiv iki sərbəst truppaya ayrılmışdır. – 219.

236. **Dədə Qorqud dastanı**, «**Kitabi Dədə Qorqud**» – Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanlarının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. – 230,243,301. [497-498]

237. **Rəsul Quliyev**, R ə s u l  B a y r a m  o ğ l u (d.1947) — 1993-1996-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 234.

238. «**Elf Agiten**» –Fransız neft şirkəti. 1965-ci ildən fəaliyyət göstərir. Dünyanın bir çox ölkəsində neftin çıxarılması, emalı və satışı ilə məşğuldur. 2000-ci ildən Belçikanın «Total-Fin» şirkəti ilə birləşib, 2003-cü ildən «Total-Fin-Elf» adlanır. – 234.

239. **Tszyan Tszemin** (d.1926) – Çinin partiya və dövlət xadimi. 1989-cu ildən Çin KP MK-nın baş katibi, 1993-2005-ci illər Çin Xalq Respublikasının sədri olmuşdur. – 240,276.

240. **Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991-1995-ci illərdə Rolşa Seyminin deputatı olmuşdur. 1995-2005-ci illər Rolşa Respublikasının prezidenti idi. – 240.

241. **Marti Ahtisaarı** (d.1937) – Finlandiyanın siyasi və dövlət xadimi. 1965-ci ildən 1994-cü ilə kimi Finlandiyanın Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır. 1994-cü ildən Finlandiya Respublikasının prezidentidir. – 240.

242. **Avropa–Atlantika Əməkdaşlıq Şurası**. 1997-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasının Portuqaliya sessiyasında yaradılmışdır. Tərkibinə 44 ölkə, o cümlədən Azərbaycan Respublikası daxildir. – 240.

243. **Xuan Karlos I** (d.1938) – İspaniya kralı. İtaliyada anadan olmuşdur. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 240.

244. **NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi [498-499] NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 240,409-421.

245. **YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 243.

246. **Rəsul Həmzətov**, R ə s u l  H ə m z ə t  o ğ l u (1923-1998) – Məhşur Dağıstan şairi, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı. – 263-264.

247. **TASİS** – 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən – hər bir ölkəyə, o cümlədən Azərbaycana və region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. – 266.

248. **Şərifov Abid**, **Abid** Q o c a  o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. – 271,272.

249. **Artur Rasizadə**, A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. 1986-92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 271,273,281,291.

250. **Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişafına kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 275. [499-500]

251. **İslam İnkişaf Bankı** (İİB) – Beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Azərbaycan Respublikası İslam İnkişaf Bankının 1991-ci ildən üzvüdür. – 275.

252. **Bella Davidoviç**, B e l l a  M i x a y l o v n a (d.1928) – pianoçu. – Bakıda musiqiçilər ailəsində doğulmuşdur. Azərbaycan Respublikasının əməkdar artisti. Şopen adına Beynəlxalq miükafatı laureatı. ABŞ-a mühacirət edən Bella Davidoviç orada ifaçılıq sənətinin zirvələrinə yüksəlmiş və beynəlxalq miqyasda tanınmışdır. Məşhur pianoçu «Azərbaycan mədəniyyətinin dostları» fondunun və «Bi-Pi» – «Statoyl» alyansının dəvətilə 1998-ci ilin sentyabrında Bakıda konsert vermişdir. – 293-295.

253. «**Azərbaycan**» – Azərbaycan Respublikasında gündəlik, siyasi, ictimai qəzet. Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur. 1992-ci ildən yenidən nəşr edilir. Azərbaycan Respublikası Milli Məclisinin orqanıdır. – 299-300.

254. **Məhsəti Gəncəvi** ( ?-? ) – XII əsr Azərbaycan şairi. M.Gəncəvi əsasən, rübai janrında yazmışdır. Rübailəri dünyəviliyi, humanizmi, nikbinliyi ilə seçilir. – 301.

255. **Hilları Klinton Potxem** (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv çeçilmişdir. – 309.

256. **Əli Nağıyev** (d.1954) – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri (1996-2006), I çağırış Milli Məclisinin deputatı olmuşdur.– 313.

257. **Məhəmməd Xatəmi** (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989-92-ci illərdə İranın mədəniyyət və islam orijentasiyası naziri olmuşdur. 1997-2005-ci illər İran İslam Respublikasının prezidenti olmuşdur. – 324. [500-501]

258. **Yusif Məmmədəliyev**, M ə m m ə d ə l i y e v Y u s i f H e y- d ə r o ğ l u (1905-1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA akademiki, SSRİ EA müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. 1947-50-ci və 1958-61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 325-329.

259. **Azərbaycan Elmlər Akademiyası** – respublikanın ali elmi ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 326,327,372.

260. **ORT** – Rusiya İctimai Televiziyası. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB –də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 335-338.

261. **Tofiq Bayram**, T o f i q Q u l a m o ğ l u (1934-1991) – Azərbaycan şairi. Bir çox lirik şerlərin müəllifidir. Tərcümə ilə də məşğul olmuşdur. – 339-340.

262. «**Avesta**» – zərdüstiliyin müqəddəs kitablar külliyyatı. Alimlər hesab edirlər ki, Avestanın tərkib hissələri, əsasən e.ə. 1-ci minilliyin 1-ci yarısında formalaşmağa başlamışdır. Avestanın dünyagörüşü üçün ifrat dulizm xarakterikdir. Avestaya görə dünyada həm maddi, həm də xəyali olan hər şey xeyir və ya şər başlanğıca malik olmaqla iki qismə ayrılır. İnsan bu və ya digər mövqeyi seçməkdə sərbəstdir. – 341.

263. **Bəhmənyar Əbülhəsən ibn Mərzban** (?- 1066) – Azərbaycan filosofu, İbn Sinanın şagirdi və davamçısı. Bəhmənyara görə hər şeyin əsasını ən ümumi mənada varlıq təşkil edir. Orta əsrlərdə Müsəlman Şərqində fəlsəfi fikrin inkişafında böyük rolu olmuşdur. – 342.

264. **Şah İsmayıl Xətai** (1487-1524) — Azərbaycan Səfəvilər dövlətinin banisi. Dövlət xadimi və sərkərdə, şair. 1501-ci ilin payızında Təbrizə daxil olan I Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla [501-502] Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şerlər yazmışdır. – 342.

265. **Seyid Əzim Şirvani** (1835-1888) – Azərbaycan şairi. O, Azərbaycan və fars dillərində yazmışdır. XIX əsr 1-ci yarısında ədəbi məktəb halında formalaşan tənqidi realizm ənənələrindən bəhrələnən S.Ə.Şirvani lirik və satirik Azərbaycan şerini zənginləşdirmişdir. Yüksək bədii sənətkarlıqla yazılmış lirik şerlərində - qəzəl, qəsidə, tərkibbənd, müxəmməs, müsəddəs, rübai, qitə–məhəbbət, həyat eşqi tərənnüm olunur. Satirik şerlərində «xalqın qanını sovuran» çar məmurlarını ifşa etmişdir. – 342.

266. **Abbasqulu Ağa Bakıxanov**, ədəbi təxəllüsü Qüdsi (1794-1847) – Azərbaycan alimi, şair, maarifpərvər. Bakı xanı II Mirzə Məhəmmədin (1784-91) oğlu. 1828-ci ildə Türkmənçayda Rusiya–İran danışıqlarında iştirak etmişdi. Bakıxanovun «Gülüstani-İrəm» (1841) əsəri Azərbaycan tarixşünaslığının inkişafında çox böyük rol oynamışdır. – 342.

267. **Süleyman Sani Axundov**, S ü l e y m a n R z a q u l u b ə y o ğ l u (1875-1939) – Azərbaycan yazıçısı. 1922-ci ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir. Əsərlərində tamahkarlıq, köhnə adət və ənənələr tənqid olunmuşdur. Uşaqlar üçün gözəl hekayə və nağıllar yazmışdır. – 344.

268. **Abdulla Şaiq**, A b d u l l a M u s t a f a o ğ l u T a l ı b z a -d ə (1881-1959) – Azərbaycan yazıçısı, müəllim və ictimai xadim. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi. Yaradıcılığında realizm və romantizm meylləri daha güclüdür. A.Şaiq uşaq ədəbiyyatının görkəmli nümayəndələrindəndir. – 344.

269. **Azərbaycan Dövlət Tibb Universiteti**, N.Nərimanov adına – Respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı universitetinin nəzdində tibb fakültəsi, 1920-ci ildə isə həmin fakültənin əsasında müstəqil tibb institutu yaradılmışdır. Universitetin 8 fakültəsi var. Universitetdə 6700 tələbə təhsil alır. – 361,370-379. [502-503]

270. **Gennadi Xazanov**, G e n n a d i V i k t o r o v i ç (d.1945) – məşhur rus estrada artisti. Rusiya Federasiyasının xalq artisti. 1987-ci ildən «Mono» (Moskva) konsert-estrada kollektivinin artist və rejissoru, 1997-ci ildən isə Moskva Estrada Teatrının bədii rəhbəridir. Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır. –368-369.

271. **Mustafa bəy Topçubaşov**, M u s t a f a b ə y T o p ç u b a ş o v (1895-1981) – cərrah, ictimai və dövlət xadimi. Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı olmuşdur. Tədqiqatı, əsasən, qarında, başda, döş qəfəsində, ətraflarda aparılan cərrahı problemlərə, öddaşı xəstəliyinin müalicəsinə, periferik iflic xəstəliyinə həsr olunmuşdur. Orijinal diaqnostika və cərrahi üsul təklif etmişdir. Dünyada geniş istifadə olunan analdeziya üsulunu ilk dəfə Topçubaşov kəşf etmişdir. – 372.

272. **Əziz Əliyev**, Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897-1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının muavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, AKP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 373.

273. **Zərifə xanım**, Ə l i y e v a Z ə r i f ə Ə z i z q ı z ı (1923-1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, prezident Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqi[503-504]qatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. – 375.

274. **Mustafa Kamal Atatürk**, Q a z i M u s t a f a K a m a l (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923-38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 382,383.

275. **Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 394,449.

276. **Həzrəti Hökumə**, H ə k i m ə – VII əsrdə yaşamışdır. Təxminən 1257-ci ildə Şirvanşah Fərrux Zal tərəfindən Bibiheybətdə onun şərəfinə birinci türbə tikilmişdir. – 394.

277. **Məkkə** – Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə [504-505] doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 402.

278. **Mədinə** – Səudiyyə Ərəbistanının şimal-qərbində şəhər. Qədim zamanlarda adi Yəsrib, erkən orta əsrlərdən Mədinədir. 622-ci ildə islamın banisi Məhəmməd əleyhissəlam Məkkədən Mədinəyə hicrət etmiş və burada müsəlman icmasını yaratmışdı. Məhəmməd əleyhissalamın qəbri Mədinədədir. VII əsrdən müsəlmanların iki müqəddəs şəhərindən biridir. – 402.

279. **Kəbə** - müsəlmanların Məkkədə müqəddəs məbədi. «Qaradaş» Kəbədədir. Kəbə hələ qədimdən Hicazın bütpərəst tayfalarının məbədi olmuşdur. Müsəlmanlar Məkkəni tutduqdan sonra (630) bütlər məhv edildi və Kəbə müsəlmanların ziyarətgahına çevrildi. Kəbəni ziyarət edənlər hacı adlanır. – 402.

280. **Havyer Solana** (d.1942) – siyasi xadim, 1995-99-cu illərdə NATO-nun Baş katibi, 1999-cu ilin iyulundan Avropa İttifaqı Şurasının Xarici Siyasət və Təhlükəsizlik üzrə Baş katibidir. – 409-422.

281. **Murtuz Ələsgərov**, M u r t u z  N ə c ə f  o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın Əməkdar hüquqşünasıdır. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olub. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. 1996-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 425,435.

282. **Ramiz Mehdiyev**, R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. 1978-80-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980-81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-83-cü illərdə Azərbaycan KP MK-da təşkilat partiya işi şöbəsinin müdiri, 1983-88-ci illərdə KP MK-da katib, 1988-94-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı [505-506] olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. – 433,434,435,436.

283. **Azərbaycan Milli Bankı**, Azərbaycan Dövlət Milli Bankı- Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB, həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 438-453.

284. **Azərbaycan Beynəlxalq Bankı (ABB)** – 1992-ci ildə Xarici İqtisadi Bankının əsasında yaradılmışdır. ABB beynəlxalq və daxili bazarda mövcud olan bütün bank xidmətlərini yerinə yetirir. – 450,451. [506]

# Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **Abbasov Abbas** | – 271 |
| **Abdulatipov Ramazan** | – 403,404 |
| **Abdulla Şaiq** | – 344 |
| **Abdullayev Lütfəli** | – 190 |
| **Abdullayev Rauf** | – 156 |
| **Abubakarov Səid Məhəmməd** | – 168 |
| **Adıgözəlov Vasif** | – 140 |
| **Ağayev Əliağa** | – 190 |
| **Ahtisaari Marti** | – 240 |
| **Axundov Mirzə Fətəli** | – 163,188,342 |
| **Axundov Süleyman Sani** | – 344 |
| **Axundova Rəfiqə** | – 192 |
| **Aqanbeqyan** | – 47 |
| **Aleksandr (rus çarı)** | – 108,109 |
| **Aleksenko Boris** | – 35,63,64,65 |
| **Almaszadə Qəmər** | – 136,190 |
| **Anar** | – 137 |
| **Andropov Yuri** | – 110,352 |
| **Andelova Maryana** | – 61 |
| **Aranqoya Andres** | – 180 |
| **Aslanova Sona** | – 191 |
| **Aşurbəyli Sara** | – 141 |
| **Atatürk Mustafa Kamal** | – 382,383 |
| **Ayatskov Dmitri** | – 117-122 |
| **Babayev Abdulla** | – 142 |
| **Babayev Arif** | – 156 |
| **Babayeva Çimnaz** | – 192 |
| **Bağırov Hacıbaba** | – 160 |
| **Bakatin** | – 46 |
| **Bakıxanov Abbasqulu Ağa** | – 342 |
| **Balalina İrina** | – 47 |
| **Balaş Azəroğlu** | – 148 |
| **Balayev Rasim** | – 77-78,160,163,164 |
| **Bataşov Konstantin** | – 192 [507-508] |
| **Behbudov Rəşid** | – 191 |
| **Belyayev Aleksandr** | – 175 |
| **Berezovski Boris** | – 98-99,104,105 |
| **Bədəlbəyli Əfrasiyab** | – 192 |
| **Bədəlbəyli Fərhad** | – 156,163,164 |
| **Bədəlbəyli Şəmsi** | – 190 |
| **Bədirbəyli Leyla** | – 190 |
| **Bəhmənyar Əbülhəsən** | – 342 |
| **Başir Səfəroğlu** | – 190 |
| **Bin Toni** | – 125 |
| **Bleyer Toni** | – 14,129,276 |
| **Bloxin Aleksandr** | – 174 |
| **Bloxin Nikolay** | – 375 |
| **Brejnev Leonid** | – 49,108,109,110 |
| **Bülbül** | – 191 |
| **Cabbarlı Cəfər** | – 146,163,189,191 |
| **Cavadzadə Mirməmməd** | – 148,149 |
| **Çörçill** | – 109 |
| **Çağlar Cavid** | – 380,381 |
| **Çernenko** | – 110 |
| **Çernomırdin Viktor** | – 104 |
| **Dadaşov Muxtar** | – 157 |
| **Dağıstanlı İsmayıl** | – 190 |
| **Dalin Mark** | – 142 |

**Davidoviç Bella** – 293-295
**Davıdova Mərziyə** – 90
**Debeyki Maykl** – 123-128
**Dəmirəl Süleyman** – 48,251-254,279,286,287,290,383
**Dolqanov Vadim** – 36
**Dudayev Cövhər** – 139
**Elçibəy Əbülfəz** – 27,67-70,82-83,84
**Emin Sabitoğlu** – 156
**Əcəmi Əbubəkr** – 133,301
**Əfəndiyev Elçin** – 132,133
**Əfəndiyev İlyas** – 132,133,190
**Əhmədov Nadir** – 437
**Əhmədova Firəngiz** – 191,333-334
**Ələkbərov Ələsgər** – 190
**Ələsgərov Murtuz** – 425,435 [508-509]
**Ələsgərov Süleyman** – 191
**Əliyev Əbülfət** – 191
**Əliyev Əziz** – 373
**Əliyev Habil** – 149
**Əliyev Mirzəağa** – 189
**Əliyeva Zərifə xanım** – 375
**Əlizadə Aqşin** – 149
**Əmirov Fikrət** – 163,191,192
**Ərəblinski Hüseyn** – 189
**Əylisli Əkrəm** – 154
**Fikrət Qoca** – 137
**Fişer** – 195
**Füzuli Məhəmməd** – 163,342
**Gəncəvi Nizami** – 163,301,342
**Gəraybəyli Ağasadıq** – 190
**Ginzburq Rahil** – 190
**Hacıbababəyov Hüseynağa** – 191
**Hacıbəyov Üzeyir** – 138,163,190,191,344
**Hacıyev Cövdət** – 152,164
**Hacıyev Rauf** – 163,191
**Hacıyeva Lalə-Şövkət** – 67-70,82
**Haqverdiyev Əbdürrəhim bəy** – 189
**Haşimoto** – 267
**Havyer Solana** – 409-422
**Həmzətov Rəsul** – 263-264
**Həzzəti Hökumə** – 394
**Hidayətzadə İsmayıl** – 190
**Hüseyn Cavid** – 189
**Hüseynov İsa** – 155
**Hüseynov Nazim** – 136
**Hüseynova Sofya** – 143
**Xanlarova Zeynəb** – 146,191
**Xanməmmədov Hacı** – 160
**Xatəmi Seyid Məhəmməd** – 324
**Xazanov Gennadi** – 368-369
**Xəlilov Ramazan** – 138,163,164
**Xətai Şah İsmayıl** – 342
**Xoyski Fətəli Xan** – 214
**Xruşşov Nikita** – 108,109 [509-510]
**Xuan Karlos** – 240
**İbrahimov Hüseyn** – 133
**İbrahimov Mirzə** – 190
**İbrahimov Nazim** – 35,36,66
**İmanov Müslüm** – 436
**İnsanov Əli** – 125
**İsa Qəmbər** – 67-70,82

**İsgəndərov Adil** – 190
**Kazım Ziya** – 190
**Kazımov Tofiq** – 190
**Kələntərli Münəvvər** – 190
**Kərimov İslam** – 94-95,104,105
**Klinton Bill** – 79
**Klinton Hillari** – 309
**Knyazyuk Alla** – 142
**Koçaryan** – 84
**Kok Bim** – 130
**Kolbin** – 46
**Kolesnikov Oleq** – 44
**Kosıgin** – 108
**Kozlovski Viktor** – 51
**Kranidiotis İioanis** – 196,207
**Kuçma Leonid** –21,22,27-28,34,43,44,64,66,80-81, 82,86,88-90,96,99,100,101,102,103, 104,131,169,178
**Kunayev** – 46
**Kvasnevski Aleksandr** – 240
**Qabil** – 145
**Qarayev Qara** – 163,191,192
**Qaryağdı Cabbar** – 191
**Qasımova Fidan** – 152
**Qazıyeva Xədicə xanım** – 143
**Qədimova Sara** – 150,151,152,164
**Qorbaçov Mixail** –44,45,47,62,104,108,109,110,111, 353
**Qorbatyuk Lyubov** – 49
**Quliyev Cəmil** – 156
**Quliyev Nəriman** – 147
**Quliyev Rəsul** – 234 [510-511]
**Quliyev Tofiq** – 191
**Quliyeva Zəhra** – 159
**Qurbanov Ağadadaş** – 190
**Qurbanova Hökumə** – 190
**Qusarov Konstantin** – 43
**Len Olqa** – 53
**Luçinski Petru** – 96-97,104,187
**Maqomayev Müslüm (baba)** – 190,191
**Maqomayev Müslüm** – 153,163
**Mehdi Hüseyn** – 163
**Mehdiyev Ramiz** – 433,434,435,436
**Məhəmmədov Məhəmmədəli** – 16
**Məhərrəmov Məlik** – 139,140
**Məlikov Arif** – 192,297-298
**Məmməd Araz** – 155
**Məmmədbəyov Lütfi** – 148
**Məmmədəliyev Yusif** – 325-329
**Məmmədəliyeva Sevda** – 328
**Məmmədquluzadə Cəlil** – 146,163,189
**Məmmədov Ələkbər** – 137
**Məmmədov Əli** – 435
**Məmmədov Maqsud** – 192
**Məmmədov Mehdi** – 190
**Məmmədova Şövkət** – 191
**Mərdanov Mustafa** – 190
**Miloşeviç** – 420
**Mirqasımov Mirələsgər** – 146
**Mirqasımov Mirəsədulla** – 146,372
**Mirzəzadə Böyükağa** – 157,158,159
**Möhsün Sənani** – 190
**Muradova Rübabə** – 191

**Mustafayev İmam** – 135
**Mustafayeva Tərlan** – 135
**Nağıyev Əli** – 313
**Namazova Adilə** – 145
**Nazarbayev Nursultan** – 104,276
**Nəbi Xəzri** – 153
**Nərimanov Nəriman** – 189,342
**Nəsimi İmadəddin** – 163,342 [511-512]
**Nikolay II** – 139
**Niyazi** – 163,193
**Obuti** – 276,284
**Osmanlı İsmayıl** – 190
**Ostapenko Marina** – 41
**Paşazadə Hacı Allahşükür** – 135,406
**Pastuxov Boris** – 5-20,25,39
**Peçorskaya Anna** – 125
**Pletnyov Valeri** – 192
**Podqornı** – 108
**Primakov Yevgeni** – 7,296
**Pustovoy Tenko** – 104
**Pyotr I** – 171,172
**Rasizadə Artur** – 271,273,281,291
**Rayxel Yuri** – 55
**Rəhimov Süleyman** – 163
**Rəhmanzadə Maral** – 143,144
**Rəsul Rza** – 163
**Rəsulova Lidiya** – 153
**Rıbkin İvan** – 104
**Romanets Dana** – 57
**Ruzvelt** – 109
**Rzaquliyev Elbəy** – 160
**Rzayeva Həqiqət** – 191
**Sabit Rəhman** – 190
**Sadıqov Əlövsət** – 190
**Salayev Həsənağa** – 190
**Sarabski Hüseynqulu** – 189
**Sergeyev İvan** – 175
**Səməd Vurğun** – 163,190
**Sərdarlı Arzu** – 54
**Səyavuş Aslan** – 141
**Sidqi Ruhulla** – 189
**Stolyarova Natalya** – 60
**Stalin** – 108,109
**Süleyman Rüstəm** – 190
**Şaymiyev Mintemir** – 104
**Şafrannik Yuri** – 14
**Şerman Mayk** – 229,232 [512-513]
**Şevardnadze Eduard** – 91-93,104,109,275,404
**Şevardnadze Nanuli** – 309
**Şəkinskaya Barat** – 190
**Şərifov Abid** – 271,272
**Şərifzadə Abbas Mirzə** – 189
**Şirəliyeva Tamilla** – 193
**Şirvani Seyid Əzim** – 342
**Şıxlı Elçin** – 134,135
**Şıxlı İsmayıl** – 134,135
**Tağıyeva Sona** – 136
**Talıbov Vasif** – 144
**Talıbzadə Kamal** – 160
**Tamara Sinyavskaya** – 153
**Tarşis Daniel** – 195-208

**Təhmasib Rza** – 190
**Tixonov** – 110
**Tofiq Bayram** – 339-340
**Tolstoy Lev** – 134
**Topçubaşov Əlimərdan bəy** – 214
**Topçubaşov Mustafa bəy** – 372
**Tszyan Tszemin** – 240,276
**Turabov Həsən** – 160
**Tusi Nəsirəddin** – 342
**Ulmanis Quntis** – 104
**Ülvi Rəcəb** – 189
**Vaqif Molla Pənah** – 163
**Vəkilova Leyla** – 147,148,192
**Vəzirov Nəcəfbəy** – 188,189
**Voronin Viktor** – 34,63
**Yakovlev Vladimir** – 175
**Yakuşev Sergey** – 190
**Vaşşenko Oksana** – 60
**Yazov** – 46,110
**Yeltsin Boris** – 175
**Zeynalov Cahangir** – 189
**Zeynalov Əli** – 190
**Zeynalova Nəsibə** – 148,164,190
**Zərdabi Həsənbəy** – 188,344 [513]

## Coğrafi adlar göstəricisi

**Abxaziya** – 46,91,104,401
**Afina** – 256
**Ağdam** – 193
**Ağdaş** – 149
**Aktau** – 19,42
**Almaniya** – 245,247
**Almatı** – 256
**Amerika Birləşmiş Ştatları** –14,24,31,32,36,41,42,79,85,109, 123-128,182,184,267,270,274,309, 314,411,415
**Aralıq dənizi** – 41,86
**Ariadna** – 109
**Asiya** – 7,86,90,178,251,257,259,261,262, 266, 268,274,290,295,411
**Astana** – 22
**Astara** – 431
**Aşqabad** – 15
**Avropa** –31,37,38,41,43,86,89,90,178,214, 245,248,251,257,259,261,262,266, 267,268,274,290,295,411
**Bakı** –15,18,19,21,23,24,26,37,41,42, 44, 46,49,50,86,90,92,94,97,99,105, 112,117,119,124,125,126,128,149, 168,169,170,175,183,186,187,188, 234,253,262,265,273,278,279,286, 287,289,294,319,320,325,328,329, 332,351,378,390,391,405,409,411, 413,414,416,420,431,432,445,451, 452,453
**Batumi** – 42
**Belorusiya** – 30
**Bibiheybət** – 394
**Biləsuvar** – 431
**Bolqarıstan** – 37 [514-515]
**Böyük Britaniya, İngiltərə** –6,14,31,32,109,129,181-186,276, 386
**Brüssel** – 258,409,413
**Cavanşir (qəza)** – 342
**Ceyhan** – 41,86,385,386
**Cəbrayıl** – 342
**Cəlilabad** – 431
**Cənub-Şərqi Asiya** – 358
**Çeçenistan** – 46,52,401,402
**İçkeriya Cümhuriyyəti** – 406
**Çin Xalq Respublikası** – 37,239-241,249,257,274,276,295, 420
**Dağıstan Respublikası** – 168,173,402,403
**Dağlıq Qarabağ** – 23,24,26,33,45,46,47,51,52,53,92, 182,283,315,399,400,401,421
**Danimarka** – 16
**Dəvəçi** – 431
**Dnestryani** – 46
**Dunay çayı** – 37
**Əfqanıstan** – 16,324
**Əli Bayramlı** – 431
**Ənzəli** – 19
**Finlandiya** – 239-241
**Foros** – 22,104,110
**Fransa** – 25,182,184,247,248,314,411,415
**Füzuli** – 193,271
**Gəncə** – 193,342,445
**Gülablı (kənd)** – 151,152
**Gürcüstan** –37,38,41,53,86,91-93,104,105,109, 256,258,270,275,295,309,310,386, 401,404,405
**Həmədan** – 342
**Hyüston** – 123,125,128

**Həştərxan** – 18,19
**Xaçmaz** – 431
**Xəzər dənizi** –5-20,37,38,39,41,42,54,89,92,96, 101,102,103,105,118,125,232,236, 238,248,257,259,287,448
**Xızı** – 431 [515-516]
**İliçevsk** – 37
**İmişli** – 431,433,434
**İraq** – 214
**İran** –9,18,19,20,31,38,40,214,249,295, 324
**İrəvan** – 188,193
**İspaniya** – 239-241,295
**İstanbul** – 290
**Kalmıkiya** – 173
**Keniya** – 79
**Kiyev** – 21,35,216,227
**Kolumbiya Respublikası** – 180
**Kosovo** – 420
**Krasnovodsk (Türkmənbaşı)** – 19,37
**Krım** – 41,46,100,106,107,110
**Qafqaz** –24,33,51,53,86,91,101,102,178, 251,257,258,259,260,261,274, 295,397,398,399,402,404,405,416
**Qahirə** – 332
**Qax** – 193
**Qaraboğaz-Qol** – 17
**Qara dəniz** –36,37,53,86,89,101,108,109,257, 259,290,386
**Qazax** – 193
**Qazaxıstan** –9,15,18,22,37,38,40,41,42,46,92, 104,249,256,276,295
**Qırğızıstan** – 256,295
**Quba** – 188,431
**Qusar** – 193,431
**Latviya** – 104,220
**Leninqrad** – 211,216,227
**Lənkəran** – 193,431
**Litva** – 220
**Livadiya** – 109
**London** – 31,32,182,386
**Lüksemburq** – 426
**Madrid** – 413
**Makedoniya** – 419
**Masallı** – 431[516-517]
**Mədinə** – 402
**Məkkə** – 402
**Mərkəzi Asiya** –37,38,43,102,124,125,258,260, 274,296
**Mingəçevir** – 193
**Misir** – 214
**Moldova** – 53,54,96-97,104,105,187
**Monqolustan** – 256,274,295
**Moskva** – 7,8,9,10,18,26,27,44,49,50,58,59, 108,110,117,153,162,170,171,172, 173,211,214,216,217,221,222,227, 280,283,294,373,374
**Naxçıvan** –27,50,62,134,164,165,188,342, 350
**Niderland Krallığı** – 130
**Norveç** – 248
**Nouşəhr** – 19
**Novorossiysk** – 37,41,386
**Nuxa (qəza)** – 343
**Nyu-York** – 413
**Odessa** – 37
**Oma (şəhər)** – 129

| | |
|---|---|
| **Orta Asiya** | – 403,419 |
| **Osetiya** | – 46 |
| **Özbəkistan** | – 37,94-95,221,256,258,295 |
| **Paris** | – 47 |
| **Polşa** | – 239-241 |
| **Poti** | – 37 |
| **Rumıniya** | – 37 |
| **Rusiya Federasiyası** | –5-20,25,30,31,38,39,40,41,42,48, 50,51,52,53,63,104,106,109,117-122,161,162,168,170,175,182, 184,214,221,227,245,246,249,250, 295, 296,314,342,358,359,368,386, 403, 405,411,415,416,421,443,444 |
| **Saatlı** | – 431 |
| **Sabirabad** | – 431 |
| **Sabunçu** | – 364 |
| **Salyan** | – 193,431 [516-517] |
| **Sankt-Peterburq** | – 173,214 |
| **Saratov vilayəti** | – 117-122,173 |
| **Sərəxs** | – 258 |
| **Səudiyyə Ərəbistanı** | – 31 |
| **Siyəzən** | – 431 |
| **Stavanger** | – 248 |
| **Stavrorol** | – 44 |
| **Sumqayıt** | – 20,445 |
| **Supsa** | – 37,38,41,386 |
| **Suraxanı** | – 339-340 |
| **Şamaxı** | – 342 |
| **Şəki** | – 188,193 |
| **Şərqi Asiya** | – 443 |
| **Şərqi Avropa** | – 266 |
| **Şimal dənizi** | – 248 |
| **Şimali Qafqaz** | – 173,403 |
| **Şuşa** | – 188,193,342 |
| **Tacikistan** | – 256,295 |
| **Tanzaniya** | – 79 |
| **Tatarıstan** | – 104,173 |
| **Tbilisi, Tiflis** | – 188,256 |
| **Tehran** | – 9,15 |
| **Texas** | – 123,128 |
| **Təbriz** | – 342 |
| **Türkiyə** | –31,37,41,42,48,86,102,128,214, 251-254,279,286,290,295,380-388 |
| **Türkmənistan** | –18,19,38,39,41,42,92,105,249, 251-254,256,258 |
| **Ukrayna** | –21-66,80-81,82-99,100-112,131, 169,172,176-179,220,244,256,309, 421,444 |
| **Uzaq Şərq** | – 443 |
| **Venesiya** | – 256 |
| **Volqa çayı** | – 19,118 |
| **Vyana** | – 256 |
| **Yalta** | – 22,82-99,104,107,110 |
| **Yaponiya** | – 37,267,276,284,285 |
| **Yasnaya-Polyana** | – 134 |
| **Yunanıstan** | – 203 [518] |

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Fuad Fərəcov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 33. Uçot vərəqi 33,5 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2/3.
“Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.